Ramiz Dəniz

Cənnətə gedənlər cəhənnəmə düşürlər

IV CİLD

Bakı -2014

Rəyçi: - Xalq yazıçısı Çingiz Abdullayev
Redaktorlar: - filoloq Balaseyid Dəmircan
- filoloq Nəhayət Nakif qızı
Korrektor: - Luiza Məmmədova
Kompüterdə yığan: - Sinay
Kompüter dizaynı: - Sevinc

Ramiz Dəniz. "Cənnətə gedənlər cəhənnəmə düşürlər". Bakı, "MM-S" müəssisəsi, 2014, 561 səh.
ISBN – 978-9952-8264-1-8

Bu əsərdə Araukaniyada gedən müharibənin son fazası əks olunub. Perudan gələn güclü ekspedisiya aborigenlərə qarşı bir-birinin ardınca dinamik zərbələr endirir. Ölkənin demək olar ki, 90 faizi ispanlar tərəfindən işğal ediləndən sonra Araukaniyada təsərrüfat işləri görmək və inzibati orqanlar yaratmaqdan ötrü Perudan yeni-yeni qüvvələr gətirilməyə başladı. Cürbəcür təbəqəni əhatə edən kolondatorlar Araukaniyanı da qitənin bir çox yerləri kimi cənnət məkanı hesab edirlər. Lakin burdakı əhalinin döyüşkənliyini, yenilməzliyini və ölkənin sərt iqlimini görən ispanlar cənnətə yox, cəhənnəmə düşdüklərini dərk edirlər. Qraf Ferdinand Morelosun səriştəsizliyi uçbatından yüzlərlə əsgərin qanı bahasına əldə edilən qələbə ispanların əlindən çıxır. Gözlənilməz anda üsyana qalxan araukanlar böyük qurbanlar hesabına öz ölkələrini işğalçılardan azad elə bilirlər.

D 4702060103
M 087-2014

© R.Dəniz 2014

Əsərin nəşr olunmasında mənə maddi və mənəvi yardım göstərdiyi üçün SOCAR-ın rəhbərliyinə təşəkkür və minnətdarlığımı bildirirəm

Kitab SOCAR-ın ayırdığı qrant hesabına "Partnyor Elmin İnkişafina Dəstək" İctimai Birliyinin sifarişi əsasında çap olunmuşdur

Ön söz

Azərbaycan ədəbiyyatı yaranmağa başladığı ilk dövrlərdən özünün korifey sənətçiləri ilə həmişə zəngin olmuşdur. Bu sənət adamlarının hər birinin ədəbiyyat tarixində özünəməxsus izi olmuş, öz dəsti-xətti ilə seçilmişdir. Bu yaxınlarda 1300 illik yubileyi qeyd olunan **"Kitabi-Dədə Qorqud"** dastanından, dünya ədəbiyyat xəzinəsinə ölməz **"Xəmsə"**sini bəxş edən Nizamidən, həmçinin Füzuli, Vaqif və bu kimi sənətçilərin həmişəyaşar əsərlərindən tutmuş bugünkü müasir soydaşlarımızın da əsərləri, öz ideya-bədii xüsusiyyətləri ilə seçilən incilər olmuşlar. Bununla yanaşı, Azərbaycan ədəbiyyatında çoxlu sayda novator sənərkarların da adını çəkmək olar. Hələ XX əsrin əvvəllərində Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir kimi novatorlar satirik yazıları ilə şöhrətlənmiş, Mirzə Fətəli Axundov, Nəcəf bəy Vəzirov dram janrını Azərbaycan ədəbiyyatına gətirmiş, Yusif Vəzir Çəmənzəminli, Məmməd Səid Ordubadi roman janrında ilk qələm təcrübələrini yaratmışlar. Onların qoyduğu bu ənənə bütün XX əsr boyu davam etmiş, hətta hal-hazırda da XXI əsrin – müasirləşmə, kompüterləşmə əsrinin həm ictimai, həm mədəni, həm məişət, həm də ədəbi həyatımıza daxil olduğu bir vaxtda da öz dəyərini itirməmişlər.

İndi haqqında söhbət açacağımız Ramiz Əli oğlu Qasımov (Dəniz) da XX əsrin sonları XXI əsrin əvvəllərində Azər-

baycan ədəbiyyatında öz ilk addımlarını atan nasirlərimizdəndir. Ədəbiyyatımızda təməl daşı Məmməd Səid Ordubadi və Yusif Vəzir Çəmənzəminli tərəindən qoyulmuş tarixi roman janrı sonralar Fərman Kərimzadə, İsa Hüseynov (Muğanna), Əzizə Cəfərzadə, Əlisa Nicat, Mirzə İbrahimov, Məmməd İsmayılov kimi roman ustalarının qələmində daha da inkişaf etmişdir. Ramiz Qasımovun müraciət etdiyi janr tarixi roman janrı olsa da, nisbətən fərqli və nisbətən çətin mövzu ilə bağlıdır. Belə ki, digər müəlliflərdən fərqli olaraq, Ramiz Qasımov həm tarixi roman janrına macəra elementlərini də əlavə etmiş, həm də Azərbaycan tarixinin özəlliklərinə, keçmişinə deyil, bizə daha uzaq, bizdən daha fərqli olan xalqların – aborigenlərin həyatına, məişətinə, tarixinə müraciət etmişdir.

Bu mövzuda roman yazan adamın özünün də ağır çətinliklərdən keçməsi oxucunun onun yazdıqlarına inamı daha da artırır. Unutmaq olmaz ki, Ramiz Qasımov özü Qarabağ döyüşlərində yaxından iştirak etmişdir. Odlu müharibə səhnələri onun gözünün qarşısında adi bir savaş səhnəsi kimi daim yaşayır. Onda onun belə bir mövzuya müraciət etməsinə təbii baxmaq lazımdır. Yəqin ki, bütün bunlar da onun belə səhnələri daha canlı təsvir etməsinə yaxından köməkçi olmuşdur.

Üç cilddən ibarət olan bu romanın **"Konkistadorların Mərkəzi Çili sahillərində faciəli ölümü"** adlı birinci cildində oxucular İspan tarixinin qəhrəmanlıq səhifələri ilə yaxından

tanış olmuş, Mərkəzi Çili sahillərinə gedən ekspedisya qrupunun üzvlərinin aborigenlərlə müharibə zamanı məğlubiyyətə uğramasından söhbət açılır. Çiliyə yollanan ekspedisya qrupunun üzvlərindən bir neçəsi döyüşlərdə həlak olur, yerdə qalanların bir qismi isə araukan hindularına əsir düşürlər.

"Müqəddəs missiya" adlanan ikinci kitabda müəllifin mübarizlik ruhu sönmməmiş, əksinə daha da alovlanmışdır. O, birinci kitabda əsir düşən ekspedisya iştirakçılarını xilas etmək məqsədi ilə ikinci kitabda təsvir etdiyi 16 nəfər bacarıqlı, təcrübəli peşəkar döyüşçüdən ibarət olan kəşfiyyatçı dəstəsinin apardığı əməliyyatları elə canlı təsvir etmişdir ki, həmin səhnələr oxucunu riqqətə gətirməyə bilmir. Belə ki, növbət ekspedisyanın rəhbərliyinin qərara aldığı kimi, bu kəşfiyyat dəstəsi ilk növbədə, əsir düşmüş silahdaşlarını əsirlikdən qurtarmaq üçün düşmənə qarşı elə sarsıdıcı zərbələr endirirlər ki, düşmən onların qarşısında davam gətirə bilmir və nəticədə bu missiyanın öhdəsindən müvəffəqiyyətlə gəlinir. Və beləliklə də, Araukaniyada gedən müharibənin, savaşın ikinci mərhələsi başlanır.

"Cənnətə gedənlər cəhənnəmə düşürlər" adlı üçüncü kitabın əsas mövzusu Araukaniyada gedən müharibənin son dövrünü əks etdirir. Perudan gələn ekspedisiya qrupu aborigenlərə qarşı ardıcıl olaraq güclü zərbələr endirir. Ölkənin çox hissəsi ispanlar tərəfindən işğal ediləndən sonra Araukaniyada yenidən sakit, firavan həyat qurmaq, dövlət orqanları yaratmaqdan ötrü Perudan əlavə qüvvələr gətirdilməyə başla-

yır. Müxtəlif təbəqələrdən olan kolondatorlar Araukaniyanı da cənnət məkanı hesab edirlər. Lakin fikirləşdiklərinin əksi ilə qarşılaşan ispanlar buradakı əhalinin döyüşkənlik, yenilməz ruhunun qarşısında özlərinin yanıldıqlarını başa düşürlər. Onlar anlayırlar ki, cənnətə yox, cəhənnəmə düşüblər. Üçüncü kitabın adı da məhz buradan götürülmüş, bu məramı açıqlayır. Və nəhayət, sonda qraf Ferdinand Morelosun təcrübəsizliyi, səhvi ucbatından yüzlərlə döyüşçünün qanı bahasına əldə edilən qələbə ispanların məğlubiyyətinə gətirib çıxarır və üsyana qalxan araukanlar böyük qurbanlar hesabına öz ölkələrini ispanlardan təmizləyirlər. Və beləliklə də, bu qələbə ilə trilogiyaya son qoyulur.

İspan tarixinin müəyyən bir hissəsini əhatə edən "Konkista", o cümlədən, indiki Çilinin tarixinin böyük hissəsini təşkil edən Araukan müharibəsinin bir çox detalları, konkistadorlarla aborigenlərin həyatı və mübarizəsi, həmin dövrdəki siyasi və tarixi ab-hava, Qərbi Avropanın hegemon dövlətlərinin tarixi vəziyyəti, XVI əsrin sonuna qədər ispanların təşkil etdikləri ən yaddaqalan, eyni zamanda çoxları tərəfindən eşidilməyən mühüm coğrafi əhəmiyyət kəsb edən coğrafi səyahətlərdən, İspaniya ilə Çili ilə yanaşı Peru və Ekvadorun maraqlı olan tarixi ilə məhz bu trilogiyanın vasitəsilə öyrənmək olur.

Müəllifin yaradıcılıq bacarığı ondan ibarətdir ki, o, Mərkəzi Çiliyə daxil olan bir çox coğrafi məkanları, flora və faunasını, oranın iqlimini, relyefini, aborigenlərin yaşayış tər-

zini elə göstərir ki, sanki həmin ərazidə uzun müddət yaşayıb fəaliyyət göstəribdir. Ümumiyyətlə, Ramiz Qasımov çoxsaylı oxucu üçün maraqlı görünən və heyranedici sayılan bir çox məlumatların əldə edilməsinə böyük şərait yaradır. Bioqrafik, tarixi, coğrafi, etnoqrafik, arxeoloji, yelkən dənizçiliyi ilə bağlı olan məlumatların bolluğu və həmin dövrün gəmiləri ilə coşmuş okeanla, şıltaq təbiətlə mübarizə aparmaq üsulları müəllifin çoxsahəli bilgiyə malik olmasından xəbər verir.

Bu vaxta qədər yalnız tərcümə ədəbiyyatında rast gəldiyimiz bu mövzuya toxunub, Azərbaycan ədəbiyyatında yeni iz açan Ramiz Qasımova bu yolda daha uğurlu addımlar atıb, daha maraqlı əsərlər yaratmağı arzulayıram və bu yolda ona uğurlar diləyirəm. İnanıram ki, oxucular da bu əsərlərə öz həqiqi qiymətini verəcək və dəyərləndirəcəklər.

Xalq yazıçısı Çingiz Abdullayev

I hissə:

Konkistadorlar qələbə qazansalar da Araukaniyanı əldə saxlaya bilmirlər

I fəsil. İspan ekspedisiyası Araukaniyada

Sentyabrın 22-də səhərin açılması ilə Anqud körfəzinin şimalında sahildən təxminən 400 metr aralı möhkəm taqqıltı səsləri eşidilməyə başladı. Sahildə üç yüzə yaxın adam vardı və onların üçdə-bir hissəsi tikinti işlərilə məşğul idilər. Bunlar Konsepsiondan gələn konkistadorlar idi və onlar araukanlara qarşı hərbi əməliyyatlara başlamamışdan əvvəl, polkovnik Alonso Odovaldonun göstərişilə fortun tikintisinə başlamışdılar. Soyuqlar düşənə qədər ispanlar sahil kənarında möhkəm fortu tikib başa çatdırmaq istəyirdilər.

Doxsan bir yaşlı Rodriges Kartahenanın verdiyi əsas məsləhətlərdən biri o idi ki, Araukaniyada zalım düşmən üzərində qələbə qazanmaq üçün ilk növbədə, möhkəm fort tikmək lazımdır. Qələbəni əldə etmək bir kənara qalsın, bu ölkədə əldə ediləcək üstünlüyü qoruyub saxlamaqdan ötrü, ölkənin içərisində də bir neçə fort tikmək vacib sayılırdı. Polkovnik Alonso uzaqgörən adam idi və o, Araukaniyaya ayaq basan kimi qoca səyyahın məsləhətlərinə diqqətlə qulaq asaraq, özü üçün lazımi nəticələr çıxarırdı. Çünki o, yalnız düşməni darmadağın etmək üçün Araukaniyaya ayaq basmışdı.

Sahilin kənarında, elə tikilən fortun ağzında qısa müddətə iri bir düşərgə salınmışdır. Kapitan Xuan Odovaldo ilə aparılan danışıqlara əsasən ekspedisiya Anqud körfəzinə sentyabrın 22-də çıxarılmalı idi. Lakin konkistadorlar bura bir gün əvvəl gəlmişdilər. Elə düşərgə də dünən, axşamçağı burada qurulmuşdu.

Qrafikə əsasən, ekspedisiya vaxtından əvvəl Araukaniyaya gəlmişdi. Bir neçə gün bundan əvvəl keçirilən hərbi əməliyyat nəticəsində araukanların əsirliyində olan ispanlar azad edilmişdi. Kapitan Xuanın tapşırığı ilə bələdçi Xuan Flores hindu kəndindəki istehkamdan çıxaraq azad edilən silahdaşlarını gizlin yol ilə Anqud körfəzinin şimal sahilinə çatdırmalı idi. Lakin o, yolda müəyyən maneələri keçə bilmədiyinə görə istiqaməti elə gecə ikən şimala dəyişməli olmuşdur. Araukanların əsas qüvvəsi kapitan Xuanın dəstəsinin məhv edilməsi üçün səfərbər edildiyindən şimala yol açıq idi və Xuan Flores çətin də olsa, azad edilən silahdaşlarını Valdiviyaya, oradan isə ekspedisiya gəmilərinin lövbər saldığı Konsepsion şəhərinə çatdırmışdı. Orada onlar polkovnik Alonso ilə görüşür və kəşfiyatçıların Araukaniyada necə ağır vəziyyətə düşdüklərini ona ərz edirlər. Silahdaşlarını ölümün pənçəsindən xilas etmək üçün ekspedisiya vaxt itirmədən üç gəmidə Anqud körfəzinə yollanmışdı.

Əsirlikdən azad edilən Manuel Markos Konsepsionda dərhal "Destino"nun komandanlığını öz üzərinə götürmüşdü. Neçə olsa da, kapitan Markos elə "Destino" gəmisinin sahibi idi və ekspedisiya Anqud körfəzinə yola düşməmişdən əvvəl, həmin gəmi üzərindəki komandanlıq elə onun özünə qismət olmuşdu.

Beləliklə, 364 nəfərdən ibarət olan ekspedisiya, sentyabrın 21-də üç gəmidə - "Vanquardia", "Eldorado" və "Destino" - Anqud körfəzinin şimal sahilinə yan alır. Elə axşam ikən əsgər və matroslar gəmilərdə olan əsas yükləri sahilə boşaltdılar. Atlar və başqa ev heyvanları xüsusi nəzarət altına götürüldü. Nəzərdə tutulduğu kimi səhər tezdən kapitan Alonso Murilyo 52 nəfərdən ibarət olan süvari dəstəsi ilə hinduların istehkam qurduqları kəndə yollanmalı idi. İspanların fikrincə, kapitan Xuan Odovaldonun başçılıq etdiyi kəşfiyyatçı dəstə hələ də həmin kənddə qalıb araukanlara qarşı müqavimət göstərirdi. Vaxt itirmədən süvari dəstə mühasirəyə düşmüş konkistadorların imdadına çatmalı idi.

Valdiviyada çıxarılan qərara əsasən, Anqud körfəzinə çıxarılan ekspedisiya Araukan ölkəsinə iki istiqamətdən hücum edəcək. Birinci dəstə Anqud körfəzinin şimal sahilindən Osorno vulkanının qərb hissəsinə keçərək şimal-şərq istiqamətində, ikinci dəstə isə Osorno vulkanının cənub

hissəsindən şərq istiqamətində hərəkət etməli idi. Birinci dəstəyə kapitan Xuan Odovaldo, ikinci dəstəyə isə polkovnik Alonso başçılıq etməliydi. Lakin indi kapitan Xuan burada yox idi və onu başqa adam əvəz edəcəkdi.

Ümumiyyətlə, Araukaniyada total döyüş əməliyyatlarına başlamamışdan əvvəl polkovnik Alonso sübh tezdən yeni müşavirə çağırdı. Həmin müşavirəyə zabitlərdən əlavə qoca səyyah Rodriges Kartahena və bu əraziyə yaxşı bələd olan Xuan Flores də dəvət edildi. Müşavirədə yeni hücum planı hazırlanmalı idi. Ona görə ki, əgər araukanlar, hazırda kapitan Xuanın dəstəsinə qarşı döyüşürdüsə, deməli onlara qarşı gözlənilməz zərbə endirmək mümkün olmayacaqdı. Bütün aborigenlər döyüş hazırlığına gətirilmişdi.

Dan yeri yenicə sökülürdü ki, müşavirə iştirakçıları "Vanquardia" gəmisinin kapitan kayutuna toplaşdılar. Gözlənildiyi kimi ilk sözü polkovnik Alonso özü aldı. Hörmət və ehtiram əlaməti olaraq o, ayağa qalxaraq təmkinlə dedi:

- Möhtərəm sinyorlar, hazırda Araukaniyada nə baş verdiyindən hamınız xəbərdarsınız. Bizim silahdaşlarımız azğın düşmənin əhatəsinə düşərək, qeyri-bərabər döyüşlər aparır. Biz vaxt itirmədən onların köməyinə getməliyik. Hər saatın öz hökmü var. Əvvəlcədən nəzərdə tutulduğu kimi kəşfiyyat dəstəsi bu gün bizimlə burada rastlaşmalı idi. Onlar bura gəlməyiblərsə, deməli həmin kənddə qalıb

müdafiə olunurlar. Təsəvvür edirəm, müdafiə olunmaq onlar üçün nə qədər ağırdır? Axı, düşmən qüvvəsi onlardan ən azı yüz dəfə çoxdur.

Allaha dua etməliyik ki, biz ora gedənə qədər heç olmasa, onların yarısı sağ qalsın. Araukanlar cidd-cəhdlə çalışacaqlar ki, onları birdəfəlik məhv etsin. Çünki məndə olan məlumata görə kəşfiyyatçılar silahdaşlarımızı əsirlikdən azad edən zaman, düşmənin xeyli qüvvəsini məhv ediblər. Araukanlar da həmin dəstənin məhv edilməsi üçün böyük səy göstərəcəklər.

- Don Alonso, bildiyimizə görə onlar istehkama daxil olan zaman ixtiyarlarında üç-dörd günlük ərzaq ehtiyatı olubdur. - deyə qraf Filipp Morelos bu faktı xüsusilə vurğuladı. - Mən inana bilmərəm ki, onlar iki həftəyə qədər ac qarına inadkarlıqla müqavimət göstərsinlər. Belə olan halda kəşfiyyatçılar aclığa tab gətirməyib düşmənə təslim ola bilərlər. Əgər bu belədirsə, onda bizim silahdaşların sağ qalmasına böyük ümid yaranır.

Qraf Filipp bu sözlərlə polkovnikə təsəlli vermək istədi, lakin onun sözləri ciddi qəbul edilə bilməzdi. Çünki bir sərkərdə kimi qraf Filipp müharibənin birinci mərhələsində böyük hərbi uğursuzluğa düçar olmuş və bununla da düşmənə növbəti dəfə konkistadorlar üzərində qələbə çalmağa imkan yaratmışdı. Cinayətə bərabər olan bu səhvi polkov-

nik nə Morelos qardaşlarına, nə də ki, öz oğullarına bağışlaya bilirdi. İndi isə qraf Filipp peşəkər sərkərdəyə ürək-dirək vermək istəyirdi. Polkovnik üzünü ona tutmadan qürurla dedi:

- Mən qardaşımı yaxşı tanıyıram. O, ölər, ancaq lüt aborigenə təslim olmaz. Deməli, bizim silahdaşlarımızın düşmənə qarşı apardıqları müqavimət hələ də davam edir.

- Kəşfiyyat dəstəsinə elə döyüşçülər qəbul edilib ki, onlar özlərindəki qürura görə heç vaxt düşmənə təslim olmazlar. - leytenant Ernando Ramires fəxrlə dilləndi. – Avropanın döyüş meydanlarında xüsusilə fərqlənən döyüşçülər, əsl ispan gücünü və yenilməzliyini qəddar düşmənə nümayiş etdirəcək.

Bu sözlər nəinki qraf Filippə, hətta araukanlara təslim olan hər bir konkistadora aid idi. Aborigenə əsir düşmək, Avropada biabırçılıq kimi qiymətləndirilirdi. Həmin adamlar ömürlük özlərini silahdaşları qarşısında biabır etmişdilər. Qraf Filipp təkzib verməsə də, polkovnikin kiçik oğlu Karlos o dəqiqə bu təhqiredici irada reaksiya verdi:

- Biz hamımız muhasirədə idik. Müqavimət göstərməyə imkan verilmədi. Bizim əsgərlər arasında çaşqınlıq yaranmasaydı, araukanları sərçə kimi biçərdik.

Karlosun təkzib verməsindən ürəklənən qraf Xuan cəld ayağa qalxaraq həvəslə dedi:

- Don Alonso, həqiqəti üzə çıxarmaq üçün sizə bildirməliyəm ki, həmin döyüşdə bizim sıralarımızda çoxlu matroslar vardı. Döyüş zamanı onların hamısı məhv ola bilərdi. Ağır itkilərə məruz qalmamaq üçün biz qeyri-bərabər döyüşdə düşmənə təslim olduq və bununla da qüvvəmizin yarıdan çoxunu salamat saxladıq.

Qoca səyyah polkovnikin sağ tərəfində əyləşmişdi. O, qrafa nəzər salmadan diqqətlə qulaq asır və hər cümləni eşidəndə narazı halda başını tərpədirdi. Söz yox ki, o, qraf Xuan ilə heç cürə razılaşa bilməzdi. Çünki birinci ekspedisiyanı bilavasitə məğlubiyyətə uğradanlardan biri, məhz qraf Xuan idi. Hələ bir həyasızlıq edərək qoca səyyahın yanında təkzib verirdi. Necə olsa da, qoca səyyah həmin uğursuzluğun canlı şahidi idi. Lakin polkovnik Alonso olan yerdə o, hələlik susmağı üstün tuturdu. Ekspedisiya başçısı sağ əlini yuxarı qaldıraraq qrafı susmağa vadar etdi və başını dik tutaraq hökmlə dedi:

- "Destino"nun matroslarını bəhanə gətirərək, heç kim özünə bəraət qazandırmamalıdır. Biz bura krallığımızın qatı düşmənləri araukanlara qarşı müharibə etməyə gəlmişik. Hər birimiz kimliyindən asılı olmayaraq bu ağır işdə fayda verməlidir. Matrosların hər biri əlində silah düşmənə qarşı döyüşməlidir. Burada gedən müharibədə ekspedisiyanın məğlub olmasında, günahkar adamlar döyüş əməliyyatları-

na başçılıq edən zabitlər olub. 56 nəfər konkistadorun birdən-birə aborigenlərə təslim olması bizim hamımız üçün biabırçılıq sayılır. Mən istərdim ki, birinci ekspedisiyanın məğlubiyyətə uğramasında əli olan adamların heç birisi, bugünkü müşavirədə öz fikrini söyləməsin.

- Axı, nəyə görə? - deyə Kamaço dərhal öz etirazını bildirdi. - Biz xırda bir dəstə ilə araukanlara layiqincə müqavimət göstərmişik. Bir neçə adamın ucbatından nəyə görə biz cavabdehlik daşımalıyıq? Bəzi adamlar olmasaydı, biz düşmənə sarsıdıcı zərbələr endirə bilərdik.

- Kamaço, sən zabitsən və həmin adamların adını açıq-aydın deməlisən. - deyə polkovnik oğluna qarşı üz bozartdı. - Gunahı olan adamların hamısı cəzalandırılmalıdır.

Bundan sonra Kamaço qoca səyyaha tərs nəzər saldı və üzünü atasına tutaraq ikrah hissi ilə dedi:

- Bu ekspedisiyanın müşaviri Rodriges Kartahena, onun nəvəsi Migel, cəngavərlərdən Sebastyan və Osvaldo. Birinci ekspedisiyanın məğlubiyyətə yuvarlanmasının əsl səbəbkarı onlardır. Düşmən üzərinə hücum etməkdə onlar bizə böyük maneçiliklər törədirdilər. Araukanlar da bu fürsətdən çox səmərəli istifadə etdilər.

- Migelin inadkarlığından bəzi adamlar döyüşdən boyun qaçırtdı. - deyə Karlos hüznlə dilləndi. - Bəzi məqamlarda Migel qorxaqlıq göstərərək döyüş meydanını tərk edirdi.

Hər iki qardaş Migelə qarşı elə böhtanlar yağdırırdı ki, sanki qorxmaz konkistadorun tərəfdarları və şəxsən həmin müharibədə onunla iştirak edən adamlar yox idi. Lakin Migel ilə yanaşı onun babasının da adını çəkdilər. Bu məsələyə dair bir çox adamlar təkzib verə bilərdi. Ançaq nizam-intizamın pozulmasını istəməyən polkovnik özü ayağa qalxaraq hiddətlə dedi:

- Adı çəkilən adamların kimliyi və döyüşdə necə fədakarlıq göstərdikləri mənə bəllidir. Onlar olmasaydı, "Destino"nun bütün heyəti məğlubiyyətə düçar olardı. Bu həqiqəti heç kim dana bilməz. Onlar on nəfərlik bir qüvvə ilə, düşmənin iyirmi-otuz dəfə çox olan qüvvəsinə qarşı çıxıb, xüsusi igidlik göstərmiş və gəmini əldə saxlaya bilmişdilər.

Qardaşım kapitan Xuan Anqud körfəzinə daxil olanda körfəzdə və "Destino"nun göyərtəsində yüzlərlə araukanlının meyidi vardı. Köməyə çatan konkistadorlar and içirlər ki, həmin vaxt körfəzin suyunun rəngi qırmızıya çalırdı. Məndə olan məlumata görə heç kim müharibənin birinçi mərhələsində Migel qədər düşmən məhv edə bilməyib. Sizin hər biriniz əsirlikdə olanda, Migel və adları çəkilən cəngavərlər Araukaniyaya yollanan kəşfiyyat dəstəsinə könüllu yazıldılar. Qorxaq və xəyanətkar adamlar heç vaxt həmin dəstənin üzvü ola bilməzdi. İndi həmin dəstənin

hesabına siz azad olmusunuz, onlar isə düşmənin əhatəsində qalaraq araukanlara qarşı qeyri-bərabər döyuş aparırlar. Hələ dəqiq bilinmir onlar sağdır, yoxsa öldürülüblər? Mən heç kimə imkan və ixtiyar vermərəm ki, elə bir cəsur, mərd və qorxmaz döyüşçülərə qarşı ittiham sürsün. O ki, qaldı Rodriges Kartahenanı bu işdə günahkar saymaq, bu böhtandan başqa bir şey deyil.

Ekspedisiyada özbaşınalıq hökm sürməsəydi, konkistadorların müəyyən bir hissəsi faciə ilə üzləşməzdi. Sinyor Rodrigesi ona görə ekspedisiyanın müşaviri təyin etdik ki, hər bir məsələdə onun məsləhətlərinə qulaq asasınız. O, Araykaniyada olmasaydı, elə qardaşımın da dəstəsi faciə ilə üzləşəcəkdi. Məhz sinyor Rodriges onları qüvvə toplamaq üçün yolun yarısından qaytarmış və Peruya göndərmişdi. Adları çəkilən adamlar ekspedisiyanı tam məhv olmaqdan xilas etmişdi. Onların adı şərəflə çəkilməlidir.

Fürsətdən istifadə edən bələdçi-konkistador öz fikrini söyləməyə imkan tapdı. O, iftixarla dedi:

- Mən Araukaniyada aborigenlərə qarşı bir çox konkistadorlarla çiyin-çiyinə döyüşmüşəm. Lakin Migel kimi bir döyüşçü ilə heç vaxt rastlaşmamışam. Onun çox qəribə xasiyyəti var. Döyüş başlayanda fərqinə baxmaz qarşısında nə qədər adam var - beş, on və ya on beş. Döyüşə elə can atır ki, sanki qarşısında bir düşmən var. Oxdan və

qılıncdan elə məharətlə istifadə edir ki, hər bir döyüşçü onun bacarığına həsəd apara bilər. Açığı desəm kapitan Xuan əməliyyat zamanı onun bacarığına böyük ümid bəsləyir. Ən ağır vəziyyətdən o, çox asanlıqla çıxmağı bacarır. Belə döyüşçülərimiz nə qədər çox olsa, onda araukanlar üzərində qələbə çalmaq çətin olmayacaq.

- Elə biz bura, yalnız düşmən üzərində qələbə çalmağa gəlmişik. - deyə polkovnik qürurla dilləndi. - Sağlıq olsun, Allahın köməyi ilə biz İspaniyanın zəfər bayrağını Araukaniyanın ürəyinə sancaraq, Pireney yarımadasına qalib kimi qayıdacayıq! Mən, II Filippə söz vermişəm ki, bu ekspedisiya araukanların Mərkəzi Çili sahillərindəki sərbəst fəaliyyətlərinə birdəfəlik son qoyacaq. Qələbə əldə edilməyincə, mən İspaniyaya qayıtmayacam. Onu da qeyd etməliyəm ki, döyüşlərdə xüsusilə fərqlənən döyüşçü yüksək pul mükafatı ilə təltif ediləcək.

- Pul mükafatı olmadan hər bir döyüşçü fədakarcasına döyüşməlidir. - deyə kapitan Filipp Odovaldo pafosla dilləndi. - Biz düşməni məhv etməklə, sübut etməliyik ki, hamımız İspaniyanın şanlı övladlarıyıq.

- Hələ bu harasıdır, müharibədə fərqlənən hər bir döyüşçü Madriddə Eskorial sarayında qüdrətli kralımız əlahəzrət II Filippin xüsusi qəbulunda olacaq və ayrılmış torpaq mülkünün sahibinə çevriləcək. - deyə polkovnik bu

sözləri xüsusilə vurğuladı. - Kral müharibədə fərqlənən döyüşçülərə İspaniyada torpaq sahəsi ayırıb. Hər biriniz komandan vəzifəsinə qədər ucala bilərsiniz.

- Əgər, qüdrətli kralımız əlahəzrət II Filipp bizə ümid bəsləyirsə, onda biz hökmən İspaniyaya qələbə ilə qayıtmalıyıq. - kapitan qraf Ferdinand Morelos iradə ilə dilləndi. - Bizi hələ İspaniyada çoxlu işlər vacib gözləyir. İlk növbədə biz silahdaşlarımızı araukanların əhatəsindən xilas etməliyik.

Bu sözlərlə yaşlı qraf müzakirə iştirakçılarını əsas mətləbə qayıtmağa vadar etdi. Yoxsa, onlar əsas mahiyyətdən yavaş-yavaş uzaqlaşırdılar. Söz yox ki, belə olan halda söz yenə də polkovnik Alonsoya verilməli idi. O, dedi:

- Məndə olan məlumata görə bizim silahdaşların mövqe tutduqları hindu kəndi buradan xeyli uzaqda yerləşir. Biz dayanmadan hərəkət etsək, bir gün ərzində həmin kəndə gedib çıxa bilərik. Əvvəlcə danışıldığı kimi biz istehkam yerləşən kəndə iki istiqamətdə gedəcəyik; süvari və piyada dəstəsilə. Süvari dəstəsi açıq yol ilə Lyankiue gölünün şərq sahili boyunca şimal istiqamətində, piyada dəstə isə şərqə doğru hərəkət edərək, qarşıdakı dağları aşıb vadi ilə həmin kəndə yollanaçaq. Ertəsi gün biz silahdaşlarımızın imdadına yetişməliyik. İndi isə mən bu haqda Xuan Floresin fikrini öyrənmək istəyirəm.

Xuan Flores hər an bu haqda izahat verməyə hazır idi. O, polkovnikin təklifini eşidən kimi aludəliklə dedi:

- İstehkam yerləşən kəndə getmək üçün paralel olaraq bir neçə yoldan istifadə etmək lazımdır. Süvari dəstəsi təpələrin arası ilə keçərək, Lyankiue gölünün şərq sahilinə çıxmalıdır. Ondan sonra yenə də açıq yoldan istifadə etmək lazımdır. Şəxsən mən özüm piyada dəstəsini dağların arası ilə keçirdərək, onları həmin kəndə aparacam.

Paralel olaraq Araukaniyada döyüş əməliyyatları başlanmalıdır. Bizim başımız silahdaşlarımızın azad olunması üçün qarışsa, araukanlar asudə vaxtdan istifadə edərək, özlərinin dislokasiya yerlərini dəyişəcəklər. Araukaniyaya yürüşə başlamaqla, biz hinduları dağlara çəkilməyə imkan verməməliyik. Əgər, araukanlara dağlara çəkilmək nəsib olsa, onda onların müqavimət müddəti xeyli uzanacaq. Mən onları çox yaxşı tanıyıram, dağlarda və meşələrdə mövqe tutandan sonra araukanlar partizan hərəkatına başlayacaqlar.

Əlbəttə, bu məsələdə qoca səyyahın fikrini bilmək çox vacib idi. O, necə desə, bu ekspedisiyanın iştirakçıları eləcə də döyüş əməliyyatlarına başlayacaqlar. Bu əməliyyatın uğurlu keçməsinə dair Rodriges Kartahena bir başa məsuliyyət daşıyırdı. Qoca səyyah da bunu çox yaxşı bilirdi. Həm polkovnik Alonso, həm də ekspedisiyanın bir

çox üzvləri ona böyük ümid bəsləyirdilər. Qoca səyyah ayağa qalxaraq üzünü polkovnikə tutdu:

- Çox güman ki, araukanlar bizim gəlişimizdən halidir. Biz paralel olaraq həm silahdaşlarımızı ağır vəziyyətdən qurtarmalı, həm də döyüş əməliyyatlarına başlamalıyıq. Bizim qələbəmizin açarı da məhz bundadır. Bu dəfə döyüş əməliyyatlarına ciddi yanaşmaq lazımdır. Silahdaşlarımızın köməyinə yalnız əlli nəfərdən ibarət olan süvari dəstəsi getməlidir. Piyada dəstəsinin həmin kəndə yollanmasına heç bir ehtiyac yoxdur. Müharibəni tez başa çatdırmaq üçün biz ilk növbədə cənuba və And dağlarına gedən yolları kəsməli və araukanların hərbi düşərgələrinə gözlənilməz zərbələr endirməliyik. Biz onları təchizat bazalarından məhrum etməli və yerli əhali ilə olan əlaqələrini kəsməliyik. Döyüşən hinduların yerli əhali ilə əlaqəsi olmasa, onda tezliklə İspaniyanın zəfər bayrağını Araukaniyanın bağrına sancacağıq.

Biz elə etməliyik ki, yerli əhali arasında etibar və etimad qazanaq. Əvvəlki ekspedisiyalar zamanı konkistadorlar həmişə mülki adamlara divan tutmuşdu. Mülki adamların etimadını qazanmaq üçün biz onlara qarşı zorakılıq əməlləri tətbiq etməməli, əksinə onlara hər vəchlə yardım etməliyik. Xəstə olanlara dərman verməli və əhali ilə xoş ünsiyyət yaradılmalıdır. Hamı bilməlidir ki, biz silahlı adamlara

qarşı zor tətbiq edirik. Əhaliyə izah edilməlidir ki, müharibə başa çatandan sonra heç kimin torpağı əlindən alınmayacaq və hamı sərbəst halda öz evlərində yaşayacaq.

- Onda belə çıxır ki, müharibə başa çatandan sonra araukanların əksəriyyəti İspaniya krallığı qarşısında törətdikləri cinayətə görə məsuliyyətdən kənar qalacaq? - deyə qraf Filipp qətiyyən qoca səyyah ilə razılaşmadı. - Bu ki, absurddur. Yüzlərlə həmvətənlərimiz burada öldürüldükdən sonra vəhşi araukanlara sərbəst yaşamaq hüququ verilir? Araukanların hamısı təhlükəli bir cinayətkar kimi qılıncdan keçirilərək məhv edilməlidir! Biz əsirlikdə olanda, onlar bizim başımıza olmazın işgəncələr açdılar.

- Don Filipp, Araukaniyada bizə qələbə lazımdır. - deyə qoca səyyah qrafı sakitləşdirmək üçün sağ əlini qaldırdı. - Qələbə əldə etmək üçün biz müvəqqəti olsa da, araukanlara öz səxavətimizi göstərməliyik! Sizi əmin edirəm ki, cinayət törədən hər bir araukan kimliyindən asılı olmayaraq, sərt üsullarla cəzalandırılacaq. İndi isə hər bir konkistador qeyd-şərtsiz mənim təklifimi qəbul etməlidir. Əks təqdirdə biz uzun müddət düşmən üzərində müvəffəqiyyət qazana bilməyəcəyik.

Qraf ilə qoca səyyah arasında gedən mübahisə qızışmasın deyə, Alonso bir komandan kimi onların söhbətinə müdaxilə etməli oldu. O, üzünü qrafa tutub iradə ilə dedi:

- Möhtərəm sinyorlar, qələbə əldə etmək üçün biz ekspedisiya müşavirinin verdiyi hər bir məsləhətinə diqqətlə qulaq asmalıyıq. Araukaniyada hərbi əməliyyat keçirilən zaman qocalara, qadınlara və azyaşlı uşaqlara heç bir xətər toxunmamalıdır. Bu mənim şəxsi əmrim sayılır. Biz həqiqətən də mülki əhali yanında etimad qazanmalı və onları elə əmin etməliyik ki, guya araukanlar heç vaxt bizim tərəfdən pislik görməyəcəklər. İlk növbədə xəstəliyə düçar olan hər bir hindu bizim təbiblər tərəfindən müalicə olunmalıdır. Müharibənin ilkin mərhələsində heç bir hindu zorla xristianlığa qəbul edilməsin. Bu barədə bütün məsuliyyəti mən özüm daşıyıram. İndidən sizin hamınızı xəbərdar edirəm, heç bir zabit əməliyyat zamanı öz komandirinin sözündən çıxmamalıdır. Hər bir əmr, sözsüz halda içra olunmalıdır. Ekspedisiyada hökm sürən dəmir nizam-intizam pozulmamalı və heç bir özbaşınalığa yol verilməməlidir. Özbaşınalığa yol verən hər bir adam mənim tərəfimdən sərt üsullarla cəzalandırılacaq.

- Don Alonso, birdən mülki əhali, bizim gəlişimizə öz narazılığını bildirdi, onda necə olsun? - deyə qraf Xuan hamını maraqlandıran suallardan birini polkovnikə verdi. - Söz yox ki, araukanlar öz yerlərində rahat qalmayacaqlar.

- Biz onlara xoş üz göstərsək, onlar bizim gəlişimizdən narazı olmayacaqlar. - deyə polkovnik qətiyyətlə dilləndi. -

Biz elə etməliyik ki, döyüşən hindu mülki əhalidən təcrid olunsun. Araukanlar ərzaqdan məhrum olandan sonra uzun müddətli müqavimət göstərə bilməyəcəklər.

- Don Alonso, biz əsas mətləbə keçsəydik pis olmazdı, - deyə qoca səyyah burda gedən müzakirənin başa çatdırılmasını istədi. - İndi Araukaniyada gedəcək hərbi əməliyyatların necə aparılması müzakirə edilməlidir.

- Nə deyirəm ki, keçək əsas mətləbə. - deyə polkovnik hamıya ötəri nəzər salaraq təqdiredici tərzdə dilləndi. - 50 nəfərdən ibarət olan süvari dəstəsi kapitan Alonso Murilyonun başçılığı altında nəzərdə tutulan marşrut ilə istehkam tikilən kəndə yollanacaq. Yerdə qalan iki at sahildə qurulan düşərgənin ixtiyarına verilir. Bundan əlavə ekspedisiyanın tərkibində muşket və arkebuzla silahlanan 80 nəfər əsgər, 60 nəfər arbalyotçu və ox atanlar, 74 nəfər hücumçu piyada var. Əsirlikdən yenicə azad edilən silahdaşlarımız ehtiyat qüvvəsi kimi duşərgədə qalacaq. 72 nəfərdən ibarət olan dənizçilər həm fortun tikintisi, həm də gəmilərin mühafizəsi ilə məşğul olacaq. Həm notarius, hüquqşünas və keşiş, həm də çoğrafiyaşünas əlavə göstərişlər gələnə qədər düşərgədə qalacaqlar.

Görürəm ki, bəzi zabitlər bu bölgüdən narazıdır.

Polkovnik bu iradı tutmaqda haqlı idi. 22 nəfərin ehtiyat qüvvəsi elan edilən kimi Morelos qardaşları narazı halda

biri-birilərinə nə isə deməyə başladılar. Elə fürsət tapan kimi qraf Filipp ayağa qalxıb narazı halda dedi:

- Don Alonso, şəxsən mən təcrübəli və peşəkar bir zabit kimi bu bölgüdən narazıyam. Azdan-çoxdan mən lənətə gəlmiş bu ölkənin bəzi yerlərinə bələdəm və ehtiyatda qalmaqdansa, mən döyüş əməliyyatlarında xeyli xeyir verə bilərəm. Ümumiyyətlə, mənim qardaşım və sizin ovladlarınız da düşmənə qarşı gedəcək döyüşlərdə fədakarlıqla döyüşərək, bir çoxlarından fərqlənə bilərlər. Bir zabit və bir ispan idalqosu kimi sizdən artıq dərəcədə xahiş edirəm, bizi qabaqcıl dəstələrin birinə təhkim edəsiniz.

- Don Filipp, uzun müddətli əsirlikdən sonra, sizin düşərgədə qalıb istirahət etməyiniz məsləhətdir. - deyə polkovnik qrafa ötəri nəzər salaraq təşəxxüslə dilləndi.

- Mən ispan zabitiyəm və düşərgədə qalıb istirahət etmək, mənim vicdanıma sığmaz. - deyə qraf Filipp başını dik tutaraq qürurla dilləndi.

- Bizim də burada qalmağımız yersizdir. - deyə polkovnikin böyük oğlu narazı halda dilləndi. - Ata, bizi döyüşçülər qarşısında gülünc vəziyyətdə qoyma. Ola bilsin ki, biz müəyyən günahlar işlətmişik, lakin bu o demək deyil ki, həmin günahlara görə biz müharibə başa çatana qədər düşərgədə qalıb istirahət etməliyik.

- Mən istəyirəm ki, siz əzablı günlərdən sonra düşərgədə qalıb güc toplayasınız. - deyə polkovnik ciddi halda dilləndi. - Siz hamınız bilməlisiniz ki, döyüş əməliyyatları başlayanda biz ardı-arası kəsilmədən dağ keçidlərindən keçməli olacağıq. Bunun üçün isə möhkəm iradə və çoxlu qüvvə lazımdır.

- O qüvvə bizdə var! - deyə Karlos həvəslə dilləndi.

- Silahdaşlarım düşmənlə döyüşən bir zamanda mən arxa cəbhədə qala bilmərəm. - qraf Xuan qətiyyətlə dilləndi.

- Don Alonso, həqiqətən də bizim vicdanımız qəbul etməz ki, silahdaşlarımız düşmənlə döyüşən bir zamanda biz düşərgədə qalıb istirahət edək. - deyə qraf Filipp öz qardaşının sözlərini təsdiq etdi. - Ön cəbhədə döyüşmək üçün bizə imkan yaradın.

Burada inadkarlıq etməyin heç bir xeyri yox idi. Polkovnik zabitlərin xahişini nəzərə alaraq onları avanqard dəstəsinə keçirməli idi. Bir tərəfdən isə həmin zabitlərin polkovnikin gözünün qabağında olmaları vacib idi. Hərəkətlərindən hiss olunurdu ki, onlar hərbi əməliyyatlar zamanı polkovnikdən başqa digər zabitlərin verdikləri əmri ciddi qəbul etməyəcəklər.

Təəssüf hissilə başını tərpədən polkovnik bir az fikrə gedəndən sonra ciddi halda dedi:

- Onda hamınız mənə diqqətlə qulaq asın. Kapitan Manuel Markos qeyri-hərbi gəminin komandanı olduğu üçün körfəzdə lövbər salmış gəmilərin təhlükəsizliyinə cavab verəcək. Onun ixtiyarına 21 nəfər matros verilir. Hər gəmini 7 matros cidd-cəhdlə mühafizə etməlidir. Bundan əlavə hər gün fortun tikintisi ilə məşğul olan dənizçilər gəmiləri mühafizə edən dənizçilərlə əvəz edilməlidir. Sahilə 6 dənə mortir topu çıxarılmalı və həmin toplar fortun divarlarında yerləşdirilməlidir.

Kapitan Marsel Düran 20 nəfərdən ibarət olan kanonir dəstəsinin komandiri kimi sahildə qalacaq. Kanonirlər eyni zamanda fortun tikintisi ilə məşğul olacaqlar. Yerdə aparılan bütün işlərə kapitan qraf Ferdinand Morelos cavabdehlik daşıyır. Çünki o, yeni tikilən fortun komendantı təyin edilir və onun tabeliyində 53 nəfər kanonir və dənizçi olacaq. Həm kapitan Marsel, həm də kapitan Manuel komendantın müavinləri təyin edilirlər.

Kapitan Filipp Odovaldo muşket və arkebuzla silahlanmış 80 nəfərlik atıcılar dəstəsinin komandiri təyin edilir. Onun müavinləri sayılan kapitan qraf Xuan Morelos və leytenant Ernando Ramires hərəsi 40 nəfərlik atıcılara başçılıq edəcəklər.

Kapitan Leon Kartahena bir çox ekspedisiyalarda iştirak edərək böyük təcrübə toplayıb və onun öhdəsinə 30 nəfər,

leytenant Kamaçonun öhdəsinə 15 nəfər və leytenant Karlosun da öhdəsinə 15 nəfərdən ibarət olan arbalyotçular və ox atanlar dəstəsi verilir və həmin zabitlər hərbi əməliyyat zamanı birbaşa mənim tabeliyimdə olacaqlar.

Kapitan Karl Kesada isə 74 nəfərlik hücumçu piyada dəstəsinə başçılıq edəcək. Körfəzin sahilindəki 18 nəfərlik ehtiyat dəstəsi leytenant Mişel Düranın öhdəsinə verilir. O da birbaşa qraf Ferdinandın tabeliyinə keçir. Yerdə qalır kapitan qraf Filipp Morelos, o da ki, kapitan Alonsonun müavini təyin edilir.

Ekspedisiyanın süvari dəstəsi böyük ərazilərdə döyüş əməliyyatları aparacaq. Biz həmin dəstəyə böyük ümid bəsləyirik. Yenə də deyirəm, bütün dəstələrdə hamı nizam-intizama riayət etməlidir. Heç kim verilən əmrlərdən narazı qalmamalıdır.

Polkovnik çox yaxşı bilirdi ki, onun oğlanları və Morelos qardaşları bir yerdə olanda həmişə qalmaqal yaradırlar. Günahları olanda belə, həmişə biri-birilərinin tərəfini saxlamaqla, həmin üsul ilə öz eyiblərini örtürdülər. Məhz buna görə də polkovnik onları biri-birilərindən ayırmağı qərara almışdı. Oğlanlarının özbaşınalığına birdəfəlik son qoymaq üçün polkovnik onları birbaşa öz tabeliyi altına götürmüşdü. Morelos qardaşlarını isə nəinki biri-birilərindən ayırmışdı, hətta atalarından da uzaqlaşdırmışdı. Onlar

biri-birilərindən uzaq olmaqla, dəstədəki konkistadorlar arasında aktiv fəaliyyət göstərə bilməyəcəklər.

Kim də başa düşməsə, qoca səyyah o dəqaqə anladı ki, polkovnik nə etmək istəyir. Morelos qardaşlarından çox, onun övladları özbaşına hərəkətlərə əl atırdılar. Lakin onlar atalarının verdiyi sərəncamdan kənara çıxa bilməzdilər. İş ondadır ki, onlar atalarının sərt göstərişlərinə çox yaxşı bələd olduğundan, heç vaxt onun bir sözünü iki etməyə cürət etmirdilər.

Artıq qoca səyyah rahatlıqla nəfəs almağa başladı, çünki o, budəfəki missiyanın uğurlu başa çatmasına tam əmin idi. Araukanların yarım əsrə yaxın davam edən dəmir müqavimməti bu dəfə sındırılmalıydı. İspanların əsarəti altında olan axırıncı hindu tayfasının mübarizəsi bu müharibədə məğlubiyyətə uğramaq üzrə idi. Çünki ispanlar bu kompaniyaya çox ciddi hazırlaşmış və Pireney yarımadasına şad xəbər çatdırmaq əzmindəydilər. Hərbi əməliyyata hazırlıq yüksək səviyyədə gedirdi. Hər bir variant xırda detallara kimi hazırlanıb başa çatmalı idi.

Qoca səyyahın başında yaxşı fikir yarandığına görə o, komandanın müşaviri kimi söz alaraq aludəliklə dedi:

- Möhtərəm sinyorlar, hücum əməliyyatına dair, mənim yaxşı təklifim var. Kapitan Alonsonun başçılıq etdiyi süvari dəstəsi istehkam olan kəndə yollanan kimi ekspedisiyanın

piyada dəstəsi Araukaniyanın içərilərinə iki istiqamətdə daxil olsun. - Qoca səyyah şərq tərəfdə yerləşən ön sıradakı dağları əli ilə göstərərək sözünə əlavə etdi. - Bu dağların o tayında şimaldan-cənuba doğru uzanan geniş bir vadi yerləşir. Vadinin cənub hissəsi sıx meşənin başlanğıcında qurtarır. Şimalda yaşayan döyüşən araukanlar Araukaniyanın cənub hissəsinə məhz həmin meşə ilə gedəcəklər. Biz onların qarşısını kəsmək üçün meşənin girəcəyinə sürətli yürüş təşkil etməliyik. Ondan sonra araukanlar öz ölkələrində pərən-pərən düşəcəklər. Belə olan halda düşməni məğlubiyyətə uğratmaq bizim üçün xeyli asan olacaq.

Beləliklə, 1-ci dəstə vadinin mərkəzinə daxil olaraq dayanmadan And dağlarına üz tutmalı və dağlara çəkilməyə cəhd göstərən araukanların qarşısını kəsməlidir. 2-ci dəstə isə meşənin girəcəyində mövqe tutmalıdır. İstehkamı mühasirəyə alan araukanlar süvari dəstəsinin yaxınlaşdığını görən kimi, məhz həmin istiqamətlərdə geri çəkilməyə başlayacaqlar. Hinduların əsas hissəsini elə Araukaniyanın mərkəzində darmadağın etməyə səy göstərməliyik. Biz bu fürsəti əldən verməməliyik. Xuan Flores Araukaniyanı yaxşı tanıdığı üçün 1-ci dəstəyə bələdçilik etməlidir. 2-ci dəstəni mən özüm meşənin girəcəyinə aparmağa hazıram. Ancaq mən həddindən artıq qoca olduğum üçün bu missiyanın

övdəsindən çətinliklə gələcəm. Başa düşürsünüz də mən nə demək istəyirəm?

- Sinyor Rodriges, sizin verdiyiniz təklif ağıla batandır, - deyə polkovnik başını təqdiredici tərzdə tərpədərək ehtiramla dilləndi. - bu o deməkdir ki, ekspedisiya Araukaniyaya üç istiqamətdə yürüşə başlamalıdır. Onda belə etmək lazımdır. Kapitan Karl Kesada 74 nəfərlik hücumçu piyada əsgəri ilə And dağları istiqamətində hərəkət etsin. Həmin dəstənin atıcı silahları olmadığı üçün kapitan Leon Kartahena 30 nəfərlik dəstəsi ilə onun tabeliyinə keçsin. Mənim ixtiyarımda olan iki atdan biri həmin dəstəyə verilir. O ki, qaldı bələdçiyə, mənim dəstəmə bələdçi lazım deyil. Əgər, vadi bu dağların, - polkovnik də əli ilə qarşıdakı dağları göstərdi - arxasında yerləşirsə, biz həmin yerə bələdçi olmadan da gedə bilərik.

- Don Alonso, bir çox söhbətlər zamanı eşitmişəm ki, araukanlar çox mahir döyüşçülərdir. - deyə qraf Ferdinand qalın qaşlarının altından qoca səyyaha ötəri nəzər salaraq təmkinlə dilləndi və mimikasını dəyişmədən təşəxxüslə sözünə davam etdi. - Bir çoxları söyləyirlər ki, birinci ekspedisiyanın heyəti iki hissəyə bölündüyündən araukanlar çox asanlıqla müvəffəqiyyət əldə etmişdilər. Bunu onunla izah edirlər ki, silahdaşlarımız burada az olduğundan ağır məğlubiyyətə düçar olurlar.

- Don Ferdinand, sözünüzün canını söyləyin. - deyə polkovnik onu tələsdirdi.

- İndi isə bizim ekspedisiyamızın heyətini dörd hissəyə bölürlər. - deyə qraf Ferdinand narahat halda dilləndi. - Bir hissəsi Anqud körfəzinin şimal sahilində qalır, qalan hissələr də ki, üç istiqamətdə Araukaniyanın içərilərinə doğru yürüş edəcək. Siz qorxmursunuz ki, düşmən bizim dəstələri ayrı-ayrılıqda asanlıqla məhv edə bilər? Bu təklifi verən adam heç olmasa, bu haqda fikirləşib, ya yox?

- Bu iradla mən də razılaşıram. - deyə qraf Xuan hiddətlə dilləndi. - Artıq mən onların güclərinə bələdəm. Ayrı-ayrılıqda onlar bizi məğlubiyyətə uqrada bilərlər.

Verilən sualların çavabını, polkovnik qoca səyyahın gözlərində axtarmağa başladı. O, da öz növbəsində üzünü qraf Ferdinanda tərəf tutub tələsmədən:

- Don Ferdinand, qismən də olsa, mən sizin iradınızı qəbul edirəm. Mən dəfələrlə Araukaniyada gedən muharibələrdə iştirak etmişəm. Düzdür, araukanlar həmişə müvəffəqiyyət qazanmaqdan ötrü, bizim qoşunlarımızı kiçik dəstələr şəklində məhv etməyə çalışıblar. Lakin budəfəki vəziyyət başqa cürdür. Bizim ekspedisiya kiçik dəstədən ibarət deyil. Araukaniyada eyni vaxtda dörd dəstə fəaliyyət göstərəcək. Hindular isə heç vaxt bütün qüvvələrini bir dəstənin üzərinə yönəldə bilməyəcəklər. Onlar

ekspedisiyamızın başqa dəstələrinin hücuma keçməsindən ehtiyat edəcəklər. Buna əmin ola bilərsiniz.

- Möhtərəm sinyorlar, mən özüm də araukanların xasiyyətinə azdan-çoxdan bələdəm. - deyə kapitan Leon icazə alaraq qeyri-müəyyən tərzdə dilləndi. - Biz vahid qüvvə ilə yürüşə başlasaq, araukanların əsas dəstəsini məğlubiyyətə uğrada bilməyəcəyik. Sadəcə olaraq, onlar həlledici döyüşdən boyun qaçıracaqlar. Bir neçə dəstəyə bölünməklə, biz onları hər yerdə təqib edə biləcək və bununla da onları həlledici döyüşə cəlb edəcəyik. Məhz ondan sonra Araukaniyanı fəth edə bilərik.

Elə polkovnik də Kartahenaların verdiyi təklifin üstündə durdu. Həmin çıxışdan sonra müzakirələr dayandı və yarım saatdan sonra yürüşə başlamağı qərara alındı. Anqud körfəzinin sahilində artıq vaxt itirmək lazım deyildi. Çünki hər saatın, hər dəqiqənin öz hökmü vardı. Onların silahdaşları araukanların muhasirəsində qalaraq, öz yoldaşlarının köməyinə ümid bəsləyirdilər. Bütün iştirakçılar hazırlıqlı vəziyyətə gətirildi.

II fəsil. Köməyə ehtiyacı olan konkistadorlar

Araukan kəndində mövqe tutan ispanların kəşfiyyat dəstəsi, əsasən yaralıların müalicəsi ilə məşğul olmağa başladılar. Elə yaralı vardı ki, çoxlu qan itirdiyindən xeyli zəifləmiş və yeriməyə halı yox idi. Çıxılmaz vəziyyətə düşən kapitan Xuan əsas qüvvə gələnə qədər bu kənddə gözləməyi qərara aldı. Keşikdə dayanan konkistadorlar vadinin kənarlarında düşmən qüvvəsinin necə hərəkət etdiyini çətin də olsa, görürdü. Araukanlar kiçik dəstələrə bölünərək özlərinin dislokasiya yerlərini dəyişirdilər. Adam az olduğuna görə kapitan özü də keşik çəkmək üçün növbəyə çıxırdı. Kəndi əsasən, şimal və qərb tərəfdən mühafizə edirdilər. Çünki həmin yerlərdə ağaclar çox olduğundan bu istiqamətlərdən yaşayış məntəqəsinə yaxınlaşmaq mümkün idi. Kənddə mövqe tutan 10 nəfər konkistadordan bilavasitə səkkiz nəfəri keşikçi funksiyasını yerinə yetirirdi. İki nəfərin vəziyyəti ağır olduğundan onlar bütün işlərdən azad edilmişdi.

Araukanlar kəndi tərk edəndən sonra ispanlar evlərdə apardığı axtarışlar nəticəsində bir dənə də olsun, qarğıdalı tumu taqmadılar. Deməli, onlar ərzaq əldə etmək üçün başqa mənbədən istifadə etməli idilər. Boş-boşuna kənddə

qalmaq məqsədəuyğun sayılmırdı. İlk növbədə yaralıları ərzaqla təmin etmək lazım idi.

Migel bu məsələ ilə əlaqədar kapitana yaxınlaşdı. Ərzaq əldə etmək üçün bir neçə variant təklif olundu. Ya vadinin cənubunda yerləşən kəndə gedib boş qalmış evlərdə axtarış aparmaq, ya şimala gedib kiçik dağların ətəkələrində ova çıxmaq, ya da ki, bir neçə gün əvvəl keçdikləri çayda balıq tutsunlar. Əlbəttə, ən sərfəlisi balıq tutmaq idi. Lakin həmin yer ispanlar üçün təhlukəsiz sayılmırdı. Çünki araukanlar tez-tez çayın sahilində görünürdü. Cənubda yerləşən kənd isə çox uzaqda yerləşirdi. Məhz buna görə də Migel təklif etdi ki, şimala gedib orada ov ilə məşğul olsun.

Kiçik dağların sərhəddi bu kənddən təxminən yarım liqdən sonra başlayırdı və həmin dağların ətəyi ağaclarla əhatə olunduğundan orada araukanlardan gizlənmək də mümkün idi. Həm də araukanlar indi öz haylarında idi. Çox güman ki, hindular ekspedisiyanın əsas heyəti ilə döyüşmək üçün hazırlıq görürdülər. Dislokasiya yerlərini dəyişməklə və mülki əhalini evakuasiya etməklə hiss olunurdu ki, onlar həmin döyüşlərə ciddi hazırlaşırlar. Lakin çox maraqlı idi, Migelgil bu kənddə on nəfər olduğu halda nəyə görə araukanlar bu kəndi mühasirəyə alıb konkistadorları birdəfəlik məhv etmirdilər? Bunun bir neçə səbəbi vardı. Onlar ya artıq qurban verməkdən çəkinir, ya da ki, konkistadorların

əsas heyətinin bura yaxınlaşdığını görüb vadiyə gələn əsas yolları nəzarət altına almışdılar. Söz yox ki, aborigenlər belə bir vəziyyətdə nə etdiklərini çox yaxşı bilirdilər. Çünki ispanlarla araukanlar arasında başlanan bu müharibə ilkin sayılmırdı.

Onlar çox yaxşı bilirlər ki, konkistadorlar bu dəfə müharibəyə çox ciddi hazırlaşıblar. Üç iri gəminin Anqud körfəzində lövbər salması, ispanların bura 360-dan çox qüvvə ilə gəlməsi və ilkin mərhələdə kəşfiyyatçı dəstəsinin araukanlara endirdiyi sarsıdıcı zərbələr elə-belə hal sayılmırdı. Konkistadorlar bu dəfə Araukaniyaya qələbə əzmi ilə gəlmişdilər.

Kapitan cavan zadəganın təklifinə cavab olaraq həqarətlə dedi:

- Migel, bizim ekspedisiyanın nümayəndələri ən uzağı iki-üç gündən sonra bura gəlib çıxacaqlar. Bu iki-üç günə görə mən, heç kimin həyatını təhlükəyə atmaq istəmərəm. Ova yollanan hər bir adam araukanlar tərəfindən dərhal məhv edilə bilər.

- Biz ehtiyatla hərəkət edəcəyik. - deyə Migel bir daha təkid etdi.

- İncimə Migel, mən sizin heç birinizi həmin əməliyyata göndərə bilmərəm. - deyə kapitan qəti olaraq öz etirazını

bildirdi. - Bir neçə günü ərzaqsız dolanmaq mümkundür. Yaralılar da birtəhər aclığa dözərlər.

Kapitanın bu etirazından sonra Migel bir daha təkid etməyə cürət etmədi. Migeldən olsaydı, o, təkbaşına ova yollanardı. Lakin o, bütün dəstədə nümunəvi əsgər sayılırdı və heç vaxt komandirinin verdiyi əmri yerə salmazdı. Çünki həmişə bu dəstədə nizam-intizam yüksək səviyyədə saxlanılırdı. Bütün dəstədə böyük hüsn-rəğbət qazanan Migel, belə bir vəziyyətdə nizam-intizamı pozmaq istəmirdi. Cüzi səhvə görə o, silahdaşlarının gözündən düşə bilərdi.

Bu gündən etibarən bütün dəstə ərzaqsız dolanmalı olacaqdı. Lakin ərzaqdan başqa onların su ehtiyatı da tükənmişdi və yaralılar bir az keçəndən sonra susuzluqdan yandıqalarını açıqdan-açığa büruzə verməyə başladılar. Onların vəziyyətinə yanmamaq olmazdı. Hökmən suyun ardınca çaya adam göndərmək lazım idi. Əlacsız qalan kapitan qeyri-ixtiyari halda Migeli yanına çağıraraq, həmin tapşırığı bir başa ona həvalə etdi. Lakin həmin tapşırığa qorxmaz idalqonun tək getməsi həddindən artıq təhlükəli idi. Məhz buna görə də kapitan ona yol yoldaşı seçməsini özünə tapşırdı. Migel də tərəddüd etmədən arbalyotçu Dias Duarteni özü ilə götürdü və onlar axşamın yaxınlaşmasına az qalmış şərq istiqamətində kəndi tərk etdilər.

Vadinin bu hissəsində kifayət qədər ağac bitirdi. Lakin bu o demək deyildi ki, onlar gizlincə çayın sahilinə gedib çıxacaq. Araukanlar çətinlik çəkmədən onların çaya yaxınlaşdığını görə bilərdi. Buna baxmayaraq, Migelgil çaya tərəf çox ehtiyatla hərəkət edirdilər. Aborigenlər çayın kənarında görünsə və onları təqib etməyə çalışsalar, Migelgil tərəddüd etmədən kənd istiqamətində geri çəkiləcəklər. Bu kapitanın onlara verdiyi xüsusi əmr sayılırdı. Konkistadorlar heç bir əsas olmadan hindularla açıq döyüşə girməməliydilər.

Beləliklə, onlar çox keçmədən çayın sahilinə yaxınlaşmağa nail oldular. Burada aqacların sayı xeyli çox idi. Konkistadorlar hər bir metri çox çətinliklə keçmişdilər. Çünki araukanlar ağacların arxasında gizlənib pusqu qura bilərdilər. Düzdür, Migelgil sahilə az qalmış sola və təxminən 70-80 metr gedəndən sonra yenə də çaya tərəf dönmüşdülər. Çayın o biri sahili, bu biri sahilinə nisbətən çox hundur idi və orada da ağaclar bitirdi. Çayın ağzında olsalar belə, onlar öz ehtiyatlarını itirməməli idi. Burada hökm sürən sakitliyə baxmayaraq araukanlar çayın o tayında yüksəkliyin arxasında mövqe tuta bilərdi. Çünki hamı bilirdi ki, konkistadorların kiçik saylı kəşfiyyat dəstəsi vadinin şimal hissəsində yerləşən kənddə mövqe tutubdur.

İlkin saatlarda ispanların həmin kəndi tərk etdiklərindən aborigenlər xəbərsiz idilər. Çayın axmasından yaranan şırıltı səsi ətrafda hökm sürən sükutu pozurdu. Lakin diqqətlə qulaq asanda uzun sədd kimi yerləşən yüksəkliyin arxasından adam səsləri gəlirdi. Şübhə yox ki, bu araukanların səsi idi.

Migelgil tələm-tələsik su qablarını doldurараq yaxınlıqdakı aqacların arxasında mövqe tutdular. Geri qayıtmaq üçün onlar beş-on dəqiqə istirahət etməliydilər. Lakin Migel başqa fikirdə idi. Bura kimi gəliblərsə, deməli onlar yaxın ətrafda ov ilə də məşğul ola bilərdilər.

Ova çıxmaq üçün Migelin kamanı, Diasın isə arbalyotu vardı. Onlar dayanan yerdə çayın eni on-on iki metr idi. Bütün ətraf düşmən ilə dolu olduğundan burda sərbəst ov ilə məşğul olmaq mümkün deyildi. Çay yaxınlıqda olduğuna görə onlar dəstəni balıq ilə təchiz etmək imkanına malik idilər. Bunun üçün təhlükəsiz yer tapmaq lazım idi.

Onlar ağacların arası, çayın kənarıyla şimala tərəf yollandılar. Çox keçməmiş Migelgil çaya tərəf əyilmiş yekə bir cökə ağaçının yanında ayaq saxladılar. Ağacın budaqları suya sallanmışdı. Əks tərəfin sahili yenə də yüksəklikdən ibarət idi. Araukanlar orada peyda olsalar və bura diqqətlə nəzər salmasalar, konkistadorlar gözə dəyməyəcəkdilər.

Onlar dizlərinə kimi suya girərək, asılmış budaqların arasında gizləndilər.

Migel bir qədər qalandan sonar sudan çıxmağa məçbur oldu. Diasda arbalyot olduğundan, daim hazırlıqlı vəziyyət-də dayanmaq onun üçün çətinlik törətmirdi. Arbalyot ilə yaxınlaşan balığı vurmaq üçün heç də böyük ustalıq lazım deyildi. Migel isə yerdə oturub nəzərlərini sahilin o tayına yönəltdi. Çünki o tərəfdən də hinduların qırıq-qırıq səsləri gəlirdi. Çox güman ki, sahilin o tayındakılar ölkənin şimal ərazilərdən başqa yerlərə keçən mülki əhali idi. Hava qaralana qədər Dias balıq vurmalıydı. Artıq Dias üç dənə iri olmayan balıq vurmuşdu, lakin bu on nəfər üçün bir tikədən artıq pay sayılmırdı. Havanın qaralması ilə balıq tutmağın mümkünsüzlüyünü görən Dias dostuna kəndə qayıtmağı bildirdi.

Müvəqqəti olaraq konkistadorlar həm su ilə, həm də cüzi ərzaqla təmin olunmuşdular. Lakin qarşıda onlar üçün həddindən artıq uzun görünəcək ağır gecə vardı. Bu gecəni birtəhər keçirmək lazım idi. Araukanlar hər an gizlincə kəndə yaxınlaşıb, gözlənilməz zərbə endirə bilərdilər. Lakin müəyyən səbəblərə görə hindular hələlik vadidə görünmürdülər.

Balığı bişirəndən sonra konkistadorlar qaldıqları kənddə ölü sükut yaratmalıydılar. Bu ona görə edilməli idi ki, kənd

sakitlik içində olsa, gizlincə yaxınlaşmağa cəhd edən hinduların gəlişini hiss etmək olsun.

Kapitan Xuanın göstərişi ilə heç kim bu gecəni yatmamalı idi. Qaranlığın çökməsiylə o, artıq başa düşmüşdü ki, bu kənddə qalmaq nə dərəcədə təhlükəlidir. Onlar hökmən dislokasiya yerlərini dəyişməli idilər. Araukanlar bura yaxınlaşmamışdan, kapitan Xuan vaxt itirmədən kəndi tərk etmək istəyirdi.

Ekspedisiyanın əsas heyətinin gəlməsinə az vaxt qalmış o, dəstəsindən bir adam olsun belə, itirmək istəmirdi. O, Migeli yanına çağıraraq vəziyyəti ona izah etdi. Cavan zadəgan da tərəddüd etmədən komandiri ilə razılaşdı. Lakin onlar kəndi hansı istiqamətdə tərk etməliydilər? Necə olsa da, bütün ətraf hindularla dolu idi. Qərara alındı ki, vadinin şimal hissəsi təhlükəsiz sayıldığı üçün dəstə kəndi həmin istiqamətdə tərk etsin. Dərhal bu haqda bütün dəstəyə xəbər verildi. Yerdəyişmədən və daimi hərəkətdən təngə gələn bəzi konkistadorlar yaralıları bəhanə gətirərək, öz narazılıqlarını bildirdilər. Leytenant Andre zabit olduğu üçün özü kapitana yaxınlaşaraq təşəxxüslə dedi:

- Sinyor Xuan, bizim yaralıların vəziyyəti açınaçaqlı olduğu üçün buranı tərk etməyin heç bir əhəmiyyəti yoxdur. Onsuz da araukanlar bu ərazini tərk edib buradan uzaqlaşıblar. Mənə elə gəlir, bizim kənddə qalmağımız

məsləhətdir. Bu vadidə artıq təpik döyməyimiz, bizim hamımızı yorur.

- Məni ilk növbədə döyüşçülərin yorğunluğu yox, onların təhlükəsizliyi maraqlandırır. - deyə kapitan Xuan üst-başını çırpa-çırpa həvəslə dilləndi.

- Elə burda da qalmaq təhlükəsizdir. - deyə leytenant Andre kapitanı razı salmaq istədi.

- Leytenant, hindular ertədən bilirlər ki, biz bu kənddə mövqe tutmuşuq və hər an buranı mühasirəyə alıb bizim üstümüzə hücum edə bilərlər. - deyə kapitan aludəliklə dilləndi. - Bizdən şimalda hündür olmayan dağlar və dağların ətəyində sıx meşə yerləşir. Həmin meşədə gecələmək bizim üçün təhlükəsiz olar. 900 və ya 1000 addım piyada yol getmək lazımdır ki, özümüzü təhlükəsiz yerə çatdıraq.

Kapitanla söz güləşdirmək əbəs yerə idi, çünki o, bir komandir kimi düzgün məsləhət verirdi. Onlar həqiqətən də özlərini meşədə təhlükəsiz hiss edə bilərdilər. Həddindən artıq zəifləmiş və sırası seyrəlmiş bu dəstə, harada olursa-olsun hinduların hucumuna uzun müddət tab gətirə bilməyəcəkdi.

Vadinin ətrafını əhatə edən hündür olmayan dağların bir çox yerlərində işıq görünürdü. Bu mövqe tutmuş araukanların yandırdığı tonqallar idi. Dəstə şimala gedərək işıq gəlməyən yerdə mövqe tutmağa çalışdı. Lakin bəzi

yerlərdən araukanların danışıq səsləri eşidilirdi. Məhz buna görə də qaranlıq havada, göz-gözü görməyən bir münitdə hərəkət etmək, həddindən artıq çətinlik törədirdi. Beləcə onlar xeyli gedərək meşənin ortasına çatdılar. Söz yox ki, ispan ekspedisiyanın iqatirakçılarına qarşı pusqu quran araukanlar meşənin bu hissəsində mövqe tuta bilməzdilər. İspanlar böyük olmasa da, tonqal qalaya bilərlər. Ətrafda olan hindular onların qaladığı tonqalı görə bilməzdi.

III fəsil. Konkistadorların sürətli hücumu

Bu gecəni kəşfiyyatçıların heç birisi soyuqdan şikayətlənə bilməzdi. Çünki qaladıqları tonqal onları istədikləri kimi qızdırmışdı. Təhlükəsizliklərinə isə söz ola bilməzdi. Gecəni növbə ilə olsa da, hamı rahatca istirahət etdi.

Ertəsi günü hava işıqlaşan kimi tonqal söndürüldü. Necə olsa da, işıqlı havada araukanlar dislokasiya yerlərini dəyişərkən uzaqdan, yanan tonqalın tüstüsünü görə bilərdilər.

Artıq vaxt itirilməsin deyə, kapitan Xuan konkistadorlardan Migel ilə Diası ət gətirmək üçün ova göndərdi.

Lakin leytenant Andre də onlara qoşuldu. O birilərinə nisbətən Andre tapança ilə silahlanmışdı. Vaxtı ilə Kataloniya hersoqunun favoriti olmuş fransız zabiti, əsas silahı olan qılınçdan məharətlə istifadə edirdi. Lakin Araukaniyada o, bu məharətindən lazımi səviyyədə istifadə edə bilməmişdi. Düzdür, son bir neçə gündə araukanlarla toqquşma baş verməmişdi. Hələlik ispanlar hindularla toqquşmadan boyun qaçırırdı. Düşmənin gözündən yayınmış leytenant Andreni tamamilə bezikdirmişdi.

Nəhayət onlar hava işıqlaşan kimi yerli hindular tərəfindən açılmış cığırlarla şimala tərəf yollandılar. Qarşıdakı hündür olmayan dağları aşsalar, onlar qabaqda aydınca istehkam qurulan hindu kəndini görəcəklər. Çox güman ki, araukanlar həmin kənddə olacaqlar. Ova çıxanlar öz yoldaşlarından çox aralana bilməzdilər, ona görə ki, onlar gəldikləri yeri itirə bilərdi. Konkistadorların gəzdiyi meşə seyrək olsa da, burda heyvanat aləmindən heç bir əsər-əlamət yox idi. Quşların səsi eşidilsə də, hələlik onları görüb aşkar etmək mümkün deyildi. Belə olan halda Migel təklif etdi ki, dünənləri balıq tutduqları çaya yollansınlar. Ova çıxmaqdansa, balıq tutmaq sərfəli idi.

Onlar silahdaşlarının yanına qayıtmaqla vəziyyəti kapitana izah etdilər. Kapitan da oz növbəsində bildirdi ki, burdan birbaşa hamı cənub-şərq istiqamətində hərəkət

etməklə, çayın sahilinə çıxsınlar. Həmin qərardan sonra bütün dəstə, bu istiqamətdə, qaldıqları yeri tərk etdi. Çaya təxminən 500-600 metr qalmış dəstə meşənin cənub sərhəddinə çatdı. Ehtiyatı əldən verməmək üçün ilk növbədə çayın kənarına bir neçə adam göndərilməliydi ki, həmin yeri yoxlasınlar.

Lakin bütün vadidə ölü sükut hökm sürürdü. Buna baxmayaraq çayın kənarı yoxlanılmalı idi. Migel, Dias və leytenant Andre həmin tapşırığı yerinə yetirmək üçün çaya tərəf yollandılar. Onlar çətinlik çəkmədən nəzərdə tutulan yerə gəldilər. Lakin əvvəlki kimi çayın o tərəfindən ağır olsa da, adam səslərini eşitmək olurdu. Məhz buna görə də Migelgil dəstənin başqa üzvlərini bura çağırmağa tələsmədilər. Vaxtı itirmək istəməyən Dias dərhal, balıq vurmaq üçün arbalyotunu hazır vəziyyətə gətirdi.

Migel ilə Andre cökə ağacının arxasında (onların üzü vadinin qərb hissəsində yerləşən dağlara tərəf idi) əyləşib vadini nəzərdən keçirməyə başladılar. Burada danışmaq olmazdı. Onların səsini yaxınlıqda olan hər bir adam təsadüf nəticəsində eşidə bilərdi. Onlar öz ehtiyatlarını möhkəm tutmağa çalışırdılar.

Dias birinci balığı vurmuşdu ki, birdən Andre qarşıdakı dağları göstərərək təşvişlə dedi:

- Dağların aşağı hissəsini görürsünüz? Orada canlanma hiss olunur.

Söhbət adamlardan gedirsə, onları aydın görmək heç də çətin deyildi. Dağların bəzi yerləri açıqlıq idi, əksəriyyət yerlər isə ağaclarla örtülmüşdü. Migel diqqətlə baxıb gördü ki, vadinin düz ortasındakı iki böyük dağın arasından sayı yüzə yaxın olan adam üzüaşağı vadiyə tərəf enir. Həmin yerdən adamların arasındakı günəşin şüalarına əks olaraq parıltılar görsənirdi. Bu həm soyuq silahlar, həm də dəmir geyimlərin parıltısı nəticəsində baş verə bilərdi. Belə əlamətlər isə araukanlarda yox idi. Bu yalnız ispan əsgərlərinin kirasıları ola bilərdi. Migel dərindən köksünü ötürərək ayağa qalxdı. Necə Migel, eləcə də Andre həmin adamların ispan əsgərləri olduğunu başa düşərək, sevinc hissi ilə ayağa qalxaraq həmin tərzdə dedi:

- Bu ki, polkovnik Alonsonun başçılıq etdiyi ekspedisiyadır. Onlar vadiyə tərəf gəlirlər.

- Bizim silahdaşlarımız vaxtında özlərini Araukaniyaya yetiriblər. - deyə Migel hərarətlə dilləndi.

Onların bu sözlərini eşidən Dias öz işini yarımçıq qoyaraq yoldaşlarına yaxınlaşdı. İndi balıq tutmağın heç bir əhəmiyyəti yox idi. Yenicə ayaq basan ekspedisiya iştirakçılarında hər bir şeyin olması labüd idi. Sevincdən konkistadorlar bir-birlərinin əllərini sıxdılar. Demək olar ki,

ekspedisiyanın gəlişi ilə onların ağır, əzablı və iztirablı günləri arxada qalırdı.

Günortaya az qalmış kapitan Xuanın sağ qalmış dəstəsi vadinin düz ortasında ekspedisiyanın əsas heyəti ilə sevinc sədaları altında görüşdü. Həmin qüvvə ekspedisiyanın bir hissəsi idi. Həmin dəstəyə kapitan Karl Kesada başçılıq edirdi. Xoşbəxtlikdən Migelin atası kapitan Leon da başçılıq etdiyi dəstə ilə bu qüvvənin tərkibində idi. Ata ilə oğul sevinc hissilə hamının gözü qarşısında bir-birilərilə qucaqlaşdılar. Kapitan Leon çox yaxşı başa düşürdü ki, əgər sağ qalan konkistadorlar belə bir kökdədirlərsə və dəstənin yarısı həlak olubsa, deməli onlar bu neçə həftəni Araukaniyada yalnız ölüm ilə üzləşiblər.

Onlar öz yoldaşlarını əsirlikdən azad etməklə böyük qəhrəmanlıq göstərmişdilər. Bu əməliyyat, ağır döyüşlərdə sınanmış bir çox döyüşçülərin həyatlarına son qoymuşdu. Lakin sağ qalanlar ekspedisiya iştirakçıları tərəfindən qəhrəman kimi qarşılandılar. Dərhal əldən düşmüş konkistadorlar yeməklə təmin olundular.

Kapitan Karl ekspedisiya rəisindən aldığı tapşırığa əsasən, vaxt itirmədən, mümkün qədər qısa müddətə öz dəstəsini And dağlarına çatdırmalıydı. Lakin o, burada nə kapitan Xuanı sorğu-suala tuta bilir, nə də ki, yaralıların müayinəsi ilə məşğul ola bilmədi. Bundan əlavə kapitan

Karl əldən düşmüş kəşfiyyatçı dəstəni özü ilə bu ağır yürüşə götürə bilməzdi. Çünki bütün qoşun ləng hərəkət edəcək.

On beş dəqiqəlik istirahətdən sonra kapitan Karl onlara izah etdi ki, bir-iki saatdan sonra polkovnik Alonso əsas qüvvə ilə vadinin cənubunda yerləşən meşənin girəcəyinə gələcək. Onlar ora getsələr daha yaxşı olar. Əlbəttə, onu başa duşmək olardı. Odur ki, kapitan Xuan onların hamısına yaxşı yol arzulayaraq, vadinin cənubuna getməyi qərara aldı. Migel bir an çıxılmaz vəziyyətdə qaldı. O, bilmirdi nə etsin, atası ilə döyüşə yollanmaq üçün öz dəstəsindən ayrılsın, yoxsa kapitan Xuan ilə axıra kimi bir yerdə olsun? Əlbəttə o, başladığı işi başa çatdırmalı idi, bundan əlavə uşaqlıq dostu Osvaldonu belə bir vəziyyətdə qoyub heç yana gedə bilməzdi.

Qısaca istirahətdən sonra kapitan Karl öz dəstəsi ilə yola düzəldi. Kapitan Xuan isə vaxt itirmədən vadinin cənubunda yerləşən kəndə yollandı. Həmin kənd meşədən 300-400 metr aralı yerləşirdi. Polkovnik Alonso əsas qüvvə ilə meşənin ağzında görünən kimi Xuangil onların yanına gedəcək.

Kəşfiyyatçılar həmin kəndə çatan kimi üç evdə mövqe tutub istirahət etməyə başladılar. Cəmi bir keşikçi qoyuldu. İndi onlar özlərini vadidə çox sərbəst hiss edirdi. Artıq tam

arxayınlıqla demək olar ki, bu ərazidə üstünlük konkistadorların əlinə keçmiş və onlar bütün ətrafı nəzarət altında saxlayırdılar. Maraqlısı odur ki, vadinin şərq hissəsindən keçən çayın o biri sahilindən araukanların səsi gəlirdi. Konkistadorlar sahili keçən kimi çox güman ki, düşmən ilə silahlı toqquşma baş verəcək. Düzdür, Migel bu haqda öz atasına xəbər verir və çayı keçən zaman ehtiyatlı olmasını xüsusilə tapşırdı.

Söz yox ki, araukanlar əvvəlki döyüş taktikalarını dəyişəcəklər. Ümumiyyətlə, açıq döyüşdən boyun qaçıracaqlar. Hazırda onlar qalın meşələrdə, dağ keçidlərində, sıldırım qayaların üstündə və başqa qeyri-adi yerlərdə mövqe tutmalıydılar. Ançaq indi maraqlıdır, araukanlar mülki əhalini özlərilə sürükləyəcəklər, ya yox? Özləri ilə aparsalar, onda onların geri çəkilmələri ləng baş verəcək. Belə olan halda onlar, hətta sürətli manevrdən də məhrum olacaqlar. Konkistadorlar bu fursətdən səmərəli istifadə etməlidir. Ekspedisiyanın özəyini təşkil edən süvarilər hər yerdə düşməni qabaqlayaraq ona sarsıdıcı zərbə endirməlidirlər.

Azdan-çoxdan kapitan Karl, Anqud körfəzinin sahilində gedən müzakirə zamanı çıxarılan qərarı kapitan Xuana çatdırmışdı. Artıq kəşfiyyatçılar ekspedisiyanın üç istiqamətdə Araukaniyaya hücum etməsindən agah idilər. İndi

başa düşmək olar ki, araukanlar nəyə görə belə tezliklə bu vadini tərk etmişdilər. Onlar ispanların yaxınlaşdığını görən kimi burdan uzaqlaşmağı məsləhət bilmişdilər.

İş orasındadır ki, dünən səhər tezdən Anqud körfəzinin şimal sahilini tərk edən konkistadorlar artıq vadiyə kimi gəlmişdilər. Onda belə çıxır ki, hindular ispanların irəliləyişinə maneəçilik törətməyiblər, onlar da fürsətdən istifadə edib Araukaniyanın içərilərinə sürətlə irəliləmişdilər.

Kəşfiyyatçıların xilasına yollanan süvari dəstəsi onları istehkam olan kənddə müəyyən etməsələr, axtarışı hansı istiqamətdə aparaçaqları bəlli deyildi.

Migelgil təxminən bir saat istirahət etmişdilər ki, birdən kapitan Karlın başçılıq etdiyi dəstə çayı keçdikləri yerdə araukanların qurduqları pusquya düşdü. Çıxılmaz vəziyyətdə qalan konkistadorlar odlu silahlardan istifadə etmək məcburiyyətində qaldılar. Kəşfiyyatçılar kəndin yüksək nöqtəsinə toplaşaraq oradan səs gələn tərəfə nəzərlərini yönəltmişdilər. Məsafə uzun olduğundan və doyüş çayın o tayındakı yüksəkliyin arxasında getdiyindən savaş yerinə gözucu da olsun, baxmaq mümkün deyildi. Döyüş elə gözlənilməz halda başlamışdı ki, hətta konkistadorların on nəfərə yaxın əsgəri çayı keçib qurtarmamışdı.

- Biz onlara kömək etsək pis olmazdı. - deyə leytenant Andre hamını qabaqlayaraq, ürək yanğısı ilə kapitana müraciət etdi. - Onlar hinduların qurduqları pusquya düşüblər.

- Buna heç bir ehtiyac yoxdur. - deyə kapitan Xuan tərəddüd etmədən dilləndi. - Kapitan Karlın orada kifayət qədər qüvvəsi var ki, araukanların qurduqları pusqunu yarıb öz irəliləyişini davam etdirsinlər. Həm də inanmıram ki, araukanlar orada böyük qüvvə ilə pusqu qursunlar.

- Araukanlar pusqu qurmaqla bizimkilərin irəliləyişini ləngitmək istəyirlər. - deyə Migel bu sözü xüsusilə vurğuladı. - Mənə elə gəlir, onlar vaxt udmaq istəyirlər.

- Guya bunun onlara xeyri var? - deyə kapitan gileygüzarla dilləndi. - hələ bundan sonra Alonso da öz dəstəsilə (söhbət polkovnikdən gedir) bura gələcək, araukanlar bizimkilərin bir neçə istiqamətdə hücum etdiklərini görüb çaş-baş qalacaqlar. Amma nədənsə, Alonso gecikir.

Vadinin şərq hissəsində doyüş davam edən zaman başqa yerdə muşketlərin və arkebuzların atəş səsləri eşidilməyə başladı. Kəşfiyyatçıların hamısı arxaya dönərək nəzərlərini vadinin cənub-qərb hissəsinə yönəltdilər. Vadinin bu küncündə hətta tüstülər əmələ gəldi. Meşə və hündür olmayan təpələr həmin yerdə böyük üstünlük təşkil etdiyindən orada nə baş verdiyini ümumiyyətlə, görmək olmurdu. Halbuki həmin yer ilə kənd arasındakı məsafə ən uzağı

1000 metr olardı. Artıq şübhə yox idi ki, vadinin cənubuna can atan polkovnik Alonsonun dəstəsi araukanların qurduqları pusquya düşübdür.

Migel bunu anladı ki, hindular bu kəndə yaxın bir yerdə mövqedə olublar. Onlar iri ispan dəstəsinin vadiyə yaxınlaşmasından xəbərdar idilər, yoxsa araukanlar çoxdan bu kənddəki konkistadorların üstünə hücum edərdi. İndi kapitan Xuan bilmirdi nə etsin, kənddə qalıb əsas qüvvənin gəlişini gözləsin, yoxsa silahdaşlarının köməyinə yollansın? Söz yox ki, oradakı konkistadorlar da müəyyən problemlə rastlaşmışdılar. Hinduların qurduqları pusqunu yarmaq onlar üçün heç bir çətinlik törətməyəcək. Deməli, onların da köməyinə heç bir ehtiyac duyulmurdu.

Hələlik kəşfiyyatçılar gözləməklə kifayətlənməliydilər. Beş-on dəqiqədən sonra kapitan Karl qarşısındakı pusqunu dağıdaraq öz irəliləyişini davam etdirdi. Çünki oradan həyəcan dolu səslər gəlmirdi. Həmin yerə yenidən sakitlik çökdü. Cənub-qərb tərəfdə gedən döyüş isə hələ də davam edirdi. Əlaçsız qalan kapitan Xuan yerdə əyləşərək başını aşağı saldı. Onu başa düşmək olardı. Silahdaşları düşmənlə döyüşən bir zamanda o, heç bir əməli tədbir görə bilmirdi. Çünki onun dəstəsinin yarısı yaralı döyüşçülərdən ibarət idi. Lakin hər şeydə özünü kapitanın gözünə soxan leyte-

nant Andre bu dəfə də özünü irəli verərək canfəşanlıqla dedi:

- Buradakı döyüş gərgin xarakter alır. Artıq bir saata yaxındır ki, odlu silahların səsi kəsilmir. Deyəsən, bizimkilər qarşılarındakı düşməni əzə bilmirlər. Biz hökmən onların köməyinə getməliyik.

Kapitan hələlik onun təklifinə heç bir reaksiya vermədi. Görünür, o nə haqda isə düşünürdü. Lakin Migel də bir peşəkar döyüşçü kimi həmin vəziyyətlə əlaqədar öz fikrini söyləməliydi. O, da yerdə əyləşərək təmkinlə dedi:

- Cənab kapitan, unutmaq lazım deyil ki, araukanlar dağlar arasında olan keçidlərdə mövqe tuta bilərlər. Belə olan halda bizimkilərin hüçumu keyfiyyətli olmayacaq. Onlar döyüşmək üçün geniş meydandan məhrumdurlar.

- Yaxşı, indi sən nə təklif edirsən? - kapitan gözlənilmədən hiddətlə dilləndi. - Mən yaralı əsgərlərlə silahdaşlarımın köməyinə yollanım?

- Hökmən deyil ki, biz həmin əməliyyata yaralılarla yollanaq. - deyə Migel tərəddüd etmədən kapitanın sözünə düzəliş verdi. - Yaralılar onsuz da lazımi səviyyədə döyüşə bilməyəcəklər.

- Yaralıları bu kənddə qoyub özümüz əməliyyata yollanaq. - deyə Andre səbirsizliklə dilləndi.

- Yaralıları burda qoysaq, əməliyyata beş nəfər adam yollanmalı olacaq. - deyə kapitan istehza ilə dilləndi.

- Bizim hər birimiz ən azı on düşməni öz üzərimizə götürə bilərik. - deyə Migel qeyri-müəyyən tərzdə dilləndi. - Arxadan zərbə endirmək üçün beş nəfər böyük qüvvə sayılır.

Birdən-birə Osvaldo onların söhbətinə müdaxilə edərək, səbirsiz halda dedi:

- Sinyor Xuan, bizim yaralı olmağımıza fikir verməyin. Biz bu işdə xeyli xeyir verə bilərik.

- Osvaldo, mən sizin hamınızın cəsarətinizə və qeyrətinizə bələdəm. - kapitan ciddi halda dilləndi. - Bu əməliyyata elə adamlar yollanmalıdır ki, onlar düşmənə qarşı həm sağ, həm də sol əli ilə döyüşsünlər. Bədənində azacıq cızığı olan bir kəs döyüşə yollanmayacaq. Siz müvəqqəti olaraq kənddə qalacaqsız. Biz əmadiyyata yollanan zaman düşmən çox küman ki, bura da hücum edəcək. Unutmayın ki, biz hansı düşmənlə döyüşürük.

Kapitan düzgün fikir söyləyirdi. Əməliyyata elə adamlar yollanmalı idi ki, onlar düşmənə qarşı eyni zamanda həm sağ, həm də sol əli ilə döyüşməliydi. Artıq vaxt itirmədən kapitan Xuan, leytenant Andre, Migel, cəngavər Dias Barrameda və arbalyotçu Dias Duarte kəndi tərk edərək, cənub-qərb istiqamətində döyüş meydanına yollandılar.

İrəliləyiş zamanı onlar vadinin bu hissəsində bitən hər bir ağacdan istifadə edirdilər. Araukanların gözündən yayınmaq üçün başqa bir şey yox idi.

Meşənin sərhədinə 20-25 metr qalmış aqacların arxasında hindular göründü. Bəziləri ağacların arxasında, bəziləri isə hündür kolluqların arxasında mövqe tutmuşdu. Onların sayı iyirmidən çox idi və əksəriyyəti kaman ilə silahlanmışdı. Söz yox ki, onlar meşəyə yaxınlaşan konkistadorların qabağını kəsmək üçün meşənin həmin hissəsində pusqu qurmuşdular. İspanlar da seyrək halda bitən ağacların arxasında gizləndilər. Onlar bir-birilərindən çox aralı düşdülər.

Meşənin sərhədinə yaxınlaşmaq çox təhlükəli idi. Belə olan halda araukanlar onları oxla qarşılamalı olacaqlar. Əlbəttə, konkistadorlar da hinduları həmin üsul ilə qarşılaya bilərlər. Dias Duartedə arbalyot, Migeldə kaman, leytenantda da tapança vardı. Migel hər iki Diasın arasında mövqe tutmuşdu. Cəngavər Dias sağ cinahda idi və araukanların tutduğu mövqe ona yaxın bir yerdə idi. Hindular hər tərəfdən hücuma keçsələr, cəngaveri çətinlik çəkmədən mühasirəyə ala bilərlər. Hökmən bir tədbir görmək lazım idi, yoxsa buradakı konkistadorlar faciə ilə üzləşə bilərdi. Ən yaxşı üsul hələlik geri çəkilmək idi. Lakin bu hərəkətə burada olan heç bir ispan əl atmazdı. Onlar öz qürurunu hər

şeydən üstün tutur və düşmən qarşısında alçalmaq istəmirdilər. Döyüşçülərini bu təhlükəli ərazidən yalnız kapitan öz göstərişilə uzaqlaşdıra bilərdi. Amma nədənsə, o, hələlik susmağı üstün tuturdu. İş orasındadır ki, araukanlar da hücuma keçməyə tələsmirdi. Halbuki bütün üstünlük hinduların tərəfində idi.

IV fəsil. Araukanlar döyüş meydanından uzaqlaşmağa çalışırlar

On beş dəqiqəyə kimi vaxt keçmişdi, lakin nə hindular, nə də ki, konkistadorlar tərəfindən əməli tədbirlər görülməmişdi. Sanki onlar bir-birilərindən ehtiyat edirdilər. Ancaq bir az kənarda ispanlarla araukanlar arasında gedən döyüş hələ də davam edirdi.

Belə qənaətə gəlmək olar ki, yuxarıda cəmləşən hinduların sayı çox azdır. Yoxsa, onlar bura çoxdan əlavə qüvvə göndərib azsaylı ispanların üzərinə hüçuma keçərdi. Deməli, onlarda bu qüvvə yox idi. Yuxarıdakı konkistadorların zəif döyüş taktikasının tətbiq etməsi ondan irəli gəlir

ki, düşmən yaxşı yerlərdə mövqe tutmuşdu. Araukanları oradan vurub çıxartmaq üçün yalnız arxadan zərbə endirmək lazım idi. Kapitan Xuanın beş nəfərlik qüvvəsi isə bu missiyanı yerinə yetirmək iqtidarında deyildi. Bu əməliyyata başlamaq üçün konkistadorların sayı ən azı iyirmi nəfər olmalı idi. Ya da ki, kapitan öz döyüşçülərini buradan uzaqlaşdıraraq 150 metr sol tərəfdən meşəyə daxil olmalı idi. Arxadan hindulara zərbə endirməklə, düşmənin müəyyən qüvvəsini özlərinə cəlb etməli idi. Bu ən əlverişli variant sayılırdı. Kapitan əli ilə döyüşçülərinə işarə etdi ki, hamı yavaş-yavaş sol tərəfdən arxaya çəkilsin. Leytenant Andre solda olduğundan birinci olaraq kapitanla birlikdə geri çəkilməyə başladı. Cəngavər Dias kapitanın işarəsini görməmişdi, ona görə də hələlik öz yerini tərk etmək fikrində deyildi. Ona yalnız sözlə deyilməliydi ki, buranı tərk etsin. Bu xəbəri cəngavərə Migel verməli idi.

Elə bu dəmdə araukanlar öz dillərində nə isə qışqıraraq hər tərəfdən hücuma keçdilər. Onların sayı təxminən 20 nəfər olardı və hamısı da nizə və balta ilə silahlanmışdı. Aydınca görmək olurdu, ox atan hindular öz yerlərini tərk etməmişdilər. Migel ilə Diasın üzərinə 8 nəfər şığıyırdı. Hazırlıqlı vəziyyətdə duran Migel qabaqdakı düşməni nişan alaraq ox ilə onu vurdu. Ox elə bir sürətlə uçdu ki, qurbanına dəyən kimi həmin adam arxası üstə yerə tir-tap yıxıldı.

Məsafə qısa olduğundan Migel ikinci dəfə oxdan istifadə edə bilmədi və dərhal qılınclarını əlinə alıb (öldürülmüş Antonionun qılıncı onda idi) ağacın arxasından çıxaraq ona yaxınlaşan hindunu möhkəm zərbələrlə məhv etdi. Dias mühasirəyə düşməsin deyə, o cəngavərin köməyinə can atdı. Lakin həmin an onun qarşısını üç nəfər araukan kəsdi. Bununla da Diasın işi bir balaca yüngülləşdi. Onun üzərinə dörd yox, üç düşmən hücum çəkdi. Dias cəngavər olduğundan üç nəfərə qarşı döyüşmək onun üçün heç bir çətinlik törətmirdi. Lakin iş orasındadır ki, Dias ağacın arxasından çıxaraq düşmənə qarşı döyüşürdü. Meşənin kənarında dayanan hindular onu ox ilə vura bilərdi. Ona yaxınlaşmağa cəhd göstərən Migel əlacsız qalaraq qışqırdı ki, Dias ağacın arxasında dayanaraq müdafiə olunsun. Necə olsa da, cəngavər meşənin sərhədinə yaxın bir yerdə döyüşürdü. Başqalarına nisbətən Diasın əynində kirasa vardı. Kirasa müəyyən mənada onu düşmən oxundan müdafiə edə bilərdi. Geri çəkilməyə başlamış kapitangil indi güclü təzyiqə məruz qalaraq əvvəlki mövqelərinə qayıda bilmirdilər. Məhz buna görə də Migelgil ilə onların arasındakı məsafə 30-35 metr olurdu.

Döyüş davam etdikcə, hindular yavaş-yavaş meşədən çıxaraq özlərini döyüşə atırdılar. Aborigenlərin bu döyüşdə verdikləri itkilərə baxmayaraq, onların sayı artıq otuza

çatmışdı. Hələ bu harasıdır, getdikcə hinduların sayı çoxalırdı. Belə getsə, onlar burada döyüşən konkistadorları çətinlik çəkmədən mühasirəyə ala biləcəklər.

Artıq burada böyük qatma-qarışıqlıq yarandı. Elə oldu ki, araukanlar Migelin üzərinə kəskin zərbələr endirərək, onu Diasın yanına sıxışdırmağa başladılar. Migeli birdən-birə altı nəfər hindu mühasirəyə almışdı, lakin buna baxmayaraq, onlar qorxmaz zadəganın müqavimətini qıra bilmirdilər. Migel iki qılınc ilə döyüşdüyü üçün onun üzərinə yalnız nizə ilə silahlanmış döyüşçülər hücum çəkmişdi. Bu vaxt ərzində başı bütünlüklə döyüşə qarışan cəngavər bir düşməni öldürmüş, ikincisini isə yaralamışdı. Qısa müddətə bu qədər itki verən hindular daha da qəzəblənərək, öz hücumlarını intensiv surətdə artırdılar. Onlar öz təhlükəsizlikləri barəsində demək olar ki, düşünmürdülər. Soyuqqanlılığını itirməyən Migel düşmənlərinin endirdiyi zərbələri peşəkar səviyyədə qaytarırdı. Hərdən bir, hətta əks-hücuma da keçirdi. Lakin belə bir şəraitdə müqavimət göstərmək çox çətin idi. Hinduların əhatəsində olan Migel hər tərəfə dönərək özünü ona endirilən nizələrdən müdafiə edirdi. Araukanların silahı taxtadan olduğundan o, istəyirdi ki, dəqiq zərbə ilə bir neçə nizəni sıradan çıxartsın. Münasib məqamda Migel ona endirilən nizənin ortasına elə zərbə endirdi ki, taxtadan düzəldilmiş silah düz ortadan

sındı. Fürsəti əldən vermək istəməyən Migel həmin anda ikinci qılıncı ilə dərhal rəqibinin başına möhkəm zərbə endirərək, cəld əks tərəfə hücuma keçdi. Qorxmaz zadəganın bu fəndlərindən çaş-baş qalan novbəti hindu geri çəkilmək istədi, lakin ayağı kərpic boyda daşa dəyərək yerə yıxıldı. Migel onu öldürmək istəyəndə qarşısına dərhal iki aborigen keçdi və hiss etdi ki, arxadan da kimsə ona yaxınlaşır. O, cəld geri dönərək, rəqibinin nizəsini dəf etdi və həmin an o biri qılıncını qurbanının sinəsinə sancdı. Araukanlar Migeli məğlub edə bilmədiklərini görüb ona qarşı ehtiyatla döyüşməyə başladılar. Beş-altı nəfərin əhatəsində olan Dias qılıncdan məharətlə istifadə edərək, düşməni geri çəkilməyə vadar edirdi.

Araukanlara qarşı döyüşən beş doyüşçüdən dördü hərb sənətinin peşəkar ustadları sayılırdı. Qılınc döyüşündə onlar məğlubedilməz döyüşçülər idi. Yalnız arbalyotçu Dias qılınc döyüşündə bir balaca zəiflik göstərirdi. Lakin buna baxmayaraq, o düşmənin hücumlarına layiqli cavab verirdi. Hinduların qarşılarındakı döyüşçülər elə peşəkarlıqla döyüşürdülər ki, elə bil onların qarşısında beş yox, iyirmi konkistador döyüşür.

Artıq araukanlar başa düşdülər ki, qarşılarındakı rəqiblərini ox atanlarsız məğlub etmək qeyri-mümkündür. Onları məğlub etmək üçun hindulara əlavə qüvvə tələb olunurdu.

Həmin qüvvə isə onlarda tükənmişdi. Necə olsa da, onların əsas hissəsi yuxarıda polkovnik Alonsonun başçılıq etdiyi dəstəyə qarşı döyüşürdü.

Elə bu vaxt araukanların sırasında canlanma baş verdi. Onlar şimal-şərq istiqamətinə nəzər yetirməklə, nə haqda isə qışqırırdılar. Migel döyüşə-döyüşə həmin yerə nəzər saldı və gördü ki, kapitan Karlın keçdiyi yerdən vadiyə süvarilər daxil olmağa başlayır. Bəli, həmin süvarilər kapitan Alonsonun başçılıq etdiyi dəstə idi və onlar Migelgilin köməyinə gəlirdilər. Onların gəlişi vadinin ağzında gedən döyüşdə böyük dönüş yaradacaq. Bu konkistadorların qələbəsi demək idi.

Buradakı vəziyyətin kəskin surətdə dəyişdiyini görən araukanlar yavaş-yavaş geri çəkilməyə başladılar. Onlar elə geri çəkilirdilər ki, hətta ağır yaralılarını özləri ilə aparmağa imkanları olmadı. Burdakı bütün üstünlük Migelgilin tərəfinə keçmişdi. Lakin belə olan halda onlar qaçan hinduları təqib edə bilməzdilər. Çünki geri çəkilənlərin yoldaşları əlində kaman hazırlıqlı vəziyyətdə dayanmışdılar. Hər bir konkistador onları təqib etməyə çalışsa, dərhal düşmən tərəfindən oxla vurulacaq.

Döyüşə həddindən artıq başı qarışan Dias qaçmağa çalışan hindunun ardınca getməyə cəhd göstərdi. Lakin üç addım irəli getmişdi ki, araukanlar onun üzərinə üç-dörd

dənə ox atdılar. Oxlardan biri onun sağ buduna, o birisi isə sol qoluna batmış, qalanları isə kirasaya dəyərək yerə düşmüşdü. Cəngavərin budu yaralansa da, o yerə çökmək fikrində deyildi. Sanki ağrını öz daxilində udurdu.

Diasın yaralandıqını görən yaxınlıqdakı iki hindu ona tərəf dönərək, cəngavəri qətlə yetirmək üçün hücuma keçdilər. Söz yox ki, Dias o qədər yaralı deyildi ki, iki rəqibinin qarşısında aciz görünsün. Lakin arxadan hücum edəcək düşmənə qarşı müdafiə olunmaq üçün o, çoxlu tər tökməli idi. Araukanlar böyük səy göstərsələr cəngavəri qətlə yetirə bilərdilər. Amma Migel yaxınlıqda olduğuna görə cəld silahdaşının köməyinə can atdı. Hərçənd ki, bunu etmək onun üçün xeyli çətin idi. Qarşısındakı rəqiblər kənara çəkilsələr, Migeli çox asanlıqla ox ilə vurmaq olardı. Lakin buna baxmayaraq, qorxmaz konkistador cəld sinəsini qabağa verərək döyüşü öz üzərinə götürdü. O, həmin an Diasa dedi ki, cəld ağacın arxasına keçib orada özünə əlverişli mövqe tutsun. Dias cəngavər olduğu üçün heç cürə bu təklifi qəbul edə bilmədi. Onun köməyinə çatan bir adamı doyüş meydanında qoyub ağac arxasında gizlənə bilməzdi.

Migel meşənin sərhədinə yaxın bir yerdə olduğuna görə onun qarşısındakı rəqiblər, guya ki, konkistadoru mühasirəyə almaq üçün kənarlara çəkilərək həm sağdan, həm də

soldan zərbə endirmək istəyirlər. Əslində isə onlar başqa fikirdə idilər. Kənarlara çəkilərək Migeli ox ilə vurmaq uçün onun qarşısını açmışdılar. Cavan zadəgan o dəqiqə düşmənin hiyləsini başa düşdü və cəld sol tərəfə çəkilən hindunun üzərinə pişik kimi tullandı. Bir göz qırpımında dalbadal endirilən qılınc zərbələrilə rəqibinin sinəsində dərin yara açmaqla onu məhv etdi. O, biri düşmən isə oz hücumunu cəngavərin üzərinə yonəltmişdi. Migel dostunun köməyinə gedərdi, amma artıq geç idi. Ağacların arasında dayanan ox atanlar onu nişan alaraq kamanlarını boşaltdılar. Belə bir vəziyyətdə yeganə müdafiə üsulu varsa, o da yerə uzanmaq idi. Migel elə də etdi və oxlar başının üstündən uçub getdi. O, cəld ayağa qalxaraq Diasın qarşısındakı aborigenin üzərinə şığıdı. Lakin həmin hindu dərhal döyüş meydanını tərk etdi və ox atanlara konkistadorları bir daha məhv etmək üçün imkan yaratdı. Bu dəfə Migel cəngavərin sağ qolundan yapışaraq cəld onu yaxınlıqdakı ağacın arxasına dartdı.

Belə bir vəziyyətdə kapitangil də köməyə gələ bilmirdi. Çünki öz movqelərini tərk edən kimi ox atanlar onları məhv edə bilərdi. Döyüşün son dəqiqələrində artıq risk etməyin də heç bir xeyiri yox idi. Onsuz da süvari dəstəsi ildırım sürətilə meşənin sərhədinə yaxınlaşırdı. Geri çəkilən hindular ağacların arasında mövqe tutdular.

Yuxarıda gedən döyüş də səngidi. Belə başa düşmək olar ki, araukanlar tutduqları mövqelərdən geri çəkilirdilər. Deməli, polkovnik Alonsonun dəstəsi üçün bütün yollar açılmışdı. Çox keçməmiş həmin konkistadorlar aşağıda görünəcəklər. Bundan sonra araukan döyüşçülərinin təqibi başlanaçaq. Yuxarıda qeyd olunmuşdu ki, hinduların bir hissəsi də vadidən şərq istiqamətdə döyüşmüş və çox yəqin ki, onlar çənub istiqamətində geri çəkiliblər.

Migel cəngavəri ölümün pəncəsindən qurtarandan sonra nəinki Diasın özü, hətta bütün silahdaşları tərəfindən təşəkkürə layiq görüldü. Onun göstərdiyi şəxsi igidlik və qəhrəmanlıq hamıda xoş təəssürat yaratdı. Belə bir ağır vəziyyətdə o, nəinki düşmənə qarşı döyüşmüş, hətta yaralanmış dostunu da təhlükəli yerdən uzaqlaşdırmışdı.

Süvari dəstəsinin başında həqiqətən də kapitan Alonso dururdu. Atlılar bura yaxınlaşan kimi kapitan Xuan qarşılarına çıxaraq, onları dayandırdı. Məlum məsələ idi, kapitan onları nəyə görə dayandırdı. Süvari dəstəsinin meşəyə girməsi məqsədə uyğun deyildi. Çünki hər bir ağacın arxasında gizlənən hindular meşədə çox güclü pusqu qurmuş və hücuma keçəcək süvari dəstəsinə möhkəm zərbə endirə bilərdi. Konkistadorlar həddindən artıq böyük itki verə bilərdi. Neçə olsa da, həmin meşənin ağacları sıx şəkildə bitir

və atların sürətli manevr etməsinə böyük maneəçilik törədirdi.

Kapitan Alonso atdan düşərək sevinc hissi ilə kapitan Xuanı qucaqladı. Qraf Filipp də onu sağ gördüyünə görə sinəsinə basdı. Onlar ümumiyyətlə, bu dəstənin bütün üzvlərilə görüşdülər (kənddə qalan yaralılar da bura axışıb gəlmişdi). Hamı bu dəqiqələri sevinc hissilə yaşayırdı. Zarafat deyildi, düşmən əhatəsində qalan bu dəstə bütün təzyiqlərə və hücumlara şərəflə tab cətirmişdi.

Yarım saat keçməmiş polkovnik Alonso da öz dəstəsiylə meşənin sərhədinə gəlib çıxdı. Qohumlar, kapitan Xuanın ən ağır əməliyyatlardan sağ-salamat qalmasına və həmin mübarizədən qalib çıxmasına az qala onu duz kimi yalayırdılar. Onların sevincinin həddi-hüdudu yox idi. Əməliyyatlar zamanı əzizlərindən xəbər olmayanda qohumların hansı hisslərlə yaşadıqlarını təsəvvür etmək çətin deyildi.

Araukanların necə rəzil, vəhşi, qaniçən və amansız hindu tayfası olduqlarını hamı yaxşı bilirdi. Neçə ispan ekspedisiyasının Araukaniyada yerli hindular tərəfindən darmadağın edilməsindən hamı hali idi və bura göndərilən kəşfiyyat dəstəsinin düşmən əhatəsindən sağ çıxmasına heç bir ümid yox idi. Lakin həmin dəstənin müəyyən bir hissəsi bu qanlı mübarizədən sağ-salamat çıxa bilmişdi. Onlar həqiqətən də Araukaniyada keçirilən hərbi əməliyyatlar nəticəsində

misilsiz qəhrəmanlıqlar göstərmişdilər. Kəşfiyyatçılar öhdələrinə düşən tapşırığı artıqlaması ilə yerinə yetirmiş və onları lokallaşdırmağa çalışan düşmənin xeyli qüvvəsini məhv etmişdilər. Bu əməliyyat zamanı araukanlar konkistadorlar tərəfindən sarsıdıcı zərbələr alaraq, müharibənin bu mərhələsində ilkin məğlubiyyətlə üzləşmişdilər. Bu o demək idi ki, ispanlar bu müharibəyə ciddi hazırlaşmış və bunun üçün sıralarını peşəkar döyüşçülər ilə genişlənmişdilər. Konkistadorlar tərəfindən planlaşdırılan bütün əməliyyat uğurla nəticələnmişdi. Bir neçə istiqamətdə hərəkət edən ispanlar düşmən qüvvəsinə bir-birinin ardınca sarsıdıcı zərbələr endirmişdi. Hərçənd ki, araukanlar özləri bir neçə yerdə pusqu quraraq ispanların qarşısını kəsməyə cəhd göstərsələr də, hər yerdə də uğursuzluqla üzləşiblər.

Kapitan Alonsonun başçılıq etdiyi dəstə nəzərdə tutulan marşrut üzrə istehkam tikilən kəndə gedib çıxır və orada hərbçi hindulardan başqa heç kimi görmürlər. Kənd hər tərəfli aborigenlər tərəfindən ciddi muhafizə olunurdu. Alonsonun dediyinə görə hər tərəfdən möhkəm səddlərlə əhatə olunmuş kəndi üç yüzə yaxın hindu müdafiə edir. Əlbəttə kapitan Alonso risqə getməyərək, yolunu hündür olmayan dağların arası ilə davam etdirərək bu vadinin şərq sərhədinə yaxınlaşır və orada kapitan Karlın dəstəsilə rastlaşır. Həmin yerdə süvari dəstəsi pərən-pərən düşmüş

araukan döyüşçülərindən iyirmisini qılıncdan kecirir. Bundan əlavə ildırım sürətilə hərəkət edən süvari dəstəsi yolda bir neçə iri dəstəli mülki əhaliyə çatır və onlara izah edilir ki, hamı bir nəfərə kimi evinə qayıtsın. Mülki əhali konkistadorlar tərəfindən təzyiqə məruz qalmayacaq, əksinə bir çox sosial məsələlərdə onlara kömək ediləcək. Ondan sonra isə süvari dəstəsi vadiyə daxil olaraq, bura gəlmişdi.

Kapitan Karlın başçılıq etdiyi hücumçu piyada dəstəsi vadini ayıran dağları aşaraq maneəsiz halda vadiyə daxil olmuşdu. Maraqlı da olsa, yolda onların qarşısına bir nəfər də olsun, hindu çıxmamışdı. Vadini tərk edən zaman çayı keçərkən onlar araukanların qurduqları pusquya düşüblər. Konkistadorlar odlu silahların köməyi ilə pusquda dayananları öz mövqelərindən vurub çıxarda bilirlər, lakin çox keçmədən onlar ikinci xəttdə düşmənin müqavimətilə rastlaşırlar. Süvari dəstəsi uzaqda görünməsəydi, kim bilir, həmin döyüş nə qədər davam edəcəkdi? Süvari dəstəsi görünən kimi araukanlar vaxt itirmədən geri çəkilməyə başlayıblar. Həmin döyüşdə düşmənin 400 nəfərlik qüvvəsi iştirak etmişdi və onlar 6 nəfər konkistadoru öldürmüş, 7-sini yaralamışdılar. Lakin araukanların itkisi daha böyük idi; onlardan 26-sı öldürülmüş, 35-i yaralanmışdı. Abori-

genlər geri çəkilən zaman yaralıların yarısından çoxunu döyüş meydanından götürə bilməmişdilər.

Polkovnik Alonsonun başçılıq etdiyi dəstə isə ağır yollarla vadinin cənub sərhədinə çıxmaq istəmişdi. Axırıncı aşırımı aşmaq istəyəndə ispanlar hinduların qurduqları pusquya düşmüş və dağ şəraitində qeyri-bərabər şəkildə döyüşə başlamışdı. Araukanların üç yüz nəfərlik qüvvəsi aşırımdakı əlverişli mövqeləri öz əllərində saxlayaraq, konkistadorların hucumlarını çox asanlıqla dəf etmişlər.

Kapitan Xuangil meşənin sərhədinə yaxınlaşaraq, düşmənin müəyyən bir hissəsini özlərinə çəlb etmişdir. Aşırımda cüzi qüvvə itirən düşməndən, yəni, meşənin ağzında 15 dəqiqə ərzində gedən döyüşdə 11 araukan öldürülmüş, 9-u isə yaralanmışdır. Kapitan Alonso süvari dəstəsilə vadidə görünən kimi hindular geri çəkilməyə başlamışdı. Aşırımda gedən döyüş ərəfəsində araukanların 6-sı öldürülmüş, 8-i isə yaralanmışdı. Həmin döyüşdə konkistadorlar 9 meyid və 11 yaralı vermişdilər. Qəribəsi o idi ki, ispanların hamısı ox ilə öldürülmüşdü.

Lakin buna baxmayaraq, konkistadorlar bütün döyüşlərdən qalib kimi çıxaraq, düşməni döyüş meydanından qaçmağa məcbur etmişdilər. Məlum olur ki, hər bir döyüşdə həlledici rolu ispanların süvari dəstəsi oynamışdır. Halbuki atlılar araukanlara qarşı heç bir döyüşdə silah tətbiq edə

bilməmişdi. Ancaq sübut olundu ki, araukanlar ispanların süvari dəstəsilə üz-üzə gəlməkdən çəkinmiş və bu konkistadorlar üçün yaxşı amil olmuşdu.

Araukanlar ümumiyyətlə, konkistadorlar ilə açıq meydanda döyüşməkdən boyun qaçırırlar. Onlar meşə, dağ və çay keçidlərində döyüşlərə böyük üstünlük verirdilər.

V fəsil. Süvari dəstəsi bu müharibədə həlledici rol oynaya bilər

Anqud körfəzi ilə vadinin arasında yerləşən dağları keçən zaman ispanlar çoxlu fiziki güc sərf etmişdilər. Hamının üzündə yalnız yorğunluq və iztirab cizgiləri ifadə olunurdu. Polkovnik Alonso əldən düşən qüvvə ilə meşənin içərilərinə çəkilən düşmənin qüvvəsini təqib edə bilməzdi. Döyüş baş versə, bu ispanların məğlubiyyəti ilə nəticələnə bilərdi. Onsuz da bu asan olmayan ağır döyüşdə onun dəstəsindən 9 nəfər öldürülmüşdü. Hökmən bütün dəstəyə iki-üç saatlıq istirahət verilməli idi. Polkovnikin əmri ilə meşənin girəcəyində açıq düşərgə quruldu. Yaralılara ilkin

tibbi yardım göstərilməli idi. Onlardan 3-ü ağır yaralanmışdı. Ümumiyyətlə, bu günki döyüş ərzində araukanların 43-ü öldürülmüş, 52-si yaralanmışdı, ispanlardan isə 15-i öldürülmüş, 21-i isə yaralanmışdı. Əlbəttə, bu konkistadorlar üçün arzuedilməz bir nəticə sayılırdı. Polkovnik Alonso ekspedisiyaya elə adamlar cəlb etmişdi ki, hər döyüşçü düşmənin on döyüşçüsünü məhv etməli idi. Bir gün ərzində gedən döyüşdə onların itkisi həddindən artıq çox idi. İndi elə əməliyyatlara əl atılmalı idi ki, araukanların itkisi həddindən artıq çox olmalı, ispanların isə itkisi minimuma endirilməliydi. Həm də elə etmək lazım idi ki, araukanların əsas qüvvəsini aşkarlayıb onları həlledici döyüşdə məhv etsinlər.

Bu müharibədə əsas rolu oynayacaq süvari dəstəsi artıq polkovnikin ixtiyarında idi. Çünki ekspedisiya iştirakçılarını maraqlandıran ən aktual məsələ həll olunmuşdu. Kapitan Xuan Odovaldonun başçılıq etdiyi kəşfiyyat dəstəsi Araukaniyada müəyyən edilib ölüm kabusundan xilas olunmuşdu. Polkovnik həmin dəstənin sağ qalmış üzvlərinə bildirdi ki, onların bu ölkədə göstərdikləri qəhrəmanlıqlar barəsində, İspaniya kralına şəxsən özü məlumat verəcək.

Artıq ekspedisiyanın Araukaniyada sonrakı fəaliyyəti barəsində düşünmək lazım idi. Polkovnik məsləhətləşmək üçün dəstənin bütün zabitlərini öz yanına çağırıb dedi:

- Bugünkü döyüşlərin nəticəsi hamınıza bəllidir. Şəxsən həmin nəticə məni qane etmir. Biz böyük itkilərə məruz qalmışıq. Hələ də bir çoxları araukanları ciddi rəqib kimi qəbul etmək istəmir. Bir çox döyüşçülər əsl taktiki döyüşü kəşfiyyata yollanmış döyüşçülərdən öyrənməlidir. Axırıncı döyüş zamanı onlar 5 nəfərlik qüvvə ilə düşmənin 20 nəfərlik qüvvəsini sıradan çıxartmışdılar. Biz isə bu qədər qüvvə ilə cəmi on dörd nəfərlik qüvvəni məhv edə bilmişik. Bu ki, biabırçılıqdır. Belə getsə, biz qələbənin üzünü görə bilməyəcəyik. Mənim əsas iradım leytenant Kamaçoyadır. Onun əsgərləri dəstənin kəşfiyyatçı funksiyasını yerinə yetirirdi. Onların səhlənkarlığı ucbatından biz hinduların qurduqları pusquya düşdük. Hələ bu azmış kimi onun əsgərləri hücuma keçdilər.

- Həmin döyüşdə mənim heç bir təqsirim olmayıb. - deyə Kamaço atasının üzünə baxmadan sıxıla-sıxıla dilləndi. - Əsgərlərim öz funksiyalarını yerinə yetirirdilər. Hamı çox yaxşı bilir ki, keçid çox dar idi və hər tərəf sıx kolluqlarla örtülmüşdü. Araukanların orada pusqu qurması heç kimin ağlına belə gəlməzdi. Döyüş ani surətdə baş verdi. Sanki araukanlar yerin altından çıxdılar. Oxlar hər tərəfdən yığdırılırdı. İlkin saniyələrdə bizdən altı nəfər oxla vuruldu. Məhz ondan sonra qəzəb içində olan əsgərlər hücuma keçdilər. Heç təsəvvürümə gətirməzdim ki, arau-

kanlar belə cidd-cəhdlə müqavimət göstərəcəklər. Mənə elə gəlir, həmin döyüşdə mən heç bir səhvə yol verməmişəm.

- Həmin döyüşdə kəşfiyyatçıların pusquya düşməsi labüd idi. - deyə kapitan Filipp Odovaldo ciddi halda dilləndi. - Çünki biz bir cərgə ilə hərəkət edirdik. Sərbəst fəaliyyət göstərməyə heç bir imkan yox idi. Təbii şərait buna imkan vermirdi. Araukanların gizləndiyi yer bizim üçün əlçatmaz sayılırdı. Mənə elə gəlir, bu işdə leytenant Kamaçonu günahkar saymaq olmaz. Araukanlar həmin yerdə pusqu qurmaqları ilə nə etdiklərini çox yaxşı bilirdilər.

Kapitan Filipp bir əmi kimi öz qardaşı oğlunu müdafiə etmək fikrində deyildi. O, bir zabit kimi mövcud reallığı izah edirdi. Əsl həqiqət də elə onun dediyi kimi idi. İndi isə bundan sonra nə etmək lazım gəldiyini müzakirə etmək gərəkdir. Bütün nöqsanları aradan qaldırılmaqla əsas tədbirə əl atmaq lazımdır idi. Bundan əlavə döyüş vaxtı ispanların əlinə altı yaralı hindu əsir düşmüşdü. Bu məsələ ilə bağlı Karlos söz aldı:

- Möhtərəm sinyorlar, bizim əlimizə altı nəfər yaralı hindu əsir düşüb. Daha doğrusu, silahdaşları onları döyüş meydanında atıb qaçıblar. Onların aqibəti neçə olaçaq?

- Bir cani kimi onların hamısı edam edilməlidir! - deyə kapitan qraf Xuan tərəddüd etmədən dilləndi. - Onların hamısının əli ispan əsgərinin qanına bulaşıb.

- Onların hamısını pusqu qurduqları yerdə ağaçlardan asmaq lazımdır. - deyə Kamaço hiddətlə dilləndi. - Qoy ondan sonra araukanlar bilsinlər ki, kimə qarşı pusqu qururlar.

- Buna dair başqa təklif yoxdur? - deyə polkovnik başını təəssüflə yellədərək, müəmmalı tərzdə dilləndi.

Bu o demək idi ki, polkovnik Alonso bu məsələyə dair zabitlərdən başqa təklif gözləyir. Yəni, hələlik edamdan söz gedə bilməz. Onun fikrini dərhal oxuyan kapitan Filipp üzünü qardaşına tərəf (Alonsoya) tutub ehtiramla dedi:

- Mənə elə gəlir, əsirləri tələm-tələsik edam etmək hələ tezdir. Biz əsirləri özümüzdə girov kimi saxlamalıyıq. Biz azğın düşmənlə müharibəyə başlamışıq. Həmin əsirlər bizə, döyüş əməliyyatları başa çatana qədər gərəkli olacaqlar.

- Sinyor Filipp, bizim əlimizdə olan əsirlər İspaniya krallığının qatı cinayətkarlarıdırlar. - deyə qraf Xuan qəti olaraq bu fikrə dair öz etirazını bildirdi. - Onların hamısı məhkəməsiz edam edilməlidirlər.

- Mən isə Filipplə tamamilə razıyam. - deyə polkovnik başını dik tutaraq qrafa nəzər salmadan iradə ilə dilləndi. - Mən məgər dedim ki, əsirlər məhv edilsin? Əlinə silah alan araukanların hamısı, bizim krallığın və əzəmətli kralımız II

Filippin qatı cinayətkarları sayılırlar. Söz verirəm ki, onların hamısı sərt üsullarla cəzalandırılacaqlar. Heç kimə aman verilməyəcək.

- Mülki əhaliyə də? - deyə qraf Xuan maraqlandı.

- Don Xuan, Araukaniyaya ayaq basan ispan əsgəri yalnız qayda-qanun yaratmaq üçün bura gəlibdir. - deyə polkovnik hökmlə dilləndi. - Biz bura ona görə gəlməmişik ki, Araukaniyada cəllad funksiyasını yerinə yetirək. Mülki əhali döyüş əməliyyatlarında iştirak etmirsə, onların hamısı tətbiq olunacaq cəza tədbirlərindən azad ediləcəklər. Həm də mən heç kimə ixtiyar vermərəm ki, əyninə ispan əsgərinin libasını geymiş adam burada mülki əhalinin qanını axıtsın. Cəllad və ya qatil üsullar bizim ekspedisiyadan uzaq olmalıdır. Biz bura yalnız və yalnız araukan döyüşçülərinə qarşı döyüşməyə gəlmişik. Zəfər bayrağını Araukaniyanın mərkəzinə sancandan sonra, İspaniyanın qoyduğu qayda- qanunlarını bu ölkədə bərpa edilərkən, kimin haqlı, kimin haqsız, kimin cinayətkar, kimin təmiz olduğunu qoy inzibati orqanlar araşdırıb müəyyən etsinlər. Nə qədər ki, Araukaniyada muharibə gedir, biz özümüzün əsgəri borcumuzu şərəflə yerinə yetirməliyik. Artıq düşmənin məğlubiyyəti göz qabağındadır. Biz ispan imperiyasının ayrılmaz hissəsi sayılan Araukaniyanın cinayətkar ünsürlərdən təmizləməliyik. Lakin əlimizə keçən əsirlərə qarşı heç

bir işgəncə tətbiq edilməməlidir. Onlarla yumşaq rəftar edilməlidir.

- Don Alonso, bildiyiniz kimi, bizə əsir düşən araukanların hamısı yaralıdır. - deyə leytenant Ernando üzrxahlıqla bu faktı ekspedisiya rəisinin yadına saldı. - Özü də onların ikisinin vəziyyəti daha ağırdır. Belə olan halda nə etməliyik?

- Bizim yaralı döyüşçülərimiz ilə yanaşı düşmən yaralıları da müalicə olunmalıdırlar. - deyə polkovnik tərəddüd etmədən dilləndi. - Biz öz xeyirxahlığımızı düşmənə nümayiş etdirməliyik. Bəlkə, bundan sonra onlar bizim kimliyimizi yaxşı tanıyacaqlar. Mən çox yaxşı bilirəm ki, əvvəlki ekspedisiyalardan sonra araukanlar bizim əsgərləri rəzil və amansız kimi tanıyırlar. İndi bunun əksi baş verməlidir. Bizim kimliyimiz hamıya bəlli olmalıdır. Bütün yaralılara ilkin tibbi-yardım edilməlidir.

- Don Alonso, mən bu məsələyə dair bəzi aydınlıq gətirmək istəyirəm. - deyə qraf Xuan oz fikrini bildirmək üçün söz aldı. - Bildiyiniz kimi bu günki döyüş zamanı bizim ekspedisiyamızdan həlak olanlar var. Həlak olanların yaxın dostları və qohumları bir ağızdan söz veriblər ki, onların qanını yerdə qoymayacaqlar. Onlar bilsələr ki, əsir alınan hindular nəinki edam ediləcək, hətta bizim təbiblər

tərəfindən müalicə olunacaqlar, dəstədə hansı qalmaqalın başlayacağını təsəvvür etmək çətin deyil.

- Heç kimin ixtiyarı yoxdur ki, mənim icazəm olmadan əsirlərə toxunsun. - deyə polkovnik sifətini turşudaraq qətiyyətlə dilləndi. - Əgər, onların başından bircə tük əskik olsa, onda mən ciddi tədbirlərə əl atmalı olacağam. Mənim göstərişimi bütün ekspedisiya iştirakçılarına çatdırın: yaralı araukanlar bizim soydaşlarımızla paralel olaraq müalicə olunacaqlar. Xüsusən də ağır yaralılara möhkəm qayğı göstərilməlidir. Bir daha bu məsələyə qayıtmayaq.

Əlbəttə, heç kim cəsarət etməzdi ki, polkovnikin bir sözünü iki eləsin. Həm kapitan qraf Xuan, həm də Kamaço ilə Karlos öz daxillərində hirslərini boğmağa başladılar. Polkovnikin ciddi xəbərdarlığından sonra onlar əlacsız qalaraq bir-birilərinə hiddət dolu nəzərlər yetirirdilər. Polkovnikin yaralı araukanları müdafiə etməsi nəinki onları, hətta başqa zabitləri də vəcdə gətirmişdi. Lakin heç kim öz etirazını bildirmirdi. Polkovnikin sözündən çıxmaq isə qətiyyən olmazdı. Bunun axırı çox pis olardı.

- Don Alonso, vadidəki kəndlər boş-boşuna qalıb. - deyə kapitan Alonso mövzunu dəyişməli oldu. - Deyirəm, araukanlar həmin kəndlərdən səmərəli istifadə edərlər. Kəndlərə dair nəsə, tədbir görmək lazımdır?

- Vadi bütünlüklə bizim ixtiyarımızdadır. - deyə polkovnik bir az tərəddüd edəndən sonra ehtirasla dilləndi. - Burda yerləşən kəndlərdən də səmərəli istifadə etmək lazımdır. İlk növbədə bütün yaralılar bizə yaxın kənddə yerləşdirilməlidirlər. Kəndin aşağı hissəsində qəbristanlıq təşkil edilməli və həlak olan silahdaşlarımız həmin qəbristanlıqda dəfn edilməlidir. Yaralılarımız çox olduğundan kəndə beş nəfərdən ibarət mühafizəçi dəstəsi qoymaq lazımdır. Həmin beş nəfər düşmənin bütün gözlənilməz hücumlarına hazır olmalıdır. Bütün vadinin təhlükəsizliyi məhz onlara tapşırılmalıdır.

Bu irilikdə vadidə beş nəfərdən ibarət mühafizəçi dəstəsi saxlamaq həddindən artıq böyük risk tələb edirdi. Bütün vadi və kənddə müalicə olunacaq adamların təhlukəsizliyi onların öhdəsinə düşürdü. Polkovnik çox yaxşı bilirdi ki, vadinin şimal sərhədlərindən bir qədər aralı hindu kəndi yerləşir və orada araukanların xeyli qüvvəsi cəmləşib. Onlar hər an həmin kəndi tərk edib vadiyə daxil ola bilərlər. Həmin kənddəki aborigenləri nəzarət altında saxlamaq hələlik mümkün deyildi. Onları nəzarət altında saxlamaq üçün polkovnik Alonso tabeliyində olan əsgərlərin müəyyən bir hissəsini ayırmalı idi. O, isə ildırım sürəti ilə, başladığı hücumu davam etdirmək fikrində idi.

Vaxtı ilə bu torpaqda yerli əhaliyə qarşı döyüşmüş konkistadorlar izah edirlər ki, bu meşəni keçəndən sonra, ensiz hündür olmayan dağlar yerləşir, həmin dağları keçmək üçün bir çox keçidlərdən istifadə etmək lazım gələcək. Araukanlar həmin keçidləri cidd-cəhdlə müdafiə edirdilər. İş ondadır ki, həmin dağların yamaclarında bir neçə dənə hindu kəndləri yerləşir. Moluy qəbiləsinin əsas əhalisi həmin kəndlərdə yaşayır. Ən maraqlısı odur ki, həmin dağlardan o tərəfdə münbit torpaqlarla əhatə olunmuş geniş bir vadi yerləşir. Vadi demək olar ki, dörd tərəfdən dağlarla əhatə olunubdur.

Dağların 75 faizi sıx meşələrlə örtülmüşdü. Yalnız cənub istiqamətindəki dağlar (Anqud körfəzinə yaxın yerlər) meşə örtüyündən məhrum idi. Konkistadorların dediyinə görə təkcə həmin vadidə araukanların 6 kəndi yerləşir. Amma o da, mə`lum idi ki, vadinin bütün ətrafı kiçik dağlarla, kiçik dağlardan sonra hündür dağlarla əhatə olunmuşdu. Söz yox ki, vadini tərk edəcək araukanlar dağlara tərəf çəkilməyə çalışacaqlar. Qarşıda yay fəsli gəldiyi üçün onlar isti günlərini dağlarda keçirməyə üstünlük verəcəklər. Qış fəslində isə onlar istər-istəməz, məcburiyyət qarşısında qalaraq aşağı enəcəklər.

Lakin polkovnik Alonso yay fəslinin elə birinci ayında inadkarlıq göstərən düşməni darmadağın etmək istəyirdi. O,

bir sərkərdə kimi çox yaxşı bilirdi ki, qısa müddətə düşmən darmadağın edilməsə, onda araukanları məğlub etmək xeyli mürəkkəbləşəcək.

Nəzərdə tutulan vadiyə daxil olmaq heç də asan olmayacaq, amma buna baxmayaraq polkovnik yürüşü davam etdirmək fikrində idi. Halbuki bu qədər əsgərlə o, araukanların qurduqları pusquları keçməkdə çətinlik çəkəcək. Onun bu işinin həyata keçməsi üçün ixtiyarına keçən süvari dəstəsi mühüm rol oyanayacaq. Süvari dəstəsi ildırım surəti ilə düşmənə gözlənilməz zərbələr endirə bilər. Lakin o, süvari dəstəsini özü ilə meşənin sıx çığırları ilə apara bilməzdi. Araukanların ox atanları çətinlik çəkmədən süvariləri lokallaşdıra bilərlər. Burda başqa tədbirə əl atmaq lazım idi. Süvari dəstəsi başqa yol ilə vadiyə tərəf getməlidir. Köhnə konkistadorların dediyinə görə vadiyə Anqud körfəzinin şərq sahilboyu ilə getmək olar. Lakin onlar vadiyə çatana qədər, Anqud körfəzinə sürətlə tökülən iki çayı keçməlidirlər.

Polkovnik Alonso bir sərkərdə kimi bu plandan istifadə etməyi qərara aldı. Əsas qüvvə vadiyə çatana qədər süvari dəstəsi düşmənə arxadan sarsıdıcı zərbə endirməli idi. Lakin onu da nəzərə almaq lazımdır ki, vadidə araukanların həddindən artıq çox qüvvəsi yerləşə bilərdi. Süvarilər sadəcə olaraq, onları məğlub etməkdə çətinlik çəkəcəklər.

Onda polkovnikin ağlına yaxşı bir fikir gəldi; süvari dəstəsi 50 nəfərdən ibarət idi. Əlbəttə bu qüvvə düşmənin çoxsaylı qoşununu darmadağın etməkdə çox çətinlik çəkəcək. Polkovnik süvarilərin sayını 80 nəfərə çatdırmağı qərara aldı. Arkebuz və muşketlərlə silahlanmış 30 nəfər əsgər kapitan Alonsonun ixtiyarına verildi. Atların 20-sində tək adam, 30-da isə iki adam uzun yolu qət etməli idi. Bununla da o, öz dəstəsini xeyli zəiflətmiş olurdu.

Anqud körfəzindən hücuma başlayanda onun başçılıq etdiyi dəstədə 110 nəfər adam vardı. Birinci döyüş nəticəsində həmin dəstə yaralılarla birlikdə 20 adam itirir. İndi də 30 nəfər süvari dəstəsinə keçəndə, həmin dəstədə 60 nəfər adam qalırdı. Bu qədər qüvvə ilə düşmən əhatəsində vadiyə doğru hərəkət etmək çox təhlukəli idi. Lakin polkovnik Alonso çox bacarıqlı sərkərdə idi və nə etdiyini yaxşı bilirdi. Onun ixtiyarında 60 nəfər adam var və onların hamısı da atıcılar idi. Bu qədər əsgər ilə o, düşmənin 500 nəfərlik qüvvəsinə qarşı müvəffəqiyyətli hərbi əməliyyat apara bilər. Hər ehtimala qarşı o, bu haqda qardaşı Xuan ilə məsləhətləşməli oldu. Polkovnik onu yanına çağırtdırıb öz qərarını qardaşına söylədi. Xuan qulaq asandan sonra dedi:

- Mən Araukaniyaya gələndə elə bilirdim ki, buranın aborigenləri Meksikanın aborigenləri kimi eynidirlər. Lakin araukanlar öz inadkarlıqlarına və cəsarətlərinə görə heç bir

hindu tayfasına oxşamırlar. Hər bir qərar çıxarılanda biz yüz dəfə ölçüb, bir dəfə biçməliyik.

- Başa düşmədim, çıxardığım qərar sənin xoşuna gəlmədi? - deyə polkovnik müəmmalı tərzdə dilləndi. – Bu qərara dair fikrin varsa, söylə?

- Biz hamımız elə hey hücum barəsində fikirləşirik, amma arxa tərəfimizdə düşmənin xeyli qüvvəsi var. - deyə Xuan aludəliklə dilləndi.

- Sən istehkam qurulan kənddəki hinduların qüvvəsini nəzərdə tutursan? - deyə Alonso həmin tərzdə dilləndi.

- Əlbəttə! - deyə Xuan tərəddüd etmədən cavab verdi. - həmin kənddə araukanların üç yüz nəfərlik qüvvəsi cəmləşib. Onlar hər an bizə arxadan zərbə endirə bilərlər.

- Hələlik aborigenlər müdafiə haqqında fikirləşirlər. Hücum etmək onların yadına düşmür. Biz cənubdakı vadini ələ keçirəndən sonra süvari dəstəsini həmin kəndə göndərərik. Vadini ələ keçirmək üçün bizə üç-dörd gün vaxt gərək olacaq. İnanmıram ki, həmin müddət ərzində araukanlar hücum barəsində fikirləşsinlər.

- Birdən bizim hücum əməliyyatımız bir həftəyə kimi uzandı, onda necə olacaq?

- Xuan, mən həmişə risq etməyə vərdiş etmişəm. Həmişə də risqin sayəsində mən müvəffəqiyyətlər qazanmışam. Bu dəfə mən risqə əl atmasam, onda Araukaniyadakı muharibə

xeyli uzanacaq. Mən isə istəməzdim ki, buradakı hərbi əməliyyatlar bir aydan çox uzansın.

- Bu məsələyə bir balaca ciddi yanaşmaq lazımdır. İndiyənə qədər heç bir ispan ekspedisiyası Araukaniyada başlanan müharibəni müvəffəqiyyətlə başa çatdırmayıbdır. Çünki onlar vaxtı ilə çoxlu hərbi taktiki səhvlərə yol veriblər. Həmin səhvləri təkrarlamağa heç bir ehtiyac yoxdur.

- Xuan, sən uşaqlıqdan həmişə başını böyük qalmaqallara qatırdın. İştirak etdiyin döyüş əməliyyatlarında təhlükəli risqlərə əl atırdın. İndi isə risq etmək istəmirsən. Bu ondan xəbər verir ki, sən artıq araukanların döyüş taktikasına və qəliz xasiyyətlərinə bələdsən. Ancaq buna baxmayaraq mən risq etməliyəm.

- Alonso, mən heç nədən yox, yalnız bu kənddə (əli ilə kəndi göstərərək) qalan silahdaşlarımızdan qorxuram. Araukanlar bir həmləyə onları məhv edə bilərlər.

- Düşmən nə qədər inadkar olsa da, onlar hələlik bura gəlməkdən ehtiyat edəcəklər. Ona görə ki, həm şərqdə, həm qərbdə, həm də cənubda bizim qüvvələr yerləşir. Araukanlar elə biləcək ki, həmin kənddə az qüvvə yerləşdirməklə, biz onlara tələ qurmuşuq. Onlar özlərinə gələnə kimi biz cənubdakı hərbi əməliyyatları başa çatdırarıq.

Polkovnik Alonso həqiqətən də ağılabatan təklif verirdi. Hazırda araukanlar stress vəziyyətində idilər. Əks hücuma keçmək üçün onlar özlərinə gəlməliydilər. Çox güman ki, hindular müdafiədən başqa əlavə tədbirlərə əl atmayacaqlar. İndi konkistadorlar Araukaniyanın bütün ərazisində döyüş əməliyyatları aparırdılar. Hələlik onların hücumlarına tab gətirmək mümkün deyildi. Araukanlar yalnız pusqu qurmaqla kifayətlənirdilər. İş ondadır ki, həmin taktika onlara böyük xeyir gətirirdi. Çünki pusqu döyüşləri ilə onlar ispanların iti sürətli hücumlarının qarşısını almağa müəssər olurdular.

Kapitan Xuan uşaqlıqdan davakar adam olub və düşmənə qarşı aparılan hərbi əməliyyatlarda həmişə radikal addımlar atmağı xoşlayırdı. Hər bir döyüşçüdən cəsarəti və inadkarlığı ilə fərqlənirdi. Lakin son zamanlar araukanlarla döyüşəndən sonra o, düşmən qarşısında ehtiyatlı olmağa və bütün tədbirlərdə ağıl ilə davranmağı üstün tuturdu. Aborigenlər öz cəsarətinə, şücaətinə və düşmənə qarşı taktiki döyüş tətbiq etməsinə görə, həqiqətən də heç bir hindu tayfasına oxşamırdılar. Onların döyüş üslubu vaxtı ilə alman barbarlarının Roma imperiyasının əsgərlərinə qarşı tətbiq etdikləri döyüş üslublarını xatırladırdı. Buna dair nümunələri çox sadalamaq olardı.

Alonso təcrübəli sərkərdə olduğu üçün hər bir məsələdə Xuan onunla razılaşmalı idi. Necə də olsa, Alonso da araukanlara dair çox məlumatlar toplanmışdı və onlara qarşı hansı döyüş taktikasını tətbiq etməyi polkovnik çox yaxşı bilirdi. Polkovnik bu müharibəyə çox ciddi hazırlaşmış və vətənə qələbə ilə qayıtmaqı qarşısına məqsəd qoymuşdu. Bu ilin sonuna qədər araukan məsələsi birdəfəlik həll olunmalı idi. İspaniyanın əsarəti altında olan Amerika qitəsindəki sonuncu müqavimət ocağı əbədi söndürülməliydi.

VI fəsil. Asan olmayan keçid

Vadiyə yola düşməmişdən əvvəl kapitan Xuan qardaşına bildirdi ki, o salamat qalmış üç silahdaşı ilə birlikdə, süvari dəstəsinin köməyilə vadiyə getmək istəyir. Onun xahişini nəzərə alaraq, polkovnik Alonso qardaşını süvari dəstəsinin komandiri, kapitan Alonsonu isə Xuanın müavini təyin etdi. Leytenant Andre süvari dəstəsinə təhkim edilmiş 30 atıcının komandiri təyin edildi. Migel, Dias Duarte atıcılar

siyahısına daxil oldular. Başqalarından fərqli olaraq onlar odlu silahdan boyun qaçırtdılar.

Günorta yeməyindən sonra süvari dəstəsi öz silahdaşlarından ayrılaraq cənub, cənub-qərb istiqamətində yola düşdü. Meşənin bu hissəsi çox nahamar idi. Dağların yamaclarındakı təpələr çox hündür idi. Ağaclar kobud halda bitdiyindən dəstə yalnız bir cərgə ilə hərəkət edirdi. Bir neçə saat bundan əvvəl meşənin girəcəyində düşmən ilə döyüş getdiyindən konkistadorlar meşənin bu hissəsində ehtiyatlı olmalıydılar. Çünki araukanlar hələ də burada ola bilərdilər. Bunun üçün kapitan Xuan beş nəfərdən ibarət iyirmi-otuz metr qabaqda kəşfiyyatçı göndərdi. Onlar yol açandan sonra süvarilər irəliləyişlərini davam etdirirdilər. Araukanlar hər kolun, hər ağacın arxasında konkistadorlara pusqu qura bilərdilər. Hər ehtimala qarşı artıq döyüşçülər atlardan aşağı enib piyada hərəkət edirdilər. Çünki pusquya düşən kimi məhz onlar ilk döyüşü öz üzərilərinə götürməliydilər.

Xoşbəxtlikdən hava quraqlıq idi. Atlar rahat halda xəzəl ilə örtülmüş təpələrə qalxır və enirdi. Bəzi yerlərdə təpələrin ətəyi dik uçurumla əhatə olunurdu. Belə olan halda dəstə geri dönməli olurdu. Onlar xeyli getmişdilər ki, birdən qarşılarına ensiz düzənlik çıxdı. Həmin düzənlik dağların arasında yerləşirdi. Düzənlikdən o tərəfdə daha bir

dərə vardı və həmin dərədən eni 40-50 metr olan çay keçirdi. Meşənin bu sərhədindən çaya çatmaq üçün təxminən yarım liq yol qət etmək lazım idi. Lakin çayın o biri tərəfindən yenə də meşə sərhədi başlayırdı. Uzaqdan görmək olurdu ki, qarşıdakı araukariya ağaclarından ibarət olan meşədir. Həmin meşədə süvari dəstəsi sərbəst hərəkət etmək iqtidarında idi. Çünki ölkədə bitən araukariya meşələrinə işıqlı meşələr deyirdilər. Orada ağaclar seyrək halda bitirdi və günəşin şüaları maneəsiz olaraq yerə çatırdı. Bu meşə hündür olmayan dağların ətəyində yerləşirdi. Sağ tərəfdə Anqud körfəzinə yaxın dağların hündurlüyü iki dəfə alçaq idi. Ümumiyyətlə, buradan Anqud körfəzinə qədər təxminən 1 liq məsafə vardı. Elə qarşıdakı çayın suları da həmin körfəzə tökülürdü. Kolluqlarla əhatə olunmuş düzənlik hər tərəfdən nəzarət altında saxlanıla bilərdi. Kəsik-kəsik dərələrlə əhatə olunan bu torpaqda da araukanlar pusqu qura bilərdilər.

Kapitan Xuan çox yaxşı bilirdi ki, onlar gizlin şəkildə bu düzənliyi qət edə bilməyəcəklər. Deməli, süvarilərin hərəkətinin məxfiliyi aradan qaldırılırdı. Qorxmaz komandir atını qabağa sürərək dəstəni öz ardınca apardı. Onlar düz yox, yenə də cənub-qərb istiqamətində irəlilədilər. Kapitan istəyirdi ki, alçaq dağlara daxil olmaq üçün, çayı həmin səmtdə keçsin. Çayın kənarında ağaclar, düzənliyə nisbətən

bir balaca sıx şəkildə bitirdi. Düşmən çox asanlıqla həmin aqacların arxasında da gizlənə bilərdi. Məhz buna görə də kapitan Xuan burada da öz ehtiyatını əldən vermədi. O, dərhal çayın sahilində ayaq saxlayaraq, qabağa beş nəfərdən ibarət kəşfiyyatçı göndərdi. Həmin kəşfiyyatçıların arasında Migel ilə arbalyotçu Dias Duarte də vardı. Onlar çayın sahilini tədqiq etməklə, o biri sahilə keçmək üçün münasib keçid tapmalıydılar.

Çay özü şərqdən qərbə doğru çox sürətlə axırdı. Buralar dağlıq zona olduğu üçün çay çox halda gah sağa, gah da sola burulurdu. Çayın sahilindəki ağaclar yarı əyilmiş halda budaqlarını suya sallayırdı. Orada çox vaxt Araukaniyanın ekzotik quşlarını görmək olurdu. Çayın şırıltısı ilə quşların oxuduğu nəğmələr bir-birinə qarışaraq, adamı döyüş meydanından bir müddət kənarlaşdırırdı. Sanki ispanlar müharibəyə yox, istirahət etməyə gəlmişdilər.

Anqud körfəzinə məsafə az olduquna baxmayaraq buradan körfəzi görmək mümkün deyildi. Ona görə ki, körfəzin qarşısını qabaqdakı dağlar kəsirdi. Düz yol ilə ora çatmaq 1 liqdirsə, daqların arası ilə gedib ora çatmaq üçün liq yarım yol qət etmək lazım idi. Hazırda konkistadorları yalnız çaydan keçmək maraqlandırırdı. Ondan sonra körfəzin sahilinə çatmaq onlar üçün heç bir çətinlik törətməyəcəkdi.

Nənayət Migelgil çayı keçmək üçün münasib yer tapdılar. Burada çayın eni təxminən 40 metrə qədər olardı, dərinliyi isə ortaboylu adamın sinəsinə qədər idi. Çay sürətlə axdığından və dibi çay daşları ilə dolu olduğuna görə, bu sahildən o biri sahilə qədər keçid həddindən artıq böyük zəhmət tələb edirdi. Adam addımlarını ehtiyatla atmasa, çay çox asanlıqla həmin adamı özü ilə körfəz istiqamətində apara bilərdi. Çoxlarının çaydan keçmək təcrübəsi yox idi. Xüsusən də at belində çayı keçmək üçün xüsusi bacarıq lazım idi.

Bütün dəstə həmin yerə gəlib çatdı. Kapitan Xuan Meksikada olarkən belə çay keçidlərində tez-tez iştirak etmişdi. Çayın bu sahilindən, o biri sahilinə kimi kəndir uzatmaq lazım idi. Kəndirin ucları ağaclara möhkəmcə bağlanmalıydı. Bacarığı olmayanlar kəndirin vasitəsilə çayın o biri sahilinə keçməliydilər. Kapitan bu üsul ilə əsgərlərini texniki təhlükəsizliklə təmin etmək istəyirdi.

İlk növbədə Migelin hələ Kitodan tanıdığı "qəribə" tanışları Luis Kempes və arbalyotçular Lope İnyeslə, Xulio Menendes çayı keçdilər. Luisdən başqa hər iki arbalyotçu süvari dəstəsinə daxil edilmişdi. Onlar müvəqqəti olaraq çayın sahilini tədqiq etməliydilər. Araukanlar çox güman ki, sahildə pusqu qura bilərdilər. Paralel olaraq onlar çayı keçməyə çəhd edən silahdaşlarının təhlükəsizliyini təmin

etməli idilər. Onlardan sonra kapitan Xuan at belində, Migel, Dias Duarte və üç başqa atıcı piyada çayı keçməyə başladılar. Kəndirin ucunu isə atıcılar özləri ilə dartırdılar.

Sahilin kənarı hamar idi və kol-kosla örtülmüşdü. On-on beş addımdan sonra dik yamac vardı və yamacın hər bir kənarı ilə cığır yolları gedirdi. Getdikcə həmin cığır yollar enli dərələrin içərisinə daxil olurdu. Dərələr hündür yamacların arasında itib batırdı. Təxminən 200-250 metr aralıda araukariya meşəsi başlayırdı. Sahilə birinci çıxanlar peşəkar döyüşçü kimi ilk novbədə yamacın başına çıxıb, oradan yaxın ətrafı nəzərdən keçirməliydilər. Lakin onlar aşağıdan yuxarını seyr edərək, üst-başlarını səliqə-səhmana salmağa başladılar. Ayaqlarındakı uzunboğaz çəkmələrini sudan azad edirdilər. Çünki belə bir vəziyyətdə yerimək çox çətin idi. Məhz hazırlıqlı vəziyyətdə olandan sonra onlar yamacı yoxlamalıydılar. Lakin həmin ərəfəyə qədər onlardan başqa sahilə heç kim çıxmamalı idı. Çayı keçməyə tələsən kapitangil artıq sahilə çatmaq üzrə idilər. Komandirin fikrincə, araukanlar sahildə olsaydılar, çoxdan sahilə çıxan üç konkistadorun üstünə hücum çəkərdilər.

Beləliklə, çayı keçməyə cəhd edənlər sahilə çıxdılar. Hamı bir nəfərə kimi çəkmələrini çıxardaraq içindəki suyu boşaltdılar. Bu vaxt kapitan qraf Filipp və uç atıcı böyük ehtiyatla çayı keçməyə başladılar. İş ondadır ki, onlar

sahildə ağaca yenicə bağlanan kəndirdən yapışırdılar. Bu vaxt isə Migel bir əsgərin köməyi ilə kəndiri yamacın altında bitən araukariya ağacına bağlayaraq öz işini qurtarmış oldu. Ehtiyatını əldən verməк istəməyən kapitan Xuan, Luisi bir əsgərlə yamacı yoxlamaq üçün yuxarı göndərdi. Migel hiss etdi ki, kapitanın tapşırığı Luisin ürəyindən olmadı.

Sağ tərəfdə, bir qədər aralıda balaca təpə vardı. Həmin təpənin üstündə iki bambuk ağacı bitirdi, ağacların gövdələri isə qalın kolluqlarla örtülmüşdü. Kapitan ora nəzər salandan sonra belə qənaətə gəldi ki, həmin yeri də yoxlamaq lazımdır. Kapitan Xuan təpənin yoxlanışına Lope İnyeslə birlikdə Dias Duarteni göndərdi. Onlar bir neçə addım atmışdılar ki, birdən yamacın arxasında qışqırıq səsləri eşidildi. İspanlar həmin dəqiqə başa düşmək olar ki, Luisgil araukanların qurduqları pusquya düşüblər. Migel yanındakı əsgərlə birlikdə həmin yerə qaçmaq istəyirdi ki, bir də gördü Luis beş-altı nəfərin əhatəsində döyüşə-döyüşə sahilə tərəf çəkilməyə can atır. Döyüş yamacın sağ tərəfində başlanmışdı. Onunla gedən əsgərdən heç bir əsər-əlamət yox idi. Çox güman ki, düşmənlər onu məhv etmişdilər. Elə bu dəmdə yamacın arxasından on nəfərə yaxın araukan qışqıra-qışqıra hücuma keçdilər. Migelin yanındakı əsgər dərhal əlindəki muşket ilə hindunun birini

vurdu və silahını hazırlıqlı vəziyyətə gətirmək üçün geri çəkildi. Vəziyyəti belə görən Migel qılınclarını əlinə alaraq yamacın divarında gizləndi. Həmin yerdə aşağıdan yuxarıya kimi sarmaşıqlar bitirdi. Hücuma keçən aborigenlər onun yanından ötüb kapitangil ilə toqquşdular. Yamacın sol tərəfindən də təxminən on nəfərə yaxın araukan çıxaraq sahilə tərəf hücuma keçdilər. Çevik tərpənən konkistadorlar muşket və arbalyotlardan istifadə edərək elə ilkin toqquşma zamanı daha dörd düşməni sıradan çıxartdılar.

Qraf Filipp hələ çayın ortasında olan zaman əsgərlərlə birlikdə yamacın üstünü nişan alaraq oradakı hədəfləri vurmağa başladı. Migel o dəqiqə başa duşdü ki, yamacın üstundə hindular var və onlar yuxarıda fəaliyyət göstərirlər. Çox güman ki, yuxarıda mövqe tutanlar ox atanlar idi.

Migel sarmaşıqların arasından çıxanda gördü ki, Luis artıq beş-altı nəfərin yox, doqquz nəfərin əhatəsində döyuşur və onlar demək olar ki, cavan zadəgandan beş-altı addım aralıda idilər. Migel nərə çəkərək pişik kimi onların üstünə şığıdı. Cavan zadəganın gözlənilməz hücumuna məruz qalan araukanlardan ikisi dərhal məhv edildi. Fürsətdən istifadə edən Luis, silahdaşının gözlənilməz hücumundan çaşqınlığa düşən düşmənin birini qılıncdan keçirdi. Belə olan halda araukanlar iki hissəyə bölünərək konkistadorların birləşməsinə maneəçilik törətdilər. Üç

nəfərə qarşı döyuşmək Migel üçün çətin deyildi. Elə ilkin toqquşma zamanı o, hücuma keçərək rəqiblərinə bir-birinin ardınca zərbələr endirməyə başladı. İş elə gətirdi ki, araukanın birinin əlindən silahı yerə düşdü və o, geri çəkilməyə məcbur oldu. Migel isə hücumunu davam etdirərək, möhkəm zərbə ilə yaxında olan rəqibinin sağ əlini silah qarışıq biləyindən böldu. Elə oldu ki, qan duz Migelin üzünə sıçradı. Ağrıdan qeyri-insani səs çıxardan hindu sol əli ilə yaralı qolunu tutaraq döyuş meydanından uzaqlaşdı. Qan elə sıçramışdı ki, hətta Migelin sağ gözunə də dolmuşdu və o, hucumunu dayandırmalı oldu. Qarşısındakı düşmən isə qorxudan hətta hücuma keçmək istəmədi. Luisə qarşı döyüşən aborigenlər da geri çəkilməyə məcbur oldular. O, belə bir dönuşun olacağını gözləmirdi. Üstünlüyü görən Luis cəld onların üzərinə hücum etmək istədi. Lakin Migel onun qolundan tutaraq mane oldu və bunu onunla izah etdi ki, divardan aralanan kimi yamacın üstündəki hindular çox asanlıqla onları ox ilə vuracaqlar.

VII fəsil. Araukanlar ciddi müqavimət göstərirlər

Çayın ortasında olan konkistadorlar hələ də yamacın üstündəki hədəfi ox ilə vururdular. Bundan əlavə on nəfərə yaxın atıcı çaya girib yoldaşlarına kömək əlini uzatmaq üçün o biri sahilə üz tutdular. Lakin sahili keçmək heç də asan deyildi. Bəzi adamlar özünü saxlaya bilməyib suya yıxılırdı. Buna baxmayaraq sahilin bu biri tayındakı və çayın ortasındakı atıcıların muşketləri böyük effekt verirdi. Atəşin altında tab gətirməyən araukanlar yavaş-yavaş geri çəkilməyə başladılar. Həmin ərəfədə qraf Filipp üç atıcı ilə artıq sahilə çıxmışdı.

Hiss olunurdu ki, yamacın üstündəki araukanlar öz mövqelərini tərk etmişdilər. Artıq Migel ilə Luis üçün hücuma keçməyə əlverişli imkan yaranmışdı. Lakin Migel gördü ki, Luis arxadan ox ilə yaralanıb. O, yaralansa da hələlik ağrını hiss etmirdi. Hücuma hazırlaşan Migel üzünü ona tərəf tutaraq həyəcanla soruşdu:

- Halın neçədir? Döyüşü davam etdirə bilərsən?

- Arxadan atılan ox mənim kimi adamı dizləri üstə çökdürməlidir? - deyə Luis qeyri-müəyyən tərzdə dilləndi. - Mənim qolumdakı qüvvə hələ tükənməyib.

- Onda irəli! - deyə Migel qışqıraraq geri çəkilən hindulara arxadan hücum etdi.

Elə çata-çatda Migel var qüvvəsi ilə arxadan rəqibinin başına qılınc ilə zərbə endirdi. Əvvəllər olduğu kimi bu dəfə də onun qurbanının başı tən ortadan yarıldı. Birinci qurban yerə yıxılmamış, həmin an cavan zadəgan ikinci qılıncını növbəti qurbanının böyrəyinə sancdı. Hindunun əynində köynək olmadığından yarasından çıxan qan fəvvarə kimi Migelin üstünə töküldü. Sanki aborigenlər iki tərəfdən mühasirəyə alınmışdılar. Həmin ərəfədə Luis də bir hindunu məhv etmişdi. Lakin araukanlar döyüşü dayandırmaq fikrində deyildilər. Onlar yamaca kimi geri çəkilərək konkistadorlara daha kəskin müqavimət göstərirdilər. Dörd nəfər hindu bu dəfə Migeli yamacın divarına tərəf sıxaraq, onu silahdaşlarından ayırmağa çalışdılar. Daha da cuşa gələn Migel bu döyüşə bütün bacarığını səfərbər etdi. Ona qarşı döyüşənlərin ikisi balta, o biri iki nəfər isə nizə ilə silahlanmışdı. Nizə ilə silahlananlar Migeli divara sıxışdırır, o biriləri balta ilə fasiləsiz zərbələr endirirdilər. Migel başa düşdü ki, qarşısındakı rəqiblər öz silahlarından çox bacarıqla istifadə edirlər. Onların döyüş təcrübəsi başqalarına nisbətən daha üstündür.

Artıq bu ərəfədə daha üç atıcı sahilə çıxmışdı və onlar kapitan Xuanın başçılığı altında hücuma keçmişdilər. Qraf

Filipp isə üç atıcı ilə araukanları təpəyə tərəf sıxışdırırdı. Təpəyə çatmağa demək olar ki, heç nə qalmamışdı. Hindular, hətta, yavaş-yavaş təpəyə də qalxmışdılar.

Migeli yamacın divarına sıxışdıran aborigenlər də öz silahdaşlarına qoşularaq yavaş-yavaş geri çəkilməyə başladılar. Lakin bir az keçəndən sonra onlar yamacın arxasına gedən yolun üstündə dayanaraq kəskin müqaviməq göstərməyə başladılar. Anlamaq çətin deyildi ki, araukanlar hansısa bir hiyləgərliyə əl atmaq istəyirlər. At belindən düşmüş kapitan Xuanın başı döyüşə elə qarışmışdı ki, o, bir anlığa bütün ehtiyatını əldən vermişdi. Hindular təklikdə olan süvarini çətinlik çəkmədən məhv edə bilərdilər.

Kapitan Xuanın yaxınlığında döyüşən Migel gördü ki, bəzi konkistadorlar yavaş-yavaş atılan oxdan zərərsizləşdirilir. Hətta eləsi vardı ki, ona iki ox dəymişdi. İş ondadır ki, döyüşən araukanların arasında kaman ilə silahlanan yox idi. Deməli, oxlar yamacın arxasındakı hündür kolluqların arxasından atılırdı. Üçüncü konkistador ox ilə öldürüləndən sonra Migel kapitana dedi ki, araukanlar qurduqları pusqudan konkistadorları ox ilə vururlar və məsləhət gördü ki, vaxt itirmədən hamı sahilin kənarına çəkilsin.

Artıq kapitan da gördü ki, onun döyüşçülərinin sırası seyrəlir. Belə olan halda o, - "Hamı sahilin kənarına çəkilsin. - qışqıraraq geri çəkilməyə başladı.

Elə bu an qraf Filipp döyüşən istiqamətdə aborigenlər qışqırıq sədaları altında hücuma keçdilər. Araukanlar orada da hiyləgar fəndə al atmışdılar. Qarşıdakı hindular onlara qarşı döyüşən konkistadorları tələyə salmaqdan ötrü, sağda yerləşən təpəyə tərəf çəkilmişdilər. Təpənin arxasında gizlənən oxatanlar onları ox yaylımına tutaraq iti sürətlə əks-hücuma keçmişdilər. Nəticədə iki nəfər öldürülmüş, qraf Filipp ilə atıcının biri yaralanmışdı. Qraf Filipp sol ombasından yaralanaraq cəld döyüş meydanından uzaqlaşmağa başladı. Atıcı əsgər kirasada olduğundan hindular onu ayaqlarından vurmuşdular. Sürətlə qaçmağa imkanı olmayan əsgəri demək olar ki, həmin an yolda haqladılar və balta ilə yaralının başına və kürəyinə dalbadal zərbələr endirməyə başladılar. Bu dəhşətli səhnəni sezmək heç də asan deyildi. Hiddətini gizlədə bilməyən kapitan Xuan atına minib, nərə çəkərək təkbaşına həmin istiqamətdə hücuma keçdi. Orada hinduların sayı təxminən iyirmi nəfər olardı və kapitan Xuan çox keçmədən düşmən tərəfindən öldürülə bilərdi. Düşmən demək olar ki, hərtərəfli hücuma keçmişdi və konkistadorları geri çəkilməyə məcbur edirdi.

Komandirini darda qoymaq istəməyən Migel dərhal təpə istiqamətində hücuma keçdi. Kürəyindən yaralanan Luis də hücum etmək istədi, lakin mubarizəni davam etdirmək üçün onda taqət qalmamışdı.

Sanki sahilin kənarı qan çanaqını xatırladırdı. Oradakı döyüş meydanı get-gedə böyüməyə başlayırdı. Döyüşə cəlb olunanların sayı yavaş-yavaş artırdı. Araukanlar döyüşə elə can atırdılar ki, sanki bu onların azadlıq uqrunda apardıqları sonuncu döyüşüdür. Arbalyotlardan, arkebuzlardan və muşketlərdən açılan atəşlərə baxmayaraq onlar konkistadorları hərtərəfli çaya sıxışdırırdılar. Sahilə çıxan hər bir ispan dərhal döyüşə can atırdı. Halbuki bütün üstünlüklər araukanların tərəfində idi. Onlar bu üstünlüyü qoruyub saxlamaqdan ötrü, hətta ağaca bağlanan kəndiri də kəsib atdılar. Bu o demək idi ki, konkistadorların bu biri sahilə olan axını dayandırılmışdı. Ancaq buna baxmayaraq, bu zaman on iki nəfər ispan araukanlara qarşı amansız döyüşdə muqavimət göstərirdi.

Kapitan Xuan duşmənin əhatəsində olmasına baxmayaraq ülgüc kimi iti olan qılıncı ilə onlara sarsıdıcı zərbə endirirdi. Bir-iki dəqiqənin içində iki düşmən öldürülmüş, birisi isə sol çiynindən yaralanmışdı. Artıq Migel də döyüşə başlamış və bir anın içərisində düşmənin əhatəsinə düşdu.

Böyük enerjiyə malik olan cavan zadəgan komandirinə yaxınlaşmaq üçün bütün gücünü və bacarığını işə salmışdı. Hərçənd ki, bu iş həddindən artıq əzab-əziyyətli idi. Çayın o biri sahilindəki atıcılar olmasaydı, araukanlar onların

birləşməsinə imkan verməzdilər. Kapitana çatana qədər, Migel döyüşə-döyüşə iki düşməni zərərsizləşdirə bilmişdi.

Sahildə gedən döyüş yarım saatdan çox idi ki, davam edirdi. Həm bu tərəf, həm də o tərəf bərk yorulmuşdu. Hamıdan çox güc tətbiq edən Xuan ilə Migel yavaş-yavaş zəifləyirdilər. Bir neçə rəqibə qarşı eyni zamanda döyüşmək heç də asan deyildi. Belə bir məqamda geri çəkilmək məqsədəuyğun sayılırdı. Bu işdə onlara atıcılar böyük yardımçı rolunu oynayırdı. Lakin iş elə gətirdi ki, təpənin üstündən atılan ox Xuanın sağ döşünün üstünə batdı və dəstənin komandiri arxası üstə düz çayın kənarına yıxıldı. Onu tamamilə məhvdən qurtarmağa çalışan Migel qeyri-insani halda qışqıraraq əks-hücuma keçməyə cəhd etdi. Lakin araukanlar onun qarşısında dəmir sipər kimi dayanmışdılar. Buna baxmayaraq, Migel onlardan birini qılıncdan keçirməyə müvəffəq oldu. Elə bu vaxt gözlənilməz bir hadisə baş verdi. Kapitan Xuan özünə güc verərək yaralı halda düşmənə qarşı döyüşməyə başladı. Onun bu hərəkəti döyüşdə bir balaca dönüş yaratdı. Onsuz da yaralı halda o, düşmənə qarşı çox müqavimət göstərə bilməzdi. Bunu çox yaxşı dərk edən Migel ona xəbər elədi ki, bacardığı qədər buradan uzaqlaşsın. Lakin hiddət və qəzəb içində olan Xuan, addım belə, geri çəkilmək fikrində deyildi. Sözsüz ki, o, bu hərəkətlə həm özünü, həm də

Migeli çıxılmaz vəziyyətdə qoyurdu. Hiss olunurdu ki, kapitanın aldığı yara ağır idi. Çünki o, sağ əlindən istifadə edə bilmirdi. Sol əli ilə isə yalnız düşmənin hücumlarını dəf etməyə macal tapırdı.

Migel çox yaxşı başa düşürdü ki, o, belə bir vəziyyətdə çox müdafiə oluna bilməz, Xuan isə müqavimət göstərməz. Onlara hökmən əlavə qüvvə lazım idi. Migel arxaya dönüb gördü ki, arbalyotçular Lope ilə Xulio öz silahları ilə kapitana yaxınlaşan hinduları lokallaşdırmağa çalışırlar. Lakin bu kifayət deyildi, nicat yolu yalnız döyüş yerinə yaxınlaşıb, orada kapitana bilavasitə kömək etməkdən ibarət idi.

Bu döyüşdə yaralanan konkistadorlar yalnız çaya daxil olmaqla özlərinə təhlükəsiz yer tapırdılar. Çay sürətlə axdığından onlar çayın kənarında dayanmaqla kifayətlənirdilər. Araukanlar qorxularından onlara yaxınlaşa bilmirdilər. Çünki çayın ağzında dayanan atıcılar dərhal onları məhv edərdilər.

Elə bu vaxt bütün üstünlük araukanlarda ola-ola böyük dönüş yarandı. Onlar biri-birilərinə nəsə xəbər verməklə, yamac istiqamətində döyüş meydanını tərk etməyə başladılar. Görünür, onlar böyük təhlükənin yaxınlaşdıqını hiss edirdilər. Araukanlar biri-birilərinə kömək etməklə

döyüş meydanından uzaqlaşırdılar. Onlar özlərilə yalnız yaralıları götürməklə kifayətlənmişdilər.

Kapitan Alonso bir neçə yüz metr qabaqda bu çayı keçərək, 30 nəfərlik süvari ilə təpə istiqamətində hücuma keçmişdi. Mühasirəyə düşməkdən qorxan düşmən tələsik halda bu təhlükəli yerdən uzaqlaşdı. Süvarilərin gözlənilməz gəlişi nəinki kapitan Xuanın, hətta bir çox konkistadorun həyatını ölümün pəncəsindən xilas etmişdi.

Son döyüşdə axırıncı gücündən istifadə edən Migel tamamilə əldən düşmüşdü və düşmən uzaqlaşan kimi o, arxası üstə yerə sərildi. O, başqalarına nisbətən bu döyüşə həddindən artıq çox güc sərf etmişdi və daimi hərəkətdən onun bədəni keyiyərək daşa dönmüşdü.

Migel yerə yıxılanda Xuan elə bildi ki, onu vurublar. O, sol əli ilə yarasından tutaraq həqarətlə dedi:

- Səni də vurdular? Araukanlar lap...

- Mənə heç nə olmayıb. - deyə Migel onun sözünü kəsərək sakit halda dilləndi və kapitanın solğun üzünə diqqətlə nəzər salaraq süst halda sözünə davam etdi. - Sinyor, yaranız necədir? Sifətinizdən görünür ki, siz çoxlu qan itirmisiniz.

- Boş şeydir! - deyə kapitan dərindən köksünü ötürərək bikef halda dilləndi. - Təəssüflər olsun ki, araukanlar bizim əlimizdən çıxıb qaçdılar.

Əlbəttə, bu boş şey deyildi. Kapitan aldığı yaradan bərk əziyyət çəkirdi. Ona görə ki, onun yarasından xeyli qan axmışdı. Yalnız döyüş qurtarandan sonra o, qanı saxlamağa müəssər olmuşdu. Onunla paralel olaraq qraf Filippin də vəziyyəti pis idi. Qraf aldıqı yaradan axsamağa başlamışdı. Yaralı olmasına baxmayaraq, o, geri qaçdığına görə kapitan Xuanın və bir çox silahdaşlarının gözündən düşmüşdü. Qraf ispan idalqosu kimi düşmənin hücumuna tab gətirərək, onlara layiqincə müqavimət göstərməli idi.

Kapitan Xuanın fikrincə, ümumiyyətlə bu döyüş konkistadorlar üçün pis şəraitdə keçmişdir. Bunun nəticəsində konkistadorlar bu döyüşdə çoxlu itki vermişdilər; onlardan yeddisi öldürülmüş, doqquzu isə yaralanmışdır. Buna baxmayaraq, kapitan Xuan az saylı qüvvə ilə düşmənin 26 nəfər döyüşçüsünü öldürmüş və təxminən o qədərini də yaralamışdır. Bu işdə atıcılar böyük rol oynamışdır. Atıcılar olmasaydı, araukanlar qısa müddətdə sahilə çıxan konkistadorları darmadağın edə bilərdilər. Aparılan sorğuya görə bu döyüşdə düşmənin yüzə yaxın döyüşçüsü iştirak etmişdir və onların ox atanları xüsusilə fərqlənmişdir. Çünki bütün zərər çəkmiş konkistdorlar məhz oxlardan xəsarət almışdılar. Qəribə də olsa, bu fakt idi. İspanların əynində kirasa olmasaydı, onların itkisi daha da çox ola bilərdi.

Artıq neçənci döyüş idi ki, Migel xəsarət almadan salamat çıxırdı. Onun məğlubedilməzliyi bütün konkistadorların beyninə həkk olunurdu. Həqiqətən də o, qeyri-bərabər döyüşlərdə çıxılmaz vəziyyətlərdən qalib kimi çıxırdı. Bu günki döyüşdə o, düşmənin doqquzunu öldürmüş, dördünü isə yaralamışdı. Belə bir nəticəni heç kim göstərə bilməmişdir. Hətta iki silahdaşını ölümün pəncəsindən qurtarmışdı. Düzdür, kapitan Alonso süvari dəstəsilə köməyə gəlməsəydi, kim bilir, Xuan ilə Migelin aqibəti necə olacaqdı? Bəlkə də bu döyüş onlar üçün sonuncu ola bilərdi.

Bu döyüş onu sübut etdi ki, hazırki durumda bütün üstünlüklər konkistadorların əlində olmasına baxmayaraq, araukanlar elə-belə ispanlara təslim olmaq istəmir və ölkənin hər bir mühüm yerində ciddi müqavimət göstərəcəklər. Bununla da onlar ispanların iti sürətli yürüşünə ciddi maneə yaradırdılar. Konkistadorlar çox yaxşı başa düşdülər ki, bu ölkədə qələbəni əldə etmək heç də asan olmayacaq. Bunun üçün onlar çoxlu qurbanlar verməli olacaqlar.

VIII fəsil. „Qanlı vadi“

Süvari dəstəsi hava qaralana qədər Anqud körfəzinin şərq sahilinə çatdı və elə oradaca gecələdilər. Döyüşdə itirdikləri silahdaşlarını elə çayın sahilindəki döyüş meydanında təpənin üstündə basdırdılar.

Ertəsi günü dəstə sahil kənarı ilə cənuba doğru hərəkət edəndə, arukanların qurduqları növbəti pusquya düşdülər. Həmin pusqu əvvəlkinə nisbətən çox zəif idi və konkistadorlar çox asanlıqla həmin səddi keçdilər. Lakin buna görə onlar dörd silahdaşlarını itirdilər. Ondan sonra vadiyə daxil olmağa az qalmış konkistadorlar araukanların qurduqları daha bir pusquya düşürlər. Daha beş nəfər itirməklə onlar vadinin sərhədinə yaxınlaşırlar.

Vadi demək olar ki, hər tərəfdən dağlarla əhatə olunmuşdu. Lakin vadinin qərb hissəsində hündürlüyü bir kilometrədək olan alçaq dağlar yerləşirdi. Kapitan Xuanın başçılıq etdiyi süvari dəstə münasib keçid taparaq, hündürlüyü təxminən 700 metr olan yüksəklikdə dayanmışdı. Buradakı dağlar şərqdə dayanan dağlara nisbətən meşələrlə örtülmüşdü. Belə bir meşəlikdə gizlənəndə onları aşağıdan görmək çox çətin idi. Məhz buna görə də aşağı düşməmişdən əvvəl böyük bir hazırlıq işləri görmək lazım idi.

Kapitan Xuanın yarası həddindən artıq möhkəm ağradığından o, dəstəyə komandanlığı kapitan Alonsoya tapşırmışdı. Bütün qərarları da məhz Alonso çıxarmalıydı. Onsuz da Alonso on dörd nəfərlik yaralı ilə yüzlərlə düşmənin meydan oxuduğu vadiyə enə bilməzdi. Xuanın və bir çox konkistadorların yaralarını irin basırdı. Onların həkimə böyük ehtiyacı vardı. Yaralıların çoxu, hətta sayıqlamağa başlayırdı. Bəzi hallarda Xuan huşunu itirirdi. Luis isə çoxlu qan itirdiyindən artıq havalanmışdı. Yarasının ağrısı onu rahat buraxmırdı. Belə bir yaralılarla Alonso duşmənə qarşı heç bir döyüş apara bilməzdi. O, istirahət etmək üçün hələlik hamıya icazə verir.

Konkistadorlar ağacların arasında mövqe tutub müvəqqəti olaraq, burda düşərgə yaratdılar. Aşağıdan bura görünməsə də, çox güman ki, araukanlar ispanların gəlişindən xəbərsiz deyildilər. Alonso yəqin bilirdi ki, aborigenlər onların hər bir addımını izləyirlər. Belə olan halda onlar hər an konkistadorların üstünə hücum çəkə bilərlər.

Hər tərəfə keşikçilər qoyuldu. Günorta yeməyini bişirmək üçün tonqal qalandı. Eyni zamanda yaralılara yardım etmək üçün əməli tədbirlərə al atmaq lazım idi. Əlbəttə, burada cərrahiyyə əməliyyatından söz gedə bilməzdi. Onların ağrısı o qədər möhkəm idi ki, bəziləri, hətta dözə bilməyib qışqırmağa məcbur olurdu. Bu iztirabın qarşısı

alınmalıydı. Yaralıların hamısı demək olar ki, bir yerdə yerləşdirilmişdi. Luis ilə kapitan Xuan yerdə uzanmışdılar. Xuan yaralarının ağrısını hiss etməməkdən ötrü, səhər açılandan bəri elə hey şərab içirdi. Hazırda isə gözlərini yumaraq rahatca uzanmışdı. Hərdənbir isə özündən asılı olmayaraq, o, inildəyirdi. Luis isə bir böyrü üstə uzanaraq ağrıdan səsini çıxartmamaq üçün dodaqlarını çeynəyirdi. Migel də yaxınlıqda oturub istirahət edirdi.

Bir neçə dəqiqə keçəndən sonra Lope ilə Xulio Luisin sarğısını dəyişmək üçün bura gəldilər. Onlar Luisin ən yaxın dostları idi. O, Migelin yaxınlıqda olmasından xəbərsiz idi. Luis üzünü göydəki buludlara tərəf tutaraq iztirabla dedi:

- Deyəsən, hamınız hücuma hazırlaşmısınız? Hayıf ki, ayağa qalxa bilmirəm.

- Luis, sən özün taqsırkarsan. - deyə Xulio həqarətlə dilləndi. - Hamı geri çəkilən zaman, sən onların əhatəsində qalaraq döyüşü davam etdirdin.

- Elə yamaca qalxan zaman onlar məni oxla vurdular. - deyə Luis əzgin halda izahat verməyə başladı. - Mənə elə gəldi ki, ox uzaqdan atıldığına görə, kürəyimə yalnız ucu girib. Yanımdakı əsgər açıqlıqda olduğu üçün onu üç-dörd yerdən vurdular. Mən yalnız aşağı düşməyə imkan tapdım.

- Aşaqı düşəndən sonra sən müqaviməti dayandıra bilərdin. - deyə Lope narazı halda dilləndi. - Hərəkət etdikcə, sənin yarandan qan iri həcmdə tökülürdü. Açığını desəm, mən elə bildim ki, sən həmin döyüşdən sağ çıxmayacaqsan.

- Düz deyirsən, Migel olmasaydı araukanlar məni çoxdan məhv edərdilər. - deyə Luis təmiz ürəklə etiraf etməli oldu. - Acığı mən ondan belə mərd hərəkəti gözləməzdim. Belə bir çıxılmaz vəziyyətdə Migel öz həyatını risqə qoyaraq, məni ölümün pəncəsindən xilas etdi.

- Doğru deyirsən? - deyə Xulio öz dostuna təəccüblə nəzər salaraq maraqla soruşdu

- Belə bir vəziyyətdə mənim zarafat etməyə halım yoxdur. - deyə Luis ağrıdan zarıldadı.

- Sən isə onun haqqında pis fikirləşirdin. - deyə Xulio üzünü qaşıyaraq təşəxxuslə dilləndi.

- Bütün dəstə elə hey Migelin döyüşdə göstərdiyi şəxsi igidliyindən danışır. - deyə Lope aludəliklə dilləndi. - Qısa müddətə o, hamıdan çox aborigen məhv edib.

Migel onların söhbətinə qulaq asmamaq üçün cəld həmin yerdən uzaqlaşdı. O, aşağı enən cığırdan bir qədər aralıda uçurumun üstündə yerləşən iri daşın üstündə əyləşərək, əlinin altında olan vadini nəzərdən keçirməyə başladı. Necə olsa da, növbəti hərbi əməliyyatlar məhz vadinin özündə keçiriləcək. Vadinin girişinin və çıxışının

öyrənilməsi indi ümdə məsələ sayılırdı. Əlbəttə, bu problem üzərində işləyənlər vardı.

Vadi üç tərəfdən hündur dağlarla əhatə olunmuşdu. Vadinin şimal-şərq hissəsində dağların arasında böyük çökəklik hiss olunurdu. Çox güman ki, həmin yer dağlardakı keçid idi və hinduların gediş-gəlişi məhz həmin keçiddə baş verirdi. Elə həmin yerdə bir kənd yerləşirdi. Kəndə diqqətlə nəzər yetirəndə başa düşmək olar ki, artıq oradan mülki əhali köçürülübdür. Ümumiyyətlə, bu vadi şimalda yerləşən vadiyə nisbətən demək olar ki, iki dəfə böyük idi. Vadinin uzunluqu 2 liq, eni isə 1 liqdən bir qədər az idi. Şimala nisbətən vadinin cənub hissəsi nəzərə çarpacaq dərəcədə ensiz idi. Lakin həmin yerdə balaca gölməçə vardı və həmin gölməçənin arxasında, ora bitişik olan dağın yamacında bir kənd yerləşirdi.

Ümumiyyətlə, bu vadidə dörd kənd yerləşirdi - biri şimalda, ikisi vadinin ortasında, axırıncısı isə cənubda. Hər kəndin arasında yarım liq məsafə vardı. Bir kənd də şərq tərəfdə hündür dağın qoynunda idi. Bu bir daha onu sübut edirdi ki, araukanlar dağlarda yaşayan hindu tayfasıdır. Bir qədər uzaqda bir dənə də kənd görmək olurdu. Həmin kənd hündür olmayan bir dağın düz zirvəsində yerləşirdi. Vadinin şərq sərhədində yerləşən dağların arxasında hündür

dağlar, o dağlardan da o tərəfə daha hündür dağlar görünürdü.

And dağları Araukaniyanın bu hissəsində kaskad şəklində idi. Yalnız vadinin cənubunda və dağın qoynunda yerləşən kəndlərdə mülki əhalini görmək olardı. Lakin nə qədər kənd görünürsə, hamısında da döyüşçü hinduları görmək olurdu. Ortada yerləşən kəndlərdən biri (şimala yaxın olan) süni şəkildə qazılmış dərin dərə ilə əhatə olunmuşdu. Həmin kəndin dörd tərəfində bastion şəkilli tikililər vardı və həmin tikililər bir-birilərilə hündür olmayan daş çəpərlə birləşdirilmişdi. Kənddə mülki əhali olmasa da, orada iyirmiyə yaxın lama, əlliyə yaxın isə keçi vardı. Məlum idi, araukanlar həmin heyvanları orada nəyə görə saxlayırlar. Kənddə hərbi tikililərin olması ondan xəbər verirdi ki, araukanlar bu müharibəyə çox ciddi hazırlaşıblar.

Cənubda yerləşən kənd də möhkəm səddlərlə əhatə olunmuşdu. Mülki əhalinin orada qalması şübhə doğururdu. Sanki hindular öz kəndlərinin konksitadorlar tərəfindən alınmamasına əmin idilər. Halbuki dağ tərəfdən həmin kəndə hücum edilsə, oranı yarım günün ərzində almaq mümkün idi. Bütün ətrafdakı dağların ətəklərində bir çox hinduların hərəkətlərini görmək olurdu. Araukanlar dağlardakı çığırlardan istifadə etməklə, yerdəyişmə ilə məşğul idilər. Onlar konkistadorlarla dağlarda da döyüşlərə

hazırlaşırdılar. Söz yox ki, qarşıdakı vadi gec-tez ispanların əlinə keçəcək, ondan sonra isə müharibə dağlarda davam etdiriləcək.

Vadidə piyada döyüşçülərdən əlavə, təxminən on-on iki nəfər atlı görmək olurdu. Həmin atlılar çox güman ki, hərbi əməliyyatlar zamanı dəstələr arasında əlaqələndirici rolunu oynayacaqlar. Onlar qısa müddətə ehtiyat qüvvələrini döyüşə cəlb edə bilərlər. Buna baxmayaraq ispanların bu dəfəki ekspedisiyasında çox saylı süvari dəstəsi iştirak edirdi. Bu dəstə isə vadidə gedən hərbi əməliyyatlarda mühüm rol oynayacaq. Düşmən də bu amili çox yaxşı dərk edirdi. Ona görə də onlar süvari dəstəsinin irəliləyişinə maneəçilik törətmək üçün, üç dəfə konkistadorların üzərinə gözlənilməz həmlələr endirmişdilər. Qismən də olsa, onlar öz istədiklərinə nail olmuşdular. Süvari dəstəsinə təhkim edilmiş 30 nəfərlik atıcı dəstəsi demək olar ki, darmadağın edilmişdi: onlardan 16-sı öldürülmüş, 14 nəfəri isə yaralanaraq, müvəqqəti yararsız hala salınmışdı.

IX fəsil. Yaralıların müayinəsi

Migel yuxarıda otura-otura fikirləşirdi ki, süvari dəstəsi hansı yol ilə vadiyə düşsə yaxşıdır, sağdakı, yoxsa soldakı yol ilə? Soldakı yol qısa olduğundan, həmin yol piyada adamlar üçün sərfəli idi. Çünki həmin yolda eniş çox sərt idi. Sağ yol isə çox enli və uzundur. Təxminən 1500 metr uzunluğu olan bu yolun əksəriyyət hissəsi meşədən keçərək vadiyə çıxırdı. Vadinin özündə də çoxlu ağaclar bitirdi. Xüsusən də ağaclar həmin kəndlərin ətrafında çoxluq təşkil edirdi. Hətta orada nəhəng fitsroya ağaclarını da görmək olurdu. Çox güman ki, döyüş gedən zaman araukanlar həmin ağaclardan qalxan kimi istifadə edəcəklər, xüsusən də ox atanlar.

Migel oturduğu yerə gözlənilmədən kapitan Alonso ilə leytenant Andre gəldilər. Onlar hücum əməliyyatını hazırlayırdılar. Çünki bir-iki günə polkovnik Alonso öz dəstəsilə bu vadinin hüdudlarına daxil olacaq. Onlarla paralel olaraq süvari dəstəsi də hücuma keçməli idi. Çox güman ki, bu vadi araukanların sonuncu müqavimət yeri sayılacaq.

Cavan zadəgan onların söhbətinə qarışmamaq üçün buranı tərk etmək istədi, ancaq kapitan onun qarşısını kəsərək burada qalmasını bildirdi.

- Hazırda biz dilemma qarşısında qalmışıq. - deyə Alonso qeyri-müəyyən tərzdə dilləndi. - Aşağı düşüb kəndin birində mövqe tutaq, yoxsa əsas qüvvəmiz vadiyə daxil olana qədər burada qalaq. Söz yox ki, burda qalmağımız həddindən artıq təhlükəlidir. Düşmən qaranlıq mühitdən istifadə edərək bizə həmlə endirəcək.

- Siz buna əminsiniz? - deyə Andre muəmmalı tərzdə soruşdu. - Mənə elə gəlir, onlar qaranlıq şəraitdə döyüşməkdən boyun qaçırarlar. Burda qalmaq məqsədəuyğundur.

- Heç vaxt demək olmaz ki, araukanlar gecə vaxtı döyüşdən boyun qaçırırlar. - deyə kapitan öz etirazını bildirdi. - Gecə vaxtı biz tonqal qalamasaq, onda siz deyən fikirlə mən razıyam. Lakin yaralılar olduğu halda biz meşədə tonqal qalamalıyıq. Bununla da yeni hücum etmək üçün düşmənə şərait yaratmalı olacayıq.

Kapitan Alonso bu fikri söyləməkdə haqlı idi. Tonqal qalananda ispanların bütün mövqeləri aydın şəkildə görunəcək. Araukanlar isə qaranlıq muhitdə ağacların arxasında gizlənərək, işıq altında olan konkistadorları çox asanlıqla ox ilə vurmağa başlayacaqlar. Lakin buna qarşı adekvat addımlar atmaq mümkün idi. Bu məsələ ilə bağlı Migel öz fikrini bildirməyi qərara aldı. O, dedi:

- Burda qalıb gecələmək mumkundur. Bunun üçün yalnız bir yerdə tonqal qalamaq lazımdır. Tonqaldan 50

metr aralı, radius şəklində iyirmi beş nəfərdən ibarət keşikçilər qoymaq lazımdır. Qaranlıqda düşərgəyə yaxınlaşmağa cəhd edən araukanlar bizim keşikçiləri görməyəcəklər. Keşikçilər isə hansı tərəfdən səs gələcəksə, dərhal həmin səmti atəşə tutsunlar. Ondan sonra heç kim düşərgəyə yaxınlaşmağa cəhd etməyəcək.

- Bu çox təqdirəlayiq bir təklifdir. - deyə Alonso təəccüblü halda başını tərpədərək hərarətlə dilləndi. - Elə mulahizələr yürüdürsünüz ki, sanki siz uzun müddət bu ölkədə yerli hindulara qarşı müharibədə iştirak etmisiniz.

- Bütün bu usulları mənə babam Rodriges öyrədib. - deyə Migel canfəşanlıqla dilləndi. - Bildiyiniz kimi mənim babam 40-45 il bundan əvvəl araukanlara qarşı dəfələrlə hərbi əməliyyatlarda iştirak edibdir.

- Sinyor Rodrigesin məsləhətləri bizim hamımız uçun gərəklidir. - deyə Alonso etiraf etməli oldu. - Doxsan yaşlı bir adamın belə bir təhlükəli müharibədə iştirak etməsi, onun vətənpərvər və krala sədaqətli olmasından xəbər verir. Şəxsən mən elə bir zadəganla fəxr edirəm.

- İltifatınıza görə çox sağ olun! - deyə Migel utancaq halda dilləndi.

- Bu əməliyyata yollanmamışdan əvvəl mən Xuan Floreslə də xeyli məsləhətləşmələr aparmışam. - deyə Alonso baxışlarını vadiyə tərəf yönəldərək aludəliklə

dilləndi. - Bildiyiniz kimi o, Araukaniyada dəfələrlə olub. Onun dediyinə görə köhnə konkistadorlar buranı "qanlı vadi" adlandırırlar. Bizim silahdaşlarımızın təşkil etdikləri ekspedisiyaların əksəriyyəti məhz bu vadidə darmadağın edilibdir. Bu faktı sinyor Rodriges də təsdiqləyib. Araukanlar həmişə bütün qüvvələrini və güclərini bu vadiyə yönəldirlər. İndi də belə başa duşmək olar ki, aborigenlər əsas quvvələrini məhz "qanlı vadidə" və onun ətrafında cəmləşdiriblər.

- Mənə elə gəlir, araukanlar bu müharibədə xeyli zəifləyiblər. - deyə Migel kapitanla razılaşmadı. - Onlar son döyüşlərdə, xüsusən də Anqud körfəzindəki döyüşdə xeyli canlı qüvvə itiriblər. Deyəsən, araukanların əvvəlki qüvvəsi xeyli sarsıdılıb. Vadinin özündə də onların qüvvəsi heç də çox deyil.

- Uşaqlardan aldığım məlumata görə "qanlı vadi"də araukan döyüşçülərinin sayı 600-dən 700 nəfərə qədərdir. - deyə kapitan bir az tərəddüd edəndən sonra ehtiramla dilləndi. - Lakin unutmaq lazım deyil ki, yaxınlıqdakı dağlarda da onların döyüşçüləri var. Onların sayı isə bizə bəlli deyil.

- Onların sayı, ancaq 1100-1200 nəfər olar. - deyə Migel çəkinmədən tam məsuliyyətlə dilləndi. - Bu qədər qüvvə isə heç vaxt bizim üzərimizdə müvəffəqiyyət qazana bilməyə-

cək. Bu dəfə “qanlı vadi” onlar üçün sonuncu məkan olacaq.

- Buna şübhə yoxdur. - deyə leytenant Andre gülümsəyərək giley-güzarla dilləndi. - Araukanların hamısı bu müharibədə darmadağın ediləcək.

- Polkovnik Alonso tövsiyə edib ki, bu müharibədə cüzi də olsun, səhvə yol vermək lazım deyil. - deyə kapitan alicənablıqla dilləndi. - Hər bir səhv bizim üçün məğlubiyyətlə nəticələnəcək. Məhz buna görə də gecələmək haqqında biz düzgün qərar qəbul etməliyik. “Qanlı vadidə” gecələmək münasibdir, yoxsa burda? Biz elə etməliyik ki, polkovnik Alonso “qanlı vadiyə” gələnə kimi, bir nəfər də olsun, dəstədən adam itirməyək.

- Əgər elədirsə, elə burda qalmağımız məqsədəuyğundur. - deyə Andre Migelin təklifinin üstündə durdu. - Allahın köməkliyi ilə bu gecə bizim üçün sakit keçər.

- Hamıya xəbər verilsin ki, bu gecəni biz burada qalacağıq. - deyə kapitan öz sərəncamını bildirdi.

Kapitan Xuanın vəziyyəti get-gedə pisləşdiyindən Lope ilə Xulio onun yarasından irini çıxartmağa qərara aldılar. Onlar yanan tonqalda öz lansetlərini qızdırmağa başladılar. Migel komandirin qollarından, Andre isə ayaqlarından möhkəmcə yapışdılar. Ağrıya dözmək üçün ona çoxlu şərab verdilər. Xuan dostlarına izah etdi ki, onun qollarından və

ayaqlarından tutmağa heç bir ehtiyac yoxdur. Bu ağrıya dözməyə onda möhkəm iradə var. Migel ilə Andre onu azad etdilər, lakin ağzına taxta qoydular ki, Xuan ağrıyanda qışqırmasın. Xulio lansetinin ucu ilə yaranı deşdi və əli ilə yaranın kənarlarını sıxmağa başladı ki, bütün irinlər oradan çıxsın. Ağrıdan Xuan yumruqlarını sıxaraq qollarını əsdirməyə başladı. Sanki o, Xulionu vurmaq istəyirdi.

Nənayət yaradan təmiz qan axmağa başlayanda Lope ucu qızarmış lanseti tonqaldan götürüb, zərgər dəqiqliyi ilə 5 sm-ə kimi yaranın içinə basdı. Bir anın içində "türkəçarələrin" burnuna yanmış ət iyi dəydi. Ağrıya tab gətirə bilməyən Xuan tez Lopenin qolundan tutdu. Lakin artıq gec idi. Lope öz işini böyük ustalıqla qurtarıb başa çatdırmışdı.

Xulio tez yaranı ağ tənziflə örtdü ki, qanaxmanın qarşısı alınsın. Kapitan Alonsonun gözləri bu cərrahiyyə əməliyyatından bərələ qalmışdı. Lakin buna baxmayaraq, kapitan Xuanın üzərində aparılan cərrahiyyə əməliyyatı çox uğurla başa çatmışdı. Bundan sonra Xuan dərindən nəfəsini alaraq rahatca gözlərini yumdu. Sanki o, uzun müddət idi ki, yuxusuz qalmışdı. Sanki o, ağır əzablardan qurtulmuşdu.

Belə bir cərrahiyyə əməliyyatları, yarası irinlənmiş hər bir yaralının üzərində aparıldı. Yaralıların problemi tam da olmasa, amma həll olunmuşdu. Ağrıdan iztirab çəkməsinlər

deyə, onların hamısına çoxlu həcmdə şərab verildi. Növbəti şərab payı isə gecə veriləcəkdi.

Qarşıda və ümumiyyətlə, ətrafda qoyulan keşikçilərdən alınan məlumata görə yaxınlıqda bir nəfər də olsun, hindu görünmürdü. Sanki onlar konkistadorların bura gəlişindən xəbərsiz idilər. Lakin araukanlar döyüşən hindu tayfası olduğundan belə zənn etmək olar ki, onlar yaxınlıqda, gözəgörünməz bir yerdə gizlənərək konkistadorların fəaliyyətini izləyirlər.

İndi kapitan Alonsonu bir şey maraqlandırırdı; işdir, polkovnik Alonso öz dəstəsi ilə vadiyə daxil oldu və orada araukanların ciddi müqavimətilə üzləşdi, onda necə olsun? Axı, süvari dəstəsi dərhal onların köməyinə çatmalıdır.

Lakin onların dəstəsində yaralılar olduğu halda süvarilər vadidə iti sürətli hərəkətlər və manevrlər edə bilməyəcəklər. Bu işdə yaralılar onlara böyük maneəçilik törədəcəklər. İndi kapitan bilmirdi yaralılarla nə etsin, burada qoysun, yoxsa özü ilə əməliyyata aparsın. Özü ilə əməliyyata aparsa, söz yox ki, süvarilər sürətli manevrlərdən məhrum olacaqlar. Lakin yaralıları burda təkbaşına qoyub döyüşə yollanmaq da təhlükəli idi. Yaxınlıqda olan araukanlar yaralıların köməksizliyini görüb dərhal onların üzərinə hücum edəcəklər. Kapitan Alonso yaralıların təhlükəsizliyini təmin etmək üçün süvarilərdən bir adam da ayırmaq

fikrində deyildi. Çünki hərbi əməliyyatlarda ona hər bir süvari hava-su kimi lazım idi. Hər bir çətin vəziyyətdən çıxış yolu tapmaq mümkün idi. Nəzərə almaq lazımdır ki, yaralılardan bir neçə nəfəri hələ də qılıncdan istifadə edə bilərdi. Amma Alonsonun başına yaxşı bir fikir gəldi. O, yaralıların hamısına odlu silah verməyi qərara aldı. Belə olan halda yaralılar özlərini hər bir düşməndən qoruya bilərlər.

Lakin nədənsə, kapitan Alonsonun daxilində böyük ümidsizlik yaranmışdı. O, narahat halda gah bu tərəfə, gah da o tərəfə gedir və ürəyində nə isə fikirləşirdi Tez-tez Migelin oturduğu yerə gəlib oradan "qanlı vadiyə" mənalı nəzər salırdı. Elə Migelin də fikri həmin vadiyə yönəlmişdi. Bu "qanlı vadidə" həm konkistadorların, həm də hinduların müqəddəratı həll olunmalıydı. Konkistadorlar burda baş verəcək həlledici döyüşdə qalib gəlsələr, birdəfəlik Araukaniyada başlanan 45 illik müharibəyə son qoyacaq və vətənə qalib kimi qayıdacaqlar. İşdir, məğlub olsalar, onda yenidən qüvvə toplayaraq müharibəni davam etdirməli olacaqlar. Araukanlar isə məğlub olsalar, bundan sonra birdəfəlik öz azadlıqlarını və ölkələrinin ərazi bütövlüklərini itirəcəklər. Ondan sonra isə əlinə silah almış hər bir araukan İspaniyanın inkvizisiyası tərəfindən sərt üsullarla cəzalanacaqdır. Ümumiyyətlə, ölkələrinin əksər hissəsi

dağlıq ərazidən ibarət olduğu halda, aborigenlər münbit torpaqlardan məhrum olacaqlar. Əgər, onlar bu döyüşdə qalib gəlsələr onda ispanların təşkil edəcəkləri növbəti ekspedisiyanın gəlişini gözləməli olacaqlar. Necə ki, ispanlar, eləcə də araukanlar həlledici döyüşə çox ciddi hazırlaşırdılar. Bu döyüşdə hər iki tərəfin ölüm-dirim məsələsi həll olunurdu. İspanlardan çox bu qələbə hindulara hava-su kimi lazım idi. Məğlub olduqları təqdirdə araukanlar əbədilik azad hindu tayfası kimi yer üzündən silinəcəklər. Çünki onlar çox yaxşı bilirdilər ki, bütün bu müharibələr ərzində Araukaniyada həddindən çox konkistador məhv edilibdir. İspanlar isə bu itkiləri heç vaxt araukanlara bağışlamayaçaqlar.

Şəxsən Migel özü arzulayırdı ki, Araukaniyada başlanan müharibə yalnız silahdaşlarının qələbəsi ilə başa çatsın və o, tezliklə İspaniyaya öz sevimlisi Floridanın yanına qayıtsın. O, yaxşı bilirdi ki, Florida səbirsizliklə öz istədiyinin yolunu gözləyir və iztirab içində Seviliyada yalnız darıxdırıçı günlər keçirir. Migel özü isə həmişə döyüş qabağı sinəsindəki medalyonu çıxardıb sevigilisinin çöhrəsinə yalvarıcı nəzər salırdı, sanki medalyondakı şəkilin canlanması üçün ürəyində and-aman edirdi. Uzunmüddətli döyüş gedəndə o, həmin an Floridanı xatirəsindən istər-istəməz silirdi. Həmin an Migelin ürəyi, İspaniyanın şan-

şöhrətinin yüksəlməsinə yönəlmiş qələbə ilə döyünürdü. Namuslu və viçdanlı bir ispan idalqosu kimi o, bütün varlığı ilə düşmənin məhv edilməsinə çalışmalı idi.

Gecəni dağın başında qalmaq bir tərəfdən konkistadorlar üçün sərfəli idi. Çünki vadinin və ətrafdakı dağların hansı yerində araukanlar varsa, həmin yerlərdə tonqallar yandırılacaq və həmin yerləri yuxarıdan görmək daha aydın idi. Yanan tonqalları nəinki görmək, hətta tonqalların hansı yerdə yandırıldığını yadda saxlamaq olurdu. Həqiqətən də gözə görünən yerlərdə on doqquz dənə tonqal yandırıldı, onlardan səkkizi "qanlı vadidə", on biri isə dağların yamaclarında idi.

Düşərgə ətrafında keşikçilər öz işlərinin öhdəsindən çox bacarıqla gəlirdilər. Düşərgəyə yaxınlaşmağa cəhd edən araukanlar odlu silahların atəşilə geri oturdulurdu. Hətta onlardan yaralananlar da olurdu.

X fəsil. “Qanlı vadi”də şiddətli döyüşlərin başlanması

Ertəsi günü sentyabrın 25-də hava bir balaca soyumağa başladı. And dağlarından gələn buludlar artıq səmanın yarısını işğal etmişdi. Kaskad şəklində olan dağların ən hündürləri buludların qalın pərdələri arasında yoxa çıxmışdı. Qərb istiqamətində şığıyan buludlar, get-gedə yaxınlıqdakı dağların zirvələrini öz qoynuna götürəcəkdi. And dağlarının arxasından çıxmağa çalışan Günəş hələlik buludlar qarşısında öz zəifliyini nümayiş etdirirdi. Lakin şərqdən çıxan günəş öz şüalarını yerə yönəldə bilmədiyi halda, qərb istiqamətində göyün üzündə şəffaf düz xəttlər əmələ gətirmişdi. Sanki And dağlarının başına, təbiətin ən qiymətli qaşı olan günəşdən tac qoyulmuşdu. Belə bir mənzərəni görmək hər adama nəsib olmurdu. İllərlə gözləmək lazımdır ki, belə bir məstedici mənzərəni öz gözlərinlə görəsən. Həm də belə bir əvəzsiz, möcüzə xarakterli təbiətin yaratdığı sənət əsərini dünyanın hər bir yerində müşahidə etmək qeyri-mümkündur. Çünki unikal rənglər məhz And dağlarının relyefindən əmələ gəlirdi. Təbiət isə həmin rənglərdən böyük ustalıqla istifadə edirdi. And dağlarının ətəyi qonur rəngdə olsa da, bu gün səhər

açılandan həmin yerlər bənövşəyi və tünd yaşıl rəngə boyanmışdı. “Qanlı vadi” isə boz və kül rəngə qərq olmuşdu.

Axşama qədər burada yağışın yağması reallaşırdı. Havanın hərarəti daha da aşağı düşməli idi. Topa buludların yavaş-yavaş Araukaniyanın üzünü örtməsi o demək idi ki, bu gün hamı günəşin üzünə həsrət qalacaqdır. “Qanlı vadi” aramsız yağışlara tutulsa, burda hərbi əməliyyatların istənilən şəkildə aparılması xeyli mürəkkəbləşəcək. Xüsusən də süvarilərin sürətlə hərəkət etməsi xeyli ağırlaşacaq. Bu və ya digər şəkildə yağışın yağması araukanlar üçün sərfəli olacaqdır. Çünki onlar ispanların hücumlarına tab gətirmək üçün müdafiə olunacaqlar.

Hava işıqlansa da hələ də polkovnik Alonsonun gəlişindən heç bir əsər-əlamət yox idi. Araukanlar hələlik özlərinin köhnə mövqelərində dayanmışdılar. Əsas təhlukənin şimaldan gəldiyindən aborigenlər çox güman ki, özlərinin əsas qüvvəsini, məhz həmin istiqamətdə yerləşdirmişdilər. Amma kapitan Alonso daha yuxarıda gözləmək istəmirdi. Konkistadorların əsas hissəsi “qanlı vadiyə” daxil olana qədər o, süvari dəstəsini aşağıda yerləşdirmək fikirində idi. Bu məqsədəuyğun iş sayılırdı. Çünki polkovnik Alonsonun başçılıq etdiyi dəstə araukanların avanqard dəstəsi ilə toqquşan bir vaxt, süvarilər həmin an iti sürətlə düşmənə arxadan zərbə endirməlidirlər. Bu effektli zərbə konkista-

dorların müvəffəqiyyətini sürətləndirə bilər. Kapitan Alonso bu fikri Xuan ilə bölüşdürməyə qərara aldı. Dünənə nisbətən bu gün özünü rahat hiss edən Xuan bir az tərəddüd edəndən sonra dedi:

- Sinyor Alonso, sizin fikir ilə nəinki şərikəm, hətta dəstəkləyirəm. Lakin burda bir əmma var. Axı, dəqiq bilinmir, mənim qardaşım vadiyə haçan gəlib çıxacaq? Bir saata, beş saata, yoxsa on saata?

- Bizim hesablamalarımıza görə onlar artıq vadinin sərhədində olmalıdırlar. - deyə Alonso şübhə ilə dilləndi. - Bizə nisbətən onlar vadiyə düz yol ilə gəlməliydilər.

- Sizin aşağı düşməyiniz böyük risq ilə bağlıdır. - deyə Xuan təmkinlə dilləndi. - Tutalım ki, siz aşağı düşdünüz və orada bizimkilərin gəlişini gözləməyə başladınız. Onların vadiyə gəlişi yubansa, bu faciə ilə nəticələnə bilər. Çünki araukanlar həmin müddətə bizi mühasirəyə alaraq hücum etməyə cəhd edəcəklər. Bunun müqabilində biz xeyli süvari itirə bilərik.

- Araukanlar o qədər azğınlaşıblar ki, 50 nəfərlik süvarinin üzərinə hücum etməyə cəhd edəcəklər? - deyə Alonso təəccübdən çiyinlərini çəkdi. - Hindu tayfaları əvvəldən bizimlə toqquşmadan boyun qaçırıblar. Ernan Kortesə, Fransisko Pisarroya, Belalkasara və bir çoxlarına qələbələri məhz süvari dəstələri gətiriblər. Minlərlə silahlı

hindular süvariləri görən kimi döyüş meydanından qaçmağa məcbur olublar. Onlar süvarilərdən it kimi qorxurlar.

- Araukanlar Yeni Dünya sahillərinin heç bir hindu tayfasına oxşamırlar. - deyə Xuan ciddi halda dilləndi. - Görmürsünüz ki, araukanlar da at belində gəzirlər? Artıq onlar cüzi də olsun, atlardan çəkinmirlər. Həm də onlar yürüş zamanı bir neçə dəfə bizim dəstənin üzərinə hücum ediblər. İndi mənim təklifim odur ki, Alonso gələnə qədər süvari dəstəsi burda qalsın.

Artıq kapitan Alonso bu məsələ ilə bağlı hec bir təkid göstərmədi və komandirinin sərəncamına uyğun olaraq, polkovnik Alonsonun dəstəsinin gəlişini gözləməyə başladı. Həmin dəstənin gəlişindən asılı olmayaraq süvarilərin hamısı hazırlıqlı vəziyyətə gətirildi. Əmr verilən kimi onlar yürüşə başlamalıydılar.

Buludlar isə göyün üzündə daha çox sahəni örtürdü. Getgedə qalın pərdə göy səmanı bütünlüklə bağlayacaq. Ondan sonra isə yağışın yağması labüd idi. Havanın soyuqlaşması da göz qabağında idi. Soyuğa davam gətirmək üçün hamı qalın geyinməliydi. Lakin həmin paltar ispanlarda yox idi. Bunun üçün Anqud körfəzinə getmək lazımdır, ona görə ki, bütün ləvazimat körfəzdəki gəmilərdə idi. Köhnə konkistadorların dediyinə görə havanın soyuq keçməsi Araukaniyada hələ bir necə gün davam edəcəkdir.

Günorta vaxtına az qalmış “qanlı vadinin” şimalında odlu silahların səsi eşidilməyə başladı. Bunu artıq döyüş əməliyyatlarının başlanması kimi qələmə vermək olardı. Lakin əvvəlcədən əmin olmaq lazım idi ki, bu həqiqətən də döyüşün başlanmasıdır, yoxsa araukanların qurduqları növbəti hiylə. Açıq göz ilə görmək olurdu ki, oradakı döyüş meydanı genişlənir və araukanların əsas hissəsi şimaldakı kənddə və kəndin ətrafında cəmləşməyə başlayırdılar. Onların bəziləri sol tərəfdəki meşənin ağzında mövqe tutmağa çalışırdılar. Hinduların bir çoxu gah meşəyə daxil olur, gah da oradan çıxmağa başlayırdı. Sərhəddəki ağacların içərisindən yuxarıya barıtların tüstüsü qalxırdı. Şübhəsiz ki, orada iki qüvvə arasında döyüş başlanmışdı. Qəribəsi də odur ki, konkistadorların hücumlarına mane olmaq üçün araukanlar da odlu silahdan istifadə edirdilər.

Süvari dəstəsində həyəcan təbili vuruldu. Hamı atlanaraq yavaş-yavaş aşağı düşməyə başladılar. Düzdür, bir qədər qabaqda üç nəfər yolun təhlükəsizliyini yoxlamaq üçün dəstədən əvvəl yola çıxdılar. Çox güman ki, düşmən qarşıda onlara qarşı pusqu qura bilərdi. Süvarilərin yolu ağaclar arasından keçdiyi üçün kəşfiyyatçılar yol boyu bütün şübhəli yerləri yoxlamalıydılar. Bu işin öhdəsindən ən təcrübəli, bacarıqlı və xüsusən də arbalyot və kamandan ustalıqla istifadə edən döyüşçülər gələ bilərdi. Kapitan

Alonso təcrübəli bir zabit kimi Migeli və peşəkar arbalyotçular sayılan Lope İnyeslə, Xulio Menendesi kəşfiyyata göndərdi. Onlar da böyük bir ehtiyatla bu işin icrasına başladılar. Necə olsa da, silahdaşlarının həyatı onların əlində idi. Hamı sağ və salamat aşağı çatdırılmalı idi.

Süvarilərin aşağı düşməsi nəzərdə tuqulduğundan həddindən artıq yubanırdı. Kapitan Xuan yuxarıda daşın üstündə oturaraq nigarançılıqda "qanlı vadidə" baş verən hadisələrə nəzər yetirirdi. Yaralı olduğuna görə o, ardı-arası kəsilmədən özünü lənətləyirdi. Çünki özünün dediyi kimi, onun yeri dağın üstündəki nəzarət meydançası yox, "qanlı vadi"dəki döyüş meydanı idi.

Süvarilər aşağı düşənə kimi artıq polkovnik Alonsonun piyada dəstəsi şimaldakı meşənin sərhədində yaradılan müdafiə xəttini yararaq, yaxınlıqdakı kəndin qərb istiqamətindəki sərhəddinə yaxınlaşmağa müvəffəq olmuşdu. Konkistadorların hücumuna tab gətirməyən hindular cənub istiqamətində geri çəkilməyə başladılar. Halbuki onlar vadinin şimal-şərqində yerləşən kənddə də mövqe tuta bilərdilər. Amma həmin kənddə araukanların kifayət qədər qüvvəsi vardı. Onda belə çıxırdı ki, araukanlar vadinin mərkəzində yerləşən kəndlərə çəkilirlər. Görünür, növbəti müdafiə xətti vadinin mərkəzində qurulmalı idi. Elə orada da istehkam qurulan kənd yerləşirdi. Geriyə çəkilməyə

cəhd göstərən hinduların sayı yüz nəfərdən çox olmazdı. Onlar yarım liq yol getməliydilər ki, istədikləri yerə gəlib çatsınlar. Kapitan Alonso öz süvariləri ilə onları yarı yolda məhv etməliydi.

Qəribə də olsa, süvari dəstəsi maneəsiz olaraq aşağı düşə bildi. Lakin bir az sol tərəfdə araukanların ox atanları peyda oldu və şimala doğru can atmağa çalışan süvarilərin qarşısını kəsdilər. Məsafə qısa olduğundan Alonso dəstəni şərq tərəfə çəkməli oldu. O, araukanların buradakı qüvvəsilə münaqişəyə girmək istəmirdi. Halbuki burda düşmənin qüvvəsi həddidən artıq az idi. Kapitan Alonso istəyirdi ki, "qanlı vadidə" başlanan döyüşün elə ilkin mərhələsində böyük dönüş yaratsın. Strateji baxımından bu düzgün qərar idi. Lakin düşmənin burda qalan qüvvəsi yuxarı qalxıb oradakı ispan yaraqlılarının üzərinə hücum edə bilərdilər. Araukanlar isə dəqiq bilmirdilər ki, konkistadorların az bir hissəsi yuxarıda qalıb.

Artıq vaxt itirmək istəməyən Alonsonun süvari dəstəsi iti sürətlə şimala tərəf üz tutdu. O, tezliklə geri çəkilməyə cəhd edən düşmənin qarşısını kəsmək istəyirdi. Süvarilər hərəkət edən yerdə vadinin həmin hissəsi şimala nisbətən dayazlıqda yerləşirdi. Ona görə də cənuba doğru geri çəkilən araukanlar süvarilərin hərəkətindən xəbərsiz idilər.

Əlli nəfərlik süvari şimala doğru elə şığıyırdı ki, onların qarşısında hec üç yüz nəfərlik düşmən tab gətirə bilməzdi. Sanki konkistadorlar at sürməkdə bir-birilərilə yarışırdılar. Qanuni isə qabaqda nizə ilə silahlanmış süvarilər getməli idi. Onların sayı cəmi otuz nəfər idi və onlar bu hücumda pərən-pərən düşmüşdülər. Süvarilərdən on nəfəri ox atanlar idi.

Yarım saatdan sonra onların hamısı kapitan Alonsonun əlinin işarəsi ilə balaca yüksəkliyin üstündə dayandılar. Artıq istehkam qurulan kənd arxada qalmışdı. Geriyə çəkilən hindular isə süvarilərdən təxminən 1500 metr aralı idi və onlar konkistadorları görən kimi təəccüb içində ayaq saxladılar. Belə çıxırdı ki, onlar süvarilərin burada peyda olmasını hec gözləmirdilər. Araukanların bu qüvvəsi demək olar ki, çıxılmaz bir vəziyyətdə qalmışdılar; polkovnik Alonsonun qüvvəsi arxadan, kapitan Alonsonun isə qüvvəsi qarşıdan hücuma keçirdi. Onlar nə sağa, nə də ki, sola qaça bilirdilər. Gizlənib müdafiə olunmağa münasib yer yox idi. Hara getsəydilər süvarilər onları təqib edib məhv edəcəkdilər. Hökmən araukanların rəhbərləri bir tədbir görməliydi. Yoxsa, onlar dəhşətli faciənin şahidi olacaqdılar.

Elə bu dəmdə "qanlı vadinin" şimali-şərqində yerləşən kənddən araukanların qüvvəsi çıxmağa başladı. Onlar hələ də yaxınlıqda olan polkovnik Alonsonun başçılıq etdiyi

dəstənin üzərinə hücuma keçirdilər. Bununla da araukanlar polkovnik Alonsonun qüvvəsini öz üzərilərinə cəlb etmək istəyirdilər. Bu azmış kimi istehkam olan kənddən araukanların yüz əlli nəfərlik qüvvəsi çıxaraq süvarilərin üzərinə hücuma keçdilər. Araukanlar mühasirəyə düşmüş silahdaşlarına kömək etmək üçün bütün vasitələrə əl atmışdılar. Düşmən demək olar ki, bütün qüvvəsini bu döyüşə cəlb etmişdi.

Polkovnik Alonso arxadan endiriləcək zərbədən çəkinərək öz əsgərlərini üzü kəndə tərəf sıraya düzərək aborigenlərin yaxınlaşmasını gözləməyə başladı. Həm kənddən çıxan, həm də ortalıqda olan hindular polkovnik Alonsonun dəstəsinin üzərinə hücuma keçdilər. Konkistadorların piyada qüvvəsi hər iki tərəfdən hücuma keçən düşmənin qüvvəsini darmadağın etmək iqqidarında idi. Çünki həmin hücumda düşmənin üç yüz-üç yüz əlli döyüşçüsü iştirak edirdi. İstehkamdən çıxan yüz əlli nəfərlik hindu dəstəsi öz hücumlarını süvari dəstəsinin üzərinə davam etdirirdi.

Vəziyyəti belə görən kapitan Alonso yenə də öz hücumunu dayandırmalı oldu. İndi o seçim qarşısında qalmışdı. Hücumunu davam etdirsin, yoxsa geriyə dönüb arxadan gələn düşmənin üzərinə şığısın. Onun qərarından çox şey asılı idi. O, elə etməli idi ki, bu döyüşdə düşmənin daha çox qüvvəsi məhv edilsin. Necə olsa da, düşmənin

yarım minlik əsgəri bu döyüşdə fəaliyyət göstərirdi. Lakin o da məlum idi ki, araukanların hamısı vahid komandanlıq altında fəaliyyət göstərir.

Kapitan Alonsonun gözləmə mövqeyindən vəcdə gələn leytenant Andre atını düz komandirinin yanına sürüb səbirsizliklə ondan gözləmənin səbəbini soruşdu. Yaxınlıqda olan Migel o dəqiqə başa düşdü ki, kapitan bütün süvarilər üçün gözlənilməz olan sərəncam vermək istəyir. Lakin o, nədənsə tərəddüd edirdi. Araukanlar isə tam fəaliyyətdə idilər.

- Sinyor, bu hücum barəsində mən sizin fikrinizi bilməliyəm. - deyə Alonso üzünü Andreə tərəf tutaraq qeyri-müəyyən tərzdə dilləndi. - İşdir, biz qarşıdakı döyuşdən boyun qaçırsaq polkovnik Alonso araukanları darmadağın edə bilər, ya yox?

- Başa düşmürəm, siz döyüşdən boyun qaçırmaq istəyirsiniz? - deyə Andre hüznlə dilləndi. - Elədir?

- Mən məgər, dedim ki, döyüşdən boyun qaçırmaq istəyirəm? - deyə kapitan həmsöhbətinin qəzəbinə heç bir əhəmiyyət vermədən soyuqqanlıqla dilləndi. - Mən sizdən soruşuram ki, polkovnik Alonso əhatəsində olan araukanları darmadağın edə bilər, ya yox? Mən sizin fikrinizi bilmək istəyirəm?

- Düşmənin ümumi qüvvəsini nəzərə alsaq, silahdaşlarımız onları məhv etməyə qadirdilər. - deyə Andre bir az tərəddüd edəndən sonra ciddi halda cavab verdi.

- Silahdaşlarımızın müvəffəqiyyət qazanmaqlarına məndə də şübhə yoxdur. - deyə Alonso qətiyyətlə dilləndi. - Deməli, bizim onlara kömək etməyimizə heç bir ehtiyac yoxdur.

- Siz nə etmək istəyirsiniz? - deyə Andre səbirsizliklə soruşdu.

- Biz arxadan gələn düşmənin üzərinə hücum etsək pis olmazdı. - deyə Alonso arxayınlıqla dilləndi. - Biz düşmənin həmin qüvvəsini darmadağın etmək üçün böyük səy göstərməliyik. Həmin əməliyyatdan sonra isə polkovnik Alonsonun köməyinə yollanarıq.

- Həmin dəstəni məhv etmək bizim ücun vacibdir? - Andre könülsüz halda soruşdu.

Kapitan bezikmiş halda başını tərpədərək təşəxxüslə Andreə dedi:

- Müharibəni tezliklə başa çatdırmaq üçün biz bacardığımız qədər düşmənin xeyli canlı qüvvəsini məhv etməliyik. Bu işin öhdəsindən nə qədər tez gəlsək, bir o qədər bizim üçün yaxşıdır. İndi belə bir imkan yaranıb. Araukanların yarım minlik qüvvəsi hərbi əməliyyatda iştirak edir. Biz elə etməliyik ki, elə birinci döyüşdə onların

hamısını darmadağın edək. Arxadan bizim üstümüzə gələn qüvvə istehkam qurulan kənddən çıxıbdır. Hazırda həmin kənddə araukanların sayı iki dəfə azalıb. Bu o deməkdir ki, biz həmin qüvvəni darmadağın etsək, həmin kəndin müdafiəsi xeyli zəifləyəcək. Elə bir möhkəm kəndi sonradan ələ keçirmək bizim üçün çətin olmayacaq. İndi anladınız, mən nə demək istəyirəm?

- Nə deyirəm ki, siz bilən məsləhətdir. - deyə Andre təqdiredici tərzdə dilləndi.

Bundan sonra Alonso yaxınlıqda dayanan Migeli də yanına çağırıb ona dedi:

- Sinyor Migel, piyada əsgərlərin hansı taktika ilə döyüşməyindən siz xəbərdarsınız. Sizdə, hətta komandir baçarığı olduğunun şahidi olmuşam. Ancaq mənə elə gəlir ki, süvarilərin taktikasından siz xəbərsizsiniz.

- Qismən də olsa, azacıq tanışlığım var. - deyə Migel etiraf etməli oldu.

- Onda hər ikiniz diqqətlə qulaq asın. - deyə Alonso onların hər ikisinin fikrini özünə cəlb etdi. - Bizim dəstədə on arbalyotçu, iyirmi beş nəfər nizə ilə silanlanan, qalanları isə qılınc oynadanlardır. Qılınc oynadanlardan onu odlu silahla silahlanıb. Sinyor Migel bilavasitə arbalyotçulara, leytenant Andre isə nizə daşıyanlara başçılıq edəcək. Hücum əmri verilən kimi bütün dəstə irəli gedir və düşmənin əsas

qüvvəsinə 70-80 metr qalmış hamı ayaq saxlamalıdır. Süvarilər bir cərgə üzrə elə dayanmalıdırlar ki, hər bir atlı yanındakı yoldaşından ən azı üç metr aralı olsun. Həmin an sinyor Migelin başçılıq etdiyi arbalyotçular irəli gedərək, lazım olan məsafədən düşmənin üzərinə oxları atsınlar. Sonra isə dövrə vuraraq həmin əməliyyatı təkrarlasınlar. Axırıncı dəfə bizim sıramıza daxil olandan sonra arbalyotçular mənim göstərişimlə düşmənin sağ və ya sol cinahına zərbə endirmək üçün hücuma gedəcək. Elə həmin an mən əks cinaha zərbə endirmək üçün qılıncdaşıyanlar ilə hücuma gedirəm. Leytenant Andre isə paralel olaraq bir cərgə ilə düşmən sırasının mərkəzini yarmalıdır. Biz elə etməliyik ki, bir hücum ilə düşmənin bütün qüvvəsi məhvə düçar olsun. Araukanlar bizim həmlələrdən çaş-baş qalmalıdırlar. Düşmənin yüz əlli nəfərlik qüvvəsi yarım saatın içərisində məhv edilməlidir. Ondan sonra isə polkovnik Alonsonun köməyinə gedəcəyik.

- Sinyor Alonso, biz elə etməliyik ki, araukanlar bizə sərf edənə qədər oturduqları kənddən aralansınlar. - deyə Migel ərk edərək komandirinə səmərəli təklif verdi. - Biz zərbə endirən zaman onlar kəndə qayıda bilməsinlər.

- Sizin bacarıqlı bir hərbçi olmağınıza məndə hec bir şübhə yoxdur. - deyə Alonso fərəhlə dilləndi. - Əlbəttə, biz

elə etməliyik ki, araukanlar geri qayıda bilməsinlər. Onların hamısı bir nəfərə kimi amansızcasına məhv edilməlidir.

- Cənab kapitan, işdir, döyüş başa çatandan sonra döyüş meydanında düşmənin yaralıları qaldı, onların aqibəti necə olcaq? - deyə fransız zabiti maraqlandı.

- Çayın ağzındakı yaralıların aqibəti necə oldu? - deyə Alonso adekvat sualla çıxış etdi.

- Onlar kapitan Xuanın göstərişilə toxunulmamış halda döyüş meydanında qaldılar. - deyə Andre qəribə halda dilləndi.

- Deməli, elə də olacaq. - deyə kapitan Alonso söhbəti yekunlaşdırmalı oldu. - Kapitan Xuanın əmri qüvvədə qalır. Biz düşmənlə kişi kimi döyüşməliyik.

Vadidə döyüşün şiddətlənməsinə baxmayaraq kapitan Alonso hələlik gözləmə mövqeyində durmuşdu. Lakin buradakı vəziyyət heç də ürəkaçan deyildi. Polkovnik Alonsonun başçılıq etdiyi dəstədə 50 nəfərə yaxın adam vardı. Onlar iki tərəfdən hücuma keçən düşmənə qarşı müvaqimət göstərirdilər. Hələ üstəgəl "qanlı vadinin" şimali-şərqində yerləşən kənddən bütün döyüşən hindular çıxaraq, yaxınlıqdakı konkistadorlara tərəf şığıdılar. Silahdaşlarına köməyə gedən araukanların sayı təxminən 150 nəfər olardı. Düzdür, ümumilikdə polkovnik Alonsonun dəstəsi 500 nəfərə yaxın olan düşmən qüvvəsinə müqavi-

mət göstərməyə qadir idi. Lakin həmin döyüşün müqəddəratını əlavə süvari dəstəsi həll edə bilərdi. Onlar köməyə nə qədər tez gəlsələr, konkistadorların da itkisi bir o qədər az olardı. Buna baxmayaraq, kapitan Alonso da qarşısına məqsəd qoymuşdu; o, istəyirdi ki, düşmən əsas qüvvəsini elə birinci döyüşdə itirsin.

Arxadan gələn hindular kənddən 500-600 metr aralanmışdılar ki, həmin kənddən dağa 100 nəfərlik dəstə ehtiyat qüvvəsi kimi üzü şimala doğru hərəkət etməyə başladı. Onlar qarşılarındakı quvvə ilə birləşsələr, araukanların sayı 250 nəfərə çatacaqdı. Belə olan halda kapitan Alonso onları məğlub etməyə çətinlik çəkəcəkdir. Məhz buna görə də o, dəstəsinə "hücum" əmri verdi.

Üzü şimala tərəf dayanan süvarilər kapitanın ardınca, cənubdan onlara yaxınlaşan araukanların üzərinə şığıdılar. Süvari dəstəsinin hücumunu görən aborigenlər birinci dəstəsi müdafiə olunmaq üçün öz irəliləyişlərini dayandırdılar. İkinci dəstə isə öz kursu üzrə irəliləyirdi. Hansı hindu tayfası olsaydı, süvarilərin hücumunu görüb dərhal ölümsaçan toqquşmadan çəkinərək döyüş meydanını tərk edərdi. Araukanlar isə müdafiə olunmaq üçün hazırlıq işləri görməyə başladılar. Qabaqda nizəlilər, arxada isə ox atanlar dayandı. Ümumiyyətlə, onlar üç sıradan ibarət müdafiə səddi yaratdılar. Müdafiə olunmaq üçün hər sıranın öz

funksiyası vardı. İndi tam aydın olurdu ki, araukanların döyüş taktikası həddindən artıq güclüdür. Bu bir növ aborigenlərin yox, avropalıların döyüş taktikasına bənzəyirdi. İndi şübhə yox ki, bu işdə onlara ispanların özləri köməklik göstərmişdilər. Bu müharibələr ərzində konkistadorlar onlara qarşı hansı taktiki döyüşü tətbiq etmişdilərsə, araukanlar da yavaş-yavaş həmin taktikaları mənimsəmişdilər.

İspanların planı bu döyüşə dair aydın idi. Görəsən, hindular bu döyüşü necə aparmaq arzusunda idilər? Söz yox ki, süvari dəstəsi peyda olana qədər araukanların planı təxminən bəlli idi. Onlar ispanları aldadıcı manevrlərlə məğlubiyyətə uğratmaq istəyirdilər. İndi isə vəziyyət kəskin surətdə dəyişmişdir. Onlar "qanlı vadiyə" daxil olan bütün konkistadorları, elə birinci döyüşdə məhv etmək istəyinə düşdülər. Bunun üçün ətrafda olan bütün ehtiyat dəstələrini döyüşə cəlb etmək lazım idi. Həmin dəstələrsiz burda qələbə qazanmaq çox müşkül bir iş sayılırdı.

Araukanlar elə də etdilər. Lap cənubda və şərqdə yerləşdirilən ehtiyat dəstələri yürüşə başladılar. Bu dəstələrin tərkibində 500-ə yaxın döyüşçü vardı. Onlar eyni vaxtda mühafizə etdikləri kəndləri tərk etmişdilər. Artıq sübut olunurdu ki, onlar vahid komandanlıq altında fəaliyyət göstərirlər. Məsafələr bir-birindən həddindən artıq böyük

olduğundan çox güman ki, onlar hansısa işarələr ilə bir-birilərilə əlaqə saxlayırlar. Bundan əlavə cürbəcür məntəqələr arasında atlılar fəaliyyət göstərirdi. Onlar rəhbərlərlə əlaqə saxlanılsın deyə, qasid funksiyasını yerinə yetirirdilər.

Konkistadorlar elə bilirdilər ki, onlar Araukaniyaya gözlənilməz yürüş ediblər və həmin taktika qələbənin tezliklə əldə edilməsinə böyük təkan verəcək. Lakin hindular bu yürüşdən hali olmuşdular. Onlar, hətta, bütün hindu tayfalarında vahimə yaradan süvari dəstəsindən belə çəkinmirdilər.

XI fəsil. Konkistadorların böyük qələbəsi

Süvari dəstəsi araukanlara 70-80 metr qalmış irəliləyişi dayandırdı. Elə həmin an arbalyotçular hücuma kecdi. Migel əsgərlərinə örnək olmaq üçün atını birinci çapırdı. Düşmənə həddindən artıq yaxınlaşmaq gərək deyildi. Çünki bu çox təhlükəli idi. Araukanlara iyirmi-iyirmi beş metr qalmış Migel oxunu ataraq, atını tez sola döndərdi. Onun

sərrast ox atmağı barəsində hamı eşitmişdi, lakin bunun şahidi bir neçə nəfər olmuşdu. Hazırda Migelin atdığı ox qurbanının düz sinəsinə batmışdı. Arbalyotçular da həmin manevri təkrarladılar. Lope ilə Xulionun buraxdığı oxlar da nişan alınan hədəfə dəymişdi. Bu hücumda 6-7 nəfər hindu xəsarət aldılar. Lakin araukanlar da hücumç edənləri ox ilə vurmağa çalışdılar. Lakin heç bir nəticə əldə edilmədi. Arbalyotçular arxadan sıraya düzülmüş silahdaşarının arasına daxil olaraq, ikinci dəfə hücuma keçdilər. Bu dəfəki hücumdan sonra aborigenlərin sıralarında çaxnaşma başlandı. Heç kim boş-boşuna ölmək istəmirdi. Nizə ilə silahlanmış araukanlar yerlərində düz dayana-dayana konkistadorların oxuna tuş gəlirlər. Müdafiə olunmağa imkan yox idi. Onların ox atanları isə kirasa keymiş konkistadorları mənv edə bilmirdi. Çünki məsafə uzaq sayılırdı. Məhz buna görə də, arbalyotçular üçüncü dəfə hücuma hazırlaşanda, araukanların sırasında kütləvi çaxnaşma baş verdi. Nizə ilə silahlananlar geri çəkilməyə cəhd etdilər.

Üçüncü hücumda bütün süvarilər iştirak etdilər. Arbalyotçular sol cinahdan, qılınclılar sağ cinahdan, nizəlilər isə mərkəzdən hücuma keçdilər. Məhz bu hücum zamanı düşmənin arasında əsl xaos baş verdi. Onların çoxu döyüş meydanından qaçmağa başladılar. Hiss olunurdu ki, onlar arxadan gələn qüvvə ilə birləşməyə can atırlar. Yalnız

onların az hissəsi müdafiə olunmaq üçün öz yerlərində qaldı. Onsuz da qaçmağın heç bir əhəmiyyəi yox idi. Təqib olunanlar ölümə məhkum edilmişdilər. Əsasən hinduların ox atanları konkistadorları nişan alırdı. Halbuki onlar süvarilərin atlarını da ox ilə vura bilərdilər, əlbəttə bir qədər uzaq məsafədən. Toqquşan zaman bu çətin oldu. Hərə öz həyatını ölümdən qurtarmaq fikrində idi.

Birinci nizəlilər araukanların sıralarına basqın etdilər. Qaçmağa üz tutanlar artıq özlərini müdafiə etməyə başladılar. Aborigenlərin sayı çox olduğundan onlar süvariləri mühasirəyə alaraq, layiqincə cavab verə bilərdilər. Lakin konkistadorlar onlara bu imkanı vermirdilər. Süvarilərdən bir neçəsi artıq düşmənin lap içərisinə girmişdilər.

Konkistadorların əsas məqsədi ondan ibarətdir ki, arxadakı qüvvə gələnə qədər buradakı araukanların hamısı qılıncdan keçirilsin. İş elə gətirdi ki, hinduların əksəriyyəti süvarilərin əhatəsinə düşdülər. Araukanlar sərçə kimi qırılırdılar. Müqavimət göstərməyə imkan olmurdu. Konkistadorlar isə düşməni məhv etməkdə sanki yarışa girmişdilər. Hər bir süvarinin üst-başı qurbanlarının yaralarından açılan qan ilə bulaşmışdı. Düşmənin lap içərisinə daxil olanların başı döyüşə o qədər qarışmışdı ki, onlar, hətta öz təhlükəsizliyini yaddan çıxartmışdılar. Aborigenlər belələrini zərərsizləşdirmək üçün ilk növbədə süvarilərin

ayaqlarını və budlarını yaralayaraq onları atdan yerə salırdılar. Yerə yıxılan atlı axsaq halda özünü müdafiə etməli olurdu. Belə bir müqavimət çox davam edə bilməzdi. Bir yaralının üzərinə eyni vaxtda 7-8 nəfər araukan hücum edir və qarşılarındakı qurbanı vəhşicəsinə qətlə yetirirdilər. Amma buna baxmayaraq hindular həddindən artıq çox itki verirdilər.

On beş dəqiqənin ərzində araukanların yarısından çoxu məhv edilmişdi və onlar vahimə içərisində qanlı meydandan qaçmağa başladılar. Konkistadorlar yenə də onları təqib edərək, qılıncdan keçirməyə başladılar.

Arxadan köməyə gələn aborigenlərin süvarilərə çatmağa heç bir şey qalmamışdı. Geriyə qaçan hinduların bəziləri öz dostları ilə birləşməyə müvəffəq olmuşdular. Bununla belə qabağa can atan süvarilərin bir neçəsi həmin qüvvə ilə toqquşmuşdu. Süvarilərlə bacarmadıqlarını hiss edən araukanlar öz rəqiblərinə yaxınlaşmadan, uzaq məsafədən onların üstünə balta və nizə atırdılar. Ox atanlar arxa plana çəkilərək orada sıraya düzülmüş və yaxınlaşmağa cəhd edən süvarini məhv etməyə başladılar. Bu haradasa, döyüşün gedişatında dönüş yarada bilərdi. Süvarilər isə itki çox verməsinlər deyə, hücumlarını dayandıraraq, elə yaxınlıqda olan pərən-pərən düşmüş hinduların məhvi ilə məşqul olmağa başladılar. Çıxılmaz vəziyyətdə qalan ox atanların

özləri döyüş meydanına yaxınlaşmağa cəhd etdilər. Lakin həmin an kapitan Alonsonun əmri ilə odlu silahı olan hər bir konkistador yaxınlaşmağa cəhd edən düşməni atəşə tutdu və dərhal özləri araukanların üzərinə hücuma keçdilər.

Döyüş yenidən şiddətləndi. Atların tappıltısı, kişnəməsi, qılıncların kar cingiltisi, barıtların partlayışı, hücumçuların nəriltisi, yaralıların qışqırtısı buranı cəhənnəm aləminə döndərmişdi. Yer yaşıl olsa da, insan cəsədlərindən axan qanın nəticəsində al qana boyanmışdı. Hər tərəf meyidlə dolu idi. Yerdə çapalayan yaralılar hər tərəfli iztirab içərisində idi və fəryad qışqırığını ətrafa yayırdılar. Onların bir çoxları ağır atların altında qalaraq zülümlə keçinirdilər. Elə yaralılar vardı ki, onların ya əli, ya qolu, ya da ki, ayağı yox idi. At belində olan konkistadorlar qılınc zərbəsini yuxarıdan elə endirirdilər ki, zərbə həm möhkəm, həm də effektli alınırdı. Boyuna dəyən qılınc başı bədəndən üzürdü. Yaralar böyük və dərin olduğundan qanlar iri həcmlə yerə tökülürdü. Bu dəhşətli səhnəyə rahat dayanıb baxmaq hər adamın işi deyildi. Adamı vahimə bürüyürdü.

Araukanlar çoxlu itki verdiklərinə baxmayaraq süvariləri mühasirəyə almağa çalışırdılar. Lakin süvarilər rəşadətlə döyüşərək, bu qeyri-bərabər döyüşdə böyük hünər göstərirdilər. Kapitan Alonso çox yaxşı bilirdi ki, hindular onları

sıxışdırmaqala, konkistadorları geniş fəaliyyətdən məhrum etmək istəyirlər. Belə olan halda süvarilərin yarısından çoxunu məhv etmək çətin deyildi. Onsuz da on nəfər süvari bu döyüşdə həlak olmuşdu. Kapitan mühasirəni yarmaq üçün tədbir görməyə başladı. Şimal tərəfdə hinduların sayı çox az olduğundan Alonso əmr etdi ki, həmin istiqamətdə hamı geri çəkilsin. Düzdür, o, bunu onunla əsaslandırdı ki, şimalda döyüşən silahdaşlarına kömək lazımdır.

Konkistadorlar nərə çəkərək şimal istiqamətində geri çəkilməyə başladılar. Bunu bir növ geri çəkilmə yox, döyüşdən çıxıb başqa döyüşə getmək kimi qələmə vermək olardı. Şimalda gedən döyüş buradakından daha ağır, daha təhlükəli idi.

Bu döyüşü tərk etməyə çalışan axırıncı süvariləri araukanlar oxla vurmağa çalışırdılar. Belə oxlardan biri Andrenin atını yaraladı və o, üzüqoylu yerə yıxıldı. Fransız zabitinin yıxıldığını görən araukanlar onu məhv etmək üçün irəli şığıdılar.

Migel ondan 20-25 metr qabaqda idi və hiss etdi ki, leytenantı atdan vurub yerə salıblar. O, cəld atını saxlayaraq geri döndü. Migel zabitə yaxınlaşanda araukanlar onu da ox ilə vurmağa çalışdılar. Lakin cavan zadəgan qılıncı ilə ona sarı atılan oxları yerə salaraq, Andreə ata minməyə şərait yaratdı. Sonra o, tərəddüd etmədən atını təhlukəli

zonadan uzaqlaşdırdı. Yolda onlar iki atın boş-boşuna süvari dəstəsilə birlikdə şimala doğru qaçdığını gördülər. Yarı yolda bütün dəstə dayanmalı oldu. Elə boş atlar da onların yanında dayandı.

- Sinyor Migel, göstərdiyin şücaətə görə sizə minnətdaram. - deyə Andre xilaskarının atından enən kimi səmimi qəlbdən dilləndi. - Belə bir cəsarətli və xeyirxah addımın sizin tərəfdən atıldığı mənim üçün heç də yeinilik sayılmır. Amma siz mənə görə öz həyatınızla vidalaşa bilərdiniz.

- Bu boş şeydir. - deyə Migel təvazökarlıqla dilləndi. - Döyüş vaxtı silahdaşıma kömək etmək mənim zadəganlıq borcumdur. Mənə elə gəlir ki, siz də mənim yerimdə olsaydınız elə bu cür hərəkət edərdiniz?

- Əlbəttə! - deyə Andre tərəddüd etmədən dilləndi. - Sinyor Migel, unutmayın ki, mən heç vaxt borclu qalmağı xoşlamıram. Vaxt gələr, mən sizin borcunuzdan çıxaram.

- Sinyor Andre, sizə dedim ki, mən özümün zadəganlıq borcumu yerinə yetirmişəm. - deyə Migel qürurla dilləndi.

Dəstəni bir yerə yığan kapitan Alonso neçə nəfərin həlak olduğunu ayırd etməyə başladı. Bu döyüşdə süvarilərin 11 nəfəri həlak olmuşdu. Bu, əlbəttə böyük bir itki sayılırdı. Lakin bu döyüşdə araukanların 180 nəfəri ödürülmüş və yaralanmışdır. Hər süvari demək olar ki, ən azı 3 nəfər

hindu məhv etmişdi. Yarım saatlıq bir döyüş üçün bu böyük nəticə sayılırdı.

Bu döyüşdə iki arbalyotçunun həlak olmasına baxmayaraq, kapitan Alonso növbəti döyüşdə də həmin hücum taktikasını tətbiq etməyə qərara aldı. Həmin taktika konkistadorların uğur qazanması üçün böyük üstünlük yaradırdı.

İndi burada artıq vaxt itirmək lazım deyildi. Aydın gözlə görmək olurdu ki, araukanlar hər tərəfli polkovnik Alonsonun başçılıq etdiyi dəstəni mühasirəyə alaraq, onları bütün manevrlərdən məhrum etmişdilər. Belə getsə, konkistadorlar böyük itkiyə məruz qala bilərlər. Bunun üçün kapitan əlindəki qılıncı yuxarı qaldıraraq üzü şimala tərəf qışqırdı:

- Kral naminə irəli! İspaniya uğrunda irəli!

Üzü şimala tərəf şığıyan süvarilər arxada böyük tözluduman yaratdılar. Bu dəfə onlar silahdaşlarını mühasirədən qurtarmaq üçün döyüşə can atırdılar. Lakin zərbəni endirmək üçün burda münasib yer tapmaq lazım idi. Şimali-şərqdəki kənd bir qədər hündürdə yerləşirdi və oradan gələn yolun özü də başqa yerlərə nisbətən hündürdə idi. Elə zərbəni də məhz oradan endirmək sərfəli idi. Süvarilər həmin yolun üstünə çıxaraq elə oradan da hücuma keçdilər. Lakin bu hücum onlara uğur gətirməyə bilərdi. Çünki süvarilər azacıq da olsun, nə döyüşdən sonra, nə də ki, qısa olmayan keçiddən sonra dincəlmişdilər.

Hamı yorğun, əzgin, narahat idi. Xüsusən də arbalyotçuların vəziyyəti çox pis idi. Onlar ağır döyüşdən sonra öz silahları ilə düşməni dəqiqliklə nişan alıb istədikləri kimi vura bilməyəcəklər. Çünki yarım saat dalbadal düşmənə qılınc zərbəsi endirən qollar, düşməni arbalyotla nişan almaq üçün sahiblərinin sözünə qulaq asmayacaq. Daimi hərəkətdən və əzələlərin şişməsindən qollar əsməyə başlayacaq. Lakin kapitan Alonso nə etdiyini çox yaxşı bilirdi. Arbalyotçular elə dəqiq nişan almadan da uğur qazana bilərdilər. Orada o qədər düşmən qüvvəsi vardı ki, heç bir ox kiməsə dəymədən yerə düşə bilməzdi. Oxun hər hansı bir düşmənin bədəninə sancılması labüd idi.

Artıq hücum əmri verilmişdi. Öz funksiyalarını yerinə yetirən arbalyotçular düşmənə yavaş-yavaş xəsarət yetirməyə başladılar. Arbalyotçuların sərbəst fəaliyyətinə son qoymaq üçün araukanlar qabaqdakı sıraya öz oxatanlarını gətirməyə başladılar. Onlar nəinki arbalyotçuları, ümumiyyətlə süvarilərin hamısını məhv etmək istəyirdilər. Süvarilər nəyin bahasına olursa-olsun, onların bu planını alt-üst etməl idilər. Yoxsa, onlar döyüşün ilkin dəqiqələrində fəlakət ilə üzləşə bilərdilər. Arbalyotçular ikinci dəfə hücuma keçmək istəyirdilər ki, kapitan Alonso - ”kral naminə irəli!” – şüarını səsləndirərək, bütün dəstəni öz ardınca hücuma apardı.

Araukanlar süvarilərin nizə daşıyanları ilə toqquşmaqdan çəkinərək, konkistadorlar üçün ensiz dəhliz açmaq məcburiyyətində qaldılar. Süvarilərin ikisi odlu silahla qətlə yetirildi. Hiddət və qəzəb içində olan süvarilər qarşılarına çıxan hər bir düşməni elə birinci həmlədən məhv edirdilər. Bu döyüşdə iştirak edən hindular süvariləri tezliklə məhv etmək üçün çalışırdılar ki, onları bir-birilərindən lazımi qədər uzaqlaşdırsınlar. Süvarilərlə toqquşmaqdan çəkinməyən araukanlar xüsusi fədakarlıqla və əzmkarlıqla döyüşürdülər. Aborigenlər çoxluqdan istifadə edərək konkistadorları burada hərtərəfli sıxışdırmaq istəyirdilər. Lakin köməyə gələn süvarilər düşmənin təzyiqlərinə heç bir əhəmiyyət vermədən mühasirədə olan öz silahdaşları ilə birləşməyə can atırdılar.

Hazırda bütün konkistadorlara aydın olmuşdu ki, əlavə qüvvə olmadan onlar bu döyüşdə qələbə əldə edə bilməyəcəklər. Onlar isə heç bir yerdən kömək gözləmirdilər. Kapitan Karl Kesada hücumçu piyada dəsqəsilə Araukaniyanın şərq hissəsində, kapitan qraf Ferdinand isə ehtiyat qüvvəsilə Anqud körfəzinin şimal sahilində idi. Onlar bilavasitə polkovnik Alonsonun verdiyi tapşırıqları yerinə yetirirdilər. Burdakı döyüşçülərin özləri ağır vəziyyətdən çıxış yolları tapmalı idilər. Hələlik onlar öz bacarıqlarına, təcrübələrinə, fərasətlərinə, cəsarətlərinə, rəşadətlərinə, qeyrətlərinə və

yenilməzliklərinə bel bağlamalı idilər. Bacardıqları qədər düşmənin canlı qüvvəsinə xeyli xəsarət yetirmək lazım idi. Buna baxmayaraq, onsuz da düşmən bu döyüşdə canlı qüvvə sarıdan xeyli itki vermişdi. Unutmaq lazım deyil ki, polkovnik Alonsonun başçılıq etdiyi dəstə sırf atıcılardan ibarət idi. Araukanlar onları mühasirəyə alana qədər xeyli itki verməli olmuşdular. İndi isə süvari dəstəsi düşmənə sarsıdıcı zərbələr endirərək qarşılarına çıxan hər kəsi xüsusi qəddarlıqla məhv edirdilər. Burda da qan su yerinə axırdı. Yaralıların ah-naləsi adamın ətini ürpədirdi. Çünki onlar köməksiz halda tapdaq altında qalmışdılar. Ağır yaralılar şok vəziyyətinə düşərək, qanaxma nəticəsində bir neçə dəqiqənin ərzində göz qabağında keçinirdilər. Lakin heç kim onların bu iztirabına əhəmiyyət vermirdi. Hamı öz hayında idi. Hərə qarşısındakı rəqibini məhv etməklə, öz həyatını ölümün pəncəsindən qurtarmış olurdu.

Aydın görmək olurdu ki, araukanların ox atanları ispanların süvariləri ilə bacarmırlar. Məsafə qısa olduğundan onlar öz silahlarından səmərəli istifadə edə bilmirdilər. Çünki nişan almağa imkan verilmirdi. Hindu rəhbərləri başqa tədbirlərə al atmalıydılar. Konkistadorlar ağır da olsa, onların üzərində qələbə qazana bilərdilər. Bir sözlə, araukanlar növbəti dəfə hücum hazırlaşdılar.

Konkistadorlar üçün gözlənilmədən, aborigenlər mütəşəkkil surətdə döyüş meydanını şimal istiqamətində tərk etməyə başladılar. Onlar kənarda olan yaralıları özləri ilə götürüb meşənin girəcəyində mövqe tutdular. Qəribə də olsa, araukanlar yaxınlıqdakı kəndə yox, meşəyə tərəf getmişdilər. Halbuki onlar heç bir təhlükə ilə üzləşmədən kəndin özünə çəkilə bilərdilər. Deməli, onlar kəndi boş qoymaqla hansısa hiyləgər bir fənd işlətmək istəyirdilər. Kənd boşdursa, konkistadorlar müvəqqəti olaraq özlərinə orada sığınacaq tapa bilərdilər.

Döyüş gözlənilmədən başa çatan kimi təəssuf içində olan polkovik Alonso sağ qalan döyüşçülərə, göstərdikləri şücaətə və qəhrəmanlığa görə öz minnətdarlığını bildirdi. Xüsusən də süvarilərin göstərdikləri qəhrəmanlıq onun tərəfindən hərarətlə qeyd edildi. Süvarilər köməyə gələn kimi konkistadorlar vadinin ortasında olan düşmənin böyük olan qüvvəsini darmadağın etmişdilər. Kapitan Alonsonun taktiki gedişi polkovnikin lap ürəyindən olmuşdur.

Bu qələbə ilə biri-birilərini təbrik edən konkistadorların sevinci yaralıların ah-naləsinə qarışmışdı. Hər bir yaralıya kömək lazım idi. Xüsusi iradə lazım idi ki, onların sifətlərində sezilən iztiraba, qışqırıqlarına və iniltisinə tab gətirsin. Bununla da qələbəyə doğru gedən yolun ağır olduğu bir daha sübut olundu.

XII fəsil. Verilən itkilərin ayırd edilməsi

Çoxları sevinsə də, polkovnik Alonsonun sifətində ağır bir gərginlik hiss olunurdu. Sanki o, qəmli baxışları ilə ölənlərin və yaralananların arasında kimi isə axtarırdı. Onun yaxınlığında olan Migel işin nə yerdə olduğunu çox yaxşı anladı. Necə olsa da, onun oğlanları bu döyüşdən sağ çıxmışdılar. Təkcə Kamaço belindən və sağ qolundan yaralanmışdı, Buna baxmayaraq, Alonso heç də yaralı olan oğluna yaxınlaşıb onun vəziyyətinin necə olduğunu soruşmamışdı. Çoxları tanınmış sərkərdənin oğluna qarşı olan bu cür laqeyd davranışına mat-məətəl qalmışdılar. Nədənsə, heç kim ona yaxınlaşmağa cürət etmirdi. Onu başa düşmək olardı. Alonso məğrur ispan sərkərdəsi idi. O, ölüm-dirim mübarizəsindən sağ çıxmış övladlarına xüsusi qayğı göstərmək istəmirdi. Hamı bu döyüşdə özunun bütün qüvvəsini sərf edərək, düşmənə qarşı yüksək səviyyədə döyüşmüşdür. Polkovnik döyüşçülər arasında ayrıseçkilik etmək istəmirdi. Onsuz da o, hər bir döyüşçünü öz övladı kimi çox istəyirdi. Hər bir itirilən ispan əsgərinə görə o, kədərlənə bilərdi. Alonso oğluna yaxınlaşmadan Migeli yanına çağırıb astaca:

- Migel, nədənsə Xuan gözümə dəymir? Onu harada vurdular?

- Bura gələn zaman elə birinci çayı keçəndə onu ox ilə vurdular. - deyə Migel eyni qaydada cavab verdi.

Bu sözlərdən sonra polkovnikin qanı lap qaraldı. Başı solğun halda sinəsinin üstünə endi. Sanki ümidi hər yerdən qırılmışdı. Son anda söz soruşmaq üçün o, özündə qüvvə taparaq Migelə nəzər salmadan qeyri-müəyyən tərzdə:

- Meyidini götürməyə imkan yox idi?

- Kapitan Xuan öldürulməyib ki, meyidi döyüş meydanında qalsın. - deyə Migel çiyinlərini dartaraq sönük halda dilləndi.

Bu cavab elə bil polkovniki yuxudan ayıltdı və onun əhval-ruhiyyəsi dərhal dəyişdi. Alonsonun çöhrəsində sevinc cizgiləri yarandı. O, növbəti ümidverici cavabları cavan zadəganın gözlərində axtarmağa başladı. Migel də öz növbəsində bu məsələyə aydınlıq gətirmək üçün aludəliklə sözünü davam etdirdi:

- Kapitan Xuan yaralı halda, baxın o dağın (əli ilə həmin yeri göstərdi) üstündədir. Ümumiyyətlə, orda bizim on dörd yaralı silahdaşlarımız var. Hərbi əməliyyat vadidə başa çatana qədər onlar orada olmalıdırlar.

Məhz bundan sonra cuşa gələn polkovnik Alonso qarşısındakı keçmiş şagirdini ehtirasla qucaqaladı. Onun sevinməyinə böyük əsas vardı. Kənarda dayanan konkista-

dorlar tanınmış sərkərdənin Migeli nəyə görə qucaqalamasının səbəbini anlaya bilmədilər.

Kamaçonun başının üstündə dayanan kapitan Filipp Odovaldonu da qardaşının həyatı maraqlandırırdı. Polkovnik işarələrlə vəziyyətin nə yerdə olduğunu ona başa saldı.

Döyüşün dayandırılması müvəqqəti xarakter daşıyırdı. Araukanlar hər an konkistadorların üzərinə hücum edə bilərdilər. Təcili tədbir görmək üçün polkovnik Alonso bütün zabitləri yanına çağırdı. İlk növbədə yaralı konkistadorlara əlüstü tibbi yardım göstərmək üçün sərəncam verildi. Döyüşün dayanmasına baxmayaraq, bütün konkistadorlar hazırlıqlı vəziyyətə gətirilmişdi. Necə olsa da, onlarla araukanlar arasındakı məsafə 700-800 metrdən çox deyildi. Bu döyüşdə hər iki tərəfdən nə qədər itki verilməsi, bütün zabitləri maraqlandırdığından bu iş bilavasitə Andreə həvalə edildi. Bütün tapşırılan işlər sürətlə görülməliydi.

Polkovnik üzünü zabitlərə tərəf tutub ehtiramla dedi:

- Vəziyyət gördüyünüz kimi heç də ürəkaçan deyil. Araukanlar əlavə qüvvə toplamamış biz qəti tədbirlərə əl atmalıyıq. Yoxsa, biz əlimizdə olan qələbəni düşmənə təhvil verməli olacağıq. Mən öz fikrimi axırda söyləyəcəm.

- Möhtərəm sinyorlar, bir daha sizi əldə etdiyimiz qələbə ilə təbrik edirəm! - deyə Alonsonun qardaşı kapitan Filipp ehtirasla dilləndi. - Krallığımızın qatı cinayətkarları olan

araukanlar bu döyüşdə hərtərəfli darmadağın ediliblər. Onları tam məğlubiyyətə uğratmaq üçün biz araukanların sarsılmış və zəiflədilmiş qüvvəsini təqib etməliyik.

- Mən də bu təklifin üstündə dururam. - deyə Karlos səbirsizliklə dilləndi. - Araukanlar təqib olunaraq, məhv edilməlidirlər. Yoxsa, onlar qaçıb canlarını qurtaracaqlar.

Qardaşının yaralandığından və köməksiz halda dağın üstündə qalmasından hiddətə gəlmiş kapitan qraf Xuan araukanlardan xüsusilə yanıqlı idi, lakin o, tamamilə başqa bir təklif verdi. Qraf Xuan üzünü polkovnikə tərəf tutub əsəbi halda dedi:

- Don Alonso, düşməni təqib etməkdən heç bir şey çıxmayacaq. Onlar novbəti dəfə bizimlə açıq döyüşdə üzləşməkdən boyun qaçıracaqlar.

- Don Xuan, təklifinnzi verin. - deyə kapitan Filipp onu tələsdirdi.

- Biz irəliləyişimizi davam etdirməli və bu vadinin mərkəzində yerləşən boş kəndin birində mövqe tutmalıyıq. - deyə qraf Xuan tələsik halda dilləndi. - Paralel olaraq dağın başında qalmış yaralı silahdaşlarımızı aşağı düşürüb onların müalicəsi ilə məşğul olmalıyıq.

- Yaralılar ilə məşğul olsaq, onda biz öz üstünlüyümüzü əldən vermiş olacağıq. - deyə Ernando Ramires narazı halda dilləndi. - Qarşımızda olan düşmənin qalıqları məhv

edilməlidir. Əks təqdirdə araukanlar bütün qüvvələrini toplayıb yenidən hücuma keçəcəklər. Buna heç cürə yol vermək olmaz.

- Möhtərəm sinyorlar, sizə bildirməliyəm ki, gündüz vaxtı yaralıları qaldıqları yerdən çıxarmaq münasib sayılmır. - deyə kapitan Alonso aludəliklə dilləndi. - Biz ora gedib çıxana qədər araukanlar öz qüvvədərini birləşdirə bilərlər. Ondan sonra növbəti qələbəni əldə etmək qeyri-mümkün olacaq.

- Sinyor Alonso, siz məsuliyyətlə çıxış etmirsiniz. - deyə qraf Xuan öz etirazını bildirdi. - Düşmənin cənubda lazımi qədər qüvvəsi var. Onların bir hissəsi yuxarı qalxıb orada köməksiz atılmış yaralı silahdaşlarımızı vəhşicəsinə qətlə yetirəcəklər. Biz bu faciənin qarşısını almalıyıq.

- Don Xuan, yaralı silahdaşlarımızın hər birində odlu silah var. - deyə kapitan Alonso nikbinliklə dilləndi. - Onlar hər an özlərini müdafiə etməyə hazırdılar.

- Sinyor Alonso, inciməyin məndən, amma bizim yaralıları düşmən əhatəsində tək-tənha qoymaq, sizin tərəfdən səhv addım sayılır. - deyə qraf Xuan həqarətlə dilləndi.

- Möhtərəm sinyorlar, kapitan Alonso reallığı nəzərə alaraq, düşmən üzərində qələbə qazanmaq üçün döyüş əməliyyatlarına qoşulmuşdu, - deyə polkovnik Alonso təmkinlə dilləndi. - Süvari dəstəsi bizim yaralıların yanında

qalıb keşik çəksə idi, düşməni məğlub etmək mümkün olmayacaqdı. Döyüş əməliyyatlarına qatılan süvari dəstəsi düşmənin böyük qüvvəsini darmadağın edibdir. Kapitan Alonsonun kritik vəziyyətdə çıxardığı qərar tərifə layiqdir.

Bu iltifata görə polkovnikə təzim edən Alonso başını dik tutaraq aludəliklə dedi:

- Biz yaralıların yanında qalsaydıq, onda hamı bizi qorxaqlıqda ittiham edəcəkdi. Mən süvariləri aşağı endirəndə düşmən elə başa düşdü ki, yuxarıda bizimkilərdən heç kim qalmayıb. Yuxarıda qalanların hamısına odlu silah verilibdir və onlar eyni zamanda 50-60 nəfərlik düşmənin hücumuna müqavimət göstərməyə qadirdilər. İndi ümdə məsələlərlə məşğul olmalıyıq. Hava qaralandan sonra biz onları həmin yerdən gedib çıxardarıq.

- Hazırda biz araukanların məhvi ilə məşğul olmalıyıq. - deyə polkovnik qətiyyətlə dilləndi. - Gündüz vaxtı yaralılarla məşğul olmaq, bizim gördüyümüz bütün zəhmətimizi puç edəcək. Lakin ilk növbədə biz dəqiq bilməliyik ki, dəstəmizdə nə qədər salamat adam qalıb. Hiss edirəm ki, növbəti hücum əməliyyatını həyata keçirmək üçün bizim qüvvəmiz xeyli azdır. Həm də unutmaq lazım deyil ki, bizdə yaralılarımızın sayı çoxalıb. Biz onları burda qoyub dərhal hücuma gedə bilmərik. Elə bir şey fikirləşmək lazımdır ki, biz düşmənin üzərinə hücum edə bilək.

Bir az keçmişdi ki, leytenant Andre ona verilən tanşırığı yerinə yetirərək polkovnikə yaxınlaşdı. O, dedi:

- Bu döyüşdə araukanlar həddindən artıq böyük itkiyə məruz qalıblar. Onlardan 198 nəfəri öldürülüb və geri çəkilən araukanların özləri ilə apardıqları yaralıları nəzərə almadan, 131 nəfəri yaralanıb. Yaralananlardan 44 nəfərinin vəziyyəti çox ağırdır. Bizim verdiyimiz itkilər də az deyil: 29 nəfər öldürülüb, 32 nəfər isə yaralanıb. Yaralılardan 13 nəfərinin vəziyyəti daha ağırdır. Döyüş zamanı 11 baş at məhv edilib. Süvarilərin yarısı demək olar ki, sıradan çıxarılıb.

Bu məlumat zabitlərin həm sevincinə, həm də kədərinə səbəb oldu. Faktiki olaraq, konkistadorlar düşməni darmadağın etmişdilər. Bir döyüşdə bu qədər düşmənin məhv edilməsi həqiqətən də böyük uğur sayılırdı. Hələ üstəgəl kapitan Alonsonun başçılıq etdiyi süvari dəstəsi "qanlı vadinin" mərkəzində, düşmənin böyük qüvvəsinin, 180 nəfər əsgərinin zərərsizləşdirilməsi aborigenləri demək olar ki, dizləri üstə çökdürmüşdü. Araukanlar uzun illərdən bəri bir döyüşdə bu qədər qüvvə itirməmişdilər. Bu müharibədəki məğlubiyyət göz qarşısında idi. Bugünkü döyüş konkistadorların böyük qələbəsi ilə başa çatmışdı. Lakin ispanlar da bu döyüşdə böyük itki vermişdilər, 101 nəfərlik qüvvədən 41 nəfər öldürülmüş, 32 nəfər yaralanmışdır.

Polkovnik Alonsonun ixtiyarında 27 nəfər salamat əsgər qalmışdı. Bu qədər qüvvə ilə hücum əməliyyatını davam etdirmək, sadəcə olaraq ağılsızlıq sayılırdı. Təcrübəli sərkərdə də bu problemi çox yaxşı anlayırdı. Hücum etməyə burdakı qüvvə kifayət etmirsə, deməli konkistadorlar vadidə özlərinə münasib yer taparaq müdafiəyə hazırlaşmalıydılar. Lakin çox çətin ki, aborigenlər sonuncu qüvvələri ilə konkistadorların üzərinə hücum etsinlər. Halbuki ispanların 27 nəfərlik qüvvəsini darmadağın etməyə onlar qadirdilər. İspanlarda odlu silahlar olmasaydı, araukanlar növbəti hücum tətbiq edə bilərdilər. Həm də onlar qorxurdular ki, necə ki, süvari dəstəsi, eləcə də başqa bir ehtiyat qüvvəsi konkistadorların köməyinə gələ bilər. Bütün gözlənilməz halları nəzərə almaq lazım idi. İspanlar düşmən üzərində böyük qələbə qazansalar da, özləri də son döyüşlərdə böyük itkilər vermişdi.

XIII fəsil. Müharibədə uğur qazanmaq üçün sonuncu döyüşdə qələbə əldə etmək lazımdır

Qərara alındı ki, bütün dəstə "qanlı vadinin" şimali-şərqində yerləşən kənddə müvəqqəti dislokasiya qurmalıdır. Əlavə qüvvə gəlməmiş konkistadorlar hücum əməliyyatlarını davam etdirə bilməzlər.

Kəşfiyyatçılar kəndi yoxlayandan sonra bütün dəstə həmin yaşayış məntəqəsinə köçdü. Kənddə mövqe tutmaları onunla izah olundu ki, birincisi onların qüvvəsi xeyli azalmışdı, ikincisi isə hava getdikcə pisləşirdi. Güclü yağış yağsa konkistadorlar özləri də, yaralılar da kənddəki evlərdə sığınacaq tapa bilərdilər.

Yaralı araukanlarla necə rəftar edilməsi müzakirə olunanda zabitlər arasında qızğın mübahisələr getdi. Əksər zabitlər yaralıların qatı cinayətkarlar kimi elə yerindəcə edam olunmalarını təkid edirdilər. Necə olsa da, onlar bir neçə ispan əsgərinin ölümünə bais olmuşdular. Lakin polkovnik Alonso həmin müzakirəni yarmçıq qoyaraq, kəndə getmişdir. Yaralı araukanlar isə göz qabağında döyüş meydanında qalmışdılar. Bir çox yaralının vəziyyəti ağır olduğundan onların qışqırtısı, ah-naləsi bütün ətrafı bürümüşdü. Bir neçə nəfəri şübhəsiz ki, qan axmadan yerlərində keçinəcəklər. Onlara təcili olaraq tibbi yardım lazım idi.

Meşənin kənarında cəmləşən araukanlar bir sıraya düzülərək mütəşəkkil surətdə döyüş meydanına yaxınlaşmağa başladılar. Eyni olaraq, istehkam qurulan kənddən də hinduların böyük bir dəstəsi döyüş meydanına tərəf üz tutdu. Məsafə uzun olsa da, araukanlar hansısa vasitə ilə biri-birilərilə əlaqə saxlayırdılar. Hazırda onlar eyni vaxtda iki istiqamətdə döyüş meydanına tərəf hərəkət edirdilər. Konkistadorlar anlaya bilmirdilər aborigenlər bir-birilərilə necə əlaqə saxlayırlar. Düşmənin yaxınlaşdığını görən zabitlər yenidən polkovnikin başına toplaşırdılar. Onları yaralı hinduların aqibəti maraqlandırırdı. Polkovnik isə bu məsələyə dair heç bir reaksiya vermirdi. Nəhayət onun qardaşı kapitan Filipp tab gətirməyib səbirsizliklə soruşdu:

- Alonso, yerdə uzanan murdarların aqibəti necə olacaq? Yarım saatın ərzində köməyə gələn aborigenlər burada olacaqlar. Ondan sonra yaralılar bizim əlimizdən çıxacaq.

- Filipp, nəyə görə başa düşmürsən, mən silahsız və köməksiz adamların qətlində iştirak etmək istəmirəm. - deyə Alonso hiddətlə dilləndi.

- Bir neçə dəqiqə bundan əvvəl onların hamısı silahlı idi. - deyə kapitan Filipp narazı halda dilləndi.

- Don Alonso, araukanların hamısı qatı cinayətkarlardır və onlar cinayətkar kimi öz cəzalarına çatmalıdırlar. - deyə qraf Xuan da Filippin təklifini dəstəklədi.

- Onları qılıncdan keçirməsək, araukanlar elə biləcəklər ki, biz onlardan qorxuruq. - deyə fürsətdən isqifadə edən Karlos qeyri-müəyyən tərzdə dilləndi. - Əgər, biz onların yerində olsaydıq, araukanlar çoxdan bizi o dünyalıq etmişdilər.

Polkovnik Alonso bu məsələyə dair bütün zabitlərin fikrini bilmək istəyirdi. Lakin başqaları hələlik susmağı üstün tuturdu. Onlar yalnız polkovnikdən sonra öz fikirlərini bildirmək istəyirdilər. Çünki həmin zabitlər çox yaxşı bilirdilər ki, polkovnik yaralı hinduların vəhşicəsinə qırılmasının tərəfdarı deyil. Ancaq buna baxmayaraq, polkovnik cavab verməyə tələsmədi. İşi belə görən kapitan Filipp yenə də bu məsələyə dair çıxış etdi. O, dedi:

- Alonso, başa düşürəm, sən nə etmək istəyirsən. Sənin qarşındakılar Avropanın hər hansısa sivilizasiyalı dövlətinin əsgərləri deyil ki, onlara öz alicənablığını nümayiş etdirəsən. Onlar Yeni Dünyanın ən vəhşi, ən qəddar hindu tayfasıdır. Unutma ki, onlar neçə-neçə bizim ekspedisiyaları darmadağın ediblər. Heç olmasa, Migelin babası mərhum Pedro Valdiviyadan nümunə götür. O, döyüşdə əsir aldığı 400 araukanın əllərini biləklərindən kəsdirmişdir ki, başqalarına ibrət dərsi olsun. Sən isə bizim əsgərlərin qətlində iştirak etmiş qatilləri cəzasız buraxmaq istəyirsən. Sənin bu humanist addımların əlahəzrət II Filippin xoşuna

gəlməyə bilər. Unutma ki, bu müharibədə bizdən başqa kral notariusu da iştirak edir. O, isə hər bir şeyi krala çatdırmağa məcburdur.

- Əlahəzrət II Filipp məni ekspedisiya başında Yeni Dünya sahillərinə göndərəndə, İspaniyaya yalnız qələbə ilə qayıtmağı tövsiyə edib. - deyə polkovnik sağ əlini qardaşının sol çiyninə qoyaraq ciddi halda dilləndi. - Mən də onun tapşırığını nəzərə alıb İspaniyaya yalnız və yalnız qələbə ilə qayıdacağam. Heç kimə dəxli yoxdur, mən həmin qələbəni hansı üsullarla əldə edəcəm. Düzdür, bu söz sizlərə şamil edilmir. Çünki siz döyüş əməliyyatlarında yaxından iştirak edirsiniz.

- Don Alonso, aborigenlər sizin humanist addımınızı başqa cür başa düşəcəklər. - deyə qraf Xuan ehtiramla dilləndi. - Araukanların 131 nəfəri yaralıdır. Onlar sağalsalar böyük dəstə təşkil edə bilərlər. 131 nəfəri məğlub etmək üçün biz nə qədər döyüşçü itirməliyik. Heç şübnəsiz ki, onlar sağalandan sonra, yenidən silaha sarılaraq bizim üzərimizə hücum edəcəklər.

- Biz ilk növbədə öz ümidimizi itirməməliyik. - polkovnik soyuqqanlıqla dilləndi. - Əgər, biz onların həyatına toxunmuruqsa, deməli bizə qarşı olan nifrət hissi aradan qaldırılacaq. Çox güman ki, bizim humanist addımımız bütün Araukaniyaya yayıla bilər. Mülki əhalinin bizə qarşı

olan düşmənçilik münasibəti kəskin surətdə dəyişər. Yaralı araukanlara həyat verilməsi, bir çox dəyişikliklərə səbəb ola bilər. Kim bilir, bəlkə də onlar öz silahlarını yerə qoyub öz rəhbərlərindən müharibənin dayandırılmasını tələb edəcəklər? Artıq bu məsələ üzrə bir çox işlər görülüb. Kapitan Alonso bura gələn kimi bir neçə araukan kəndindən keçərək, orada yaşayan mülki əhalini incitməmişdir. Mülki əhali bizimkilərdən belə bir xeyirxah addımı gözləmirdi. Çay keçidləri zamanı araukanlarla toqquşmalar olanda, qardaşım Xuanın göstərişi ilə bütün yaralılar əfv edilmişdir.

- Araukanlar yaxşılıq qanan tayfa deyil. - deyə kapitan Filipp ikrah hissilə dilləndi və bir az tərəddüd edəndən sonra sözünə davam etdi. - Bəs, indi araukanların bu hərəkətinə nə ad vermək olar? Görürsən ki, onlar hiddətlə bizim üstümüzə gəlirlər.

- Kim bilir, bəlkə onlar döyüş meydanından öz silahdaşlarını götürmək üçün bura gəlirlər. - deyə Ernando Ramires polkovnikin fikrini dəstəkləməyə çalışdı.

- Mən onlara sonuncu şansı verirəm. - deyə polkovnik qürurla dilləndi. - İstəyirəm ki, bu torpaqda yaşayan bütün əhalinin münasibəti bizə qarşı dəyişsin. Bəlkə, sonuncu qələbə əldə etmək üçün bizə növbəti döyüş gərək olmayacaq. İlk növbədə biz əhalinin etimadını qazanmalıyıq.

Alonso peşəkar bir döyüşçü və uzaqgörən bir siyasətçi kimi öz humanist hərəkətləri ilə bu müharibəyə tezliklə son qoymaq istəyirdi. Araukaniyanın mülki əhalisi döyüşçü hindulara öz yardımlarını dayandırsalar, onda hər şey ispanların xeyrinə dəyişə bilər. Döyüşçülər yerli əhaliyə, ispanların amansızlığını və vəhşiliyi barəsində kifayət qədər təbliğat aparmışdılar. Amansız və vəhşi konkistadorlar mülkü əhaliyə və kömək-siz yaralılara heç vaxt aman verməz və öz qəddarlıqlarını nümayiş etdirməliydilər. Sözsüz ki, belə olan halda yadelli işğalçılara qarşı münasibət dəyişilməliydi. Lakin belə bir məsələlər bir gün ərzində həll olunmurdu.

Artıq araukanların ilkin dəstələri döyüş meydanına gəlib çıxmışdılar. Onlar ilk növbədə oradakı yaralılara kömək etməyə başladılar.

Hər iki dəstə döyüş meydanında birləşəndən sonra ispanların mövqe tutduqları kəndə tərəf üz tutdular. Polkovnik elə bilirdi ki, hindular öz yaralı silahdaşlarını götürəndən sonra döyüş yerindən geri çəkiləcəklər. O, fikrində yanılmışdı. Araukanların inadkarlığından sonra Filipp qardaşı Alonsonun düzgün mövqedə olmadığına görə irad tuqmağa başladı. Bu vaxt kapitan Alonso, leytenant Ernando və qraf Xuan onun yanında idilər. Lakin heç kim polkovnikə irad tutmağı məsləhət bilmədi. Çünki polkovnik hər an öz səhvi-

ni düzəltməyi bacaran bir sərkərdə idi. Kapitan Filippin də irad tutmağı əbəs yerə idi. Nəhayət polkovnik Alonso özünü saxlaya bilməyib, öz hökmünü nəinki ətrafdakılara, hətta qardaşına da nümayiş etdirmək üçün əzmlə dedi:

- Filipp, mən nə etdiyimi çox yaxşı bilirəm. Araukanlar mənim humanistliyimi nəzərə almaq istəmədilər. Onlar növbəti dəfə əzilmək üçün bizim üstümüzə gəlirlər. Həm də yadda saxla ki, mən cəllad deyiləm, peşəkar bir döyüşçüyəm. Yaralı, köməksiz, yarı şikəst adamları qılıncdan yalnız cəlladlar keçirməyə qadirdilər. Mənim isə peşəm yalnız əli silahlı düşmənə qarşı mübarizə aparmaqdır. Arxayın ola bilərsən, biz Araukaniyanı qalib kimi tərk edəcəyik. Bu onların son müqavimətidir.

- Don Alonso, bu müharibədə uğur qazanmaq üçün sonuncu döyüşdə yalnız qələbə əldə etmək lazımdır. - deyə kapitan Alonso təmkinlə dillənli. - Bu qüvvə ilə biz çətin ki, qələbə qazanaq. Araukanlar fürsətdən istifadə edərək bizim üstümüzə hücum edəcəklər. Onlar bu üstünlüyü əldən verməyəcəklər.

- Sinyor Alonso, heç də ruhdan düşmək lazım deyil. - deyə polkovnik təəssüflə başını tərpədərək həmsöhbətinə təsəlli verməyə başladı.

- Araukanlar elə başa düşməsinlər ki, üstünlük onların tərəfindədir. Məndə olan məlumata görə bu hücumda

düşmənin 400-450 nəfərlik qüvvəsi iştirak edir. Mənim ixtiyarımda 27 nəfər salamat əsgər var, lakin on bir yaralı da döyüşlərdə iştirak etmək üçün mənə müraciət edibdir. Deməli, araukanlara qarşı 39 nəfər döyüşçü müqavimət göstərəcək. Düşmənin qüvvəsi bizdən 10-11 dəfə çoxdur. Bizi məğlubiyyətə uğratmaq heç də asan olmayacaq.

- Bizdə olan konkistadorların hər biri 10 nəfər düşmənə müqavimət göstərməyə qadirdir. - deyə kapitan Alonso ehtirasla dilləndi. - Migel kimi döyüşçülər lap on beş nəfər düşmənə cavab verə bilər. Təəssüflər olsun ki, bizdə belə döyüşçülər azdır.

- Migeli o səviyyədə şişirtmək lazım deyil. - deyə qraf Xuan öz etirazını bildirdi. - Sadəcə olaraq, döyüş vaxtı onun bəxti, başqalarına nisbətən gətirir.

- Mən onun necə döyüşdüyünün şahidi olmuşam. - deyə kapitan Alonso öz mövqeyini müdafiə etməli oldu. - Döyüş vaxtı ən ağır nöqtələrdə iştirak edir və düşmənin əsas qüvvəsini özünə cəlb edir. Son döyüşlərdə o, yaman fədakarlıqla döyüşərək, bir-birinin ardınca şəxsi igidliklər göstərmişdir. Biz bura köməyə gələndə araukanlar Andrenin atını ox ilə vurmuş və bizim silahdaşımız piyada qalmışdı. Bu hadisə baş verəndə artıq hamı qabaqda idi. Lakin bu vaxtı Migel öz silahdaşına kömək etmək üçün geriyə dönür. Öz həyatını risqə qoyan Migel leytenant Andreni düşmən

əhatəsindən sağ-salamat çıxardır. Döyüşlərin birində kapitan Xuan Odovaldonu ox ilə vuranda, bizim komandir demək olar ki, düşmən əhatəsində tək qalır, ancaq bu vaxt Migel özünü onun yanına çatdıraraq, yaralını qeyri-bərabər döyüşdə düşmən əhatəsindən çıxarmağa müvəffəq olur. O, kapitanı qeyri-adi şəraitdə ölümün pəncəsindən xilas edir. Migel buna oxşar qəhrəmanlıqları bir-birinin ardınca təkrar edib. O, peşəkar döyüşçülər sayılan Luisi, Diası və başqalarını ölümün pəncəsindən xilas edə bilib. Öz həyatını hamıdan çox təhlükəyə atan Migel onlarla düşməni qılıncdan keçirdib və bir dəfə də olsun, qeyri-bərabər döyüşlərdə xəsarət almayıb. Mən ona görə demirəm ki, o, vaxtilə polkovnik Alonsonun şagirdi olub. Migel həqiqətən də qılıncından və kamandan peşəkarcasına istifadə edir və yüksək döyüş qabiliyyətinə malikdir. Onun kimi döyüşçülərdən biz səmərəli istifadə etməliyik.

Alonsonun çıxışı polkovnikin əhval-ruhiyyəsini qaldırdı. O, bir anlığa ağır xəyala daldı. Migel yenə də başqa döyüşçülərə nisbətən fərqlənmişdi və bu azmış kimi o, Xuanın həyatını xilas etmişdi. Bu igidlik polkovnikin fikrindən elə-belə yayına bilməzdi. Deməli, Migel həmin döyüşdə iştirak etməsəydi, Xuan düşmən qərəfindən qətlə yetirilməliydi. Birdən polkovnik başını dik qaldıraraq soyuqqanlıqla dedi:

- Hamı etiraf etməlidir ki, Migel bizim ekspedisiyanın ən bacarıqlı və təcrübəli döyüşçülərindən biridir. Ona qarşı heç kim qərəzli mövqedə durmamalıdır. Şəxsən mən etiraf etməliyəm ki, 21 yaşlı cavan zadəgan Araukaniyada gedən ən ağır döyüşlərdə yaxından iştirak edib və hamısında da müsbət cəhətdən fərqlənib.

Polkovnikin etirafı heç də qraf Xuanın ürəyindən deyildi. Necə olsa da, onun Migeli görən-gözü yox idi. Hara gedirsə, kiminlə təmasda olursa-olsun, əgər Migeldən söhbət gedirsə, hamı onun göstərdiyi qəhrəmanlıqlarından dəm vururdu. Amma qraf bu barədə polkovnik ilə söz güləşdirmək istəmirdi. Acı da olsa, polkovnik əsl həqiqəti söyləyirdi. İndi onu maraqlandıran məsələlərdən biri o idi ki, qardaşının və başqa yaralıların aqibəti necə olacaq? Axı, bütün yaralılar düşmən əhatəsində qalmışdılar. Onlara kömək getməsə, hamısı düşmən tərəfindən məhv ediləcək-di. Qraf burada gedən söhbətin mövzusunu dəyişmək üçün üzünü polkovnikə tutub səbirsizliklə dedi:

- Don Alonso, düşmən öz yaralılarını gəlib döyüş meydanından götürdü. Biz də öz yaralılarımızı yuxarıdan götürsək pis olmazdı. Çünki araukanlar gec-tez onların üzərinə hücum edəcəklər. Biz onları qabaqlamalıyıq. Sonra gec olacaq.

- Don Xuan, bu kənddə bizim xeyli yaralılarımız var. - deyə polkovnik həqarətlə dilləndi. - Mən, onları burda qoyub yuxarıdakılara köməyə gedə bilmərəm. Hazırda araukanlar bütün qüvvələrini bu kəndin cənub səddinə cəmləşdirirlər. Çox güman ki, onlar bütün kəndi mühasirəyə alacaqlar. Biz onların hücumuna hazır olmalıyıq.

- Düşmənə layiqli müqavimət göstərmək üçün bizə əlavə qüvvə lazımdır. - deyə kapitan Filipp təşəxxüslə dilləndi. - Kapitan Karl isə hələ də öz dəstəsi ilə bura gəlib çıxmayıb. Bəlkə, bizim qasid gedib ora çıxmayıb? Kömək olmasa, bizim üçün müqavimət göstərmək həddindən artıq ağır olacaq.

Verilən tapşırığa əsasən kapitan Karl hücumçu piyada dəstəsi ilə ertəsi günü burada olmalıdır, - deyə polkovnik dərindən ah çəkərək ciddi halda dilləndi. - Göndərdiyim qasid gedib ora çıxa bilməsə, deməli kapitan Karlı gözləməyə ehtiyac olmayacaq. Əgər həmin dəstə gəlib çıxsa, onda biz bu müharibədə uğur qazanmaq üçün, sonuncu döyüşdə qələbə əldə edə biləcəyik. Kömək olmasa, birtəhər özümüzü müdafə etməklə yanaşı, düşmənin xeyli qüvvəsini məhv etməliyik. Bu kənddə 39 nəfər döyüşçü cəmləşib, onlardan 27-si süvaridir. Süvari dəstəsi isə vadinin hər bir yerində düşmənə əks zərbə endirə bilər.

- Don Alonso, inanmıram ki, bugünkü döyüşdən sonra araukanlar bir daha hücuma keçsinlər. - leytenant Ernando düzgün bir mülahizə irəli sürdü. - Düşmən həddindən artıq çoxlu canlı qüvvə sarıdan itki verib.

- Bu fikir ilə razılaşmaq olar, - deyə Filipp aludəliklə dilləndi. - ancaq unutmaq lazım deyil ki, araukanlar qisasçı bir hindu tayfasıdır və onlar çox güman ki, öldürülmüş silahdaşlarının qisasını almaq üçün hücuma keçəcəklər.

- Düşmənin növbəti hücumuna tab gətirsək də, biz həmin döyüşdən məğlub kimi çıxacağıq. - deyə qraf Xuan sir-sifətini turşudaraq məyus halda dilləndi. - Onlar sanki bütün qüvvələrini bura gətiriblər.

- Elədir ki, var! - deyə polkovnik Alonso soyuqqanlaqla dilləndi.

- Əlavə qüvvə gəlməsə, biz məğlub olacağıq. - deyə Filipp bu ifadəni xüsusilə vurğuladı.

- Araukanları tam məğlubiyyətə uğratmaq üçün bizə son qələbə lazımdır və mən həmin qələbəni Allahın köməyi ilə əldə edəcəm. - deyə polkovnik qürurla dilləndi. - Biz ertəsi günə kimi düşmənin hücumlarına tab gətirməliyik. Ertəsi günü düşmən hər tərəfli məhv ediləcək. Buna əmin ola bilərsiniz.

Kapitan Alonsonu hazırda bura çağırılan kapitan Karlın dəstəsi maraqlandırırdı. O, uzaqgörən sərkərdə olduğunu

bir daha sübut etmişdi - “qanlı vadi”dəki vəziyyətin gərginləşəcəyini əvvəlcədən nəzərə alaraq, həmin dəstəni bura çağırtdırmışdı. Alonso polkovnikin belə bir ehtiyatlı hərəkətinə, vəziyyətin qabaqcadan duymasına, bütün müharibənin müqəddəratını həll edəcək qərarın çıxarılmasına matməəttəl qalmışdı. Kapitan Alonso bu məsələni aydınlaşdırmaq üçün təmkinlə polkovnikdən soruşdu:

- Don Alonso, siz haradan bilirdiniz ki, “qanlı vadi”də vəziyyət həddindən artıq gərginləşəcək? Necə olsa da, kapitan Karlın ardınca göndərilən qasid, bu gün baş verən döyüşdən xeyli əvvəl göndərilib? Bu çox maraqlıdır?

- Mən hər hansı bir ciddi addım atmamışdan əvvəl yüz dəfə ölçüb, bir dəfə biçirəm. - deyə polkovnik Alonso kəndə yaxınlaşan araukanların hərəkətlərinə nəzər yetirə-yetirə aludəliklə dilləndi. - “Qanlı vadi”yə daxil olmağa bir gün qalmış, mən bura üç nəfərdən ibarət ən təcrübəli kəşfiyyatçı dəstəsi göndərmişdim. Onlar, burada 1000 nəfərə yaxın silahlı döyüşçünün olduğunu mənə çatdırdılar. Əlbəttə, mən 50 nəfərlik dəstə ilə düşmənə sarsıdıcı zərbə endirə bilməzdim. Düzdür, onu bilirdim ki, mən bura daxil olanda, qərb tərəfdən yaxınlaşan süvari dəstənin bizim köməyimizə çatmağına şübhə etmirdim. Araukanların böyük qisminin burada cəmləşməsindən, mən belə qənaətə gəldim ki, kapitan Karl Kesadanın getdiyi istiqamətdə

düşmənin böyük qüvvəsi yoxdur. Məhz buna görə də mən həm kapitan Karlın dəstəsinin, həm də Anqud körfəzinin şimalında yerləşən bizim ehtiyat dəstəsinin müəyyən bir hissəsinin bura gəlməsi üçün qasidlər göndərmişəm. Həmin dəstələr ertəsi günü "qanlı vadi"yə həm şimaldan, həm də qərbdən daxil olacaq və düşmənin dəstələrinə arxadan gözlənilməz zərbələr endirəcəklər. Hər şey mənim planım üzrə getsə, onda araukanlar ən ağır məğlubiyyətə düçar olacaqlar.

Araukanların məğlubiyyəti bir növ, eramızdan əvvəl 71-ci ildə Roma imperiyasında Spartakın başçılığı altında qalxan qullar üsyanının darmadağın edilməsinə bənzəyəcək. O vaxt Mark Lisini Krassın həyata keçirdiyi hərbi əməliyyat zəmanəsinin bütün sərkərdələrinin maraqına səbəb olmuşdur. Mən həmin hərbi əməliyyatla Plutarxın yazdığı kitabı oxumaqla, tanış olmuşam.

Artıq kapitan Alonsoya bəlli oldu, polkovnikin nəzərdə tutduğu plan nədən ibarətdir. Necə olsa da, sərkərdəlik səviyyəsinə qalxmağa çalışan kapitan Alonso da Plutarxın əsərləri ilə tanış idi: Eradan əvvəl 74-cü ildə Roma imperiyasında Spartakın başçılıqı altında qulların üsyanı başlamışdı. Senat vaxtı ilə Sullanın ordusunda döyüşmüş, ən varlı adamlardan biri olan pretor Mark Lisini Krassı fövqəladə vəkalət ilə Spartaka qarşı əməliyyata göndərir.

E.ə. 71-ci ildə Spartak öz ordusu ilə Brundiziyaya çəkilir. Krass senata müraciət edərək İspaniyada Sertoriyə qarşı muharibədən qayıdan Qney Pompeyi və Frakiyadan Mark Lisini Lukullu Mitridat ilə muharibədən geriyə çağırıb, ordu ilə birlikdə özünə köməyə göndərilməsini tələb edir. Qəti döyüş Apuliyada baş verir. Spartak elə başa düşür ki, o, yalnız Krassın qoşununa qarşı döyüşməli olacaq. Lakin döyüş başlayandan bir qədər sonra həm Lukull, həm də Pompey öz qoşunları ilə üsyançılara qarşı cinahlardan zərbə endirirlər və bununla da döyüşün müqəddəratını həll edirlər.

İndi polkovnik Alonso bu taktikanı Araukaniyadakı aborigenlərə qarşı tətbiq etməyə çalışırdı. Mark Krassın taktikasını burada tətbiq etməklə, Alonso İspaniyanın zəfər bayrağını birdəfəlik Araukaniyda sancmaq istəyirdi. O, qələbə çalacağına çox əmin idi. Əksəriyyət zabitlər kapitan Karlın ardınca qasid göndərilməsindən hali idi, lakin Anqud körfəzinin şimal sahilinə qasid göndərilməsindən hamı xəbərsiz idilər. Həmin sual ilə Filipp çıxış etdi. Polkovnik də cavabında dedi:

- Qasidlər eyni vaxtda göndərilib. Körfəzə yol uzaq olduğundan bu haqda heç kimə məlumat verməməyi lazım bilirəm. Ola bilsin ki, həmin qüvvə nəzərdə tutulmuş vaxtdan gec gəlib çıxsın. Sahildəki düşərgədə elə zabit də

yoxdur ki, dəstəni sürətlə “qanlı vadi”yə çatdırsın. Lakin həmin işi mən “Destino” gəmisinin kapitanı Manuel Markosa həvalə etmişəm. O, 40 nəfər döyüşçü ilə bura gələcək. Həmin döyüşçülərin tərkibində leytenant Mişel Düranın başçılıq etdiyi 18 nəfərdən ibarət olan ehtiyat dəstəsi də olacaq. Bir sözlə, ekspedisiyanın bütün döyüşən əsgərləri burada gedən döyüş əməliyyatlarında öz qüvvələrini nümayiş etdirəcəklər.

- İşdir, birdən qasidlər deyilən yerlərə gedib çıxmadılar, onda necə olacaq? - deyə qraf Xuan ehtiyatla dilləndi. - Kömək olmasa, biz çətinliklə düşmənin hücumuna tab gətirəcəyik.

- Don Xuan, siz ispan idalqosusunuz, - deyə vəcdə gələn polkovnik Alonso bezikmiş halda dilləndi. - İspan idalqosu həmişə öz qətiyyətli addımları, qətiyyətli hərəkətləri və qətiyyətli fikirləri ilə hamıdan fərqlənibdir. Sizin isə daxilinizdə böyük inamsızlıq kök salıb. Tam arxayın ola bilərsiniz, işdir biz bu meydanda köməksiz qalsaq, düşmənə layiqli cavab verəcəyik.

XIV fəsil. Koro mühasirəyə düşən konkistadorları təslim olmağa çağırır

Cənub tərəfdən kəndə yaxınlaşan araukanlar yavaş-yavaş yaşayış məntəqəsini dövrəyə almağa başladılar. Kənd özü hündür dağlar arasında şimal tərəfdən vadiyə gələn yolun üstündə yerləşirdi. Bir qədər yüksəklikdə salınan kəndin bütün sahəsi nahamar yerdən ibarət idi və buradakı evlər həm yuxarıda, həm də aşağıda tikilmişdi. Şərq hissəsində yerləşən bəzi evlər hündür dağın ətəyində tikilmişdi. Oradan kəndə basqın etmək çox asan idi. Şimaldan cənuba tərəf gələn yol kəndin qərb sərhədindən bir qədər içəriyə keçirdi. Yolun sol tərəfindəki seyrək evlər, hətta qərb tərəfdən kəndə bitişik olan meşənin sərhədində tikilmişdi. Düşmən tərəfindən təhlükəni duyan konkistadorlar yolun sağ tərəfindəki evlərdə mövqe tutmuşdular. Araukanlar isə kiçik dəstələrlə kəndin qərb sərhədindəki evlərə də daxil olmuşdular. Mühasirənin, məhz həmin hissəsində konkistadorlarla aborigenlərin arasındakı məsafə həddindən artıq az idi. Həm şimal, həm də ki, cənub tərəfdə cəmləşən araukanlar kənddən bir qədər uzaqda mövqe tutmuşdular. Hər iki tərəfdən kəndə yaxınlaşmaq üçün təxminən 150-170 metr məsafəni qət etmək lazım idi. Yalnız şərq tərəfdə o da ki, dağın yamacında araukanların sayı həddindən artıq çox

az idi. Lakin hindular həmin dağın zirvəsini nəzarət altına almışdılar. İspanların bütün fəaliyyəti göz qabağında idi. Konkistadorların sayı bəlli idi, onlar da araukanların təxmini də olsa, sayını müəyyənləşdirmək istəyirdilər.

Polkovnikə çatdırdılar ki, kəndin ətrafına toplaşan hinduların sayı 450 nəfərdən çox olmaz. Araukanlar bu kəndin alınmasına çox ciddi hazırlaşmışdılar. Çünki "qanlı vadi"nin mərkəzində yerləşən istehkamlı kəndin mühafizəsində 50 nəfərə yaxın döyüşçü saxlamışdılar. Hamı bura cəlb olunmuşdu. Hətta araukanların sıralarında on altı nəfərdən ibarət atlı da vardı. Onların hamısı nizə ilə silahlanmışdılar. Atlılar kəndin cənub sərhəddində dayanaraq, oradan qarşıdakı konkistadorların mövqelərini nəzərdən keçirirdilər.

Gündüz saat 4 olsa da günəş hələ də buludların əhatəsindən çıxa bilmirdi. Qarşıdakı dağlardan başqa And dağları buludların arasında yoxa çıxmışdı. Araukaniyaya basqın edən buludlar bununla kifayətlənməyib, Sakit okeana da yaxınlaşırdılar. Başındakı qarlarla bütün ətrafa şüa salan möhtəşəm Osorno vulkanı bu dəfə də öz vücudunu gizlətməli olmuşdu. "Qanlı vadi"dən başqa bütün yüksəkliklər buludların əmələ gətirdiyi qalın duman altında yoxa çıxmışdı. Artıq buradakı ağaclar, dağlar tərəfdən yaranmış külək hücumundan qərb tərəfə baş əyməyə başladılar. Həm

küləyin, həm də dumanın təsirindən havanın hərarəti kəskin surətdə soyumuşdu. Lakin hələlik buraya yağış yağmırdı. And dağlarının üzərində göy guruldayır, şimşək çaxır, güclü leysan yağışı yağırdı. Həmin yerdə yerlə-göy alt-üst olmuşdu. "Qanlı vadi"nin gözəl mənzərəsi solqunlaşmış və bir çox əlvan rənglərdən məhrum olmuşdu. Bütün torpaq demək olar ki, böz rəngə boyanmışdı.

Bir neçə dəqiqə keçmiş birdən polkovnikə xəbər verdilər ki, araukanlar kəndin sol tərəfini ayıran yolun ağzına gələrək, danışıq aparmaq istəyirlər. Həqiqətən də iki atlı kəndin cənub-qərb çıxacağından bir qədər yuxarıda, yolun o biri tərəfində dayanmışdı. Məsafə uzaq olsa da, Migel atlının birini tanıdı, o, Koro idi. Koro takid edirdi ki, dəstənin rəisi danışığa gəlsin. Polkovnik çox məmnuniyyətlə danışıqda iştirak etməyə öz razılıqını bildirdi. Lakin zabitlər onu tək buraxmaq fikrində deyildilər. Polkovnikə yaxınlaşan Migel ona izah etdi ki, danışığa gələn hindulardan biri çox təhlükəlidir və həmin adam kamandan çox məharətlə istifadə edir. Əlbəttə Alonso danışıqda tək iştirak etməyəcəkdi. O, özü ilə elə bir adam götürmək istəyirdi ki, danışıq vaxtı həmin adam ona maneəçilik törətməsin. Məhz buna görə də o, Migeli özü ilə götürməyi qərara aldı. Bu qərar hamı üçün gözlənilməz olsa da, heç kim öz etirazını bildirməyə cürət etmədi.

Polkovnikə nisbətən Migelin bütün üst-başı qan idi. Hətta öldürdüyü qurbanının qanı onun üz-gözünə də sıçramışdı. Kənddə suyun olmamasından o, sir-sifətini qandan təmizləyə bilməmişdi. Migel əvvəlcə üst-başının qan içində olduğunu bəhanə edərək, həmin danışıqdan imtina etmək istədi. Lakin buna görə Alonso ondan inciyə bilərdi. Beləliklə, onlar heç kimin müşaiyəti olmadan görüş yerinə getdilər.

Onlar yolun bu biri tərəfində, düşmənlərə təxminən 20 metr qalmış atlarını saxladılar. Danışığa gələn hinduların silahdaşları danışıq yerindən 20-25 metr aralıda dayanmışdılar. Elə konkistadorlar da təxminən elə bir məsafədə mövqe tutmuşdular.

Koro öz köhnə düşmənini görəndə qəzəbdən vəcdə gəldi, amma son məqamda özünü saxlamağa məcbur oldu. İmkanı olsaydı, dərhal Migelin üstünə hücum çəkərdi. Məsafə uzaq olsa da, polkovnik o dəqiqə başa düşdü ki, Koro cavan zadəgandan bərk yanıqlıdır, hətta Migelə sualedici nəzər də saldı. Migelin üst-başındakı iri qan ləkələri xüsusilə Koronu hiddətləndirirdi. Alonsonun geyimindən və xarici görünüşündən düşmənlər o dəqiqə başa düşdülər ki, o, bu dəstənin başçısıdır. Koro üzünü polkovnikə tutub hökmlə dedi:

- Hamınıza təslim olmaq təklif olunur. Hər tərəfdən mühasirə olunmusunuz. Bundan sonra müqavimət göstərməyin heç bir mənası yoxdur.

- Biz bura, krallığımızın qurduğu qayda-qanunların bərpa olunması üçün gəlmişik və bu işin öhdəsindən gəlməyincə geri dönməyəcəyik. – polkovnik qamətini şax tutaraq iradə ilə dilləndi. - Müqaviməti biz yox...

- Hansı qayda-qanundan dəm vurursan? - deyə polkovnikin sözünü yarımçıq qoyan Koro hüznlə qışqırdı. - Bizim əhalinin qanını axıtmaqla qanun-qayda yaradırsan. Bizim torpağa ayaq basan hər bir yadelli işğalçı amansızca burda məhv ediləcək. Silahlı adamın heç birisinə aman verilməyəcək. Uzun illər bundan əvvəl yuxarıdakı torpaqların varisləri sayılan inklər bizim torpaqlara hakim ola bilmədilər. Onlar bura nə qədər əsgər göndərmişdilərsə, hamısı da bizim tayfa tərəfindən məhv edilmişdir. Təslim olmasanız belə bir aqibət sizin hamınızı gözləyir.

- Qarşındakı İnk imperiyasının əsgərləri deyil, - deyə polkovnik Alonso başnı dik tutaraq qürurla diləndi. - biz qüdrətli dövlətin qüdrətli əsgərləriyik. Bizim əsgərlər isə bütün dünyanın sahibidirlər.

Polkovnikin qürurla söylədiyi sözlər Koronun gülüşünə səbəb oldu. Onun yanındakı hindu burada gedən söhbətlərə heç bir reaksiya vermirdi. Görünür, o silahdaşı kimi ispan

dilini bilmirdi. Təhqiramiz tərzdə gülümsəyən Koro özünü ələ alaraq ciddi halda dedi:

- Biz uzun müddətdir ki, qüdrətli dövlətin qüdrətli əsgərlərini bütün muharibalərdə darmadağın edirik. Bütün Araukaniya dünya sahiblərinin qəbristanlığına çevrilib. İndi isə növbə sizin hamınızındır. Təslim olmasanız, hamınız məhv ediləcəksiniz. Əsir düşmək bu həyatda yaşamaq deməkdir.

- Bura gələn əsgərlərin hər biri yüksək döyüş qabiliyyətinə malik olan adamlardır. - deyə Alonso soyuqqanlıqla dilləndi. - Əsirlik həyatı onlardan uzaqdır.

- Əsirlik qəbul edilməsə, biz növbəti dəfə hücuma keçəcəyik. - deyə Koro qamətini şax saxlayaraq hiddətlə dilləndi. - Bu dəfəki döyüşdə də qan su yerinə axıdılacaq. Lakin heç kimə aman verilməyəcək.

- Mənim burada kifayət qədər qüvvəm var ki, sizin bütün hücumlarınızı layiqincə dəf edəm. - deyə polkovnik təmkinlə dilləndi. - Qan su yerinə axıdılsa da, hücum edən hindunun hər biri amansızcasına məhv ediləcək. Həqiqətən də bu dəfəki döyüş vaxtı hec bir adama aman verilməyəcək. Mən çalışırdım ki, ixtiyarımızda olan hər bir yaralı döyüşçüyə həyat bəxş edim. Mən hamıya başa salmaq istəyirəm ki, bu muharibəni davam etdirməyin heç bir mənası yoxdur. Onsuzda bu müharibədə bütün araukanlar

məhvə düçar olublar. Müqaviməti davam etdirən hər bir hindu bütün Araukaniyada təqib olunaraq, məhv ediləcək. Bu müharibə hamınız üçün sonuncu müharibə olacaq.

- Bu müharibə, heç vaxt bizim üçün sonuncu ola bilməz, - deyə Koro arxayınlıqla dilləndi. - Ona görə ki, biz öz torpağımızda döyüşürük. Bizim tayfa həmişə azad yaşayıb və bundan sonra da azad yaşayacaq. Azad yaşamaq üçün biz həmişə ölümə hazırıq.

- Sizin azadlığınızı heç kim əlinizdən almır. - deyə polkovnik aludəliklə dilləndi. - Bu torpaqlar bizim krallığın taxt-tacına mənsub olduğu üçün hamınız bizim himayəmiz altında olacaqsınız. Sadəcə olaraq, hamınız bizim kralın qoyduğu qayda-qanunlara riayət etməlisiniz. Belə olan halda hamınız bu torpaqda azad yaşaya bilərsiniz.

- Bu torpaqlar əzəldən bizim tayfanın olub. - deyə Koro üz-gözünü turşudaraq qətiyyətlə dilləndi. - Ulu babalarımızın əlində silah olandan heç kim bizim torpaqları zəbt edə bilməmişdir. Bizim torpaqlara ayaq basanlar, yalnız bizim qayda-qanunlar ilə yaşamalıdırlar. Mən istəsəm sizin hamınızı bu torpaqda məhv edərəm. Bizim yaralıları qətlə yetirmədiyinizə görə müvəqqəti olaraq, hamınıza bir neçə saatlıq həyat bəxş etmişəm. Hər birinizin əsir düşməyə böyük şansı var. Söz verirəm ki, bir nəfərdən başqa heç kimin həyatına qəsd edilməyəcək.

Bu təklif Alonsonun təəccübünə səbəb oldu. Görəsən, o bir nəfər kimdir ki, araukanlar həmin adamı məhv etmək istəyirlər? Şübhə yoxdur ki, hindular əsir aldıqları konkistadorları məhv etməyəcəklər. Həmin əsirlər bir çox güzəştlər əldə edilməsi üçün araukanlara vacib lazım idi. Buna baxmayaraq, kənddə müdafiəyə keçmiş ispanların heç birisi təslim olmaq fikrində deyildilər. Bu məsələ polkovniki maraqlandırdığı üçün o, həmin konkistadorun kimliyini öyrənməkdən ötrü Koroya sual ilə müraciət etdi. Koro da əli ilə Migeli göstərərək ikrah hissi ilə dedi:

- Bu müharibədə kim də əfv edilsə, Migelə aman verilməyəcək. Bizim tərəfdən onun dərisi soyulacaq. O, onlarla mənim ən bacarıqlı və təcrübəli döyüşçümü qılıncdan keçirib. Onun nəinki üst-başı, hətta sir-sifəti də bizim döyüşçülərin qanına batıb. Migelin öldürülməsi hər bir araukana tapşırılıb. Nə qədər mənim ürəyim döyünürsə, o bu ölkədən sağ-salamat çıxmayacaq. Odur ki, xoşluqla onu bizə təhvil ver.

- Migel, mənim şagirdim olub. - deyə Alonso tərəddüd etmədən dilləndi. - Mən onun xətrini həddindən artıq çox istəyirəm. Qoymaram ki, onun başından bir dənə də tük əskik olsun. Migel mənim dəstəmin ən təcrübəli və bacarıqlı döyüşçülərindən biri sayılır. O, hələ öz işini burada başa çatdırmayıb.

- Onun badına hamınız gedəcəksiniz. - deyə Koro öz qəzəbini gizlədə bilmədi. - Bir adam belə bu kənddən salamat çıxmayacaq. Hamınızı məhv edəcəyik.

- Mən bura kifayət qədər qoşun ilə gəlmişəm ki, Araukaniyadakı müharibəni birdəfəlik başa çatdırım. - deyə Alonso qürurla dilləndi. - Artıq Araukaniyanın hər bir guşəsi mənim əsgərlərim tərəfindən zəbt edilib.

- Sənin əsgərlərinin harada olduqlarından mənim yaxşı xəbərim var. - deyə istehza ilə dillənən Koro çiyinlərini çəkdi. - İşğalçıların bir hissəsi böyük sahilin yuxarı tərəfindədir, bir hissəsi əzəmətli dağların ətəyindədir, üçüncü bir hissəsi isə burdadır. Hər bir hissə ayrı-ayrılıqda darmadağın ediləcəkdir. Birinci qırğın burdakıların başına gələcək. Sonra isə növbə o biri dəstələrə çatacaq. Heç kim bu torpaqdan salamat çıxmayacaq.

Koro elə danışırdı ki, polkovnikin yerinə kim olsaydı, bəlkə də ruhdan düşərək qəm-qüssə aləminə qərq olardı. Lakin Alonso iradəsi möhkəm bir adamdır və daxilində hər bir şeyi sürətlə gotür-qoy etməyə qadirdir. Koro konkistadorların fəaliyyətindən tam hali idi. Məhz buna görə də o, ispanların burdakı dəstəsini darmadağın etmək üçün, bütün qüvvəsini bu kəndin ətrafına cəmləşdirmişdi. Araukanlar Araukaniyada iki hissəyə bölünmüşdü əsas hissəsi burda idi, cüzi hissəsi isə Lyankiue gölü istiqamətində yerləşən

istehkamlı kənddə mövqe tutmuşdu. Lakin gözlənilmədən konkistadorlar həmin kəndə hücum etməyərək cənub ərazilərinə soxulmuşdular.

Coğrafi adlardan məhrum olan Koro Anqud körfəzinin şimal sahilini, böyük sahilin yuxarı tərəfi, əzəmətli dağlar isə - And dağlarını adlandırırdı. Onu başa düşmək çətin deyildi. Alonso düşmən üzərində psixoloji üstünlüyü alə almaqdan ötrü ciddi halda dedi:

- Öz qoşunumu üç hissəyə təsadüfən bölməmişəm. Əzəmətli dağlarda olan konkistadorlar hazırda şimalda yerləşdirilən döyüşçülərinizi məhv etməklə məşğuldurlar. Bəlkə də istehkam qurulduğu kənd mənim döyüşçülərimin nəzarəti altındadır. Vaxt gələcək burdakı qüvvələr də darmadağın ediləcək.

Alonso bu sözlərlə Koronun beynində çaşqınlıq yaratmaq istəyirdi. Yalan məlumat verməklə o, düşmənini əmin etmək istəyirdi ki, konkistadorların başqa bir dəstəsi əks istiqamətdə döyüşür. Halbuki Koro burda bəyan etdi ki, o, ispanların başqa dəstələrinin fəaliyyətindən xəbərdardır. Buna baxmayaraq bu xəbər Koronu düşündürməyə vadar etdi. Əgər, Alonsonun sözlərində yalan yox idisə, deməli araukanların şimaldakı qüvvələri də konkistadorların hücumuna məruz qalmışdı. İspanlar bütün cəbhə boyu hücuma keçərək strateji üstünlüyü ələ almaq arzusunda idilər.

Amma Alonsonun buradakı dəstəsinin başı hücuma elə qarışmışdı ki, onlar özləri düşmənin əhatəsində mühasirəyə düşmüşdülər. Koro bu fürsəti əldən vermək istəməyirdi. O, tezliklə mühasirəyə düşmüş konkistadorların darmadağın edilməsini arzulayırdı. Bunun üçun onun ixtiyarında lazımi qədər döyüşçülər də vardı. Sadəcə olaraq, Koro naməlum səbəblərə görə hücumun vaxtını uzatmaq istəyirdi. Halbuki iki-üç saatdan sonra Araukaniya işıqlı havadan məhrum olacaqdı. Çox güman ki, Koro konkistadorlara qarşı hücum tətbiq etmədən onları əsir almaq istəyirdi. Lakin o, bu dəfəki ispanların iradəsinə yaxşı bələd deyildi. Burdakı döyuşçülər polkovnik Alonsonun başçılığı altında hansı vəziyyətə düşürlərsə-düşsünlər, heç də əsir düşmək fikrində deyildilər.

Koro çöhrəsindəki ciddiliyi itirmədən əli ilə bir daha Migeli göstərərək hiddətlə dedi:

- Migel, heç vaxt bizim torpaqdan canını qurtara bilməyəcək. Onun ölüm hökmu çoxdan verilib. Ancaq onunla yanaşı burada nə qədər saqqallı adam varsa, hamısı məhv ediləcək. Sağ qalmaq üçün hamınıza şans verilmişdi, təəssüflər olsun ki, siz bu şansdan istifadə etmədiniz. Hamınız öz torpaqınıza sağ-salamat qayıda bilərdiniz. Doğmalarınıza hamınızın ölüm xəbəri gedib çıxacaq.

- Məni məhv etmək heç birinizə müəssər olmayacaq. - deyə Migel özün saxlaya bilməyib qürurla dilləndi. - Amma sən yadda saxlamalısan ki, səni öldurməmiş mən heç vaxt Araukaniyanı tərk etməyəcəm. Tək qalsam belə, mən öz vədimi yerinə yetirəcəm.

- Sən ağır işgəncələrlə öldürüləcəksən. - deyə Koro hiddətlə qışqırdı.

Alonso öz keçmiş şagirdini sakitləşdirmək üçün sağ əlini yuxarı qaldırdı və iti nəzərlərini Koroya tərəf yönəldərək, hüznlə dedi:

- Araukaniyada biz öz missiyamızı müvəffəqayyətlə yerinə yetirəcək və İspaniyaya qalib kimi qayıdacağıq. Əlində silah olan hər bir araukan rəhm edilmədən döyüşçülərim tərəfindən qılıncdan keçiriləcək. Bu muharibədə bütün Araukaniya dizləri üstə çökəcək və bu torpaq ispan taxt-tacının mülkü kimi İspaniyanın tabeliyinə keçəcək. Bu müharibə bütün araukanlar üçün sonuncu müharibə olacaq və burada baş verən xaosa birdəfəlik son qoyulacaq. Sən bir rəhbər kimi öz millətini böyük bəladan qurtara bilərdin, təəssüflər olsun ki, sən bu şansdan istifadə etmədin.

Polkovnikin sözlərindən daha da qəzəblənən Koro az qala rəqiblərinin üstünə şığıyacaqdı, lakin atı iki-üç addım irəli gedəndən sonra o, atının yüyənini bərk dartaraq dayandı və qamətini dik tutaraq hüznlə:

- Bu müharibə heç vaxt araukanlar üçün sonuncu ola bilməz. Çünki biz öz müstəqilliyimiz və azadlığımız uğrunda döyüşürük. Bu amal uğrunda döyüşdüyümüz üçün biz həmişə qələbə qazanmışıq. Bizim torpağa nə qədər işğalçı dəstələri gəlibsə, hamısı da amansızcasına darmadağın edilib. Sizin də aqibətiniz, o birilərin aqibəti kimi olacaq. Bu torpaqda baş verən hər bir müharibə bizim qələbə ilə başa çatıb. Bizdən fərqli olaraq, siz heç vaxt burada böyük bir həvəslə, canfəşanlıqla döyüşə bilmirsiniz. Çünki siz işğalçısınız və bu torpaqdan qat-qat uzaq yerlərdə doğulmusunuz. Yad bir adam heç vaxt bu torpaqda araukanlar kimi döyüşə bilməz. Sizi burada qələbə yox, yalnız dəhşətli ölüm gözləyir. Möhtəşəm dağlarla əhatə olunan Araukaniyaya, əlində silahla gələn konkistadorların qəbristanlığına çevrilib.

- Araukaniya yalnız araukanların qəbristanlığına çevrilə bilər. - deyə Alonso qətiyyətlə dillənərək, bu görüşə yekun vurdu və arxaya baxmadan atı ilə buradan uzaqlaşdı.

Polkovnik çox yaxşı bilirdi ki, havanın qaralmasına çox az qalır və araukanlar çox güman ki, bu gün geniş miqyaslı hücuma keçməyəcəklər. Bundan da əlavə hava getdikcə pisləşirdi. Aborigenlər belə havada istədikləri səviyyədə effektli zərbələr endirə bilməyəcəklər. Hələ nəzərə almaq lazımdır ki, bir neçə saatdan sonra burada güclü yağışlar

yağacaq. Belə bir havada döyüşmək xüsusilə çətin olacaq. Burada fəaliyyət göstərən küləyin gücü həddindən artıq möhkəm artırdı. Çox güman ki, havanın hərarəti aşağı düşəcək. Konkistadorlar belə bir soyuq havaya çətinliklə tab gətirəcəklər. Soyuqdan onları yalnız gecə qalanacaq tonqallar qoruya bilərdi.

Havanın qaralmasına az vaxt qaldığına baxmayaraq, araukanların sırasında canlanma hiss olunurdu. Xüsusən də yolun solundakı evlərdə mövqe tutanlar sanki hücum etmək üçün yolu keçməyə hazırlaşırdılar. Bu döyüşün yenidən başlanmasına gətirib çıxarda bilərdi. Konkistadorların rəisi isə hazırda növbəti döyüşün baş verməsini arzulayırdı. Polkovnik Alonso hökmən adekvat addımlar atmalı idi. Buradakı təhlükənin qarşısını almaq üçün o, ilk növbədə kəndin qərb hissəsində mövqe tutmuş araukanları vurub oradan çıxarmalı idi.

Vaxtı udmağa çalışan polkovnik ixtiyarında olan dəstəni iki hissəyə bölməyi qərara aldı. Döyüşmək istəyən 39 konkistadordan 12-si yaralı idi. Yaralılar piyada dəstəsini, qalanlar isə süvari dəstəsini təşkil etdilər. Piyada dəstəsi odlu silahla zəncir şəklində yolun ağzına yaxınlaşaraq, oradan yolun o biri tərəfində mövqe tutan araukanları atəşə tutacaqlar. Həmin əməliyyatdan beş dəqiqə sonra süvari dəstəsi kəndin qərb hissəsinə hücuma keçəcək. Hücum elə

tez baş verməli idi ki, başqa yerlərdə mövqe tutan hindular dərhal döyüşə girişə bilməsinlər. Ondan sonra isə araukanlar hansı hissədən hücuma keçəcəklər, konkistadorlar da həmin hücumçulara əks zərbə endirəcəklər.

Hər şey polkovnikin planlaşdırdığı kimi başladı. Piyada dəstəsi yolun o biri tayındakıları atəşə tutanda, bu düşmən üçün gözlənilməz bir əməliyyat sayıldı. Öz sıralarını nizama gətirən araukanlar, konkistadorların hücuma keçmədiklərini görüb hamılıqla yolun ağzına toplaşaraq, öz rəqiblərinə oxlar yağdırmağa başladılar. Elə bu vaxt süvari dəstəsi polkovnik Alonsonun başçılığı altında hücuma keçdi. Süvarilərin hücumunu gözləməyən düşmən öz mövqelərini atıb meşəyə tərəf qaçmağa başladılar. Süvarilərə müqavimət göstərmək üçün onların qüvvəsi çox az idi.

Müqavimət göstərmədan döyüş meydanını tərk etmək heç də araukanlara xas olan hərəkət deyildi. Araukanlar dərhal meşənin ağzında mövqe tutdular. Polkovnik hiss etdi ki, düşmən onlara qarşı meşənin girəcəyində pusqu qurub. Ona görə də süvariləri öz köhnə mevqelərinə qaytardı.

XV fəsil. Təbiətin qəzəbi

Bütün gecəni “qanlı vadi“y güclü leysan yağışı yağdı. Yer kürəsinin bu hissəsində sanki qıcıqlanma baş vermişdi. Şimşək çaxır, ildırım qopur, güclü külək əsir, ağacların şaqqıltısı böyük bir xaotik səs çıxardırdı. Elə bil qış yenidən bu diyara təşrif buyurmuşdu. And dağlarından gələn soyuq bütün ətrafda hərarətin kəskin surətdə aşağı düşməsinə səbəb oldu.

Yarıçılpaq olan araukanlar leysan yağışın ucbatından, soyuqdan qorunmaq üçün tonqal qalamaqdan da məhrum oldular. Onlar qızınmaq üçün meşənin içində də tonqal qalaya bilmirdilər. Lakin konkistadorların da vəziyyəti heç də ürəkaçan deyildi. Qızınmaq üçün onlar kəndlərdəki evlərdə tonqal qalamağa müvəffəq olmuşdular. Amma bir-iki saatdan sonra “qanlı vadi“də şiddətli külək başlayanda demək olar ki, bütün evlərin damları uçulmuş və tonqallar leysan yağışların nəticəsində sönmüşdü. Yalnız iki evdə dam örtüyü uçulmamışdı. Polkovnik Alonsonun göstərişi ila ağır yaralıların hamısı məhz həmin evlərdə yerləşdirildi. Bütün qayğı və nəvaziş həmin yaralılara qarşı yönəldilmişdir. İsti yeməklər hazırlanmışdı ki, birdən gecənin ortasında şərq tərəfdəki dağın ətəyindən güclü sel axını baş verdi. Hələ bu azmış kimi meşə tərəfdən də kənd selə

məruz qaldı. Kəndin içərisindən keçən yol ani surətdə selin altında yoxa çıxdı. Daşqın güclü olduğundan konkistadorlar evlərin yanında bitən möhkəm ağacların yanında mövqe tutmağa başladılar. Kəndin üçdə-iki hissəsi güclü selin daşqınına məruz qalmışdı. Hətta iradələri möhkəm olan araukanlar məcburiyyət qarşısında qalıb, kəndin mühasirəsini yarımçıq qoyub "qanlı vadi"nin mərkəzindəki kəndlərə çəkildilər.

Hər iki tərəf təbii fəlakətdən yaxa qurtarmağa çalışırdı. Kəndin şimal tərəfində mövqe tutan araukanlar, xüsusilə möhkəm zərər çəkdilər. Onların bir neçə nəfəri hətta selin ağuşuna düşərək boğulub ölmüşdülər.

Axşamdan peyda olan duman küləyin və yağışın təsirindən yoxa çıxmışdı. Polkovnik əvvəlcədən planlaşdırmışdı ki, hava qaralandan sonra dağın yuxarısında qalmış yaralıları oradan çıxarmaq üçün 7-8 nəfərdən ibarət bir dəstə göndərsin. Lakin havanın kəskin surətdə dəyişməsindən bunu etmək mümkün olmadı. Hərə indi öz hayında idi. Hamı təbii fəlakətlə mübarizə aparırdı. Kəndə hücum edən güclü sel konkistadorların tutduqları mövqelərə sarsıdıcı zərbələr endirirdi. Bir çox yerlərdə ağaclar güclü küləyin təzyiqinə tab gətirməyib, kökündən qoparaq hara gəldi yıxılırdı. Bir sözlə, "qanlı vadi"də tufan tüğyan edirdi. Həmin tufanın da nə vaxt səngiməsi bilinmirdi. Araukani-

yadakı müharibə müvəqqəti olaraq, təbii fəlakətlə əvəz olunmuşdu.

Sabahın necə açılması demək olar ki, bilinmədi. Hamının başı təbii fəlakətlə olan mübarizəyə qarışmışdı. Necə ki, dünən, eləcə də bu gün göydəki topa buludlar günəşin boylanmasına imkan vermirdilər. Buludların yeni heyəti cənub tərəfdən Araukaniyaya doğru şığıyırdı. Çox güman ki, bu gün yağışların ardı-arası kəsilməyəcək. Bu belə olan halda, bu gün döyüş əməliyyatlarını davam etdirmək mümkün olmayacaq. Sadəcə olaraq, bunun üçün bütün imkanlar məhdudlaşmadı. Dünənki döyüş vaxtı hər iki tərəfdən çoxsaylı yaralananlar vardı və hər iki tərəf yaralıları yağışdan və küləkdən qorumağa çalışırdılar.

Konkistadorların işi lap mürəkkəbləşmişdi. Dünənki döyüşdən sonra kəndə gətirdikləri silahdaşlarının meyitlərini gecə ikən sel yuyub aparmışdı. Yalnız iki meyit kənddə ilişib qalmışdı. Düzdür, hazırda Alonsonu meyitlər yox, buradakı yaralılar və araukanların məxfi halda tuqduqları mövqelər maraqlandırırdı. Bundan əlavə o, fikirləşirdi ki, kapitan Karlın və kapitan Markosun başçılıq etdiyi dəstələr belə bir hava şəraitində „qanlı vadi“yə yaxınlaşa biliblər, ya yox? Çox güman ki, onların irəliləyişi dayanmışdı. Araukaniyanın hər tərəfində tüğyan edən güclü tufan Anqud körfəzində lövbər salmış gəmilərə də sarsıdıcı

zərbələr endirmiş olardı. Gəmilər belə bir havada naməlum sahillərə qeyri-ixtiyari dəyərək, qəzaya uğraya bilərdilər. Belə bir havada gəmiləri salamat halda saxlamaq çox müşkül bir iş sayılırdı. Şübhə yox ki, körfəzin şimal sahilində bünövrəsi yenicə qoyulmuş hərbi fortun tikintisi yarımçıq qalmışdır. Belə bir hava şəraitində işləmək qeyri-mümkün idi.

Ümumiyyətlə, havanın belə bir şəkildə dəyişilməsi nəinki konkistadorlar üçün, hətta araukanlar üçün də gözlənilməz idi. Sanki təbiət öz qəzəbi ilə Araukaniyada başlanan ədalətsiz müharibənin gedişatına son qoymaq istəyirdi. Qüvvələr isə verilən həyəcan təbilini anlamaq istəmirdilər. Hamının ürəyi qəzəblə, gözləri isə nifrət baxışları ilə dolu idi.

Artıq 13-14 saat idi ki, burada güclü yağış yağırdı. Hələ bilinmirdi yağış nə vaxt dayanacaq. Çünki göyə baxıb bunu ayırd etmək çox çətin idi. Göydəki cürbəcür formalı buludlar bir-biriləri ilə toqquşaraq, gərgin mübarizəyə girişmişdilər.

Yalnız havanın qaralmasına az qalmış yağışın ardı kəsildi. Lakin kuləyin gücü heç də zəifləməmişdi. Soyuqluq hələ də özünü büruzə verirdi. Göydəki buludlar yenə də öz hegemonluğunu nümayiş elətdirirdilər. Bu o demək idi ki, yağışın bir daha yağması labüd idi. Sadəcə olaraq yağışdan

müdafiə olunmaq üçün indidən hazırlıq işləri görmək lazım idi. Lakin güclü külək onların bu fəaliyyətinə ciddi maneəçilik göstərirdi. Ağır müharibəyə gələn konkistadorlar bütün əzab-əziyyətlərə tab gətirərək, bu vəziyyətdən çıxmağı bacarmalıydılar. Onların içərisində böyük həyat təcrübəsinə malik olan döyüşçülər çox idi və həmin döyüşçülər nə edəcəklərini çox yaxşı bilirdilər. Düzdür, bütün konkistadorlar üçün döyüş meydanında düşmənə qarşı döyüşmək, təbiətlə mübarizə aparmaqdan çox asan idi.

Havanın bu cür kəskin surətdə pisləşməsindən narahat olan qraf Xuan, kapitan Filipp və leytenant Karlos ekspedisiya başçısına tövsiyyə etdilər ki, dağın başında qalan yaralı silahdaşlarının səhhəti pisləşməsin deyə, onları bu kəndə gətirmək lazımdır. Əks təqdirdə yaralılar təbiətin göstərdiyi ədasına tab gətirməyib məhv olacaqlar. Polkovnik da sərt cavab verməklə bildirdi ki, belə bir havada uzun bir məsafəni qət etmək qeyri-mümkündür. Kömək yalnız hava sakitləşəndən sonra göndərilə bilər. Hər bir çətinliyə sinə gərən qorxmaz Migel zabitlərin tələbini eşidəndən sonra, təklikdə polkovnikə yaxınlaşaraq öz köməyini təklif etdi. Əlbəttə, bu təklif Alonso üçün gözlənilməz idi. O, üzünü Migelə tərəf tuqtaraq maraqla soruşdu:

- Məgər, belə bir havada sən o qədər məsafəni qət edə bilərsən?

- Nə qədər yağış yağmırsa, mən bu işin öhdəsindən gələ bilərəm. - deyə Migel tərəddüd etmədən dilləndi.

- Axı, bütün vadi dizə qədər palçığa dönüb. Bir çox yerlərdə dərin gölməçələr əmələ gəlib.

- Mən demirəm ki, bunu etmək asandır. - deyə Migel israr etdi. - Ağır da olsa, çətin də olsa, mən bu işin öhdəsindən gəlməyə çalışacağam.

- Migel, oradakı silahdaşlarımıza gedib tonqal qalasan və yağışdan qorumaq üçün dam örtükləri düzəltsən, fərz elə ki, onları ölümün pəncəsindən qurtarmısan. Onlar yalnız ərzaq məsələsində çətinlik çəkəcəklər. Bu işlərin yerinə yetirilməsi üçün mən sənə iki nəfər də köməkçi verərəm.

- Köməkçilərə görə çox sağ olun. - deyə Migel təvazökarlıqla dilləndi.

Migel öz xahişi ilə Lope İnyeslə, Xulio Menendesi həmin əməliyyata götürdü. Artıq dağ keçidlərindən sonra cavan zadəgan peşəkar arbalyotçularla yaxından tanış olmuşdur. Həm də o, çox yaxşı bilirdi ki, öz dostları sayılan Luisi görməkdən ötrü onlar bərk darıxırlar. İndi belə bir imkan onlar üçün yaranmışdı.

XVI fəsil Yaralıların köməyinə yollanan döyüşçülər

Hava qaralmağa başlayanda üç atlı, düşmən tərəfindən nəzarətsiz qalan kəndi cənub-qərb istiqamətində tərk etdi. Bütün torpaq qalın palçığa dönmüşdü. Atlar sanki bataqlıq ilə hərəkət edirdi. Onlar həddindən artıq gec irəliləyirdilər. Palçıq heyvanların ayağını sovurub özünə tərəf çəkəndə, atlar qorxudan və ya əziyyətdən kişnəməyə başlayırdılar. Qaranlıqda onların səsi daha uzaqlara yayılırdı.

Necə ki, gündüz günəşin qarşısı, eləcə də qaranlıqda ulduzların və ayın qarşısı qalın buludlar tərəfindən kəsilmişdir. Belə bir havada, belə bir mühitdə palçıqlı yer ilə hərəkət etmək həddindən artıq çətin idi. Göz-gözü demək olar ki, görmürdü. Atlılar maneələrlə rastlaşmasalar belə, bu qaranlıqda gedib yaralıların qaldıqları yeri tapa bilməyəcəklər. Çıxılmaz vəziyyətdə qalan atlılar nəhayət kəndə qayıtmağa məcbur oldular. Geri qayıtdıqlarına görə polkovnik onları günahlandırmadı. Lakin başqaları yox, məhz Migel qraf Xuan, kapitan Filipp və leytenant Karlos tərəfindən tənqidə məruz qaldı. Hətta onlar cürət edərək Migeli qorxaqlıqda ittiham etdilər. Əlbəttə, onlar bunu cavan zadəganı qıcıqlandırmaqdan ötrü etmişdilər. Polkovnik araya girməsəydi, bəlkə də onların arasında silahlı

münaqişə yarana bilərdi. Məcburiyyət qarşısında qalan Migel birtəhər həmin ittihamları özündən rədd etdi.

İş ondadır ki, Migelgilin kəndə qayıtmaları düzgün qərar idi. Heç bir saat keçməmiş „qanlı vadi" güclü yağışın qəzəbinə tuş gəldi. Yenə də yernən-göy bir-birinə qarışdı. Havanın hərarəti daha da aşağı düşdü. Güclü küləyin əsməsi, şiddətli yağışın yağması və havanın soyuması kənddə mövqe tutan konkistadorları demək olar ki, keyitmişdi.

Səhərin açılmasına az qalmış yağış dayandı. Amma dağlardan gələn sel hələ də daşmaqda davam edirdi. Nəinki konkistadorların mövqe tutduqları kəndin aşağı hissəsi, hətta „qanlı vadi"nin çökək yerləri su ilə dolmuşdu. Belə bir şəraitdə istənilən manevrləri etmək qeyri-mümkün idi. Geniş miqyaslı hərəkətlər nəzərə çarpacaq dərəcədə məhdudlaşırdı. Nəinki And dağlarının hündür zirvələri, hətta bura yaxın olan bəzi çılpaq dağların başı qarla örtülmüşdü. Həmin dağlardan əsən küləklər „qanlı vadi"yə ətürpərdici soyuq gətirirdi. Lakin get-gedə küləyin sürəti də azalmağa başlayırdı. Şimal tərəfdə göyün üzü buludlardan xeyli təmizlənmişdi. Şimal və şərq tərəfdən şığıyan topa buludlar cənub-qərb istiqamətində Araukaniyadan uzaqlaşırdı.

Günortaya yaxın hava yavaş-yavaş istiləşməyə başladı. Halbuki günəş hələ də öz qüdrətini tam şəkildə nümayiş

etdirə bilmirdi. Buludlar seyrəkləşməyə başlasa da, hələ də günəşi sıxışdırırdılar. Artıq külək özünün əvvəlki qüvvəsini xeyli itirmişdi. İstehkam olan kənd hər tərəfdən su ilə əhatə olunmuşdu.

Hindular yavaş-yavaş dirçəlməyə başlayırdılar. Migel öhdəsinə düşən tapşırığı yerinə yetirmək üçün iki arbalyotçu ilə kəndi qərb istiqamətində tərk etdi. Araukanların gözünə görsənməsinlər deyə, onlar meşə ilə hərəkətə başladılar. Başqa yerlərə nisbətən meşədə hərəkət etmək bir qədər asan idi. Sadəcə olaraq atlar, yuxarı qalxanda və ya aşaqı düşəndə çox vaxtı sürüşüb yerə yıxılırdı. Döyüş meydanında şücaət göstərən konkistadorların üst-başı qana bulaşmış və həmin qırmızı ləkələr leysan yağışlarının nəticəsində demək olar ki, təmizlənmişdi. İndi isə onların üst-başı, yerə yıxılmaqdan palçıqa bulaşmışdı.

Üç atlı görünməmək üçün onlar dağların üstü ilə əvvəlcə qərb istiqamətində, sonra isə cənub istiqamətində hərəkət etməliydilər. Migelin fikrincə, araukanlar hələlik bu meşədə olmamalıydılar. Çünki yağış zamanı hər iki tərəf kəndlərə çəkilmişdilər. Belə bir havada heç kim qaldığı yerdən kənara çıxmamışdır.

Yalnız havanın qaralmağına az qalmış Migelgil arxa tərəfdən yaralıların qaldığı yerə gəlib çıxdılar. Gözlənilmədən onları, düşərgəyə 60-70 metr qalmış bir neçə silahlı

ispan əsgəri saxladı. Uzaqdan qalanan tonqalların tüstüsünün iyi gəlirdi. Migelgil özlərini təqdim edəndən sonra gözətçilər onları salamlayaraq içəri buraxdılar. Təəccüb içində olan atlılar artıq başa düşmüşdülər ki, qarşılarındakı əsgərlər kapitan Manuel Markosun başçılıq etdiyi dəstədəndilər.

Artıq ehtiyat dəstəsi havanın yaratdığı maneələrə baxmayaraq „qanlı vadi"nin sərhədinə gəlib çıxmışdır. Kapitan Markos öz köməkçisini burada sağ-salamat görəndə, onun sevincini təsəvvür etmək çətin deyildi. Köhnə tanışlar, dostlar və silahdaşlar bir-birilərini alqışlayaraq qucaqlaşmağa başladılar. Migel kapitan Xuanı ayaq üstə görəndə onun sevincinin həddi-hüdudu yox idi. Onun yarası demək olar ki, sağalmışdı. Xuan, hətta hərbi libasında idi və silahlarını özü ilə gəzdirirdi.

Burda yaralıların şəraiti olduqca yaxşı idi. Onlar üçün nəinki dam örtükləri, hətta komalar da salınmışdı. Düşmənin fikrini cəlb etməmək üçün həmişə tonqallar komaların içərisində qalanırdı. Qəribə olsa da, alınan məlumata görə ehtiyat dəstəsi, buraya, tufan başlanandan bir-iki saat sonra gəlib çıxmış və bir başa yaralıların müalicəsi ilə məşğul olmaqa başlamışdılar. Paralel olaraq komalar da tikilmişdir. Maraqlı o idi ki, bu neçə gündə araukanlar bura qalxıb süvarilərin tərk etdikləri düşərgəni yoxlamamışdılar.

Deməli, düşmən əmin olmuşdu ki, konkistadorların hamısı buranı tərk edib. Bura gələnlər arasında Migelin köhnə tanışları çox idi. Necə olsa da, leytenant Mişel Düranın başçılıq etdiyi 18 nəfərlik ehtiyat dəstəsi, məhz düşmən əsirliyindən azad edilmş konkistadorlardan təşkil edilmişdi. Ümumiyyətlə, kapitan Markos bura, polkovnik Alonsonun göstərişini yerinə yetirərək, 40 nəfər döyüşçü ilə gəlmişdi.

Göz nə dərəcədə görürdüsə, müəyyən edilmiş gözətçilər „qanlı vadi“ni nəzarət altında saxlayır və orada baş verən bütün mühüm hadisələri öz beyinlərinə həkk edirdilər. Havanın qaralmasına isə çox az qalmışdı.

Kapitan Markos ekspedisiyanın həkimi Xristofor Salvatyeronu da bura gətirmişdi. Hazırda onları Migelin muharibədə göstərdiyi şücaət və qəhrəmanlıqlar maraqlandırırdı. Necə olsa da, onlar Migeli, Valdiviyadan kəşfiyyata gedəndən bəri görməmişdilər və onun Araukaniyadakı fəaliyyətləri dostlarının marağına səbəb olmuşdu. Kapitan Xuan ilə rastlaşana qədər dostlar Migelin sağ qalıb-qalmamasından xəbərsiz idilər. Migel də onları intizarda qoymamaqdan ötrü başına gələn bütün hadisələri və macəraları qısa orjinallığı ilə dostlarına ərz etdi. Elə söhbətini yenicə başa çatdırmışdı ki, gözətçilər gəlib, araukanların ispanların mövqe tuqduqları kəndə üz tutduqlarını, xəbər verdilər.

Bəli, artıq havanın sabitləşməsindən istifadə edən aborigenlər öz fəaliyyətlərinə başlamışdılar. Migelgil cəld uçurum tərəfə getdilər.

Araukanlar həqiqətən də böyük bir dəstə ilə şimal-şərq istiqamətində hərəkət edirdilər. Paralel olaraq „qanlı vadi“nin cənub-qərbində yerləşən kənddən də həmin istiqamətdə boyük olmayan bir dəstə çıxdı. Hindular burada olan bütün qüvvələrini səfərbər etmişdilər. Onların ümumi sayı təxminən 600 nəfər olardı.

Vəziyyəti belə görən kapitan Xuan zabitlərə bildirdi ki, araukanlar hücum əməliyyatına başlamamış onlar kənddə movqe tutmuş konkistadorların köməyinə getməlidirlər. Çünki o, qardaşının başçılıq etdiyi dəstənin sayından hali idi. 600 nəfərlik qüvvə güclü hücum tətbiq etsə, bir-iki saat müddətinə kənddə mövqe tutmuş konkistadorları darmadağın edə bilər. Elə araukanların da istəyi bu idi.

Səhhətinin düzəldiyini hamıya bəyan edən kapitan Xuan bura gəlmiş dəstə üzərində komandanlığı öz üzərinə götürmüşdü. Əlbəttə, kapitan Markos vəzifəcən ondan üstün olan zabitin istəyinə heç bir etiraz etmədi, əksinə boynundan belə bir məsuliyyətli vəzifənin düşməsinə sevindi. Burda olan bütün zabitlər sözsüz halda Xuanın əmrini yerinə yetirməliydilər. Lakin son anda Migel öz etirazını kapitana bildirməli oldu:

- Sinyor Xuan, sizin qardaşınız tövsiyə edib ki, bu dəstə „qanlı vadi“nin şimal hissəsinə elə getməlidir ki, düşmən bizim hərəkətimizdən xəbərsiz olsun. Polkovnik Alonso, Roma imperiyasının pretoru olmuş Mark Krassın e.ə. 71-ci ildə Spartaka qarşı tətbiq etdiyi döyüş taktikasını, araukanlara qarşı tətbiq etmək istəyir. Biz düşmənə gözlənilməz zərbələr endirməliyik.

Ondan sonra Migel polkovnikin tərtib etdiyi planı bütün zabitlərə müfəssəl şəkildə izah etdi. Xuan bir qədər fikrə gedəndən sonra dedi:

- Araukanların hərəkətindən elə başa düşmək olar ki, onlar səhərə kimi kəndin mühasirəsi ilə məşğul olacaqlar. Ondan sonra çox güman ki, düşmən hücum əməliyyatını həyata keçirəcək. Biz buranı təxminən gecə saat 1-də tərk edərik.

Palçıqlı yerdə hərəkət etmək həddindən artıq çətindir. Lakin 4-5 saat kifayətdir ki, gedib şimaldakı meşənin girəcəyinə çataq. Ondan sonra isə düşmənin hücumunu gözləməli olacağıq. Düşmən bizim gəlişimizdən xəbərsiz olsa, onda hər şey Alonsonun dediyi kimi olacaq. Biz bu müharibəyə son qoyacağıq.

- Cənab kapitan, yaralıların əksəriyyəti növbəti döyüş əməliyyatında iştirak etmək istəyirlər. - deyə Xristofor təşvişlə dilləndi. - Onların səhhəti uzun keçiddə iştirak

etməyə imkan verməyəcək. Elə sizin də vəziyyətiniz o dərəcədə yaxşı deyil.

- Mən nəyin bahasına olursa-olsun, bu əməliyyatda iştirak edəcəm. - deyə Xuan həkimə tərs nəzər salaraq qətiyyətlə dilləndi. - O ki, qaldı yaralıların həmin əməliyyatda iştirakına? Hazırda dəstədə 4 dənə at var. Deməli əməliyyata 4 nəfər yaralı yollanacaq. Qalanları isə məcburi olaraq burada qalacaqlar.

Nəzərdə tutulduğu kimi, kapitan Xuanın növbəti dəfə başçılıq etdiyi dəstə düşərgəni gecə saat 1-də tərk etdi və böyük ehtiyatla aşağı enməyə başladı. Atlar kişnəməsin deyə, onların ağzı bağlanmışdı. Konkistadorlar səs-küy yaratmadan hərəkət etsələr də, „qanlı vadi"də daimi olmasa da, lakin xaotik halda səs-küy əmələ gəlirdi. Bu araukanların danışıqlarından əmələ gələn səs-küy idi.

Nəhayət ispanlar şimaldakı meşənin girəcəyinə gizlincə daxil oldular. Həmin yürüş ağır olsa da, hamının ürəyindən idi. Çünki onlar düşmənin xəbəri olmadan, silahdaşlarının mövqe tutduqları kənddən, 1500-2000 metr qərbdə mövqe tutmuşdular. Keçid zamanı konkistadorlar sərf etdikləri qüvvələrini bərpa etmək üçün yaxşıca istirahət etməliydilər. Amma səhərin açılmasına bir saatdan bir az çox vaxt qalmışdı. Bundan əlavə qızınmaq üçün od qalamaq

qadağan edilmişdi. Səhər açılana kimi onlar yarı oturmuş halda istirahət etməliydilər.

Kapitan Xuan düşmənin yaxın ətrafda yerləşməsi barədə, dürüst məlumat almaq üçün, şərq tərəfə iki nəfərdən ibarət kəşfiyyatçı göndərdi. Kəşfiyyatçılar hava işıqlaşandan sonra qayıdaraq Xuana xəbər verdilər ki, araukanların böyük bir dəstəsi kəndin qərb sərhədində cəmləşib. Tonqalların hər yerdə qalanmasından ayırd etdilər ki, düşmən hələlik hücuma keçməyə tələsmir. Belə olan halda Xuan dəstəsini düşmənin mövqeyinə yaxınlaşdırmağı qərara aldı. Əvvəlki kimi dəstə ehtiyatla hərəkətə başladı.

Göydə buludlar seyrək şəkildə olsalar da, yenə də günəş üzərində böyük üstünlük təşkil edirdilər. Günəş yavaş-yavaş And dağlarının arxasından görünməyə can atırdı. Xoşbəxtlikdən „qanlı vadi“ni şərq tərəfdən yavaş-yavaş duman örtməyə başladı. Duman özünün torlu pərdəsi ilə Sakit okeana tərəf can atırdı. Artıq konkistadorların mövqe tutduqları kəndin şərq hissəsi dumanın pərdəsi ilə örtülmüşdü. Araukanların hücum etməmələrinin səbəbi aydın idi. Onlar kəndin dumana qərq olmasını gözləyirdilər. Duman şəraitində orada mövqe tutan konkistadorlara gözlənilməz zərbə endirmək istəyirdilər.

XVII fəsil. Pretor Mark Krassın döyüş taktikası araukanlara qarşı tətbiq olunur

Kapitan Xuanın başçılıq etdiyi dəstə araukanlara 90-100 metr qalmış meşədə mövqe tutdu. Düşmənin arxasına həddindən artıq yaxınlaşmaq çox təhlükəli idi. Düşmən onları görə bilərdi. Xuan isə öz ehtiyatını əldən vermək istəmirdi. Migel, Lope və Xulio qabağa gedərək kəşfiyyatla məşğul idilər.

Araukanların hərəkətindən hiss etmək olar ki, onlar növbəti hücuma çox ciddi hazırlaşırlar. Artıq duman bütün kəndin ərazisini zəbt etmişdi. Düşmən öz istəyinə nail olmuşdu. Saat təxminən 10 olardı. Bu ətraf dumanın pərdəsi ilə örtülsə də, hava demək olar ki, tam işıqlaşmışdı.

Meşədəki ağacların budaqları dumanın hücumu üçün böyük maneə yaradırdı. Lakin buna baxmayaraq, meşə də dumanın qarşısında gücsüz olduğunu büruzə verməli oldu. Araukanlar hücuma hazırlaşsalar da, hələlik tonqalların yanından əl çəkmirdilər. Kimə soyuq olurdusa həmin adam dərhal gəlib tonqalda qızınırdı. Elə bu dəmdə kənd tərəfdən odlu silahların səsi eşidildi. Bu, kor-təbii halda açılan atəşlər idi. Bilinmirdi, həmin silahlardan aborigenlər istifadə edir, yoxsa konkistadorlar? Getdikcə atəş səsləri çoxalırdı. Söz yox ki, həmin atəşlər böyük döyüşün başlanmasına

gətirib çıxaracaqdır. Həm araukanların, həm də konkistadorların əsəbiləri tarıma çəkilmişdi.

On beş-iyirmi dəqiqədən sonra yaylım atəşlərinin səsi eşidilməyə başladı. Bu artıq böyük döyuşun başlanması idi. Kəndi mühasirəyə alan hindulardan qışqırıq səsləri eşidilirdi. Onlar həmin qışqırıq sədaları altında hücuma keçmişdilər və bununla da konkistadorlara psixoloji təsir göstərmək istəyirdilər. Hücum başlanan kimi meşədəki araukanlar Migelgilin nəzarətindən yayındılar. Kapitan Xuan dəstə ilə kəşfiyyatçılara yaxınlaşdı. Onlar cəbhə xəttinə yaxın olsalar da, hələlik Xuan hücuma keçməyə tələsmədi. O, hücum üçün əlverişli məqam axtarırdı. Kapitan Xuan arxadan düşmən quvvəsinə elə bir zərbə endirmək istəyirdi ki, həmin hücum bu döyüşdə həlledici rol oynasın. Meşədəki konkistadorlar yavaş-yavaş arxadan düşmənin sıralarına yaxınlaşmağa başladılar.

Yarım saatdan sonra atəş səsləri daha da çoxaldı. Diqqətlə qulaq asanda, şimal tərəfdə də döyuşün getməsini hiss etmək olurdu. Xuan elə başa duşdu ki, qardaşı öz dəstəsi ilə birlikdə muhasirəni yararaq, şimal tərəfdə araukanların növbəti dəstəsilə toqquşmuşdur. Lakin kəndin özundə də şiddətli döyuş gedirdi. Onda belə zənn etmək olar ki, kapitan Karlın hücumçu piyada dəstəsi artıq döyüşə girişmişdi. Amma aborigenlərdə kifayət qədər qüvvə var idi

ki, həmin dəstənin qarşısına çıxsın və onlara lazımi səviyyədə təzyiq göstərə bilsin. Çox güman ki, araukanlar şimaldan gələn ispan dəstəsindən xəbərdar idilər və vaxtında onların qarşısını kəsmişdilər.

Həqiqətən də kapitan Xuanın başçılıq etdiyi dəstə gözlənilməz hücuma keçsə, onda düşmənin məğlub olması labud idi. Muharibədə tam qalibiyyət əldə etmək uçun bu ispanların son əlverişli imkanı idi. On illərlə davam edən amansız muharibəyə birdəfəlik son qoymaq olardı. Lakin hindular böyük itkilər versələr də, heç də güclu rəqib qarşısında təslim olmaq fikrində deyildilər. Onlar söz vermişdilər ki, öz azadlıqları və müstəqilliyi uğrunda son damla qana qədər, son nəfəsə qədər döyüşəcəklər. Araukaniyada yaşayan bütün araukanlar azadlıq mübarizəsinə qalxmışdılar. Heç kim öz vətəninin axırıncı parçasını itirmək və kölə şəraitində yaşamaq istəmirdi.

Döyüşün başlanmasından bir saatdan artıq vaxt keçmişdi ki, kapitan Xuan hücum əmrini verdi və buradakı dəstə dumanın qalın pərdəsindən istifadə edərək bir anın içərisində qarşılarındakı kəndin girəcəyinə daxil oldu. Düşmənin başı döyüşə elə qarışmışdı ki, onlar arxadan gələn konkistadorların yaxınlaşmasını hiss etmədilər. Hətta ilkin qurbanlar məhv edilməyə başlayanda da, ön cərgədə olanların arxadan xəbərləri yox idi. Bu işdə duman konkistador-

lara böyük köməklik göstərirdi. Kapitan Xuan bu imkandan maksimum istifadə etmək istəyirdi. Nə qədər ki, düşmənin başı döyüşə qarışmışdı konkistadorlar arxada istədikləri kimi hərəkət edirdilər.

Elə oldu ki, bu dəstə kəndin su basmış hissəsinə gəlib çıxdı. Kəndin şərq hissəsinə getmək üçün, su hövzəsini ya cənub, ya da ki, şimal tərəfdən dövrə vurmaq lazım idi. Kapitan Xuan cənub tərəfi seçdi. Arxada qalan aborigenlər burada nə baş verdiyini anlaya bilmirdilər. Konkistadorlar peyda olan kimi düşmən dərhal məhv edilirdi. Aralarında məsafəsi olanlar arbalyotla, məsafəsi çox olmayan isə qılınc ilə öldürülürdü. Belə bir üsul ilə artıq araukanların otuza yaxın döyüşçüləri məhv edilmişdi.

Dumanın tutqun pərdəsindən bir neçə metrlik məsafəni görmək mükün deyildi. Belə olan halda onlar gedib düşmənin lap əhatəsinə düşə bilərdilər. Onsuz da duman burada daimi qalmayacaq və gec-tez hava açılacaq.

Konkistadorlar su hovzəsini cənubdan dövr edəndən sonra kəndin şərq hissəsinə çıxmaq imkanı əldə etdilər. Lakin burada araukanların sayı həddindən artıq çox idi. Elə ilkin toqquşma zamanı araukanlar qışqırışmağa başladılar. Bir növ onlar arxadan gələn təhlükəni öz silahdaşlarına xəbər verirdilər. Qısa bir müddət ərzində araukanlar böyük bir dəstə düzəldərək əks hücuma keçdilər. Bununla yanaşı

olaraq onların avanqard dəstəsi, kəndin şərq hissəsində müdafiə olunan konkistadorların üzərinə yönəldilən hücumlarını davam etdirirdilər.

Bütün kənd dumana qərq olsa da, döyüş meydanında yaranan atışma, soyuq silahların səsləri və insan qışqırıqları ətraf ərazilərə yayılır və bu kənddə böyük döyüşün başlanmasından xəbər verirdi. Yaralıların ah-naləsi və yalvarış xarakterli səslər, bir çoxlarının ürəyini ağrıdırdı. Onların bir çoxları yardım edilmədən, köməksiz halda tapdaq altında qalmışdılar. Bəzi yaralılar ayaq altında qalmamaq üçün bir təhər kənara sürünərək, özlərini suya atırdılar. Döyüş o dərəcədə qızğın gedirdi ki, heç kim yaralılara kömək etməyə macal tapmırdı. Hərə demək olar ki, öz hayında idi.

Duman o qədər sıx idi ki, döyüşən adamlar istər-istəməz bir-birilərindən aralı düşürdü. Müdafiə olunan öz yerində qalır, hücum edən isə məcburi olaraq silahdaşlarından uzaqlaşırdı. Lap qabaqda döyüşən Migel dörd döyüşçü ilə birlikdə başı döyüşə qarışaraq, yavaş-yavaş öz silahdaşlarından uzaqlaşmağa başladı. O, əsasən kəndin şərq hissəsində müdafiə olunan konkistadorların yanına can atırdı. İstəyirdi ki, onların mühasirəsini yarsın və polkovnik Alonso ilə çiyin-çiyinə döyüşsün. Çünki Alonso öz şücaəti, qorxmazlığı və mərdliyi ilə hamıya ilham verirdi.

Başı bütünlüklə döyüşə qarışan Migel bir də gördü ki, o, hər tərəfdən düşmənlə əhatə olunub. Lakin düşmənə nisbətən onda böyük güc ehtiyatı vardı. Ona görə ki, o, beş-on dəqiqə bundan əvvəl döyüşə atılmışdı.

Migelin yanında döyüşənlərin hamısı birinci ekspedisiyanın iştirakçıları idi. Onların hamısı ilkin məğlubiyyətin əvəzini çıxmaq istəyirdilər. Düşmənə, özü də ki, hinduya əsir düşmək hər bir ispan əsgəri üçün böyük biabırçılıq sayılırdı. Lakin həmin döyüşçülər qisası istədikləri kimi ala bilmirdilər. Çünki onlar Migel qarışıq araukanların mühasirəsinə düşmüşdülər. Bu mühasirədən çıxmaq heç də asan deyildi.

Hiss olunurdu ki, yavaş-yavaş duman çəkilməyə başlayır. Bu bir tərəfdən hər yana səpələnmiş araukanların hücumlarına xeyli köməklik edəcəkdi. Çünki onlar dəqiq bilmirdilər ki, burda döyüşən konkistadorların hansı dəstəsi boyükdür. Lakin hiss etmək olurdu ki, araukanların kəndin cənub-şərq istiqamətində döyüşən dəstəsi, bir növ mühasirəyə düşüb. Həmin dəstə iki tərəfdən zərbə altına düşmüşdü. Düzdür, kapitan Xuanın başçılıq etdiyi dəstənin hücumu düşmən üçün gözlənilməz idi. Araukanlara əlavə qüvvə köməyə gəlməsə, cəbhənin bu hissəsində konkistadorların qələbə çalması labüd idi.

Vəziyyət elə gətirdi ki, Migel öz silahdaşlarından aralı düşdü və onu dörd araukan yaxınlıqdakı evin divarına sıxdı. Hər bir döyüşdə öz ustalığını nümayiş elətdirən Migel, bu dəfəki döyüşdə də, düşmənlərini göstərdiyi döyüş üslubu ilə mat vəziyyətində qoyurdu. İki qılıncı ilə eyni səviyyədə döyüşən cavan zadəgan gah hücuma keçir, gah da müdafiə olunurdu. Hücumun birində Migel düşmənin birini öldürdü və daha birini ağır yaraladı. Düşmən səy göstərməyə çalışsa da, onu mühasirəyə ala bilmirdi. Daha doğrusu, cavan zadəgan onlara bu imkanı vermirdi. Araukanlar ikilikdə qalanda tamamilə üstünlüyü itirdilər. Onlar, hətta bir-birilərinə köməklik də edə bilmirdilər. Psixoloji üstünlüyü ələ alan Migel əlavə qüvvə bura gəlməmiş, qarşısındakı rəqibləri tezliklə məhv etməyə qərara aldı. O, birinə „xox“ gələrək, dərhal ikincisinin üzərinə şığıdı və üç-dord zərbədən sonra qurbanını məhv etdi. Sonuncu hindu təklikdə təçrübəli rəqibi ilə bacarmayacağını başa düşüb cəld buradan uzaqlaşdı. Migel də yaxınlıqda döyüşən silahdaşlarının yanına getmək istədi, lakin evin qapısından dord-beş metr aralı döyüşən yoldaşını gördü. Bu Lope İnyes idi. O, yoldaşlarından aralı düşərək üç hindunun əhatəsində döyüşürdü. Lope arbalyotçu olsa da, qılıncdan heç də pis istifadə etmirdi. Lope döyüşə-döyüşə bura kimi gəlib çıxıb-

sa, deməli yaxınlıqda konkistadorların döyüşmə-sini güman etmək olardı.

Migel tərəddüd etmədən düşmən üzərinə hücuma keçdi. Elə çata-çatda araukanlardan biri gücbəla ilə müdafiəyə keçə bildi. Lakin gec idi, cavan zadəgan bir göz qırpımında qarşısındakı düşməni məhv edə bildi və vaxt itirmədən növbəti qurbanının üzərinə hücum etdi. Onun hücumu o qədər gözlənilməz idi ki, düşmən şok vəziyyətinə düşmüş-dü. Fürsəti əldən vermək istəməyən Migel bir neçə dəqiqə ərzində növbəti rəqibini məhv etdi. İki konkistadorun arasında tək qalmış araukan, tərəddüd etmədən döyüş meydanını tərk etməli oldu.

Cavan zadəganın göstərdiyi köməyə görə Lope öz minnətdarlığını bildirərək, hücumunu davam etdirdi. Migel-gil irəli hücum etməklə, öz silahdaşlarından daha da aralanırdılar. Lakin get-gedə onlar polkovnik Alonsonun dəstəsinə yaxınlaşırdılar. Hava dumanlı olsa da, Migel artıq hiss edirdi ki, o, araukanlarla polkovnikin döyüşən dəstənin arasına düşüb.

Lope arbalyotunu hazır vəziyyətdə tutub Migelin arxası ilə addımlayırdı. Burada bütün tərəflərin döyüşdə iştirak edən döyüşçüləri biri-birilərinə qarışmışdı. Hətta elə oldu ki, öz silahdaşlarının qışqırığına hay verən aborigenlərin iyirmi nəfərlik bir dəstəsi sürətlə onlardan bir qədər aralı

şütüyüb irəli qaçdılar. Qarşıda da şiddətli döyüşün getməsi, burdakılara sirr deyildi. Migelgil vaxt itirmədən araukanların ardınca qaçdılar. Heç iyirmi metr qaçmamışdılar ki, birdən onların qarşısında qeyri-bərabər gedən döyüşün mənzərəsi yarandı. Təxminən 30 nəfərlik hindu dəstəsi, 4 nəfər konkistadora qarşı amansızcasına döyüşürdü. Döyüş böyük olmayan bir evin qapısının ağzında baş verirdi. Hiss olunurdu ki, orada döyüşən konkistadorlar ciddi-cəhdlə evin giriş yerini qoruyurlar. Yerdə iki ispan əsgərinin və onlarla araukanın meyidi vardı. Burada həddindən artıq şiddətli döyüş gedirdi.

Bura kənddə mudafiə olunan ispanların ön cərgəsi idi. Lakin bundan da qabaqda doyüşlər gedirdi. Bu o demək idi ki, araukanlar konkistadorların mudafiə xəttini yararaq, düşmənin içərilərinə daxil olmuşdular. Onlar hər tərəfli konkistadorları sıxışdırmağa çalışırdılar. Lakin kəskin müqavimət ilə üzləşmişdilər.

Müqavimət göstərənlərin arasında polkovnik Alonso ilə kapitan Filipp də vardı. Hər iki qardaş çiyin-çiyinə döyüşürdülər. Onların ön sırada döyüşməsi təəccüblü hal sayılmırdı. Döyüşə birinci can atan Alonso müdafiə olunmaq əvəzinə hücuma keçmişdi və nəticədə o, özü mühasirəyə düşmüşdü. Onunla Filippin libasları bahalı olduğundan, onlar döyüşən aborigenlərin fikrini özlərinə cəlb etmişdilər.

Hər iki zabitin məhv edilməsi üçün hindular bura böyük qüvvə cəlb etmişdilər.

Hər dəqiqənin öz hökmü vardı. Migel yerdən, öldürülmüş aborigenin nizəsini götürüb Alonso ilə döyüşən ən aqressiv araukanın üstünə atdı. Nizə aborigenin düz kürəyinə batdı. Eyni vaxtda Lope də arbalyotla bir rəqibi məhv etdi. Lope 2-ci oxu hazırlamamış araukanların bir neçəsi onların üstünə şığıdı. Xüsusi fənd işlədən Migel bir göz qırpımında iki rəqibini məhv etdi və bərkdən nərə çəkərək, özü əks-hücuma keçdi. Alonsonun yaxında olması Migelə sanki qol-qanad vermişdi və o, döyüşə xüsusi canfəşanlıqla atılırdı. Bütün bacarığını nümayiş etdirən Migel qarşısındakı daha bir rəqibini cəhənnəmə vasil etdi. Elə Alonso da həmin səviyyədə döyüşərək, düşmənə böyük ziyan vururdu. Migel eyni vaxtda müdafiə olunur və düşmənə əks-zərbələr endirirdi. Hətta üstünə atılan balta və nizələrin qaytarılmasına nail olurdu. Onun və Alonsonun qətiyyətlə döyüşmələri düşmənin canında qorxu xofu yaradırdı. Sanki onlar məğlubedilməz bir döyüşçülər idi ki, ortaya düşmüş və qarşılarına çıxan hər bir rəqibi xüsusi bir ustalıqla, çətinlik çəkmədən məhv edirdilər. Çoxluq təşkil edən düşmənin sırasında böyük inamsızlıq yaranmışdı. Onlar öz rəqiblərini məğlubiyyətə uğrada bilmirdilər.

Migel elə hücuma keçmişdi ki, Lope onunla ayaqlaşa bilməyərək, arxada qaldı. Yaxınlıqda olan Filipp düşmən əhatəsində olduğuna baxmayaraq, Migelin belə bir üslubda bənzərsiz döyüş nümayiş etdirməsi, onu mat-mətəl qoymuşdu. O, inana bilmirdi ki, düşmənə sitəm etdirən və hərtərəfli sarsıdıcı zərbələr endirən adam, 21 yaşlı cavan zadəgandır. Migelin bu cür canfəşanlıqla döyüşə girişməsi, burada döyüşən konkistadorlara böyük həvəs və entuziazm verdi. Təhlükə altında olan ispanların daxilində böyük canlanma hiss olundu və onlar da düşmənə əks-zərbələr endirməyə başladılar.

Vəziyyət elə gətirdi ki, Migel hər iki qardaşın arasına gəlib çıxdı. Bu minvanla kənarda döyüşən Filippin işi xeyli yüngülləşdi. Migel onun üç addımlığında döyüşürdü. Lakin arxada qalan Lopenin vəziyyəti xeyli mürəkkəbləşdi. Arbalyotçu təkbaşına beş düşmənin əhatəsində qalmışdı. O, arbalyotçu olduğundan qılıncdan peşəkarcasına istifadə edə bilmirdi. Lopenin özünü gücbəla ilə müdafiə etməsi o biri silahdaşlarına oldu. Əks zərbə endirməyə onun demək olar ki, imkanı yox idi.

Vəziyyəti belə görən Alonso düşmənə təzyiq göstərərək Lopenin istiqamətində hücuma keçdi. Bu hərəkət Alonsonun özü üçün çox təhlükəli sayılırdı. Çünki onun özü də

düşmənin əhatəsinə döyüşürdü. Belə olan halda o, yalnız müdafiə olunmalı idi.

Burdakı araukanların məğlubiyyətə uğramalarına baxmayaraq, onların sıraları yeni döyüşçülərlə əvəz olunurdu. Konkistadorların bəxtindən duman hələ də çəkilməmişdi. Dumana görə düşmən qüvvəsi oxlardan istifadə edə bilmirdi. Çünki belə bir havada rəqiblər yalnız qısa məsafədə biri-birilərilə üzləşirdi. Qısa məsafədə isə ox atmaq çox müşkül bir iş idi. Yaxınlıqdakı rəqib dərhal hücuma keçərək, maneəçilik törətməyə nail olurdu.

Hazırda Alonso çox sərbəst halda döyüşürdü. Çünki hər şey onun planı üzrə gedirdi. Araukanlar bütün qüvvələrini bu kənddə çəmləşdirərək, hər tərəfdən polkovnik Alonsonun dəstəsinin üzərinə zərbə endirmişdi.

Bundan bir az sonra şimaldan kapitan Karlın başçılıq etdiyi dəstə və cənub-qərbdən kapitan Markosun Anqud körfəzindən gətirdiyi dəstə kapitan Xuanın başçılığı altında düşmənə sarsıdıcı zərbələr endirməyə başladılar. Araukanların endirdikləri güclü hücum yavaş-yavaş iflasa uğrayırdı. Çünki indi onlar üç cəbhədə konkistadorlara qarşı döyüşürdülər və heç birisində də müvəffəqiyyət əldə edə bilməmişdilər. Vəziyyət olduqca gərgin idi. Hər iki tərəf ölüm-dirim mübarizəsinə qalxmış və bu döyüşdə böyük

itkilər verirdi. Kəndin içi və yaxın ətrafı meyid və yaralılarla dolu idi.

XVIII fəsil. İspanlar nəzərdə tutulan taktikanı həyata keçirirlər

Bu ərazini öz pərdəsi ilə örtən duman konkistadorlara həddindən artıq böyük köməklik göstərmişdi. Qələbəyə doğru gedən yol qismən də olsa, qət edilmişdi. Ancaq hazırda döyüşü müvəffəqiyyətlə başa çatdırmaq üçün duman ispanlara böyük maneəçilik törədirdi. Çünki polkovnik Alonso ixtiyarında olan süvari dəstəsindən səmərəli istifadə edə bilmirdi. Döyüşü birdəfəlik başa vurmaq üçün süvari dəstəsi düşmənin ən çox toplaşan hissəsinə sarsıdıcı zərbə endirməliydi.

Hələlik isə kəndin şərq hissəsində qızğın döyüş gedirdi. Yüksək təbəqəli zadəganları məhv etmək üçün araukanlar bura yeni-yeni döyüşçülər cəlb edirdilər. Onlar bunu yoldaşlarını səsləməklə həyata keçirirdilər.

Alonsonun düşmənin əhatəsinə düşməsinə baxmayaraq, düşmən evin ağzında döyüşən konkistadorları sıxışdırıb,

gərginlik altında saxlamağa müvəffəq olmuşdu. Onlar Migel ilə Filippi yaxınlıqdakı iki doyüşçüdən aralı salmağa çalışırdılar. Haradasa, onlar buna nail ola bilmişdilər. Migel yanındakı zabitdən yüksək səviyyədə döyüşsə də, araukanlar əsasən, Filippi məhv etməyə boyük səy göstərirdilər. Düşmənin məqsəd-məramı hamıya bəlli olmuşdu. Onlar yüksək vəzifəli zabitləri zərərsizləşdirməklə, ispan ekspedisiyasını başsız qoymaq istəyirdilər. Belə olan halda düşmən tezliklə qalib gələcəyinə əmin idi. Bütün müharibələrdə onlar bu üsuldan intensiv surətdə istifadə etmişdilər.

Filippin hərəkətindən və nümayiş etdirdiyi döyüş taktikasından hiss olunur ki, o, həddindən artıq bərk yorulmuş və düşmənə lazımi səviyyədə müqavimət göstərə bilmir. Burada baş verəçək faciənin qarşısını almaq üçün Migel əsas zərbəni öz üzərinə götürməli idi. Hələlik onda bu imkan yox idi. Çünki cavan zadəganın bir saatlıq döyüş aparması onun da yorulub əldən düşməsinə səbəb olmuşdu. Müdafiə olunmaqla yanaşı, o, çox vaxt əks-zərbələr də endirirdi. Bu cür üsul ilə Migel heç cürə əlavə güc toplamağa imkan tapmazdı. Vəziyyətdən çıxmaq üçün cavan zadəgan son güçünü səfərbər edib hücuma keçə bilərdi, lakin müqavimət çox davam etsə, o özünü müdafiə etmək iqtidarında olmayacaqdı. Bu bir növ onun məğlubiyyəti ilə

nətiçələnə bilərdi. Düşmənin özü də əldən düşmüşdü. Onlar bu qədər döyüşməyə öyrəşməmişdilər.

Eyni zamanda Migelin üstünə 5-6 nəfər araukan intensiv surətdə zərbələr endirirdi. O, da hər bir zərbəni böyük ustalıqla qaytarırdı. Hərdənbir özünü onların qarşısında aciz göstərirdi ki, düşmən öz sayıqlığını itirsin. Söz yox ki, Migel özünün köhnə taktikasına əl atmaqla, düşmən üzərinə əks-hücuma keçməyə hazırlaşırdı. Lakin əmin deyildi ki, həmin hücum uğurla nətiçələnə biləcək. Çünki burada döyüşən düşmən qüvvəsinin sayı həddiddən artıq çox idi. Hələ üstəgəl kənardan əlavə qüvvə köməyə gəlirdi. Konkistadorlara kömək gəlməsə, burda qələbə əldə etmək mümkün olmayacaq. Daha doğrusu, döyüş burada döyüşən konkistadorların məğlubiyyəti ilə nəticələnəcək. Araukanlar hər bir rəqibi nəzarət altına almışdılar.

Migel döyüşə-döyüşə Alonso ilə Lopenin müqavimətlərinə də nəzər salmağa imkan tapırdı. Artıq Lope yaralanmışdı və çox çətinliklə müdafiə olunurdu. O, başından yaralandığından sir-sifəti qana boyanmışdı. Alonso cidd-cəhdlə öz döyüşçüsünü ölümün pəncəsindən xilas edirdi. Polkovnik orada olmasaydı, Lope hər an düşmən tərəfindən öldürülə bilərdi. Ekspedisiya rəisinin də gücü tükənmək üzrə idi.

Elə bu vaxt Alonsogil tərəfdə böyük səs-küy qopdu. Orada döyüşən araukanlar vahimə içində idilər. İş ondadır ki, orada peyda olan kapitan Xuan, leytenant Mişel və daha iki konkistador tərəddüd etmədən düşmən üzərinə hücum etmişdilər. Araukanlar biri-birilərinə dəydi, ançaq çox keçməmiş öz qüvvələrini cəmləşdirib döyüşə-döyuşə, tələsmədən buranı tərk etməyə başladılar. Burdakı döyüşü davam etdirmək üçün aborigenlərə əlavə qüvvə lazım idi. Geri çəkilən duşmən ispanların hücumunu dayandırmaq üçün onların üstünə gah balta, gah da nizə atırdı. Baltanın biri yaxınlıqda olan konkistadorun düz alnına batdı. Həmin zərbədən əsgərin başında dərin yara əmələ gəldi və o, huşunu itirərək arxası üstə yerə sərildi. Bundan əlavə döyüş zamanı bir ispan da öldürülmüşdü.

Alonso ilə Filipp öz qardaşlarını əlində qılınc salamat halda, döyuş meydanında görəndə onların sevinclərindən cuşa gəldilər. Həmişə özünü ciddi, əsgərlərinə qarşı tələbkar, kədəri və sevinci daxilində məxfi saxlayan Alonso bu dəfə sevincini gizlədə bilmədi. Az qala Xuanı bağrına basacaqdı. Çünki o, qardaşının tufan altında sağ qalmasına daha inanmırdı. Belə bir vəziyyətdə və belə bir qeyri-adi havada yaralı adamın sağ qalma ehtimalı yox dərəcəsində idi. Lakin Xuan təbiətlə mübarizədə qalib gəlmişdi. Əlbəttə, bu işdə onun silahdaşlarının da böyük rolu olmuşdur.

Xuan tam şəkildə sağalmamışdı və onun sinəsindəki yaradan sızan qan bütün üst-başını al rəngə boyamışdı. Lakin bütün varlığı ilə özünü döyüşə həsr edən, qəzəbdən bədəni alışan Xuan bunu hiss etməmişdi. Qardaşlar ona nəzər yetirən zaman, yaralı zabit sağ əli ilə yarasını tutaraq, təəssüflə dedi:

- Çox güman ki, atımı vuran zaman mən yerə yıxılanda, yaram açılıbdır.

Migel cəld üstündəki ağ parça ilə Xuanın yarasını bağlamağa başladı. Filipp isə əllərini göyə qaldıraraq, dərindən nəfəs ala-ala dedi:

- Allahın bu xeyirxahlığı heç vaxt unudulmayacaq. Xuanın həyatı Allahın ixtiyarında olub.

- Hazırda biz Allahdan yalnız düşmən üzərində qələbə diləməliyik. - Alonso qılıncını qandan təmizləyə-təmizləyə təmkinlə dilləndi. - Biz bu gün müharibəyə birdəfəlik son qoya bilərik. Tə ki Allah bu işdə, bizə kömək olsun.

Hər şey Alonsonun planlaşdırdığı kimi olsa, onda müvəffəqiyyət qazanmaq mümkün olacaq. Onun ixtiyarında olan döyüşçülərin demək olar ki, 90 faizi bu döyüşdə iştirak edirdi. Onlar mümkün olmayan hərbi əməliyyatları yerinə yetirirdidər. Bir adam eyni vaxtda bir neçə funksiyanın öhdəsindən gəlirdi. Alonso öz əsgərlərinə böyük ümid bəsləyirdi.

Şübhə yox ki, konkistadorlar bütün cəbhələrdə uğur qazanmağa başlamışdılar. Hücumda iştirak edən araukanlar artıq hərtərəfli müdafiəyə keçmişdilər.

Günorta saat 12-də duman şimal istiqamətində bu ərazidən uzaqlaşmağa başladı. Döyüş gedən kəndin cənub hissəsi dumandan azad olmuşdu. Burdan açıq-aydın „qanlı vadi"nin bütün ərazisini görmək olurdu. Dumanın çəkilməsi süvari dəstəsinin fəaliyyət göstərməsinə imkan yaradırdı.

Polkovnik Alonso bütün imkanlardan maksimum istifadə etməyə çalışırdı. Düşmən şok vəziyyətindən ayılmamış o, süvari dəstəsini fəaliyyətə gətirməyi qərara aldı.

Artıq bu vaxt polkovnik Alonso ilə kapitan Xuanın dəstələri kəndin cənubunda birləşməyə müvəffəq oldular. Sağ qalan araukanlar öz yaralı silahdaşlarını döyüş meydanından götürüb kəndin cənub hissəsindən çıxmağa macal tapdılar. Onlar kəndin cənubunda bir qədər aralı öz sıralarını düzəltməyə başladılar. Sanki onlar növbəti dəfə hücuma keçməyə hazırlaşırdılar. Lakin hindular yaralılarını orada qoyub hücuma keçməyəcəkdilər. Həqiqətən də elə oldu. Araukanların bəziləri ağır yaralıları çiyinlərində „qanlı vadi"nin şimal-şərqində yerləşən dağların arasına aparmağa başladılar.

Kənd bütünlüklə dumandan azad olmamış Alonsonun göstərişi ilə 25 nəfərdən ibarət süvari dəstəsi təşkil edildi.

Gözlənildiyi kimi həmin dəstəyə başçılığı polkovnik öz üzərinə götürdü. Kapitan Xuan nə qədər təkid etsə də, Alonso ona at vermədi və kənddə qalmağı tövsiyyə etdi. Süvari dəstəsi əsasən, salamat konkistadorlardan təşkil edilmişdi. Demək olar ki, zabitlərin hamısı həmin dəstəyə daxil edilmişdi. Xuanın xahişini və istəyini nəzərə alaraq Migel bilavasitə polkovnikin yanında döyüşəçəkdi. Ekspedisiya rəisi salamat qalsın deyə, onu mühafizə etmək lazım idi. Məhz onun təcrübəsi və bacarığı sayəsinə Araukaniyda gedən müharibə ispanların qələbəsi ilə başa çatmaq üzrə idi. Qələbəyə çatmaq üçün cəmisi bir neçə addım qalırdı.

Alonso əlinə qılıncı alaraq üzünü silahdaşlarına tutub:

- İspaniya naminə və ispan kralı naminə, irəli!

Bu çağırışdan sonra süvari dəstəsi iti sürətlə araukanların üzərinə şığıdı. Yer palçıq olsa da, atlar həmin an lazım olan sürəti aldə etdilər. Ağır yaralıları dağlara aparandan sonra kəndin aşağısında qalan araukanların sayı heç yüz nəfər olmazdı. Əlbəttə, onlar 25 nəfərlik süvarinin qarşısında tab gətirə bilməzdilər. Məhz buna görə də aborigenlərin bir çoxu dağlar istiqamətində qaçmağa başladılar. Yerdə qalanların qorxmaz döyüşçu olduqlarını nümayiş etdirmək istədilər. Müqavimət göstərən araukanlar heç on dəqiqə keçməmiş darmadağın edildi və süvari dəstəsi dağlara qaçan

düşməni təqib etməyə başladı. Onların da yarısı yolda amansızcasına məhv edildi.

Artıq duman kənddən uzaqlaşmışdı. Hətta kəndin şimalında bir az qabaqda döyüşən hər iki qüvvənin fəaliyyətini açıq-aydın görmək oldu.

Kapitan Karlın başçılıq etdiyi dəstə qarşılarındakı düşməni məğlubiyyətə uğratmaq uzrə idi. Düşmən ciddi müqavimət göstərə-göstərə, meşə istiqamətində yavaş-yavaş döyüş meydanını tərk edirdi. Artıq bütun araukanlar nəinki bu döyüşü, hətta uzun illərdən bəri davam edən müharibəni də uduzduqlarını başa düşmüşdülər.

Əsas döyüşlərdən əlavə kəndin qərb hissəsində qaçmağa imkan tapmamış hindular fərdi üsulla döyüşə-döyüşə meşəyə can atmağa çalışırdılar. Tək-tük yerlərdə müqavimət ocaqları qalmışdı. Münaqişələr davam etsə də, bütün üstünlüklər konkistadorların qərəfində idi.

Araukanlar ilk dəfə idi ki, bu cür məğlubiyyətə uğrayırdılar. Kapitan Karl ilə kapitan Markos öhdələrində olan dəstələr ilə bura gəlib düşmənə arxadan sarsıdıcı zərbələr endirməsəydilər, hindular istədikləri uğuru əldə edə bilərdilər. Həm də bu işdə Araukaniyanın bu hissəsində hökm sürən duman aborigenlərə böyük maneəçilik törətmişdi.

Qələbəni əldə edən konkistadorlar döyüş başa çatan kimi, kəndə qayıdan polkovnik Alonsonu alqışlamağa baş-

ladılar. Alonsonun ust-başı məhv etdiyi qurbanların qanına boyanmışdı. Bu ondan xəbər verir ki, o, bir sərkərdə kimi döyüşün əvvəlindən axırına qədər ön sırada döyuşmüşdu. Yüksək hərb sənətinə yiyələnmiş Alonso özünün sərkərdəlik baçarığını nümayiş elətdirərək, peşəkar bir döyüşçü kimi öz məğlubedilməzliyini bir daha sübut etdi. Döyüş taktikalarının 90 faizinə yiyələnmiş bir istedadlı sənətkar kimi, məğrur araukanlara qarşı sonuncu döyüşdə Roma imperiyasının pretoru Mark Krassın e.ə. 71-ci ildə Spartakın ordusuna qarşı tətbiq etdiyi döyüş taktikasını tətbiq edərək, qəddar düşməni ağır məğlubiyyətə uğratmışdı. Araukanların özbaşınalığına və amansızlığına demək olar ki, son qoyulmuşdu. Alonsonun fikrincə, həmin döyüşdən sonra düşmən bir daha özünə gələ bilməyəcək. Halbuki silahdaşları təkid edirdilər ki, düşməni tam məğlubiyyətə uğratmaq üçün onların hamısı təqib edilərək, məhv edilsin. Lakin polkovnik bunu onunla izah etdi ki, üç saata yaxın davam edən həmin döyüşdə konkistadorların hamısı yorularaq əldən düşüblər və düşməni təqib etməyə onların taqəti qalmayıb. İndi konkistadorların ümdə vəzifəsi yaralı silahdaşlarını döyüş meydanından götürüb, onlara ilkin tibbi yardım göstərmək idi. Düşmən döyüş meydanından uzaqlaşan kimi Xristofor bir həkim kimi öz işinə başlamışdı.

II hissə:

Cəhənnəmi xatırladan ölkə

I fəsil. Qalib konkistadorlar

Döyüşdə iştirak edən bütün konkistadorlar döyüş gedən kəndin şərq hissəsində toplaşdılar. Müəyyən bir müddət ayrılıqda olan bütün qohumlar, dostlar, silahdaşlar bir-birilərilə görüşməyə imkan tapdılar. Bəzi konkistadorların yaxınları bu döyüşdə həlak olmuşdu. Kapitan Leon oğlunu sağ görəndən sonra rahat nəfəs almağa başladı. Çünki o, yaxşı bilirdi ki, Migel həmişə döyüşün ən qızğın yerində döyüşüb və belə döyüşlərdə hər bir döyüşçü məhv edilə bilərdi. Xoşbəxtlikdən isə Migel sağ qalmışdı və bu da ki, atasının sevincinə səbəb oldu. Ekspedisiyanın rəisi kapitan Leonu görən kimi vaxt itirmədən qısaca olsa da, Migelin şucaətlərini ona ərz etdi və elə bir nümunəvi oğul ilə hər bir atanın fəxr etməsini bildirdi. Hamı elə hey Migelin necə də cəsarətlə və yüksək ustalıqla döyüşdüyünü müzakirə edirdi. Ən ağır döyüşlərdə çıxılmaz vəziyyətlərdən onun bacarıqla, sağ-salamat çıxması hamının marağına səbəb olmuşdu. Sanki Migel antik dövrün mifik qəhrəmanlarından biri sayılırdı. Çox qəribə idi ki, o, sonuncu döyüşdə də yaralanmamışdı. Halbuki elə döyüşçü vardı ki, artıq ikinci dəfə düşmən tərəfindən yaralanmışdı. Hamıda belə təəssürat yaranmışdı ki, bütün bu bəlalardan onu Allah-taala saxlayır.

Bura toplaşan konkistadorlar sıralarında baş verən itkiləri ayırd edirdilər. İtkilər isə böyük idi; axırıncı döyüşdə ispanların 43-ü öldürülmüş, 38-i isə yaralanmışdır. Lakin bir çoxları üçün məğlubedilməz sayılan araukanların itkisi də böyük idi; onlardan 342 nəfəri öldürülmüş, 146 nəfəri isə yaralanmışdı. Yaralananların 41 nəfərinin vəziyyəti həddindən artıq ağır idi. Qələbə əldə edilsə də, konkistadorlar „qanlı vadi"də gedən döyüşlərdə çoxlu itkilərə məruz qalmışdılar. Onlardan 83-ü öldürülmüş, 70-i isə yaralanmışdı. Müharibəyə başlamamışdan əvvəl polkovnik Alonso bilirmişdi ki, ekspedisiyada itki olacaq. Ancaq bu qədər itki olacağını o, heç təsəvvürünə gətirə bilməzdi.

Əgər düşmənin sürətlə darmadağın edilməsinə belə səy göstərilməsəydi və ekspedisiyanın hərəkət yürüşü çox ehtiyatla tənzimlənsəydi, bəlkə də həmin itkinin rəqəmi bu qədər yüksək olmazdı. Həlak olanların hamısını kəndin cənub-şərq çıxacağında, hündür olmayan yastı dağın başında basdırılması qərara alındı. Yaralıların hamısına kəndin bu hissəsində ayrıca yer təşkil edildi. Hindu yaralıları ispanlardan bir qədər kənarda yerləşdirildi.

Döyüşün sonunda ispanların ixtiyarında iyirmi dənə at qalmışdı. Soyuq silahla öldürülən atların hamısı kəsilərək, konkistadorların ərzaq ehtiyatına çevrildi. Alonso bir günün

içərisində bir çox məsələləri həll etmək istəyirdi. O, vadinin mərkəzində yerləşən istehkam salınmış kəndi mühasirəyə almaq qərarına gəlmişdi. Lakin heç kim üçün gözlənilməz sayılmayan yağış yağandan sonra polkovnik fikrindən dönməli oldu. Həm də bugünkü döyüşdən sonra konkistadorların hamısı əlavə qüvvə toplamaq üçün əməlli-başlı dincəlməliydilər. Nə qədər ki, araukan döyüşçüləri sağ qalmışdı, deməli hər an növbəti döyüş baş verə bilərdi. Amma hinduların canlı qüvvəsi demək olar ki, doqquz-on dəfə azalmışdı və onlar çox güman ki, belə bir az qüvvə ilə konkistadorların üzərinə hücum tətbiq etməyəcəklər. Alonsonun fikrincə, belə bir ağır məğlubiyyətdən sonra araukanlar hələ uzun müddət özlərinə gələ bilməyəcəklər. Bir daha onlar dirçəlməsinlər deyə, üç-dörd gün ərzində aborigenlərin pərən-pərən düşmüş dəstələri məhv edilməli idi.

Kapitan Xuanın yarası açıldığından onun vəziyyəti yenə də pisləmişdi. Onu qardaşı oğlu Kamaçonun qaldığı evdə yerləşdirdilər. Elə Kamaçonun də vəziyyəti heç də ürəkacan deyildi. Yaqış yağdığından yaralıların hamısı evlərdə biri-birilərinə sıx şəkildə yerləşdirilmişdi. Yaralı araukanların sayı çox olduğundan onların yarısından çoxu açıq havada möhkəm olmayan örtüklərin altında qalmışdılar. İspanların özündə də ağır yaralılar çox olduğundan Xristofor hələlik yaralı araukanlara yaxınlaşmağa macal tapmamışdı. Əlbət-

tə, təkbaşına o, bütün yaralıların öhdəsindən gələ bilməzdi. Məhz buna görə də Xristofor cüzi də olsun, tibb elmindən başı çıxan adamları özünə köməkçi seçdi. Hamı müəyyən bir işi yerinə yetirirdi.

Ertəsi günü meşəli dağda qalan yaralı ispanların hamısı bura gətirildi. Polkovnik arzulayırdı ki, tezliklə yaralılar sağalsın və konkistadorların sıraları sağalan döyüşçülər ilə genişlənsin. O, burada başlanan müharibəni tam qalibiyyətlə sona çatdırmaq istəyirdi. Müharibə nə qədər tez başa çatsa, o, da kral II Filippi sevindirmək üçün tez bir zamanda İspaniyaya yola düşəcək. Başqalarına nisbətən Alonso İsnaniyaya qalib kimi qayıtmaq arzusunda idi. Dağlara və meşələrə çəkilən araukanlar da məhv edilsə, onda o, öz arzusuna çatmış olacaq. Sentyabrın 27-də gedən döyüşdə araukanların tam məhv edilmə təməli qoyulmuşdu. Artıq qələbə əldə edən konkistadorlar Araukaniyada qalib kimi gəzmək və fəaliyyət göstərmək huququ qazanmışdılar. İtkinin çox olmasına baxmayaraq, bütün konkistadorlar dünənki döyüşün nəticəsindən tam razı idilər.

Günortaya az qalmış günəş qızıl diski ilə göydəki hökmranlığı öz üzərinə götürdü. Artıq buludların hökmranlığından heç bir əsər-əlamət qalmamışdı. Bu gün buludların hakimiyyətinə son qoyulmuşdu. Yalnız cənubda tək-tük yalqız qalmış az topa buludların siluetlərini görmək olurdu.

“Qanlı vadi“nin yarı islanmış torpağı qızmar günəşin şüaları altında qurumağa başladı.

Polkovnik Alonso kəndin cənubi-şərqində yerləşən balaca təpənin üstündə yerdə oturaraq kapitanlardan Leonu, Alonsonu, Markosu, Karlı və leytenant Andreni burada sonrakı fəaliyyət barəsində dindirərək, onların fikrini bilmək istəyirdi. Bir neçə dəqiqədən sonra kapitan Filipp, qraf Xuan və leytenant Karlos onların söhbətlərinə qoşuldular. Geçikənlər yaralı qohumlarına baş çəkərək bura gəlmişdilər. Üzlərindəki ifadədən bilmək olar ki, onlar indiki vəziyyətdən bərk-bərk narahatdırlar. Yaralıların müalicə olunması üçün demək olar ki, heç bir şərait yox idi.

Elə, Məhz bu məsələ ilə kapitan Filipp qardaşına müraciət etdi:

- Alonso, bizim üstümüzdə xeyli ağır yaralı var. Onların müalicə olunması üçün burada elementar şərait yoxdur. Xristofor öz imkanlarından lazımınca istifadə edə bilmir.

- Sənin səmərəli təklifin var? - deyə polkovnik muəmmalı tərzdə soruşdu.

- Ağır yaralıları imkan daxilində Anqud körfəzinin şimal sahilinə göndərmək lazımdır. - Filipp təklifini ərz elədi. - Onları gəmilərin kayutlarında yerləşdirmək pis olmazdı.

- Filipp, belə bir təklifi verəndə nəyə isə arxalanmaq lazımdır. - deyə polkovnik narazı halda dilləndi. - Buradan

bizim düşərgəyə qədər bilirsən neçə liqdir? Həm də yaralıları aparmaq üçün bizə xeyli araba lazımdır. Bundan əlavə yaralıları Anqud körfəzinə aparmaqdan ötrü, mən ən azı 20-30 nəfər döyuşçü ayırmalıyam. Ən əsas odur ki, bi hərbi əməliyyatları davam etdirmək üçün lazım olan atlardan məhrum oluruq. İndiki vəziyyətdə hər bir atın, hər bir döyüşçünün bizdən uzaqlaşması bizim ümumi işimizə xeyli xələl gətirə bilər.

- Biz indi öz yaralılarımızın müqəddaratını həll etməliyik. - deyə Filipp təkidlə dilləndi. - Biz onların həyatları uğrunda mübarizə aparmasaq heç bir hərbi əməliyyatdan söz gedə bilməz. Onsuz da araukanlar darmadağın ediliblər.

- Sonuncu döyüşdə araukanların beli tamamilə sındırılıb. - qraf Xuan kapitan Filippin sözlərinə təkan verdi.

- Məni Araukaniyada ilk növbədə aborigenlərin tamamilə məhvi maraqlandırır. - deyə ekspedisiya rəisi qətiyyətlə dilləndi. - Paralel olaraq, mən hər bir ispan əsgərinin həyatının təhlükəsizliyi barəsində fikirləşirəm. Mən heç bir əsgərdə fərq qoymuram, istər qardaşım, istər oğlum, istərsə də sıravi əsgər olsun. Əgər körfəzdəki düşərgə ilə bizim aramızdakı məsafə qısa olsaydı, həm də ixtiyarımızda bir neçə dənə araba olsaydı mən bu fürsətdən çoxdan istifadə edərdim. Təəssüflər olsun ki, bizim imkanlarımız çox məhdud şəkildədir. Birtəhər biz indiki durumla barışmalıyıq.

Mən Xristofora tapşıraram ki, istirahət etmədən öz vəzifəsini içra etsin. O, mənə bildirdi ki, çox güman ağır yaralılardan üç nəfərinin həyatını xilas edə bilməyəcək. Qalanları isə bir neçə nəfər şikəst olsa da həyata qaytarılacaq.

- Məcburi olaraq, yaralıların hamısı bu kənddə mualicə olunmalıdırlar. - deyə kapitan Leon polkovnikin təklifini dəstəklədi. - Paralel olaraq, döyüşən araukanların sağ qalmış qüvvələrini məhv etmək lazımdır. Yoxsa, onlar yenidən qüvvə toplamağa başlayacaqlar. Tam qələbə qazanmaq üçün heç nə qalmayıb.

- Bu öz yerində, - deyə qraf Xuan inamsızlıqla dilləndi. - ançaq biz ilk növbədə yaralılar üçün şərait yaratmalıyıq. Kənddə ən azı iki dənə barak tipli tikili olmalıdır ki, yaralılarımızı orada yerləşdirək. Barakların təməli elə bu gündən qoyulmalıdır.

- Yaxınlıqdakı kəndlərin birində qalan mülki əhalidən işçi qüvvəsi kimi istifadə etmək olar. - yenə də Karlos özünün qıcıqlandırıcı təkliflərindən birini verdi.

- Mən, sinyor Karlosun təklifi ilə razıyam. - deyə kapitan Karl dilləndi. - Yerli əhalinin əməyindən istifadə etmək lazımdır.

- Müharibə başa çatmamış biz mülki əhalini incitməyəcəyik. - deyə Alonso öz etirazını bildirdi.

- Bəs, barakları kim tikəcək? - deyə qraf Xuan təəccüblə soruşdu.

- Barakları öz gücümüzlə tikməliyik. - deyə Alonso tərəddud etmədən dilləndi. - hamı kimliyindən asılı olmaya-raq barakların tikintisində iştirak etməlidir.

- Mənim səmərəli bir təklifim var. - deyə Migelin atası söz aldı. - Bizim qarşımızda forta bənzər bir kənd durur. Biz həmin kəndi ələ keçirtsək, elə yaralıların hamısını ora köçürə bilərik. Orada onların hamısı üçün yaxşı şərait tapılacaq.

- Məndən olsa, həmin kəndi ələ keçirmək üçün elə bu dəqiqə hücum təşkil edərəm. - deyə polkovnik soyuqqanlıqla dilləndi. - Bunun üçün hazırlıq görmək lazımdır. Döyüşçüləri yerbəyer edəndən sonra biz həmin kəndi mühasirəyə alacağıq.

Ekspedisiya rəisi ilə hamı məcburi şəkildə razılaşmalı idi. Çunki o, bir sərkərdə kimi öz planlarını ustalıqla həyata keçirməklə, artıq konkistadorlarını qələbə yoluna gətirib çıxarmışdı. Öz fikirlərində və təkliflarində inadkarlıq göstərən peşəkar zabit Villaqronun, Valdiviyanın və bir çox zabitlərin həyata keçirə bilmədikləri məsələni o, demək olar ki, yerinə yetirmişdi. Bir neçə döyuşdə araukanlar biabırcasına darmadağın edilərək, məğlubiyyət dərəsinin ağzına gətirilmişdilər. Dərənin dibinə düşmək üçün heç bir şey

qalmamışdı. Konkistadorlara uğur gətirən iş belə sürətlə davam etsə, onda İspaniyanın zəfər bayrağı Araukaniyanın cənub ərazisində də dalğalana bilər. Heç kim bu işdə bacarıqlı sərkərdəyə, özlərinin qeyri-real təklifləri və lazımsız şərtləri ilə maneəçilik törətməməliydi. Bu ispanların ümumi işinə xeyli xəlal gətirə bilərdi. Polkovnik Alonso hərb sənətində çox nadir hallarda səhvə yol verirdi. Öz manevrləri və taktiki gedişləri ilə o, düşməni məcbur etdi ki, öz köhnə taktikalarından əl çəkərək ispanlarla açıq döyüşdə üz-üzə gəlsinlər. Açıq döyüşə girişməklə araukanlar bu müharibənin müqəddəratını həll etdilər. Hərçənd ki, müharibənin 2-ci mərhələsi başlanandan sonra aborigenlər pusqu döyüşlərinə böyük üstünlük verməyə başlamışdılar. Həmin üsul ilə onlar ispanların Araukaniyada fəaliyyət göstərən iki dəstəsinə sarsıdıcı zərbələr endirmişdilər. Pusqu döyüşü ilə araukanlar konkistadorların irəliləməsinə böyük maneaçilik törətmişdilər. Lakin Alonso xüsusi fənd işlədərək düşməni açıq döyuşə başlamağa sövq etdi. Daha doğrusu, hindular ispanların qurduqları tələyə düşmüşdülər: Bilindiyi kimi konkistadorlar Anqud körfəzinə ayaq basandan sonra dörd dəstəyə bölünmüşdü. Dəstənin biri körfəzin şimal sahilində qalır, qalan üç dəstə isə düşmən ilə döyuşmək üçün cürbəcür istiqamətlərdə fəaliyyət göstərməyə başlayırmış. Aralarındakı məsafə uzun olduğuna görə arau-

kanlar qüvvələrini bir yerə toplayaraq, düşməni ayrı-ayrılıqda məhv etməyə qərara almışdılar. Lakin hər şey tərsinə baş vermişdir. Düzdür, bu işdə təbii proses konkistadorlara böyük köməklik göstərmişdir. Duman öz qalın pərdəsi ilə qanlı vadini örtəndən sonra polkovnik Alonsonun o biri dəstələri araukanların xəbəri olmadan bura gələ bilmiş və düşmənə gözlənilməz, lakin sarsıdıcı zərbələr endirməyə müvəffəq olmuşdular. Demək olar ki, müharibənin müqəddəratı həll olunmuşdu və konkistadorlar Araukaniya-da qalib qüvvə kimi fəaliyyət göstərmək hüququ qazanmışdılar.

II fəsil. Müzakirələrin aparılması

Bir az keçmişdi ki, ekspedisiyanın baş kəşfiyyatçısı Xuan Flores zabitlərin yanına gəldi. O, bir saat bundan əvvəl polkovnikdən xüsusi tapşırıq alaraq, həmin işlə məşğul olmuşdu. Xuan hamıya təzim edərək polkovnikə:

- Don Alonso, yaralı araukanların əksəriyyəti deyir ki, hazırda Araukaniyada axırıncı döyüşdən sonra 200-ə yaxın silahlı döyüşçü qalıb. Onlardan təxminən 50-si qarşımız-

dakı kənddə mövqe tutublar. Bundan əlavə aborigenlərdə 14 dənə at var. Atlar araukanların ən peşəkar döyüşçülərinə verilib. Kənddə mövqe tutan hindularda 7 və ya 8 dənə odlu silah var. O, biri döyüşçülər şübhəsiz ki, dağlardakı kəndlərdə mövqe tutmağa çalışacaqlar.

- Onda belə çıxır ki, araukanlarda cəmisi 500-ə yaxın silahlı döyüşçü var. - deyə Filipp ağlına gəldiyi nəticəni izah etdi. - Bu heç də böyük qüvvə sayılmır.

- Nəyə görə 500 nəfər? - deyə kəşfiyyatçı təəccüblə soruşaraq çiyinlərini çəkdi.

- 200-ə yaxın döyüşçü burdadır, 300-ə qədər döyüşçü isə Araukaniyanın şimalında yerləşən istehkam tikilmiş kənddə mövqe tutublar. - deyə Filipp izah etdi.

- Əsirlərin dediyinə görə şimalda araukanların daha silahlı döyüşçüləri qalmayıb. - deyə Xuan aludəliklə dillədi. - Hindu rəhbərləri dünənki döyüş üçün bütün Araukaniyadakı döyüşçülərini bir yerə toplamışdılar. Onlar qüvvələrini bir yerə toplayaraq Araukaniyada bizim fəaliyyət göstərən dəstələrimizi ayrı-ayrılıqda məhv etmək istəyirdilər. Lakin onlar öz fikirlərində yanılmışdılar.

- Əgər bu elədirsə, onda bizim işimiz xeyli yüngülləşəcək. - deyə qraf Xuan həvəslə dilləndi. - Beş gündür ki, biz Araukaniyaya ayaq basmışıq, artıq onların əsas qüvvəsi darmadağın edilibdir. 200 nəfərlik qüvvəni məhv etmək

bizim üçün heç bir çətinlik törətməyəcək. Elə qarşımızdakı kənddə düşmənin 50-yə qədər döyüşçüsü var. İki-üç gün müddətinə biz düşmənin qalıqlarını məhv edəndən sonra bütün Araukaniyanı nəzarət altına götürəcəyik. Aborigenlər özlərinin son günlərini yaşayırlar.

- Araukanların yerini müəyyən etsək, biz onları bir neçə saatın içərisində də məhv edə bilərik. - deyə kapitan Leon ehtiramla dilləndi. - Amma belə bir mürəkkəb relyefə malik olan ölkədə düşməni təqib etmək heç də asan olmayacaq.

- Araukanlar sonunçu döyüşdə həm fiziki, həm də mənəvi cəhətdən darmadağın olublar. - deyə Filipp qürurla dilləndi. - Onların qaçıb gizlənməyə və bizə müqavimət göstərməyə imkanları olmayacaq. Biz vəhşiləri istənilən yerdə təqib edərək, onların hamısını qılıncdan keçirəcəyik. Təxmini olsa da, biz onların harada gizləndiklərini bilirik.

- Dağlarda döyüş aparmaq böyük çətinliklərlə bağlıdır. - deyə Leon reallıq baxımdan çıxış etməli oldu. - And dağlarını Pireney dağları ilə səhv salmaq lazım deyil. Onlar bu ərazilərdəki dağların keçidlərinə və cığırlarına çox yaxşı bələddirlər. Keçilməz yerlərdə yeganə sayılan yollara yalnız özləri nəzarət edirlər. Onları həmin yerlərdən vurub-çıxartmaq qeyri-mümkün olacaq.

Kapitan Leonun bu açıqlaması bir çox zabitlərin xoşuna gəlmədi. Sanki peşəkar döyüşçü qorxaq mövqedən çıxış

edirdi. Halbuki Leon qorxan adamlardan deyildi. İlk növbədə kapitan Karl təkzib verməli oldu:

- Sinyor Leon, lazım olsa biz araukanları dağlarda da məhv edəcəyik. Bu heç də siz deyən kimi qeyri-mümkün şey sayılmır. Fransisko Pisarro, Diyeqo Almaqro, Sebastyan Belalkasar və Ernan Kortes dağlarda məğrur hindu tayfalarını məhv edə biliblər, biz isə həmin işin öhdəsindən gələ bilməyəcəyik? Düzdür, etiraf edirəm ki, dağlarda döyüş aparmaq xeyli mürəkkəbdir, lakin bu o demək deyil ki, onlar dağlarda gizlənərək, törətdikləri bütün cinayətlərə görə məsuliyyətdən kənar qalacaqlar. Biz araukanların təqibi ilə məşğul olmalıyıq. Uğurla başladığımız işi, elə uğurla da başa çatdırmalıyıq.

- Əsrin əvvəli ilə, əsrin sonunu səhv salmaq lazım deyil. - deyə Leon kapitan Karla nəzər salmadan israrla dilləndi. - O, vaxt bizim döyüşçülərə qonşu tayfalar köməklik göstərirdi. İndi isə hamı araukanlara təsəlli verir və onların döyüşlərinə qibtə edirlər. Bu dağlardakı yollar, keçidlər, çığırlar bizə məlum deyil. Dağlarda onlara qarşı mübarizə aparmaq, həqiqətən də qeyri-mümkündür. Bir hindunu məhv etmək üçün biz iki döyüşçü itirəcəyik. Təsəvvür edirsiniz, biz hansı faciə ilə üzləşə bilərik? Mən demirəm ki, biz dağlarda gizlənən araukanların öhdəsindən gələ bilməyəcəyik. Mülki əhali ilə döyüşən hinduların əlaqəsi

olmasa, onda biz tam qələbə əldə edə bilərik. Mülki əhalinin etimadını qazanandan sonra hamınızı əmin edirəm ki, araukanların müqaviməti çox çəkməyəcək.

- Yerli əhaliyə etibar etibar etmək olmaz. - deyə qraf Xuan öz etirazını bildirdi. - Əhali döyüşçülərlə əlbirdir. Mən əsir olanda bunun şahidi olmuşam. Onlar hər vasitə ilə döyüşçülərə köməklik etməyə başlayacaqlar. Əhali bizə düşmən gözü ilə baxır.

- Mən qraf Xuan ilə tamamilə razıyam. - deyə kapitan Karl qətiyyətlə dilləndi. - Nəzərə almaq lazımdır ki, bizə qarşı döyüşənlər əhalidən onların ya atası, qardaşı, əri, ya da ki, hansısa bir qohumudur. Əhaliyə bel bağlamaq olmaz. Onlar hər an bizə arxadan zərbə endirə bilərlər. Onları zor gücünə döyüşçülərdən təcrid etmək lazımdır. Biz öz gücümüzü onlara nümayiş etdirməliyik.

- Əhalinin nazı ilə oynamaq olmaz. - deyə Karlos hoqqabazlıqla dilləndi. - Bu bizi uçuruma apara bilər. Mənə elə gəlir ki, yerli əhalini itaətsizliyinə görə qılıncdan keçirmək lazımdır. Biz əsirlikdə olanda onlar işgəncələrə əl atırdılar.

- Xüsusi qəddarlığı nümayiş etdirmək yersizdir. - Leon onlarla razılaşmadı. - Qələbə əldə etmək üçün biz ilk növbədə yerli əhalinin etimadını qazanmalıyıq. Ya da ki, onların rəhbərlərinin yanına elçilərimizi göndərib, mübarizənin

mənasız olduğunu izah etsinlər. Bəlkə bundan sonra onlar silahlarını yerə qoydular.

- Sinyor Leon, siz elə danışırsız ki, guya bizim döyüşçülərimiz sonuncu döyüşlərdə düşmənə məğlub olub. - deyə qraf Xuan başını təəssüflə tərpədərək narazı halda dilləndi. - Düşmən məğlubiyyətə uğradığına görə biz özümüzü Araukaniyada qalib kimi aparmalıyıq! Araukanların yüzlərlə döyüşçüləri sonuncu döyüşlərdə məhv edilib. Hələ bundan sonra da məhv ediləcək. Onlara elçi göndərmək bizim nüfuzumuza xələl gətirər.

- Belə bir qələbədən sonra aborigenlərlə danışığa girmək düzgün deyil. - deyə kapitan Karl qrafın fikrinə şərik çıxdı. - Sonuncu döyüşdən sonra araukanlar dizləri üstə çöküblər. Qoy onlar danışığa başlamaq üçün bizim üstümüzə elçi göndərsinlər.

- Qarşıdakı kənddə yerləşən düşməni məhv edək, ondan sonar isə dağlarda təqiblə məşğul olaq. - deyə kapitan Filipp danışıqların tərəfdarı olmayan bir adam kimi çıxış etdi. - Düşmən silah gücünə məhv edilməlidir.

- Bəzi adamlar deyirdilər ki, qarşımızdakı lüt aborigenlər qorxmaz, məğlubedilməz, cəsarətli və mahir döyüşçüdürlər. - deyə leytenant Karlos rişxəndlə dilləndi. - Bir neçə günlük hərbi əməliyyatdan sonra onların döyüşkən ordusundan heç nə qalmayıb. İndi onlar bizim əlimizdən gizlənmək üçün

dağlarda dəlmə-deşik, meşələrdə isə qalın kolluqlar axtarırlar.

- Yaxşı, kifayətdir! - deyə kapitan Leon həmsöhbətlərini sakitliyə çağırdı. - Bir neçə günlük hərbi əməliyyat zamanı düşmənin ordusu demək olar ki, darmadağın edilib. Lakin unutmaq lazım deyil ki, həmin hərbi əməliyyatlar zamanı bizim ekspedisiyanın iştirakçılarından 124 nəfəri öldürülüb, 93 nəfəri isə yaralanıbdır Yaralıların 36 nəfərinin vəziyyəti daha ağırdır. Həkim Xristoforun dediyinə görə onlardan 12 nəfəri hər an keçinə bilər. Həmin yaralılar yalnız möcüzə nəticəsində sağ qala bilərlər. Yəni, onu demək istəyirəm ki, bizim itkimiz də həddindən çoxdur. Vaxt var idi bu qədər qüvvə ilə aborigenlərin nəhəng ərazisi zəbt edilirdi. Biz isə hələ də öz missiyamızı tam yerinə yetirməmişik. Bizim öz vəziyyətimiz heç də ürəkacan deyil. Şəxsən bizə artıq qan axıtmaq sərf etmir. Danışıqlara getmək bizim üçün aktual məsələ sayılır. Kim bilir, bəlkə də onlar bizim şərtləri qəbul edərək, döyüşsüz bizə təslim oldular.

Leon lazımlı məsləhət söyləyirdi. Müharibənin 2-ci mərhələsində konkistadorlar böyük itki vermişdilər. Araukaniyada inzibati idarələr, təsərrüfat mərkəzləri yaradılandan sonra həmin sahələri idarə etmək üçün çoxsaylı əsgər lazım idi. Hamı bunu çox yaxşı bilirdi. Lakin bəzi zabitlər hələ də öz inadlarından əl çəkmirdilər. İlk növbədə qraf Xuan yenə

də Leonu pərt etmək fikrinə düşdü. O, üzünü Leona tərəf tutub hiddətlə dedi:

- Mən başa düşürəm ki, bizim itkilərimiz böyük olub. Lakin unutmaq lazım deyil ki, bizim itkilərimiz əbəs yerə olmayıb. Düşmənin 1000-ə yaxın döyüşçüsü qılıncdan keçirilib. Bir daha həmin quldurlar bizim əsgərlərə qarşı silah qaldırmayacaqlar. İndi 200 nəfərə yaxın əli silahlı quldur qalıb. Onlarla danışıq aparmaq, bizim şərəf və ləyaqətimizi alçaldacaq. O ki, qaldı Araukaniyanı nəzarət altına almaq, bunun üçün lazım gəlsə, biz Peru vitse-krallığından əlavə qüvvə istəyərik. Hazır bir ölkənin idarə-etmə sistemində işləmək üçün yüzlərlə adam öz razılığını bildirəcək. Tə ki, buradakı quldurların hamısını qılıncdan keçirək.

- Biz elə etməliyik ki, qazandığımız qələbənin bəhrəsini görək. - deyə Leon israrla dilləndi. - Dağlarda gizlənən araukanlar elə müqavimət göstərərlər ki, əldə etdiyimiz qələbə bizim əlimizdən çıxar. Düşməni danışıq yolu ilə təslim olmağa məcbur etməliyik. Onlarla danışıq aparmaq heç də bizim şərəf və ləyaqətimizi alçaltmaz. Hələ görün onlar bizimlə danışıq aparmaq istəyəcəklər? Araukanlar ilk dəfədir ki, bu qədər canlı qüvvə itiriblər. Hazırda onlar matəm içindədirlər və çox çətin ki, bizimlə danışıq apar-mağa razı olsunlar. Lakin etiraf etməliyəm ki, Araukani-

yada gedən müharibələrin köhnə iştirakçısı kimi, biz inadkarlığı ilə seçilən araukanların sağ qalmış döyüşçülərini silah güçünə məhv edə bilməyəcəyik. Çünki sonuncu məğlubiyyətlərdən sonra aborigenlər bir daha bizimlə düzənlikdə döyüşməyəcəklər. Dağlarda isə hindular çox asanlıqla və peşəkarcasına döyüşürlər. Mənim sözlərimi vaxtilə burada döyüşən hər bir köhnə konkistador təsdiq edə bilər. Dağlarda onları məğlub etmək mümgün olmayacaq.

Polkovnik Alonso gördü ki, o söhbətə qarışmasa, burada başlanan diskussiya lap axşama kimi davam edəcək. Odur ki, ekspedisiyanın rəisi buradakı diskussiyaya son qoymaq üçün özü çıxış etməli oldu. O, dedi:

- Möhtərəm sinyorlar, sizi dinləməklə mən ümumi məxrəcə gəlib, optimal variant əldə etmək istədim. Bəzi zabitlərin höcət etməsi məni hövsələdən çıxartdı. Bütün təkliflər xoşagələndir. Lakin mən bir sərkərdə kimi kapitan Leonun söylədiyi fikir üzərində dayanmaq istəyirəm. Araukanlar ilk dəfədir ki, bu qədər qüvvə itiriblər. Dağlarda isə onlar həqiqətən də peşəkarcasına döyüşürlər. Mən artıq bunun şahidi olmuşam. Düşmənin təslim olması üçun biz onlarla danışığa getməliyik. Lakin əvvəlcə biz qarşımızdakı kənddə mövqe tutmuş araukanları məhv etməliyik və mən danışıq haqqında Rodriges Kartahenanın fikrini öyrənmə-

liyəm. Necə olsa da, o bizim ekspedisiyanın müşaviridir və köhnə konkistador bu haqda bizə lazımlı məsləhətlər verə bilər. Bunun üçün isə Anqud körfəzinə getmək lazım olacaq.

Əlbəttə, Alonsonun bu təklifi bir çoxlarının ürəyindən olmasa da, hamı onunla razılaşmalı idi. Onlarda belə bir fikir yaranmışdı ki, polkovnik istər-istəməz, bir çox zabitin acığına qoca səyyaha üstünlük verir. Halbuki onlar, demək olar qoca səyyahın məsləhəti olmadan sonuncu döyüşlərdə qələbə qazanmışdılar və azacıq olsa da, özlərini qalib kimi aparmaq istəyirdilər.

III fəsil. İspanlar mövqelərini möhkəmlədirlər

Ertəsi günü səhər açılan kimi konkistadorların süvari dəstəsi, istehkam qurulan kəndi ələ keçirmək üçün əməliyyata yollandı. Bu ispanların avanqard dəstəsi idi. Polkovnik Alonso bilavasitə həmin dəstəyə başçılıq edirdi. Vəziyyətlə tanış olduqdan sonra o, belə qənaətə gəldi ki, kəndə yaxşı hücum təşkil edilsə, bir neçə saatın ərzində

həmin məntəqəni ələ keçirmək mümkun olacaq. Amm kənd hücum zamanı bir çox konkistadorların həlak olması labüd idi. Strateji baxımdan kənd çox möhkəm mühafizə olunurdu. Məhz buna görə də Alonso hücum planından əl çəkdi. O, kəndi mühasirə altında saxlamağı qərara aldı. Bacarıqlı və təcrübəli sərkərdə araukanların müdafiə olunduqları kəndi bir nəfər itirmədən belə, ələ keçirmək istəyirdi. Bunun üçün o, lazım gəlsə, kəndi bir-iki ay mühasirə altında saxlamaq fikrində idi. həmin muddət ərzində hindular açlığa dözə bilməyib müqavimət göstərmədən konkistadorlara təslim olacaqlar. Lakin kəndi mühasirə altında saxlamaq üçün Alonsoya ən azı 100-120 əsgər lazım idi. Bu qədər əsgəri əldə etmək üçün o, Limandan yeni quvvə tələb etməli idi. Alonso ixtiyarında olan bütün qüvvəni bu kəndin ətrafına cəlb etsə, onda Araukaniyanın işğal edilmiş ərazisi konkistadorların nəzarəti altından çıxacaq.

Hələlik polkovnik bu kənddən cənubda yerləşən boş qalmış kəndə gedib, orada yoxlanış apardı. Kənddə heç kim yox idi. Burada da mövqe tutmaq olardı, amma gecə vaxtı bu kənddə qalmaq çox təhlükəli idi. Kənd çökəklikdə yerləşdiyinə görə araukanlar gecə vaxtı çətinlik çəkmədən ispanların mövqelərinə daxil ola bilər və buradakılara sarsıdıcı zərbə endirə bilərdilər. Həm də iki günlük yağış

nəticəsində kəndin müəyyən yerlərini su basmışdı. Alonso heç cürə konkistadorları bu kənddə saxlaya bilməzdi.

Sonuncu əməliyyatın axırında Alonso Araukaniyanı 4 sektora bölmək istəyirdi ki, yeni əldə edilən müstəmləkənin idarəetmə üsulu xeyli yüngülləşsin. Birinci sector, Anqud körfəzinin həm şimal, həm də şərq sahil zolağı idi və oranın inzibati mərkəzi, körfəzin şimalında salınan möhkəm fort və onun ətrafındakı tikililər olmalı idi. İkinci sector, Araukaniyanın şimal sərhədlərinə yaxın olan istehkam tikilən kənd və ona yaxın ərazilər idi. Üçüncü sector, ölkənin mərkəzində yerləşən vadi və ona bitişik olan ərazilər, dördüncü sektor isə, qanlı vadi və onun ətrafı sayılırdı. Araukaniyadakı vəziyyət sabitləşənə qədər hər sektorun öz komendantı və 50 əsgəri olmalıydı. Hər komendantın tabeliyində 10 nəfərdən ibarət süvari dəstəsi xidmət aparmalı idi. Bu üsul ilə bütün Araukaniya ispanların nəzarəti altında olacaq və dağlarda məskən salan quldurların fəaliyyəti xeyli məhdudlaşacaq.

Bunun üçün Limaya Perunun vitse-kralına məktub göndərilməliydi. Eyni vaxtda isə dağlara çəkilən araukanların döyüşsüz təslim olması üçün danışıqlardan istifadə etmək lazım idi. Danışıqları elə adam aparmalı idi ki, o, bütün diplomatik səylərdən istifadə edərək, aborigenləri silahı yerə qoymağa vadar etsin. Belə adamlar ekspedisi-

yanın tərkibində tək-tük idi; Rodriges Kartahena, Xuan Flores və Leon Kartahena. Başqa namizədlər bu işin öhdəsindən lazımi səviyyədə gələ bilməzdi. İki namizəd buarda idi, Rodriges Kartahena isə Anqud körfəzinin şimal sahillərində. Uzun götür-qoydan sonra polkovnik Alonso belə bir fikrə gəldi ki, danışıqlarda Rodriges Kartahena ilə Xuan Flores ispanları təmsil etsin. Deməli, qoca səyyhın ardınca Anqud körfəzi sahilinə adam göndərilməliydi. Bir çox məsələlərin həll edilməsi üçün Rodrigesin köməyinə böyük eitiyac vardı.

Anqud körfəzinə iki nəfərdən ibarət qasid göndəriləndən sonra konkistadorlar istehkam qurulan kəndin ətrafında mühasirə qurur və yalnız hava qaralan zaman onlar yaxınlıqdakı kəndə istirahət etməyə gedirdilər. "Qanlı vadi"ni ispanlar iki hissəyə bölmüşdülər; onların bir hissəsi şimal-şərqdə yerləşən kənddə, o biri hissəsi isə vadinin mərkəzində, istehkam qurulan kəndin aşağısında yerləşən, ərazinin yarısını su basmış kənddə mövqe tutmuşdular. Mərkəzdə əsasən, konkistadorların süvari və on nəfərlik atıcı piyada dəstəsi yerləşirdi.

İspanlar möhkəm istehkamla əhatə olunmuş kənddə mövqe tutan hinduları zor tətbiq etmədən əsir almaq istəyirdilər. Lakin hava qaralandan sonra gecənin ortasında onlar kəndi tərk edərək, çətinlik çəkmədən dağlara çəkilə

bilərdilər. Araukanlar əmin idilər ki, keçid zamanı onlar konkistadorlar tərəfindən təqib olunmayacaqlar. Bir sözlə, hinduların fikrincə, hər an onlar qan tökülmədən kəndi tərk edə bilərdilər.

Yuxarıda qeyd edilmişdi ki, sonuncu döyüş baş verməmişdən əvvəl hindu rəhbərləri bütün döyüşçülərini "qanlı vadi"yə cəmləşdirmişdilər. Həmin döyüşdən sonra sağ qalmış döyüşçülər qısa qruplaşmalarla vadinin cənub və şərq sərhədlərində mühüm məntəqələrdə mövqe tutmuşdular. Gündüz vaxtı, hətta onların hərəkətini açıq-aşkar görmək olurdu. Onlar, demək olar ki, konkistadorların fəaliyyətindən bir az da olsun çəkinmirdilər. "Qanlı vadi"nin cənubunda və şərqində yerləşən kəndlərdə mülki əhalinin yaşayırdı. Onlar ispanların təcavüzündən qorxmurdular. Müəyyən mənada buna polkovnik Alonsonun apardığı siyasət təsir etmişdi. Çünki hamı, şahid olmuşdu ki, konkistadorlar yalnız müqavimət göstərən qüvvələrə qarşı döyüşür və mülki əhaliyə qarşı heç bir zor tətbiq etmirdilər. Hətta onlara qarşı döyüşən hinduların yaralıları döyüş meydanında atılanda belə, ispanlar onların hamısını əfv etmişdilər. İş elə gətirmişdi ki yaralıların bəziləri ispanlar tərəfindən tibbi müayinə də olunmuşdular. Bu vasitə ilə onlar mülki əhalinin etimadını qazanmışdılar. Məhz buna görə də əhali dağlara çəkilməyərək, elə "qanlı

vadi”nin sərhəd kəndlərində qalmışdılar. Bundan əlavə ölkənin şimalında yerləşən kəndlərin bir çoxu əhali tərəfindən tərk edilməmişdi.

Polkovnik Alonso fikrini təkcə “qanlı vadi”yə yönəltməmişdi. Ekspedisiyanın ən peşəkar kəşfiyyatçıları ətrafda yerləşən kəndlərə reyd edərək, döyüşçü araukanların yerlərini dəqiqliklə öyrənirdilər. Onlar düşmənin ən zəif yerlərini təyin etmək istəyirdilər. Kəşfiyyatçıların gətirdikləri məlumatlar Alonsonu məyus etməyə bilməzdi. Məlum olurdu ki, araukanlar dağların ətəklərində yaşayış məntəqələrinə yaxın bir yerdə güclü pusqular qurublar. Həmin pusqular konkistadorların gələcək hücumuna və ya irəliləyişinə xeyli ziyan vura bilərdi. Dağlarda gizlənən araukanları məhv etmək ekspedisiya rəisinə heç də asan başa gəlməyəcək. Konkistadorlar növbəti hərbi əməliyyatlar zamanı xeyli itki verə bilərlər. Belə bir faciə ilə üzləşməmək üçün Alonso, düşməni hökmən danışıq vasitəsilə təslim olmağa vadar etməli idi.

Polkovnikdə belə bir təəssürat yarandı ki, guya istehkamla əhatə olunan kənddəki müdafiəçilər kənardan ərzaqla təmin olunurlar. Çünki mühasirədə qalmaq ordakıların azacıq da olsa, əsəblərinə toxunmurdu. Əksinə olaraq, onlar kəndə yaxınlaşan konkistadorları soyüb-təhqir etməklə

yanaşı, hədə-qorxu da gəlirdilər. Lakin buna baxmayaraq Alonso hələlik risqə getmək fikirində deyildi.

Günlər keçdikcə havalar qızmağa başlayırdı. Gündüz vaxtı çoxları qızmar günəşin şüalarından yaxa qurtarmaq üçün kölgəlikdə gizlənməyə çalışırdı. Halbuki yayın gəlişinə hələ çox vardı. Sadəcə olaraq, bu il istilər tez düşmüşdü. Lakin bu çox çəkə bilməzdi. Köhnə konkistadorlar yaxşı bilirlər ki, Araukaniyanın bu hissəsində yaz fəsli sərt havalarla da üzləşir. Bəzən And dağlarından elə soyuq küləklər əsir ki, sanki qışın geri qayıtmasını xatırladır.

IV fəsil. İspan nümayəndələri danışığa gedirlər

Beləliklə, oktyabrın 6-da Alonsonun səbirsizliklə gözlədiyi ekspedisiyanın müşaviri gəlib qanlı vadiyə çıxdı. Rodriges Kartahena bura tək gəlib çıxmamışdı. Ekspedisiyanın notariusu, ruhanisi və salnaməçi rolunu oynayan çoğrafiyaşünas Bartolomeu da onunla gəlmişdilər. Ekspedisiyanın rəisi kimi polkovnik Alonso onların gəlişinə heç bir etiraz etmədi. Onlar ekspedisiyada hakim vəzifələri tutduq-

ları üçün ilk novbədə, Araukaniyada baş vermiş döyüşlərin gedişatı ilə tanış olmağa başladılar. Hər bir əməliyyat barəsində onlara müfəssəl şəkildə izahat verildi. Ümumi tanışlıqdan sonra Alonso öz planı ilə notariusla, müşaviri tanış etdi. Çünki notarius rəsmi şəxs sayıldığına görə araukanlarla danışıqda iştirak etməli idi. Ən əsas bu haqda o, qoca səyyahın fikrini bilmək istəyirdi.

Rodriges sərkərdəni dinləyəndən sonra o dəqiqə reaksiya vermədi. O, başını aşağı salaraq sanki ağır xəyala dalmışdı. Alonso çox yaxşı bilirdi ki, gəldikləri yol 91 yaşlı qocanı çox yormuşdu. Elə Anqud körfəzindən gec gəlişlərinin səbəbi də onun qocalığı idi. Rodriges bir il ərzində həddindən artıq zəifləmişdi. Araukaniyada gedən müharibəyə gələndən sonra o, bütün rejimini itirmiş və özünü sağlam və çevik saxlamaqdan ötrü pəhrizinə riayət edə bilməmişdi. Havanın qeyri-sabit keçməsi, çöl şəraitində qalması, uzun yollar qət etməsi və döyüşdə iştirak edən silahdaşlarının nigaran qalması qoca səyyahın səhhətinə mənfi təsir göstərmişdi. Polkovnik Alonso bütün bunları görməyə bilməzdi. Rodriges uzunmüddətli istirahət etməli idi ki, yaxşıca özünə gəlsin.

Nəhayət qoca səyyan başını qaldırdı və solğun gözlərini açaraq təmkinlə dedi:

- Araukanlar xarakter etibarı ilə materikin heç bir hindu tayfasına oxşamır. Onların məğlub olması mənim yadıma düşmür. Adi itki verəndə onlar həmişə qisas almağa çalışırlar. Açığını desəm, mən araukanların belə bir şəkildə və belə bir miqyasda darmadağın olacaqlarını heç vaxt gözləməzdim. Çünki bütün müharibələrdə onlar möhtəşəm And dağlarından qalxan kimi istifadə edirdilər. Bu dəfə araukanlar öz sayıqlıqlarını itirərək, açıq döyüşə əl atmış və bununla da öz məhvlərini sürətləndiriblər. Qisasçı hindu tayfası olduqlarına görə onlar qismən də olsa, həmin biabırçı məğlubiyyətin əvəzini çıxmağa çalışacaqlar. Aldıqları məğlubiyyət ilə barışacaqlarına inanmaq çətindir. Hazırda bütün əsgərlərimiz ayıq olmalıdılar.

- Sinyor Rodriges, axırıncı döyüşlərdə araukanlar elə darmadağın olublar ki, inanmıram onlar hansısa əməli bir tədbirə əl atsınlar. - Alonso razı halda dilləndi. - Demək olar ki, onların beli qırılıb. Onların gizlənməkdən başqa çarələri yoxdur. Sadəcə olaraq, mən araukanların süqutunu tezləşdirmək istəyirəm. Düşmən həm fiziki, həm də mənəvi cəhətdən sarsılıbdır. Güclü müqavimət göstərməyə onların taqəti qalmayıb.

- Buna oxşar bir vəziyyət Pedro Valdiviyanın yürüşləri zamanı da baş vermişdi. - deyə qoca səyyah əvvəlki kimi yenə də təmkinlə dilləndi. - Sonradan onlar yavaş-yavaş

güc toplayaraq birdən hücuma keçdilər. Halbuki onların məğlubiyyəti göz qabağında idi.

- Mən çalışıb elə edəcəm ki, araukanlar bir daha iri qoşun heyəti yarada bilməsinlər. - deyə Alonso ciddiyətlə dilləndi. - Əksinə, dağlara çəkilmiş silahlı hinduların təqibi ilə məşğul olacaq. Bir daha ispan əsgəri Araukaniyada silahlı müqavimətlə üzləşməməlidir. Biz düşmənin sağ qalan qüvvəsini təslim olmağa vadar etməliyik.

- Don Alonso, biz danışıqları yüksək səviyyədə aparacağıq. - deyə kral notariusu sərkərdəyə təsəlli verdi. - Belə bir vəziyyətdə düşmənin təslim olmaqdan başqa çarəsi yoxdur. Allahın köməkliyi ilə bu ayın axırına kimi bu torpaqda çoxdan gözlənilən sülh və əminamanlıq yaranar və Araukaniya əbədilik İspaniya krallığının əyalətinə çeviriləcək. Kral II Filipp tərəfindən bura da bir hakim təyin ediləcəkdir.

Notarius sonuncu sözləri deyəndə polkovnikə tərəf rişxəndlə bir nəzər saldı. Əlbəttə o, bu sözlərlə Alonsoya işarə vururdu. Araukaniya həm formal, həm də rəsmi cəhətdən İspaniya krallığının mülkiyyətinə çevrilsə, polkovnik Alonso qeyd-şərtsiz bu ölkənin hakimi təyin olunacaq. Çünki hələ İspaniyada olarkən kral II Filipp polkovnik Alonsonu Araukaniyanın hakimi təyin etmişdi. Bunu da kral notariusu çox yaxşı bilirdi. Sadəcə olaraq o, bu sözləri

söyləməklə, tanınmış sərkərdənin yanında artıq xal qazanmaq istəyirdi. Lakin notarius qarşısındakı sərkərdənin xasiyyətinə yaxşı bələd deyildi. Araukaniyada müharibə başa çatan kimi o, bütün səlahiyyətlərini qohumlarının birinə verib özü isə dəniz quldurlarına qarşı döyüşmək üçün birbaşa Qəraib dənizi akvatoriyasına yollanacaq. Onun fikri hamıya bəlli idi.

Qoca səyyah Araukaniya məsələsində təcrübəli bir müqəxəssis kimi öz fikrini söyləməli idi. O, üzünü Alonsoya tərəf tutub ehtiramla dedi:

- Don Alonso, araukanlar çox inadkar və kompramisi xoşlamayan bir tayfadır. Onlar öldürülmüş silahdaşlarının qisasını almağa çalışacaqlar. Belə bir vəziyyətdə onlar heç bir danışıqda iştirak etməyəcəklər. Xahiş edirəm mənim sözümü kəsməyin, mən nə danışdığımı çox yaxşı bilirəm. Biz elə etməliyik ki, düşmən xoşluqla danışıqlarda iştirak etsin. Bunun yalnız bir yolu var. O da ki, araukanlara qarşı güclü təzyiqlərin tətbiq edilməsidir.

- Dəqiq hansı təzyiqlərdən söhbət gedir? - deyə Alonso maraqlandı.

- Mənim yaxşı təklifim var. - deyə qoca səyyah aludəliklə dilləndi. - Bizim əsgərlərimiz hələlik bir kəndi mühasirə altında saxlayırlar. "Qanlı vadi"nin cənubunda yerləşən araukan kəndini də mühasirə altına almaq lazımdır. Həmin

kənddə həm mülki əhali, həm də döyüşçü hindular yerləşir. Süvari dəstəsi mərkəzdəki kəndi, qalan əsgərlər isə cənubdakı kəndi mühasirəyə almalıdırlar. Düşməni gərginlik altında saxlamaq üçün əsgərlər bir neçə dəfə cənubdakı kəndə hücum etməlidir. Lakin hər bir şeydə ehtiyatlı olmaq lazımdır. Çünki həmin kənd coğrafi əhəmiyyətinə görə çox mühüm bir yerdə yerləşir. Meşəlik, dağlıq sahələr kəndin müdafiəsində mühüm rol oynayır. Çox güman ki, araukanlar həmin yaşayış məntəqəsində möhkəm müdafiə səddləri yaradıblar. Hücum vaxtı atıcılara böyük üstünlük vermək lazımdır. Araukanlar çox vaxtı odlu silahların qarşısında tab gətirmirlər. Savaşın qızğın yerində döyüş birdən-birə gözlənilmədən dayandırılır və aborigenlərə danışıq aparmaq təklifi olunur. Mənə elə gəlir, araukanlar bizim təklifi qəbul etməyə məcbur olacaqlar.

- Mən sizin təklifinizi çox məmnuniyyətlə qəbul edirəm. - deyə Alonso tərəddud etmədən təqdiredici tərzdə dilləndi. - Elə bu gündən biz həmin əməliyyata başlayarıq.

Axırıncı döyüşdən sonra konkistadorlar müdafiə etdikləri kənddə yeniliklərlə məşğul olmağa başlamışdılar. Uzun barakların əsası qoyulmuşdu. Bir çox evlərin divarları qonşu evlərin divarı ilə möhkəm daş divarla birləşdirilmişdi. Atların saxlanılması üçün iki dənə yekə tövlə tikilmişdi. Rodrigesgil Anqud körfəzindən gələnə qədər bir

çox yaralılar tam sağalaraq yenidən silaha sarılmışdılar. Üç gün ərzində iki dənə kiçik dustaqxana tikilmişdi. Divarlar hörülsə də, tikililərin damlarını örtməyə imkan olmamışdı. Bir çox tikililərin tamamlanması üçün materiallar çatışmırdı. Hər bir tikintinin aparılmasında burada olan bütün zabitlər yaxından iştirak edirdi.

Elə həmin gün hava qaralan kimi Alonsonun əmri ilə 20 döyüşçüdən başqa bütün salamat konkistadorlar cənub istiqamətində kəndi tərk etdilər. Sübh açılana qədər dəstə artıq "qanlı vadi"nin cənub sərhədini keçərək, ordakı kəndin girəcəyində mövqe tutdular. Bütün bu əməliyyat elə peşəkar səviyyədə görülmüşdü ki, kəndi muhafizə edən hindular onların yaxınlaşdığını demək olar ki, hiss etməmişdilər. Yalnız hava işıqlaşanda konkistadorların fiqurları görünməyə başlamışdı. Hindu kəndində dərhal həyəcan təbili vuruldu və araukanlar özlərinin mövqelərini tutdular.

Bu əməliyyata bilavasitə polkovnikin özü rəhbərlik edirdi. Bütün gecəni yol gəldiklərinə görə o, döyüşçülərin hamısına üç-dörd saatlıq istirahət etməyə icazə verdi. Halbuki buna heç bir ehtiyac yox idi. Çünki polkovnikin kəndi ələ keçirməyə imkanı yox idi. Deməli, iri miqyaslı hücumdan söhbət gedə bilməzdi. O, yalnız odlu silahların atəşi nəticəsində araukanları təşviş içində, stress vəziyyə-

tində saxlamaq istəyirdi. Kəndin bütün ətrafı ağaclarla əhatə olunduğuna görə hamıya ehtiyatla hərəkət etmək tapşırılmışdı. Heç kimin başı sürətli hücuma qarışmamalı idi. Çünki hər bir konkistador araukanların qurduqları pusquya düşə bilərdi. Alonso isə sonrakı döyüşlərdə bir nəfər olsun əsgər itirmək istəmirdi. O, gələcəkdə silahlı düşmənin hamısının təslim olmasına ümid edirdi. İndi ispanların ümdə vəzifəsi araukan rəhbərlərini danışıqlar masasının arxasına cəlb etməkdən ibarət idi. Ondan sonra düşmən silahını yerə də qoya bilərdi.

Günorta yeməyindən sonra konkistadorlar yavaş-yavaş kəndə yaxınlaşmağa başladılar. Təlimata əsasən qarşılarına çıxan hər bir düşmən odlu silahın atəşinə məruz qalmalı idi. Heç üç dəqiqə keçməmiş ilkin atəş səsi eşidildi. Ondan sonra atəşlərin səsi daimi eşidilməyə başladı. Qəribə də olmasa, müdafiədə duran araukanların bəzilərində də odlu silah vardı və onlar konkistadorların hücumunu dayandırmaqdan ötrü həmin silahlardan istifadə etməyə məcbur oldular. Odlu silahların səsi şiddətlənsə də, qüvvələr arasında başlanan döyüş hələ də qızışmamışdı. Çünki araukanların müqavimətindən sonra konkistadorlar təlimata əsasən, öz irəliləyişlərini dayandırmalı olmuşdular. Mövqe döyüşləri getdiyinə görə heç bir tərəfdən itki olmurdu. Gün

ərzində yalnız beş-altı nəfər yaralanmışdır. Axşam hava qaralandan sonra atışmalar avtomatik olaraq dayandırıldı.

Təhlukənin ciddi olduğunu hiss edən araukanlar gecə vaxtı tonqal qalamağı lazım bilmədilər. Onlar qaranlıqda oturub qarovul çəkməyə üstünlük verdilər.

Gecə qaranlığında nə bu tərəf, nə də ki, o tərəf hücum etməyə risq etmirdi. Lakin hamı döyüşə hazırlıqlı vəziyyətdə durmuşdu.

Səhər açılan kimi yenə də odlu silahların səsi bərpa edildi. Bugünki döyüş dünənkinə nisbətən xeyli fərqlənməli idi. Alonsonun göstərişinə görə konkistadorlar gün ərzində kəndin cənub sərhədini keçib ön tərəfdəki evlərdə mövqe tutmalı idilər. Düzdür, bu göstəriş imkan daxilində yerinə yetirilməliydi. Heç kim ehtiyatı əldən verməməli idi.

Döyüşün xarakterindən araukanların yavaş-yavaş irəliləyən konkistadorların təzyiqinə davam gətirə bilməməsi nəzərə çarpırdı. Hətta müdafiə olunanların sıralarında ölənlər də olurdu. Kim ki, geri çəkilməyə imkan tapmırdı, həmin adam ispanların əhatəsinə düşərək məhv edilirdi.

Demək olar ki, üstünlük yavaş-yavaş konkistadorların tərəfinə keçirdi.

Ehtiyatla hərəkət edən ispanlar kəndin cənub sərhədindəki evlərə daxil olaraq, orada mövqe tutmağa müvəffəq oldular. Mülki əhali arasında təşviş düşdü. Çoxları kəndi

tərk etməyə çalışırdılar. Lakin buna baxmayaraq ön sırada döyüşən araukanlar ispanlara qarşı kəskin müqavimət göstərirdilər.

Konkistadorlar daha da irəli gedə bilərdilər. Amma polkovnik Alonso öz əsgərlərinin irəliləyişini dayandırmalı oldu. Hətta odlu silahların səsi də kəsildi. Yavaş-yavaş qüvvələr arasında sakitlik yaranmağa başladı. Yalnız əhali arasında bəzi qışqırıq səsləri eşidilirdi, həmin qışqırıqlar qorxuya düşmüş malki adamlardan çıxırdı. Lakin get-gedə həmin qışqırıqlar da yoxa çıxmaqa başladı. Hətta döyüş meydanında qalan yaralılara təhlükəli yerdən çıxmağa imkan verildi.

Psixoloji üstünlüyün əldə olunmasını hiss edən Xuan Flores ayağa qalxaraq, əliboş yavaş-yavaş araukanlara tərəf getdi. Düşmən yaşlı konkistadorun nə etmək istədiyini axıra kimi gözləməyə qərara aldı. Nəhayət hindulara 8-10 metr qalmış Xuan ayaq saxladı və araukanlara öz dillərində, danışıq aparmaq haqda izahat verdi. Aborigenlər o dəqiqə cavab vermədilər. Xuan təkidlə öz sözünün üstündə dayandı. Hindular əvvəlcə elə bildilər ki, kəndə daxil olmuş konkistadorlar hansısa hiyləgər fəndə əl atmaq istəyirlər. Qorxmaz əsgər düşmənin sıralarına daha da yaxınlaşandan sonra araukanlardan biri onun qabağına çıxdı.

Migel onu o dəqiqə tanıdı. Xuanın qarşısına çıxan xüsusi qəddarlığı ilə seçilən Koro idi. O, ispan əsgərini ötəri süzəndən sonra emosional tərzdə danışmağa başladı. Xuan isə ona təmkinlə cavab verirdi. Hətta söhbətə başlayanda Koro qarşısındakı rəqibə hədə-qorxu gəlmək üçün əlindəki balta ilə hədələməyi də unutmurdu. İspanların hamısı hazırlıqlı vəziyyətdə dayanmışdılar. Hər bir gözlənilməz hadisəyə hazır idilər. İşdir, hindular Xuanı öldürsələr, onda konkistadorların hamısı güclü atəş altında hücuma keçəcəklər.

Koro ilə Xuanın danışığı yarım saatdan çox davam etdi. Sanki onlar kompramis variant əldə edə bilmişdilər.

Nəhayət Xuan emosional düşməndən razılıq alandan sonra polkovnik Alonsonun yanına qayıtdı. O, bildirdi ki, İspaniya krallığının üç nəfər nümayəndəsinin danışıqlarda iştirak edəcəklərini Koro öz rəhbərlərinə izah edəcək. Cavab bir saata verilməlidir. Çünki rəhbərlər buradan bir qədər aralıda dağların arasında yerləşən kənddədirlər.

Həqiqətən də bir saat keçməmiş Koro həmin yerdə yaşlı bir hindu ilə göründü və ispan nümayəndələrinin gəlişini gözləməyə başladı. Hindu geyiminə görə demək olar ki, bütün araukanlardan fərqlənirdi. Onun əynində boz rəngli uzun əba, boynunda qəribə əşyalardan düzəldilmiş boyunbağı, sağ əlində isə başı qotazlı uzun ağac vardı. Həmin adamın hindu rəhbəri olduğunu yəqin etmək olardı.

Vəziyyəti belə görən Xuan Flores irəli getdi. Yaşlı hindu əlindəki taxtanı yerə vuraraq hüznlə dedi:

- Mən kasik Kaukayam! Təcavüzkarların danışıqda iştirak etmələri təqdirə layiqdir. Belə bir vəziyyətdə hər bir danışıq, bizim üçün isə qəbuledilməzdir. Lakin həmin danışıqlar bizim ölkəyə sülh gətirə bilər.

- Elə biz də istəmirik ki, burada yaşayan hinduların qanı bir daha axıdılsın. - deyə Xuan amiranə halda dilləndi. - Danışıqlar yolu ilə biz buna birdəfəlik son qoya bilərik.

- Danışıqlara başlamamışdan əvvəl təcavüzkarlar nəinki bu kənddən, hətta bütünlüklə vadidən uzaqlaşmalıdırlar. - deyə kasik Kauka hiddətlə dilləndi. - Mühasirəyə aldığınız kəndin ətrafı sizin əsgərlərdən təmizlənməlidir.

- Məndə elə bir səlahiyyət yoxdur ki, buradakı əsgərləri geri çəkim. - deyə Xuan aludəliklə dilləndi. - Mən bu haqda komandan ilə məsləhətləşməliyəm. Bir neçə dəqiqədən sonra sizə cavabını deyərəm.

Ondan sonra Xuan polkovnikin fikrini öyrənmək üçün geri qayıtdı. Uzun söhbətdən sonra Alonso yalnız bu kənddən uzaqlaşmağa öz razılıqını bildirdi. Araukanlar istəsələr də, istəməsələr də konkistadorlar "qanlı vadi"nin mərkəzində mövqe tutacaqlar. Deməli, istehkamlı kənddə müdafiə olunan araukanlar hələ də mühasirə halqasında qalacaqlar. İlk dəqiqələrdə Kauka bu şərtlərlə razılaşmaq

istəmədi, lakin sonda məcburiyyət qarşısında qalaraq öz razılığını bildirdi.

Konkistadorlar "qanlı vadi"nin mərkəzinə qayıdandan sonra danışıqlarda iştirak edəcək nümayəndələri baş kasiklərin düşərgəsinə aparacaqlar.

V fəsil. Hər iki tərəfin inadkarlığı

İspanlar "qanlı vadi"nin mərkəzində mövqe tutandan sonra onların hamısına dincəlmək imkanı verildi. Lakin bir neçə zabit başda kapitan Xuan Odovaldo olmaqla konkistadorların qatı düşməni sayılan Koro ilə danışıq aparılacağına görə polkovnik Alonsoya öz narazılıqalarını bildirdilər. Alonso nəinki təkzib etdi, hətta onlarla söz də güləşdirmədi. Belə bir münasibətə görə Xuan, hətta qardaşından incidi. Hələ də zabitlərin əksəriyyəti düşmən ilə danışıqlar aparılmasına kəskin etiraz edirdilər. Onlar araukanları müharibə yolu ilə məhv etmək istəyirdilər. Həmin zabitlərin fikrincə, müharibədə tam qalibiyyət əldə etmək üçün cəmisi bir dənə döyüş aparmaq lazımdır.

Nəhayət iki nəfər araukan “qanlı vadi”nin şərq sərhədində göründü. Onlar əllərinin işarəsi ilə ispan nümayəndələrini öz yanlarına çağırmağa başladılar. Məsafə uzaq olduğu üçün nümayəndələr burada düzəldilmiş xüsusi arabaya mindilər və üç konkistadorun müşaiyəti ilə həmin istiqamətə yola düşdülər. Müşaiyət edənlər - kapitan Leon, leytenant Andre və cəngavər Xose Mendos - görüşün harada keçirildiyini öyrənməliydilər. Onlar danışıqların ucqar bir kənddə aparılacağını yəqin etmişdilər.

Nümayəndələrin gəlişini gözləyənlər, Koro ilə yaşlı kasik Kauka idi. Təhlükəsizliklərini əldən vermək istəməyən hindular konkistadorların yaxınlaşmasına təxminən 50 metr qalmış onlardan dayanmağı tələb etdilər.

Konkistadorlar dayanan kimi Xuan dedi:

- Heç nədən qorxmayın, buradakılar bizi danışıq yerinə müşaiyət edirlər.

- Onların müşaiyət etməklərinə heç bir ehiyac yoxdur. - deyə Koro o dəqiqə öz etirazını bildirdi. - Siz bizimlə gedəcəksiniz. Artıq adamlar buradan geri qayıtsınlar.

- Yanımızda 91 yaşlı bir adam var. - deyə Xuan izahat verməyə başladı. - O, uzun məsafəni sərbəst halda qət edə bilmir. Ona görə də onun arabada getməyinə etiraz etməyin.

- Danışıqlar, bax bu kənddə gedəcək. - Koro əli ilə arxasındakı, lakin yuxarıda yerləşən kəndi göstərərək hökmlə dilləndi. - Ora gedib çatmağa heç nə qalmayıb.

- İndidən deyirəm ki, həmin adam yuxarı qalxa bilməyəcək. - deyə Xuan onları xəbərdar etdi.

- Onu bizim adamlar palankinlə yuxarı qaldıracaqlar. - deyə Koro bu dəfə o biri konkistadorlara eşitdirmək üçün ispan dilində dilləndi. - Danışıqları aparmaq üçün cavan adam tapa bilmirdiniz?

- Həmin adam bizim ekspedisiya rəisimizin baş müşaviri Rodriges Kartahenadır! - deyə leytenant Andre özündən asılı olmayaraq dilləndi.

- Danışıq başa çatandan sonra biz öz nümayəndələrimizi gəlib götürməliyik. - deyə kapitan Leon ehtiramla dilləndi. - Mənə elə gəlir, onları bura gətirəcəklər.

- Yox, onları götürmək üçün arabanız arxamdakı dağları aşıb, ensiz düzənliyə çıxmalıdır. - deyə Koro qəzəbli-qəzəbli dilləndi. - Həmin kəndə gedən yol, rastlaşacağınız düzənlikdən burulma şəklində yuxarı qalxır. Orada yol meşənin girəcəyində yoxa çıxır. Kəndə qalxmağı heç kimə məsləhət görmürəm. Meşənin girəcəyində bir daxma var, öz nümayədələrinizi həmin daxmada gözləyərsiniz.

- Yaxşı, bəs danışıqlar nə vaxt başa çatacaq? - deyə Leon vaxtı araşdırmağa çalışdı.

- Kasiklərin razılaşmasına əsasən danışıqlar beş gün davam edəcək. - Kopo dilləndi. - Həmin müddətə qədər razılaşma əldə etmək olacaq.

Koro beş gün deyən kimi ispanların hamısı çiyinlərini çəkərək biri-birilərinə təəccüblə nəzər salmağa başladılar. Əlbəttə, beş gündən heç cürə söhbət gedə bilməz. Məhz buna görə də onların hamısı öz narazılıqlarını Koroya bildirdilər. Koro da yanındakı kasiklə müəyyən razılaşma apardıqdan sonra ispanlara bildirdi ki, "danışıqlar üç gün gedəcək". İspanlar bu müddətlə də razılaşmadılar. Onda Koro qışqıraraq hiddətlə:

- Danışıqlar ya üç gün gedəcək, ya da ümumiyyətlə olmayacaq.

Leon bir qədər tərəddüd edəndən sonra öz razılığını bildirməli oldu. İşi belə görən Koro yumşaq halda dedi:

- Üç gündən sonra günəş başımızın üstündə olanda, gəlib düzənlikdəki evdən öz nümayəndələrinizi apararsınız.

Həqiqətən də müşaiyət edənlər buradan uzaqlaşan kimi ağacların arasından palankinlə hindular çıxdı. Qoca səyyahı öz yerində rahatlayıb buradan uzaqlaşdılar. Düzənliyə çatandan sonra ispanların gözlərini bağladılar və bir daha, hindu kəndində böyük olmayan evin qarşısında açdılar. Dərhal onları qapıdan içəri saldılar. Danışığa gələn nümayəndələr heç ətrafa nəzər salmağa belə imkan tapma-

dılar. Araukanlar kənddə yaradılan hər bir tikilini gizlin saxlamaq istəyirdilər. Görünür, bu kənddə strateji əhəmiyyətli tikililər çox idi.

Evin girəcəyindəki otaqda təxminən on nəfərə yaxın əli silahlı döyüşçü vardı. Onlar Koro ilə Kaukanın arxası ilə qonşu otağa getdilər. Qonşu otaq geniş idi və oranın üç dənə iri pəncərəsi vardı. Həmin pəncərələr içəri lazımi qədər işıq buraxırdı. Qapının ağzında dörd nəfər silahlı döyüşçü dayanmışdı. Otağın qapı ilə əks divarında yekə pəncərənin altında iki nəfər yaşlı hindu oturmuşdu. Onlardan biri kök, o birisi isə arıq idi. Hər ikisi təxminən Kauka kimi geyinmişdilər. Kauka kök hindunun, Koro isə arıq hindunun yanında əyləşdilər. İspan nümayəndələrinə qarşıda əyləşməyə yer göstərildi. Onlar öz kimliyini xəbər verəndən sonra öyrəndilər ki, arıq hindunun adı Mauna, kök hindunun adı isə Taudur. Onların hər ikisi kasik idilər. Artıq bəlli oldu ki, bu otaqda əyləşən hər üç kasik araukanların tayfa başçılarıdırlar. Deməli, ispanlar lazımi adamların yanına gəlmişdilər. İlkin sözü notarius aldı. O dedi:

- Okeanlar arasında yerləşən torpaqların hər bir ərazisində bizim möhtəşəm krallığımızın əbədi payları var. Əzəmətli və qüdrətli kralımız II Filipp bu torpaqların varisidir. Burada gedən müharibə kralımızın qəzəbinə səbəb olub.

Hamınız bir nəfərə kimi silahlarınızı yerə qoyub təslim olmalısınız. Biz bu torpaqda artıq qanın axıdılmasını istəmirik.

Koro bu danışıqlarda tərcüməçi rolunu oynayırdı. Müvəqqəti olaraq o, istər-istəməz heç bir reaksiya verməddən hər bir cümləni tərcümə etməli idi. Eləcə də Xuan araukanların söylədiyi hər bir cümləni soydaşlarına tərcümə etməli idi. Notariusun sözlərinə Tau cavab verməli oldu. O, ispanlara qəribə nəzər salaraq hirsini daxilində boğa-boğa:

- Siz hamınız bu iri torpağın təcavüzkarları sayılırsınız. Bizim və qonşu tayfalarımız sizi bu torpaqların varisi kimi yox, yalnız təcavüzkar kimi tanıyırlar. Möhtəşəm dağlarla iki hissəyə bölünən bu nəhəng torpaq qədimdən böyük tayfalar arasında cürbəcür sahələrə bölünmüşdü. Qanuni bölgü ilə bu ərazi bizim payımıza düşüb və hazırda bu torpaqların əsl varisləri yalnız bizim tayfa sayılır. Başqaları bu torpaqlar üçün iddia apara bilməzlər.

- Siz araukanlar bütün dünyadan təcrid olunmusunuz. - deyə notarius heç nədən çəkinmədən dilləndi. - Bütün dünyanın qanuni və ədalətli hakimi sayılan müqəddəs Roma papası bizim böyük olmayan planetin quru sahələrini qüdrətli dövlətlər arasında ədalətlə bölüb. Möhtəşəm adlandırdığımız bu dağların sol tərəfindəki bütün torpaqlar bizim krallığımızın payına düşübdür. Hazırda Araukaniya-

nın varisi siz yox, biz sayılırıq. Məhz buna görə də bu torpaqda yaşayan bütün hindu tayfaları istər-istəməz İspaniya krallığının qayda-qanunlarına tabe olmalıdırlar. Neçə ki, biz, eləcə də sizin hamınız İspaniya kralı əzəmətli II Filippin tabeliyi altında fəaliyyət göstərməlisiniz.

Notariusun kəskin ifadalərlə əks olunan sözləri kasiklərin hamısını qıcıqlandırdı. Onlar natiqə tərəf hiddət dolu baxışlarını yönəltdilər. Koro isə qəzəbindən, hətta yumruqlarını sıxdı. Hinduların imkanı olsa idi, qarşılarındakı elçiləri fiziki cəhətdən məhv edərdilər. Lakin kimliyindən asılı olmayaraq, qayda-qanunlara riayət edərək hamı neytral mövqedən çıxış etməli idi. Mauna qəzəbdən alt dodaqlarını çeynəyərək əsəbi halda dedi:

- Biz heç bir Roma papası-zad tanımırıq. Başqa diyarda oturub bizim torpaqları bölüşdürməyə, heç kim ona haqq verməyib. Hansı təzyiqlərə məruz qalırıqsa-qalaq, biz heç vaxt sizin kralınıza tabe olmayacağıq. Çünki biz azad ölkənin, azad sakinləriyik. Neçə ki, məğrur kondor möhtəşəm dağların üstündə istədiyi kimi uçur, eləcə də biz bu torpağın üzərində istədiyimiz kimi hərəkət edəcəyik. Heç kim bizə bu torpaqda göstəriş verə bilməz.

- İspaniya heç vaxt öz qayda-qanunlarını bizim ölkədə tətbiq edə bilməyəcək. - deyə Tau əlavə etdi. - Çünki bizim ulu babalarımızın qoyduqları qayda-qanunlar Araukaniyada

hökm sürür. Biz torpağa bağlı adamlarıq. Ölkəmizin üstünü qara buludlar örtəndə biz dərhal silaha sarılır və öz gücümüzü nümayiş etdiririk. Axırıncı təcavüzkar buranı tərk etməyincə, biz silahlarımızı yerə qoymayacağıq.

- Ancaq hamınız reallıqla barışmalısınız. - deyə qoca səyyah söhbətə qarışdı. - Bütün bu torpaqlar rəsmi surətdə bizim krallıqa məxsusdur və bu torpaqların həqiqi varisi bizim qudrətli kralımız II Filipp sayılır. Silaha sarılaraq müqavimət göstərmək sizin heç birinizə baş ucalığı gətirmir. İstər-istəməz, hamınız İspaniyanın qanunlarına tabe olmalısınız. Sizin nəyiniz başqa hindu tayfalarından artıqdır? Bütün qonşu tayfalar İspaniyanın qanunları ilə yaşayır və bilavasitə bizim krala sədaqətlə xidmət edirlər. Heç kim də həmin yaşayışdan narazı deyil.

- Axı, nə qədər deyərlər ki, biz heç kimin boyunduruğu altında yaşamaq istəmirik. - deyə Tau hüznlə dilləndi. - Araukanlar azad və müstəqil yaşamağı hər şeydən üstün tutan hindu tayfasıdır. Biz öz azadlığımızı dünyanın heç bir nemətinə dəyişmərik.

- Sizin inadkarlığınıza görə mülki əhali əzab-əziyyət çəkir. - deyə qoca səyyah səbirsizliklə dilləndi. - Hər belə müharibə başlayanda əhali ev-eşiyini qoyub dağlara və keçilməz meşələrə qaçır. Bir növ onları öz yaşayış yerlərini tərk etməyə, siz kasiklər sövq edirsiniz. Mülki əhali günah-

sız adamlar olduğuna görə heç vaxt bizim əsgərlər tərəfindən inçidilməyəcək. Başqa hindular kimi onlar da eyni səviyyədə yaşayacaqlar.

- Araukanlar dövri fəaliyyətinə, xasiyyətinə və yaşayış tərzinə görə heç bir hindu tayfasına bənzəmir. - deyə Tau dilləndi. - Yuxarıda böyük səhranın o tərəfindən bizim üstümüzə qüdrətli imperiyanın əsgərləri hücum etmişdir. O vaxtı mən uşaq idim, lakin bütün hadisələr mənim beynimə həkk olunub. Həmin əsgərlər yuxarıda olan bütün əraziləri zəbt etmişdilər, ancaq bizim tayfa onların hamısını darmadağın etdi. Siz bizim torpaqlarımıza hücum etməmişdən qabaq onlar bir daha bizim ölkəyə basqın etdilar. Bu dəfə onların qoşunu o qədər böyük idi ki, düşmənin əsgərlərini sayıb qurtarmaq mümkun olmurdu. Sanki həmin əsgərlərin sayı göydəki ulduzların sayından çox idi. Böyük səhranı arxada qoyandan sonra işğalçılar bizim əsgərlərin kəskin müqaviməti ilə rastlaşdılar. Uzun davam etməyən döyüşlərdən sonra bizim torpağın yuxarı hissəsi işğalçıların meyitləri ilə dolmuşdu. Vaxt gələcək bizim torpağımız sizin də əsgərlərinizin meyidləri ila dolu olacaq. Sizin hamınızı həmin işğalçıların aqibəti gözləyir. Heç kim buradan sağsalamat yaxa qurtarmayacaq.

- Sənin dediyin qüdrətli imperiya İnk imperiyası sayılır. - qoca səyyah dilləndi. - Həmin imperiyanın imperatoru

Ataualpa bir ilin içərisində tutulub edam edildi. Qısa müddət ərzində onun əsgərləri on-on beş dəfə az olan bizim əsgərlər tərəfindan darmadağın edilərək, İnk imperiyasını yer üzündən sildilər. Söz yox ki, həmin imperiya bu materikin ən qüdrətli imperiyası sayılırdı. Güclü bir imperiyanı yer üzundan silən bir ölkə araukanları da məhv etməyə qadirdir. Hər dəfə biz bu məsələni sülh yolu ilə həll etməyə çalışanda, ağır müharibə ilə üzləşirik. İndi də elə oldu; biz bütün məsələni sülh yolu ilə həll edə bilərik. Amma siz inadkarlıq göstərirsiniz.

- Hansı inadkarlıqdan danışırsan? - deyə Mauna qəzəbləndi. - Sizin əsgərlər 45 ilə yaxındır ki, bizim torpaqda müharibə aparır. Nə uşaqlara, nə qadınlara, na də ki, qocalara aman verilir. Kimliyindən asılı olmayaraq qarşılarına çıxan hər bir adamı xüsusi qaddarlıqla qılıncdan keçirirlər. Biz müqavimət göstərməsək onda siz bütün araukanları məhv edərsiniz. Sizin Araukaniyada törətdiyiniz qəddarlıqlar və vəhşiliklər bunun əyani sübutudur. Təcavüzkarların gəlişi bizim əhaliyə bədbəxtçilikdən başqa bir şey gətirməyib. Vaxt gələcək həmin bədbəxtliklər sizin də başınıza gələcək. Araukaniyada sizin heç biriniz üçün səadət və xoşbətlik qismət olmayacaq. Təcavüzkarlar yalan vədlərlə bizim müqavimətimizi dayandırmaq istəyirlər. Bunu etmək mümkün olmayacaq.

- Hazırda, Araukaniyada gedən müharibənin sonuncu mərhələsidir. - deyə qoca səyyah dilləndi. - Bu müharibə başa çatmaq üzrədir. Lakin biz artıq qan axıdılmasın deyə, müharibəni sülh yolu ilə dayandırmaq istəyirik. Bu araukan tayfasının qorunub saxlanmasına imkan verəcək. Biz qəddar və vəhşi olsaydıq, sonuncu döyüşlər zamanı zəbt etdiyimiz kəndlərdə qalan mülki əhalini qılıncdan keçirərdik. Bizim ekspedisiyanın rəisi İspaniyanın tanınmış və məğlubedilməz sərkərdələrindən biri sayılan polkovnik Alonso Odovaldo mülki əhalinin günahsızlığını başa düşərək, onları nəinki əfv etməyi qərara aldı, hətta onlara müəyyən sahələrdə kömək etməyə başladı. Bizim səxavətli və mərhəmətli olmağımızın bariz nümunəsi odur ki, döyüş vaxtı araukanların döyüş meydanında qoyub qaçdıqları yaralı silahdaşlarına tibbi yardım göstərməyə başladıq. Əvvəlki döyüşlərdə yaralanan hər bir araukana həyat bəxş edildi. Heç bir yaralının həyatına qəsd edilməmişdi. Bunu hər bir yaralı təsdiq edə bilər.

- Döyüşə girişən hər bir araukan həyatını azadlıq və müstəqillik uğrunda qurban verməyə hazır olan fədaidir. - deyə Kauka dilləndi. - Əsir düşmək onlar üçün ölümə bərabər olan bir şey sayılır. Təcavüzkarlar yalan vədlər verməklə, araukanları tələyə salmaq istəyirlər. Bizi həmin yalana sövq etmək mümkün deyil.

- Polkovnik Alonso, öz sözünün üstündə duran bir sərkərdədir. - qoca səyyah dilləndi. - Silahını yerə qoyan hər bir araukan qeyd-şərtsiz əfv ediləcək. Biz artıq bunu, sülh əldə edilməmiş əməli işimizlə sübut etmişik. Nəhəng səhradan şimalda İnk imperiyası darmadağın ediləndə, həmin ərazidə nə qədər hindu tayfaları vardısa hamısına həyat verildi. Hindulara sənətkar məktəblərində oxumağa, tikintilərdə işləməyə, cürbəcür sahələrdə xidmət göstərməyə və fərdi təsərrüfatlarla məşğul olmağa icazə verildi. Belə bir imtiyazlar sözsüz halda araukanlara da veriləcək.

- Sənin sözlərində heç bir həqiqət yoxdur. - deyə gözlənilmədən Koro özü etirazını bildirdi. - Minlərlə hindular təcavüzkarların qəzəbinə düçar olaraq məhv edilib.

- Yalnız müqavimət göstərənlər məhv edilir. - notarius dilləndi. - Qanun hamı üçün eynidir.

- Bizdə olan məlumata əsasən, minlərlə günahsız hindu təcavüzkarlar tərəfindən heç bir səbəb göstərilmədən öldürülub. - Kauka hiddətlə dilləndi. - Yuxarıda yaşayan hindular bu amansız və dəhşətli hadisələrin şahididir. Bütün bu haqsızlıqları sizə sübut etməyə heç bir ehtiyac yoxdur.

- Əvvəlki proseslərdə ola bilsin ki, belə bir haqsızlıqlara yol verilib. - deyə notarius qeyri-ixtiyari olaraq həmin faktı etiraf etməli oldu. - İndi isə dövran dəyişibdir.

- Xeyr! - deyə Mauna notariusla razılaşmadı. - Bütün bu haqsızlıqlar indi də davam edir.

- Müharibə şəraitində qeyri-adi hadisələrlə üzləşmək mümkündür. - deyə yenə də notarius etiraf etməli oldu. - Müharibədə günahsız adamların öldürülməsi adi hal sayılır. Çunki orada kimin günahsız və ya kimin günahkar olduğunu sübuta yetirmək üçün vaxtın və imkanın olması məhduddur. Bunun üçün ön cəbhədə hakimlər olmalıdır.

Vəhşiliklərin törədilməsində müharibənin aidiyyəti yoxdur. - deyə Mauna yenə də razılaşmadı. - Təcavüzkarlar dinc əhaliyə qarşı amansız divan tuturlar. Demək olar ki, heç kimə aman verilmir. Siz bu torpaqların əsl varislərini adam yerinə qoymursunuz.

- Biz yalnız cinayətkarlara qarşı cəza tədbirləri görürük. - deyə notarius təkidlə dilləndi. - Kim ki, ispan əsgərinə qarşı silah qaldırsa, həmin adam ən sərt üsullarla cəzalandırılır. İş elə gətirir ki, bəzi adamlar törətdikləri əməllərə görə edam da edilir. Biz hər bir hindu tayfasını sülh və əminamanlıq şəraitində əlimizin altında yaşamaqlarını tövsiyyə edirik. Bizim məmurlar hər bir hindunun hüquqlarını müdafiə edirlər.

- Bəsdir, yalan danışdın. - Mauna qəzəblənərək bərkdən qışqırdı. - Körpə uşaqların, kimsəsiz qocaların və qadınların heç bir cinayətdə əlləri ola bilməz. Lakin buna baxmayaraq,

qəribə içkilərdən keflənən, müəyyən hadisələrdən kədərlənən, aparılan söhbət nəticəsində qəzəblənən hər bir təcavüzkar, onları xüsusi qəddarlıqla qılıncdan keçirirlər. Günahsız hinduların ölumünə görə kimliyindən asılı olmayaraq heç kim məsuliyyət daşımır. Çünki onlar təcavüzkardırlar. Əsarət altına düşən kişilər qılıncdan keçirilir, cavan qızlarımız isə amansızlıqla zorlanır. Cinayəti biz yox, yuxarıdan gələn təcavüzkarlar törədir. Bu cür cinayətlər cəzasız, yerdə qalmayacaq. Vaxt gələcək hamınız bu torpağa ayaq basdığınıza görə peşimançılıq çəkəcəksiniz.

- Əvvəllər belə bir haqsızlıqlar olubsa, hazırda bütün bu haqsızlıqlar aradan götürülüb. - deyə qoca səyyah əmin-amanlıqla dilləndi. - Polkovnik Alonso Odovaldo kralın səlahiyyətli nümayəndəsi kimi hər bir araukan hindusuna görə böyük cavabdehlik daşıyır. Araukaniyada sülh və əminamanlıq yaranandan sonra o, burdakı əhalini bütün təhlükələrdən göz bəbəyi kimi qoruyacaq.

- Polkovnik təcavuzkarların rəhbəridir və o, heç vaxt araukanları göz bəbəyi kimi qoruya bilməz. - deyə Kauka soyuqqanlıqla dilləndi. - Əhalinin təhlükəsizliyini yalnız biz özümüz təmin etməliyik. Bizim qayğımıza qalanlar heç vaxt üstümüzə silahla gəlməzdi. Bizim haqqımızda fikirləşənlər heç vaxt Araukaniyanı müharibə girdabına salmazdılar.

- Araukaniya od tutub yansa da, heç kim bizim müqavimətimizi qıra bilməyəcək. - deyə Mauna qürurla dilləndi. - Artıq 100 ilə yaxındır ki, bizim ölkə təcavüzə məruz qalır. Həmişə də təcavüzkarlar mərd araukanlar tərəfindən darmadağın edilib. İnk imeriyasının güclü ordusu böyük səhranı keçib, böyük ərazini işğal etmişdilər. Lakin çox keçməmiş onların ordusu darmadağın edildi. Sonra sizin ölkənin qoşunları böyük səhranı keçərək bizim ölkəyə soxuldular. İşğalın ilkin mərhələsində biz konkistadorlara xilaskar kimi baxırdıq. Çunki onlar bizim düşmənlərimiz sayılan İnk imperiyasını darmadağın edərək, Araukaniyanı yuxarıdakı ərazilərinə soxulmuşdular. Sonradan konkistadorlar kifayətlənməyərək aşağı enməyə başladılar. Onların əlinə nəinki bizim münbit torpaqlarımız keçdi, hətta işğalçılar əhaliyə qarşı xüsusi vəhşiliklər tətbiq etməklə özlərinin iç üzlərini açdılar. Qəddarlıqda heç bir işğalçı sizə çata bilməz. Biz öz qüvvələrimizi səfərbər edənə qədər təcavüzkarlar həmin ərazilərdə şəhərlər saldırmağa başladılar. 50 il bundan qabaq isə siz "bərəkətli vadidə" növbəti şəhərin əsasını qoydunuz. Növbəti işğal ilə biz barışa bilməzdik, ona görə də tezliklə hücum edərək, şəhərin və ordakı ərzaq ehtiyatlarını yandırdıq.

Notarius böyük səhranın, "bərəkətli vadinin" mənasını başa düşməsə də qoca səyyah nədən söhbət getdiyini çox

yaxşı bilirdi. Böyük səhra - Atakama səhrası, "bərəkətli vadi" - Maypo çayının vadisi, orada salınan şəhər isə 1541-ci ilin fevralın 12-də əsası qoyulmuş Santyaqo idi. Araukanlar həmin yerləri istədikləri kimi adlandırırdılar.

Həmin proseslərdə yaxından iştirak edən qoca səyyah təmkinlə dedi:

- Biz həmin əraziləri işğal etməmişik. Sadəcə olaraq, Roma papası tərəfindən bizim üçün ayrılmış torpaqda abadlıq işləri aparmaqdan ötrü, həmin yerlərdə şəhərlər salmağı qərara aldıq. Baxımsızlıqdan həmin torpaqlar bərbad vəziyyətdə idi. Əhali isə tüfeyli həyat sürürdü.

- Bu torpağın varisi biz ola-ola, heç kim bizim torpağı bölüşdürə bilməz. - deyə Tau hiddətləndi. - Təcavüzkarlar bizim torpaqda abadlıq işləri ilə yox, qarətlə, cinayətlə məşğul olmağa başladılar. Bizim əhali tüfeyli həyat sürmürdü. Biz araukanlar özümüzü mapuçe "torpağın adamları" - adlandırırıq. Mapuçelər isə bu torpağın hər bir qarışını əkib beçərmişdilər. Siz gələndə həmin yerlər xarabazara çevrildi. Əkinçiliklə məşğul olan əhali və ümumiyyətlə, bütün araukanlar canlarını götürüb aşağı ərazilərə üz tutdular. Çünki qızıl dalıycan gələn təcavüzkarlar istədiklərini burada tapmayandan sonra qəzəblərini silahsız camaatın üstünə tökdülər. Vaxtilə sizin bir rəhbəriniz bizim adamlarımızın 400 nəfərini əsir alıb onların sağ əllərini biləyindən

kəsdirib, burunlarının tənələrini dibindən qopartdırmışdı. Bu cür qeyri-insani hərəkətlərdən sonra bütün araukanlar üsyana qalxdılar.

Qoca səyyah o dəqiqə başa düşdü ki, söhbət Pedro Valdiviyadan gedir.

- O vaxt araukanlar Santyaqo şəhərini yandırmasaydılar, Valdiviya həmin cəza tədbirlərinə əl atmazdı. - deyə o soyuqqanlıqla dilləndi.

- Biz bu torpaqda doğulmuşuq və hər an torpağımızı hər hansı təcavüzkardan qorumağa hazırıq. - deyə Mauna qürurla dilləndi. - Bütün Araukaniya xarici istilaçıların qəbristanlığına çevrilib. İndi isə növbə sizindir. Buranı tərk etməsəniz, hamınız qurd-quşa yem olacaqsınız.

- Bu sözləri mən ciddi qəbul edə bilmərəm. - deyə qoca səyyah rişxəndlə dilləndi. - Çünki həm psixoloji, həm də hərbi üstünlük bizim tərəfimizdədir. Sonuncu müharibə başlayanda sizin 1500-dən çox döyüşçünüz hərbi əməliyyatlar zamanı məhv edilib. Bu sizin üçün məğlubiyyətdən başqa bir şey deyil? Sadəcə olaraq biz sülh əldə etməklə, müharibəyə son qoymaq istəyirik.

- Müharibə dayandırılsa, təcavüzkarlar bizim ölkəyə sahib olacaqlar. - Tau dilləndi. - Biz isə heç kimin qulu olmaq istəmirik. Araukanlar uduzmağa öyrəşməyiblər.

- Düzdür müharibə dayandırılsa, biz Araukaniyanın əsl sahibi olacağıq, lakin siz heç də qul olmayacaqsınız. - deyə qoca səyyah qətiyyətlə dilləndi.

- Onda belə çıxır ki, biz kef çəkəcəyik. - deyə Kauka istehza ilə dilləndi. - Qəddarlığı ilə məşhur olan konkistadorlar bizim üçün yaxşı həyat bəxş edəcəklər. Axı, nəyə görə siz belə yalanlara əl atırsınız? İmkanınız olsa, bizim hamımızı məhv edərsiniz. Ona görə ki, biz 45 illik müddətində təcavüzkarların xeyli canlı qüvvəsini məhv etmişik. Bizim İspaniya krallığına vurduğumuz ziyanı heç bir hindu tayfası vurmayıb.

- Çox gözəl bilirsən ki, qismən də olsa, biz Araukanyada qələbə əldə etmişik. - qoca səyyah dilləndi. - Tam qələbə əldə etmək üçün biz yerdə qalan döyüşçüləri də məhv etməliyik. Onların sayı isə 200 nəfərdən çox deyil. 200 nəfəri isə məhv etmək üçün bizdə lazımi qədər qüvvə və çox əlverişli bir imkan var. Sadəcə olaraq biz artıq qan axıtmaq istəmirik.

- Axı, nəyə görə başa duşmək istəmirsiniz ki, bütün bu ərazi İspaniya krallığına məxsusdur? - notarius səbirsizliklə dilləndi. - Biz isə öhdəliyə götürdüyümüz xalqları qırmaq istəmirik. Sülh və əminamanlıq şəraitində yaşamaq üçün hamı İspaniyanın yaratdığı qayda-qanunları ilə yaşamalıdır.

Müqavimət göstərməyə çalışan hər bir adam məsuliyyətə cəlb ediləcək.

Bu sözləri tərcümə etməyə imkan tapmayan Koro əsəblərini saxlaya bilməyərək notariusun üstünə hücum edib onun yaxasından tutdu və ispan dilində hiddətlə dedi:

- Bu torpağın həqiqi varisi bizik. Öz qanımız bahasına biz bu torpağı qorumalıyıq. Sizin kimilərin hamısını bir-bir məhv edəcəyik.

Kasiklər öz dillərində nəsə qışqırmağa başladılar. Koro da məcbur olaraq əlini notariusun yaxasından çəkdi. Kasiklər ispanların danışıqlarından qəzəblənsələr də, lakin özlərini danışıqda iştirak edən nümayəndə kimi sakit aparmalıydılar. Koronun nəlayiq hərəkətindən kasiklər narazı oldular, ancaq ispan nümayəndələrinə öz sözlərində etik normalarını aşmamalarını tövsiyyə etdilər. Belə olan halda onlar bildirdilər ki, danışıqlar ertəsi günü davam etdirilməlidir.

VI fəsil. Danışıqların uğursuzluqla başa çatması

Lakin ertəsi günü danışıqlar davam etdirilmədi. Belə başa düşmək olar ki, araukanların danışıqlar aparmaqdan daha vacib işləri var. Həqiqətən də onlar daha vacib işə baş qoşmuşdular. Gecə ikən istehkamda olan aborigenlər xəlvəti olaraq kəndi qərb istiqamətində tərk etməyə çalışıblar. Lakin hinduların gedişini hiss edən keşikçi ispanlar, aşağıdakı kənddə mövqe tutan silahdaşlarına şübhəli səslər haqda xəbər verdilər. Polkovnik Alonso qısa götür-qoydan sonra kapitan Alonsonu süvari dəstəsi ilə həmin yeri yoxlamaqdan ötrü əməliyyata göndərir. Gecə qaranlığında dəstə təsadüf nəticəsində, meşəli dağlara tərəf gedən hindularla rastlaşır. Orada kortəbii halda döyüş başlayır. Süvarilər qarşılarına çıxan hər bir araukanı xüsusi amansızlıqla qətlə yetirməyə başladılar. Kim isə müqavimət göstərir, kim isə geri qayıtmağa çalışır, kim isə dağlara tərəf öz hərəkətini davam etdirirdi. Gecə qaranlığında yaralıların ətürpərdici səsləri geniş ərazidə yayılırdı. Döyüş meydanını görmək olmurdusa, qışqırıqlardan o dəqiqə başa düşmək olar ki, „qanlı vadi“də yenidən döyüş başlanıb. Orada vəziyyətin ciddi xarakter aldığını görən polkovnik Alonso, 30-a yaxın piyada əsgərini götürüb, istehkam olan

kəndə tərəf yollanır. Çünki onda olan hissiyata görə araukanlar təxminən qərb istiqamətində kəndi tərk etmişdilər. Həqiqətən də konkistadorlar aborigenlər tərəfindən heç bir müqavimətə rast gəlmədən kəndə daxil ola bilirlər. Kənddə olan hindular gizlin yol ilə oradan çıxaraq naməlum istiqamətdə təhlükəli yeri tərk etmişdilər.

Ertəsi günü səhər açılanda konkistadorlar qərbdə meşəlikdə gizlənmiş araukanları təqib etməyə başladılar. Axşama yaxın yalnız bir yerdə ispanlar aborigenlərlə üzləşdilər. Yeddi nəfərdən ibarət hindu dəstəsi təqib edənlərə qarşı pusqu qurmuş və qeyri-bərabər döyüşdə altı nəfər araukan öldürüldü. Konkistadorlardan biri öldürülmüş, daha biri isə ağır yaralanmışdı. Həmin o döyüşdə qəribə hal baş vermişdi; döyüşün qızğın anında araukanlardan biri həlak olmuş silahdaşını döyüş meydanından götürmüş və yoxa çıxmışdı. Halbuki o, həyatını təhlükə altına atmamış oradan uzaqlaşa bilərdi. Belə çıxır ki, öldürülmüş hindu araukanların arasında nüfuzlu döyüşçülərdən biri sayılırdı.

Həmin günü danışıqların davam etdirilməməsi hərbi əməliyyatların başlanması ilə əlaqələndirilirdi. Koro həmin ərəfədə „qanlı vadi“nin cənubunda yerləşən kənddə öz dəstəsilə mövqe tutmuşdur. Lakin konkistadorlar hava qaralmağa az qalmış hərbi əməliyyatı (təqibi) dayandıraraq yenicə ələ keçirilmiş kəndə qayıdırlar.

Danışıqlar gedən zaman bəlkə də araukanların təqibi ilə məşğul olmaq lazım deyildi. Bu bir növ polkovnik Alonso tərəfindən atılmış səhv addım kimi qələmə vermək olardı. Çünki hazırda ispan nümayəndələri düşmən düşərgəsində danışıqlarda iştirak edirdi və araukanlar verdikləri itkiyə görə onlardan qisas ala bilərdilər. Danışıqlarda iştirak edən hindular döyüş əməliyyatlarından hali idilər, ispanlar isə yox. Həmin günü ispan nümayəndələrini qaldıqları evdən kənara buraxmadılar. Hətta onlara pəncərədən baxmaq da qadağan edilmişdir.

Danışıqların 3-cu günü səhər yenicə açılmış hər iki tərəfin nümayəndələri üzləşdilər. Bugünkü danışıq da üç saat müddətinə başa çatmalı idi. Çünki onlar günorta vaxtı nəzərdə tutulan yerdə öz silahdaşları ilə görüşməliydilər.

Əvvəlkinə nisbətən bu dəfə kasiklərin sifətində gərginlik, hiddət, nifrət, qəzəb dolu cizkilər ifadə olunurdu. Hirsdən Koronun gözlərinin altı əsirdi və həyəcanlı hərəkətlərindən, onun əsəblərinin tarıma çəkildiyini başa düşmək çətin deyildi. Danışığa gələn ispan nümayəndələri anlayırdılar ki, belə bir şəraitdə, belə bir vəziyyətdə danışıqları davam etdirmək qeyri-mümkündür. Araukanların hərəkətindən hiss etmək olar ki, Araukaniyada nə isə fövqəladə bir hadisə baş verib və hindular sanki matəm içində idilər. Çox güman ki, onsuz da gərgin vəziyyətdə

keçən danışıqlar zamanı kəskin mövqedən çıxış edən ispan nümayəndələri araukanların qəzəbinə düçar ola bilərlər. Lakin buna baxmayaraq danışıqların növbəti mərhələsi açıq elan edildi. İlk sözü kasik Mauna aldı. O, hiddətlə dedi:

- Təcavüzkarlar bir daha öz simalarını nümayiş etdirdilər. Sizi bura danışıqlara göndəriblər, özləri isə bizim silahdaşlara qarşı hərbi əməliyyatlar aparırlar. Artıq bizim silahdaşlar arasında ölən və yaralananlar var.

- Sözlərində həqiqət olmasına məndə böyük şübhə var. - qoca səyyah vəcdə gələrək, baxışlarını birbaşa Maunanın gözlərinə yönəltdi. - Biz bura gəlməmişdən əvvəl polkovnik Odovaldo özü bildirdi ki, danışıqlar başa çatana qədər heç bir ispan əsgəri heç bir döyüş əməliyyatında iştirak etməyəcək. Mən isə onun səmimiyyətinə inanıram. Onda belə çıxır ki, siz özünüz təxribata yol vermisiniz.

- „Qanlı vadi“nin mərkəzində yerləşən kənddən bizim qüvvələr heç bir döyüş əməliyyatını həyata keçirmədən meşələrə tərəf üz tutmuşdular. - Mauna dedi. - Lakin gecənin qaranlığında təcavüzkarlar gözlənilmədən bizimkilərin üzərinə hücum ediblər və amansızcasına orada qırğın törədiblər.

- Danışıqların müvəffəqiyyətlə başa çatmasına heç bir ümid qalmayıb. - deyə Kauka təəssüflə başını tərpətdi.

Deməli, təcavüzkarlar sülh haqqında fikirləşmirlər. Bura göndərilən nümayəndələr isə oyuncaq rolunu oynayırlar.

- İtirdiyimiz silahdaşlarımızın qanı yerdə qalmayacaq. - deyə Tau hüznlə dilləndi. - gecə əməliyyatında onlara sanki arxadan zərbə endirilib. Hazırda biz itkilərimizin sayını dəqiqləşdiririk. Həmin dəstəyə Koronun kiçik qardaşı Çoko başçılıq edirdi. Hələ dəqiq bilinmir o, sağdır, yoxsa öldürülüb?

- Bu məqamda Koro özunü saxlaya bilməyib əsəbi halda ayağa qalxaraq, ispan dilində hiddətlə qışqırdı:

- İşdir, Çokonun başından bir tük əskik olsa, nəinki sizi, hətta Araukaniyaya ayaq basmış bütün təcavüzkarların başını əlimdəki balta ilə kəsəcəyəm. Ürəyim nə qədər döyünürsə, bir o qədər təcavüzkarlara qarşı mübarizə aparacağam.

Bir az da keçsəydi, o əsəblərini saxlaya bilməyib ispan nümayəndələrinin üzərinə hücum edəcəkdi. Kasiklərin təkidi ilə Koro sakitləşərək öz yerində əyləşdi. Belə bir təzyiqlərdən azacıq da olsun çəkinməyən qoca səyyah başını dik tutaraq qürurla dedi:

- Araukaniyada artıq qanların axıdılmasının əsl baiskarı siz kasiklərsiniz. Sülh əldə edilsəydi, həmin qanlar axıdılmazdı da. Sadəcə olaraq bizim şətrlərimizi qəbul

etmək lazım idi. Etiraf etməliyəm ki, burada axıdılan hər qana görə mənim ürəyim ağrıyır.

- Qanı axıdan siz, baiskar isə biz. - deyə Kauka narazı halda dilləndi. - Sən nə qədər həyasızsan.

- Dediyim odur ki, müharibə dayandırılsa, bir daha Araukaniyada qan axıdılmaz. - səyyah aludəliklə dilləndi.

- Əgər dediyin odursa, onda çıxın, Araukaniyadan gedin! - deyə Tau əsəbi halda qışqırdı.

- Bu torpaqlar İspaniya krallığına məxsusdur, Araukaniyanın əsl varisi İspaniya kralı II Filipp başda olmaqla ispan xalqıdır. Mən, kral II Filippin dövlət notariusu Manuel Alvares bəyan edirəm ki, kim silahını yerə qoyub bizim tərəfə keçsə, bizim əsgərlər həmin adamın həyatını öz doğma adamının həyatı kimi qoruyacaqlar. Biz...

- Sən yenə də deyirsən ki, bu torpaqlar İspaniyanındır? - deyə Mauna gözlərini bərəldərək hiddətlə qışqırdı.

Notarius isə onun hiddətinə heç bir əhəmiyyət verməyərək soyuqqanlılıqla:

- Yuridik hüquqa malik olan müqəddəs Roma papasının bölgüsünə görə bu torpaqlar İspaniya krallığının əyalətinə çevrilib. Kim ki, bu qanuni bölgüyə öz etirazını bildirmək istəyirsə, onda qoy bu torpağı tərk etsin.

- Gorürəm, çox qanundan dəm vurursan. - Kauka aludəliklə dilləndi. - Həmişə özünüzü yazıq bəndə kimi göstərir-

diniz. Əvvəllər bizim torpağa ayaq basanda, sizi burada yaşayan əhalinin rifahı yox, yalnız və yalnız qızıl metal maraqlandırırdı. Elə ki, istədiklərinizə nail ola bilmədiniz, başladınız əhalini qılıncdan keçirməyə. Böyük səhranı keçəndən sonra, yavaş-yavaş aşağı düşə-düşə başladınız şəhər və qəsəbələr yaratmağa. Əhalini münbit torpaqlardan, bərəkətli vadilərdən ucqar dağlara qovdunuz. Camaat canını götürüb kimsəsiz adalara qaçdılar. Biz müqavimət göstərsək də, əhalinin əksəriyyəti odlu dağdan aşağı enməyi məsləhət bildi. Biz də odlu dağdan aşağı endik. Lakin yuxarıda qalan torpaqlar da sizə azlıq etdi və siz yeni torpaqlar əldə etmək üçün aşağı endiniz. Döyüş əməliyyatları müharibə görməyən yerlərdə - odlu dağın, böyük gölun aşağısına getməyə başladı. Artıq biz başa düşdük ki, siz araukan hindularının məskunlaşdığı bütün torpaqları mənimsəmək, daha doğrusu işğal etmək istəyirsiniz. Biz öz gücümüz və iradəmizlə sizin iştahınızı kəsməli olacağıq. Çünki biz bu ərazini tərk etməyəcəyik. O qədər işğal etdiyiniz torpaqlar sizə azlıq elədi, indi də buranı zəbt etmək üçün bütün qüvvələrinizi səfərbər etmisiniz. Bura bizim sonuncu məkanımız sayılır. Yuxarıda alovlu dağ, böyük göl, sağ tərəfdə hundur izdihamlı dağlar, sol tərəfdə böyük su hövzəsi, aşağı tərəfdə isə soyuq küləklərin təsirindən parça-parça olmuş soyuq qayalar yerləşir. Biz

bütün dünyadan təcrid olunmuş dərin bir dərənin içində məskən salmışıq. Heç kimlə işimiz yoxdur. Yuxarıdakı torpaqları sizə verdik ki, burada rahat yaşayaq. Ançaq siz burada da bizi rahat yaşamağa qoymursunuz. Elə etməyin ki, burdan başlanan azadlıq müharibəsi böyük səhraya kimi qələbə ilə nəticələnsin. Lazım gəlsə, bu işdə ətrafımızdakı ruhlar da bizə kömək edə bilər.

- Bu mümkün deyil. - deyə qoca səyyah qeyri-müəyyən tərzdə dilləndi.

Kaukanın söylədiyi şərti işarələri Rodriges öz daxilində tez götür-qoy edirdi: Yuxarı-şimal, aşağı-cənub, alovlu dağ. - Osorno vulkanı, böyük göl - Lyankiue gölü, soyuq qayalar „qanlı vadi"nin cənub sərhədindən bir qədər aralı yerləşən And dağlarının çılpaq, sıldırım qayaları, böyük su hövzəsi isə Korkovado ilə Anqud körfəzləri idi. Kauka danışdıqca qoca səyyah o dəqiqə bilirdi ki, söhbət indiki Araukaniyanın hansı hissəsindən gedir. Rodrigesin mümkün deyil ifadəsi az qala kasikləri çaşdıracaqdı. Lakin həmin ifadədən sonra Mauna söz almadan qürurla dedi:

- Möhtəşəm dağlar o qədər hündürdür ki, zirvələri az qala göyə çatsın. Hətta göyün üzündə ucan buludlar bu dağların vüqarı qarşısında aciz qalaraq, həmin zirvələrdən qat-qat aşağı enir. Ulu babalarımız söyləyir ki, gəzdiyimiz nəhəng torpağın ən qorxmaz heyvanı kondor qartalı sayılır.

Aşağıdan yuxarıya qədər uzun məsafələrlə kök salmış möhtəşəm dağları fəth edən kondorlardır. Kondorlar mərd və qorxmaz quşlar sayılsa da, həmişə sülh və əminamanlıq şəraitində yaşamağa üstünlük veriblər. Lakin işğalçılar bu nəhəng torpağda peyda olandan sonra onlar zorakılığın şahidi olmamaq üçün möhtəşəm dağların uçu şiş zirvələrində yuva salmağa məcbur olurlar. Təsəvvür edirsiniz, kondorlar insanlar keçə bilmədikləri yerdə, günəşə yaxın bir yerdə öz yuvalarını salırlar. Ulu babalarımız deyirlər ki, bu nəhəng torpaqda saysız-hesabsız hindu tayfaları yaşayır. Yalnız araukanlar xarakter etibarı ilə kondorlara bənzəyir. Hər hansı bir hindu tayfası kondorlar kimi qorxmaz, mərd, ağır şəraitdə çıxış yolu tapmağı bacaran, soyuqda və istidə intensiv surətdə hərəkətdə olmağı, öz gücünü günü-gündən artıran, düşmənə qarşı amansız olmağı bacarandırsa, onda həmin hindu tayfası öz müstəqilliyini və azadlığını ən ağır vəziyyətlərdə qorumağı bacaracaq. Necə ki, kondorlar insanlar üçün əlçatmaz sayılır, eləcə də biz təcavüzkarlar üçün məğlubedilməzik.

- Sən öz fikirində yanılırsan. - qoca səyyah istehza ilə dilləndi. - Buradan xeyli şimalda Peru vitse-krallıqında keçualılar And dağlarında kondorlarla birlikdə yaşayırdılar. Elə İnk imperiyasını da keçualılar yaratmışdılar. Onların kəskin müqavimətinə baxmayaraq biz qısa müddət ərzində

İnk imperiyasını darmadağın etdik. Möhtəşəm dağları fəth edən kondorları isə əlimizdəki azuqə ilə aldadaraq çox asanlıqla ələ keçirirdik.

- Düzdür, bizim tayfanı bir növ kondorlara oxşadırlar. - deyə Mauna qürurla dilləndi. - Ancaq onlardan fərqli olaraq biz aldanmırıq. Ona görə ki, qarşımızda kimin olduğunu çox yaxşı bilirik. Bizi aldatmaq mümkün olmayacaq. Ruhlar bizi ayıq olmağa çağırır.

- Bir çox müharibələrin canlı şahidi olan yaşlı nəslin söylədikləri bu olub ki, dəniz vasitəsilə bura gələn təcavüzkarlar bir çox hindu tayfalarını axırıncı nümayəndəsinə kimi qılıncdan keçirərək yer üzündən siliblər. - deyə Kauka diqqətlə dilləndi. - Biz heç vaxt onların yalan vədlərinə aldana bilmərik.

- Heç kim sizi aldatmağa çalışmır. - deyə notarius öyüdlə dilləndi. - Öz tayfanızın rifahı naminə siz bizim qanunları qəbul etməlisiniz. Kral II Filipp sizin qarantınız olacaq və araukanların hamısını bütün bəlalardan xilas edəcək.

- Başqa torpağa göz dikən işğalçı heç vaxt həmin torpaqda yaşayan adamı müdafiə etməyəcək. - deyə Tau aludəliklə dilləndi. - Əksinə onlar yerli əhalinin başına olmazın müsibətlər acaçaq. Bunu hamı çox yaxşı dərk edir.

- Mən bir kral notariusu kimi bəyan edirəm ki, İspaniyanın əyalətlərində məskunlaşan hər bir adamı kimliyindən asılı olmayaraq müdafiə etməyə hazırıq.

- Biz bura başqa yerdən gəlib məskunlaşmamışıq. - deyə Mauna hüznlə öz etirazını bildirdi. - Bu torpaqlar əzəldən araukanların olub, araukanların da qalacaq. Bizim babalarımız, babalarımızın babaları bu torpaqların sahibləri olublar. Bu torpaqların əbədi varisi ruhlardır.

- Açı da olsa, hamınız reallıqla barışmalısınız. - deyə notarius kasikləri borclu çıxartdı. - İndi bu torpaqlar bizim krallığın mülki sayılır və heç kim sizi bu torpaqdan qovmur. Hamınız tam arxayınlıqla bu torpaqda yaşaya bilərsiniz.

Notariusun çəkinmədən, burdakı mühiti nəzərə almadan, pafosla söylədiyi sözlər, onsuz da əsəbləri tarıma çəkilmiş kasikləri vəcdə gətirdi. Mauna yumruqlarını sıxaraq qəzəb dolu gözlərini notariusun üzərinə yonəltdi, ancaq hirsdən dili söz tutmadı. Guya heç bir şey olmamış kimi notarius boynundakı ağ jabanı çırpmağa başladı. Onun bu hərəkəti qoca səyyahı da qıcıqlandırdı. Ümumiyyətlə, notarius özünü elə aparırdı ki, guya o, düşmən düşərgəsində yox, hansısa yaxın dostunun və ya həmyerlisinin evində oturub diskussiya aparır. O, buradakı vəziyyətin nə dərəcədə gərgin olduğunu dərk etmirdi və kasiklərə soyuq münasibət

bəsləyirdi. Manuel Alvares başa düşmürdü ki, buradakı kasiklərlə elə tərzdə söhbət aparılmalıdır ki, danışıqlar ispanların xeyrinə sülh əldə edilsin. Araukaniyada gedən müharibəni yalnız burada əyləşən kasiklər dayandıra bilər. O, isə qıcıqlandırıcı və tikanlı sözləri ilə kasikləri daha da hiddətə gətirirdi. Koronun hərəktlərindən o dəqiqə müəyyən etmək olar ki, o, özünü gücbəla ilə saxlayır. Onun nəyə qadir olduğunu notariusdan başqa hamı dərk edirdi. Bir sözlə, notarius özünün kəskin çıxışları ilə buradakı danışıqların üzərindən xətt çəkə bilərdi.

- Sonuncu daha bildirirəm ki, bu torpaqlar araukanlarındır. - Tau daxilində yaranan hirsi birtəhər boğaraq ikrah hissi ilə dilləndi. - Heç kim bizə göstəriş verə bilməz ki, buarda yaşayaq, yoxsa başqa yerdə. Biz bu torpaqda anadan olub, yaşadığımız üçün, bu torpağın həqiqi varisləri sayılırıq. Heç kim bizi bu torpaqdan qova bilməz. Qovmağa çalışan isə özü burada məhv ediləcək.

- İspanların məqsəd və məramı bizə bəllidir. - deyə Mauna dilləndi. - Onlar hər vasitə ilə bizim torpağı zəbt etmək istəyirlər. Sadəcə olaraq təcavüzkarlar bizim mərd və qorxmaz döyüşçülərimizin kəskin müqaviməti ilə üzləşərək, öz istədiklərini həyata keçirə bilmirlər. Çünki biz kondorların nəslindən olan möhtəşəm dağların sakinləriyik.

Dağda böyüyüb başa çatmış adamları isə indiyə qədər heç kim məğlub edə bilməyib.

- Mən gözlərimi açandan elə Araukaniyada müharibənin getdiyini görumüşəm. - deyə Koro da kasiklərin icazəsi ilə söz aldı. - Bizdən başqa heç kim dəqiq bilmir, həmin müharibə hacan başa çatacaq. Nə qədər döyüş baş veribsə, əksəriyyətində biz qalib gəlmişik. Təcavüzkarlar o qədər qırılıblar ki, Araukaniya başdan-başa onların qəbristanlığına çevrilibdir. Təcavüzkarların növbəti dəstəsi də burada darmadağın ediləcək. Heç kim müharibə başa çatmayınca sağ-salamat Araukaniyanı tərk etməyəcək. Bu işdə ruhlar bizə kömək olacaq.

- Sən elə danışdın ki, guya müharibənin başa çatmasından halisən? - deyə qoca səyyah maraqlandı.

- Təcavüzkarlar buranı tərk edəndən sonra müharibə başa çatacaq. - Koro qətiyyətlə dilləndi. - İkinci variant isə sonuncu təcavüzkar öldürüləndən sonra müharibə qalibiyyətlə bizim xeyrimizə başa çatacaq. Bu işdə ruhlar bizə böyük köməklik göstərəcək.

- Bu axı, mümkün deyil, - deyə Rodriges onunla razılaşmadı. - hərbi vəziyyəti nəzərə alanda bütün üstünlüklər bizim tərəfdədir. Tam qələbə əldə etmək üçün sayca az qalmış hinduları qırmaq lazımdır. Biz isə artıq qan axıtmaq istəmirik. Həqiqətən də bizim səxavətli sərkərdəmiz Arau-

kaniyada sülh və əminamanlıq yaratmaq üçün bizi sizin yanınıza göndərib. İspaniya krallığı Araukaniyada yeni sivilizasiya yaratmaq istəyir.

- Hansı sivilizasiyadan dəm vurursan. - deyə Tau dilləndi. - Siz hara ayaq basırsınızsa, ora xarabalığa çevrilir. Sülh və əminamanlıq yaratmaq istəyən, bunu elə yuxarı ərazilərdə də edərdi. Sadəcə olaraq təcavüzkarların vəhşi və qəddar əməlləri buna imkan vermir. İş elə gətirir ki, isti ölkələrdə yaşayan tutuquşular sizin törətdiyiniz vəhşiliklərə tab gətirə bilməyib, bizim soyuq ölkədə özlərinə sığınacaq tapıblar.

- Biz təcavüzkarlara heç vaxt inana bilmərik. - deyə Kauka əlavə etdi. - Sizlərdən qan iyi gəlir.

- Yırtıcı heyvanlarla yaşamaq olar, sizin kimilərlə yox. - Mauna ispanlara söz vermədən tez dilləndi. - Tarix boyu biz sülh şəraitində yaşamışıq. Lakin siz bizim torpağa ayaq basandan bizim əlimizdən silah yerə düşmür. Bizim başımıza gətirdiyiniz müsibətləri heç kim gətirməyib. Təcavüzkarların hamısı bizim gözümüzün qarşısında düşməndir. Araukanlar isə heç vaxt düşmənlərinə, törətdikləri vəhşiliklərə görə aman verməyib və həmişə də onları quldur adamlar kimi məhv edib. Biz həmişə qisasçılıq prinsipi ilə yaşamışıq. Ətrafımızda olan ruhlar həmişə bizim fəaliyyətimizi nəzarət altında saxlayırlar. İşdir, biz təcavüzkarların

vəhşiliklərinə göz yumsağ, onda ruhlar bizi əbədi lənətləyəcəklər. Nə qədər ki, siz burdasınız, araukanlar heç vaxt silahlarını yerə qoymayacaqlar. Biz öz müstəqilliyimizi və azadlığımızı son damla qana qədər müdafiə edəcəyik. Ruhlarımızın köməyi ilə Araukaniya təcavüzdən xilas olacaq.

- Sizin hamınız burada məhv ediləcəksiniz. - deyə Koro əlini ispanlara tərəf uzadaraq hüznlə dilləndi. - Öldürülən araukanların heç birisinin qanı yerdə qalmayacaq. Bu torpaq sizin üçün çəhənnəmə çevriləcək.

- Başa düşün ki, bu müharibəni davam etdirmək sizin üçün mənasızdır. - deyə qoca səyyah ürək yanğısı ilə dilləndi. - Artıq siz bu müharibəni uduzmusunuz. İspan əsgərini məhv etmək qeyri-mümkündur. Bizim əsgərlər məğlubedilməzdir.

- Təcavüzkarların məğlubedilməzliyi göz qabağındadır. - Mauna dilləndi. - Deyəsən, Araukaniyada gedən müharibədə verdiyimiz itkidən xəbərsizsən. Bizim ölkənin hər bir yerində sizin məğlubedilməz əsgərlərin qəbri var. Həmin qəbirlərin sayı hələ bundan sonra da artacaq. Siz əsl məğlubiyyətin nə olduğunu Araukaniyada görəcəksiniz. Qələbə bizimlədir.

- Qələbə heç vaxt sizin ola bilməz. - deyə qoca səyyah inadkarlıqla dilləndi. - Bizim gücümüz və sayımız sizdən

qat-qat çoxdur. Müharibə davam etdirilsə, istər-istəməz sizin tam məğlubiyyətiniz ilə başa çatacaq.

- Təcavüzkarlardan olsaydı, onlar çoxdan bu müharibəni qələbə ilə başa çatdırardılar. - deyə Mauna rişxəndlə dilləndi. - Sadəcə olaraq, bu istək onların arzusundan çox-çox uzaqlardadır. Etiraf etməliyəm ki, hazırda hərbi üstünlük sizin tərəfdədir. Lakin bu üstünlük müvəqqəti xarakter daşıyır. Biz mapuçeyik, heç vaxt bu torpağı sizin ixtiyarınıza verməyəcəyik. Bu torpaqda olan hər bir daş, qaya, ağac, budaq, çay, kol, uçurum və gül-çiçək bizim üçün əzizdir. Siz Araukaniyaya ayaq basandan həmin gözəlliklər qana boyanıb. Vaxtı ilə çiçəklənən Araukaniya hazırda böyuk bir qəbristanlığı xatırladır. Biz uşaqlarımızın xoş gələcəyi üçün, azad həyat tərzi xoşlayan əhali üçün və umumiyyətlə araukan tayfasının nicatı və rifahı üçün təcavüzkarlara qarşı axırıncı nəfəsə kimi döyüşməliyik.

- Ya ölüm, ya da azadlıq! - deyə Tau ehtirasla qışqırdı. - Budur, hər bir məğrur hindu tayfasının şüarı. Bu müharibədə araukanlar, odlu dağdan, böyük göldən, möhtəşəm dağlardan, sıldırım qayalardan, keçilməz meşələrdən, böyük su hövzəsindəki quru torpaqlardan alınmaz istehkamlar kimi istifadə edərək, misilsiz qəhrəmanlıqlar göstərəcəklər. Ruhlar özləri bizə deyirlər ki, təcavüzkarlar bu torpaqda məhv edilməsələr, onda araukanların hamısı

əzab-əziyyət içərisində, işgəncələrə məruz qala-qala məhv ediləcəklər.

Artıq başa düşmək olar ki, hindu kasiklər kəskin çıxışlar etməklə, özlərinin qəti fikirlərini bildirirlər. Onlar ümumiyyətlə, ispanların təklif etdikləri sülh haqqında fikirləşmirlər. Sayca az qalmalarına baxmayaraq onlar sonuncu nəfəsə qədər mübarizəni davam etdirməyi qərara almışdılar. Araukanların kəskin müqaviməti, inadkarlığı, barışmazlığı, xüsusi inamla döyüşkənliyi konkistadorların qələbəsinə xeyli əngəl törədə bilərdi. Bir neçə müharibələrin iştirakçısı olan Rodriges Kartahena artıq burdakı aborigenlərin xasiyyətinə və döyüş qabiliyyətinə çox yaxşı bələd idi. Onlar heç vaxt aldıqları məğlubiyyət ilə barışmır və düşmənlərinə qarşı kəskin mövqedə dururlar. Nə qədər itki versələr də, bu araukanları çüzi də olsun sarsıtmırdı. Əksinə onların mübarizə əzmini daha da qaldırırdı. Konkistadorların hərbi cəhətdən nə qədər qüvvətli olmasına baxmayaraq, araukanlar gələcəkdə, bu müharibədə itirdikləri əraziləri geri qaytarmaq fikrində idilər.

- Araukanların səadət və xoşbəxtliyi siz kasiklərin əlindədir. - deyə qoca səyyah təəssüflə dilləndi. - Sizin qarşınızda dayananlar Avropanın ən qabaqcıl ordusunun əsgərləridir. Quru döyüşdə bizim əsgərlər bütün ağır döyüş meydanlarının qalibi sayılır. Onların qabağında heç bir

ordu tab gətirə bilmir. Biz qəddar və amansız olsaydıq, döyüş meydanlarında qalan yaralı araukanların hamısını törətdikləri cinayətlərə görə qılıncdan keçirdərdik.

- Öz torpağını işğaldan, təcavüzdən, qarətdən qorumaq və öz xalqını ölümdən, bəladan xilas etmək nə vaxtdan cinayət sayılır? - deyə Mauna əvvəlki kimi hiddətləndi. - Cinayəti törədən „qanlı vadi"də dayanan əli silahlı təcavüzkarlardır. Həmin təcavüzkarlar ki, yuxarıdan Araukaniyaya gələnə qədər qarşılarına çıxan bütün hindu tayfalarını qıra-qıra onların hamısını kölə vəziyyətinə salıblar. Bizdən başqa bütün qonşu tayfalar öz müstəqilliklərini və azadlıqlarını itiriblər.

- Araukaniya bizim üçün cənnətdir, təcavüzkarlar üçün isə cəhənnəm olacaq. - deyə Tau emosional tərzdə dilləndi. - Müharibənin davam etdirilməsi bizim üçün nə qədər ağır olsa da, təcavüzkarların hamısı xüsusi işkəncələrlə məhv ediləcək. Onların həm dirisi, həm də ölüsü ağır işgəncələrə məruz qalacaq. Biz onlara elə bir toy tutmalıyıq ki, təcavüzkarlar birdəfəlik Araukaniyaya gələn yolu yaddan çıxartsınlar. - O, üzünü notariusa tərəf tutub həmin tərzdə sözunə əlavə etdi. - Yadda saxla ki, axırıncı döyüşlərdə biz məğlub olsaq da, bizim azadlıq uğrunda apardıqımız müharibə geniş ərazidə yayılacaq. Odlu dağdan o tərəfdə məskən salan təcavüzkarların hamısı bir nəfərə kimi məhv

ediləcək. Bütün araukanlara göstəriş verilib ki, döyüş zamanı əlimizə keçən hər bir düşmən əsgəri elə yerindəcə işgəncələrlə oldürülməlidir. Deyirsən ki, ispan əsgəri məğlubedilməzdir? İndi çölə çıxarsan və İspaniyanın qüdrətli ordusunun məğlubedilməz əsgərlərinin simalarına nəzər salarsan. Onları həmin görkəmdə bizim məmləkətin bütün kəndlərində görə bilərsən. Elə bir aqibət sizin hamınızı gözləyir.

Bundan sonra Koro həmin kasikin göstərişi ilə ispan nümayəndələrini çölə çıxartdı. Onlar hamısı yol ilə təxminən 70 metr yuxarı qalxaraq, kəndin arxasına gedən yolun üstündə, iki evin arasında yerə basdırılmış dirəklərin tuşunda ayaq saxladılar. Buradakı yolun ağzında on dörd dənə dirək basdırılmışdı, yeddisi yolun bu tərəfində, o qədər də o biri tərəfində. Dirəklərin beşinə ispan əsgərləri bağlanmışdı.

VII fəsil. Aldanan konkistadorların hücuma məruz qalmaları

Bütün hərəkətləri ilə danışığa gələn nümayəndələri nəzarətdən çıxarmaq istəyən araukanlar, burada qurduqları dəhşətli səhnəni nümayiş etdirməklə, demək olar ki, müəyyən mənada öz istədiklərinə nail olmuşdular. İspanlar dirəklərə bağlanan cansız konkistadorları görəndə vəcdə gəldilər. Rodriges qoca olsa da, meyidləri diqqətlə nəzərdən keçirəndən sonra onlardan üçünü tanıya bildi leytenant Vasko, Rodriges Riveyro və Migelin uşaqlıq dostu cəngavər Sebastyan idi. Meyidlərin hamısı iplərlə dirəyə bağlanmış və sinələrinə nizə sançılmışdı. Hamıdan pis Rodrigesin meyidi görünürdü. Onun bütün dərisi demək olar ki, soyulmuşdu. Qarnı sinəsinə kimi yırtılmış, gözləri isə çıxarılmışdı. Xuan Flores çox yaxşı bilirdi ki, Koro onu ox ilə vurandan sonra meyidi atının arxasına bağlayıb istehkam ətrafında yerdə amansızcasına sürümüşdü. Ona görə də meyid bu kökə düşmüşdü. Sebastyanın da meyidi pis vəziyyətdə idi. Onun başı bir neçə yerdən yarılmış, gözləri çıxarılmış, sinəsi üç yerdən deşilmiş, qarnı çırılmış, hər iki qolları dirsəyindən sındırılmış, ayaqları isə kəsik-kəsik idi. Sebastyan düşmənə çox xəsarət yetirdiyindən onu bu kökə salmışdılar.

İnsan ürəyi daş olmalı idi ki, gərək sakitcə, bu dəhşətli səhnəyə baxıb tab gətirsin. Dəhşətdən Xuanın ürəyi çırpınmağa başladı. Notarius isə tab gətirməyib üzünü əks tərəfə çevirdi. Lakin onun bu hərəkətindən qəzəblənən Koro qüvvətli əlləri ilə notariusun saçından tutub onu meyidlərə baxmağa məcbur etdi və eyni vaxtda da bütün nümayəndalərin üstünə qışqırdı:

- Hamınız baxın və ibrət dərsi alın. Bizim torpaqda gözü olanın, millətimizin qanını axıdanın aqibəti belə olacaq. İmkanım olsaydı, sizin hamınızı bu kökə salardım.

Ətrafa toplaşan araukanların hamısı öz dillərində qışqırmağa başladılar ki, onları da edam etsinlər. Əlbəttə, həmin sözləri Xuandan başqa heç kim başa düşə bilməzdi və yalnız o, araukanların nə istədiklərini anlayırdı. Lakin elə bu vaxt Kauka silahdaşının əllərindən tutub bu hərəkətə ehtiyac olmadığını bildirdi və öz dilində dedi ki, „bir elçi kimi onların həyatına heç kim qəsd edə bilməz. Biz onlar kimi vəhşi deyilik ki, qarşımıza çıxan hər bir adamı məhv edək. İndi isə onların hamısını düzənliyə ötür. Saat yarımdan sonra günəş başımızın üstündə duracaq".

Kim də sussa, Rodrigesin ekspedisiya rəisinin müşaviri kimi susmağa ixtiyarı yox idi. Onsuz da o, öz sözünü deməklə heç bir şey itirmirdi. İnadkar qocanın 91 yaşı vardı. O, üzünü kasiklərə tərəf tutub hüznlə dedi:

- Bu torpaqda müharibə getməsinə baxmayaraq, belə bir hərəkət, belə bir qəddarlıq heç kimə başucalığı gətirmir. Hər bir döyüşçü öz rəqibinə qarşı şərəflə yanaşmalıdır. Biz öz rəqiblərimizin meyidlərinə qarşı nəinki zorakılıq tətbiq edirik, hətta elə olur ki, onları yerə də basdırırıq. Siz döyüşən bir tayfa kimi onların hamısını basdırmalısınız. Onların hamısı öz kralının göstərişini yerinə yetirərək, qeyri-bərabər döyüşdə qəhrəmancasına həlak olublar.

- Bu haqda krala xəbər verilsə, o, daha da qəzəblənərək, sizi yer üzündən silmək üçün bura izdihamlı bir qoşun göndərəcək. - notarius dilləndi.

- Nə qədər qəzəblənməmişiksə, buranı tərk edin. - Mauna dilləndi. - Yoxsa, buradakı adamlar sizin üçünüzü də parça-parça edib öldürəcəklər.

Bundan sonra hindular ispanların gözlərini bağlayıb onları Koronun müşaiyəti ilə kənddən çıxartdılar. Əvvəl olduğu kimi qoca səyyah üçün palankin təşkil etmədilər. Koro bunu yolun aşağıya enməsi ilə izah etdi. Yolda bir qəza baş verməsin deyə, ispan nümayəndələrini iyirmi nəfər hindu mühafizə edirdi. Elə dağın arxasına keçib bir qədər aşağı enəndən sonra düzənliyə təxminən 800-900 metr çatmamış, Koro onların gözlərini açdırdı. Bundan sonra elçilər özləri sərbəst halda həmin yolu davam etdirməliydilər. Onun bu qərarı ispanlar üçün çox gözlənil-

məz idi. Axı, onlar istər-istəməz, yarımçıq qalmış yolu yadda saxlaya bilərdilər. Görünür, Koro nə isə hiylə işlətmək istəyirdi.

Elçilərin getdikləri yol dağın ətəyi ilə burularaq ziqzaq şəklində aşağı enirdi. Xuan Flores bir kəşfiyyatçı kimi qabağa düşmüşdü. Çox zaman o, qoca səyyahın qoluna girərək getməkdə ona öz köməkliyini göstərirdi. Yol bəzi yerlərdə enniləşir, bəzi yerlərdə isə daralırdı. Dar yerlərdə hündür ağacların uzun budaqları yolun üstünü örtərək, yolda gedənləri günəşin şüalarından qoruyurdu. Elə yerlər də olurdu ki, yol hündür uçurumun yanından keçirdi. Bir az getmişdilər ki, qabaqda onların burnuna üfunət iyi dəyməyə başladı. Yaxınlıqda hansısa meyidin aqaca bağlandığını güman etmək çətin deyildi. Həqiqətən də elə idi. Sir-sifəti dağılmış ispan əsgərinin meyidi pis vəziyyətdə ağaca bağlanmışdı. Onun qarnı yırtılmış, bağırsağları isə ayağının altına tökülmüşdü. Bəli, araukanlar öz vəhşiliklərini hər yerdə nümayiş etdirməyə çalışırdılar. Onlar bu hərəkətləri ilə ispanların gözündə qorxu hissi yaratmaq istəyirdilər. Ançaq bu cür dəhşətli səhnələrin şahidi olan məğrur ispanların daxilində intiqam hissi və düşmənə qarşı olan nifrətin daha da artmasının yaranmasına gətirib çıxarırdı. Elçilər yollarını davam etdirə-etdirə təxminən hər 50 metrdən bir cəza ağacı ilə rastlaşırdılar. Lakin vaxt məhdud

olduğundan onlar edam edilmiş silahdaşlarını cəza ağaclarından ayırmağa imkan tapmırdılar. Həm də Koro onlara, yolda gedən zaman nəinki silavdaşlarını ağaclardan ayırmaq, hətta istirahət etməyə də qadağan etmişdir. Əks təqdirdə onları keşikdə duran hindular fiziki cəhətdən məhv edə bilərdilər. Koronun dediyindən belə çıxırdı ki, yol boyu onları ağacların arasında gizlənmiş hindular müşaiyət edəcəklər.

Bu zaman kapitan Xuan Odovaldo 6 nəfər silahdaşı ilə düzənlikdəki daxmaya gəlib çıxmışdı. Kapitan özü at belində, silahdaşları isə təkatlı arabada gəlmişdilər. Bu missiya təhlükəli olduğuna görə polkovnik Alonso qardaşının başçılıq etdiyi dəstəyə kapitan Leonu, leytenant Ernandonu, Migeli, köhnə konkistadorlar Karlos Murilyonu, Rodriges Karlosu və Bortolomeu Torresi qoşmuşdur. Neçə olsa da, bu dəstə düşmənin əhatəsinə daxil olmuş və hər an hindularla toqquşa bilərdi. Lakin kapitan Xuan düşmən əhatəsinə daxil olmasına baxmayaraq, özünü çox arxayın aparırdı. Çünki o, əmin idi ki, düşmən 60-70 nəfərlik bir qüvvə ilə hücuma keçsə, buradakı konkistadorlar onlara layiqli cavab verəcəklər. Bura gələnlərin hamısı Migeldən başqa kirasa geymişdilər və soyuq silahdan əlavə odlu silah da götürmüşdülər. Cavan zadəgan əlindəki kamanı hazırlıqlı vəziyyətdə tutmuşdu. Heç kim öz ehtiyatını itirməməliy-

di. Çünki araukanlar ağacların arxasında gizlənərək, ispanların üzərinə gözlənilməz həmlə endirə bilərdilər. Onların hamısı daxmanın ağzında mövqe tutdular. Daxma özü enli ağacların dirəklərindən tikilmiş və bir iri otaqdan ibarət idi. Qapı olan divardan başqa, qalan üç divarın hər birində dördkünc şəkilli balaca pəncərə vardı. Görünür bu ev müdafiə olunmaq üçün istehkam formasında tikilmişdi. Daxmanın öz qapısı qalın və möhkəm idi. Migel ilə atası daxmanın arxasında yerdə oturaraq, meşəyə daxil olan yolu nəzarət altında saxlamağa başladılar.

Araukanlara yaxşı bələd olmayanlar üçün burada başlanan müharibə artıq başa çatmaq kimi başa düşülürdü. Bir çoxları gələcəkdə hansı işlə məşğul olacaqlarını planlaşdırırdılar. Elə bu haqda da Migel atası ilə müzakirə aparırdı. Atasının hansı ekspedisiyalarda iştirak etdiyi ilə maraqlanırdı. Kapitan Leon son illərdəki fəaliyyətini mifik ölkə sayılan Eldoradonun axtarılmasına yönəltmişdi. Onun üçün ən ağır ekspedisiya Qonsalo Ximenes Kesadanın Eldoradoya təşkil etdiyi sonuncu ekspedisiya (1569-1572) sayılırdı. O, vaxtı 70 yaşlı Kesada 300 ispanla və 1500 nəfər hindu yükdaşıyanlarla Orinoko çayının yuxarısına yollanır. Yürüş zamanı hinduların hamısı ölür və hara gəldi qaçırlar, ispanların da əksəriyyəti yolda olür. Kesada Eldoradonu tapmadan geri qayıdır. Sonra Leon tədqiqat

işlərində böyük təcrübəsi olan bir müqəxəssis kimi başqa ekspedisiyalara dəvət olunur. Lakin o, Antonio Berrio-i-Orunyanın ekspedisiyasında iştirak etməyə öz razılıqını verir.

1584-cü ilin yanvarın 3-də Antonio Berrio 64 yaşında 80 nəfərlik dəstə ilə özünün birinci ekspedisiyasına yollanır. O, Boqotadan şərq istiqamətə, Orinoko çayının sol qolları sayılan Meta və Tomo çayları arasından Qviananın dağlarına yollanır. 1000 km. uzunluğunda olan ağır yolda ekspedisiya bir çox çətinliklərlə üzləşir. Orinokonun yaxınlığında onları uzun sürən yağışlar dayandırır. Həmin müddət ərzində Berrio yerli hindulardan, Orinoko çayından şərqdə yerləşən dağlarda çoxlu sayda qızıl və qiymətli qaş-daşları olan çoxsaylı sivilizasiyalı xalq və Manoa adlı iri duzlu göl haqqında, məlumat toplayır. Yağışlar dayanır, ancaq ispanların böyük əksəriyyəti malyariya xəstəliyinə tutulur. O vaxtı Berrio 13 sağlam ispan ilə (həmin vaxt Leon xəstə olur) yaxın ərazini tədqiq edir və heç bir keçid tapmadan düşərgəyə qayıdır. Ondan sonra adam çatışmadığına görə o, Mete çayı və onun Kasanare çayı boyunca Şərqi Kordilyerə qalxır və 1585-ci ilin aprelində Boştaya qayıdır. Leon 2-ci ekspedisiyada da (1587-ci ilin mart - 1589-cu ilin mart ayı) iştirak edir. Həmin ekspedisiya da müvəffəqiyyətsizliklə nəticələnir. Leon 3-cü ekspedisiyaya da dəvət alır, lakin

dəstəyə kecikir. Kitoda gözləyərkən o, elə bilir, Berrionun tərəfdarı və 3-cü ekspedisiyanın iştirakçısı, Q. Kesadanın keçmiş tərəfdarı portuqaliyalı Antoniu Jorji ehtiyat qüvvəsi toplamaq üçün Kitu krallığına gələcək. Son nəticədə isə Migel atasının ardınca Kitoya gəlir və başqa ekspedisiyada iştirak etməyi təklif edir.

Üç gündə Leon həyatı boyu hansı ekspedisiyalarda iştirak etdiyini oğluna ərz etmişdi. Hazırda o, Migelin gələcəkdə hansı iş ilə məşğul olacağını öyrənmək istəyirdi. Migel də babasının arzusunu ona söylədi. Təəssüf içində olan Leon ona dedi:

- Migel, sən öz üstünlüklərinlə gələcəkdə hər bir şeyə malik ola bilərsən. Sənin böyük gələcəyin var. Sən bizim İspaniyaya elə xidmət etməlisən ki, adın tarixə düşsün. Düşmənlə döyüşmək ən xeyirxah iş və vətənpərvər addım sayılır. Lakin tarixə düşmək üçün sənin böyük şansın var. Admiral Alvaro Mendanya de Neyra gələcəkdə, Sakit okeanın cənub ərazisini tədqiq etmək üçün növbəti ekspedisiya hazırlayır. Sən həm bizim təqdimatla, həm polkovnik Alonsonun təkidi ilə, həm də dənizçilik sahəsində özünün böyük təcrübəyə malik olmağın sayəsinə həmin ekspedisiyada mühüm vəzifələrin birinə yiyələnə bilərsən. Mən heç də sənə pis təklif vermək fikrində deyiləm. Həmin ekspedisiya müvəffəqiyyət əldə etsə, onda sən özün ad-san sahibi

olarsan. Coğrafi kəşfdə iştirak et, ondan sonra Karib dənizi akvatoriyasına yollanarsan. Lakin onu da sənə bildirməliyəm ki, korsarlara qarşı gedən müharibəyə qurşansan, ömrünün sonuna qədər Karib dənizi sahillərində qalmalı olacaqsan. Ona görə ki, orda başlanan müharibənin başa çatmasına heç bir ümid yoxdur.

- Nəyə görə sən elə fikirləşirsən? - deyə Migel maraqlandı.

- Bunun səbəbi çoxdur. - deyə Leon azacıq tərəddüddən sonra dilləndi. - Bizim kralımız II Filipp hansı dövlətlə düşmənçilik edirsə, həmin dövlətlərin baş kəsənləri asan qazanc əldə etmək üçün Yeni Dünya sahillərinə üz tutur və bizim krallığın bayrağı altında üzən gəmilərə, növünə fərq qoymadan hücum edərək ələ keçirirlər. İşin mürəkkəbliyi ondadır ki, bizim müstəmləkələrin sahillərində üzən və fəaliyyət göstərən dəniz quldurlarının bir çoxları öz monarxları tərəfindən dəstək alırlar.

- 1558-ci ildə La-Manşda "Məğlubedilməz armada"nın məhv olmasına baxmayaraq, bizim krallığın hələ də güclü hərbi donanması var. II Filipp həmin donanmanın bir qismini dəniz quldurlarının darmadağın edilməsi üçün səfərbər etsə, onda qısa müddət ərzində Yeni Dünya sahilləri piratlardan təmizlənə bilər.

- Migel, bircə şeyi yadda saxla ki, nə qədər İspaniya müstəmləkə dövləti sayılırsa, biz o qədər piratların təcavüzündən yaxa qurtara bilməyəcəyik. Bu aksiomadır.

- Araukaniyada müharibə başa çatandan sonra Alonso Odovaldo piratlara mübarizə aparmaq üçün Karib dənizi akvatoriyasına yollanacaq. O, isə qələbəni necə əldə etməyi bacaran sərkərdədir.

- Alonsonun peşəsi hərb sənətinə bağlıdır. İspaniyanın tanınmış sərkərdəsi kimi o, ömrünün sonuna kimi bilavasitə krallığın düşmənlərinə qarşı mübarizə aparmalıdır.

- Bu işdə hər bir vətənpərvər adam, peşəkar döyüşçü ona yardım eləməlidir. Hər bir ispan idalqosu krallığımızın düşmənlərinə qarşı amansız mübarizə aparmalıdır.

- Quruda döyüş aparmaq, dənizdə döyüş aparmaqdan xeyli fərqlənir. Onların taktikalarında çüzi də olsun, biri-birilərində oxşarlıq yoxdur. Quruda asanlıqla qalib gəlməyi bacaran, dənizdə həmin müvəffəqiyyəti əldə edə bilməz.

- Dahi Roma sərkərdəsi Qney Pompey quru döyüşlərinin böyük triumfatoru sayılırdı. E.ə. 67-ci ildə tribun Azl Qabininin təklifi ilə Qney Pompeyə, İtaliyanın və Siçiliyanın limanlarına basqın edən piratlara qarşı mübarizə üçün, fövqəladə hüquq ilə komandanlıq tapşırıldı. O vaxtı ona 500 gəmi, 120 min əsgər və 6000 talant pul verildi. Pompey bütün Aralıq dənizində hakimiyyət səlahiyyəti aldı. O, qəti

tədbirlər görərək Aralıq dənizini 30 hərbi nəzarət dairəsinə böldü. Tezliklə piratlar Kilikiya ərazisinə sıxışdırıldılar. Təsəvvür edirsən, Pompey üç ay ərzində o irilikdə dənizi piratlardan təmizlədi.

- Birincisi, Alonso Pompey deyil ki, onun səviyyəsində hərb sənətinə yiyələnsin. Pompey kimi dahilər 100 ildən, 200 ildən bir doğulur. İkincisi, indiki zamanda heç bir sərkərdəyə piratlarla mübarizə aparmaq üçün o qədər gəmi və canlı qüvvə verilməz. O qədər qüvvə ilə hər bir sərkərdə gözüyumulu düşmənlərini məhv edə bilər.

- Görürəm, səndə Alonsonun bacarığına qarşı böyük şübhə var. Araukaniyada aborigenlərə qarşı 45 ildir ki, müharibə gedir və bu müddətə qədər onları tam məğlub edə bilmirdilər. Alonso heç on gün deyil ki, Araukaniyaya ayaq basıb, artıq düşmən tam məğlubiyyətə uğramaq üzrədir. İstər danışıqlar yolu ilə, istərsə də hərb yolu ilə İspaniya krallığının zəfər bayrağı Araukaniyanın mərkəzi hissəsinə sancılacaq. Polkovnik Alonso İspaniya üçün növbəti qələbə bəxş edir.

Ata ilə oğulun başı söhbətə elə qarışmışdı ki, sanki onlar öz aləmlərinə qapanmışdılar. Həmin ərəfədə düşmən ərazisində olduqları avtomatik olaraq yaddan çıxmışdır. Qarşıda qəribə hadisə baş verməsəydi, onlar hələ də aralarında gedən müzakirəni davam etdirəcəkdilər. Kapitan

Xuan ilə Rodriges qarşıdakı yolda dayanıb ətrafdakı ağaclara təəccüblü nəzər salırdılar. Onların qəribə hərəkətləri Migelgilin fikrini özlərinə cəlb etməyə bilməzdi. Onlar Xuangilin yanına gedib, orada nə baş verdiyini soruşdular. Xuan da nəzərlərini yolun sağ tərəfindəki ağaclardan çəkməyərək müəmmalı tərzdə dedi:

- Fikir verin, buralardan üfunət iyi gəlir. Elə bil, buralarda iyimiş insan cəsədi var.

Artıq indi-indi Migelgil də ağacların arasından gələn üfunət iyini hiss etməyə başladılar. Həmin iy sağa burulan yolun kənarından gəlirdi. Onlar ehtiyatla təxminən 10 metr qabağa getdilər və dönəcəyin ağzında bitən iki enli ağacın arasında ayaq saxladılar. Yolun hər iki tərəfində üzbəüz bitən ağaclardan iki meyid, başı aşağı asılmışdı. Hər iki meyid pis kökə salınmışdı. Bütün bədənləri deşik-deşik, əlayaqları isə kəsik-kəsik edilmişdi. Sifətləri lap əcaib kökə salınmışdı. Görünür, həmin adamları sonra balta ilə dalbadal sifətlərinə zərbə endirərək, tanınmaz hala salmışdılar. Qurbanlar demək olar ki, lüt şəkildə idilər. Saçlarının quruluşundan onları ispan milliyətindən olduğunu ayırd etmək çətin deyildi. Bura toplaşan ispanların hamısı dəhşətə gəldi. Həddindən artıq şok effekti yaşayan Xuan qəzəbindən bilmirdi nə etsin. Ondan olsaydı, təkbaşına qisas almaq üçün hindu kəndinə tərəf gedərdi. O, başını aşağı salaraq,

silahdaşlarına göstəriş verdi ki, dərhal öldürülənləri kəndirdən azad edib arabaya aparsınlar. Ondan sonra elə oradaca and içdi ki, danışıqlar başa çatandan sonra bu vəhşiliklərə görə hər bir araukan sərt üsullarla məhv ediləcək. Ən əsas, Xuan bu işdə Koronu günahlandırdı.

Edam edilənlər arabaya qoyulandan sonra vəcdə gələn konkistadorların araukanlara qarşı olan nifrətləri daha da artdı. İndi onlar elə bir vəziyyətdə idilər ki, qarşılarına hansı hindu çıxsa, onlar həmin adamı diri-diri parça-parça edəcəkdilər. Lakin elə Həmin an onlar meşənin girəcəyindəki yolun üstündə danışıqlara gedən elçiləri gördülər. Xuan Floresdən başqa hər iki yaşlı elçi həddindən artıq bərk yorulmuşdular. Elçilər arabadakı meyidləri görəndə o qədər də təəccüblənmədilər. Çünki onlar bura gələn zaman yolda on bir meyidin asıldığını yoldaşlarına bildirdilər.

Qoca Rodriges bir müşavir kimi kapitan Xuana danışıqların uğursuzluqla nəticələndiyini xəbər verdi. Xuan da üzünü araukanların mövqe tutduqları dağa tərəf tutub hüznlə dedi:

- Elə yaxşıdır ki, həmin yırtıcılar sülhə razı olmadılar. Bundan sonra onların, daha da, qara günləri başlayacaq. Söz verirəm ki, qarşıma çıxan hər bir vəhşini tərəddüd etmədən qılıncdan keçirəcəm. Bundan sonra bir nəfər də olsun, aborigen əsir alınmayacaq.

- Mən inana bilməzdim ki, araukanlar bu dərəcədə vəhşi və qəddar olsunlar. - deyə Xuan Flores halsız halda dilləndi. - Onların hamısı ölməyə məhkumdurlar.

- Sinyor Xuan, burada vəziyyət olduğundan da gərgindir. - qoca səyyah təəssüflə dilləndi. - Düşərgəyə qayıdıb bütün vəziyyəti polkovnik Alonsoya izah etmək lazımdır.

- Siz nə danışırsınız? - deyə notarius qoca səyyahın qarşısını kəsərək kəskin şəkildə öz etirazını bildirdi. - İspaniyanın igid əsgərləri ağaclarda asılmış vəziyyətdə qalsın, biz isə sakit halda düşərgəyə qayıdaq?

- Axı, bu olduqca qorxulu bir əməliyyat sayılır? - Qoca səyyah onu səhv yoldan çəkindirməyə çalışdı. - Araukanlar çox güman ki, ağacların arxasında gizlənib bizi güdürlər. Koro aydınca bildirdi ki, biz öz meyidlərimizi götürməyə cəhd etsək, onlar bizim üstümüzə hücum çəkəcəklər.

- Koro əlimə keçən kimi onun başını kəsəcəm. - deyə qəzəb içində çapalayan kapitan Xuan hiddətlə dilləndi. - Ümumiyyətlə, bu gün o vəhşilərin qanı tökülməlidir.

- Biz həlak olan və ağır işgəncələrlə edam edilən silahdaşlarımızın qisasını onlardan almalıyıq.

- Qəssablara ölüm! - deyə Xuan Flores hüznlə qışqırdı.

- Biz kimliyimizi meşədə gizlənən yırtıcılara göstərməliyik. - deyə Bartolomeu əlində qılınc hazırlıqlı vəziyyətdə komandirinin əmrini gözlədi.

- Sinyor Xuan, emosiyaya qapılmaq lazım deyil. - deyə qoca səyyah kapitana nəsihət vermək istədi. - Beş-altı nəfərlə biz burada heç nə edə bilməyəcəyik. Düşmənin qüvvəsi burada həddindən artıq çoxdur. Onlar üstümüzə hücum etmək üçün bir səbəb axtarırlar.

- Sinyor Rodriges, mən hər bir şeydə sizə qulaq asmağa çalışmışam. - deyə kapitan Xuan bezmiş halda dilləndi. - Lakin bu dəfə mən sizinlə razılaşmayacağam. Mən burada hinduların qanını axıtmasam, düşərgəyə qayıtmayacağam. Araukanlar törətdikləri cinayətlərə görə, öz qanları ilə cavab verməli olacaqlar.

- Biz öz silahdaşlarımızı edam ağaclarından azad edib, xristian kimi onları yerdə basdırmalıyıq. - deyə notariusun yolda gördüyü dəhşətlərdən bütün bədəni əsirdi.

- Biz öz silahdaşlarımızın qanını düşməndən almalıyıq. - deyə leytenant Ernando qürurla dilləndi.

- Mən demirəm ki, azğın düşməndən qisas almayaq. - qoca səyyah öyüdlə dilləndi. - Lakin ilk növbədə biz düşərgəyə qayıdıb əlavə qüvvə toplamalıyıq, ondan sonra isə gəlin araukanları cəzalandırın. Düşərgəyə qayıtmasağ, biz növbəti faciə ilə üzləşəcəyik.

Lakin bu dəfə Rodrigesin sözünə heç kim əhəmiyyət vermədi. Kapitan Xuan üzünü Bartolomeuya tərəf tutub hökmlə dedi:

- Tez ol, arabanı ardımca sür. Araukanlar aşağı düşməmiş, biz tez yuxarı qalxmalıyıq.

Bundan sonra Xuan atını yuxarı qalxan yola sürdü. Kapitan Leon öz oğlu ilə onun ardınca getdilər. Ekspedisiyanın bələdçisi Xuan Flores bir qədər qabaqda idi və qarşıdakı ağaclara diqqətlə nəzər yetirirdi. Artıq komandir meşənin girəcəyinə çatmışdı. Leytenant Ernando komandirin onlardan çox aralandığını görüb, Xuanı dəstəni gözləməyə çağırdı. O, isə Ernandonun sözünə əhəmiyyət verməyərək, öz yoluna davam etdi. Ən nəhayət, Xuan Flores özünü saxlaya bilməyib həqarətlə qışqırdı:

- Cənab kapitan, ayaq saxlayın. Ağacların arxasında hindular var.

Bundan sonra kapitan atını saxlamağa məcbur oldu və qarşısındakı ağacların arxasını diqqətlə nəzərdən keçirməyə başladı. Bu vaxtı arxada qalan konkistadorlar komandirlərinə çatmaq üçün ona tərəf qaçdılar. Notariusla, qoca səyyah arabada gedirdilər.

Migel ağacların arasında kimlərinsə olduğunu hiss etdi. Kapitan qılıncını əlinə alıb atını meşənin girəcəyinə daxil olan yoldan sol tərəfə sürdü. Ağaclara iki-üç metrə çatmamış ona tərəf beş-altı dənə ox atıldı və kapitan özünü saxlaya bilməyib atdan yıxıldı. Migel o dəqiqə ayaq saxlayıb (Xuana çatmağa təxminən 15 metr məsafə vardı)

kamanını hazırlıqlı vəziyyətdə tutdu. O, əmin idi ki, Xuanı məhv etmək üçün araukanlar gizləndikləri yerdən çıxacaqlar. Qalan konkistadorların köməyə getməsinə baxmayaraq Bartolomeu arabanı saxlayıb həmin yerə piyada qaçdı.

Elə bu anda iyirmiyə yaxın hindu əllərində balta və nizə kapitan Xuanın üzərinə hücuma keçdilər. Sol çiyninə ox batmasına baxmayaraq müdafiə olunmaq üçün Xuan artıq ayağa qalxmışdı və yarasına fikir verməyərək gözlənilmədən özü hücuma keçdi. Onun əynində kirasa olmasaydı, çox güman ki, bir neçə ox Xuanın bədəninə də bata bilərdi.

Hindulardan birini dəqiq nişan alan Migel ox ilə qurbanını öldürə bildi və ani surətdə ikinci oxunu hazır etdi. İlkin toqquşma zamanı Xuan məharətlə düşmənin birini məhv etdi, ancaq həmin an başqalarının əhatəsinə düşdü. Artıq həmin dəqiqədə konkistadorların əsas qüvvəsi hindularla toqquşdu. Migel ikinci qurbanı məhv edən zaman özü də hücuma keçmək istədi, lakin bu vaxt meşənin girəcəyinə daxil olan yoldan bir qədər sağda daha iyirmi nəfər hindu ağacların arasından çıxdı. Onlardan onu əsas döyüş yerinə, yarısı isə araba istiqamətində hücuma keçdilər. Migel məçburiyyət qarşısında qalaraq arabada qalan adamları mudafiə etmək üçün (o, araukanlara nisbətən arabaya yaxın idi) həmin tərəfə qaçdı. Qoca səyyahla, notarius silahsız olsalar da, onlar özlərini soyuqqanlı aparır-

dılar. Məsafə qısa olduğuna görə Migel kamanından istifadə edə bilmədi və lansetini əlinə alaraq, cəld onu qabaqdakı araukanın üstünə atdı. Lanset hindunun boğazına elə batdı ki, o arxası üstə sıçrayışla yerə sərildi. Cavan zadəgan aborigenlərin qarşısında hazırlıqlı vəziyyətdə dayanaraq arxaya dönmədən notariusa qışqırdı:

- Sinyor Manuel, tez olun, buradan uzaqlaşın.

Migel bu sözləri deməmişdən notarius bu fikrə gəlmişdi. O, qamçını elə zərbə ilə endirdi ki, at yerindən sıçradı və arabada yarıoturmuş halda olan qoca səyyah elə arxası üstə arabanın üstünə sərildi. Bu zaman isə Migel hinduların hücumunu dayandırmağa nail oldu. Lakin gözlənilmədən onunla toqquşan araukanların yarısı, əsas döyüş gedən yerə üz tutdular. Bu bir növ Migelin işini xeyli yüngülləşdirdi. O, hazırda dörd nəfərə qarşı döyüşürdü. Lakin Migel onları öz zərbələri ilə sarsıda bilmirdi. Onların döyüş bacarığı başqalarına nisbətən xeyli üstün idi. Həmin döyüşçülər əsl ispan əsgəri kimi döyüşürdülər. Öz gücünü ehtiyatda saxlamaq üçün Migel, xüsusi fəndlər işlətmədən müdafiə olunmağa başladı.

VIII fəsil. Kapitan Xuan Odovaldonun və başqalarının öldürülməsi

Əsas döyüş gedən yerdə tək-tük halda atəş səsləri və daimi aborigenlərin qışqırıqları eşidilirdi. Həmin səslərə döyüşdə ağır yaralanmış döyüşçülərin qışqırıqları qarışmışdı. Hindular böyük çoxluq təşkil etsələr də, orada döyüşən konkistadorları mühasirəyə ala bilmirdilər. İspanlar inadkarlıqla müqavimət göstərir, hətta bəzən vaxtı əks-hücuma da keçməyə imkan tapırdılar.

Koronun özü həmin döyüşdə yaxından iştirak edirdi. Ona qarşı cavan Rodriges döyüşürdü. Vaxtilə araukanların əsiri olmuş bu konkistador, Koronun kimliyini çox yaxşı bilirdi, elə məhz buna görə də o, öz rəqibini məhv etmək üçün böyük səy göstərirdi. Rodrigesə qarşı Korodan başqa daha üç hindu döyüşürdü. Çox keçmədən o, araukanın birini yaraladı və fürsətdən istifadə edərək, üstünə hücuma keçən növbəti rəqibinin üzərinə dərhal şığıdı. Həmin hindu özünü müdafiə edə bilməyərək, rəqibinin qılıncı ilə vuruldu və "ah" qışqıraraq dizləri üstə yerə çokdü. Ona aman verməyən Rodriges qılıncını qurbanının bağrına sancdı. Lakin sağ böyründə dayanan Koro yaranan əlverişli imkandan istifadə edərək, əlindəki nizəni rəqibinin sağ boyrünə elə batırdı ki, nizənin ucu az qala o biri böyründən

çıxacaqdı. Bədənindəki ağrıya dözə bilməyən konkistador, bədəninə girən nizəni əli ilə tutub qeyri-insani halda qışqırdı. Leytenant Ernando silahdaşının köməyinə can atsa da, artıq geç idi. Korodan sonra qarşıda duran hindu əlindəki tomaqavkanı Rodrigesin düz başının ortasına endirdi. Onun başından fışqıran al qan nəinki aborigenlərin, hətta Ernandonun da üst-başına sıçradı. Rodrigesin ölümü düşmənlərdə döyüş əzminin yüksəlməsinə səbəb olsa da, birdən-birə onlar geri çəkilməyə başladılar. Onların hərəkətlərindən o dəqiqə başa düşmək olar ki, araukanlar hansısa bir göstərişə görə mütəşəkkil surətdə döyüş meydanını tərk edirlər. Bir neçə dəqiqənin ərzində onlar öz yaralılarını döyüş meydanından götürərək, ağacların arasında yoxa çıxdılar.

Yerdə səkkiz hindunun meyidi qalmışdı. Lakin konkistadorların da itkisi az deyildi. Bir nəfər öldürülmüş, üç nəfər isə yaralanmışdı - kapitan Xuan, kapitan Leon və Bartolomeu. Yaralananların arasında Xuanın vəziyyəti daha ağır idi. Onun sol çiyninə ox batmışdı, sağ döşünün altına isə balta dəymişdi. Araukanlar yoxa çıxan kimi yaralılara tibbi yardım göstərilməyə başlanıldı.

Xuanın atını tutub bura gətirdilər. Notarius arabanı silahdaşlar toplaşan yerə sürdü. Rodrigesin meyidi arabada olan çəsədlərin yanına qoyuldu. Yaralıları da arabaya mindirdilər. Bartolomeu arabanı təhlukəli yerdən uzaqlaş-

dıraraq düzənliyin ortasına apardı. Xuan bu yerdəyişməyə görə öz münasibətini bildirəndə qoca səyyah onu, əsəbilərini ələ almağa çağırdı. Hər bir məsələ ayıq başla həll edilməli idi.

Hazırda düzənlikdəki konkistadorlar çıxılmaz bir vəziyyətə düşmüşdülər. Təcrübəli zabitlər düzənlikdən çıxmaq üçün bir tədbir görməliydilər. Hərə bir təkliflə çıxış edirdi. Kapitan Leonun fikri o idi ki, nə qədər araukanlar öz qüvvələrini "qanlı vadi"yə gedən yolun üstünə aparmayıblarsa, tezliklə buranı tərk etməlidirlər. Çox güman ki, hindular həmin yolu da öz nəzarətləri altına götürmüşdülər. Lakin həmin yerdə onların sayı həddindən artıq çox az ola bilərdi. Leytenant Ernando isə "qanlı vadi"yə əsas yol ilə yox, sıx meşənin cığır yolları ilə getməyi təklif etdi. Lakin ağır yaralılarla və meyidlərlə həmin məsafəni sərbəst halda qət etmək çox mürəkkəb idi. Qoca səyyah isə Xuan Floresə dəstəni tamamilə gizlin yol ilə "qanlı vadi"yə aparmağı təklif etdi.

Xuan izah etdi ki, o Araukaniyanın bu hissəsində olmadıqına görə buraları, ümumiyyətlə tanımır. Migel isə dəstənin mühasirəyə düşdüyünü bildirərək, "qanlı vadi"yə iki istiqamətdə getməyi təklif etdi. Yəni, dəstə iki hissəyə bölünərək, biri-birilərindən aralı "qanlı vadi"yə getməliydi. Əlbəttə, bu təklif də qeyri-real sayılırdı. Çünki araukanlar

çətinlik çəkmədən ayrı-ayrılıqda gedən konkistadorları darmadağın edə bilərdilər. Kapitan Xuan isə düzənlikdə olan daxmada qalıb müdafiə olunmalı və burada ispanların əsas dəstəsini gözləməyi təklif etdi. Bunun üçün "qanlı vadi"yə bir nəfər göndərilməli və düzənlikdəki vəziyyət barədə silahdaşlarını xəbərdar etməli idi. Bu funksiyanı sözsüz ki, Xuan Flores yerinə yetirməliydi. Lakin bu da çıxış yolu sayılmırdı. Reallığı nəzərə alaraq kapitan Leonun verdiyi təklif ən səmərəli təklif sayılırdı. Kapitan Leon başqalarının inadkarlığını görüb birbaşa yaralı komandirinin qabağına keçdi və təkəbbürlə dedi:

- Araukaniyada gedən sonuncu döyüşlər yalnız bizim qəti qələbələrimizlə başa çatıb və çalışmalıyıq ki, bu üstünlüyü əldən verməyək. Mənim təklifim qəbul olunmasa, onda düşmənə bizim üzərimizdə qələbə qazanmağa imkan yaradacağıq.

- Axı, mən düşməni layiqincə cəzalandırmamış buranı tərk etmək istəmirəm. - komandir məyus halda dilləndi.

- Sinyor Xuan, bu döyüşdə araukanların 8 döyüşçüsü məhv edilib. - deyə Leon komandiri razı salmağa çalışdı. - Layiqincə olmasa da, artıq biz onları cəzalandırmışıq. Düşməni tamamilə məhv etmək üçün biz, tezliklə buranı tərk edib "qanlı vadi"yə getməliyik. Nə qədər ki, gedəcəyi-

miz yol düşmən tərəfindən tutulmayıb biz vaxt itirmədən buranı tərk etməliyik.

Leonun bu təkidindən sonra qoca səyyah, Migel və Xuan Flores bu təklifə səs verdilər. Onlar tezliklə buranı tərk etməliydilər. Araukanlar öz qüvvələrini əsas yola keçirməmiş, dəstə yola düşdü. Kapitan Xuanın atını Leon sürürdü. Arabanı isə Ernando idarə edirdi. Onlar meşəyə daxil olandan sonra daha ehtiyatla hərəkət etməyə başladılar. Bu dəfə Xuan Flores hamıdan qabağa düşərək, yolun təhlükəsizliyini yoxlaya-yoxlaya irəli getməyə başladı. Leon ondan təxminən 10 metr arxada, Leonun ardınca isə araba gedirdi. Xuan ağacların arasında gizlənən hinduların təcavüzünə məruz qalan kimi, yerdə qalan konkistadorlar dərhal araba ətrafında müdafiə xətti yaratmalı və yaralı silahdaşlarının həyatlarını təhlükədən xilas etməli idilər. Ən axırda Karlos Murilyo gəlirdi. Kapitan Leon yaralı olduğuna (o, başından balta ilə yüngülcə yaralanmışdı) görə, oğlu Migel at ilə araba arasında hərəkət edirdi. Arabanın cırıltısı bütün ətrafa böyük səs-küy salırdı. Yaralarının ağrısından Xuan arabada rahat otura bilmirdi. Bəzi vaxtı o, hətta bərkdən inildəyirdi.

Dar yoldan ibarət olan bu zolaq gah sağa, gah da sola burulur, gah yuxarı qalxır, gah da aşağı enirdi. Çox yerdə hündür ağacların enli yarpaqları, yolu, günəşin şüalarından gizlədirdi. Bütün ətraf tünd yaşıl rəngə boyanmışdır.

Ekzotik quşların cikkiltisi, cəh-cəhi və məstedici nəğmələri bir anlığa dara düşmüş konkistadorların gərginlik və həyəcan hissləri ilə dolu olan sifətlərinə xoş rəng vermiş və qəlblərində böyük rahatlıq yaratmışdı. Bu, ölkəyə ayaq basandan həmişə təbiət onların üstünə öz hirsini və qəzəbini tokmüşdür, ancaq bu dəfə onlara yazığı gələrək, özünün xoş üzünü nümayiş etdirməyə məcbur olmuşdur.

Kapitan Xuan bu müharibədə əzizlədiyi adamı yaxınlıqda görüb onu yanına çağırdı. Migel ona yaxınlaşan kimi ürək yanğısı ilə dedi:

- Başa düşürəm, yaralarınızın ağrıları sizi rahat buraxmır.

- Mən artıq belə ağrılara vərdiş etmişəm. - deyə Xuan iztirabla dilləndi. - Elə bil hər döyüşdə yaralanmaq mənim alnıma yazılıb. Bütün bədənim aldığım yaralardan çapıq-çapıqdır. Qorxuram ki, araukanların tam darmadağın edilməsində iştirak etmək mənə müəssər olmasın. Axı, mən iki-üç gün müddətinə öz yaralarımı sağalda bilməyəcəm. İnanmıram ki, araukanlarla baş verəcək döyüşün vaxtı uzadılsın. Düşmənin əsas qüvvəsinin harada yerləşməsi bizə bəllidir.

- Allahın köməyi ilə siz araukanların tamamilə darmadağın edilməsində yaxından iştirak edəcəksiniz. - deyə Migel komandirinə təsəlli verdi. - Xristofor tezliklə sizin

yaralarınızı sağaldacaq. Əminəm ki, biz sonuncu döyüşdə bir yerdə çiyin-çiyinə döyüşəcəyik.

- Migel, döyüşdə yaralanmağım azacıq da olsun, məni məyus etmir. Həmin döyüşdə zalım Koro məndən bir neçə addım aralıda idi. Onunla üzləşmək üçün bağrım çartlayırdı. Elə həmin məqamda məni ikinci dəfə yaraladılar. Koronu qılıncdan keçirmək üçün məndə yaxşı imkan vardı. Ancaq onlar gözlənilmədən döyüşü dayandırdılar. Onsuz da keç-tez o, bizim əlimizə keçəcək.

- Rodrigesi o öldürdü, yoxsa başqası?

- Bu qətli Koronun özü törətdi.

Artıq konkistadorlar 600 metr idi ki, meşənin içərisi ilə hərəkət edirdilər. Xuan Flores əvvəlki kimi qabaqda irəliləyirdi. Çoxlarında belə bir təəssürat yaranmışdır ki, araukanlar ispanları nə təqib edir, nə də ki, pusquya salıb məhv etmək istəyirlər. Birdən bələdçi Xuan öz irəliləyişini dayandıraraq sağ əlini yuxarı qaldırdı və diqqətlə özündən sol tərəfdə yerləşən ağacların və kolların arasına nəzər saldı. Orada bələdçi üçün nəsə şübhəli şey vardı. Hətta Xuan əlindəki odlu silahın lüləsini hazırlıqlı vəziyyətdə həmin istiqamətə tərəf tutdu. Kapitan Leon atdan düşməyə hazırlaşırdı, birdən ağacların arasından atılan ox onun sol çiyninə elə batdı ki, o atdan sağ tərəfə yerə yıxıldı. Eyni zamanda arabada olanlara da bir-birinin ardınca bir neçə

dənə ox atıldı. Migel dərhal aşağı əyildi və hazırlıqlı vəziyyətdə düşmənin hücumunu gözləməyə başladı. Atılan oxlardan həm qoca səyyah, həm notarius, həm də kapitan Xuan xəsarət aldılar. Ernando silahdaşlarını yaylım oxlardan xilas etmək üçün arabaya qoşulmuş ata var gücü ilə qamçı vurdu. Araba yerindəcə yırğalandı.

Bu vaxt Xuan Flores təklikdə qalaraq araukanların hücumuna məruz qalmışdı. Elə sürəti götürmüş araba Xuanın yanında dayanmağa məcbur oldu. Migel atasını burada tək qoyub qaçmaq istəmədi. O, yaralı atasını ata mindirərək, təhlükəli yerdən uzaqlaşmaq üçün atın belinə möhkəm sillə vurdu. Amma Leon oğlunu düşmən əhatəsində qoyub qaçmaq istəmədi və atının yüyənini dartdı. Ağacların arasından çıxan hindular onların üzərinə hücuma keçdilər. Leon çiynindən ağır yaralansa da, o, özünü müdafiə etməyə qadir idi. Kapitan qılıncını əlinə alıb oğlu kimi yoldan uzaqlaşdı. Migel hər iki qılıncını başının üstündə fırladaraq hücuma keçən hindularla toqquşdu. Elə ilkin toqquşma zamanı düşmənin biri cansız halda yerə sərildi. Migelgil on nəfər düşmənin əhatəsinə düşmüşdülər. Leonun yaralı olduğundan o, lansetdən istifadə edə bilmədi. Lakin buna baxmayaraq kapitan düşmənə layiqincə müqavimət göstərirdi. Atasının müqavimətinə baxmayaraq bu döyüş Migel üçün ikitərəfli ağır idi. O, həm özünü, həm də yaralı

atasını müdafiə edirdi. Hər bir vəziyyətdə Migel öz gücündən çox səmərəli istifadə etmək fikrindəydi. Çünki o, çox yaxşı bilirdi ki, burada başlanan döyüş ən azı bir saat davam edəcək. Neçə olsa da, Koro bu döyüşə özünün təxminən 40-50 nəfərlik qüvvəsi ilə atılmışdı. Həm də həmin döyüşçülərin yarısından çoxu bacarıqlı və təçrübəli əsgərlər idi.

Xüsusi fəndlərə əl atan Migel daha bir döyuşçunü məhv edə bildi. Qılınc döyüşündə heç də az təcrübəsi olmayan Leon düşmənin zəif yerini taparaq onlardan birini məhv etdi. Lakin bu heç də onlar üçün müvəffəqiyyət sayıla bilməzdi. Düşmənin qüvvəsi, hələ də böyük üstünlük təşkil edirdi.

Araba ətrafında gedən döyüş daha qızğın xarakter almışdı. Bir neçə yerdən yaralanmış kapitan Xuan yaralarının ağrısına və bədəninin zəifləməsinə heç bir əhəmiyyət verməyərək, böyük əzmlə döyüşürdü. Bələdçi Xuan hələ də əsas quvvədən aralı düşmuş və böyük bir çətinliklə düşmənə qarşı müqavimət göstərirdi. Qoca səyyah azacıq olsa da, bu yaşında heç bir müqavimət göstərmək iqqidarında deyildi. Lakin buna baxmayaraq araukanlar zərərsiz qoca səyyahı iki yerdən ağır yaralamışdılar - sinəsindən və sağ çiynindən. Notarius döyüşməyi bacarmasa da o, əlində iki dənə tapança arabanın üstündə müdafiəyə hazırlıqlı

vəziyyətdə dayanmışdı. Leytenant Ernando ilə Bartolomeu arabanın qarşısında, Karlos isə arxasında xüsusi fədakarlıqla döyüşürdülər. Araukanlar ehtiyatla döyüşsələr də, onların itkiləri yavaş-yavaş artmaq üzrə idi.

Hamıdan fərqli olaraq, Migel daha ağır şəraitdə döyüşürdü. O, atasına görə sərbəst döyüşə bilmirdi. Cavan zadəgan hərdən bir əks-hücuma keçməklə, atasını mühasirə halqasından çıxarmağa çalışırdı. Leon isə tez-tez geri çəkilir və bununla da oğlunun dövri fəaliyyətini xeyli məhdudlaşdırmış olurdu. Mühasirəni yarmağa çalışıan Migel iti sıçrayışla hücuma keçən zaman, Leon da eyni vaxtda bütün qüvvəsini toplayaraq əks tərəfə hücuma keçdi və qarşısında müqavimət göstərməyə çalışan hindunun birini qılıncdan keçirdi. Lakin ispanların bu anlaşılmamazlığından istifadə edən hindular dərhal ata ilə oğulu ayrı-ayrılıqda mühasirəyə aldılar. Mühasirəyə düşməzdən əvvəl Migel daha bir düşməni qılıncdan keçirməyə nail oldu və dörd hindunun əhatəsinə düşdü. Araukanlar Migelin peşəkar döyüşçü olduğunu yəqin edərək, ona qarşı qətiyyətli addımlar atmağa çəkinirdilər. Ancaq onlar məğrur zadəganı öldürmək arzusu ilə alışırdılar.

Bir az keçmişdi ki, arxadan atılan nizə Leonun düz kürəyinə batdı və o, qeyri-insani halda qışqıraraq yerindəcə donub qaldı. Qarşısındakı hindu onu qətlə yetirmək üçün

irəli yeridi və əlindəki baltanı başının üstündən yuxarı qaldırdı. Lakin özündə güc tapan zabit gözlənilmədən qılıncını rəqibinin qarnına sancdı. Vəcdə gələn digər hindu sağ tərəfdən Leonun qara çiyəri olan hissəyə balta ilə möhkəm zərbə endirdi. Yarımcan hala salınmış zabit sol böyrü üstə yerə sərildi. Bütün bu hadisə, atasının qətlə yetirilməsi Migelin gözü önündə baş verirdi.

Hiddət içərisində boğulan Migel nərə çəkərək qarşısındakı rəqibinin üzərinə hücuma keçməyə cəhd göstərdi. Lakin həmin hindu öz soyuqqanlığını itirməyərək, rəqibinin hücumunu dəf etmək üçün nizəsini onun üstünə atdı. Ürəyi qəzəbdən və hirsdən parçalansa da, Migel öz çevikliyindən istifadə etdi. O, elə əyildi ki, üstünə ucan nizə arxadan gələn aborigenin sinəsinə batdı. Fürsəti əldən verməyən Migel sol əlindəki qılıncı ilə hücuma cəhd edən hindunun baltasını vurub yerə saldı və dərhal sağ qılıncının bütün ağırlığı ilə onun başının ortasına möhkəm zərbə endirdi.

İtkilərə əhəmiyyət verməyən hindular Migeli məhv etmək üçün öz hücumlarını ara vermədən davam etdirdilər. Sağ tərəfdəki aborigen hücuma keçən kimi Migel sol əlindəki qılıncı iti sıçrayışla onun üstünə ataraq qurbanının sinəsini deşdi. Lakin hindular bu itkiyə də heç bir əhəmiyyət vermədilər. Leonu zərərsizləşdirən iki araukan

və nizəsini itirmiş hindu öldürülmüş silahdaşının baltasını götürərək, Migeli məhv etməyə çalışdılar.

Hadisələr elə sürətlə cərəyan edirdi ki, təklikdə qalan Migel üçün nəfəs almağa belə imkan olmurdu, o, hətta lansetini götürməyi yaddan çıxarmışdı. Qarşısındakı hindu bir anın içərisində ona soldan yaxınlaşaraq horizontal şəkildə Migelin başının üzərinə zərbə endirdi. Cavan zadəgan bir daha çevikliyini nümayiş etdirərək pişik sıçrayışı ilə aşağı əyildi və əlindəki qılıncı var gücü ilə rəqibin böyrünə sancdı. Lakin qılıncını geri çıxara bilmədi. O biri tərəfdən hücuma keçən aborigen Migeli silahsız görərək nizəsini ona tərəf yeritdi. Nizə Migelin sol qoltuğunun arasından boş keçdi və hindunun bədəni onun bədəni ilə toqquşdu. Elə bu dəmdə Migel lansetini kəmərindən çıxarıb dərhal qurbanının boğazına sancdı. İfliç vəziyyətində olan hindu özündən asılı olmayaraq onun yaxasından möhkəmcə yapışdı. Axırıncı qalan araukan, çıxılmaz vəziyyətdə qalan Migeli balta ilə vurmaq istəyirdi ki, birdən arxadan açılan atəş onun bu hücumunu lokallaşdırdı. Hindu üzüqoyulu Migelin üzərinə yıxıldı. Ayağa qalxan cavan zadəgan biləndə ki, həmin atəşi kim açıb təəccübdən gözləri bərələ qaldı. Onu xilas edən yarımcan halda qalan atası idi. Migel cəld qılınclarını götürüb atasının yanına qaçdı. O, atasının başından tutub ona təsəlli verməyə başladı. Leon qara ciyər

nahiyyəsini əlləri ilə sıxıb oradan gələn qanın qarşısını kəsirdi. Ümumiyyətlə, onun aldığı yaralar çox ağır idi və o gücbəla ilə nəfəs alırdı. Hətta ağzından da qan ləkələri gəlirdi. Migel əynindəki köynəyini cırıb dərhal atasının yaralarını sarımağa başladı. Lakin Leon həddindən artıq zəifləmiş halda xırıltılı səslə dedi:

- Uşaqlar dardadır. Özünü onlara çatdır.

- Ata ruhdan düşmə. Uşaqlara kömək edəndən sonra yanına qayıdacağam.

Həmin sözlərdən sonra Migel nərə çəkərək, əsas döyüş gedən yerə hücum çəkdi. Peşəkar bir döyüşçü kimi onun, silahdaşlarına böyük ehiyaçı vardı. Qorxmaz konkistador döyüş yerinə çatan kimi arxadan iki düşməni qılıncdan keçirməyə nail oldu. Məhz bundan sonra araukanlar Migelin hücumundan xəbər tutdular və dərhal ona qarşı müqavimət göstərmək üçün bir neçə döyüşçü qoydular. Lakin burada da konkistadorların vəziyyəti xoşagələn deyildi. Artıq Karlosla, Xuan Flores həlak olmuşdular. Kapitan Xuan, leytenant Ernando və Bartolomeu ağır yaralanmışdılar, lakin onlar lazımi səviyyədə düşmənə qarşı müqavimət göstərirdilər.

Migel araukanlarla toqquşanda artıq aborigenlər böyük itkiyə məruz qalmışdılar. Yerdə on beşə yaxın meyid vardı. Döyüş zamanı ağır yaralanan hinduları silahdaşları yerdə

qoymurdular. Onların hamısı növbəti xəsarət almadan dərhal döyüş meydanından uzaqlaşdırılırdı. Belə qənaətə gəlmək olar ki, araukanlar öz adamlarını ciddi-cəhdlə ölümdən qoruyurlar. Onlar hər bir canlı qüvvənin üstündə möhkəmcə əsirdilər.

Burada döyüşən araukanların sayı 13-15 nəfər olardı. Onlar əvvəlcə əzmlə, inadkarlıqla döyüşsələr də, indi hamıda ruh düşgünlüyü hiss olunurdu. İmkanları olsa, döyüş meydanını tərk edərdilər. Onları bu ağır döyüşdə saxlayan Koronun şücaəti idi. Karlosu qətlə yetirən Koro indi, tamamilə əldən düşən kapitan Xuana qarşı döyüşürdü. Hiss olunurdu ki, Xuan nəinki əks-zərbələr, hətta müdafiə olunmağa qadir deyildi. Koro əlindəki balta ilə istədiyi kimi və istədiyi yerdən zərbə endirirdi.

Arabanın üstündə dayanan notarius hələ də əlindəki tapançalardan istifadə etməmişdi. O, ən çox kapitan Xuanın fəaliyyətini izləyirdi. Çünki Xuan bu döyüşdə hamıdan ağır yaralanmışdı və əynindəki kirasa həm deşik-deşik, həm də əzik-əzik olmuşdu. Migel gördü ki, Xuan gücbəla ilə ayaq üstə dayanır, sağ budu yaralandığından o, axsayırdı. Onun yerinə kim olsaydı, çoxdan öz silahdaşlarından imdad diləyərdi. Lakin Xuan heç kimin qarşısında öz qürurunu əymək istəmirdi.

Migel dərhal hinduların arxasından dövrə vuraraq, döyüşə-döyüşə özünü kapitanın yanına çatdırdı. Bu zaman qorxmaz zabit sağ ayağından da ağır yaralandı. Koro onun tam zəiflədilməsinə çalışırdı. Xuan sağ dizi üstə yerə çökdü, lakin müqavimətini davam etdirirdi. Migel özünün ən qatı düşməni ilə toqquşan kimi dərhal iki hindu kənardan onun üstünə hücum etdil. Koronun başı bu döyüşə qarışdığından Xuanı məhv etmək üçün başqa bir hindu onun üzərinə şığıdı. Lakin notarius öz sayıqlığını itirməyərək həmin hindunu öz tapançası ilə qətlə yetirdi. Notariusun bu hərəkəti Koronu daha da hiddətləndirdi və öz dilində silahdaşlarına nəsə qışqırdı. Kənardan başqa bir hindu bu dəfə Xuanın yox, arabada dayanan notariusun üstunə şığıdı.

Lakin notarius əlindəki ikinçi tapança ilə onu da qətlə yetirdi. Məhz bundan sonra Koro bir sıçrayışla arabaya tərəf tullandı və əlindəki balta ilə notariusun başına möhkəm zərbə endirdi. Qarşıdakı qurbanın başının ortadan yarıldı. Notarius səs çıxarmadan arxası üstə qoca səyyahın üstünə yıxıldı. Vəcdə gələn Rodriges gözlərini Koronun üstünə bərəldərək hüznlə qışqırdı:

- Bu vəhşiliyə son qoymalısan. O, sülh danışıqlarında iştirak etmiş İspaniya kralının nümayəndəsidir. Bu cinayətə görə səni tonqalda yandıracaqlar.

Hirsdən bütün sir-sifəti əsən Koro keçmiş səyyahın həddindən artıq yaşlı olmasına heç bir əhəmiyyət vermədən, balta ilə horizontal xətt boyu rəqibinin boynuna möhkəm zərbə endirdi. Qoca səyyahın başı bədənindən ayrılaraq düz kapitan Xuanın qarşısına düşdü. O, dönüb Koroya baxanda, qoca səyyahın boynundan fışqıran qanın, hindunun üstünə neçə töküldüyünü gördü. Elə bu anda arxadan Xuanın kürəyinə nizə sancdılar. Lakin o, bu xəsarətə dözərək hiddətlə Koroya dedi:

- Bəxtin gətirib ki, mən hər yerdən yaralanmışam. Yoxsa, səni əlimdəki qılıncımla…

Koro cəld hərəkətlə yerə tullandı və iki zərbəyə Xuanın əlindəki qılıncı yerə saldı. Bu zaman Migel qarşısındakı rəqiblərini məhv edərək Koronun üzərinə şığıdı. Öz qəddarlığı və amansızlığı ilə konkistadorlar arasında tanınan hindu, müdafiəyə keçməmişdən əvvəl balta ilə Xuanın sağ çiyni ilə boynunun arasındakı hissəyə zərbə endirdi. Xuan arabanın qabaq təkərinin qabağına yıxıldı. Migel bir-birinin ardınca Koroya zərbələr endirməyə başladı.

Vəziyyət tamamilə gərgin xarakter almışdı. Migel babasının kəsilmiş başını yerdə görəndə dəhşətə gəlmiş, döyüş vaxtı hiddət və qəzəbdən bütün ehtiyat və təhlükəsizliyini itirmişdi. Hücuma keçən qorxmaz zadəganın bütün zərbələri çox asanlıqla Koro tərəfindən dəf edilirdi.

Koronun kəskin müqavimətinə baxmayaraq, araukanların darmadağın olunduqları bəlli idi. Müqavimət göstərənlərin sayı 7-8 nəfər olardı. Lakin qarşıdakı düşmənlə yalnız iki konkistador döyüşürdü, Migel ilə Ernando. Onlardan başqa ispanların hamısı zərərsizləşdirilmişdi. Koro arxası Xuana tərəf döyüşürdü.

Çox keçməmiş Koronun hərəkətlərində çaşqınlıq baş verdi. Fürsətdən istifadə edən Migel öz rəqibinə bir-birinin ardınça dalbadal zərbələr endirə-endirə gördu ki, Xuan qılıncının qınına arxalanmaqla ayağa qalxıb və güclə Koronun sağ böyrəyinə qılıncının ucunu sancdı. Koro sanki həmin zərbədən diksindi və ani olaraq sağa dönüb, Xuanın sağ əlinə, biləyindən bir az yuxarıya elə balta zərbəsi endirdi ki, kapitanın sağ əli qolundan ayrılaraq yerə duşdu. Elə bu dəmdə Migel sol əlindəki qılıncını rəqibinin sol böyrəyinə soxdu. Ağrıdan Koronun gözləri bərəldi və o, qalın səsi ilə qışqırdı. Migel isə ona aman vermədən o biri qılıncını yarısına qədər qurbanının qarnına soxdu. Koro dizləri ustə yerə çökərək daha da möhkəm qışqırdı və onun başı cansız halda sinəsinin üstünə düşdü. Fürsəti əldən verməyən Migel var gücü ilə yarımcan hala düşmuş rəqibinin başına qılınc zərbəsi endirdi. Koronun iri sifətli böyük başı qoca səyyahın başının yanına duşdu.

Xüsusi qəddarlığı və amansızlığı ilə hamıdan fərqlənən Koronun cəsədi yerə sərilən kimi sağ qalmış hindular dərhal döyüş meydanını tərk etdilər.

Bu döyüş neçə gözlənilməz başlamışdı, eləcə də başa çatdı. Konkistadorlar qalib gəlsələr də ağır itkiyə məruz qalmışdılar. Migel ilə Ernandodan başqa Xuan 8 yerdən yaralansa da hələ də can verirdi. Ernando özu yaralı olsa belə (o sağ qolundan və sol çiynindən yüngül yaralanmışdı), cəld kapitanın yaralarını sarımağa başladı.

Migel isə cəld atası qalan yerə can atdı və onun sağ qaldığını gördu. Yaralar ağır olduğundan Leon zarıldayırdı. Migel ilkin yardımı göstərəndən sonra onu cəld arabaya apardı. Leon çoxlu qan itirdiyindən tez-tez huşunu itirirdi. Migel ilə Ernando həddindən artıq yorğun olduqlarına baxmayaraq, ölən və yaralanan soydaşlarını arabaya doldurub vaxt itirmədən təhlukəli yerdən uzaqlaşdılar.

Babasının dəhşətli ölümündən vəcdə gələn, qəm-qüssə və kədər içində olan Migelin bədənində süstlük əmələ gəlmişdi. O, babasının kəsilmiş başını qucağında saxlayaraq yerindəcə donub qalmışdı. Lakin bununla yanaşı ona Koronun kəsilmiş başı toxtamışlıq verirdi. Neçə ispanı şəxsən qətlə yetirmiş vəhşi Koronun başı indi Rodriges Kartahenanın cəsədinin ayaqları altında o yan-bu yana diyirlənirdi. O, layiqincə öz cəzasını almışdı.

Bir neçə saatdan sonra Ernando ölüm tabutunu xatırladan arabanı “qanlı vadi”nin mərkəzində yerləşən istehkamlı kəndə çatdırdı. Yarı yolda ispan nümayəndələrinin və xüsusi ilə də sülh danışıqlarında iştirak edən nümayəndələrin xüsusi amansızlıqla qətlə yetirilməsi, burada yerləşən bütün konkistadorların hədsiz qəzəbinə səbəb olmuşdu. Hamı bir nəfərə kimi polkovnik Alonsondan həlak olmuş silahdaşlarının qisasını almaq üçün hindu kəndlərinə hücum etməyi tələb edirdilər. Konkistadorlar araukanların əlindən qan ağlayırdılar. Vəziyyət burada gərgin xarakter almışdı.

Xristofor paralel olaraq həm Xuanın, həm də Leonun ağır yaraları ilə mübarizə aparırdı. Odovaldo nəsli Xuanın başı üzərində, Migel isə atasının başı üzərində dayanaraq, onların həyatları üçün yarpaq kimi əsirdilər. Xristofor əlindən gələni etsə də, açıq-aydın bildirdi ki, yaralar dərin olduğundan onların orqanları sıradan çıxıb və belə olan halda onları həyata qaytarmaq mümkün olmayacaq. Həm də onlar həddindən artıq çoxlu qan itirmişdilər. Həqiqətən də bir neçə dəqiqə keçəndən sonra kapitan Xuan Odovaldo - əlvida İspaniya - deyərək, sakitcə öz dünyasını dəyişdi.

IX fəsil. Qəzəb içərisində olan konkistadorlar öz silahdaşlarının qisaslarını alırlar

Polkovnik Alonso iradəli, mərd, əyilməz, qürurunu şax saxlayan bir adam idi. Qardaşı vəfat edən kimi gözləri kədərdən doldu, sarı bənizi daxilindəki ağrıya dözməyib tündləşdi. O, həm mənəvi, həm də fiziki cəhətdən sarsılmışdı. Birdən-birə şax qaməti əyildi. Alonsonu belə bir vəziyyətdə demək olar ki, heç kim görməmişdi.

Araukanların son döyüşdə xəyanətkarlıqla, quldurcasına endirdikləri zərbə nəticəsində yeddi nəfər ispan vəhşicəsinə öldürülmüş, biri isə ağır yaralanmışdı. Xristoforun dediyinə görə Leon ən azı bir gündən sonra döyüşdə aldıqları yaralardan vəfat edəcək. Bu xəbər Migelin vəziyyətini daha da ağırlaşdırdı. Atasının sağ qalmasına heç bir ümid yox idi. Həmişə özünü soyuqqanlı aparan, konkistadorların və hinduların ölümünə adət etmiş cavan zadəganın ürəyi birdən-birdə daşlaşdı və onun daxilindəki nifrət və qəzəb son apogeyə qalxdı. Bu anda araukanların mülki əhalisi də Migelin gözünün qarşısında amansız düşmənə çevrildi. İndi onun ürəyi Odovaldo nəsli kimi qisas hissiylə yanırdı.

Həlak olanların meyidlərini Alonso qaldığı evin qapısının ağzında bir sıraya yerə düzdülər. Rodriges Kartahenanın kəsilmiş başı cəsədinin üstünə qoyulmuşdu. Hamı

başını aşağı salıb meyidlərin üzərində sakitcə dayanmışdılar. Migel, Ernando ilə yanyanaşı idı. Polkovnik Alonso Ernandoya nəzər salmadan, Xuanın şəxsən hansı hindu tərəfindən öldürüldüyünü Migeldən soruşdu. Elə həmin an cavan zadəganın yadına Koronun kəsilmiş başı düşdü. Vəhşi quldurun başı hələ də arabanın içində qalmışdı. Araba isə burdan təxminən 50 metr aralıda saxlanılmışdı. Migel cəld yaxınlıqda dayanan atın belinə mindi və araba dayanan yerə çapdı. O, Koronun kəsilmiş başının uzun saçlarından yapışıb düz polkovnik dayanan yerə gətirdi və atdan yerə düşmədən kəlləni yerə ataraq hüznlə dedi:

- Bu, babamın və qardaşınızın qanlarını axıdan mənfur adamın başıdır! Mən onu öldürməmişdən əvvəl qardaşınız öz qisasını ala bilmişdir. Xuan Odovaldo axırıncı gücündən istifadə edərək, öz qılıncını onu vura bilmişdir. Məhz ondan sonra mən onu həlak olan silahdaşlarımızın meyidləri qarşısında edam etdim. - Migel atdan düşərək sözlərinə əlavə etdi. – Bilin ki, Koro araukan döyüşçülərinin sərkərdəsi idi.

Alonsonun göstərişi ilə Koronun başı kəndə daxil olan yolun ağzında, istehkam qapılarından bir qədər aralıda yerə basdırılmış nizənin üçüna taxıldı. Ona görə yox ki, Koro həm Xuanın, həm də Rodrigesin qanını axıtmışdır. Ümumiyyətlə, həmin hindu İspaniya krallığının ən qatı düşmənlərindən biri sayılırdı. Bura toplaşanların əksəriyyə-

tini ən çox qoca səyyahın öldürülməsi məyus edirdi. Bir neçə coğrafi səyahətlərdə və tədqiqatlarda iştirak etmiş və son otuz ildə heç vaxt əlinə silah almamış doxsan bir yaşlı kapitan Rodriges Kartahena, Araukaniyada axıdılan qanın birdəfəlik sülh yolu ilə son qoyulmasına səy göstərərək, hindu kasikləri ilə danışıqlara getmiş və oradan qayıdan zaman araukanlar tərəfindən vəhşicəsinə qətlə yetirilmişdir. O, müqavimət göstərməsə də İspaniya uğrunda, ispan kralı II Filipp uğrunda qəhrəmancasına həlak olanlar siyahısına daxil edildi.

Migel Araukaniyada silahdaşları arasında böyük ad-san qazansa da, şəxsən polkovnik Alonsonun və başqa tanınmış zabitlərin yanında husn-rəğbətə malik olsa da, özu bu müharibədə böyük bədbəxtçiliklə üzləşmişdi. Babası ilə yanaşı o, atasını da itirmək üzrə idi. Qoca səyyahın nəvəsinə söylədikləri sözlər demək olar ki, hərtərəfli özünü doğruldurdu. Kartahenalar nəslinin demək olar ki, heç birisi öz əcəli ilə ölməmişdi. Onlar ya müharibələr, ya təbii fəlakətlər, ya da ki, dəniz səyahətləri zamanı həlak olmuşdular. Rodriges 91 yaşına çatmışdı və hamı əmin idi ki, o, vaxt gələndə öz dünyasını dəyişəcək. Çünki Araukaniyada başlanan müharibə ispanların qalibiyyəti ilə başa çatmaq üzrə idi. Tam qələbə əldə etmək üçün ekspedisiya iştirakçılarına yalnız bircə qələbə lazım idi. Lakin həlledici döyüş

baş verməmiş Rodriges araukanlar tərəfindən xəyanətkarcasına öldürülmüşdü.

İndiki durumda Migelin daxilindəki hissləri belə bir fikir üstələyirdi, əgər, qoca Rodriges də qeyri-adi şəraitdə öldürülürsə, deməli geç-tez həmin aqibət onu da gözləyir. Migel də Kartahenalar nəslinin başqa nümayəndələri kimi öz əcəli ilə ölməyəcək. Ancaq bilinmirdi o, hansı torpaqda, hansı ərazidə həmin aqibətlə üzləşəcək? Ən vacibi isə bilinmirdi, Migel neçə yaşında qeyri-ixtiyari halda öz dünyasını dəyişəcək? Hər şey Allahın hökmündən asılı idi.

Hazırda Migel yalnız intiqam hissi ilə yaşayırdı. Nəyin bahasına olursa-olsun, o son döyüşdə öldürülmüş qohumlarının və silahdaşlarının qisasını almaq üçün qatı və azğın düşmənə qarşı növbəti döyüşə yollanmaq istəyirdi. Halbuki Migel özü şəxsən düşmənin yüzə yaxın döyüşçüsünü qılıncdan keçirmişdi.

Həlak olanları üç gündən sonra ispanların "qanlı vadi"də yaratdıqları qəbristailıqda basdırmaq qərara alındı. Kapitan Filipp ata minərək qəzəb və hiddət içində hamının gözu qarşısında qardaşı Alonsoya dedi:

- Mənə elə gəlir, bundan sonra sənin mövqeyin həmin yırtıcılara qarşı dəyişər. Biz vaxt itirmədən öz silahdaşlarımızın intiqamını almalıyıq.

- Biz burada nəfəs alan bütün araukanları qılıncdan keçirməliyik. - deyə Karlos Odovaldo hüznlə qışqırdı. - Birdəfəlik onların kökünü kəsməliyik.

- Tüfeyli həyat tərzi keçirməyə öyrəşən yırtıcılar qarşımızdakı dağlar kimi sərt və soyuqdurlar. - kapitan Karl qəzəblə qışqırdı. - Onların bu işıqlı dünyada yaşamağa mənəvi hüquqları yoxdur. Araukanların hamısı öldürülməldir.

- Elçilər bütün dünyada toxunulmaz şəxslər sayılırlar. - kapitan Alonso əlavə etdi. - Onlara əl qaldıranlar həmişə Allah tərəfindən lənətləniblər.

- Alonso, göstəriş ver, gedək onların quldur yuvasını darmadağın edək. - deyə Filipp atını düz qardaşının yanına sürdü. - Yırtıcılar öz cəzalarına çatmalıdırlar.

Polkovnik Alonso atın yüyənindən yapışaraq qardaşından aşağı düşməyi tələb etdi. Filipp aşağı düşəndən sonra o, özü atın belinə sıçradı və konkistadorların qarşısında atı dal ayaqları üstə qaldıraraq iradə ilə dedi:

- Heç bir müharibə itkisiz olmur. Hər birimiz bu torpaqda düşmən tərəfindən öldürülə bilərik. Çünki araukanlar başqa canilər kimi gah arxadan, gah da pusqudan zərbə endirməyi xoşlayırlar. Bu çirkin əməlləri həyata keçirmək üçün onlarda yaxşı şərait var. Araukaniyanın hündür dağları, sıldırım qayaları, keçilməz meşələri, kollarla əhatə olunmuş dar cığırları araukanların quldur əməllərinə xidmət

edir. Allah özü şahiddir ki, mən bu torpaqda artıq qan axıtmaq istəmirdim. Lakin aborigenlər özləri məcbur edirlər ki, mən qəti və sərt addımlar atım. Hamınız bilin və agah olun! Bu gün biz vadinin cənubunda yerləşən araukan kəndinə hücum edib onu ələ keçirməliyik. Müqavimət göstərən hər bir hindu aman verilmədən məhv edilməlidir. Əlində silah olan adam təslim olmaq istəyəcəksə, həmin adam da dərhal öldürülməlidir. İspanlar özlərinin kim olduqlarını bütün araukanlara sübuta yetirməlidirlər.

- Alonso, bəs son döyüşlər zamanı əsir aldığımız aborigenlərin aqibəti necə olacaq? - deyə Filipp inadla soruşdu. - Onları edam etmək lap yerinə düşər.

- Başqa hindulara dərs olsun deyə, onları hökmən edam etmək lazımdır. - deyə kapitan Karl əlavə etdi.

- Onlar ispan əsgərinə qarşı silah işlətdiklərinə görə hamısı dərhal edam edilməlidir. - deyə qraf Filipp hökmlə dilləndi. - Araukanlara ölüm!

- Yaxşı! - deyə polkovnik hamını sakitləşdirdi. – Silahdaşlarımızı torpağa basdıran günü əsirlikdə olan araukanların hamısı qardaşlıq qəbristanlığının ağzında edam edilsin. Ancaq bu gün biz cənubdakı kəndi ələ keçirməliyik.

Bütün ekspedisiya iştirakçılarına hazırlıq əmri verildi. Yarım saat ərzində konkistadorlar yürüşə başlamalıydılar. Lakin birdən-birə Migelə xəbər verdilər ki, atasının

vəziyyəti kəskinləşib. Migel də dərhal ora yollandı. Kapitan Leon bədənindəki ağrılara dözə bilməyib bərkdən zarıyırdı. O, oğlunu görən kimi bütün iradəsini toplayıb zavallı tərzdə:

- Migel, sənə əsas tövsiyyəm ondan ibarətdir ki, tezliklə buranı tərk edib Peruya qayıdasan.

- Nəyə görə? - deyə Migel ehtiyatla soruşdu.

- Araukanlar 45 ildir ki, bizim əsgərlərə qarşı müqavimət göstərirlər. - Leon dərindən nəfəs ala-ala tənginəfəs halda dilləndi. - Hələ bundan sonra da uzun müddət müqavimət göstrəcəklər. Sən buradan getməlisən.

Bu dəmdə kapitanın burnundan qan açıldı. Migel onun yanındakı ağ parça ilə qanı silməyə başladı. O, çox gözəl başa düşürdü ki, atası aldığı yaralardan fiziki əzab çəkir və axırıncı məğlubiyyəti heç cürə özünə bağışlaya bilmirdi. İndi Migel çalışırdı ki, atasında ruh yüksəkliyini qaldırsın. O dedi:

- Araukanlar hərtərəfli məğlubiyyətə düçar olublar. Onları tam məğlub etmək üçün bizə yalnız bircə döyüş lazımdır. Sağlıq olsun, həmin döyuşdən sonra biz qalib kimi bir yerdə evə qayıdacayıq. Araukaniyada gedən müharibəyə birdəfəlik son qoyulacaq.

- Sən hələ də uşaq fikirlisən. Nəyə görə başa duşmək istəmirsən ki, biz bu müharibədə tam qələbə əldə edə

bilməyəcəyik. Bu müharibədə bizə qarşı bütün xalq iştirak edir. Xalqı isə məğlub etmək mümkün deyil.

- Araukanları biz kökündən qıracayıq. - deyə Migel atasına təsəlli vermək istədi. - Sən özun bu qələbənin şahidi olacaqsan. Onların hamısı məhv ediləcək.

- Mən bu müharibədə 91 yaşlı atamı itirmişəm. İstəmirəm ki, sən də bu müharibənin qurbanı olasan.

- Mən bura ölməyə gəlməmişəm. Babamın və başqa silahdaşlarımın qisasını almayınca Araukaniyanı tərk etməyəcəm. Həmin günə də çox az qalıb.

- Yaşamağıma bir-iki gün qalsa da sənə bildirirəm ki, Araukaniyada İspaniyanın zəfər bayrağını sancmaq bizimkilərə müəssər olmayacaq. Acı da olsa, bu əsl həqiqətdir.

- Əgər elədirsə, onda bəs sən nə üçün bu müharibədə iştirak etməyə öz razılığını bildirdin?

- Atam ilə oğlumun iştirak etdikləri bir ekspedisiyadan kənarda qalmaq, mənim üçün böyük bir biabırçılıq sayılardı. Sizi mən tək buraxa bilməzdim.

- Axı, sən əvvəllər bizim ekspedisiyanın uğuruna inanırdın? Düşmənin pusqusuna düşəndən sonra səndə bu inamsızlıq yarandı.

- Migel, mən nə dediyimi çox yaxşı bilirəm. Araukanlar yekdilliklə müharibəyə qalxıblar. Onları məğlub etmək həqiqətən də mümkün olmayacaq. Azadlığı qan içində

boğmaq heç kimə nəsib olmayıb. Bir oğul kimi sən mənim sözlərimə qulaq asmalısan. Öz cavanlığını məhv etmə. Sənin böyük gələcəyin var. Öz bacarığını başqa sahələrdə yoxla. Tezliklə buranı tərk et.

- Müharibə başa çatmamış?

- Əlbəttə! İlk növbədə evimizə gedib anana və bacı-qardaşlarına dəyməlisən. Üçümüzün də ölum xəbəri Limaya gedib çıxsa, ananın ürəyi qab gətirməyib partlayacaq. Korsarlara qarşı döyüşmək daha sərfəli sayılar.

- Həm araukanlar, həm də korsarlar İspaniya kralının düşmənləri sayılırlar. Onların hamısı məhv edilməlidirlər.

- Araukanlar bu torpağın yerli sakinləridirlər, korsarlar isə xalis quldulardır. Migel, bu ölkə bizim nəsil üçün cəhənnəm yuvası sayılır. Bizim nəslin əksəriyyəti bu torpaqda öz ölümünü tapıb. Tezliklə buranı tərk et. Sən Limaya salamat qayıtmalısan.

- Biz Limaya bir yerdə qayıdacayıq. - deyə ehtirasla dillənən Migel yenə də atasına təsəlli verməyə çalışdı. - Hər şey sən istədiyin kimi olacaq. Biz bir yerdə admiral de Neyranın növbəti ekspedisiyasında iştirak edəcəyik. Xristofor sənin yaralarını tam müalicə edəcək.

Migel atasına təsəlli versə də, bilirdi ki, bir-iki günə Leon öləcək. O, qəhərini gücbəla ilə öz daxilində boğurdu. Çalışırdı atasının qarşısında özünü gümrah aparsın. Lakin

Leon öləcəyini yəqin bilirdi və məhz buna görə də oğlunun Araukaniyadan tezliklə çıxıb getməsini arzulayırdı. Son saatlarını yaşayan Leon oğluna əsl həqiqəti söyləyirdi.

Azad yaşamağı xoşlayan araukanlar yaşadıqları bu torpağın əsl varisləri idilər. Başqa hindu tayfalarından fərqli olaraq araukanlar hamılıqla azadlıq mübarizəsinə qalxmışdılar. Xalqa qarşı hansı ordu ilə müharibə aparırlarsa-aparsınlar, həmin müharibədə tam müvəffəqiyyət əldə etmək mümkün olmurdu. Çunki xalq üzərində qələbə qazanmaq indiyənə kimi heç kimə nəsib olmayıb. Belə bir gedişatla bu müharibədə araukanlar yox, ispanlar özləri məğlub olacaqlar. Bütün bu amilləri Leon çox yaxşı bilirdi, ona görə də oğlunu bu yoldan uzaqlaşdırmaq üçün böyük səy göstərirdi. O, əzgin halda dedi:

- Mən bilsəm ki, sən tezliklə Araukaniyanı tərk edəcəksən, onda rahat ölərdim. Araukaniyanı tərk etsən, fərz elə mənim arzumu yerinə yetirmiş olacaqsan.

- Arxayın ola bilərsən, mən tezliklə Araukaniyanı tərk edəcəm. - deyə Migel tərəddüd etmədən dilləndi və gözlərində əmələ gələn yaşları silərək kədərlə sözunə davam etdi. - Mən nəinki buranı tərk edəcək, hətta Sakit okeana yollanacaq admiral de Neyranın növbəti ekspedisiyasında iştirak etməyə böyük səy göstərəcəm. Ata, mən bütün

varlığım ilə çalışacağam ki, sənin bütün arzularını həyata keçirim. Sən heç bir şeyə görə narahat olma.

- Hə, bu başqa məsələ. İndi mən rahat nəfəs alaram.

Ondan sonra Leon başını o biri tərəfə döndərib dilinə bir kəlmə də söz gətirmədi.

Elə bu vaxt yürüşə başlamaq üçün təbil çalındı. Keşikçilərdən başqa hamı bu kəndi cənub istiqamətində tərk etdi. Yürüşə gedən bütün konkistadorlar hərbi əməliyyat zamanı sərbəst fəaliyyətə malik idilər.

Kəndin girəcəyinə kimi onlar maneəsiz irəliləmişdilər. Elə orada onlar araukanların avanqarddakı döyüşçuləri ilə toqquşdular və çox keçmədən kəndin içərisinə daxil oldular. Kənddə müqavimət göstərən mülki əhalinin çox az hissəsi kənddə qalmışdı. Əhalinin qalan hissəsi bir gün əvvəl kəndi tərk etmişdi. Döyüşçülər isə konkistadorlara qarşı kəskin müqavimət göstərmirdilər. Onlar əsasən pusqu taktikasından istifadə edirdilər.

Sağ qalan döyüşçülər kəndi tərk edəndən sonra, araukanların yaşayış məntəqəsinə birinci süvarilər daxil oldu və qarşılarına çıxan hər bir adamı kimliyindən asılı olmayaraq qılıncdan keçirməyə başladılar. Bu, qəzəblənmiş konkistadorlar tərəfindən araukanların başına açılan müsibət idi. Onların törətdikləri vəhşiliklərinə, amansızlığına və qəddarlığına qarşı, ispanlar da eyni üsulu tətbiq edirdilər.

İspan elçilərinin yarı yolda qətlə yetirilməsi, araukanların mülki əhalisinin qırılmasına səbəb olmuşdu. Artıq hindular başa düşmüşdülər ki, ispanlar adekvat addımlar atırlar. Elə adam vardı ki, onlar bir nəfər də olsun, mülki əhalidən heç kimi qətlə yetirmədi. Onlar bu hərəkəti öz vicdanlarına sığışdırmadılar.

Konkistadorlar bu əməliyyatdan qayıdanda eşitdilər ki, kapitan Leon qanaxma nəticəsində keçinib. Ələbəttə, Migel bu faciəyə hazır idi. Leon da üç gündən sonra "qanlı vadi"dəki qardaşlıq qəbristanlığında atası ilə yanbayan dəfn ediləcək.

Havanın qaralmasına az qalmış polkovnik Alonso hamıya istirahət etməyə icazə verdi. Lakin ertəsi günü konkistadorlar hərbi əməliyyatı davam elətdirmək üçün kasiklərin yerləşdiyi kəndə yollandılar. Migel həmin yolun yarısını yaxşı tanıdığına görə dəstənin başında getdi. Düzənliyi keçəndən sonra konkistadorlar, kəndin yerləşdiyi dağın yuxarısına qalxan yolda bir neçə dəfə araukanların qurduqları pusqulara düşdülər. Çətinliklə olsa da, ispanlar dörd pusqudan keçə bildilər, lakin sonradan geri qayıtmağa məcbur oldular. Araukanların itkisini saymaq mümkün olmurdu. Çünki onlar həmişə ağacların arxasında pusqu qururdular və nadir halda açıqlığa çıxırdılar. Bu döyüşlərdə konkistadorların beşi öldürüldüyündən hücumun istiqaməti

dəyişdirildi. Onlar həmin dağı şimal tərəfdən dövrə vuraraq, kəndi ələ keçirmək üçün keçid axtarmağa başladılar. Lakin ispanlar yarı yolda başqa bir kəndlə rastlaşdılar və mülki əhali tərəfindən heç bir müqavimətə rast gəlmədən həmin yaşayış məntəqəsini ələ keçirdilər. Kənddə qırxa yaxın mülki adam vardı və onların hamısı, cavan qızlardan başqa, leytenant Karlosun və qraf Filippin başçılığı ilə, xüsusi qəddarlıqla qılıncdan keçirildi. Bu vəhşi aksiyaya qarşı kapitan Alonso ilə Migel kəskin etirazlarını bildirdilər. Amma azğınlaşmış konkistadorlar onların bu etirazlarına heç bir əhəmiyyət vermədilər, əksinə əsir alınmış qızların saçlarından yapışaraq özləri ilə "qanlı vadi"yə apardılar. Onlar düşərgə qurulmuş kəndə qayıdan kimi qızların hamısını (yeddi nəfər qız idi) balaca daxmanın içinə saldılar. Guya həmin qızlar ispanların məişət işlərində böyük köməklik göstərməliydilər.

Polkovnik Alonso bu qənimətə görə əsgərlərə öz təşəkkürünü bildirdi. Qızların burada olması məişət işləri ilə məşğul olan konkistadorların işini xeyli yüngülləşdirəcək.

X fəsil. Qalib konkistadorlar düyünə düşürlər

Xuanın ölümündən sonra Alonso Odovaldo demək olar ki, qəm dünyasına qərq olmuşdu. Fikirdən o, özünə gəlmirdi və vaxtının əksəriyyətini elə qardaşının meyidi üzərində keçirirdi. Filipp, Karlos, Kamaço və Morelos qardaşları aborigenlər arasında çoxlu günahsız adamların qanını axıtsalar belə, hələ də onların hirsi və qəzəbi soyumamışdı. Onlar hələ də dağlarda və meşələrdə gizlənmiş mülki əhalinin qanını axıtmaq istəyirdilər. Ümumiyyətlə, konkistadorların əksəriyyəti araukanların soyqırımını təşkil etmək istəyirdilər. Bunun üçün ekspedisiya rəisinin tam razılığı lazım idi. Hamı Alonsonun bu vəziyyətindən istifadə edərək, onu cinayət xarakterli əməllərə sövq etməyə çalışırdı. Onun yaxın qohumları və əlaltıları yavaş-yavaş özbaşına hərəkətlərə əl atırdılar. Bəzi konkistadorlar açıq-aydın ekspedisiyada hökm sürən dəmir nizam-intizamı pozmağa başlamışdılar. Kəndə gətirilən qızların başına min-bir oyun gətirirdilər. Səsləri çıxmasın deyə, onlar qızların ağzına əski basırdılar. Zorlama aktları elə geniş vüsət almışdı ki, hətta qızlardan birinin bu işgəncəyə dözə bilməyib ürəyi dayanmışdı. Bu məsələni istədikləri kimi ort-basdır etmək üçün polkovnikə dedilər ki, qız işləməkdən boyun qaçırmaqdan otrü özünü intihar edib. Əlbəttə,

şok vəziyyətində olan polkovnik bu sözlərə inanmaya bilməzdi. Hərtərəfli olaraq onu aldatmaqa çalışırdılar. Hindu kəndlərində də mülki əhalinin amansız halda qırılmasına bəraət qazandırmaq üçün Alonsoya bildirdilər ki, əhali öz döyüşçülərinə kömək etmiş, ispanların hücumuna isə müqavimət göstərdiyinə görə qılıncdan keçirilmişdi. Məhz bu yalana görə də qırğının törədilməsinə o, heç bir reaksiya vermədi.

Bu haqsızlığa və ədalətsizliyə görə bəzi zabitlər polkovnikin xəbəri olmadan öz narazılıqlarını həmin adamlara bildirdilər. Onlar da öz növbəsində haqsız və ədalətsiz hərəkətlərinə haqq qazandırmaq üçün kapitan Xuanın və başqalarının xəyanətkarcasına öldürülməsini əsas gətirirdilər. Həmin xəyanətkarlığa görə bütün araukanlar kimliyindən və yaşından asılı olmayaraq, aman verilmədən qılıncdan keçirilməlidirlər. Söz yox ki, onların dediklərində böyük həqiqət vardı. Elə ekspedisiya rəisini də düşündürən məhz bu məsələ idi.

Araukan kasikləri ilə başlanan sülh danışığı Alonso üçün faciə ilə nəticələnmişdi; hinduların quldurcasına qurduqları pusquda onun qardaşı, ekspedisiyanın müşaviri, notariusu və bələdcisi öldürülmüşdü. Bu dəfə onların cinayətinə göz yummaq mümkün deyildi. Lakin indi onu başqa məsələ də bərk düşündürürdü; sonrakı hərbi əməliyyatlar necə davam

etdirilməli idi? Axı, kasiklərin yerləşdiyi kənd strateji baxımından çox əlverişli bir yerdə idi. Həmin kənd sıldırım qayalarla və keçilməz meşələrlə əhatə olunmuşdu. Bütün yollar da araukanlar tərəfindən ciddi nəzarət olunurdu. Düzdür, Alonso yaxşı hücum planı tərtib etsə, həmin kəndi çətinliklə olsa da, ələ keçirə bilər. Ancaq həmin əməliyyatda xeyli konkistador öldürüləcək. Bu qələbə isə ispanlar üçün məğlubiyyət kimi sayıla bilər. Həm də Alonsonun başçılıq etdiyi heyətin sayı xeyli azalmışdı; yüzdən yuxarı konkistador öldürülmüş, 60-70 nəfəri isə yaralı vəziyyətdə, 30-40 nəfər isə xəstə halında idi. Hücum əməliyyatına başlamaq üçün yaralıların və xəstələrin hamısı ayaq üstə qaldırılmalıdır. Bunun üçün onların hamısına heç olmasa on günlük istirahət verilməlidir. Buna baxmayaraq Araukaniyaya Perudan ən azı 150 nəfər mühacir və ya tərxis olunmamış əsgərlər gətirmək lazımdır. Çünki Araukaniya fəth ediləndən sonra bu ölkəni idarə etmək lazım gələcəkdir. Yerli hindular bir daha baş qaldırmasın deyə, ölkənin bir neçə sektorunda hərbi qarnizonlar və ya düşərgələr yaratmaq lazımdır. Əlbəttə, bütün bu məsələləri həll etmək üçün indidən sağ qalan zabitlərlə müzakirə aparmaq gərəkdir. Konkistadorlar torpağa tapşırılandan sonra Alonso müəyyən adamlarla məsləhətləşmələr aparmağı qərara gəldi.

Hələlik hamı öz işi ilə məşğul idi. Ən əsas işi isə, hərtərəfli sarsılmış çoqrafiyaşünas Bartolomeu görünürdü. O, konkistadorların həyatını, onların döyüşlərdə necə fədakarlıqla döyüşdüklərini və ümumiyyətlə, Araukaniyada müharibənin necə getdiyini öz kitabında əks etdirmək istəyirdi. Bartolomeu son döyüşlərdə kimin necə, hansı şəraitdə həlak olduğunu dəqiq öyrənməyə çalışırdı. Necə olsa da, buradakı hadisələr Yeni Dünya sahillərində "konkista" hərəkatının əsl tarixini əks etdirirdi. Bartolomeu bir alim kimi yazdığı tarixi kitabın nəinki İspaniyada, hətta Avropanın başqa ölkələrində böyük əks-sədaya səbəb olacağına əmin idi. İlk növbədə isə İspaniya kralı II Filipp alimin bu titanik səviyyədə görülmuş zəhmətini lazımınca qiymətləndirəcək.

Başqalarına nisbətən o, bu müharibədə heç bir əzizini (Bartolomeunun bu müharibədə iki oğlu iştirak edirdi, Ameriqo və Xristofor) itirməmişdi. Lakin mərhum Rodriges Kartahena İspaniyada onun ən yaxın dostu sayılmış və qoca səyyahın hindular tərəfindən vəhşicəsinə qətlə yetirilməsi coqrafiyaşünası çox möhkəm sarsıtmışdı. O, inana bilmirdi ki, hindular 91 yaşlı əli silahsız bir adamı öldürərək, başını kəsiblər. Aborigenlər sivil normalarına riayət etmək fikrində deyil. Bir çox radikal zadəganların

dediyi kimi araukanlar həyatın ən sərt qanunları ilə cəzalandırılmalıdırlar.

Sonuncu döyüşun iki şahidi sağ qalmışdı, Migel ilə Ernando. Ernando yaralı olduğuna görə çoqrafiyaşünas əsasən, həmin döyüş barədə Migeli sorğu-suala tutmuşdu. O, öz kitabında bu ekspedisiyanın tanınmış fiqurlarının hansı vəziyyətdə, hansı şəraitdə həlak olduqlarını qeyd etmək istəyirdi. Bir sözlə, alim həmin adamları bütün İspaniyaya tanıtdırmaq istəyirdi. Migel özü qəm-qüssə, kədər içində olsa da, atasının sözlərini tez-tez yada salaraq, araukanların göstərdiyi müqaviməti bir növ təhlil edirdi. Artıq o, anlamağa başlayırdı ki, araukanlar tamamilə darmadağın edilməsələr, buradakı müharibə hələ uzun illər davam edəcək. Onların tamamilə məhv edilməsi üçün ispanların köməyinə yeni qüvvə gəlməli idi. Elə bir-birilərinin arasında gedən söhbət zamanı Bartolomeu keçmiş şagirdinə izah etdi ki, burada başlanan müharibənin sonu görsənmir. Halbuki bütün üstünlüklər ispanların tərəfində idi.

Bu məsələ polkovnik Alonsonu bərk narahat edirdi. O, elə hey fikirləşirdi ki, araukanlar üzərində tam qələbəni necə əldə etsin və cəhənnəmi xatırladan bu ölkədən necə yaxasını qurtarsın. Axı, Alonso İspaniya kralına söz vermişdi ki, o, vətənə yalnız qələbə ilə qayıdacaq. İndi o,

özünü bütün dünyadan təcrid edilmiş bir adam kimi hiss edirdi. Və bu düyündən, bu məngənədən çıxmaq üçün sərkərdə lazımlı adamlardan yaxşı məsləhətlər almaq istəyirdi. Bu işdə onun bəzi adamlara böyük ehtiyacı vardı. Düzdür, bir çox zabitlərin fikrini öyrənmək onun üçün vacib deyildi. Çünki onların təklifi yalnız düşməni hər yerdə təqib edərək, məhv olunmasından ibarət olacaqdı. Ona isə sağlam fikirli, realist adamların fikri lazım idi. Alonso artıq başa düşmüşdü ki, çoğrafiyaşünas Bartolomeu, leytenant Ernando, kapitan Alonso və Migel araukan məsələsinin düyününü açmaq üçün ona yaxşı məsləhətlər verə bilərlər. Polkovnik onların hamısını qaldığı evin həyətinə çağırdı və keşikdə duran əsgərlər oradan uzaqlaşdırdı.

- Sizi bura çağırmaqla, araukan məsələsini birdəfəlik həll etmək fikrindəyəm. - Alonso hamıya ötəri nəzər salaraq iradə ilə dilləndi. - Aborigenlər demək olar ki, dizləri üstə çökdürülüb. Onları tamamilə məhv etmək üçün gərək hamısı bir yerdə olsunlar. Bildiyiniz kimi, araukanların sağ qalmış qüvvələri xırda qruplarla ətrafdakı dağlara və keçilməz meşələrə səpələniblər. Düzdür, onlar əməli tədbirlərə əl atmayıblar. Ancaq onların partizan hərəkatına başlamasını hiss etmək çətin deyil. Belə olan halda araukanları tam məğlubiyyətə uğratmaq mümkün olmayacaq. Onlar istədikləri variantlarda bizə qarşı müqavimət göstərəcəklər və

istər-istəməz, burada başlanan müharibə daha da uzanacaq. Əlbəttə, belə bir çətin məqamlarda mərhum Rodriges mənə yaxşı məsləhətlər verirdi. İndi isə mən həmin məsləhətlərdən məhrumam. Məhz buna görə də mən bu məsələyə dair sizin fikrinizi bilmək istəyirəm.

- Don Alonso, aborigenlər dağlara və keçilməz meşələrə səpələnsələr də onların əsas qərargahı kasiklərin olduğu kənddə yerləşir. - deyə kapitan Alonso təmkinlə dilləndi. - Biz həmin kəndi ələ keçirsək və oradakı kasikləri darmadağın etsək, demək olar ki, Araukaniyada başlanan müharibənin sona çatmasını xeyli sürətləndirərik. Aborigenlər kasiklərsiz yetim övladlar sayılır və onların müqaviməti çox çəkə bilməz.

- Bu nəzəriyyə mövqeyindən mümkün olmayan bir variantdır. - deyə Bartolomeu üzrxahlıqla dilləndi. - Lakin heç kim təminat verə bilməz ki, biz kəndi ələ keçirəndən sonra kasiklər həmin kənddə olsunlar. Onlar, hücum başlanmazdan əvvəl kəndi tərk edə bilərlər.

- Çoxları deyirdilər ki, mənfur Koro öldürülsə, araukanların müqaviməti qırılacaq. - deyə Ernando bu sözu xüsusilə vurğuladı. - Sinyor Migel, onun başını bütün silahdaşlarımızın qarşısında yerə tulladı, lakin hindular silahlarını yerə qoymadılar. Sözümün canı ondadır ki, biz kasiklərin hamısını edam etsək də araukanlar müqaviməti dayandır-

mayacaqlar. Sanki bu müharibədə onları hansısa bir qüvvə idarə edir.

- Araukanların demək olar ki, əsas qüvvəsi darmadağın edilib, elə yerdə qalan qüvvə də məhv ediləcək. - deyə kapitan Alonso yenə də bu söhbətə müdaxilə etdi. - Sadəcə olaraq, bizim qələbə günümuzun vaxtı uzadlaşacaq. Dağlarda və keçilməz meşələrdə gizlənən aborigenləri təqib edib məhv etmək üçün biz xeyli vaxt itirəcəyik. Qələbə sözsuz halda bizimlədir.

- Möhtərəm sinyorlar, mən bir çox hindu tayfalarının dövri fəaliyyəti ilə maraqlanmış və açıq deyə bilərəm ki, araukanlar öz indkarlığı, döyüşkənliyi və möhkəm iradəsi ilə heç bir hindu tayfasına oxşamırlar. - Bartolomeu aludəliklə dilləndi. - Rəhbərləri məhv edilsə də, onlar öz mübarizələrini davam etdirəcəklər. Onların yerinə başqa hindu tayfası olsaydı, ya çoxdan məğlub, ya da ki, bizim təzyiqə tab gətirməyib təslim olardılar. Leytenant Ernando demişkən, sanki bu müharibədə onları hansısa bir qüvvə idarə edir. Bu çox qəribə bir haldır.

- Axı, mən başa duşmək istəyirəm ki, nəyə görə onlar bu cür inadkarlıqla müqavimət göstərir və hansı bir qüvvə onları idarə edir? - deyə polkovnik Alonso maraqlandı.

Müvəqqəti olaraq hamının arasında dərin sükut yarandı və bəziləri biri-birilərinə sualedici nəzər saldı. Sanki onlar

həmin sualın cavabını biri-birilərinin gözlərində axtarırdılar. Təxmini olaraq Migel həmin suala cavab tapmışdı, lakin onu bəyan etməkdən çəkindi. Onun ifadəsi burada oturanları bir növ mənəvi cəhətdən sarsıda bilərdi. Həmin ifadələri kapitan Leon ölməmişdən bir neçə saat əvvəl oğluna söyləmişdi. Migelin söyləyəcəyi sözlər, çox güman ki, polkovnikin acığına gələ bilərdi. Necə olsa da, Alonso mərd, vətənpərvər və millətçi adam idi. Sükutu görən Alonso bir daha öz sualını təkrarlamalı oldu. Onda çoğrafiyaşünas bütün iradəsini toplayaraq ehtiramla dedi:

- Don Alonso, mən bu haqda öz fikrimi söyləyə bilərəm. Amma qorxuram mənim sözlərim siz döyüşçülərin xoşuna gəlməsin. Sonra isə məni xəyanətkar adam kimi qələmə verəcəksiniz.

- Sizi soyuqqanlılıqla dinləməyə hamımız hazırıq. - deyə polkovnik bir rəis kimi hamının yerinə cavab verdi.

- Mən, Araukaniyanın bu ərazisindəki vəziyyəti və hadisələrin gedişatını özüm üçün təhlil etmişəm. – coğrafiyaşünas dilləndi. - Necə ki, hamını, eləcə də məni araukanların kəskin şəkildə, inadkarcasına mübarizə aparmaları maraqlandırır. Nəhayət özüm üçün bir neçə mülahizə irəli yürüdə bilərəm. Bildiyiniz kimi Araukaniyanın əsl ərazisi Atakama səhrasının cənub sərhədlərindən başlayaraq, taki "qanlı vadi"yə kimi uzanır. Villaqronun və

Valdiviyanın ekspedisiyalarının yürüşləri zamanı Araukaniya faktiki olaraq iki hissəyə bölündü - şimalda ispanlar, cənubda isə araukanlar məskunlaşır. Əvvəllər araukanların geri çəkilməyə yerləri vardı. Ona görə də bizim döyüşçülər şimalda onların müqavimətini qıra bildilər. Lakin buradakı vəziyyət tamamilə başqadır. Araukanların qaçmağa daha münbit torpaqları yoxdur. Özlərinin dediyi kimi buradan cənub və şərq istiqamətlərində "ölü" torpaqlar yerləşir və həmin torpaqlarda heyvanlar da məskunlaşa bilmir. Bununla da biz araukanların fikrini başa düşmək imkanı tapırıq. Onlar çox gözəl bilirlər ki, buranı tərk edib "ölü" torpaqlara getsələr, gec-tez təbiətin sərt iqlimindən məhv olacaqlar. Məhz buna görə də aborigenlər burada qalıb bizim əsgərlərə qarşı müqavimət göstərə-göstərə ölməyi, bu torpağı tərk etməkdən üstün tuturlar. Nəinki kasiklər, hətta sıravi hindular da bu prinsiplə yaşayırlar.

- Lakin bu amil onlara, axıra qədər bu torpaqda qalıb mübarizə aparmaq üçün əsas sayılmır. - polkovnik narazı halda başını tərpədərək, alimlə tam razılaşmadığını bildirdi.
- Bunun başqa səbəbi var. Biz həmin səbəbi araşdırıb tapmalıyıq.

- Araukanlar başqa hindulara nisbətən fanatikdilər. - deyə kapitan Alonso dilləndi. - Onlar döyüşdən sanki ilham alırlar. Biz ayağımızı Araukaniyaya basandan bəri onlar hər

bir döyüşdə demək olar ki, darmadağın ediliblər. Lakin buna baxmayaraq araukanlar silahlarını yerə qoymaq fikrində deyillər. Hərtərəfli məğlub olsalar da, onlar bu torpağı tərk etmək istəmirlər. Sanki onlar ölümü öz həyatlarından üstün tuturlar.

- Xeyr, bizə elə gəlir. - Ernando etiraz etdi. - Hər bir insan bu işıqlı dünyada yaşamaq istəyir. Araukanlar da başqaları kimi insandılar. Araukaniyada müharibə başlanandan bəri buradakı aborigenlər heç vaxt indiki kimi məğlubiyyətə uğramamışdılar. İndi isə onlar həqiqətən də əsl məğlubiyyətin necə olduğunu daddılar. Buna sübut olaraq araukanların qaçıb dağlarda və keçilməz meşələrdə gizləndiklərini qeyd etmək istəyirəm. Deməli, Araukaniyada tam əldə edəcəyimiz qələbə artıq bizim qarşımızdadır. Onu əldə etmək üçün sadəcə olaraq, düşməni axıra kimi təqib edib məhv etmək lazımdır. Onlar yaxalarını bizdən qurtara bilməyəcəklər.

- Sinyor Ernando, araukanlar dağlarda və meşələrdə gizlənməklə kifayətlənməyiblər. - deyə Migel leytenantın sözlərinə təkzib verməli oldu. - Paralel olaraq onlar bizim əsgərlərə kəskin müqavimət göstərirlər. Son döyuşlər buna əyani sübutdur. Düşmən bu müharibəyə necə lazımdır hazırlaşıb. Biz öz taktikamızı dəyişməliyik.

- Sinyor Migel, bizim indiki taktikamız yalnız hücumdan ibarətdir. - deyə Ernandonun yerinə kapitan Alonso cavab verdi. - İndiki taktikamızı dəyişməli olsaq, deməli biz hücumdan imtina etməli olacağıq. Bu isə düşmənin dirçəlməsinə gətirib çıxaracaq.

- Yox, mən hücum taktikasından heç vaxt imtina edə bilmərəm. - deyə polkovnik Alonso qətiyyətlə dilləndi. - Hər hansı bir müharibədə qələbə əldə etmək istəyirsənsə, yalnız gözlənilməz və surətli hücum taktikasından istifadə etməlisən.

- Hücumu davam etdirmək üçün bizə xeyli sayda əlavə qüvvə lazımdır. - deyə Migel israrla dilləndi. - Bildiyiniz kimi həmin qüvvə bizdə yoxdur.

- Lazım gəlsə, mən həmin qüvvəni əldə edərəm. - deyə Alonso arxayınlıqla dilləndi. - Ancaq məni başqa bir şey maraqlandırır: Nəyə görə düşmən belə bir şəkildə kəskin müqavimət göstərir? Sadalanan arqumentlər bəs deyil. Bunun başqa səbəbi də olmalıdır. Ola bilsin, biz bu müharibədə araukanların zəif yerini tapmamışıq.

Polkovnikin bu sözlərindən sonra Migel atasının söylədiyi sözləri buradakılara çatdırmağı özünə lazım bildi. O, üzünü polkovnikə tutub dedi:

- Atam ölməmişdən qabaq mənə dedi ki, heç bir xalq hərəkatını, heç bir ordu məhv edə bilməyib. Araukanlar

hazırda öz müstəqillikləri və azadlıqları uğrunda ölüm-dirim mübarizəsinə qalxıblar. Onlar bu amalı hər şeydən üstün tuturlar. Mənə elə gəlir, atamın sözləri düzdür, azadlıq mübarizəsini qan içində boğmaq olmur. Araukanlar döyüşkən və qorxmaz hindu tayfasıdır, onları birdəfəlik məğlub etmək bizim üçün mümkün olmayacaq. Azadlıq mübarizəsinin qanı, onların kiçikdən tutmuş qocasına kimi damarlarına hopub.

Bu çıxış alimdən başqa bütün zabitlərin təəccübünə səbəb oldu. Daha doğrusu, onlar Migeldən belə bir şəpkidə söylənilən çıxışı gözləmirdilər. Belə fikirli adamları xəyanətkar adlandırmaqla tonqala atmaq heç bir problem yaratmırdı. Migel hiss etdi ki, yanındakı alim ona xoş baxışlarla nəzər salır və cəld ona tərəf öz nəzərini saldı. Cavan zadəgan öz müəlliminin gözlərində məmnunluq, rahatlıq ifadəsini sezdi. Bartolomeu öz şagirdi ilə tam razı idi və həmin sözlər onun da başında dumanlanırdı. Migeldən fərqli olaraq, alim həmin sözləri polkovnikin üzünə söyləməyə curət etməmişdi. Necə olsa da, ekspedisiyanın rəisi İspaniya monarxı ilə yaxından tanış idi və həmişə də II Filippin mövqeyini həm döyüş meydanında, həm də müzakirə salonlarında və ya zallarında müdafiə edirdi. Bu sözlərə görə hər bir adam polkovnikin qəzəbinə düçar ola bilərdi. Lakin o, simasında gərginlik vəziyyəti

yaratmadı və əsəblərinin qalxmasına imkan vermədi. Alonso onun xətrini həddindən artıq çox istəyirdi və buradakı müharibədə Migel, göstərdiyi şəxsi igidliklər, misilsiz qəhrəmanlıqlar və qorxmaz hərəkətlər sayəsində sərkərdənin sevimlisinə çevrilmişdir. Buna baxmayaraq, bu sözlər sərkərdənin kefinə soğan doğramaya bilməzdi. O, altdan Migelə nəzər salaraq ciddi halda dedi:

- Migel, mən səni ehtiyatlı olmağa çağırıram. Başa düşürəm, sən nəyə görə belə danışırsan. Ancaq hamınıza bildirirəm ki, biz burada yerli xalq ilə müharibə aparmırıq, sadəcə olaraq İspaniyanın qoyduğu qayda-qanunlarının bərpa olunmasına çalışırıq. Araukanlar heç vaxt öz müstəqillikləri uğrunda mübarizə apara bilməzlər, çünki Araukaniya İspaniya krallığının mülki sayılır. Burada yaşayan aborigenlər heç vaxt öz azadlıqları uğrunda mübarizə apara bilməzlər, ona görə ki, onların hamısı İspaniya krallığının sakinləri sayılırlar. Aborigenlərin hamısı Araukaniyada təqib olunaraq məhv ediləcək. Bunun üçün mən Peru vitse-kralından lazımi kömək alacağam. Burada yaranan xaos birdəfəlik aradan götürüləcək.

- Don Alonso, məgər biz buradakı qüvvə ilə araukanları təqib edərək, onları məhv edə bilmərik? - deyə kapitan Alonso maraqlandı.

- Xeyr! - polkovnik tərəddüd etmədən cavab verdi. - Mən bu müharibədə ekspedisiyamın 145 nəfər iştirakçısını birdəfəlik itirmişəm. Bundan əlavə döyüşçülərdən 77 nəfəri yaralıdır, onlardan 19 nəfərinin vəziyyəti daha ağırdır. Ekspedisiyanın seyrəlmiş sırasını doldurmaq üçün mənə 150-200 nəfər əlavə əsgər lazımdır. Həmin qüvvə Perudan gəlməsə, biz Araukaniyada əldə etdiyimiz müvəffəqiyyətdən məhrum ola bilərik. Yəni, biz əldə etdiyimiz qələbəni birdəfəlik itirə bilərik.

- Don Alonso, siz elə bilirsiniz araukanlar haçansa tutduğumuz ərazini geri qaytara bilərlər? - deyə leytenant Ernando çiyinlərini çəkərək müəmmalı tərzdə soruşdu.

- Biz bütün Araukaniyanı nəzarət altında saxlamasaq, onlar yavaş-yavaş əvvəlki üstünlüklərini geri qaytara biləcəklər. - deyə polkovnik Alonso aludəliklə dilləndi. - Mən bu ölkəni elə keçirməmişəm ki, bir daha onu itirim. İspaniyanın yaratdığı qayda-qanunları bərpa etmək üçün mən bu ölkəni 4 sektora bölmüşəm. Burada vəziyyət tam sabitləşənə qədər hər bir sektorda 50 nəfərdən ibarət piyada əsgəri və 10 nəfərdən ibarət atlı dəstəsi yerləşdiriləcək. Bütün bu qüvvələr mənim tərəfimdən təyin ediləcək komendanta tabe olacaq. Hər sektorun komendantına fövqəladə səlahiyyətlər veriləcək. İndi təsəvvür edirsiniz, Perudan gətiriləcək əlavə qüvvələr nəyimizə lazımdır? Hər

sektorda silahlı qüvvələr yerləşdirilsə, bizim tabeliyimizdə olan əhali rahatca kənd təsərrüfatı ilə məşğul olacaq, dağlarda və meşələrdə gizlənən silahlı hindular isə əlacsız qalaraq öz quldurluqlarından imtina edəcəklər.

- Don Alonso, sizin hərbi istedadınıza hər bir zabit qibtə edə bilər. - deyə Migel bu məsələyə dayr öz fikrini söyləməyə başladı. - Siz qeyd edirsiniz ki, bizim tabeliyimizdə olan əhali rahatca kənd təsərrüfatı ilə məşğul olacaq. Siz bilirsiniz, bu gedişatla biz heç vaxt mülki əhalinin üzünü görə bilməyəcəyik. Onlar bizim əsgərlərin yaxınlaşdığını görən kimi dərhal yoxa çıxırlar.

- İndi deyək ki, elədir, sonradan onlar bizim döyüşçülərə öyrəşəcəklər. - deyə kapitan Alonso polkovnikin yerinə cavab verdi. - Döyüş əməliyyatları dayandırılandan sonra onlar özləri yaşadıqları kəndlərə qayıdacaqlar.

- Belə bir qırğından sonra heç kim bizim yanımıza qayıtmayacaq. - Migel təəssüflə dilləndi. - Axırıncı kənddə bir nəfər də olsun adam sağ qalmadı. Hətta təzə yeriyən uşaqları da qılıncdan keçirdilər. Heç kimə aman verilmədi. Biz birdəfəlik mülki əhaliyə qarşı olan etimadımızı itirdik.

- Migel, sən çox yaxşı bilirsən ki, mən bir sərkərdə kimi nahaq qan axıdılmasına heç vaxt imkan verməmişəm. - deyə Alonso təkəbbürlə dilləndi. - Mülki əhali silahlı hindulara köməklik göstərməsəydi və bizim əsgərlər əhali

tərəfindən müqavimətlə rastlaşmasaydılar, heç kim onlara toxunmazdı. Həm də məndə olan məlumata görə orada heç bir azyaşlı uşağın qanı axıdılmayıb. Hamı çox yaxşı bilir ki, belə hərəkətlər mənim iş prinsipimə uyğun deyil.

- Don Alonso, əlavə şərhə ehtiyac yoxdur. - deyə Migel başını aşağı salaraq könülsüz halda dilləndi. - Mən özum həmin döyüşlərin iştirakçısı olmuşam. Oralarda baş verən qırğınlar əsl qətl idi. Hindular əllərini yuxarı qaldırıb aman diləsələr də, heç kimə aman verilmədi. Biz indidən belə bir siyasət irəli yürütsək, sonrakı dövr üçün birdəfəlik yerli mülki əhalidən məhrum olacayıq. Halbuki bizim hamımıza gün kimi aydındır ki, mühacirlər bura gəlib məskunlaşana kimi vadilərdəki torpaqları aborigenlərin özləri əkib-becərməlidirlər.

- Yaxşı, Migel, mən bu məsələni aydınlaşdıraram və həmin əməliyyata başçılıq edən zabit şəxsən mənim tərəfimdən cəzalandırılacaq. - polkovnik qəzəblə dilləndi.

- Don Alonso, məni bir məsələ yaman maraqlandırır. - deyə alim özünə xas olan tərzdə başını bir balaca yana əyərək hüznlə dilləndi. - İşdir, siz Perudan kömək istədiniz və həmin kömək müəyyən bir vaxtdan sonra Araukaniyaya gəldi, bəs, kömək gələnə qədər buradakı döyüşçülər hansı işlə məşğul olacaqlar? Axı, sizin dediyinizdən belə çıxır ki,

əlavə qüvvə gəlməsə, Araukaniyada gedən hücum yürüşləri müvəqqəti dayandırılacaq.

- Bu həqiqətən də elədir. - polkovnik təqdiredici tərzdə dilləndi. - Hazırda mən ixtiyarımda olan əsgərlərlə artıq risqlər edə bilmərəm. İxtiyarımdakılar Araukaniyada ələ keçirdiyimiz torpaqları ciddi-cəhdlə nəzarət altında saxlamalıdırlar. Mən isə o vaxta qədər Perudan kömək alaram və dəlmə-deşiklərdə gizlənən araukanların məhv edilməsini davam etdirərik. Mən, əsgərlərimin qanı hesabına qazandığım qələbəni, öz ixtiyarımızda əbədi saxlamaq istəyirəm. Bunun üçün təmkinlə iş görmək lazımdır. Bu müharibədən sonra Araukaniya birdəfəlik bizim tabeliyimizə keçməlidir. Əzəmətli kralımız II Filipp bizdən yalnız müsbət nəticə gözləyir.

- Don Alonso, müharibə başa çatandan sonra biz buranı tərk edə biləcəyik? - deyə Ernando maraqlandı. - Yəni, biz dərhal buradan uzaqlaşa bilərik?

- Mühacirlər bura gələndən sonra hamımız onların təhlükəsizliyini qorumaq üçün bir ilə yaxın burada qalmalıyıq. - polkovnik izahat verdi. - Ondan sonra kim istəsə Araukaniyanı tərk edəcək.

Günorta yeməyi başlandığına görə onların arasında gedən fikir mübadiləsi dayandı. Alonso həmin söhbətdən sonra o dəqiqə qardaşı Filippin yanına getdi və onu kəskin

tənbeh etməyə başladı. Ona görə ki, sonuncu döyüşlər zamanı konkistadorlara məhz o, başçılıq etmişdi. Hindu kəndlərində baş verən qırğınlara görə bilavasitə Filipp cavabdehlik daşıyırdı. Filipp söz götürən adam olmasa da, qardaşının iradlarına qulaq asmaq üçün əvvəlcədən hazırlıq görmüşdü. Çünki onu bu haqda Karlos məlumatlandırmışdı. İş ondadır ki, polkovnik öz adamları ilə fikir mübadiləsi aparan zaman Karlos evdə idi və həyətdə gedən söhbətin hamısını dəqiqliklə eşitmişdi.

Migel həqiqəti ekspedisiya rəisinə eşitdirdiyi üçün Filippin gözündən düşdü. Tərs xasiyyəti ilə tanınan Filipp heç vaxt ona qarşı edilən pisliyi unutmur və həmişə də incidiyi adamdan qisas almağa çalışırdı.

XI fəsil. Migel növbəti dəfə təzyiqlərə məruz qalır

Xəyanətkarcasına öldürülən ispanlar qardaşlıq qəbristanlığında basdırılandan sonra polkovnik Alonso və kapitan Manuel Markos altı nəfər konkistadorun müşaiyəti ilə

Anqud körfəzinin şimal sahilinə yola düşdülər. Bu günə kimi hələ dəqiq bilinmirdi Anqud körfəzinə kim yola düşəcək. Lakin polkovnik Alonsonun həmin missiyada iştirak etməsi hamı üçün gözlənilməz oldu. Onun bu qərarını başa düşmək çətin deyildi. İspanlar torpağa tapşırılandan sonra əsir alınmış hindular elə buradaca edam olunmalıydılar. Polkovnik isə bu edamda iştirak etmək istəmirdi. Lakin qardaşına tapşırmışdı ki, 146 nəfərdən yalnız 56 nəfər hindu edam edilsin. Yerdə qalan əsirlər isə qul kimi tikinti işlərində iştirak etməlidilər. Bu gündən dərin val ilə əhatə olunan kəndin içərisində iri inzibati binalar tikilməliydi. Məhkəmə binası, iri həbsxana, idarə, qarnizon, təchizat bazası, dörd dənə bastion və s. binalar salınmalıdır. Bu binaların salınması üçün çoxlu işçi qüvvəsi lazım olacaq. Kəndin ərazisi isə demək olar ki, üç dəfə böyüdüləcək. İspanlar bu işləri görməklə birdəfəlik Araukaniyada kök salmaq fikrindəydilər. Həm də buna oxşar tikintilər hər bir sektorda peyda olmalı idi. Bütün bu işlərə Alonsonun müavini kapitan qraf Ferdinand Morelos rəhbərlik etməli idi.

Yaralılarla məşğul olmasınlar deyə, ilk növbədə onların hamısını edam etmək qərara alındı. "Qanlı vadi"dəki rəhbərlik müvəqqəti olaraq kapitan Filippə taşpırılmışdı. Edam məsələsini isə o, bilavasitə Morelos qardaşları ilə müzakirə edirdi. Qərara alındı ki, 16 nəfər hindu tonqalda

yandırılsın, 40 nəfər isə dar ağacından asılsın. Elə qəbristanlığın girəcəyindən vadinin şərq sərhədi boyunca əsirlərin köməyi ilə 40 dənə dirək basdırıldı. Bütün bu işlər axşamçağı saat 5-də başa çatdı və dərhal edam başlandı. Bütün bu hadisələr əsirlikdə qalan hinduların gözü qarşısında baş verirdi. Birinci 40 nəfər dar ağaclarından asıldı, ondan sonra tonqalda yandırılanların növbəsi çatdı. Tonqallar eyni vaxtda alışdırıldı. Edam olanların ah-naləsi, qışqırtısı və bağırtısı bütün ətrafa, çox-çox uzaqlara yayılırdı. Onların iztirabı və çəkdikləri əzab-əziyyət kövrək qəlbli adamların daxilində vahimə və ürəkyanğısı yaradırdı. Həmin adamlar bu edama sakit halda baxa bilmirdilər. Migel, yaralardan yenicə müalicə olunmuş Osvaldonun yanında dayanmışdı və qarşısındakı dəhşətli səhnəyə baxa bilməyib qaldıqları kəndə qayıtmağı lazım bildi.

Vadinin şərq hissəsindəki dağlara diqqətlə nəzər salanda, oralarda seyrək halda hinduları görmək olurdu. Onlar qardaşlıq qəbristanlıqının ağzında baş verən edama ürək yanğısı ilə tamaşa edirdilər. Necə olsa da, dar ağacındakı və tonqallardakı cinayətkarlar onların həmyerliləri və yaxınları idi. Migel dağlardakı adamlara baxa-baxa cənub istiqamətində öz hərəkətini davam etdirirdi. Osvaldo hələ də özünü pis hiss etdiyinə görə cəza yerində qalmağı məsləhət bildi. O, kəndə araba ilə getmək istəyirdi.

Migel vadi ilə heç yüz metr getməmişdi ki, Lope İnyes onu at belində haqladı. Cavan zadəgan qəbristanlığı özbaşına tərk etdiyinə görə bir çoxlarının narazılığına səbəb olmuşdu. Edam başa çatana kimi Migel silahdaşlarının yanında olmalı idi. O, kapitan Filippin göstərişinə əməl edərək geri qayıtdı. Lakin Migel ora qayıdanda heç kimin yanında dayanmadan birbaşa gedib atasının qəbri üstündə oturdu. Onun bu hərəkəti narazı olanları qıcıqlandırmağa başladı. Çünki Migel arxası edam olanlara tərəf oturmuş və gözucu da olsa, hinduların müsibətinə nəzər salmırdı.

Karlos əmisinin yanında dayanaraq, Migelə nəzər sala-sala Morelos qardaşları ilə nə haqdasa pıçıldaşırdı. Osvaldo kənardan dayanıb onların hərəkətini izləyirdi. Nəhayət Karlosla, qraf Xuan Migelə tərəf yollandılar. Elə ona çatan kimi qraf dedi:

- Sinyor Migel, görünür, siz hinduların edamına baxa bilmirsiniz.

- Mənim elə uşaqlıqdan inkvizisiya metodlarından xoşum gəlməyib. - deyə Migel tərəddüd etmədən dilləndi. - Məhz buna görə də mən insanların edamına baxa bilmirəm.

- Edam edilənlər insan deyillər. - deyə Karlos cəld təkzib verməli oldu. - Onların hamısı yırtıcı heyvanlardır. İmkanım olsa, diri-diri onların dərisini soyardım.

- Onlar kim olursa-olsunlar, mənim edamlara sakitcə dayanıb tamaşa etməyə ürəyim gəlmir. - deyə Migel ona nəzər salmadan təmkinlə dilləndi.

- Tonqallarda ulayan yırtıcılar bizim silahdaşlarımızdan 145 nəfərini qətlə yetiriblər. - deyə qraf Xuan hiddətləndi. - Bundan əlavə 77 nəfər ispan əsgəri aldığı yaralardan şikəstlik qazanıblar. Öz silahdaşlarının xatirini hər şeydən üstün tutan vicdanlı və qeyrətli ispan əsgəri, İspaniya krallığının qatı düşmənlərinin necə edam edilməsinə baxmağa məcburdur və həmin yırtıcıların necə ulamalarına qulaq asıb həzz almalıdır. Polkovnik Alonsonun yerinə olsaydım onların hamısını edam edərdim. Hər bir aborigen ağır işkəncələrlə öldürülməlidir.

Qrafın sözləri Migelin ləyaqətinə toxunmaya bilməzdi. Cavan zadəgan o dəqiqə ayağa qalxdı və qrafa tərs nəzər salaraq hüznlə dedi:

- Don Xuan, mənim qeyrətim də var, vicdanım da. Bu müharibədə mən özüm üçün ən əziz adamları - atamı və babamı itirmişəm. Lakin buna baxmayaraq, mən əzizlərimin qanını axıdan qatillərin edamına baxmaq istəmirəm və bu işə heç kim məni məcbur edə bilməz. İndi isə xahiş edirəm, məni rahat buraxın. Mən atamın qəbri üzərində tək qalmaq istəyirəm.

- Deməli, bizim gəlişimiz səni narahat edir? - deyə Karlos qamətini qabağa verərək ikrah hissi ilə dilləndi. - Bu qəbristanlıqda mənim əmim basdırılıb. O da ki, sənin babanın ucbatından aborigenlər tərəfindən öldürülüb.

Qəzəbdən Migelin ürəyi çırpınmağa başladı. Onun gözlərinin bəbəyi az qala orbitdən çıxacaqdı. Migel Karlosun üstünə şığımaq istəyəndə Xuan sinəsi ilə onun qarşısını kəsərək, əsəbləşməməyi tövsiyyə etdi. Xeyli kənarda dayanan kapitan Filipp, kapitan Karl ilə birlikdə həmin yerə tələsdilər. Onlar qorxurdular ki, Migel ilə Karlos arasında silahlı münaqişə başlayar və bu hadisə başqa konkistadorların intizamına pis təsir göstərə bilər. Həm də hamı çox yaxşı bilirdi ki, Karlosun Migeldən xoşu gəlmir və həmişə çalışırdı ki, onu bir yol ilə qıcıqlandırsın. Necə olsa da, müharibənin ilkin mərhələsində konkistadorların uğursuzluğunda bir necə zadəgan günahkar bilinmişdir, o cümlədən Karlos da. Həmin adamlar bilavasitə polkovnik Alonsonun tənqid və tənbehinə məruz qalmışdılar və o, heç cürə onları həmin günaha görə bağışlamırdı. Karlos da atasının üz döndərməsində Migeli təqsirləndirirdi. Lakin Migel inana bilmirdi ki, öz qanı bahasına, həyatını birbaşa təhlükə altına atmaqla hindu əsirliyindən azad etdiyi bir adam onun üzünə ağ olsun. O, əlini qılıncının efesinə aparıb qürurla dedi:

- Necə ki, kapitan Xuan, eləcə də mənim atam və babam düşmənin quldur əməlinin qurbanı olublar. Babam polkovnik Alonsonun göstərişini yerinə yetirərək, Araukaniyada başlanan müharibəni dinc yolla bizim xeyrimizə həll etmək istəyirdi. Bu işdə babamı günahlandıran hər bir kəs kimliyindən asılı olmayaraq, mənim qılıncımın ulgücünə tuş gələ bilər.

- Məni öz qılıncınla qorxuzursan? - deyə Karlos qılıncını əlinə alaraq hiddətlə dilləndi. - Qorx ki, qılıncın öz başına dəysin. Sən keçmiş günləri tez unudursan.

Elə bu dəmdə Filipplə, Karl özlərini bura çatdırdılar və iki tərəfdən Migeli əhatəyə aldılar. Burada kimin günahkar olduğunu aşkar etmək çətin deyildi. Lakin buna baxmayaraq, hamı Migeli sakitləşdirməyə başladı. Bu təzyiqə dözə bilməyən Migel öz narazılığını bildirdi. O, dedi:

- Mən ixtiyar vermərəm ki, kimsə mərhum babamın şərəf və ləyaqətini alçaltsın. Həmin adamın mənsubiyyətinə heç bir əhəmiyyət vermədən onu qılıncımla cəzalandıracağam. Hamı mənim qılıncımın nə dərəcədə iti olduğunu çox yaxşı bilir.

- Sinyor Migel, siz bizə hədə-qorxu gəlirsiniz? - deyə Filipp narazı halda dilləndi.

- Söhbət şəxsən sizdən getmir. - deyə Migel hirsli baxışlarını Karlosdan çəkməyərək qəqiyyətlə dilləndi. - Bu sözlərin kimə aid olduğunu həmin adam çox yaxşı bilir.

Karlos bu sözlərə reaksiya verməyə bilməzdi. Daha doğrusu, o, özünə yaxın adamların burada olmasından istifadə edərək, Migelə təzyiq göstərməyi qərara aldı. Karlos daha bir addım irəli yeriyərək giley-güzarla dedi:

- Mən, heç kimin şərəf və ləyaqətini alçaltmaq istəmirəm. Sənin üçün hər hansısa bir hindu deyiləm ki, mənə hədə-qorxu gələsən. Mən həmin Karlosam ki, bir neçə ay bundan əvvəl səni öz yumruqlarımla şül-küt etmişdim. Həmin məqamda bəzi adamlar Anqud körfəzinin sahilində olmasaydılar, mən səni öldürə də bilərdim. Özünü pis aparsan, artıq bu dəfə səni öz qohumlarının yanına göndərərəm.

- Sinyor Filipp, qardaşınız oğlunun səsini kəsin, yoxsa mən onu burada qanına qəltan edəcəm. - deyə Migel "Vanquardia" gəmisinin kapitanına müraciət etdi.

- Siz çox yüksəkdən danışırsınız. - Filipp öz narazılığını Migelə bildirdi. - Sizin sözləriniz, şəxsən mənim xoşuma gəlmir. Bu bir növ ekspedisiyada hökm sürən nizam-intizamın pozulmasına gətirib çıxarır. Özünüzü ələ alsanız pis olmazdı.

- Sinyor Migel, burada yaranan iğtişaşın əsl səbəbkarı sizsiniz. - deyə qraf Xuan dilləndi. - Hamı krallığımızın

düşmənlərinin edam olmasına baxır, siz isə heç kimə heç nə demədən, saymazyana halda buranı tərk etdiniz. Sizin bu özbaşına hərəkətiniz heç kimin xoşuna gələ bilməz. Hələ bu azdır, siz Karlosa da hədə-qorxu gəlirsiniz.

- Sinyor Migel, azdan-çoxdan sizin döyüşçülər arasında hörmətiniz var, lakin siz də onların hörmətini saxlamalısınız. - deyə kapitan Karl ciddi halda dilləndi.

- Hamı necə, siz də dinməzcə dayanıb edama baxmalısınız. - qraf Xuan səsini qaldırmalı oldu. - Heç kimin ekspedisiyada olan nizam-intizamı pözmağa ixtiyarı yoxdur.

Migel artıq başa düşdü ki, hamı onu tikanlı sözlərlə əsəbiləşdirərək, burada münaqişə yaratmaq istəyirlər. Daha doğrusu, onlar qorxmaz zadəganın qısa müddət ərzində qazandığı hörməti gözdən salmağa çalışırdılar. Bütün ekspedisiya iştirakçıları arasında heç kim Migel kimi döyüş meydanlarında şəxsi igidliyə görə yüksək nailiyyətlər əldə edə bilməmişdi və sifətindən xainlik yağan adamların heç birisi bu nəticə ilə barışa bilmirdilər. Əzizlərini bu müharibədə itirən Migel onsuz da matəm içində idi və dərd-qəmdən onun qanı qaralmışdı. Belə olan vəziyyətdə də onlar gəlib nalayiq sözlərlə Migelin əsəblərini oynadırdılar. Ünvanına söylənilən iradlardan təngə gələn Migel hamıya ötəri nəzər salaraq qürurla dedi:

- Mən nizam-intizamı xoşlayan adamam. Ancaq mənim edama baxmağa heç bir halım yoxdur. İndi isə məni rahat buraxın.

Migel bu sözləri söyləməklə, burada yaranmaqda olan münaqişəni lokallaşdırmaq istədi. Lakin Karlos başda olmaqla, zabitlər Migeli cəzalandırmamış qəbristanlığı tərk etmək istəmirdilər. Daha doğrusu, onlar Migeli cəzalandırmaqla onu polkovnik Alonsonun gözündən salmaq istəyirdilər. Alonso "qanlı vadi"yə qayıdandan sonra hər şeydə cavan zadəganı günahkar qismində təqdim etməyə çalışacaqlar. Migelin əsəbləri ilə oynayan qraf Xuan çılğın Karlosu qabaqlayaraq istehza ilə dedi:

- Heç kim sizin rahatlığınızı pozmaq istəmir. Lakin məni bir sual yaman bərk maraqlandırır: yırtıcı hindular başqa həmyerlimiz ilə birlikdə sizin atanızı və babanızı qətlə yetiriblər. Belə olan halda siz həmin yırtıcıların edamında nəinki iştirak etməlisiniz, hətta onların bir neçəsini özünüz edam etməlisiniz.

Qraf bu sözləri başa çatdırandan sonra Karlosun üzündə şit təbəssüm sezildi. Lakin Migel sırtıq zadəganın bu hərəkətinə heç bir əhəmiyyət verməyərək, qrafa öz fikrini söyləməli oldu. O, dedi:

- Mən, ispan zadəganıyam, cəllad deyiləm ki, şəxsən kimi isə edam edim. İstər döyuşçü, istərsə də cinayətkar olsun, mən heç vaxt silahsız adama əl qaldırmamışam.

- Əgər, mən bu edama rəhbərlik edirəmsə, deməli mən cəlladam? - deyə kapitan Filipp hiddətləndi.

- Sənin dilini kəsmək mənə borc olsun. - Karlos qılıncını qarşısında tutaraq Migelin üstünə hücum etmək istədi.

Qraf onun qolundan tutaraq Migelin üstünə qışqırdı. İş ondadır ki, Karlos tək başına 6 nəfər hindunu dar ağacından asmışdı və Migelin sözləri onu hirsləndirməyə bilməzdi.

- Mən, heç kimi cəllad adlandırmıram və adlandırmaq fikrim də yoxdur. - deyə Migel öz qılıncını çıxararaq hazırlıqlı vəziyyətdə dayandı. - Mənim dilimi kəsmək istəyən qoy qabağa çıxsın.

- Sinyor, göz-görəsi siz burada iğtişaş yaradırsınız. - deyə Filipp öz qəzəbini gizlədə bilmədi. - Qılıncınızı qınına qoymasanız, sizi həbs etdirməli olacağam.

Hamıdan çox emosiyaya qapılan Karlos daha da əsəbləşərək hücuma keçmək istədi, ancaq kapitan Filipp onun qarşısını kəsdi və özünü ələ almasını tələb etdi. Qraf Xuan isə gözlərini Migelin üstünə bərəldərək hüznlə dedi:

- Sinyor, öz dilinizə yiyə durmasanız, bütün döyuşçüləri özünüzə düşmən edəcəksiniz. Əsl zadəgan öz danışığını bilməlidir.

Qrafın nə demək istədiyini başa düşmək çətin deyildi. O, buradakı münaqişənin qarşısını almaqdan çox daha da qızışdırmağa səy göstərirdi. Nəinki Karlosu, hətta ətrafında dayanan bütün zabitləri də Migelin üstünə qaldırırdı. İlk növbədə bu sözə Filipp reaksiya verməli oldu. O, dedi:

- Sinyor Migel, mən qrafın sözləri ilə tamamilə razıyam. İgid gərək öz ağzını köndələn qoymasın.

- Mən ağzımı heç vaxt köndələn qoymamışam. - deyə Migelin əsəbdən əlləri titrəməyə başladı. - Bu nədir, məni şərləmək istəyirsiniz? Sizin hamınızı...

- Sizin ucbatınızdan qardaşım mənə ağzına gələni deyib. - deyə Filipp həmsöhbətinin sözunu kəsərək hiddətlə qışqırdı. - Guya biz hindu kəndində günahsız adamların qanını axıtmışıq. Məndə olan məlumata görə orda olan əhali bizim əsgərlərə qarşı kəskin müqavimət göstərmişdi.

Filipp həmin əməliyyatda konkistadorlara başçılıq etsə də, qırğın baş verəndə kənddən bir qədər aralıda olmuşdu. Həmin qırğına qraf Xuan ilə Karlos başlamış və bu işdə yerli əhalini günahkar çıxarmışdılar. Kapitan Filipp özünü kəndə yetirəndə artıq əhalinin üçdə-iki hissəsi qətlə yetirilmişdi və özü də günahsız adamların qırılmasında iştirak etməyə başlamışdır. Ümumiyyətlə, qırğının necə başlanmasının əsl şahidi Migel özü olmuşdur və bu işdə

kapitan Filippin günahkar olmadığını çox yaxşı bilirdi. O, Filippin fikrini özünə cəlb edərək səbirsizliklə dedi:

- Sinyor Filipp, həmin kənddə günahsız hinduların qanı axıdılmışdı və bu işdə sizin heç bir günahınız yoxdur. O ki, qaldı don Alonsonun bu işdən hali olması; o, ekspedisiyanın rəisi kimi bütün Araukaniyada nə baş verdiyini tam doğru şəkildə və ətraflı bilməlidir. Əgər, siz də həqiqəti bilmək istəyirsinizsə, onda eşidin. Hindu kəndində azyaşlı uşaqların və yeriyə bilməyən qocaların qətlə yetirilməsində qraf Xuanın və leytenant Karlosun böyük günahları var. Həmin qırğın bilərəkdən onlar tərəfindən törədilmişdir və sizə yalan məlumat verməklə siz də həmin qırğının iştirakçısına çevrilmişdiniz.

Bu sözlərdən sonra Filipp yerindəcə donub qaldı və qardaşı oğluna qəribə nəzər saldı. Qraf Xuan isə vəcdə gələrək, Migelin üstünə hücum çəkdi və bir-birinin ardınca qılıncı ilə rəqibinə xaotik zərbələr endirməyə başladı. Migel tez özünü ələ alaraq, mütəşəkkil qaydada həmin zərbələri qaytara-qaytara dərhal əks-hücuma keçdi. Geri çəkilmək istəyən qrafın ayaqları qoca səyyahın qəbrinə dəyərək arxası üstə yerə dəydi. Migel onun aciz vəziyyətdə olduğunu görərək hücumunu dayandırdı və istehza ilə dedi:

- Bir daha mənə qarşı silah qaldırsanız sizi cəhənnəmə vasil edəcəm.

Elə bu dəmdə Karlos qışqırıqla Migelin üstünə şığıdı. Onun bu hücumu elə gözlənilməz oldu ki, Migel mudafiə olunmaq üçün bir necə addım geri çəkildi. Lakin bu dəfə də kapitan Filipp onların arasına girdi və Karlosdan geri çəkilməyi tələb etdi. Karlos qəzəb içində öz rəqibini hədələyərək hüznlə dedi:

- Çox sağ ol de, əmimə. Yoxsa, səni qohumlarının ardınca o dünyaya göndərəcəkdim.

- Sinyor Filipp, mənim zadəganlıq ləyaqətim Karlos tərəfindən alçaldılıb. - deyə Migel həqarətlə dilləndi. - Mən hökmən öz ləyaqətimi dueldə qorumalıyam və siz bizim dueldə görüşməyimizə heç bir maneəçilik törətməməlisiniz.

Hamının yanında biabır olan qraf Xuan öz mənliyini reabilitasiya etmək üçün kənardan Filippə dedi:

- Sinyor Filipp, onunla dueldə Karlos yox, mən görüşməliyəm. O, şəxsən mənim tərəfimdən cəzalandırılmalıdır. Migeli öldürməsəm, mən Araukaniyanı tərk etməyəcəyəm.

- Onun dərsini mən özüm verəcəm. - deyə Karlos gileygüzarla dilləndi. - Birinci onun dilini kəsəcəm, sonra isə cəhənnəmə vasil edəcəm. Onsuz da hamı ondan bezibdir.

- Mən duel tələb edirəm. - deyə, Karlosun həyasızlığına dözə bilməyən Migel əsəbi halda qışqırdı.

- Biz bura müharibəyə gəlmişik, biri-birimizi duellərdə məhv etməyə yox. - kapitan Filipp əllərini qaldıraraq emo-

siyaya qapılanları sakitləşdirməyə çalışdı. - Sağlıq olsun, müharibə başa çatandan sonra biri-birinizlə dueldə görüşün. İndi belə bir imkanı mən heç kimə yarada bilmərəm.

Filippin etirazına baxmayaraq həm Migel, həm də Karlosla qraf Xuan ondan duelin təşkil olunmasına təkid etməyə başladılar. Hər bir zadəgan özunün şərəf və ləyaqətini qorumaq üçün dueldən istifadə etmək hüququna malik idi.

Qardaşlıq qəbristanlığında yaranan səs-küy edamda iştirak edən konkistadorların marağına səbəb oldu. Müharibənin birinci mərhələsindən Araukaniyada döyuşən konkistadorlar üçün Migel ilə Odovaldo və Morelos qardaşları arasında yaranan münaqişə böyük təəccübə səbəb olmuşdu. Özu də hansı vəziyyətdə, düşmənin edam olunduğu bir vaxt. Onların dayandığı yerdən qəbristanlığı aydın görmək olurdu və hamı görürdü ki, Migel oradakı zadəganlar tərəfindən güclü təzyiqə məruz qalıb. Lakin hər bir döyüşçü Migelin necə peşəkar döyüşçü olduğundan xəbərdar idi və onun necə basılmaz və məğlubedilməz bir fədai olduğunu çox yaxşı bilirdi. Oradan duel sözü eşidiləndə çoxlarını maraqlandıran o idi ki, görəsən kim cəsarət edərək Migeli duelə çağırır. Axı, qılınc oynatmaqda bu ekspedisiya iştirakçıları arasında onun tayı-bərabəri yoxdur. Migel

demək olar ki, hər bir adamı dueldə məğlubiyyətə uğrada bilərdi. Onun bacarığına və təcrübəsinə hamı bələd idi.

Karlos qılıncını qınına qoyub Migelə xəbərdarlıq etdi:

- Bu gündən sənin Araukaniyada qara günlərin başlayır. Gecələr yatanda entiyatlı ol. Bir gün sən günəşin parlaq işığına əbədi həsrət qalacaqsan.

- Allaha dua et ki, burada müharibə qurtarmasın. - Migel başını giley-güzarla tərpədərək qürurla dilləndi. - Müharibə başa çatan kimi sən bu həyatla vidalaşmalı olacaqsan.

Bundan sonra Migel heç kimin danışığına, replikasına, hədə-qorxusuna əhəmiyyət verməyib qəbristanlığı tərk etdi. Kapitan Filipp isə hamını sakitləşdirməyə başladı. Necə olsa da, o buradakı nizam-intizama və hər bir döyüşçünün həyatına cavabdehlik daşıyırdı.

Əvvəllər olduğu kimi Migel yenə də Karlos tərəfindən təzyiqə məruz qalırdı, onun hədə-qorxusu elə-belə şey deyildi. Migel həqiqətən də ondan ehtiyatlanmalı idi. Necə olsa da, Karlos kinli adam idi, öz istək və arzusunu həyata keçirmək üçün, alçaq və namərd hərəkətlərindən istifadə edirdi. Hazırda Migel araukanlar tərəfindən olan təhlükədən əlavə, Karlos və onun əlaltıları tərəfindən gələn təhlükədən də ehtiyatlı olmalı idi.

XII fəsil. Konkistadorların düşmən ərazisində taxıl əldə etməsi

Artıq üç gün idi ki, polkovnik Alonso “qanlı vadi”ni tərk etmişdi. Burada qalan konkistadorlar ekspedisiya rəisinin göstərişinə əsasən, heç bir hücum əməliyyatlarında iştirak etməməli, müdafiə xəttini möhkəmlətmək üçün mövqe tutduqları kənddə istehkam tikməklə məşğul olmalı idilər. Daha doğrusu, həmin tikintidə əsir alınmış hinduların əməyindən istifadə olunurdu. Hindular səhər açılandan, ta hava qaralana qədər ispanların güclü nəzarəti altında demək olar ki, acqarnına ağır fiziki işlə məşğul olurdular. Tab gətirə bilməyən, yerə yıxılan kimi nəzarətçilərin qamçıları ilə döyülürdülər. Heç kim, aborigenlərə qarşı tətbiq edilən qeyri-insani metodlara dözə bilib-bilməmələri haqqında düşünmək istəmirdi. Kapitan Filipp isə cavabdeh bir şəxs kimi onların təhlükəsizliyi üçün məsuliyyət daşımaq fikrində deyildi. Polkovnik Alonsonun göstərişi olmasaydı, Filipp çox məmnuniyyətlə onların hamısını edam edərdi.

Elə oldu ki, konkistadorların ərzaq ehtiyatı tükəndi və komandanlıq bu vəziyyətdən çıxış yolu axtarmağa başladı. Ən əlverişli variant sıx meşələrdə ova çıxmaq sayılırdı. Lakin həmin yerlərdə aborigenlər kiçik qruplu ispan dəstələrini məhv edə bilərdilər. Araukanlar belə fürsəti heç

vaxt əldən verməzlər. Ancaq bu da çıxış yolu deyildi. Ona görə ki, ova çıxmaqla taxıl əldə etmək mümkün olmayacaq. Bütün taxıl ehtiyatı hinduların ixtiyarında idi.

Köhnə konkistadorlar kapitan Filippə izah etdilər ki, hindularla birtəhər əlaqəyə girib əsirləri taxıla dəyişsin. Həmişə onların ərzaq ehtiyatı qurtaranda ispanlar məharətlə bu üsuldan istifadə ediblər. Nə qədər ki, Alonso Anqud körfəzinin sahilində idi, Filipp sərbəst halda qərar çıxarmalı idi. Dərhal bir nəfər hindu əsirlikdən azad edilərək, dağlarda gizlənən öz silahdaşlarının yanına göndərildi. Ona izah edildi ki, axşamçağı saat 5-də "qanlı vadi"yə taxıl gətirilməlidir. 4 kisə una bir hindu əsirlikdən azad ediləcək. İşdir, tələb yerinə yetirilməsə hər saatdan bir edam meydanında bir hindu əsirinin başı kəsiləcək. Səhər saat 8-ə qədər 15 nəfər hindu edam ediləcək. Bu bir növ hindu kasikləri üçün ultimatum idi. Bu ultimatumun qəbul olunması üçün hələ 6 saat vaxt vardı.

Vaxt vədə çatmamış kapitan Filipp, kapitan Alonsonun başçılığı altında 10 nəfər süvarini "qanlı vadi"nin qərb hissəsinə ova göndərdi. İspanlar çox yaxşı bilirdilər ki, hindular həmin meşələrdən yoxa çıxıblar. Onlar əsasən, And dağlarına bitişik meşələrdə mövqe tutmuşdular. Süvarilər hava qaralana qədər kəndə qayıtmalıydılar.

Axşamçağı saat 5 olanda ispanların vadidə qalmış süvari dəstəsi hinduların nəzarət altında saxladıqları yolun ağzında dolaşmağa başladılar. Lakin hindular orada görünmürdülər. Araukanların bu məsələyə biganə yanaşmaları kapitan Filippin əsəbilərinə toxundu və o, ölümə məhkum edilmiş aborigeni edam yerinə aparmağı, əlaltılarına göstəriş verdi. Hindu edam kürsüsünə gətiriləndə, həmin işi icra etmək üçün Karlos özü canfəşanlıq göstərməyə başladı. Hər an qan axıtmaq arzusu ilə yanan Karlos həmin qətli özü həyata keçirdi. Boynu bükülmüş qurbanın başı ikinci zərbədən sonra bədənindən ayrıldı. Bu qətldən sonra özünü rahat hiss edən Karlos xeyli yüngülləşdi. Onun imkanı olsa idi, əsirlikdə olan bütün hinduların bircə-bircə başlarını kəsərdi.

Ağacların arasında gizlənən hindular bu dəhşətli səhnənin şahidi olurdular və bu işin kim tərəfindən görüldüyünü də çox yaxşı sezirdilər. Necə olsa da, Karlos vaxtilə aborigenlərin əsiri olmuşdu.

Edamın üstündən yarım saat keçmişdi ki, birdən yaxınlıqdakı təpənin üstündə bir aborigen peyda oldu və öz qışqırığı ilə ispanları özünə cəlb etdi. İspanlar dərhal həmin təpənin ətəyinə yaxınlaşdılar. Təpənin üstündə dayanan ortayaşlı hindu ispan dilini sərbəst halda bildiyinə görə həmin dildə dedi:

- Mən sizə kasiklərin çıxardığı qərarı söyləməyə gəlmişəm. Burada baş verən edam dayandırılmalıdır. Sizin tələblərinizə görə biz hər bir əsirin dəyişdirilməsinə görə dörd kisə un verməliyik. Kasiklər bu tələblə razılaşmayıblar. Onlar hər bir əsiri iki kisə una dəyişməyə hazırdırlar.

- Bu mümkün olan şey deyil. - deyə kapitan Filipp tərəddüd etmədən dilləndi. - Əlimizdə olan bütün hindular, İspaniya krallığı qarşısında ağır cinayətlər törətdiklərinə görə ölümə məhkum olunublar. Onları yalnız bu şərt əsasında azad edə bilərik.

- Kasiklərin çıxardıqları qərar qətidir. - hindu dilləndi.

Çıxılmaz vəziyyətdə qalan ispanlar bu qərarı qəbul etməliydilər. Qarşıdakı aborigen ilə də alış-veriş aparmaq mənasız idi. Çünki kasiklər bütün bu məsələni həll etmişdilər və hindu bura yekdil qərar ilə gəlmişdir. Kapitan Filipp çox yaxşı başa düşürdü ki, onlar bu qərarın yumşalmasına dair müqavimət göstərsələr, onda qasid buranı tərk edə bilər. Məhz buna görə də Filipp xeyli fikirləşəndən sonra dedi:

- Onda gəl belə edək. Hər əsirə görə bizə üç kisə un verin, biz də əsirləri azad edək. Bundan yaxşı qərar ola bilməz.

- Sizə dedim ki, kasiklərin çıxardığı qərar qətidir! - hindu hökmlə dilləndi.

- Tələbi kasiklər yox, biz qoyuruq. - deyə kapitan Karl əsəbi halda dilləndi.

Araukaniyada son bir ildə döyüşlər başlanandan sonra əhalinin əkinlə məşğul olmasına imkanı olmayıb. Məhz buna görə də bizim özümüzdə taxıl ehtiyatı xeyli azalıb. Biz heç bilmirik üzümüzə gələn qışı necə keçirəcəyik? Ona görə də siz kasiklərin çıxardığı qərar ilə razılaşmalısınız. Əks təqdirdə biz danışıqları dayandıracayıq.

Bu dəfə, doğrudan da, danışıqların yersiz olduğunu hiss edən Filipp hindu ilə razılaşdığını bildirdi. O, da öz növbəsində dedi ki, səhər saat 8-də 20 nəfər əsirin azad olunması üçün, mərkəzi yolun meşəyə girən hissəsinə 40 kisə un gətiriləcək.

Ertəsi günü elə də oldu. Meşənin girəcəyində heç bir qeyri-adi hadisə baş vermədən əsirlər hinduların gətirdikləri una dəyişdirildi. Lakin bu da çıxış yolu deyildi. Çünki muəyyən bir vaxtdan sonra konkistadorların unu qurtaracaq və onlar yenə də hindulara müraciət etməli olacaqlar. Hökmən Araukaniyada ispanların taxıl ehtiyatı anbarları yaradılmalı idi. Əks təqdirdə onlar ya acından ölməli, ya da ki, Araukaniyanı tərk etməliydilər. Deməli, konkistadorların qazandığı uğur əldən çıxa bilərdi.

İspanların Anqud körfəzinin şimalında saldıqları fortun hündür divarlarının tamamlanması başa çatmaq üzrə idi.

Daxildə əsgəri kazarma və iki dənə böyük olmayan ev tikilmişdi. Fortun hər küncündə bir bastion salınmalıydı. Bu da fortun həm dənizdən, həm də qurudan mudafiəsinə böyuk köməklik göstərəcəkdi. Ümumiyyətlə, ispanlar Anqud körfəzinin şimal sahilində şəhər tipli qəsəbə tikmək fikrindəydilər. Bəlkə də həmin qəsəbə gələcəkdə dönüb şəhər olacaq. Hər şey Araukaniyada yaradılacaq sabitlikdən asılı idi.

Qazanılan uğurun əldə saxlanılması üçün, körfəzin sahilinə gəlib çıxmış polkovnik Alonso əməli tədbirlərin görülməsinə böyük səy göstərirdi. O, qraf Ferdinandla bu haqda qızğın mübahisə aparırdı.

- Araukanlar özlərinə gəlməmiş, əlavə qüvvə toplamamış, yaralı döyüşçülərini sağaltmamış biz onların tam məğlubiyyətinə nail olmalıyıq. - deyə Alonso qrafa izah etməyə başladı. - Biz onları elə vəziyyətə salmalıyıq ki, araukanlar mübarizə aparmaq üçün bir daha dirçəlməsinlər. Bunun üçün biz Peru vitse-krallığından 150-200 nəfərlik bir dəstəni bura gətirməliyik. Bütün Araukaniya bizim nəzarətimiz altında olmalıdır. Birdəfəlik biz bu ölkədə yaşayan aborigenlər üzərində hökmranlığımızı nümayiş etdirməliyik.

- Don Alonso, Araukaniyaya gəlməmişdən əvvəl biz Perudan bir çox könüllüləri öz ekspedisiyamıza cəlb etdik. -

deyə qraf məyus halda dilləndi. - Bundan sonra inanmıram kimsə, yenidən bizim ekspedisiyada iştirak etməyə öz razılığını bildirsin. Araukanlarla gedən müharibədə 145 nəfər ispan əsgərinin həlak olmasını eşidəndən sonra hamı bu kompaniyada iştirak etməkdən boyun qaçıracaq. Çunki araukanların məğlubedilməzliyi haqqında gedən miflər gedib Peruya da çıxıb. Belə bir amili heç kim nəzərdən qaçırmaz.

- Bu müharibədə aborigenlər əzilib, darmadağın ediliblər, biz isə müvəffəqiyyət əldə etmişik. - deyə Alonso təkzib verməli oldu. - Don Ferdinand, 45 illik müharibədə ilk dəfədir ki, bizim əsgərlər böyük qələbə əldə ediblər.

- Əlbəttə, bu elədir. - deyə qraf təqdiredici tərzdə dilləndi. - Lakin Perudan kömək istəyəndə, orada belə bir sual verilə bilər ki, əgər biz düşmən üzərində böyuk qələbə əldə etmişiksə, onda 150-200 nəfərlik qüvvə bizim nəyimizə gərəkdir? İkinci sual isə bundan ibarətdir ki, əgər biz qələbə əldə etmişiksə, nəyə görə 145 nəfər əsgərimizi son döyuşlərdə itirmişik? Bu suallara cavab vermək heç də asan olmayacaq.

- Mən bunların hamısını çox yaxşı dərk edirəm. Lakin Perudan kömək ala bilməsən, biz Araukaniyada əldə etdiyimiz qələbəni çox saxlaya bilməyəcəyik. Bu ölkə tam

şəkildə bizim nəzarətimiz altında olmalıdır. Bunu edə bilməsək, biz İspaniyaya əliboş qayıtmalıyıq.

- Siz deyirsiniz ki, axırıncı döyüşdən sağ çıxan hindular qaçıb dağlarda gizləniblər və onları təqib edib məhv etmək üçün, bizə kifayət qədər canlı qüvvə lazımdır. İşdir, həmin qüvvə bizdə olmasa, ixtiyarımızda olan qüvvə ilə onları məğlub etmək mümkün deyil? Axı, eşitdiyimə görə düşmənin 150-200 nəfərlik döyüşən qüvvəsi qalıbdır. 30-40 nəfər əsgərimiz çox asanlışa onların öhdəsindən gələ bilər.

- İspan əsgərinin qüdrətinə və qüvvəsinə mən çox yaxşı bələdəm. Düşmən bizimlə açıq döyüşdə rastlaşsa, onları çətinlik çəkmədən məhv etmək mümkündur. Sonuncu döyüşlərdən sonra inana bilmirəm ki, onlar bizimlə açıq meydanda üzləşsinlər.

- Don Alonso, siz tanınmış və bacarıqlı sərkərdələrdən birisiniz. Sizə bu barədə məsləhət vermək yersizdir. Lakin izah etməliyəm ki, indi havalar çox mülayim və istidir. Qarşıdan isə yay fəsli gəlir. İsti havalarda düşməni dağlarda təqib etmək böyuk çətinlik yaratmaz. Bəlkə, biz payız gələnə kimi onların məhvi ilə məşğul olaq?

- Bu da optimal variant sayılmır. Mən dağ döyüşləri taktikası ilə çox yaxşı tanışam. Az qüvvə ilə onları təqib etmək qeyri-mümkündür. Cənubda gizlənən düşmən gözlənilmədən şərqdə və qərbdə peyda ola bilər. Belə bir

vəziyyətdə onlar bizim arxa cəbhəmizə, düşərgəmizə və nəzarət altında saxladığımız kəndlərə hücum həmlələri endirə bilərlər. Nəticədə biz özümüz məğlubiyyətə düçar olacayıq. Həm də nəzərdən qaçırmayın ki, mülki əhali mütəşəkkil surətdə onlara köməklik edir. Onlar hamılıqla bizə qarşı müqavimət göstərirlər.

- Əgər, elədirsə, onda ilk növbədə mülki əhalini qılıncdan keçirmək lazımdır, sonra isə dağlarda gizlənənləri.

- Araukaniya ölkə şəklində bizim krallığın tabeliyi altına keçməlidir. Mən, bu ölkəni qəbristanlığa döndərmək istəmirəm. Burada yaşayan mülki əhalini qırandan sonra ölkənin çiçəklənməsində və inkişafında kimlər iştirak edəcək? Bilirsiniz ki, Araukaniyanın böyük ərazisi dağlarla və vulkanlarla əhatə olunub? Buranın təbiəti isə, başqa yerlərdə olduğundan çox sərtdir. Torpaqların əkilib becərilməsində hökmən mülki əhali yaxından iştirak etməlidir. Bura gələcək mühacirlərin bu ölkədə qalıb yaşaması sual altında qalır. Çünki buradakı sərt təbiətə çox adam öyrəşə bilməyəcək. Həm də Araukaniyada münbit torpaqlar çox azlıq təşkil edir. Ərazidə qiymətli metallar olsa idi, mühacirləri birtəhər bura cəlb etmək olardı. Lakin həmin metallar da burada yoxdur. Dediyim odur ki, Araukaniyada tam qələbə əldə etmək üçün biz mütləq əlavə qüvvə almalıyıq. Həmin qüvvə ilə döyüşənləri elə məhv

etməliyik ki, bundan mülki əhali ziyan çəkməsin. Yalnız müqavimət göstərən əhali sərt üsullarla cəzalandırılacaq. Mülki əhali torpaq işlərindən əlavə bizə istehkamların, fortların və qəsəbələrin tikilməsində əsas rol oynayacaq.

- Don Alonso, mənə hər şey aydındır. Onda Peruya nümayəndə göndərilməlidir. Ancaq inanmıram Perunun vitse-kralı bu işdə bir köməklik göstərsin.

- Allahın köməkliyi ilə göndərər. Don Ferdinand, bu missiyanı siz öz üzərinizə götürməlisiniz. Elə günü sabah siz kapitan Manuel Markosun gəmisində Anqud körfəzini tərk edin. Bir ay müddətinə siz həmin qüvvə ilə bura qayıtmalısınız.

Qraf bu missiyadan öz yaxasını kənarlaşdırmağa çalışsa da, Alonso ona bu imkanı vermədi. Çünki ekspedisiya rəisinin verdiyi göstəriş qəti idi və onu hökmən icra etmək lazım idi. Onda qraf bu işdə, yaralı oğlu Filippin də iştirak etməsini Alonsodan xahiş etdi. O, da öz növbəsində buna etiraz etmədi.

Kapitan Marsel Düran müvəqqəti olaraq körfəzin sahilində əsası qoyulmuş ispan qarnizonunun komendantı təyin edildi. Qraf Ferdinand Perudan qayıdana qədər qarnizonun bütün heyəti ona tabe olmalı idi. Paralel olaraq sahildəki fortun tikintisi davam etdirilməlidir. Polkovnik Alonsonun planına əsasən Araukaniyanın 4 yerə bölünmüş

hər bir sektorunda nəhəng tikinti obyektləri salınmalı və həmin obyektlərin tikilməsi üçün çoxlu fəhlə qüvvəsi və sənətkarlar lazım idi. Həmin adamlar hökmən Perudan gətirilməliydi. Hələlik Alonsonun buna imkanı yox idi. Sənətkarları və fəhlələri burada işlətmək üçün onlara maaş verilməliydi. Onda isə lazımi vəsait yox idi. Axırıncı pullarını o, qraf Ferdinanda vermişdi ki, həmin pullar onun tərəfindən səmərəli qaydada istifadə edilsin.

Kapitan Manuel Markos on üç nəfər matrosla "Destino"-nu hərəkətə gətirərək noyabrın 2-də Anqud körfəzini tərk etdi və çətinlik çəkmədən qraf Ferdinandı oğlu Filipplə birlikdə Perunun Kalyao limanına çatdırdı. Qraf Filipp yerli hospitala müalicə olunmaq üçün qoyuldu. Ferdinand isə ona verilən tapşırığı yerinə yetirmək üçün Limaya vitse-kralın audiensiyasına yollandı. Perunun varisi qrafı yalnız üç gündən sonra qəbul etdi və Araukaniyadakıların heç bir istək və xahişlərini yerinə yetirməyəcəyini bildirdi. Qraf Ferdinand vitse-kraldan belə bir cavab gözləyirdi, lakin bunun kəskin formada söyləyəcəyini heç cürə ağlına gətirə bilməzdi. Lakin o, əlində olan pullara çoxlu ərzaq məhsulları alaraq vaxt itirmədən Anqud körfəzinə qayıdır.

Məcburiyyət qarşısında qalan polkovnik Alonso kapitan Karlın başçılıq etdiyi "Eldorado" gəmisində Peruya yola düşür. Limada vitse-kralın sarayına yollanan Alonso da

həmin cavabla üzləşir. Lakin qraf Ferdinanddan fərqli olaraq o, diplomatik üsullara əl atmalı olur. Alonso Perunun varisinə izah edir ki, Araukaniyaya yollanan ekspedisiya bilavasitə kral II Filippin göstərişlərini yerinə yetirir. Bu göstəriş yerinə yetirilməsə, İspaniyanın monarxı Perunun vitse-kralında öz qəzəbini yönəltməli olacaq. Məhz buna görə də Alonsonun tələbi, qismən olsa da, icra olunmağa başladı. Söz yox ki, Perunun çiçəklənməsinə, inkişafına və dirçəlməsinə böyük fikir verən vitse-kral əlinin altında olan peşəkar döyüşçüləri və bacarıqlı kadrları Araukaniyaya göndərmək fikrində deyildi. Döyüşdə təcrübəsi olmayan bacarıqsız döyüşçülər Alonsonun ekspedisiyasına daxil edilməyə başladı. Polkovnik çox yaxşı bilirdi ki, Araukaniyaya qayıdandan sonra o, yeni gətirilmiş döyüşçülərin nizam-intizamı və təlim-məşqləri ilə müəyyən bir dövr məşğul olmalıdır.

Limada o və yaxın silahdaşları Migelin anasıgildə qalırdı. Elə həmin zaman Kartahenalar ailəsi kapitan Leonun və qoca səyyah Rodrigesin ölümləri haqqında məlumatı eşidirlər. Bu xəbər Migelin anasını yaman bərk sarsıdır.

XIII fəsil. Araukaniyaya yeni qüvvənin gətirilməsi

Polkovnik Alonso Peruda bir aydan çox vaxt keçirməsinə baxmayaraq, orada ekspedisiya üçün cəmisi 111 nəfər adam toplaya bildi. Həmin heyətin yarısı demək olar ki, meydan döyüşlərində iştirak etməmiş və silahdan lazımi qədər istifadə edə bilmirdilər. Lakin Alonsoya Anqud körfəzinin sahilinə 12 dənə at və xeyli ərzaq məhsulları gətirmək müəssər oldu. Perunun vitse-kralı ilə aparılan danışıqlar zamanı konkistadorlar üçün əlverişli razılaşma əldə edilmişdi. Hər ayın axırı Araukaniyanın inkişafı və yaşaması üçün 8 ton un və xeyli həcmdə başqa ərzaq malları gətiriləcək. Bundan əlavə ölkədəki silahlı hindular tamamilə darmadağın ediləndən sonra Araukaniyaya dəmirçilər, bənnalar, dülgərlər, memarlar, dərzilər və başqa sənətkarlar axışıb gələcək. İndidən Peruda onların toplanıb Araukaniyaya səfərbər edilməsi üçün, geniş təbliğat işləri aparılırdı. Polkovnik Alonso Mərkəzi Çili sahillərində yeni müstəmləkənin yaradılıb inkişaf etdirilməsi üçün böyük səy göstərirdi.

1592-ci ilin yanvarın 15-də ekspedisiyanın rəisi Perudan gətirdiyi canlı qüvvə ilə gəlib "qanlı vadi"yə çıxdı. Kapitan Filippin verdiyi ifadələr Alonsunu heç cürə qane etmirdi.

Konkistadorların əsirliyində olan 90 nəfər hindunun 70 nəfəri ac qalmamaq üçün taxıla dəyişdirilmişdi. Lakin əvəzində ispanlar "qanlı vadi"nin ətrafında yerləşən əksəriyyət kəndlərə basqın edərək, qaçmağa imkanı olmayan mülki əhalini qırmış və onlardan cəmisi 40 nəfər cavan hindu qızlarını məişət və tikinti işlərində işlətmək üçün istehkam tikilən kəndə gətirmişdilər. Qızların başına konkistadorlar tərəfindən min-bir oyun açılandan sonra, onları kənddə gedən tikintilərdə ağır fiziki iş görməyə məcbur edirdilər.

Komandanın burada olmadığı zaman kapitan Filippin başçılığı altında keçirilən cəza tədbirləri pis nəticə vermişdi. "Qanlı vadi"nin ətrafındakı yaşayış məntəqələri mülki əhali tərəfindən atılaraq xarabalıqlara çevrilmişdi. Burada canlı insanlardan heç bir əsər-əlamət qalmamışdı. Mülki əhali müsibətdən və bəladan yaxa qurtarmaq üçün ucqar yerlərə, hündür dağların ətəklərinə çəkilmişdir. Döyüşən hindular isə partizan hərəkatına keçmişdilər. Gündüzlər dincəlir, gecələr isə öz yerlərindən çıxaraq konkistadorların keşikçilərinə hücum edir və yeni salınmış tikililəri yandırmağa çalışırdılar. Artıq ispanlar hiss edirdilər ki, hindular "qanlı vadi"dən kənarda yerləşən bütün torpaqlarda sərbəst hərəkət edir və istədikləri vaxt yatmış ispanların üzərinə hücum edirdilər. İspanlar bir neçə ay bundan əvvəl apardıqları qanlı döyüşlər zamanı əldə etdikləri üstünlüyü

yavaş-yavaş itirməyə başlayırdılar. Belə olan halda heç bir müvəffəqiyyətdən söhbət gedə bilməzdi. Araukanlar yavaş-yavaş hərbi üstünlüyü ələ alaraq, yenə də özlərini əvvəllər olduğu kimi bu torpağın, bu ölkənin sahibi kimi aparırdılar. Deməli ispanlar siyasi və hərbi üstünlüyü ələ almaq üçün yenə də hər şeyi təzədən başlamalı idilər.

Polkovnik Alonsonun gəlişi ekspedisiya iştirakçılarında böyük ruh yüksəkliyi qaldırdı. Çoxları kapitan Filippin Araukaniyada apardığı siyasətindən tam narazı idi. Həqiqətən də Alonso hər şeyi təzədən başlamalı idi. O, Anqud körfəzinin sahilində yeni gətirilmiş döyüşçülərin təlim-məşqlərinə başlamaq üçün, ölkənin hər bir sektorunda istehkam tikilməsi üçün sərəncam verdi. Əsirlikdə olan yerli əhali - əsasən, cavan qızlar tikintilərə cəlb edildi. Tikinti işlərinin sürətlə getməsi üçün xeyli işçi qüvvəsi lazım idi. Bunun üçün Peruda məskunlaşmış hindu tayfalarından 600-700 nəfər qolu qüvvətli işçi qüvvəsi gətirdilməliydi. Onlar müstəmləkəçilərin qulları sayıldığına görə mülkədarlara xeyli məbləğdə pul vermək lazım idi. Heç bir mülkədar öz qulunu başqasına pulsuz verməzdi. Həm də polkovnik Alonsoda demək olar ki, pul qalmamışdı. Yalnız yerli mülkədarların dostluğunu qazanmış yerli konkistadorlar ekspedisiyaya böyük köməklik göstərə

bilərdi. Belə adamlardan biri kapitan Leon sayılırdı. O da ki, vəhşicəsinə öldürülmüşdü.

Alonsonun ümidi hər yerdən qırılmışdı. Onun yalnız bir variantı qalmışdı, araukanların mülki əhalisinin əsas toplaşdığı yeri müəyyən edib, onların üzərinə yürüş təşkil edərək xeyli hissəsini əsir alsın. Çünki Araukaniyanın bu hissəsində yaşayış məskənlərinin çox olduğunu görən Alonso çox yaxşı bilirdi ki, burada çoxsaylı mülki əhali yaşayır və ekspedisiya iştirakçılarının yürüşü zamanı qaçıb dağlarda və ya meşələrdə gizlənmişdilər.

Kasiklər əvvəlki kimi sıldırım qayalarla əhatə olunmuş kənddə oturub öz döyüşçülərinə lazımi göstərişlərini verirdilər. "Qanlı vadi"də fəaliyyət göstərən konkistadorlar, yuxarıda fəaliyyət göstərən hinduların qarşısında aciz görünürdülər. Belə olan halda heç bir ispan zabiti deyə bilməzdi ki, araukanlar sonuncu döyüşlərdən sonra həm fiziki, həm də mənəvi cəhətdən məhv ediliblər. Araukaniyadakı hegemonluğu öz əllərinə almaq üçün və buradakı ağalıqlarını bütün əhali qarşısında nümayiş elətdirmək üçün konkistadorlar, ən azı kasiklərin məskunlaşdığı kəndi zəbt etməliydilər. Hazırda Alonso bu məsələ barəsində düşünürdü. Kəndin hindular tərəfindən ciddi-cəhdlə mühafizə olunması ona çox yaxşı məlum idi. Bütün dağ cığırları düşmənin nəzarəti altında idi. Belə bir hərbi əməliyyat

keçirilsə, həmin kəndin zəbt edilməsi üçün Alonso ən azı 30-a yaxın döyüşçü itirməli idi. O, isə bu qədər əsgərin itirilməsinə heç cürə yol vermək istəmirdi. Lakin Alonso həmin kəndin ələ keçirilməsi üçün xüsusi taktika tətbiq etməsə o, öz əsgərləri qarşısında sərkərdə sayılmazdı.

O, bacarıqlı və təcrübəli bir sərkərdə kimi ağır itki vermədən həmin kəndi ələ keçirməli idi. Əlbəttə belə bir əməliyyatda yalnız təcrübəli və bacarıqlı konkistadorlar iştirak etməli idi. Perudan gətirilən qüvvə bu əməliyyatdan kənarlaşdırılırdı. Ekspedisiya rəisi bu əməliyyatı hindular sayıqlıqlarını itirəndən sonra həyata keçirmək istəyirdi.

Hazırda Alonsonun ixtiyarında lazımi qədər qüvvə vardı 345 nəfər. Həmin qüvvə 4 yerə bölünərək bütün sektorlarda yerləşdirilməliydi. Bütün ərazi konkistadorların nəzarəti altına düşürdü. Hələlik hücumdan heç bir söhbət gedə bilməzdi. Alonsonun fikrinə görə konkistadorlar özlərini elə aparmalıydılar ki, guya bundan sonra dağlarda yerləşən hindu kəndlərinə bir daha hücum əməliyyatı tətbiq edilməyəcək. İspanlar hinduları münbit torpaqlardan vurub çıxarmışdılar və özləri əkinlə məşğul olmağa başlamışdılar. Bu il əkindən məhrum olan araukanlar gələn il aclıqdan təslim olmaq məcburiyyətində qalacaqdılar. Bir çox zabitlər və xüsusən də polkovnik Alonso bu məsələni xüsusilə qeyd edirdilər.

Həftələr keçdikcə, döyüş əməliyyatlarından ixtiyarsız məhrum olan konkistadorlar zəbt etdikləri torpaqda darıxdırıcı anlar keçirməyə başlamışdılar. Hamı öz komandirlərindən döyüş əməliyyatlarının başlanmasını tələb edirdilər. Heç kim düşmənin sərbəst fəaliyyətinə rahat baxa bilmir və araukanları vadinin yaxınlığındakı kənddən (kasiklərin yerləşdiyi kənd) çıxarılmasını istəyirdilər. Polkovnik Alonso nə qədər çalışırdısa, öz əsgərlərinin qarşısını yalnız çətinliklə ala bilirdi. Araukanlar həmin kənddən vurulub çıxarılmasa, onda Alonso konkistadorların qiyamından yaxa qurtara bilməyəcəkdi.

Elə bahar mövsümünün birinci ayında Alonso araukanlara gözlənilməz zərbə endirməyi qərara aldı. Həmin gözlənilməz zərbə araukan kəndinə gecə vaxtı kiçik qrup şəklində kəşfiyyat dəstəsi ilə həmlə endirməkdən ibarət idi. Bu plana əsasən, kəşfiyyat dəstəsi düşmənin içərilərinə daxil olub onların xeyli canlı qüvvəsini məhv etməli və öz silahdaşlarının gəlişini gözləməli idi.

Dərhal kapitan Alonsonun başçılığı ilə on nəfərdən ibarət dəstə təşkil edildi. Həmin dəstəyə Migel, sağ qalmış cəngavərlər və ən sərrast ox atan arbalyotçular daxil edildi. Həmin dəstə şimal tərəfdən gizlincə kəndə qalxmalı və oradakı keşikçilərin hamısını qılıncdan keçirməli, sonra isə kasiklərin hamısını əsir almalıydı.

İlin yeni təqvimi başlayandan bir nəfər də olsun konkistador "qanlı vadidən" kənara çıxmırdı. Daha doğrusu, heç kim vadinin şərq sərhədini keçməmiş və bununla da onlar hindularda belə fikir yaratmaq istəyirdilər ki, ispanlar hərbi əməliyyatlardan əl çəkərək, təsərrüfatla məşğul olurlar. Əksinə, aborigenlər özləri ispanların nəzarət altında saxladıqları əraziyə basqın edir və konkistadorların apardıqları işlərə böyük maneəçilik törədirdilər. Bəzi hallarda onların arasında silahlı toqquşmalar da baş verirdi və bunun nəticəsində ispanların sırasında yaralananlar da olurdu. Araukanlar gözlənilməz hücumlar təşkil etməklə, döyüşlər nəticəsində itirilmiş nüfuzlarını geri qaytarmağa çadışırdılar. Açığı polkovnik Alonso aborigenlərin müqavimətini görərək, onların bu qədər barışmaz və inadkar olduğunu heç ağlına belə gətirmirdi.

Əlbəttə, belə bir tayfanı tamamilə məğlubiyyətə uğratmaq və ya darmadağın etmək asan olmayacaq. Düşmən həddindən artıq bacarıqlı və qorxmaz idi. Polkovnik Alonso öz planını həyata keçirmək üçün martın 19-da kəşfiyyat dəstəsini əməliyyata yola saldı. Gecənin ortasında Filipp Odovaldonun başçılıq eqdiyi 70 nəfərlik dəstə düşmənin xəbəri olmadan "ölüm" düzənliyinə (sülh danışıqlarında iştirak edən nümayəndələrinin və onları qarşılayan konkistadorların qırıldığı düzənlik) çıxmalı və sübh tezdən kasik-

lərin yerləşdiyi kəndə yürüş etməli idi. Kəndin keşikçiləri kəşfiyyatçılar tərəfindən zərərsizləşdiriləndən sonra, əsas qüvvə kəndə basqın etməli və oradakı araukanların hamısını qılıncdan keçirməliydilər. Bütün əməliyyat bir neçə saat ərzində başa çatmalı idi. Ekspedisiyanın rəisi özü ehtiyat dəstəsinə başçılıq edəcək və gərəkli anda öz silahdaşlarının köməyinə çatmalı idi. Eyni olaraq, onun dəstəsi mühasirəni yarıb başqa yerlərə qaçmağa can atan hinduların təqib edilərək, məhv edilməsi ilə məşğul olacaq. Alonsonun fikrincə, hər şey uğurla nəticələnsə, onda Araukaniyada başlanan müharibənin başa çatmasını zənn etmək olar. Həmin kənd düşmənin müqavimət simvolu sayılırdı və həmin simvol yox edilə bilərdi.

Kəşfiyyat dəstəsi gecənin ortasında "qanlı vadi"nin sərhədini şərq tərəfdən keçərək nəzərdə tutulan yerdən kəndə tərəf qalxmağa başladı. Keçid ağır olsa da kəşfiyyatçılar çox eitiyatla hərəkət etməyə çalışırdılar. Gecənin qaranlığında qalın meşədə hərəkət etmək həddindən artıq müşgül bir iş sayılırdı. Özlərindən asılı olmayaraq onların paltarları budaqlara və kol-koslara ilişərək xışıltılı səslər çıxarırdı. Bu cür adi səslər cığırları nəzarət altında saxlayan hinduların diqqətindən yan keçə bilməzdi. Belə halda aborigenlər, qaranlıqda hərəkət edən dəstənin qarşısında pusqu qura bilərdilər. Bu isə xəlvəti irəliləmək istəyən

konkistadorların qırğını ilə nəticələnə bilərdi. Onlar yolu tanımadıqlarına görə belə bir vəziyyətə düşmüşdülər.

İrəliləyişin ağırlığını dərk edən kapitan Alonso sol tərəfə getməyi qərara aldı. Onlar dağı şərq yolu ilə fəth etməliydilər. Orada kəşfiyyatçılar cığır yollarından istifadə edə bilərdilər. Lakin bu təhlükəli bir tədbir sayılırdı. Həmin hissədə hinduların keşikçiləri böyük çoxluq təşkil edirdi. Lakin başqa çıxış yolu yox idi, ispanlar ya geri qayıtmalı, ya da ki, həmin keçiddən istifadə etməliydilər. Onların bəxti gətirsə, yolda keşikçilərlə rastlaşmadan kəndə gedib çıxa bilərlər.

Heç bir saat keçməmişdi ki, birdən qaranlıqdan, kəşfiyyatçıların üstünə oxlar yağdırılmağa başladı. Cəngavər Dias Barrameda qabaqda olduğundan iki yerdən yaralandı, sağ budundan və qolundan. Əynində kirasa olmasa idi bədəni deşik-deşik olardı. Migel ilə yanaşı olan kapitan Alonso da sağ çiynindən yaralandı. Bununla da araukanların məhz sağ tərəfdə çəmləşdiklərini müəyyən etmək çətin deyildi. İspanların hamısı yerdə uzanaraq müdafiə xəttini yaratdılar. Çünki düşmənin belə bir vəziyyətdə hücuma keçmək ehtimalı vardı. Lakin 20-25 ox atılandan sonra araya dərin sükut çökdü. Burada göz-gözü görmədiyindən kapitan Alonso bilmirdi nə etsin. Aldığı yaradan onun bədənində möhkəm ağrı qopdu. Silahdaşları

xəsarət alanların yarasını sarğı ilə bağlamağa başladılar. Ani vaxtda bir tədbir görmək lazım idi.

Kapitanın qətiyyətsizliyini görən Migel güclə eşidilən səslə ona:

- Sinyor, bu vəziyyətdən çıxmaq lazımdır. Yoxsa, hamımız araukanların mühasirəsinə düşə bilərik. Onlar qaranlıqdan istifadə edərək, hamımızı bircə-bircə biçərlər.

- Nə edim, bu qaranlıq zülmətdə hücum əmrini verim? - deyə Alonso inildəyə-inildəyə dilləndi. - Görmürsən ki, burada baş qaldırmaq mümkün deyil?

- Görürəm! - deyə Migel tərəddüd etmədən dilləndi. - Elə buna görə də nə qədər ki, mühasirəyə düşməmişik, buradan getməyi təklif edirəm. Uşaqları qorumaq lazımdır.

- Geri qayıtmaq, əməliyyatı yarımçıq qoymaq deməkdir. - deyə Alonso onunla razılaşmadı.

- Mən özümlə iki arbalyotçu götürüb sol cinahdan hücuma keçərək, araukanların əsas qüvvəsini özümüzə cəlb edəcəm. Siz isə uşaqlarla aşağı enin. Əks təqdirdə bizim hamımızı qıracaqlar. Biz onların nişangahına çevrilmişik.

- Yox, mən belə bir vəziyyətdə buranı tərk edə bilmərəm. Alonsonun verdiyi tapşırıq yerinə yetirilməyəcək.

- İndi əməliyyat haqqında yox, uşaqların taleyi haqqında fikirləşmək lazımdır. Həm də aşağı enib oradakı silahdaşlarımızı buradakı təhlükə barəsində xəbərdar etməlisiniz.

Uşaqlar buradakı vəziyyətdən hali olmasalar, onlar da hinduların qurduqları pusquya düşəcəklər.

Kapitan Alonso Migelin ağıla batan fikir söylədiyini başa düşdü. Həm buradakı, həm də aşağıda mövqe tutan silahdaşların həyatını təhlükədən qurtarmaq lazımdır.

Hindular hücum etmək fikrində deyildilər. Lakin onlar yavaş-yavaş yerdə uzanan konkistadorları mühasirəyə almağa çalışırdılar. Aborigenlərin sırasında çaşqınlıq yaratmaq üçün kapitan Alonso kimdə odlu silah varsa, onlara hazır olmaq komandası verdi. Atəş açılan kimi Migel və iki arbalyotçu nərə çəkərək sol tərəfdən hücuma keçdi, qalanları isə üzüaşağı geri çəkilməyə başladılar.

Zülmət qaranlıq olduğundan qabaqda gedən Migel elə hey ağaclara və yerə sallanmış budaqlara dəyirdi. Sürətlə irəliyə getmək mümkün deyildi. Təxminən 400 metr irəliləyəndən sonra onlar balaca çalaya düşərək orada dincəlməyə başladılar. Arxa tərəfdə uzaqdan qışqırıq və tək-tək halda atəş səsləri eşidilirdi. Çox güman ki, dəstənin o biri üzvləri müqavimət göstərə-göstərə geri çəkilirdilər. Elə çalada gizlənmiş ispanların yaxınlığında kol-kosların xışıltısı və budaqların çırıltısı eşidilirdi. Çox güman ki, bu irəliyə qaçan konkistadorların təqibi ilə məşğul olan hindular idi. Migelgil artıq səs çıxarmadan gizlincə hazırlıqlı vəziyyətdə əyləşmişdilər. Düşmən onların üstünə

çıxsa, müqavimət göstəriləcək, yox yan keçsə, onlar burada olduqlarını büruzə verməyəcəklər. Elə də oldu. Araukanlar heç bir şeydən şübhələnmədən bir-bir onların yanından ötub keçdilər.

Migel təhlükənin sovuşub ötdüyünü görəndən sonra ağır xəyala daldı: Polkovnik Alonsonun Araukaniyaya gətirdiyi yeni qüvvə buradakı hinduları vahiməyə salmadı. Əksinə onlar daha kəskin şəkildə müqavimət göstərməyə və hər bir şeydə ehtiyatlı olmağa başlamışdılar. Halbuki Alonso yeni gətirilən qüvvəyə böyük ümid bəsləyirdi. Bu o deməkdir ki, burada tezliklə müvəffəqiyyət qazanmaqdan söz gedə bilməz. Bu müvəffəqiyyət o halda mümkün idi ki, Alonsonun təşkil etdiyi gözlənilməz hücum baş tutsun. Lakin araukanlar çətinlik çəkmədən həmin planın üstünü açmış və keçilməz meşədə pərən-pərən düşmüş konkistadorların təqibi ilə məşğul idilər.

XIV fəsil. Migelin növbəti dəfə ağır vəziyyətə düşməsi

Sübh tezdən hava yavaş-yavaş işıqlaşmağa badşayanda Migelgil yaxın ətrafdakı mühiti öz gözləri ilə görməyə başladılar. Onlar dəqiq bilmirdilər hansı istiqamətdə hərəkət etsinlər. Lakin tez-tez onların qulağına arkebuzların və muşgetlərin atəşlərinin səsi dəyirdi. Dağın aşağı ətəyində döyüş hələ də davam edirdi. Aşağıda cəmləşən konkistadorlar yuxarıya hücum etməyə cəhd edirlər. Yuxarıda vəziyyət hələlik sabit idi. Burada aborigenlərdən heç bir əsər-əlamət yox idi. Hindular əsas qüvvələrini aşağıda cəmləşdirmişdilər.

Hazırda Migel bilmirdi nə etsin; geri qayıtsın, yoxsa kəndə tərəf irəliləyişini davam etdirsin? Geri qayıtsa, aşağıda döyüşən silahdaşlarına kömək etmiş olacaq. Necə olsa da o, zərbəni hinduların arxasından endirəcək. Yuxarı qalxıb kəndə hücum etsə, onda polkovnik Alonsonun verdiyi tapşırığı qismən də, olsa yerinə yetirmiş olacaq. Kim bilir, bəlkə də konkistadorlar aşağıda düşməni darmadağın edib kasiklərin yerləşdiyi kəndə hücumlarını davam etdirəcəklər. Belə olan halda Migelgilin köməyi onlara yuxarıda dəyə bilər. Lakin bütün dəstədən təcrid olunmuş üç nəfər döyüşçü düşmənə sarsıdıcı zərbə endirmək

iqtidarından uzaq idi. Düzdür, həmin kənddə düşmənin 20-25 döyüşçüsü məhv edilə bilərdi, ancaq onların özləri də həmən döyüşün qurbanları olacaqdı.

Migel öz planını silahdaşlarına izah etdi. Hər iki arbalyotçu Migeldən yaşlı olsalar da, həyatları təhlükədə olsa belə, hər an cavan zadəganın arxasınca hara lazımdırsa ora da gedəcəklərini bəyan etdilər. Migel onlardan belə bir müsbət cavab gözləməsə də, arbalyotçuların fikrini fərəhlə qarşıladı. Necə olsa da, onlar düşmən yuvasına qeyri-bərabər döyüşə yollanır və həmin döyüşdən sağ çıxmaq ehtimalı sıfıra bərabər idi.

Beləliklə, onlar gizdəndikləri çalanı tərk edərək astaca, kollara dəymədən yuxarı qalxmağa başladılar. Bir az getmişdilər ki, onlar ensiz cığırın üstünə çıxdılar və həmin cığır ilə yollarını davam etdirdilər.

Böyük entiyatla hərəkət edən konkistadorlar iki saatdan sonra kəndin şimal-şərq tuşuna çıxdılar. Kəndə daxil olmaq üçün buradan iyirmi-iyirmi beş metr yuxarı qalxmaq lazım idi. Lakin yuxarıda sıldırım qayaların üstündə on nəfərə yaxın hindu dayanaraq, aşağını nəzarət altına almışdılar. Onlar aşağıda gedən döyüşü gözucu da olsa görmək istəyirdilər. Halbuki bu mümkün deyildi. Çünki döyüş qalın meşənin içərisində gedirdi. Migelgil enliyarpaqlı ağacların altında gizlənib hinduların hərəkətlərini izləyirdilər.

Yuxarıda dayananların əksəriyyəti mülki adamlar idi. Yaxınlıqda araukanların danışıqları eşidilirdi.

Migel istəyirdi ki, kəndə daxil olmaq üçün münasib bir yer tapsın. Ağac budaqlarının və kol-kosların xışıltısından o dəqiqə burada hinduların gəzişməsini ayırd etmək olurdu. Hindular hətta gəlib onların mövqe tutduqları yerə də çıxa bilərdilər. Hələlik onlar gözləməyi qərara aldılar. Asudə vaxtdan istifadə edən Migel kəndə daxil olub sonrakı fəaliyyətini götür-qoy etməyə başladı. Kəndə döyüşlə girib və döyüşlə çıxmaq onların ölümunə səbəb olacaq. Belə bir vəziyyəqdə araukanlar onları hər tərəfdən mühasirəyə alıb məhv etməyə çalışacaqlar. Migelgil yalnız bir halda oradan sağ çıxa bilərdilər. O da ki, kənddə sığınacaq tapmış kasiklərdən heç olmasa, birini əsir alıb, onun vasitəsi ilə buradan uzaqlaşsın. Araukanlar hər hansı bir kasikin təhlükədə olduğunu görüb konkistadorlara qarşı silah işlətməyəcəklər. Ələ keçirilən qiymətli girovun vasitəsi ilə ölümdən yaxa qurtara bilərlər.

Yuxarıda dayananlar oradan gedəndən sonra başqaları onların yerini tuturdu. Belə bir yerdəyişmə zamanı gözəl və cəlbedici çöhrəsi ilə öz həmyerlilərindən seçilən bir qız peyda oldu. Qızın siması nəinki arbalyotçuları, hətta Migelin də diqqətini özünə cəlb etdi. Həmin qızın sifəti cavan zadəgana tanış gəldi. Migel diqqətlə qızı süzəndən

sonra o dəqiqə yuxarıda dayanan gözəli tanıdı. Bu həmin qız idi ki, vaxtı ilə konkistadorların, (müharibənin 1-ci mərhələsində) Lyankiue gölünun yaxınlığında yerləşən hindu kəndinə endirilən gözlənilməz hücumu nəticəsində əsir düşmüşdü və Migel onu amansız Karlosun caynağından öz həyatı bahasına qurtarmışdı. Həmin günü qızın başına min-bir oyun açmaq istəyən Karlos hirsini başqa əsirlərin üstünə tökmüş və həmin kənddə bəzi silahdaşları ilə birlikdə yüzlərlə günahsız hindunu vəhşicəsinə qılıncdan keçirmişdi. Sonrakı əməliyyat zamanı qız canını götürüb həmin kənddən qaca bilmişdir. O vaxt günahsız qurbanı müdafiə etdiyinə görə qız kənardan Migelə baş əymişdir. Həqiqətən də Migel həmin günü qızı həm biabırçılıqdan, həm də ölümdən qurtarmışdı. Cavan zadəganı hazırda bir şey düşündürürdü, görəsən Migel qızın yadında qalıb, ya yox? İndi onun üzünü qalın tük basmışdı və belə olan halda onlar üz-üzə gəlsə, qız onu tanıya bilər, ya yox? Lakin Migel qızın hansı tayfadan olduğunu da unutmurdu. Qız cavan zadəganla üzləşəndə sadəcə olaraq, həlak olmuş qohumlarına görə ondan qisas ala bilərdi.

Yarım saat keçəndən sonra yuxarıda dayanan adamlar yoxa çıxdılar. Elə ətrafda da səslər yavaş-yavaş səngiməyə başlayırdı. Hamı buradan uzaqlaşırdı. Migel kəndə qalxmaq üçün münasib yer axtarmağa başladı. Yolların əksəriyyəti

sol tərəfdə yerləşdiyindən ora həddindən artıq təhlükəli idi. Çünki həmin yollar ciddi-cəhdlə hindular tərəfindən mühafizə olunurdu. Sağ tərəf sıldırım qayalarla əhatə olunduğundan həmin yerlərdə tək-tük mühafizəçilər dayanmışdı. Migel ağacların arası ilə həmin yerləri yoxlamağa başladı və demək olar ki, yuxarı qalxmağa münasib yer tapdı. Lakin həmin yerdə iki nəfər mühafizəçi yekə bir daşın üstündə oturub aşağını nəzərdən keçirirdilər. Daha sonra Migel sol tərəfə gedərək həmin yeri nəzərdən keçirdi. Həmin yerdə elə birinci cığırda o, bir neçə hindunun tələmtələsik aşağı getdiyini gördü. Həmin çığırla 30-40 metr yuxarı qalxanda kəndin birinci daxması ilə üzləşmək olardı. Geri qayıdan Migel hələlik münasib vaxtı gözləməyə başladı.

Axşama az qalmış aşağıdan daha bərk atəş səsləri eşidilməyə başladı. Oradakı döyüş daha da şiddətlənmişdi. Yuxarıdan aşağıya 50-60 nəfərlik bir dəstə öz silahdaşlarına köməyə yollandı.

Migelgil bir müddət keçəndən sonra yaxınlıqdakı çığıra tərəf yollandılar və çığıra çatmamış yavaş-yavaş yuxarı qalxmağa başladılar. Onların fikrincə, kənddə silahlı araukanların sayı çox az qalıb və burada artıq vaxt itirmək lazım deyil. Elə yuxarı çatmağa az qalmışdı ki, birdən onların qarşısına, gözlənilmədən iki hindu çıxdı. Araukan-

lar konkistadorlarla burada rastlaşacaqlarını gözləmirdilər. Aborigenlər təəccübdən özlərinə gəlməmiş arbalyotçular dərhal öz silahları ilə onları zərərsizləşdirdilər. Hindunun biri yaralandı. Ox onun qara ciyərinə batmışdı və hindunun qışqırmağa halı qalmamışdı. Migel cəld sıçrayışı ilə qılıncını yaralının ürəyinə sancdı. Bundan sonra onlar öz irəliləyişlərini davam etdirdilər. Elə kəndin girəcəyinə yaxınlaşmışdılar ki, cığırın ağzındakı daxmanın o biri tərəfində on iki – on beş mülki adamın toplaşdığını və orada qızğın mübahisənin getdiyinin şahidi oldular. Sağ tərəfdə də daxma vardı və həmin daxmanın ağzında bir yaşlı kişi yerdə oturub gözlərini dağlara tərəf zilləmişdi.

Ən əsas konkistadorlara hindu kasikləri lazım idi. Migel isə onlardan yalnız Kaukanı tanıyırdı. Konkistadorlar qapının ağzındakı kişini zərərsizləşdirib onu özləri ilə daxmaya apardılar. Migel hiss etdi ki, daxmaya girən zaman onları kimsə gördü, ona görə də cəld qapıdan kənara baxmağa başladı. Bu daxmadan təxminən 15 metr qabaqda başqa bir daxma yerləşirdi və orada iki nəfər mülki adam dayanıb bir-biriləri ilə qızğın mübahisə apara-apara Migelgilin olduqları daxmaya tərəf təəccüb dolu nəzərlər yönəltmişdilər. Onlar daxmaya daxil olan adamları hiss etdilər, lakin kimlərin olduğunu dəqiq bilmirdilər. Bunu yoxlamaq üçün hər iki kişi ora yaxınlaşdılar və 5 metr

qalmış nəsə qışqırmağa başladılar. Onlar evin sahibini səsləyirdilər. Əlacsız qalan arbalyotçular oxları ilə onları zərərsizləşdirdilər. Qurbanların biri yerə yıxılanda bərkdən qışqırdı. Əlbəttə, bu qışqırıq başqalarının fikrini bura cəlb etməyə bilməzdi. Yaxınlıqda olan adamlar tələsik həmin yerə gəldilər. Migelgil çıxılmaz vəziyyətə düşdülər və evi tərk edə bilmədilər. Daxmanın qapı ilə üzbəüz olan divarında pəncərəni əvəz edən balaca dördkünc deşik vardı. Migel oradan baxanda gördü ki, başqa tərəfdən beş-altı nəfər silahlı hindu həmin yerə tələsir. Vəziyyəti belə görən Migel arbalyotçunun birini pəncərənin ağzında saxlayır, özü isə digəri ilə qapının ağzında qaldı. Beş dəqiqənin ərzində ölən hinduların yanına iyirmi beş nəfərə yaxın aborigen toplaşmışdı və onlar qışqıra-qışqıra ətrafı həyəcanla nəzərdən keçirirdilər. Araukanlar çox yaxşı bilirdilər ki, həmyerlilərini öldürənlər haradasa yaxınlıqda gizlənib-lər. Onlar tələm-tələsik ətrafı yoxlamağa başladılar. Artıq həyəcan təbili bütün kəndə çalınmışdı. Bura otuza yaxın silahlı araukan və geyimləri, hərəkətləri və davranışları ilə başqalarından xeyli fərqlənən yaşlı hindular gəldilər. Onlar burada nə baş verdiyini anlamaq istəyirdilər. Araukanlar buranı elə əhatəyə almışdılar ki, onların bir necəsi, hətta konkistadorların gizləndiyi daxmanın qapısı ağzında dayanmışdılar. Bir-iki addım irəli atsalar onlar özlərini dax-

manın içində hiss edə bilərlər. Heç kimin ağlına gəlmirdi ki, arbalyotlar bu evdən atılıb. Hamı elə bilirdi ki, konkistadorlar öz qurbanlarını meşənin kənarından vurublar.

Migelin diqqətini əsasən, özlərini başbilən kimi aparan yaşlı hindular cəlb etdi. Qalanları onların tələblərinə şəksiz halda əməl edirdilər. Yaşlılar konkistadorların axtardıqları kasiklər idi. Onların üçü də yanbayan dayanmış və silahlı hindular tərəfindən ciddi mühafizə olunurdular. Migel Kaukanı tanıya bildi. Başqa kasiklərə nisbətən Kauka az danışırdı.

Mülki adamlar ölənləri yerdən götürüb kəndin mərkəzinə yollandılar. Qapının ağzında dayanmış araukan öz həmyerlisi ilə söhbət edə-edə daxmanın içərisinə girmək istəyirdi ki, birdən onun fikrini meşə tərəfdən gələn qışqırıq səsi yayındırdı. Araukanların əksəriyyəti Kaukanın başçılığı altında həmin istiqamətə tərəf yollandılar. Burada isə iki kasik doqquz hindunun əhatəsində qalaraq nəyi isə müzakirə edirdilər. Mülki əhalidən demək olar ki, heç kim qalmamışdı. Migel başa düşdü ki, kasikləri ələ keçirmək üçün əlverişli imkan yaranıb. O, da kamanını əlinə alıb arbalyotçularla birlikdə hinduları nişan aldı.

Plana əsasən oxlar atılan kimi Migel təkbaşına hinduların üzərinə şığıyacaq. Arbalyotçular isə daxmadan çıxmadan müqavimət göstərən araukanları ox ilə məhv

etməyə başlayacaqlar. Nəticədə isə iki kasikdən heç olmasa biri əsir götürülməlidir. İlk oxlar atılandan sonra Migel hər iki qılıncını götürüb, hindular özlərinə gəlməmiş, onların üstünə hücuma keçdi. Cavan zadəgan araukanların əhatəsinə düşən kimi onlardan birini qılıncdan keçirtdi. Heç bir dəqiqə keçməmiş arbalyotla daha iki hindu zərərsizləşdirildi. Kasiklər Migelin burada peyda olmasını görüb təəccüblərindən yerlərində donub qaldılar.

Yaxınlıqda dayanan arvad-uşaqlar burada başlanan döyüşü görüb həyəcanla qışqırışmağa başladılar. Bu qışqırığa ətrafda gəzişən silahlı aborigenlər hay verdilər. Migel qarşısında qalan iki hindu ilə döyüşə girdi. Təhlükəni görən kasiklər yavaş-yavaş buradan uzaqlaşmağa başladılar. Onların əldən çıxmasını hiss edən Migel ustalıqla fənd işlədərək rəqibinin birini qılıncdan keçirtdi və döyüşü yarımçıq qoyaraq cəld sıçrayışla kasiklərin yanına qaçdı. Cavan zadəgan onları qarşıdakı evin ağzında haqlayaraq qaçmağa imkan vermədi və arxada tək qalan hindunun yaxınlaşdığını hiss edərək, ani surətdə geri dönüb qılıncını rəqibinin düz boğazına sancdı. Gözləri bərələ qalan araukan arxası üstə yerə yıxılaraq ilan kimi qıvrılmağa başladı. Migel kasikin birinin arxadan boynundan tutdu, o birisinin sinəsinə isə qılıncını dayayaraq şimal tərəfdə geri çəkilməyə başladı. Arbalyotçular Migelin çağırışını eşidib

daxmadan çıxdılar və ona tərəf qaçmaq istədilər. Lakin elə daxmanın ağzındaca meşədən gələn hindularla toqquşdular. Arbalyotçuların vasitəsi ilə iki aborigenin öldürülməsinə baxmayaraq onlar araukanların əhatəsinə düşdülər. Elə Migel də hinduların əhatəsinə düşdü. Araukanlar hər tərəfdən bura elə dolmuşdular ki, o, heç on metr aralana bilmədi. Vəziyyəti belə görən ikinci kasik qaçmağa can atdı. Ancaq Migel son anda onun sol böyrünü qılıncı ilə yaraladı. Sonra isə qılıncının ülgücünü yanındakı kasikin boğazına dayayıb yaxınlaşmaqda olan hindulara hədə-qorxu gəlməyə başladı.

Mülki adamlar uşaqlarını götürüb hərə öz evinə can atırdı. Burdakı səs-küy döyüşənləri çaşbaş salırdı. Araukanlar dəqiq bilmirdilər kəndə necə nəfər konkistador basqın edib. Çünki onların əksəriyyəti hay-küy içərisində, ətrafda yerləşən evlərin arasına diqqətlə nəzər yetirirdilər. Migel kasiki öldürüb birtəhər buradan uzaqlaşa bilərdi, lakin o, mühasirəyə düşmüş arbalyotçulara görə bu fikrindən döndü. Amma iş elə gətirdi ki, ondan aralı düşən arbalyotçulardan biri öldürülmüş, o birisi isə yaralanmışdı.

Migel insan topasından arbalyotçuların başına hansı hadisənin gəldiyindən xəbərsiz idi. Buna baxmayaraq o, ətrafdakılara qışqırırdı ki, onlar yaxınlaşdıqları təqdirdə kasik öldürüləcək. Buna görə də, bu sözlər tərcümə olunan

kimi heç kim hücum etməyə cürət etmədi, lakin hamı cavan zadəganı sıx halqada saxlamağa çalışırdı. Migelin bəxti onda gətirmişdi ki, onun tutduğu girov bütün araukanların arasında ən nüfuzlu kasik sayılan Maunanın özü idi. Yaraladığı kasik isə Tau idi. Hadisə yerinə çatan kasik Kauka bütün döyüşçülərə göstəriş verdi ki, hücumu dayandırsınlar.

Buradakı vəziyyət gərgin xarakter almışdı. Hazırda Migel bilmirdi nə etsin. O, Maunanın boynundan tutaraq cəld yaxınlıqdakı daxmaya girdi. İçəridə bir qız və iki yaşlı arvad vardı. Onlar Migelin bura girməsini gözləmirdilər. Təşviş içində olan qadınlar vəcdə gələrək qışqırışmağa başladılar. Migel isə, qadınlar başa düşməsələr də, izah edirdi ki, onlara heç bir xəta dəyməyəcək. Bir azdan qadınlar sakitləşdilər. Migel içəridəkilərn nəzərdən keçirəndə gördü ki, vaxtı ilə ölümdən qurtardığı qız bu daxmadadır. Elə o, da qadınları sakitləşməyə məcbur etmişdi. Qız lazımi məsafəni saxlayaraq öz dilində yalvarıcı tərzdə nə isə deyirdi. Migel onun dediklərindən heç bir şey başa düşmürdü. Bu zaman isə Kaukanın göstərişi ilə daxma oxçular tərəfindən mühasirəyə alınmışdı, özü isə daxmanın qapısından on addım aralı tərcüməçi ilə birlikdə dayanaraq Migelin təslim olmasını tələb edirdi. Migel isə izah etdi ki, silahdaşları daxmaya gətirilməsə, kasik elə buradaca

öldürüləcək. Lakin o, özü üçün gözlənilməz bir cavab eşitdi. Onun tələbi gec verilmişdi. Çünki arbalyotçuların hər ikisi qeyri-bərabər döyüşdə amansızcasına öldürulmüşdü.

Ətrafdakı səs-küy hələ də səngimirdi. Hələ üstəlik ağlaşanların səsi onlara qarışmışdı. Bu ölən araukanların qohumlarının ağlaşması idi. Onların qışqır-bağırtısından arada gedən danışıqların yaxşı eşidilməsində böyük maneəçilik yaranmışdı. Kauka ağlaşanları birtəhər buradan uzaqlaşdırdı. Araya sükut çökəndən sonra Kauka Migelə sağ qalmaq istəyirsə təslim olmağı məsləhət gördü. İstehza içində olan Migel isə cavabında dedi:

- Mən ispan idalqosuyam. Ölümdən qorxsaydım bu kəndin hücumunda iştirak etməzdim. Hazırda sizin tayfanızın kasiki mənim əlimdə girovdur. Hücum başlanan kimi onun başı kəsilib ayaqlar altına düşəcək.

- Mauna araukanların yeganə kasiki sayılmır. - deyə Kauka hökmlə dilləndi. - Ondan başqa araukan hindularının kasikləri çoxdur. Onlardan biri isə mənəm. Sağ qalmaq istəyirsənsə, bizə təslim ol.

- Mən bu günkü döyüşdə bir neçə döyüşçünü qılıncdan keçirmişəm. Elə bilmə ki, məni məhv etmək asan olacaq. Kasiki öldürəndən sonra mən ən azı on nəfərə yaxın hindunu qılıncdan keçirəcəyəm. O vaxta kimi də bizim əsgərlər bu kəndə hücum edəcəklər.

- Səhər başlanan döyüş təcavüzkarların məğlubiyyəti ilə başa çatıb. - Kauka izah etdi. - Onların hamısı "qanlı vadi"yə çəkiliblər. Sənə kömək heç yerdən gəlməyəcək.

Kaukanın verdiyi xəbər Migeli daha da ehtiyatlı hərəkət etməyə vadar etdi. Artıq o, düşmən əhatəsində təkbaşına qalmışdı. Danışıqlar gedən zaman daxmanın içindəki qız hərdənbir Mauna ilə söz mübadiləsi aparırdı. Migel onların söz mübadiləsinə heç bir müdaxilə etmirdi. Lakin mütəmadi olaraq onların qızğın hərəkətlərinə fikir verirdi. Hər bir şeyə hazır olmaq lazım idi. Ona görə ki, qız ucu iti olan əşya ilə hər an Migelin başına zərbə endirə bilərdi.

- Mənə heç bir yerdən kömək lazım deyil. - Migel bir az tərəddüd edəndən sonra qürurla dilləndi. - Mən bundan da pis vəziyyətə düşmüşəm. Öləsi olsam da, mən sizin hamınıza sarsıdıcı zərbə endirməyə müvəffəq olacağam. Mən sizin bir çoxunuzu özumlə o dünyaya aparacağam.

Bu sözlər tərcümə olunandan sonra ölümün üzünə dik baxan Mauna öz dilində qarşısındakı adamlara nə isə deməyə başladı. Elə bu zaman Kaukanın sözlərini tərcümə edən hindu itaətkarcasına qapının ağzına yaxınlaşdı və Maunanın sözlərini ispan dilində söyləməyə başladı:

- Biz araukanları ölümlə hədələmək heç bir təcavüzkara müəssər olmayıb. Çünki biz öz azadlığımızı silah gücünə mudafiə edə-edə ölümün üzünə dik baxmağa öyrəşmişik.

Sənə bir sualım var, ancaq çalış mənə düzgün cavab ver; şəxsən sən özün əlindəki silahı mülki adamların üstünə qaldırmısan, ya yox?

- Sizə dedim ki, mən ispan idalqosuyam! Əsl ispan idalqosu isə heç vaxt silahsız adamın ölümünə bais ola bilməz. Mən, həmişə silahsız və mülki adamın qanının axıdılmasına öz kəskin etirazımı bildirmişəm. Mən, yalnız bir döyüşçü kimi öz gücümü döyüş meydanında sınamışam. Bəlkə də məni araukanlardan bir çoxu tanıyır. Çünki mən həmişə ön sırada döyüşmüşəm.

- Bizim tayfa mərd döyüşçüləri xüsusilə qiymətləndirir. Manananın dediyinə görə bir il bundan əvvəl təcavüzkarlar, bizim ölkənin yuxarı əyalətində dinc əhalini amansızcasına qırdığı halda, sən onu həm biabırçılıqdan, həm də ölümdən qurtarmısan. Belə bir xeyirxah hərəkətlər heç vaxt bizim yadımızdan çıxmaz.

Manana dedikdə, Migel o dəqiqə başa düşdü ki, söhbət daxmadakı qızdan gedir. Deməli, cavan zadəgan qızın yaddaşından çıxmamışdır. Otaq alaqaranlıq olsa da qız Migelin mənalı baxışlarını hiss etdi. Migel qılıncını aşağı salıb ehtiramla kasikə dedi:

- Hər bir silahsız adamı, xüsusən də qadın xeylağını, hər bir təhlükədən qorumaq mənim zadəganlıq borcumdur.

Mənim kimi adamlar bizim ekspedisiyanın tərkibində az deyil.

Elə bu dəmdə qız onların söhbətinə qoşuldu. O, başını dik tutaraq qürurla dedi:

- Bu müharibə təcavüzkarlar tərəfindən aparılan ən iyrənc müharibə sayılır. Əsl ispan idalqosu sərbəst halda və heç kimdən asılı olmadan yaşamağı xoşlayan biz araukanların əlindən azadlığı almağa çalışmamalıdır. Bu bizim müstəqilliyimizə arxadan endirilən ən namərd zərbədir. Vicdanı olan hər bir kəs, bu müharibəni yarımçıq qoyub öz vətəninə qayıtmalıdır.

- Bütün Araukaniya İspaniya krallığına məxsusdur. Mən buranı çoxdan tərk edib gedərdim. Lakin mən bur torpaqda ən yaxın adamlarımı itirmişəm. Onların qisasını tam almadan buranı tərk etməyəcəyəm.

- Təcavüzkarlar bizim torpağa ayaq basandan bəri bizim ölkədə müharibə gedir. - deyə Mauna dilləndi. - Müharibədə isə hər bir adam kimliyindən asılı olmayaraq öldürülə bilər. Təcavüzkarları deyə bilmərəm, ancaq bizim tayfa qisasçılıq prinsipi ilə döyüşür. Çunki elə bir adam yoxdur ki, bu müharibədə öz yaxın adamını itirməsin. İndi sən də deyirsən ki, öz yaxın adamlarının qisasını almasan bizim ölkəni tərk etməyəcəksən. Sən bir çox təcavüzkarlara nisbətən çox mərd və qorxmazsan. Bir kasik kimi, sənə

tezliklə bizim ölkəni tərk etməyə məsləhət görürəm. Çunki təcavüzkarların başladıqları ədalətsiz müharibə onların məğlubiyyəti ilə başa çatacaq. Araukanlar heç vaxt öz silahlarını yerə qoymayacaqlar.

- Artıq bu müharibə araukanlar tərəfindən uduzulub. Bütün ərazi bizim nəzarətimiz altındadır. Bundan sonra buralarda şəhər və qəsəbələr tikilməyə başlayacaq.

- Biz bundan da pis vəziyyətə düşmüşük, lakin heç vaxt öz iradəmizi və yenilməzliyimizi itirməmişik. Bircə şeyi yadda saxla ki, bundan sonra biz heç vaxt təcavüzkarların bu torpaqlarda kök salmaqlarına imkan verməyəcəyik. Buna tam əmin ola bilərsən.

- Özün yaşamaq istəyirsənsə tezliklə bizim ölkəni tərk et. - deyə Manana urəkyanğısı ilə dilləndi. - Mən istəməzdim ki, sənin kimi bir qeyrətli döyüşçu bu iyrənc müharibədə həlak olsun.

Bu sözlər Migelə dərindən toxundu. Manananın ürəkyanğısı ilə söylədiyi sözlər cavan zadəganı o dəqiqə kövrəltdi. Həm mərhum babası, həm də mərhum atası Migelə dönə-dönə demişdilər ki, Araukaniyada başlanan mənasız müharibəni yarımçıq qoyub başqa işlə məşğul olsun. İndi də düşmən düşərgəsinin bir nümayəndəsi cavan zadəganı bu yoldan çəkinməyə tövsiyyə edirdi.

Bir anlığa Migelin yadına sevgilisi Florida düşdü. O, başa düşdü ki, Florida İspaniyada qala-qala iztirablı günlər keçirir və tezliklə sevgilisinin yad bir torpaqda başlanan mənasız müharibəni yarımçıq qoyub vətənə dönməsini arzulayırdı. Artıq tərəddüd etməyin yeri deyildi, Migel tezliklə İspaniyaya qayıtmalı idi. O, üzünü Mananaya tərəf tutub ehtiramla dedi:

- Açığını desəm, bu müharibə məni yaman bezdirib. Bu müharibədə ölənlərin simaları gecə yatdığım yerdə yuxuma girir. Öz həmyerlilərim tərəfindən tərifl ənirəm, aborigenlər tərəfindən isə lənətlənirəm. Bu məngənədən çıxamaq üçün, böyük iradə lazımdır.

- Düzgün istiqamət tutanda hər bir insan ağır məngənənin arasından uğurla çıxmağa qadirdir. - deyə Mauna öyüdlə dilləndi. - İradəni topla Araukaniyadan çıx get.

- Bəs, buradakı döyüşçülər? - deyə Migel əli ilə qapının ağzındakı hinduları göstərdi. - Mən buradan çıxan kimi onlar mənim üstümə hücum çəkəcəklər. Sən araukanların nüfuzlu kasiki olduğuna görə mən səndən bir girov kimi istifadə etməli olacağam. Təhlükəsiz yerə çatan kimi səni buraxacağam.

- Birdən sən məni heç bir yerdə buraxmadın, onda necə olacaq? - deyə kasik müəmmalı tərzdə soruşdu.

- Mən öz sözümün ağası sayılıram. - deyə Migel qətiyyətlə dilləndi.

- Elədirsə, mən də sizinlə gedəcəyəm. - deyə Manana öz təklifini verdi. - Mən də bizim rəhbəri təhlükəsiz yerə qədər müşaiyət etməyə hazıram. Çünki geri qayıtmağa ona yol yoldaşı lazımdır.

Hinduların arasında razılaşma baş verəndən sonra Migel onlarla birlikdə bu kəndi tərk etdi və yolun yarısından hinduları buraxıb, təkbaşına gizlin yollarla "qanlı vadi"yə yollandı.

XV fəsil. Konkistadorların növbət uğuru və onların aralarında baş verən iğtişaş

Migel başına gələn bütün hadisəni başda polkovnik Alonso olmaqla bütün zabitlərə ərz etdi. Dostlar onun göstərdiyi şəxsi igidliyinə görə sevindi, düşmənlər isə paxıllıqdan sir-sifətlərini turşutdular. Artıq bəlli olmuşdu ki, sonuncu döyüşdə konkistadorlar daha da səy göstər-

səydilər, düşmənin müdafiəsini yara bilərdilər. Lakin bu imkandan lazımınca istifadə edə bilməmişdilər.

Sonuncu döyüşdə itkilərin olmasına baxmayaraq Alonso kasiklərin yerləşdiyi kəndi ələ keçirmək üçün yeni taktikaya əl atdı. 60 nəfərlik bir dəstə 6 hissəyə bölünərək altı istiqamətdən həmin kəndə tərəf qalxmağa başlayacaq. 30 nəfərlik dəstə isə aşağıda dayanıb araukanların əsas qüvvəsini özünə cəlb edəcək. Yuxarı qalxan hər hansı bir dəstə hindularla meşədə toqquşsa, digər dəstələr isə öz irəliləyişlərini davam etdirəcəklər. Bu plana əsasən həmin kənd işğal olunmalı idi.

Hər şeydən əli soyuyan Migel həmin əməliyyatda iştirak etməyi boynundan qaçırtdı. Lakin ekspedisiyanın rəisi qəti olaraq onu bu imkandan məhrum etdi. Migel nəinki həmin əməliyyatda iştirak edəcək, hətta ona altı dəstədən biri həvalə olundu. Migel öz dəstəsini tanıdığı marşurut ilə kəndə aparmalı idi. Konkistadorların 80 faizi odlu silah ilə silahlandı. Bu əməliyyata polkovnik Alonso şəxsən özu rəhbərlik edirdi və başlanacaq hərbi kampaniyanın uğurla başa çatmasına əmin idi.

Gecənin ortasında "qanlı vadi"dən çıxan böyük dəstə sübh tezdən altı istiqamətlə enli ətəkli dağı fəth etməyə başladı. Səhər açılanda isə otuz nəfərlik bir dəstə kapitan Karlın başçılığı altında "ölüm" düzənliyində mövqe tutdu.

Gözlənildiyi kimi düzənlikdəki dəstə hinduların aşağıdakı qüvvəsini özünə cəlb etdi. Aşağıda döyüş başlayandan yarım saat sonra yuxarı qalxan 6 dəstədən biri hindular tərəfindən aşkarlandı. Bir saat ərzində daha üç dəstə öz irəliləyişini gizlin saxlaya bilmədi. Hər ifşa olunan dəstəyə qarşı araukanlar özlərinin böyük qüvvəsini cəmləşdirirdilər. Bir neçə yaranan münaqişə ocağına hindular özlərinin demək olar ki, bütün qüvvələrini səfərbər etmişdilər. İki dəstə kəndə daxil ola bilir və yarım saatlıq döyüşdən sonra kasiklərin məskən saldıqları həmin yaşayış məntəqəsini ələ keçirirlər. Həmin döyüşdə yaralı kasik Tau bir çox mülki adamlarla əsir alınır.

Müvəffəqiyyətlə başa çatan bu əməliyyat heç də polkovnik Alonsonun ürəyindən deyildi. Kəndin ələ keçirilməsində iştirak edən konkistadorlardan 11 nəfəri öldürülmüş, 13 nəfəri isə yaralanmışdılar. Araukan döyüşçülərindən cəmisi 52 nəfər oldürülüb-yaralanmışdır. Qalan döyüşçülər isə ispanlara bəlli olmayan çığırlarla naməlum istiqamətdə yoxa çıxmışdılar. Elə mülki əhalinin də yarısından çoxu ispanların əsarətindən yaxa qurtarmaq üçün yaşadıqları kəndi tərk etmişdilər.

Əsir düşən adamların içərisində Manana da vardı. Qəribə olsa da, qız kasik Tau ilə birlikdə bu kənddən qaçmamışdı. Taunu əsir alan zaman Manana da həmin evdə yaxalan-

mışdır. Lakin Migel qızın aqibətindən xəbərsiz idi. Onun dəstəsi qaçan hinduların təqibi ilə məşğul olduğu üçün əsir alınan hinduların simalarını görə bilməmişdi.

Əsirləri nəzərdən keçirən Karlos isə qızı o dəqiqə tanıya bilir. Qızın siması onun xatirindən çıxmamışdır. Zalım zadəgan fürsətdən istifadə edərək qızın qolundan tutub, öz atına mindirir və tərəddüd etmədən "qanlı vadi"yə aparır. O, çox gözəl bilirdi ki, atası oğlunun fikrini bilsə, qızı onun əlindən alacaq və ümumi əsirlərin arasında saxlanılmasına göstəriş verəcək. Halbuki Alonso özü icazə vermişdi ki, kənd ələ keçirilən zaman kim istəsə, oradan həm əşya, həm də canlı insan şəklində qənimət götürə bilər. Lakin atasının yanında bir balaca ar edən Karlos heç vaxt cəlbedici, gözəl bir cavan qızı qənimət kimi girov götürə bilməzdi. Məhz buna görə də o, atasının qəzəbinə düçar olmamaq üçün qızı qraf Xuana verdi. Guya həmin qızı qraf Xuan tutmuşdu. Həqiqətdə isə onlar ikisi də qızdan qul kimi istifadə edəcəklər.

Hələlik isə müvəffəqiyyətlə başlanan əməliyyat konkistadorlar tərəfindən davam etdirilirdi. Cənuba və əsasən şərqə tərəf çəkilən hindular ciddi-cəhdlə təqib olunurdular. Elə hallar olurdu ki, əsas təhlükədən uzaqlaşan aborigenlərin bəziləri təqib zamanı yolda ispanların əlinə keçirdilər. Lakin çox hallarda konkistadorlar hinduların qurduq-

ları pusqulara düşürdülər. Çox çəkməyən döyüşdən sonra araukanlar öz mövqelərini tərk etmək məcburiyyətində qalırdılar. Üzücü təqib tezliklə konkistadorları əldən salır və onlar geri çəkilməyi üstün tuturlar. Pərən-pərən düşmüş dəstələr əsas qüvvədən çox aralana bilməzdi. Araukanlar özləri onları mühasirəyə alıb məhv edə bilərdi. İki günlük əməliyyat konkistadorlara böyük uğur gətirsə də, onlar düşmənin sağ qalmış qüvvələrini tam məhv edə bilməmişdilər. Müəyyən bir vaxt keçəndən sonra silahı yerə qoymaq istəməyən araukanlar yenidən dircələ bilər və bununla da ispanların burada yaradacağı yeni dinc həyatlarına böyük əngəl törədəcəklər. Onlar işğalçıların burada qalıb kök salmağı ilə heç vaxt barışmayacaqlar. Bunu konkistadorlar çox yaxşı başa düşürdülər.

Hər şeyi əvvəlcədən analiz edən polkovnik Alonso nəyin bahasına olursa-olsun, tutduğu əraziləri əlində saxlamalı idi. Onun fikrincə, Araukaniyada yeni həyat tərzi yaransa, bir çox təsərrüfatlar təşkil edilsə, inzibati orqanlar yaradılsa, bu ölkədə ispan hökmranlığını bərqərar etmək olar. Məhz ondan sonra hündür dağların ətəklərinə qovuşan hindular bu ərazilərdən əl çəkməli olacaqlar. Bu da labüd idi ki, araukanlar uzun müddət dağlarda yaşaya bilməyəcəklər. Lakin onların inadkarlığı hamıya bəlli idi. Aborigenlər başqa hindu tayfalarından fərqli olaraq həyatın

nə olduğunu çox yaxşı bilirdilər. Vaxtı ilə onlar şimaldan gələn təcavüzkarların əsarəti altında olublar və köləlik barəsində onlarda böyük anlayış vardı. İnk imperiyası və sonradan İspaniya kralığının Atakama səhrasının cənubundan aşağı əraziləri zəbt etməsi və oradan azadlıqsevər araukanların başına min-bir müsibətlərin gətirilməsi heç bir aborigenin yadından çıxmamışdı. Bir daha ağrı-acılı, təhqirlər və iztirablarla dolu həyatla üzləşməsinlər deyə, araukanlar son nəfəslərinə kimi konkistadorlara qarşı mübarizə aparacaqlarına and içmişdilər.

Günlər keçdikçə, konkistadorların sıralarında narazılıqlar baş verməyə başladı. Sonradan gələnlərin əksəriyyəti bu torpaqda heç bir perspektivin olmadığını görüb, Peruya qayıtmağı üstün tuturdu. Alonso bilmirdi onların qarşısını necə alsın. Konkistadorlar arasında iğtişaş baş versə, bu yalnız araukanların xeyrinə olacaqdır.

Kasiklərin yerləşdiyi kənd ələ keçirilən kimi Alonso oğlu Karlosu və qraf Xuanı "qanlı vadi"yə taxıl gətirmək üçün Anqud körfəzi sahilinə göndərdi. Tələm-tələsik yola düşən zabitlər əsir düşmüş hindu qızını özləri ilə götürməyə macal tapmadılar. Çünki ekspedisiyanın rəisi şəxsən onları yola salmışdı. Belə olan halda Manana leytenant Kamaçonun nəzarəti altına düşdü. Qardaşı gələnə qədər Kamaço əsir qızı başqa gözlərdən qorumalı idi. Lakin

Kamaço adi adamlar kimi özünü qızın valehedici gözəlliyi qarşısında gücbəla ilə saxlayırdı. Qardaşının xahişinə qarşı xilaf çıxmamaq üçün o, hər dəfə Mananadan uzaq olmağa çalışırdı. Manana isə əvvəlki kimi düşmənləri qarşısında aciz görünmürdü. Namusunu qorumaq üçün qız hər an ölməyə hazır idi. Planını hansı şəkildə həyata keçirəcəyini ondan savayı heç kim bilmirdi. Lakin heç kim ağlına belə gətirmirdi ki, hindu qızı, ona qarşı zor tətbiq edilən zaman özünə sui-qəsd edə bilər.

Karlos ilə qraf Xuan Anqud körfəzindən qayıdandan sonra Manananın narahat qara günləri başladı. Karlosun qaldığı ev atasının qaldığı ev ilə yanbayan idi. Odur ki, o, əsir ilə elə davranmalı idi ki, buradakı səs-küy bayıra çıxmasın. Yoxsa, polkovnik Alonso oğlunun qeyri-qanuni işindən xəbər tuta bilərdi. İş ondadır ki, konkistadorlar tərəfindən əsir alınmış hindular kimliyindən asılı olmayaraq, hamı "qanlı vadi"də əsası qoyulmuş tikintilərdə işləməliydilər. Manana isə məxfi surətdə hamının gözündən gizlədilərək, ispan zabitinin evində saxlanılırdı.

Evə girən Karlos dərhal Mananaya yaxınlaşaraq ona qarşı zor tətbiq etmək istədi. Lakin evin bir küncünə sıxılmış qız vəcdə gələrək, paltarının altından çıxartdığı balaca bıçağı boğazına dayayır. Hər şeydə özünü müştəbeh aparan Karlos qızın gözlənilməyən bu hərəkətini görərək,

təəccübdən yerindəcə donub qaldı. Karlosu yaxına buraxmaq istəməyən Manana hiddət içində öz dilində nəsə dönə-dönə deyirdi. Əlbəttə, onun dediklərindən və hərəkətlərindən belə başa düşmək olar ki, Karlos ona yaxınlaşsa, qız özünü öldürəcək. Karlos əli ilə işarə edir ki, o, qıza heç bir şey etməyəcək. Şərdən uzaq olmaq istəyən Karlos tərəddüd etmədən evi tərk edir və qapıdan çıxan kimi evin ağzında Migel ilə toqquşur. Karlos öz rəqibini burada görəndə daha da hiddətlənir. Onunla küsülü vəziyyətdə olan Migel üzünü döndərib polkovnik Alonsonun evinə yollanır. Lakin Karlosun qəribə hərəkəti cavan zadəganın diqqətini özünə cəlb edir. Bundan əlavə qraf Xuan da evin qabağında dayanıb bikef halda pəncərədən içəri baxırdı. Migel belə bir qənaətə gəlir ki, evin içərisində nəsə, qeyri-adi bir hadisə baş veribdir. O, bir az uzaqlaşandan sonra Alonsonun qaldığı evin küncündə dayanıb, oradan həmin zabitlərin davranışını nəzərdən keçirməyə başladı. Karlos isə heç kimə əhəmiyyət vermədən və heç kimdən çəkinmədən ona yaxınlaşan qraf Xuana uca səslə dedi ki, - ”o, özünü bıçaqla öldürmək istədi”. - Qraf isə əqrafda kənar adamların olduğunu bildirərək, dostunu sakit olmağa çağırdı. Əsəbilərini ələ alan Karlos sakitləşərək Migelə tərəf tərs nəzər saldı. Migel isə nəzərlərini onlardan çəkərək və orada nə baş verdiyini daxilində anlamaq istədi. Nəhayət o, belə

qənaətə gəldi ki, Karlosgil qaldıqları evdə kimi isə saxlayır və həmin adam təzyiq qarşısında özünü öldürmək istəyir.

Polkovnik Alonso ilə söhbətə gələn Migel onun evdə olduğunu zənn edib, burada gözləməyə başladı.

7-8 metr aralıda dayanan zabitlər bərkdən nə haqda söhbət edirlərsə-etsinlər, hər bir kəlməni Migel aydınca eşidə bilirdi. Bu zaman onlara qraf Filipplə, Kamaço yaxınlaşıl və orada nə baş verdiyini anlamaq istədilər. Vəziyyətdən hali olan Kamaço onlara bildirdi ki, qız hədə-qorxu gəlmək üçün bıçağa əl atıbdır. Belə qərara alındı ki, qızın inadkarlığına son qoyulmalıdır. Əks təqdirdə hamı bayırda qalmalı olacaqlar. Bütün iradəsini toplayan Karlos içəri girdi. Bir neçə dəqiqə keçsə də içəridən səs-küy çıxmırdı. Arabir həyasız zadəganın səsi eşidilirdi. Migel zənn etdi ki, Karlos içəridəki adamı özünün yalan vədləri ilə dilə tutmaq istəyir. Lakin çox keçməmiş içəridə qız xeylağının qışqırıq səsi eşidilməyə başladı. Bu zaman çöldə dayanan zabitlər tələm-tələsik içəri girdilər və bir dəqiqə ərzində qızın səsi kəsildi. Ancaq kənarda dayanan Migel içəridən gələn "onun qanını saxlayın" sözlərini aydınca eşitdi. Bu vaxt, içəridə baş verən zorakılıq aktına dözə bilməyən Migel, özünü həmin evin qapısına çatdırır və orada baş verən hadisəni öz gözləri ilə görməyə çalışdı. Zabitlər qapının ağzına toplaşdıqlarından içəridə nə baş

verdiyini görmək olmadı. Elə bu zaman çölə çıxmaq istəyən qraf Xuan qapıda Migel ilə toqquşdu və onu burada görən kimi öz hiddətini gizlədə bilmədi. O, qışqırdı:

- Sənə nə lazımdır?

- Elə-belə baxıram. - deyə Migel hiddətlə dilləndi.

- Axı, sənə deyilib ki, bir daha bizim gözümüzə görünmə. - qraf Xuan həmin tərzdə öz xəbərdarlığını bildirdi.

- Guya mənə sənlə üzləşmək xoşdur? - Migel rişxəndlə dilləndi. - Sadəcə olaraq buradakı bir qızın qışqırığı məni narahat etdi.

Bundan sonra içəridəki bütün zabitlər hiddət içində evdən bayıra çıxdılar və ani məqamda cavan zadəganı dövrəyə aldılar. Karlos qılıncını əlinə alıb hüznlə qışqırdı:

- Olmaya, sən bu dəfə də aborigenləri müdafiə etmək fikrindəsən? Bu dəfə özünü ortaya atsan, onda qılıncımın qurbanı olacaqsan.

Elə bu dəmdə evin içərisindən Manana qanını hər iki əli ilə sıxa-sıxa, göz yaşlarını axıda-axıda bayıra çıxdı. Onun qarını sarğılı idi. Orada çox güman ki, dərin yara vardı. Çünki qızın həm qarını, həm də hər iki ayaqları qan içində idi. Qız Migeli qapının ağzında görəndə ona zavallı nəzərlərini yönəltdi. Sanki Manana cavan zadəgandan imdad diləyirdi. Yarası ona möhkəm işgəncə verirdi. Qız ağrıdan dişlərini bir-birinə sıxmışdı. Onun gözəl çöhrəsi solğunlaş-

mışdı. Ürəyinin şiddətlə çırpınmasından qızın hansı vəziyyətə düşdüyünü başa düşmək çətin deyildi. Migel o dəqiqə anladı burada nə baş veribdir. O, silahdaşlarını tənqid atəşinə tutaraq, hamını əxlaqsız hərəkətdə ittiham etdi. Bu ittihamı təhqir kimi qəbul edən zabitlər öz qılınclarını işə salmağı qərara aldılar. Belə bir vəziyyətin yaranmasına hazır olan Migel üstündə gəzdirdiyi hər iki qılıncını rəqiblərinin qarşısına çıxartdı.

Hamı istəyirdi ki, Migelə ağır və sarsıdıcı zərbə endirsin. Onları qabaqlayan qraf Xuan qılıncını Manananın üstünə yönəldərək hüznlə:

- Migel, sən özünü elə aparırsan ki, guya bu torpağın varisisən. Bir neçə ay bundan əvvəl sən bu qıza görə bizimlə höcətləşmişdin. O vaxtı qız nə bizə, nə də ki, sənə qismət oldu. Sən onu müdafiə edəndə qız əlimizdən qaçıb qurtarmışdı. Bu dəfə qaçmaq ona qismət olmayacaq.

- O vaxt sizin uçbatınızdan qız əsirlikdən qaçıb qurtarmışdı. - deyə Migel onların yaddaşını təzələdi.

- Öz günahını bizim boynumuza yıxırsan. - deyə Karlos hiddətləndi.

- Elədirsə, bu dəfə o, əsirlikdən qaçıb canını qurtarmayacaq. - deyə qraf Xuan öz qılıncının ucunu qızın sinəsinə tuşladı. - O, nə bizə, nə də ki, sənə qismət olacaq.

Sözlərini yekunlaşdıran kimi qraf Xuan qılıncını qızın sinəsinə sancmaq istədi, lakin Migelin çevik hərəkəti onun qılıncını geri qaytardı. Elə bu an xeyli dərəcə zəifləyən Manana təşviş içində Migelin arxasına qısıldı. Həm qızın, həm də Migelin hərəkətləri qarşıdakı zabitləri daha da hiddətləndirdi və onlar hərtərəfli hücuma keçdilər. Migel müdafiə oluna-oluna onlara - ”təkbətək döyüşməkdən çəkinirsiniz” - sözlərini deməyə imkan tapdı. Manananın arxadan ona qısılması Migelin bir çox hərəkətlərini məhdudlaşdırırdı. Fürsətdən istifadə edən rəqiblər öz hücumlarını genişləndirdilər. Migelə qarşı təzyiq artsa, onu məğlub etmək çətin olmayacaqdı. Elə bir vəziyyət alınmışdır ki, Migel heç iki nəfərin hücumunu əməlli-başlı dəf edə bilmirdi.

Birdən kənardan “əl saxlayın” - kəlməsi eşidildi. Polkovnik Alonsonun amiranə söylədiyi bu söz hamının beyninə yeridi və döyüş dərhal dayandı. Alonso və kapitan Karl onlara yaxınlaşdılar. Qılınclar qınına qoyuldu. İdalqoların arasında baş verən silahlı döyüş ekspedisiya rəisini hiddətə gətirmişdi. O, təxmini olsa da, başa düşmüşdü onların arasında nə baş verib. Məhz buna görə də Alonso üzünü zabitlərə tərəf tutub ikrah hissi ilə dedi:

- Utanıb yerə girmirsiniz? Dörd nəfər bir nəfərin üstünə silah qaldırıbsınız. Bununla nə etmək fikrindəsiniz. Ekspe-

disiyamızın ən mərd və qorxmaz döyüşçülərindən biri sayılan Migeli xəyanətkarcasına qılıncdan keçirmək istəyirsiniz?

- Don Alonso, xahiş edirəm, bizi təhqir etməyin. - qraf Xuan əsəbiləşərək qəti olaraq öz etirazını bildirdi. - Necə olsa da, sizin qarşınızda dayananlar ispan idalqolarıdır.

- İspan idalqoları heç vaxt qrup şəklində öz silahdaşlarının üzərinə hücum etmirlər. - deyə Alonso daha kəskin formada dilləndi. - Sizin bu əməlinizi cinayət kimi qələmə vermək olar. Axı, siz Migeli öldurə bilərdiniz.

- Don Alonso, birincisi o, eyni zamanda bizim hamımızı təhqir edərək qəzəbləndirdi. - deyə qraf Filipp təkzib verməli oldu. – İkincisi, Migel bizim hamımızın düşməni sayılan araukan qızının müdafiəsinə qalxıb. Bunu necə başa duşmək olar?

Alonso qıza və Migelə diqqətlə nəzər saldı, sonra üzünü zabitlərə tərəf tutub qəzəblə dedi:

- Mən Migelin xasiyyətinə yaxından bələdəm və çox yaxşı bilirəm ki, o, səbəb olmadan qızı müdafiə etməz. İkincisi, bu hindu qızı burada nə edir və onu kim bu kökə salıbdır?

Polkovnik qızın yarasını nəzərdə tuturdu və çox yaxşı bilirdi ki, bu, qarşısındakı zabitlərin işidir. Bu sual qarşısında çaş-baş qalan zabitlər bir-birilərinin sifətinə təəccüb dolu

nəzər saldılar, son məqamda isə qraf Xuan izahat verməli oldu. O, dedi:

- Araukanların hamısı vəhşi və yırtıcıdırlar. Qız özu-özunu bıçaqla vurub. Biz müəyyən sorğu-sualdan sonra onu ümumi əsirlərin yanına aparmaq istədik, ancaq o, müqavimət göstərərək özunü yaraladı. O ki, qaldı Migelə, onun hərəkəti hamımızı hiddətləndiribdir. Çunki o, həmişə araukanları müdafiə etməklə bizi qıcıqlandırır. Axı, burada gedən döyüşlər sübut etdi ki, araukanlar vəhşi və yırtıcı bir tayfadırlar və onların hamısı bütünluklə məhv edilməlidir. Biz həlak olan silahdaşlarımızın qisasını almalıyıq. Əks təqdirdə onların ruhu bizi bağışlamayacaq.

- Mən heç vaxt özümüzküləri qoyub araukanları müdafiə etməmişəm. - deyə Migel başını dik tutaraq qürurla dilləndi. - Sadəcə olaraq, mən bir ispan idalqosu kimi silahsız adamları müdafiə etməyə məcburam.

- Araukanlar 150-dən yuxarı bizim silahdaşları qətlə yetiriblər. - deyə Migeli ekspedisiya rəisinin gözündən salmağa çalışan qraf Filipp hüznlə dilləndi və əli ilə cavan zadəganı göstərərək həmin tərzdə sözünə davam etdi. - Buna baxmayaraq Migel böyük bir səylə onları müdafiə etməyə çalışır. Heç vaxt ispan idalqosu öz silahdaşının qanını axıdan bir adamın müdafiəsində durmaz. Bunu

yalnız vətən xaini və həlak olmuş silahdaşının ruhuna naxələf çıxmış bir adam edə bilər.

Belə bir təhqirin qarşısında heç bir idalqo tab gətirə bilməzdi, lakin öz günahsızlığını sübut etmək üçün həmin adam soyuqqanlığını itirməməli idi. Həm də onun emosional hərəkətlərinə Alonso pis reaksiya verə bilərdi. Migel dedi:

- Mən heç vaxt silahdaşlarımın qanını axıdan kəsə aman verməmiş və həmişə müharibənin sərt qanunları ilə onları döyüş meydanında cəzalandırmışam. Qarşımızdakı hindu qızı günahsız bir məxluqdur. Nəinki mən, bütün idalqolar silahsız bir qız xeylağını müdafiə etməlidir. Mən Araukaniyaya yerli hinduları müdafiə etməyə gəlməmişəm, mən İspaniyanın qatı düşmənləri sayılan vəhşi araukanlara qarşı döyuşməyə gəlmişəm. O ki, qaldı məni vətən xaini kimi qələmə vermək? Qraf Filipp bu ittihama görə dueldə başı ilə cavab verəcək.

- Elədirsə, vaxtı uzatmaq lazım deyil. - qraf Filipp duelə hazır olduğunu bildirdi. - Sənin kimi adamı dueldə öldürməyə hər an hazıram.

- Mənim yanımda dueldən söhbət açırsınız? - deyə vəcdə gələn Alonso səsini qaldırmalı oldu. - Biz bura İspaniyanın düşmənlərini məhv etməyə gəlmişik, yoxsa bir-birimizi?

- Onsuz da Migel daim, vəhşi araukanları müdafiə edir. - deyə qraf Xuan qardaşının mövqeyini müdafiə etməli oldu. - Onu həlak olmuş silahdaşlarımızın aqibəti maraqlandırmır.

- Bu müharibənin sonuncu döyuşlərində mən həm atamı, həm də babamı itirmişəm. - deyə Migel yenə də öz soyuqqanlığını itirmədi. - Nəinki yaxınlarımın, hətta bütün silahdaşlarımın qisasını lazımi səviyyədə almışam və bundan sonra da alacağam. Hamı mənim necə döyuşdüyumü çox yaxşı görübdür. Yalnız polkovnik Odovaldonun ekspedisiyasının tərkibində mən yüzdən çox düşmən əsgərini qılıncdan keçirmişəm. Ən ağır əməliyyatlarda mən ön sırada döyuşmüşəm. Ancaq bir ispan idalqosu kimi mən heç vaxt silahsız adamın qətlində iştirak etməyəcəyəm. - Sonra Migel üzünü polkovnikə tərəf tutaraq ehtiramla sözünə əlavə etdi. - Don Alonso, bundan sonra mənim bu ekspedisiyada fəaliyyət göstərməyim yersizdir. Bir çox zabitlər mənim burada olmağımı arzulamırlar. Araukaniyanı tərk etsəm, daha münasib olar.

Bu sözlər polkovnik Alonsonu məyus etməyə bilməzdi. Lakin o, bu məsələni düşmənçilik mövqeyində duran zabitlərin yanında müzakirə etmək istəmirdi. Çunki Migelin ekspedisiyadan getməsi onların ürəyindən idi. Alonso ilk növbədə göstəriş verdi ki, yaralı qızı onun qaldığı evə

aparsınlar və ona ilkin tibbi yardım göstərsinlər. Alonsonun bu qərarı hər bir zabitin təəccübünə səbəb oldu. Onlar polkovnikdən başqa qərar gözləyirdilər. Elə bilirdilər ki, hindu qızını hər hansı bir üsul ilə cəzalandıracaq, Migelə isə özbaşına hərəkətinə görə hamının qarşısında tənbeh edəcək. Lakin hər şeyin əksi baş verdi.

XVI fəsil. Migelin son qərarı

Alonsonun qaldığı ev başqa hinduların evləri kimi bir otaqdan ibarət olduğundan yaralı qızı elə polkovnikin yerinə uzandırdılar. Onun yarasını nəzərdən keçirmək üçün dərhal Xristofor Salvatyero çağırıldı. Ekspedisiya rəisi həkimin burada olmasına heç bir əhəmiyyət verməyərək, ehtiramla Migelə dedi:

- Sən ekspedisiyanı tərk etməklə məni pis vəziyyətdə qoyursan. Axı, sən burada mənim üçün birdən-birə on-on beş əsgəri əvəz edirsən. Bundan əlavə sən düşmənin bütün strategiyasına və taktikasına yaxından bələdsən. Heç kim sənin kimi düşmənin öhdəsindən belə asanlıqla gəlmir.

Həm də sən ən ağır döyüşlərdə yaxından iştirak etsən belə, bir dəfə də olsun yaralanmamısan və buna görə silahdaşların sənə məğlubedilməz döyüşçü ləqəbi veriblər.

- Bunu mən Osvaldodan eşitmişəm. - Migel təqdiredici tərzdə dilləndi və bir az tərəddüd edərək aludəliklə sözünə davam etdi. - Don Alonso, siz özünüz çox yaxşı bilirsiniz ki, mən nizam-intizama riayət edən bir adamam. Həmişə də mənə verilən tapşırıqları canla-başla yerinə yetirmişəm. Lakin buna baxmayaraq, bir çoxları mənim gördüyüm işlərə qısqanclıqla yanaşaraq, paxıllıq edirlər. Mənə qarşı aparılan düşmənçilik siyasəti kulminasiya nöqtəsinə çatıbdır. Geç-tez bizim aramızda partlayış baş verəcək.

- Arxayın ola bilərsən, mən bu məsələyə birdəfəlik son qoyacam. - deyə Alonso ciddi halda dilləndi. - Onların hamısının mövqeyi sənə qarşı dəyişəcəkdir.

- İnsan xasiyyətini dəyişmək qeyri-mümkündür. - Migel üzrxahlıqla dilləndi. - Onlar nə qədər səy göstərdilərsə, düşmən üzərində istədikləri kimi qalibiyyət əldə edə bilməyiblər. Odur ki, onlar mərd, qorxmaz və daim uğur qazanan döyüşçünün müvəffəqiyyətinə qısqanclıqla yanaşırlar. Bu məsələdə düzəliş etmək müşkül bir işdir.

- Sənə dedim axı, bu məsələyə birdəfəlik son qoyacam. Onların dördü də mənim tərəfimdən ciddi tənbeh olunacaqlar. Karlos ilə Kamaço lap cızıqlarından çıxıblar.

- Don Alonso, sizə deyirəm ki, istər-istəməz bizim aramızda ixtişaş yaranacaq. Səbəbi isə odur ki, onlar mənim gözümün qabağında hər hansı bir silahsız hinduya qarşı cəza tədbiri görəcəklər, mən isə belə bir haqsızlığa dözə bilməyəcəyəm. Nəticədə isə aramızda ixtişaş baş verəcək.

- Sən çalış elə şeylərə göz yum. Onları da başa düşmək lazımdır. Biz artıq 150-dən artıq əsgər itirmişik. Belə olan halda buradakı döyüşçülərin tam əksəriyyəti araukanlardan bərk-bərk yanıqlıdırlar və onlar düşməndən yalnız qisas almaq prinsipi ilə yaşayırlar. Yalnız hər hansı bir araukan öldürüləndə müəyyən dərəcədə onların hirsi soyuyur, əsəbiləri isə sakitləşir.

Araukaniyada ən şiddətli və amansız müharibə gedir. Özun bilirsən ki, onlar necə qəddar və qaniçən hindu tayfasıdır. Adicə bir epizodu yadına sal: sülh danışıqlarında iştirak edən bizim nümayəndələr xüsusi qəddarlıqla qətlə yetirildilər. Axı, hindular yaxşı bilirdilər ki, öldürulənlərdən ikisi qeyri-hərbçi idilər. Birinin isə lap ahıl yaşında idi. Bunları unutmaq çox çətindir.

- Bütün bunlar əbədilik mənim beynimə həkk olunub. Lakin buna baxmayaraq, mən öz döyuşçülərimlə bir yerdə qala bilməyəcəm. İcazə verin Araukaniyanı tərk edim.

- Migel, mənim sənin kimi döyüşçülərə böyük ehtiyacım var. - Alonso ümidlə dilləndi. - Lazımdırsa, mən onları

Lyankiue gölünün yaxınlığındakı vadiyə göndərim. Sən isə burada mənim yanımda qal. Əgər, sən vaxtından əvvəl buranı tərk etsən öz silahdaşlarının gözündən düşəcəksən.

- Don Alonso, araukanların 90 faizi darmadağın olub. Sağ qalanlar isə dağlarda və meşələrdə gizləniblər. Ona görə gizlənməyiblər ki, bizə müqavimət göstərsinlər. Onlar yalnız öz həyatlarını düşünürlər. Araukanlar sərt təbiətin ətürpərdici iqliminə dözməyərək, təslim olmağa məcbur olacaqlar. Düşmənin beli tamamilə sınıbdır.

Migelin inadkarlığı Alonsoya təsir etməyə başladı. İndiyənə kimi heç kim onun sözünü yerə salmamışdı. Alonso qarşısındakı adamın nə qədər qiymətli döyüşçü olduğunu çox yaxşı dərk edirdi. Ona görə də onu itirmək istəmirdi. Migel ən ağır əməliyyatların və tapşırıqların öhdəsindən uğurla gəlir, hər tərəfdən düşmənlə əhatə olunan hindu kəndinə basqın edərək düşmənin canında vahimə yaradır, əsir düşmüş silahdaşlarını azad edilməsində fəal iştirak edir və bununla yanaşı xeyli düşmən qüvvəsini qılıncdın keçirdərək məhv edir. Lakin bütün bu nailiyyətlərə baxmayaraq, zabitlər arasında onu istəməyənlər də var idi. İş o yerə çatmışdı ki, Migel ilə qraf Filipp arasında duel baş verməli idi. Sadəcə olaraq, Alonso onları bu imkandan məhrum etdi. Hələ bu harasıdır? Dörd nəfər zabit Migelin üstünə hücum çəkərək onu məhv etməyə cəhd göstərmiş-

dirlər. Bu hadisə bir çox idalqoların narazılığına səbəb ola bilərdi. Heç bir vicdanlı, namuslu, qeyrətli idalqo Migelin ölümünü həmin zabitlərə bağışlamazdı. Deməli, Alonso özünü vaxtında hadisə yerinə çatdırmışdı. Alonso onları ayrı salsa belə, gec-tez yeni münaqişə baş verəcəkdi. Çünki polkovnik nifrət dolu hissləri həmin zabitlərin gözündə oxuya bilmişdi. Alonso anlaya bilmirdi nəyə görə, vaxtı ilə onları əsirlikdən azad etmiş bir adama qarşı həmin zabitlər belə bir düşmənçilik mövqe tuturlar?

- Migel, imzaladığın müqaviləyə əsasən, sən hərbi əməliyyatlar başa çatandan sonra Araukaniyanı tərk edə bilərsən. - deyə Alonso öz sevimli şagirdini yanında saxlamaq üçün axırıncı varianta əl atmalı oldu. - Ancaq vaxtından tez getsən, onda sən hər şeyi itirəcəksən.

- Görünür, mən öz imtiyazlarımdan imtina edirəm. Mən, təsəvvürümə belə gətirməzdim ki, Araukaniyada hərbi əməliyyatlar bu qədər uzanacaq.

- Migel, mən krala təqdimat hazırlayırdım ki, sənə həm leytenant rütbəsi, həm də cəngavər titulu verilsin. Lakin müharibəni yarımçıq qoyub getməklə, sən həmin mükafatlardan məhrum olursan. Başa duşə bilmirəm, nəyə görə sən burada başlanan müharibəni yarımçıq qoyub getmək istəyirsən? Axı, müharibə qısa muddətə tam qələbə ilə başa çata bilər.

- Müharibə demək olar ki, artıq başa çatıbdır. Dağlarda və keçilməz meşələrdə gizlənənləri təqib edərək məhv etmək üçün aylarla, hətta illərlə vaxt tələb olacaq. Açığını desəm, sağ qalan araukanlar xoşluqla silahlarını yerə qoymayacaqlar. Yaxından olmasa da, mən artıq onların xasiyyətinə bələdəm. Ardbaard məğlubiyyətlərdən və bu qədər itkilərdən sonra hansı xalq olsaydı, çoxdan təslim olardı. Onlar isə azacıq da olsun, təslim olmaq barəsində düşünmürlər. Deməli, araukanlar hansı amal uğrunda döyüşdüklərini çox yaxşı dərk edirlər. Biz tutduğumuz ərazi ilə kifayətlənməliyik. Əks təqdirdə biz bu torpaqları da itirə bilərik.

Bu sözlər Alonsonu mat-məəttəl qoydu. Doğrusu o, Migeldən belə sözlər gözləmirdi. Artıq Migel əsgər və ya zabit kimi yox, əsl sərkərdə kimi fikir söyləyirdi. Alonsonun isə açıq fikir mübadiləsi aparan adamlardan xoşu gəlirdi. Bir sərkərdə kimi o, döyüşçülərinin nə haqda düşündüklərini bilməli idi. Yaltaq zabitlərin və düz söz söyləməkdən boyun qaçıran döyüşçülərin fikrini bilməkdənsə, bilməmək yaxşı idi. Çunki onların qeyri-müəyyən, reallıqdan kənar olan sözləri hər bir sərkərdəni uçuruma aparırdı. Hamı Alonsonun nüfuzundan, vəzifəsindən, verilən səlahiyyətindən çəkinərək, onun ətrafını yalanın hörümçək toru ilə örtmuşdu. Elə Migelin mərhum babası da həqiqəti söylə-

məkdən çəkinməmişdi. Müəyyən mənada Migel öz babasına oxşayırdı. Fürsətdən istifadə edən Alonso şagirdinin fikrini öyrənmək üçün onu sorğu-suala tuqmağa başladı. O, təqdiredici tərzdə başını tərpədərək ehtiramla dedi:

- Migel, sənin buradan getməyinin səbəbini bilmək mənim üçün çox vacibdir. Necə olsa da, sən daim sıravi döyüşçülərin yanında olursan və bilavasitə onların fikirləri ilə tanışsan. Mən, bütün döyüşçülərin fikrini bilmək istəyirəm.

- Don Alonso, çoxlarının fikrini bildirmək üçün sizinlə səmimi söhbət edəcəm. - Migel bir az tərəddüd edərək ehtiramla dilləndi. - Biz İspaniyanı tərk edəndə çoxları elə bilirdi ki, Araukaniya münbit torpaqlı, mülayim iqlimli bir ölkədir və hamı buranı cənnət zənn edərək, böyük bir həvəslə yola düşmüşdür. Elə sonradan gələnlər də Araukaniyanın cənnət olduğunu düşünürdülər. İndi isə hamının fikri dəyişibdir. Cənnətə gələnlər, cəhənnəmə düşüblər. Sağ qalanlar bu cəhənnəmdən yaxa qurtarmaq istəyirlər. Buranı görəndən sonra əksəriyyət döyüşçülər Peru vitse-krallığına getməyi üstün tuturlar. Söz yox ki, orada olan imkan və şərait burada yoxdur. Araukaniyada baş verən...

- Migel, açığını de görüm, sən də buranı cəhənnəm hesab edib getmək istəyirsən? - deyə Alonso onun sözünü kəsərək, bu suala cavab istədi.

- Həqiqəti bilmək istəyirsinizsə, deyim. Araukaniya bizim döyüşçülər üçün cəhənnəm sayılır. Amma mən bu amilə görə buradan getmək istəmirəm. Hazırda İspaniya başqa yerlərdə də müharibə aparır və bundan əlavə bizim krallığın Yeni Dünya sahillərindəki müstəmləkələri, bir necə Avropa dövlətlərinin marağına səbəb olub. Başda İngiltərə olmaqla bizim gəmilər, şəhər və qəsəbələr talan edilir. Dəniz quldurlarının özbaşınalığı o həddə gəlib çatıb ki, onlar Magellan boğazını qət edərək, Sakit okeanı sahillərində yerləşən şəhər və qəsəbələrimizə hücum edir və oralarda fəaliyyət göstərən bizim gəmiləri qarət edərək suda batırırlar. İngilis əsgərləri Niderlanddakı qiyamçılara arxa duraraq, bizim nizami qoşunlarımıza qarşı şiddətli döyüşlər aparırlar. Sözüm ondadır ki, bizim kimi təcrübəli, peşəkar döyüşçülər burada yox, qaynar nöqtələrdə lazımdır. Biz ən çox xeyiri məhz oralarda verməliyik.

- Araukaniya da İspaniya imperiyasının bir parçasıdır. Necə ki, Niderladda, Fransada və başqa yerlərdə qayda-qanunlar bərpa edilir, eləcə də burada. Biz buradakı işləri qurtarandan sonra dəniz quldurları ilə məşğul olacağıq. Vaxt gələcək onların kökü həm Atlantikada, həm də Sakit okeanı sahillərində kəsiləcək. Biz bura kral II Filippin tapşırığını yerinə yetirməyə gəlmişik və həmin tapşırıq da yerinə yetirilməlidir.

- Don Alonso, qüdrətli kralımızın verdiyi tapşırıq demək olar ki, 90 faiz yerinə yetirilib. Bütün Araukaniya bizim nəzarətimiz altına keçibdir. Hazırda bu ölkə dörd sektora bölünüb və həmin üsul ilə də idarə olunacaq. Bundan sonra Araukaniyada təsərrüfat işləri aparılmalıdır.

Migelin sözlərində həqiqət vardı. Artıq Araukaniya ispanların nəzarəti altında idi və burada təsərrüfat işləri görmək üçün əlverişli imkan yaranırdı. Bunun üçün peşəkar döyüşçüləri bu ölkədə saxlamaq heç də vacib deyildi. Peşəkar döyüşçülər İspaniyanın xeyrinə görə başqa qaynar nöqtələrdə lazım idi. Buna baxmayaraq o, Migeli öz yanında saxlamaq üçün bir daha cəhd göstərdi.

- Axı, sən yaxşı bilirsən ki, hələ də cəzadan yaxalarını qurtaran hindular var. Bəs, onlara qarşı kim mübarizə aparacaq?

- Don Alonso, araukanlar gizləndikləri dağlara və keçilməz meşələrə çox yaxşı bələddirlər. Onları təqib etmək namümkündür. Hələ bilinmir, onlar bizdən nə qədər gizlənəcəklər. Vaxt gələcək onlar ağır yaşayış tərzinə dözə bilməyib özləri təslim olacaqlar.

- Yadıma mərhum babanın sözləri düşür. O, deyirdi ki, sonuncu araukan döyüşçüsü məhv edilməyincə Araukaniyada tam qələbə qazanmaq mümkün olmayacaq. Onlar bu torpaqda nəfəs aldıqca, həmişə bizdən qisas almaqa

çalışacaqlar. Araukanlar heç nəyin bahasına, öz azadlıqlarını xoşluqla əldən verməyəcəklər. Əgər, biz onları təqib edərək məhv etməsək, heç vaxt burada istədiyimiz şəkildə təsərrüfat işləri qura bilməyəcəyik.

- Don Alonso, axı hər bir döyüşçüyə gün kimi aydındır ki, biz heç vaxt onları tam şəkildə qıra bilməyəcəyik. Araukanları axırıncı adama kimi təqib edib zərərsizləşdirmək üçün aylarla, illərlə vaxt lazımdır. Həmin ərəfədə biz başqa yerlərdə xalqımızın xeyli düşmənlərini məhv edə bilərik. Sizdən artıq dərəcədə xahiş edirəm, buraxın məni gedim. Mən atamın və babamın vəsiətlərini yerinə yetirmək üçün Qızıl Kastiliyaya getməliyəm. Mənim qılıncım dəniz quldurlarının ömrünə qənim kəsilməlidir. Onların vəhşiliyinə dözmək mənim üçün çox ağırdır.

Artıq Migelin fikri Alonsoya tam aydın oldu. Cavan zadəgan Araukaniyadakı karyerasına son qoyaraq, tezliklə Karib dənizinin qərb sahillərinə yollanmaq arzusunda idi. Deməli, Migelin gələcək planı Qəraib dənizində azğınlıq edən dəniz quldurlarına - piratlara - qarşı mübarizə aparmaqdan ibarətdir. Elə Alonsonun da sonrakı fəaliyyəti bu problemlə bağlı idi. Kral II Filippin axırıncı tapşırığına əsasən, polkovnik Alonso Karib dənizi akvatoriyasında piratların məhvi ilə məşğul olmalı idi. Əgər, elədirsə onda Migel onun tabeçiliyi altında xidmətə girə bilərdi. Piratların

qırılması kimi dövlət əhəmiyyətli mühüm bir işdə Migel kimi peşəkar bir döyüşçüdən və təcrübəli dənizçidən istifadə etmək Alonsoya hava-su kimi lazım idi. Deməli, onlar yenə də bir yerdə ola bilərlər. Lakin Migel Qızıl Kastiliyaya indidən, Alonso isə bilmirdi necə ildən sonra həmin regiona gedəcək. Çünki Madriddən verilən tapşırığa əsasən o, birinci Araukaniya məsələsini tam İspaniyanın xeyrinə həll etməli, ikinci Eldarado ölkəsinin varlığını və yoxluğunu ayırd etməli, üçüncü isə Karib dənizi sahilinə yollanmalı idi. Deməli, Alonso öz şagirdi ilə bir neçə il sonra dəniz quldurlarına qaşı mübarizəyə başlayacaq. O, bir balaca tərəddüd edəndən sonra Migelə dedi:

- Migel, sirr deyilsə, deyə bilərsən kimin başçılığı altında xidməq edəcəksən? Çünki vaxt gələcək mən özüm də piratların məhvi ilə məşğul olacağam. Bunun üçün mənə təcrübəli dənizçilər və peşəkar döyüşçülər lazım olacaq.

- Don Alonso, sizin planlarınızla qismən də olsa tanışam. Siz Karib dənizinə təxminən 2-3 ildən sonra gedəcəksiniz. Yoxsa, mən çox məmnuniyyətlə sizin rəhbərliyiniz altında xidmət edərdim. Artıq vaxt itirməmək üçün mən qısa müddətə fəaliyyətə başlamalıyam.

Don Alonso, sizə pərəstiş etdiyim üçün daxilimdə olan planı və ya sirri açmaq istəyirəm. Mən özüm təcrübəli və döyüşkən heyət toplayacağam. Həmin adamlar həm İspani-

yada, həm də Yeni Dünya sahillərində heyətə daxil edilə-cək. Hər bir adam beş-altı piratın öhdəsindən asanlıqla gəlməlidir. Elə bir gəmi və ekipaj yaradacağam ki, bizim adımızı eşidəndə bütün piratlar lərzəyə gəlsinlər. Hamı təşvişə düşərək, Karib dənizi sahillərindən baş götürüb qaçacaqlar. I Yelizavetanın təşkil etdiyi quldur dəstələri məcburiyyət qarşısında qalıb Britaniya adalarına qayıda-caqlar və quldurluqla bilavasitə orada məşğul olacaqlar. Amma bu işdə həmin akvatoriyada fəaliyyət göstərən bütün hərbi gəmilər eyni mövqedən çıxış etməli və dəniz quldurlarını hər bir yerdə təqib etməlidirlər. Ən əsası odur ki, biz piratların Antil adalarında yaratdıqları bazalarınımı deyim, yuvalarınımı deyim, tapıb yer üzündən silməliyik. Əks təqdirdə dünyanın bütün quldurları, başkəsənləri cinayət yolu ilə qazanc əldə etmək üçün Yeni Dünya sahillərinə axışıb gələcəklər. Atamla, babamın qazandıqları pulların əksəriyyəti müqəddəs işi yerinə yetirmək üçün mənə vəsiət olunub. Həmin pullara mən İspaniyada ən möhkəm və sürətli gəmi alacam və heyətə istədiyim adamları qəbul edəcəm.

Don Alonso, bu müqəddəs işi yerinə yetirmək üçün siz, mənə buradan getməyə öz razılığınızı verməlisiniz. Mənim burada qalmağımın heç bir mənası yoxdur. Onsuz da

araukanların beli sınıbdır. Onlar təhlükəli və qorxunc bir tayfa kimi bir daha baş qaldıra bilməyəcəklər.

Hər şeydə təkəbbürlü, təmkinli olan Alonso hər bir qeyrətli və mərd döyüşçünü insafla, vicdanla qiymətləndirməyi bacarırdı. Artıq o, heç cürə cavan zadəganı burada sax-laya bilməzdi. Buraxmağına buraxacaqdı, lakin göstərdiyi igidliyə görə Migel onun tərəfindən mükafatlandırılmalıydı. Alonso bir şeyi də yaxşı bilirdi ki, Migeli buraxmaqla, buranı tərk etmək istəyən hər bir döyüşçüyə də həmin şəraiti yaratmalı idi.

- Migel, sənin kimi vətənpərvər bir adam daim öz kralının, dövlətinin qarşısında xidmətdə duracaq. Sənin kimi bir döyüşçünü burada saxlamaq düzgün deyil. Bu fikrinlə razıyam ki, Araukaniyada hazırda heç bir əsas və böyük döyüşlər getmir, yerli hindular isə bizə heç bir təhlükə yaratmır. Sən və sənin kimi döyüşçülər İspaniyanın mənafeyi üçün başqa qaynar nöqtələrdə fəaliyyət göstərməlidir. Lakin elə bilmə ki, sənin xidmətlərin Araukaniyada elə-belə keçib. Mən sənin və ümumiyyətlə Kartahenalar nəslinin bu ölkənin fəth edilməsində yüksək səviyyəli fəaliyyətinizin yüksək qiymətləndirir və buna görə sizi mükafatlandırmağa qərara almışam. “Qanlı vadi”nin şimal-şərqində yerləşən kəndi və ona bitişik olan on hektar torpağı sənə pay verirəm. Bu gündən sən həmin mülkün

varisi sayılırsan. Bütün sənədləri sən Araukaniyada fəaliyyət göstərən kral notariusunun vasitəsilə düzəlt, ondan sonra isə bu ölkənin həndəvərini tərk et.

- Sizin bu hörmətiniz heç vaxt mənim yadımdan çıxmayacaq. Bilirdim ki, siz öz döyüşçülərinizin əməyini lazımi səviyyədə qiymətləndirəcəksiniz. Don Alonso, bildiyiniz kimi mən, Osvaldo və mərhum Sebastyan uşaqlıqda daim bir yerdə olmuşuq. Sebastyan vətən və kral qarşısında öz borcunu yerinə yetirərkən, qeyri-bərabər döyüşdə qəhrəmancasına həlak olmuş və əbədi olaraq bu torpaqda qalır. Lakin Osvaldo da mənimlə birlikdə eyni gəmidə piratlara qarşı döyüşmək arzusundadır. İcazə versəniz, o, da mənimlə birlikdə Araukaniyanı tərk edərdi.

- Migel, elə bilmə ki, bu ölkəni tərk etmək yalnız sənə qismət olacaq. Mərhum qardaşımın ekspedisiyası ilə bura gələn döyüşçülərdən 50-yə yaxın adama buranı tərk etmək imkanı veriləcək. Ancaq etiraf etməliyəm ki, hər bir adama burada torpaq mülki verilməyəcək. Yalnız fədakarlıqla düşmənə qarşı döyüşən döyüşçülər mənim tərəfimdən torpaqla mükafatlandırılacaqlar. Kimin, necə döyüşdüyünü mən çox yaxşı bilirəm. Sən gedən günü mən də sənlə birlikdə Limaya gedəcəyəm. Araukaniyadan getmək istəyən döyüşçüləri evlərinə buraxmamış onların əvəzinə bura əsgər gətirməliyəm. Bütün Araukaniyanı mən yumruğum kimi

möhkəm saxlamalıyam. Ölkənin bütün ərazisi ciddi nəzarət altında olmalıdır. Mən krala söz vermişdim ki, Araukaniyanı qısa bir müddətə zəbt edəcəm, elə də etdim. Düşmən demək olar ki, tamamilə darmadağın edilibdir. İnanmıram ki, araukanlar haçansa, baş qaldıra biləcəklər. Onları mülki əhalidən və ərzaqdan məhrum etsək, gizlənənlər məcburiyyət qarşısında qalaraq təslim olacaqlar. Qışda onların iradəsi tamamilə qırılacaq. Bu müddət ərzində biz əsir aldığımız mülki əhali ilə xoş rəftar etsək, dağlarda və meşələrdə gizlənən hindular mübarizələrini dayandıra bilərlər.

Alonso Araukaniyada qazandığı qələbəyə ümidlə yanaşırdı. O, ümid edirdi ki, bundan sonra qalan araukanlar ispanlara ciddi müqavimət göstərməyəcəklər. Lakin daxilində tam qələbəyə bir balaca inamsızlıq hissi vardı. Yoxsa, o, çoxdan Eskorialda oturan krala Araukaniyanın tutulması və yerli hinduların ram edilməsi barəsində raport göndərərdi.

Demək olar ki, bütün döyüşlərdə düşmənlə üzbəüz gələn Migel araukanların xarakterində əyilməzlik və yenilməzlik hisslərinin yüksək səviyyədə durduğunu anlamışdır. Onların dəyanəti, mətanəti, vüqarı və qorxmazlığı araukanların təslim olmayacaqları barəsində Migel axırıncı qənaətə gəlmişdir. Bir vicdanlı idalqo kimi Migel bu fikirləri ilə Alonsonu tanış etməli idi.

- Don Alonso, sizin kimi bir təcrübəli sərkərdəyə məsləhət vermək, sizə qarşı hörmətsizlik kimi qələmə verilə bilər. Lakin susmağın özu də sizə qarşı xəyanətkarlıq kimi qələmə verilə bilər. Tam olmasa da, mən araukanların daxilindəki hisslərə yiyələnə bilmişəm. Onu deməyə özümə borc bilirəm ki, axırıncı araukan zərərsizləşdirilməyincə tam qələbədən söhbət etməyə dəyməz. Bir neçə aborigen sonradan böyuk bir dəstə düzəldib və bizim burada fəaliyyət göstərəcək inzibati orqanların işlərinə böyuk əngəl törədəcək. Təqib etməyin heç bir xeyiri yoxdur. Ona görə ki, onlar əlçatmaz yerlərdə gizləniblər.

- Deyirsən, əlçatmaz yerlərdə gizlənən hindular gələcək-də böyük bir dəstə yaradıb, bizim üstümüzə hücum edəcək-lər?

- Buna şübhə etməyə bilərsiniz. Müqavimət göstərmək və ümumiyyətlə bizim əsgərlərə qarşı mübarizə aparmaq onların qanına hopub. Apardığım müşahidələrdən belə qənaətə gəlmişəm. Gərək xüsusi fənd işlətmək lazımdır ki, araukanlar gizləndikləri yeri tərk etsinlər və onları birdə-fəlik məhv etməyə imkan yaransın. Məhz ondan sonra hər bir ispan əsgəri bu torpaqda rahat xidmət edə bilər.

- Mən, onları öz yuvalarını tərk etməyə məcbur edəcəyəm. Araukanların hamısı bu torpaqda həlak olan hər

bir ispan əsgərinin ruhu qarşısında cavabdeh olacalar. Yalnız qocalara, qadınlara və uşaqlara rəhm ediləcək.

Migel fürsətdən istifadə edərək Alonsodan daha bir xahiş etdi:

- Don Alonso, sizin evinizə gətirilən hindu qızının bu müharibədə heç bir taqsırı yoxdur. Deyirəm, bəlkə onun həyatını mənə bağışlayasınız? Bir dəfə o, mənim həyatımı təhlükədən xilas etmişdir.

- Sən onunla nə etmək fikrindəsən? - Alonso maraqlandı.

- Bəlkə, onu özumlə Limaya apardım. İstəmirəm ki, onun kimi günahsız bir qız amansız və dəhşətli müharibənin qurbanı olsun. Siz çox yaxşı bilirsiniz ki, bir necə zabit həmin qızın başına min-bir oyun açıb ondan sonra onu öldürmək istəyirlər.

- Migel, mən hiddətə və vəcdə gəlmiş zabitlərin halını çox yaxşı başa düşürəm. Necə olsa da, o, hindu qızıdır və araukanların çox ciddi müqavimət göstərdikləri kənddə əsir alınıb. Əgər, o, sənin həyatını təhlükədən xilas edibdirsə, onda qoy sən deyən kimi olsun.

Migel inana bilmirdi ki, Alonso onun bütün xahişlərini yerinə yetirib. Deməli, belə başa duşmək olar ki, polkovnik öz şagirdinin xətrini çox istəyir və onun göstərdiyi qəhrəmanlıqlarına görə bu cür istiqanlıq göstərir. Deməli, Alonso vicdanlı bir sərkərdə kimi qəhrəman, mərd, igid və

cəsarətli döyüşçüləri qiymətləndirməyi bacarırdı. Məhz bu çür insaflı hərəkətlərinə görə hər bir döyüşçü onun xətrini əziz tuturdu.

XVII fəsil. Migel üçün cəhənnəmi xatırladan Araukaniya

Migel uşaqlıq dostu Osvaldo ilə birlikdə Araukaniyanı tərk etməyə tam hazır idi. Lakin o, Manana sağalmamış heç cürə buranı tərk etmək fikrində deyildi. Qızın qarnındakı yara dərin olduğundan onun müalicəsi gec baş verirdi. Xristofor əlindən gələn bütün işləri görürdu ki, təki, qız tezliklə müalicə olunub ayağa qalxsın. Burada prinsip məsələsi vardı. Karlosgil çalışırdılar ki, qızı məhv etsinlər, Migelgil isə onun yaşamağı uğrunda mübarizə aparırdılar. Migelgili nəzərdə tutlanda onlara bu işdə Ameriqo ilə Xristofordan başqa - kapitan Markos, leytenant Ernando Ramires və cəngavər Dias Barrameda öz köməkliklərini göstərirdilər. Həmin bu adamlar bu işdə kimin haqlı, kimin isə haqsız olduğunu çox aydın ayırd etmişdilər. Halbuki

Odovaldo ilə Morelos qardaşları bütün ekspedisiya iştirakçıları arasında Migel ilə Osvaldo haqqında pis imic yaratmaq istəyirdilər. Hətta onları az qala xəyanətkar və satqın adlandırırdılar. Bütün bu normal sayılmayan hadisə polkovnik Alonsonun diqqəq mərkəzində idi. Hindu qızına köməklik edən adamlar Alonsonun nəzərində Araukaniyanı tərk edənlər siyahısında idilər. Yoxsa, burada konkistadorların daxilində iki qrup arasında güclü münaqişə baş verə bilərdi. Düzdür, ekspedisiya iştirakçılarının demək olar ki, 80 faizi Karlosgilin mövqeyini müdafiə edirdilər. Həmin adamlar Migelin bu hərəkətini kəskin surətdə pisləyirdilər. Müdafiə olunan qız hindu tayfasının numayəndəsi idi. Hindular isə Araukaniyada gedən müharibənin sonuncu mərhələsində 150-dən çox ispan əsgərinin qətlini törədiblər. Bu qətli, əksəriyyət ispan adamlarının qanında qisasçılıq rüşeymlərinin çoxluq təşkil etdiyi bir zaman, hindulara bağışlamaq istəmirdilər. Gözləri qanla dolmuş konkistadorlar qisas alaq üçün kimliyindən asılı olmayaraq hər bir hindunu qılıncdan keçirməyə çalışırdılar. Onlardan olsaydı, əsir düşmüş bütün aborigenləri bir günün içində məhv edərdilər. Hazırda konkistadorlar araukanları quduz bir it ilə eyni səviyyədə tuturdular. Çox vaxt müəyyən tikintilərdə və təsərrüfat sahələrində işləyən əsirlər ispanlar tərəfindən təhqir olunub incidilirdi. Əlbəttə, bütün bu

neqativ hallardan ekspedisiya rəisinin xəbəri yox idi. Lakin o, hiss edirdi ki, belə bir çirkin hərəkətlərə yol verilir.

Manana müalicə olunan ərəfədə Migel qızın təhlükəsizliyini qorumaq üçün əksəriyyət vaxtını onun yanında keçirdirdi. Tərcüməçinin vasitəsi ilə Migel öyrəndi ki, qız ispan dilini (Kastiliya) öyrənmək arzusundadır. Manananın qavrama qabiliyyəti yaxşı inkişaf etdiyindən onun ispan dilinə yiyələnməsi Migelin özünə hava-su kimi lazım idi. Necə olsa da o, Manananı özü ilə İspaniyaya aparmaq niyyətində idi.

Vaxtın məhdudiyyətini dərk edən Alonso əsir alınmış hindu kasiki Taunu sorğu-suala tutmağa başladı. Tau yaralı olduğunu bəhanə edərək, sorğu-sualdan boyun qaçırmağa çalışırdı. Lakin Alonso onun yaralarına heç bir əhəmiyyət verməyərək, kasikdən hinduların harada gizləndiyini, təxminən necə döyüşçü qaldığını öyrənməyə səy göstərdi. Tau araukanların xasiyyətinə xas olan bir tərzdə cavab verməkdən imtina etdi. Kasikin inadkar xasiyyəti Alonsonun əsəblərini tarıma çəkirdi.

Vəziyyəti belə görən qraf Xuan ekspedisiya rəisinə bildirir ki, o, Taunun dilini açmağa qadirdir. Alonso bu işi qraf Xuana tapşırmaq məcburiyyətində qaldı.

Taunun danışmadığını görən qraf Xuan hindu kasikinə qarşı ən ağır işgəncələr tətbiq etməyə başladı. İşgəncələrə

tab gətirməyən Taunun vahiməli qışqırtısı konkistadorların məskən saldığı bütün kəndə yayılırdı. Kövrək qəlbli adamlar bu qışqırığı eşitməmək üçün qulaqlarını tuturdular. Migel gördü ki, həmin qışqırıq ən çox Mananaya təsir edir. Qız bu dəhşətli səslərə dözə bilməyib, hətta hönkür-hönkür ağlayırdı və öz xilaskarına bildirirdi ki, bu səsləri eşitməkdənsə ölməyi üstün tutur. Migel bunun səbəbini öyrənəndə qız izah etdi ki, Tau onun yeganə əmisidir. Tau öldürülsə, heç bir araukan onun ölümünü ispanlara bağışlamayacaqlar. Kasikin ölümü Araukaniyada yeni üsyanın qalxmasına səbəb olacaq. Gərək Tau əfv edilib azadlığa buraxılmalıdır. Son nəticədə qız Migeldən mümkün olmayan, yerinə yetirilməyən bir xahiş etdi. Həmin xahiş Taunun əsirlikdən azad edilməsindən ibarət idi. Migel çox yaxşı bilirdi ki, Alonso heç vaxt inadkar kasiki azadlığa buraxmayacaq. Çünki o, söz vermişdi ki, gizlənən araukanlar silahlarını yerə qoyub təslim olmasalar, Tau həm hinduların, həm də ispanların gözü qarşısında edam olunacaq. Deməli, hər şey araukanların özündən asılı idi. Araukaniyadakı müqavimət ocağı lokallaşdırılmalıydı.

Bir neçə gün davam edən işgəncələr heç bir nəticə vermədi. Gecə-gündüz davam edən işgəncələr yaralı kasiki yarımcan hala salmışdı. Bədənində əmələ gələn yeni yaraların üzərində müalicə işləri aparılmasa o, bir-iki gün

müddətinə keçinə bilərdi. Kasikin susmağından və inadkarlığından hiddətə gələn Alonso onu hamının qarşısında edam etdirməyi qərara aldı. Əlbəttə, bu işdə Karlosgil xüsusi canfəşanlıq göstərmişdilər. Bu məsələnin nə qədər ciddi xarakter daşıdığını hiss edən Migel ekspedisiya rəisini bu fikirdən daşındırmaq üçün onunla axırıncı dəfə araukan məsələsini müzakirə etməyə başladı. O, ürəkyanğısı ilə:

- Don Alonso, belə bir vəziyyətdə, ümumi işimizin xatirinə kasikin edamını dayandırmaq lazımdır. Yoxsa, bu bizim üçün pis nəticə verəcək. Araukanlar öz kasiklərinə Allah kimi baxır və bütün ümidlərini onlarla bağlayırlar. Edam baş versə, onların bizə qarşı olan nifrəti daha da artacaq. Bundan sonra onları itaət altına salmaq müşkül bir məsələyə çevriləcək.

- Migel, sən nə danışdığını bilirsən? - deyə Alonso əsəbiləşərək kəskin surətdə öz etirazını bildirdi. – Araukanlar öz kasiklərinin göstərişləri ilə bizim əsgərlərin üstünə hücum çəkib öz vəhşiliklərini və qəddarlıqlarını nümayiş etdirirlər. Sən isə deyirsən ki, hindu kasikini, insaniyyət qarşısında törətdiyi cinayətlərə göz yumub, onu edamdan xilas edim. Araukanlar üçün heç bir müqəddəs şey yoxdur və onlar sivil həyat tərzi keçirməkdən tam uzaqdırlar. Onlar elçilərimizi qətlə yetiriblər. Sən isə istəyirsən ki, mən belə cinayətlərə göz yumum. Bu mühari-

bədə İspaniyanın mənafeyi uğrunda həlak olan silahdaşlarımızın ruhu məni bağışlamaz. Tau ən qatı cinayətkar kimi hamının gözü qarşısında edam edilməlidir. Bu edam bütün araukanlara dərs olmalıdır.

- Don Alonso, xahiş edirəm, əsəbiləşməyin. - deyə Migel polkovniki sakitləşdirməyə çalışdı. - Artıq araukanlar hərtərəfli məhv ediliblər. Bütün üstünlüklər sizin hərbi bacarığınız sayəsində bizim tərəfimizdədir. Burada elə bir siyasət yürülülməlidir ki, yerdə qalan araukanların etimadını qazana bilək. Bu əhalinin etimadını qazanmasaq, onda tam müvəffəqiyyət qazanmaqdan danışmağa dəyməz. Onsuz da Tau yarımcan olub, Xristoforun dediyinə görə onun yaşamasına bir-iki gün alıb. Ondan sonra Tau keçinəcək. Biz elə etməlyik ki, hinduların bizə qarşı bəslədikləri nifrət və qəzəb hissi yavaş-yavaş yox olub getsin. Qisasçılıq prinsipi ilə yaşasaq, biz düşməni tam məğlub edə bilməyəcəyik.

- Tau ispan kralının və ispan xalqının ən qatı cinayətkarıdır. - deyə Alonso yenidən alışdı. - Mən imkan verməərəm ki, o, öz əcəli ilə ölsün. O, təhlükəli bir cani kimi hamının qarşısında edam edilməlidir. Migel, mənim qərarım qətidir və bir daha bu məsələ ilə məni narahat etmə.

Alonsonun qəzəbindən çəkinən Migel susmağı üstün tutdu.

Ertəsi günü hindu kasikini arabada bir başa “qardaşlıq” qəbristanlığına aparıb orada hamının gözu qarşısında dar ağacından asdılar. Edama gətirilən əsirlərin əksəriyyəti öz kədərlərini saxlaya bilməyib ağlamaqdan belə çəkinmədilər. Bu səhnədən sonra Alonso başa düşdu ki, hindu kasikini edam etdirməklə böyuk bir səhvə yol verib. O, bunu əsirlərin gözundə sezilən qəzəb və hiddət qığılcımlarından oxuya bildi. Lakin Alonso öz sözunun ağası idi. O, öz hökmünü və nüfuzunu nəinki hinduların, hətta öz əsgərlərinin də qarşısında nümayiş etdirməli idi. Edamı ləğv etsəydi, silahdaşlar komandanın necə də qətiyyətsiz bir adam olduğunu görəcəkdilər.

Manana sağ qalmasına görə ömrü boyu Migelə borclu qaldığı halda, əmisinin edamından sonra öz nifrətini xilaskarının da ünvanına yönəltdi. Artıq o, Migel ilə səmimi söhbət aparmır, xoş rəftar etmir və daim küsülü və acıq etmiş kimi gəzirdi. Bundan sonra cavan zadəgan araukanların necə milliyətçi, tayfabaz, düşmənləri ilə barışmaz olduqlarını başa duşdu. Hətta Kalyaoya yola duşməyə bir necə gün qalmış Manana qəti olaraq Araukaniyanı tərk etməyəcəyini bildirdi. Qızın qərarı Migel üçün gözlənilməz idi. O, səbəbini soruşanda qız izah etdi ki, o, Araukaniyada anadan olubdur və vətənini heç nəyin bahasına tərk etməyəcək. Bütün qohumları ispanlar tərəfindən öldürülüb-

dür. O, özünü heç vaxt ispanların yanında xoşbəxt hiss etməyəcək. Xoşbəxtliyi yalnız öz həmyerliləri yanında azad gəzməkdən ibarətdir. Kiminsə himayəsi altına düşmək onu azad həyat tərzindən məhrum edəcək. Migel isə qıza bildirdi ki, "dağlarda və meşələrdə gizlənmək azad yaşamaq sayılmır. Sadəcə olaraq, qorxu və təhlükə altında yaşamaq deməkdir. Gec-tez gizlənənlərin hamısı ispanların əlinə keçəcək". Lakin qız qorxu və təhlükə altında olsa da, öz vətənində qalmağı üstün tutdu.

Migel məğrur Manananı zor gücünə Limaya apara bilməzdi. O, qızın azadlığını əlindən alıb onu bədbəxt etmək istəmirdi. Halbuki Manananı Limaya aparmaqla, o, qızın həyatını ən ağır təhlükədən qurtarmış olurdu. Buna baxmayaraq, cavan zadəgan Manananın xahişini yerinə yetirməyə çətinlik çəkirdi. Axı, Migel hamıya bəyan etmişdi ki, qızı özü ilə Limaya aparacaq. Əlacsız qalan Migel bu haqda bir şey fikirləşməli idi. Elə bir plan qurulmalıydı ki, guya qız heç kimin xəbəri olmadan ispanların mövqe tutduğu kənddən qaçıbdır.

Kalyaoya yola düşməyə iki gün qalmış, gecənin ortasında Migel qızı kənddən kənara çıxarıb şərq istiqamətində onu yola saldı. Ayrılarkən Manana öz xilaskarının hər iki üzündən ehtirasla öpərək onu möhkəm qucaqladı. Qızın bu hərəkətlərindən Migel başa düşdü ki, Manana ondan

ayrılmaq istəmir, lakin hansısa böyük bir qüvvə, hansısa bir istək və ya arzu onu qaranlıq mühitdə gözəgörünməz bir yerə cəlb edirdi. Manananın üzündəki cizgilər Araukaniyanın əsrarəngiz təbiəti kimi bilinməz qalırdı. Lakin Migel çox yaxşı bilirdi ki, qızı gözəgörünməz bir yerə vətən eşqi, azad yaşayış və həmyerlilərinin müstəqillik uğrunda ağır mübarizə həyatı cəlb edir. Peruda Manananı heç də pis həyat gözləmirdi. Lakin o, öz tayfasını darda qoyub, xoş həyat və yüngül dolanışıq dalıycan getmədi. Qız özünün belə bir anlaşılmayan, qəribə xasiyyətinin sirrlərinin açıqlanmayan hərəkəti ilə Migeli təəccübləndirməyə bilməzdi. Çünki araukanların tam əksəriyyəti belə bir qəribə xarakterə malikdirlər və onların vətənpərvərliyi, yurdsevərliyi, ürəklərinin vətən eşqi ilə döyünməsi heç kimdə şübhə doğurmurdu. Araukaniyanı tərk etməyə hazırlaşan Migel axırıncı saatlarını Manana ilə bir yerdə keçirəndə burada gedən tarixi prosesin dərin incəliklərini anladı. Burada gedən müharibəni udmaq olar, Araukaniya işğal oluna bilər, lakin azadlıq aşiqləri sayılan məğrur və qorxmaz araukanları dizi üstə çökdürmək mümkün olmayacaq. Onlar son damla qana qədər buranı zəbt edən ispan əsgərlərinə qarşı inadkarlıqla mübarizə aparacaqlar. Kral II Filippin göstərişini yerinə yetirən polkovnik Alonso öz istədiyinə və məqsədinə nail ola bilməyəcək. Alonso

hələ də dərk edə bilmirdi ki, necə ağır bir yükün altına girib. Düzdür, burada fəaliyyət göstərən konkistadorlar Araukaniyanı zəbt etməklə, öz qələbələrini qeyd edirdilər, lakin onlar hələ anlamırdılar ki, həmin qələbə onlar üçün baha başa gələcək. Buradakı tam qələbənin yalnız bir şərti var; o da ki, bu torpaqda yaşayan bütün araukanları, uşaqdan tutmuş qocaya kimi hamını qılıncdan keçirmək. Yalnız bu minvanla polkovnik Alonso İspaniyaya fateh kimi qayıda bilər. Bura axışıb gələn konkistadorların növbəti faciəsi göz qabağında idi. Ulu dünyanın füsunkar təbiəti özü araukanların yaşayıb yaratmasına, öz məqsədlərinə görə apardıqları mübarizəsinə böyük köməklik göstərirdi. Burada kök salan başı alovlu vulkanlar və başı qarlı And dağları əyilməz araukanların qalxanına, adi insanın səyahət etməsində böyük maneə sayılan keçilməz meşələr isə onların qida mənbəyinə çevrilmişdir. Kasiklərin dediyi kimi uca And dağları araukanların azadlıq simvolu-na, konkistadorların isə məzar daşlarına çevrilmişdir.

Qış fəslinin elə birinci günündə kapitan Manuel Markosun başçılıq etdiyi "Destino" gəmisi Anqud körfəzini tərk etdi. Gəminin kursu yuxarıda qeyd edildiyi kimi Peru vitse-krallığının Kalyao limanına tutulmuşdu. Migeldən başqa Osvaldoya, leytenant Ernandoya, cəngavər Dias Barramedaya və müharibə zamanı şikəst olmuş yeddi

əsgərə Araukaniyanı həmişəlik tərk etməyə icazə verilmişdir. Ekspedisiyanın rəisi onların hər birini lazımi səviyyədə mükafatlandırmışdır.

Polkovnik Alonso ehtiyat qüvvəsi gətirmək üçün özü də həmin gəmidə Kalyaoya yollanırdı. Qış fəsli olsa da, regionun rəngarəng sayılan havası onların yol getməsinə heç bir maneəçilik törətmirdi. Bu o demək idi ki, Allahtəala özü Araukaniyanı tərk edən konkistadorlara şərait yaradırdı. Nə Allah, nə təbiət, nə də ki, yerli əhali silahla gələn təcavüzkarların Araukaniyada qalmaqlarına razı deyildilər. Qalsalar da, yad adamları xoşlamayan bu torpaqda növbəti faciə ilə üzləşəcəklər. Çünki Araukaniyanı cənnət zənn edib gələn ispanlar, tezliklə bu torpağın onlar üçün cəhənnəmə çevriləcəyinin şahidi olacaqlar. Öz səhvlərini tezliklə başa düşənlər, buranı tərk etsələr onlara zaval yoxdur. Migel və onun dostları Araukaniyanı tərk etməklə bu cəhənnəmdən yaxa qurtarırdılar.

XVIII fəsil. Alonsonun Araukaniyadan müvəqqəti uzaqlaşması

Qış fəsli olsa da, Peruya gələn konkistadorlar Limada isti hava ilə üzləşdilər. Əlbəttə, burada qeyri-adi bir şey yox idi. Lima ekvator xəttinə yaxın bir yerdə salındığına görə qış fəslinin soyuq iqlimindən məhrum olunmuşdur. Burada yaşayan adamlar artıq Limanın üzərində hökm sürən mülayim və isti iqliminə öyrəşmişdilər.

Ərinin və qayınatasının hüzürünü indiyə kimi saxlayan Seviliya Araukaniyada baş verən bədbəxt hadisəyə görə oğlu Migeli taqsırlandırırdı. Bu ittiham ağır və dəhşətli müharibədən qəhrəman kimi çıxan cavan zadəgan üçün gözlənilməz idi. Həmişə qonaqlar qarşısında etik normalarına riayət edən Seviliya bu dəfə əsəblərini saxlaya bilməyib, hamının qarşısında ürəyindəkilərini böyük oğlunun üzünə söylədi. Nəinki Migel, hətta qonaqlar da dul qalmış qadının belə bir hərəkətindən pərt oldular. Lakin hamı çox yaxşı bilirdi ki, Seviliya matəm içində olduğundan öz hərəkətlərini cilovlaya bilməyibdir.

Vəziyyəti belə görən polkovnik Alonso, leytenant Ernando ilə birlikdə Perunun vitse-kralının sarayına yollandı. Qalanları isə qonaq zalına keçib istirahət etməyə

başladılar. Migel özünə bəraət qazadırmaq və anasının könlünü almaq üçün mərhum atasının kabinetinə yollandı.

Kabinet yarıqaranlıq olsa da, Migel pəncərənin ağzında dayanan anasının gözlərinin qırmızı rəngə çaldığını aydınca gördü. Oğlu evə girəndə anası onunla görüşmədiyinə görə ağlamağa başlamış və kabinetə girəndə göz yaşlarını silmişdir. O, nə etdiyini anlamağa çalışmış, oğlu isə ona yaxınlaşanda qadın dərhal Migeli qucaqladı.

- Sən bizim hamımızı bədbəxt etdin. - deyə Seviliya ağlamağa başladı. - Yaxşıdır ki, özün sağ-salamat müharibədən qayıtdın. Ancaq sənin Limaya gəlişin bizim hamımıza bədbəxtçilik gətirdi.

- Nəyə görə, elə deyirsən? - deyə Migel çiyinlərini çəkərək müəmmalı tərzdə soruşdu.

- Sən bura gəlməsəydin, Leon Araukaniyaya yollanmazdı. - Seviliya keçib masa arxasında əyləşdi və oğluna nəzər salmadan sözünə davam etdi. - Mən bilirdim ki, həmin müharibə Leonun həyatını puç edəcək. Oradakı aborigenlərin nə dərəcədə amansız və qəddar olduqlarını mən çox yaxşı bilirdim. Elə atam da həmin müharibənin qurbanı olmuşdur. Bu dəfə isə Leonla, qayınatamın həyatına son qoyuldu. Heç 90 yaşında adamı da müharibəyə sürükləyib apararlar?

- Ana, həm babam, həm də atam həmin müharibəyə könüllü yollanıblar. Onların itkisi nə qədər sənin üçün ağırdısa, bir o qədər də mənim üçün ağırdır. Ona görə ki, necə sən və qardaşlarım mənim üçün əzizdirlərsə, onlar da mənim üçün bir o qədər əziz idilər. Həmin tələfat mənə ağır və sarsıdıcı zərbə vurub. Çunki onların ölümü mənim gözlərimin qarşısında baş veribdir.

- Migel, sən öz günahını boynundan atmağa çalışma. Sən Limaya gələndə Leon həmin vaxt Kitoda idi və Antonio Berrionun ekspedisiyasına qoşulub Eldoradonun axtarışında iştirak edəcəkdi. Lakin sən Kitoya gedib onu öz yolundan döndərdin. Sən olmasaydın, o, bir daha heç vaxt Araukaniyaya yollanmazdı. Çünki oradakı reallıq ilə Leon yaxından tanış idi.

- Ana, mən heç vaxt səndən belə sözləri gözləməzdim. Atam bizim ekspedisiyanın çox qüvvətli olduğunu görüb, şəxsən özü, araukanların məhv edilməsində yaxından iştirak etmək üçün, yola düşməyə razılığını bildirmişdi. Onda belə çıxır ki, mən də həmin müharibədə azğın düşmən tərəfindən öldürüləydim? Sən bunu istəyirdin? Axı, sağ qalmağımda mən günahkar deyiləm.

- Allah eləməsin. - deyə Seviliya diksinərək oğluna qorxmuş halda nəzər saldı. - Bu nə sözlərdir, sən deyirsən. Sən də həmin müharibənin qurbanı olsaydın, mənim

ürəyim bu dərdə dözə bilməzdi. Hirsləndiyimdən, əsəbi gərginlik keçirdiyimdən mən səni ittiham etməli oldum. Lakin Limadakı vəziyyət sən təsəvvür etdiyindən də ağırdır. Limadan gedən könüllülərin ölüm xəbəri bura çatanda onların qohumları bu faciədə səni günahlandırırlar. Ona görə ki, onların ekspedisiyaya qəbul edilməsində mərhum kapitan Xuanla birlikdə sən iştirak edibsiniz. Onların bütün qəzəbi sənin ünvanına tuşlanıb. Halbuki onları bu yoldan çəkindirməyə çalışmışam.

- Axı, burada mənim günahım nədir? Onlar, İspaniya kralına tabe olmaqdan boyun qaçıran hindu tayfasına qarşı aparılan müharibəyə yollanıblar. Müharibədən isə bir çox adamlar qayıtmır. Bu işdə heç kimin məni taqsırlandırmaqda ixtiyarı yoxdur. Onlar qorxmaz və mərd döyüşçü kimi İspaniya kralı naminə müharibəyə yollanıblar. Həm də onu da bilməlidirlər ki, mən həmin ekspedisiyanın tərkibində sıravi döyüşçü kimi döyüşmüşəm.

- Migel, sən Limada yaşayanları yaxşı tanımırsan. Yaxınlarını itirənlərin qəzəbi uzun müddət soyumur. Növbəti faciə ilə üzləşməyim deyə, çalış müəyyən bir vaxta kimi Limanı tərk et. Qorxuram sənin başına bir iş gəlsin. Babanın Barselonadakı mülki indi sənin ixtiyarındadır. Bir müddət sən həmin mülkdə yaşa.

- Narahat olma ana, uzağı iki-üç günə mən Limanı tərk edəcəm.

- Elə bilmə ki, səndən ayrılmaq mənim üçün asandır. - deyə Seviliya daxilindəki kədəri saxlaya bilmədi. - İstəmirəm ki, sən qəzəblənmiş adamların qurbanı olasan.

Anasının sözlərindən sonra Migel həqiqətən də burada vəziyyətin nə dərəcədə ağır olduğunu dərk etdi. Anası ilə etdiyi səmimi söhbətdən sonra o, tezliklə Perunu tərk etməyi qərara aldı. Lakin bird aha araukaniya müharibəsində iştirak etmək, onun bütün istəklərinə zidd idi. Onda belə çıxır ki, Migel burada, yeni könüllülərin səfərbərliyi ilə məşğul olan polkovnik Alonsodan tezliklə ayrılmalı olacaq. Necə olsa da, ekspedisiya rəisi bu məsələni həll etmək üçün Limada təxminən bir ay qalmalı olacaq.

Buradakı hadisələrin əks-məcrada getməsi Migelin demək olar ki, bütün planlarını alt-üst etdi. Axı, o, Limada admiral de Neyra ilə görüşməyi planlaşdırmışdı. Belə bir vəziyyətdə admiral onu qəbul etməyə də bilərdi. Halbuki admiral de Neyra və onun həyat yoldaşı İzabella Barreto vətənpərvər adamdırlar və onlar, hər hansı bir müharibədə göstərilən şəxsi igidliyə və qəhrəmanlığa görə həmin adamı yüksək qarşılamağı xoşlayırdılar. Necə olsa da, hər bir igid və cəsur döyüşçü öz hərəkətləriylə öz dövlətinin, öz millətinin və öz kralının adını yüksəklərə qaldırır. Migel də

Araukaniyada gedən müharibədə göstərdiyi misilsiz qəhrəmanlıqları ilə Limada yaşayan adlı-sanlı, hörmət sahibi olan zadəganlar arasında böyük hüsn-rəğbət qazanmışdır. Lakin buna baxmayaraq, o, admiral de Neyragilə getməyə ehtiyat etdi.

Artıq Limanın bir çox kücələrindəki həyətlərdə Araukaniyada həlak olanların xatirəsinə matəm mərasimləri keçirilirdi.

Polkovnik Alonso Perunun vitse-kralından etdiyi xahişlərin heç birisinə nail olmadıqda, öz ümidlərini itirmədi və fərdi şəkildə Araukaniya üçün yeni könüllülər toplamağa başladı. Onunla gələnlər elə bilirdilər ki, Alonso bir nəfər də olsun, bu şəhərdə könüllü tapa bilməyəcək. Lakin hər şey tərsinə oldu. Araukanlara qarşı gedən müharibədə həlak olmuş konkistadorların yaxın qohumları azğın düşməndən qisas almaq üçün böyük ruh yüksəkliyi ilə Alonsonun ekspedisiyasına yazılmağa başladılar. Burada da ispan xarakteri özünü büruzə verdi. Düşməni cəzasız buraxmamaq, itirilən əzizinin qisasını almaq, şərəf və ləyaqətinə edilən təhqir zamanı qılıncla müdafiəsi ispanların qanında idi. Limadakı adamlar öz qohumlarının qisasını araukanlardan almasalar, qonşuları və tanışları onlarla dostluq etməkdən boyun qaçırardılar. Hətta onları qorxaqlıqda, qətiyyətsizlikdə ittiham edə bilərdilər.

Alonsonun bu problemi demək olar ki, düzəlmişdi. Qalırdı ərzaq məhsulları və bir çox tapılmayan tikinti materialları və detalları. Bu işdə Perunun vitse-kralı ona köməkliyini göstərməliydi. Necə olsa da söhbət işğal olunmuş Araukaniyanın mənimsənilməsindən və orada inzibati orqanlarının yaradılmasından gedirdi. Bu minvalla Araukaniya nəhəng İspaniya imperiyasının tərkibinə daxil edilirdi. Polkovnik Alonso işğal edilmiş yeni torpağın qubernatoru təyin edilsə də, Araukaniya bilavasitə Peru vitse-krallığının bir vilayəti sayılacaqdı. Kral fərmanına əsasən, bu belə olmalı idi.

Migel müvəqqəti olaraq vaxtını Kalyao limanında lövbər salmış "Destino" gəmisinin tərkibində keçirmək istəyirdi. Lakin gözlənilmədən admiral de Neyra ilə İzabella Barreto, bəzi konkistadorların mərhum Leonun evində qaldıqlarını eşidib, həmin evə təşrif buyurdular. Onları əsasən, Migelin dövrü fəaliyyəti maraqlandırırdı. Çunki cavan zadəgan haqqında gedən söhbətlər onların daxilində bir çox suallar yaratmışdı.

Migel qonaqları atasının kabinetində qarşıladı. Cavan zadəgan gələnlərdən atasının və babasının ölümü ilə əlaqədar başsağlığı alandan sonra öz gələcək planlarını onlara izah etməli oldu. Admiral diqqətlə qulaq asandan sonra cavan zadəgana aludəliklə dedi:

- Hər bir müharibə amansız və dəhşətli qırğınlarla müşahidə olunur. Yaxın qohumunu və yaxın dost-tanışını itirən adam isə çox nadir halda düşmənin törətdiyi vəhşiliklərlə barışır.

- Don Alvaro, mən bilirəm siz nəyi nəzərdə tutursunuz. - deyə Migel qeyri-müəyyən tərzdə dilləndi. - Araukaniyada başlanan müharibə demək olar ki, başa çatıb. Azğın düşmənin tam əksəriyyət qüvvəsi iri döyüşlərdə darmadağın edilibdir. Yüzdən artıq hindunu şəxsən özüm qılıncdan keçirmişəm. Ölümdən yaxa qurtaran bəzi araukanlar qaçıb sican dəliklərində gizləniblər. Mənə elə gəlir, onlar hazırda müqavimət yox, yaşamaq haqqında fikirləşirlər. Hinduların və köhnə konkistadorların dediyinə görə Araukaniyada qış fəsli çox sərt və şaxtalı keçir. İndi orada qışdır. Bu qışı keçirmək üçün onların heç bir şəraiti yoxdur.

- Araukanlar hər bir ağır şəraitdə fəaliyyət göstərməyə qadirdilər. - deyə admiral təmkinlə dilləndi. - Onlar soyuq dağların qoynunda anadan olublar. Heç bir şaxta onlar üçün qorxulu deyil. Polkovnik Alonso yeni qüvvə toplamaq üçün Limada mötəbər adamlarla danışıqlar aparır. Deməli, araukanlar hələ də bizim əsgərlər üçün təhlükə yaradırlar.

Migel məcburiyyət qarşısında qalaraq Alonsonun Limaya gəlişinin əsl səbəbini və Araukaniyanın hazırki durumunu izah etdi.

- Əgər, araukanlar dağlarda və keçilməz meşələrdə gizlənibləsə, onda bizim əsgərləri passivlikdə günahlandırmaq olar. - deyə İzabella hiddətlə dilləndi. - Əldə olunan məlumata görə müharibənin sonuncu mərhələsində həmin hindular bizim əsgərlərin 150-sini qətlə yetiriblər. Buna görə onların hamısı qılıncdan keçirilməlidir.

- Vaxt gələcək məsuliyyətdən yaxa qurtaran hindular da yaxalanıb məhv ediləcəklər. - Migel ciddi halda dilləndi. - Orda qalan əsgərlər çətinlik çəkmədən bu işin öhdəsindən gələcəklər. Mən, bu müharibədə lazımi qədər öz borcumu yerinə yetirmişəm. Bundan sonra mən daha ağır və təhlükəli missiyada iştirak etmək üçün özümə öhdəlik götürmüşəm. Dağlarda və meşələrdə gizlənən düşməni axtarıb vaxt itirməkdənsə, Karib dənizində quldurluq və soyğunçuluq edən piratları məhv etməyi özum üçün şərəfli iş sayıram. Hazırda peşəkar döyüşçülərə Araukaniyada heç bir ehtiyac duyulmur. Polkovnik Alonso peşəkar döyüşçülərin hamısını ekspedisiyadan tərxis edəcək. Çunki onların Araukaniyada saxlanmasının heç bir mənası yoxdur. Mənə elə gəlir, siz polkovnik Alonsonun fikri ilə razılaşarsınız.

Admiral de Neyra Migelin bu fikri ilə razılaşsa da, onun həyat yoldaşı qətiyyətlə öz etirazını bildirdi. Onun fikrincə, hər bir qeyrətli döyüşçü öz qohumunun və həmyerlisinin qisasını düşməndən axıracan almalıdır. Əks təqdirdə həmin

adam dost-tanışlarının yanında başıuca gəzə bilməz. Söz yox ki, İzabella Araukaniyada baş verən reallıqlardan uzaq idi. Orada gizlənən hinduları axtarıb tapmaq üçün aylarla vaxt lazım idi. Migel isə vaxtını əbəs yerə Araukaniyada itirmək iqtidarında deyildi. O, atasının və babasının vəsiyyətlərini hər şeydən üstün tutaraq Karib dənizi akvatoriyasına yollanmağı qərara almışdı.

Hazırda nəinki Migelin, hətta polkovnik Alonsonun əmri ilə tərxis olunan o biri konkistadorların nəzərində də İspaniyaya getmək planı dururdu. Kapitan Markos "Destino" gəmisinin sahibi olduğu üçün İspaniyaya öz karavellasında yollanmalıydı. Lakin o, öz silahdaşlarına izah edib ki, gəmi bir neçə dəfə şiddətli fırtınaların əhatəsinə düşdüyündən, konstruksiyası xeyli zəifləyibdir. Düzdür, gəmi ciddi təmirdən çıxıbdır, lakin, həmin karavella növbəti okean keçidi zamanı yenə də fırtınaya düşsə, hamı fəlakətlə üzləşə bilər. Məhz buna görə də kapitan Markos gəmini satmağı qərara aldı. Əldə olunan pullara o, Barselonada və ya Sevilyada yeni gəmi almağı planlaşdırırdı. Deməli, yolçular İspaniyaya başqa bir gəmidə yollanmalı idilər.

Yolu qısaltmaq üçün onlar Qızıl Kastiliyanın və ya Yeni Əndəlusun limanlarından istifadə etməliydilər. Oradan İspaniyaya intensiv surətdə gəmilər yollanırdı. Ancaq yolçular müvəqqəti olaraq öz planlarından əl çəkməliydilər.

İş ondadır ki, polkovnik Alonso Limada topladığı qüvvəni Anqud körfəzinə aparmalı idi və bunun üçün o, bir daha "Destino" gəmisinin qulluğundan istifadə etmək istəyirdi. Çıxılmaz vəziyyətdə qalan kapitan Markos ümumi işin xətrinə, Araukaniyada qalan silahdaşlarına kömək əlini uzatmaq üçün bu xidməti öz üzərinə götürdü.

Öz ata evində qalmağa imkanı olmayan Migel də Araukaniyaya yollanmalı idi. Necə olsa da, o, hələ də "Destino" gəmisinin vitse-kapitanı idi.

Ekspedisiyanın rəisi öz heyətindən otuza yaxın adamı həmişəlik evə buraxmağı nəzərdə tutmuşdu. Kapitan Markos həmin adamları Mərkəzi Çilidən Kalyaoya çatdırmalı idi. Oradan isə kim hara istəsə, fərdi üsulda yollana bilər. Əgər, Alonso birdən-birə otuza yaxın peşəkar döyüşçünü tərxis edirsə, deməli Araukaniyadakı hərbi faza başa çatdırılmışdı. Artıq dağlarda gizlənən araukanlar burada məskunlaşan ispanlara heç bir təhlükə yaratmırdılar. Deməli, yaz girməmiş burada təsərrufat işlərinə başlamaq olardı.

Tərxis olunanların içində Kamaço və Karlos Odovaldo qardaşları və onların ən yaxın dostları Morelos qardaşları da vardı. Bu hal Migelgildə təəccüb hissi doğursa da bunun səbəbini anlamaq çətin deyildi. Alonso öz ekspedisiyasının tərkibində möhkəm nizam-intizam yaratmaq fikrində idi. Məhz buna görə də o, sözə baxmayan və göstərişlərə

ciddiliklə əməl etməyən idalqoları öz ekspedisiyasından uzaqlaşdırmağa çalışırdı. Lakin öz qəlblərində yuva salmış kinlikləri və ədavəti unutmayan həmin idalqolar Migel ilə bir gəmidə Kalyaoya yollanmağa qəti imtina etdilər. Onların bu ədası idalqolar arasında görünməyən bir hal sayılırdı. Alonso onların ədavətinin arasına girmək istəmədi və inadkarların bu istəyini müsbət bir hal kimi qaymətləndirdi. Çünki onlar hamısı bir gəmidə yola düşsələr, səyahət zamanı çox güman ki, narazı olanlar arasında silahlı münaqişə baş verərdi. İdalqolar növbəti gəmi ilə Araukaniyanı tərk edəcəklərini bildirdilər.

Araukaniyada sabitliyi yaradan Alonso qış fəslində burada heç bir döyüşün baş verməyəcəyini zənn edərək, müvəqqəti olaraq öz səlahiyyətlərini qraf Ferdinanda təhvil verməyi qərara aldı. O, vaxtından səmərəli istifadə etməkdən ötru Kitoya yollanmalı və orada Eldorado haqqında yeni məlumatlar əldə etmək istəyirdi. Qraf Ferdinand öz təcrübəsindən və bacarığından istifadə edərək, müstəqil şəkildə Araukaniyanı beş-altı ay idarə etməli idi. Onsuz da o, həmin ölkədə yalnız təsərrüfat işləri ilə məşğul olacaqdı.

Araukanların tamamilə darmadağın edilməsini zənn edən qraf özunə güvənərək, polkovnik Alonsoya bildirdi ki, o, nə vaxt istəsə Araukaniyaya qayıda bilər. o, əmin idi ki, aborigenlər bird aha orada silahlı üsyan qaldıra bilməyə-

cəklər. Onsuz da bu ölkədə yaşayan əhalinin əksəriyyəti ispanların verdiyi çörəyə görə asılı vəziyyətə düşmüşdü. İspanların qəzəbindən və hiddətindən gizlənən bəzi mülki adamlar öz yerlərini tərk edib, acından qırılmamaq üçün yeni hakimlərinə təslim olurdular. Hinduların təslim olmasına münasib şərait yaradılmışdır. Müəyyən tikintilərdə çalışan əsirlərə ispanlar tərəfindən yaxşı qulluq göstərilirdi. Yemək veriləndən sonra demək olar ki, heç kim aç qalmırdı. Artıq araukanlar işgəncələrə məruz qalmırdılar. Bu davranışdan sonra onların mövqeyi yavaş-yavaş ispanlara qarşı dəyişirdi. Ağır həyat tərzinə tab gətirməyənlər konkistadorların tabeliyi altında yaşamağa böyük üstünlük verirdilər. Aclıq onları təslim olmağa vadar edirdi. Alonsonun fikrincə, Araukaniyada vəziyyət getdikcə tam sabitləşməliydi, ən inadkar araukanlar da aclığa və soyuqluğa tab gətirməyib, yavaş-yavaş təslim olmağa məcbur qalacaqlar. İkinci dəfədir ki, aborigenlər ispanların etimadını qazanmışdılar. Alonsonun göstərişinə əsasən heç kim araukanları boş-boşuna təhqir edib inçitməməliydi. Yalnız taqsırı olan hindular cəzalandırılmalıydılar.

Alonso tərxis olunan konkistadorların əksəriyyəti ilə Eldorado haqqında məlumat toplamaq üçün Kitoya yollandı. Daha doğrusu həmin döyüşçülər öz komandanlarını bu səfərdə müşayiət etmək üçün öz razılıqlarını bildirmişdilər.

Bu məsələdə o, birdəfəlik nöqtə qoymaq üçün Boqota və Karakas şəhərlərinə gedib çıxır və orada öyrənir ki, Antonio Berrio Eldoradonu fəth etmək üçün 1591-ci ilin sentyabr ayında Trinidad arasında böyük bir baza təşkil edib. Alonso Trinidad adasına yollanır və orada öyrənir ki, Eldoradonun axtarılması heç bir müsbət nəticə verməyib, Antonio Berrio isə öz ekspedisiyası ilə birlikdə Orinoko çayı hövzəsindəki keçilməz cəngəlliklərdə yoxa çıxıb. Yalan məlumatlarla təchiz etməklə, hamı polkovnik Alonsonu bu missiyadan əl çəkməsini arzulayırdılar. Heç kim dəqiq məlumat vermək istəmirdi. Antonio Berrionun bütün marşrutları məxfi saxlayırdılar.

Eldoradonun varlığına şübhə ilə yanaşan və həmin ölkənin axtarılmasının heç bir perspektivin olmadığını zənn edən Alonso, Karib dənizinin cənub sahillərində yerləşən bütün iri limanlara üz tutaraq, bu ərazidə quldurluqla məşğul olan piratlar haqqında məlumatlar toplamağa başladı. Lazımi məlumatlar əldə olunsa o, Araukaniyaya qayıtmadan dərhal yeni ekspedisiyanın təşkil edilməsinə səy göstərəcək. Söz yox ki, Alonso sahibi olduğu ölkə ilə əlaqə saxlamaq üçün yanında iki-üç nəfər qasid saxlayırdı. Lazım olduqda o, Araukaniyadan yeni ekspedisiyaya özü üçün münasib döyüşçülər cəlb edəcəkdi.

Migelgil isə hələ də Kalyaoda qalaraq “Destino”nun satılmasını gözləyirdilər. Kapitan Markos gəmi üçün münasib müştəri tapa bilmirdi. Kimi dindirirdisə də, gəmini öz qiymətindən xeyli ucuz almaq istəyirdi. Hamı “Destino”nun köhnə olduğunu xüsusilə vurğulayırdı. Onda qərara alındı ki, gəmi Qızıl Kastiliyanın Panama limanında satılsın. Panamada bu cür tipli gəmilərə böyük ehtiyac duyulurdu. Necə olsa da, “Destino” sərnişin gəmisi idi və ondan Panama-Akapulko, Panama-Quayakil və Panama-Kalyao marşrutlarında səmərəli istifadə etmək olardı.

Bu kompaniyaya daxil olanlar “Destino” ilə Panamaya yollandılar. Çox keçmədən və əziyyət çəkmədən kapitan Markos öz gəmisini münasib qiymətə sata bildi və silahdaşları ilə birlikdə Portobelo şəhərində yaşayan böyük qızı Viktoriyanın evinə yollandı. Viktoriya, leytenant Ernandonun böyük qardaşı leytenant Alonso Ramiresin həyat yoldaşı idi və 8 il idi ki, Portobelo şəhərində yaşayırdı. İki qohumdan əlavə Migel, Osvaldo və Dias Barrameda həmin səyahətdə iştirak edirdilər.

“Destino” Anqud körfəzini tərk edəndən on beş gün sonra Kamaço, Karlos, Morelos qardaşları və daha dörd sıravi konkistador at belində Araukaniyanı quru yol ilə şimal istiqamətində tərk etdilər. Osorno vulkanının şimal-şərqində yerləşən bir hindu kəndindən keçən zaman onlar

araukanlardan sonuncu dəfə qisas almaq üçün həmin kənddə yaşayan əhalinin yarısından çoxunu qılıncdan keçirtdilər. Əhalinin doxsan faizi qoca olduğundan hindular müqavimət göstərməyə macal tapmadılar.

Həmin kənd kapitan Alonso Murilyonun tabeliyi altında idi və silahdaşlarının bu cür qansız və vəhşi hərəkəti onun kəskin etirazına səbəb oldu. O, hətta bu amansız qırğına görə qraf Ferdinandın üstünə təqdimat da yazdı. Onlar kobud surətdə ekspedisiyada hökm sürən nizam-intizamı pozmuş və aborigenləri konkistadorların gözündən salmağa çalışmışdılar. Tərxis olunan idalqoların bu hərəkəti bir çox zabitlərin hiddətinə səbəb olmuşdur, hətta kapitan Filipp Odovaldonun da. Belə olan halda başqalarına ibrət dərsi olsun deyə, onları cəzalandırmaq qərara alındı. Qasid onları yolda yaxaladı və qraf Ferdinandın geriyə qayıtmaq göstərişini təqdim etdi. Onlar da məcburiyyət qarşısında qalaraq kor-peşiman halda Anqud körfəzinə qayıtdılar. Heç bir qohumçuluq əlaqələrinə əhəmiyyət verilməyərək, onlar hələ 6 ay da Araukaniyada qalıb hərbi xidmət etməliydilər. Özü də onların xidmət yeri ölkənin ən şimal ucqarında yerləşən kənd sayılırdı. İdalqolar və onlarla bu işdə əlbir olan konkistadorlar, xidmət müddəti ərzində mülki əhalidən bir nəfəri də olsun inçitməməlidirlər. Əks təqdirdə onların hamısı hərbi qanunlar ilə məsuliyyətə cəlb olunacaqlar.

XIX fəsil. Araukanların dirçəlməsi və müvəffəqiyyətli hücumları

Araukaniyadakı bu ilki qış sərt keçdiyindən mülki hinduların əksəriyyəti öz evlərinə qayıdırdılar. İspaniyanın bu ölkədə qoyduğu qayda-qanunlardan gizlənən aborigenlər öz yurdlarına qayıdandan sonra ağır vergilərə məruz qalırdılar. Bu bir növ onlar üçun bəraət qazanmaq kimi bir şey sayılırdı. Onlar ağır vergini verməklə ispanların qəzəbindən yaxa qurtarmış olurdular.

Qışın sərt keçməsinə baxmayaraq ispanların bu ölkədə başladıqları tikinti işləri mülki əhalinin köməyi ilə davam etdirilirdi. Araukanlar ağır fiziki işlərə tab gətirmir və ağır dirəklər, ağır daşlar altında qalaraq xəsarət alırdılar. Azacıq da olsun onların təhlükəsizliyi təmin edilmirdi. Konkistadorların hərəkəti zabitlər tərəfindən ciddi nəzarət olunsa da, onların əksəriyyəti hindulara qarşı qeyri-insani rəftar bəsləyirdilər. Bu da ki, araukanların haqlı narazılığına səbəb olurdu. Onların səbr kasası dolurdu. Lakin buna baxmayaraq Araukaniyadakı vəziyyət sabit olaraq qalırdı. Aborigenlər sərbəst halda hər bir sektorda tikilən strateji əhəmiyyətli obyektlərə girib-çıxırdılar. Düzdür, obyektlərə daxil olan hindulara bir yerdə toplaşmaq qəti qadağan edilmişdi.

Anqud körfəzinin şimal sahilində salınan fortun yarısından çoxu hazır idi. Qraf Ferdinand öz qərargahını məhz həmin fortda yerləşdirmişdi. Halbuki təlimata əsasən, ekspedisiyanın rəisi "qanlı vadi"də salınan istehkamda olmalı idi. "Qanlı vadi"dəki istehkamın sərhədi xeyli genişləndirilmiş və bəzi yerlərdə daş tikililər əmələ gəlmişdir. Mərkəzi sektorda və ölkənin şimalındakı tikinti işləri xeyli zəif gedirdi. Qışın gəlişi ilə əsas obyektlərin tikintisi tamamilə dayandırılmışdı.

Araukaniyada inkvizisiyanın, məhkəmənin, yepiskopluğun, mədəniyyət mərkəzinin və başqa mərkəzlərin yaradılması baş vermişdi. Dini xadimlər hinduları xristianlığı qəbul etmək üçün əməli işlər və təbliğat aparmağa başladılar. Araukanlar missionerlərin bu işinə ciddi müqavimət göstərirdilər. Onlar zorlama qəbul etdirilən xristian dinini rədd edirdilər. Hinduların bu inadkarlığı əsasən, inkvizitorları və bir çox idalqoları yaman bərk qıcıqlandırırdı. Araukanlar bu imtinaya görə inkvizisiya tərəfindən kafirlikdə ittiham edildilər. Məsuliyyətə cəlb edilənlərin əksəriyyəti bir çox şeylərdən məhrum olunaraq, ardıcıllıqla dini təbliğata məruz qaldılar. Bir neçə nəfər isə inkvizitorların işgəncə məngənəsinə düşdülər. Xristianlığı təbliğ edənlər araukanların şüurunda dəyişiklik etmək üçün onların beyninə yeridirdilər ki, bu din məzlumlara azadlıq,

yoxsullara rifah, ağlayanlara təsəlli vəd edir. Lakin hindular ispanlara izah edirdilər ki, xristianlar bu torpağa ayaq basmayanda onların hamısı azad və şad-firavan yaşayıblar, bütün bədbəxtliklər isə yadelli işğalçılar gələndən sonra baş vermişdir.

Müharibə zamanı fiziki cəhətcə məhv olunan hindular, hazırda mənəvi cəhətcə hər bir ispan tərəfindən alçaldılırdılar. Onlara qarşı aparılan dini təqib araukanların şəxsi mənliyinə, qüruruna və hissiyatına toxunurdu. Onların səbr kasası dolmaq üzrə idi. Dağlarda və meşələrdə gizlənən aborigenlər ölkədə baş verən prosesləri izləyir və getdikcə ispanların qurduğu mövqelərə yaxınlaşırdılar. Hətta gecə vaxtı bəzi kəndlərə girib çıxa bilirdilər. Araukanlar daimi kəşfiyyatla məşğul idilər. Onlar kəndlərdə yaşayan həmyerliləri ilə daimi əlaqə saxlayırdılar. Öz sayıqlığını itirən konkistadorlar qoruduqları kəndlərdə kifayət qədər keşikçi qoymurdular. Onlar gecəni bir necə hindu qızları ilə əyləncəyi üstün tuturdular. Qızlar öz namuslarını, qeyrətlərini, şərəf və ləyaqətlərini qorumaq imkanından məhrum idilər, sadəcə olaraq onlar işğalçıların qarşısında aciz qalmışdılar. Lakin onlar kin və qəzəblərini heç də gizlətmək fikrində deyildilər. Bütün bu müsibətlərə dözmək, qürurunu sındırmaq istəməyən araukanlar üçün çətin idi. Onlar artıq bu zülmə qarşı çıxmaq fikirində idilər. Silaha sarılaraq ya öz

azadlıqlarını bərpa etməli, ya da ki, bu yolda ölməli idilər. Vəziyyət bütün Araukaniyada gərgin xarakter alırdı.

Yazın birinci ayının qurtarmasına bir neçə gün qalmış Karlosgilin qaldığı kənddə otuza yaxın hindu, konkistadorların zülmünə tab gətirməyərək orada qalan bütün atları özləri ilə göturub, Osorno vulkanının ətəyində gizləndilər.

Onlar atları oğurlayarkən, keşikdə duran iki keşikçini öldürmüş və onların silahını oğurlamışdılar. Bu aksiya kənddə mövqe tutan konkistadorların hədsiz qəzəbinə səbəb olur. Onlar bu oğurluqda bütün hindulardan şübhələnir və atların harada gizlədildiyini öyrənmək üçün aborigenlərə qarşı cəza tədbirləri tətbiq edirlər. İlk növbədə öldürülmüş iki ispan əsgərinin əvəzinə iyirmi nəfər hindunun edam edilməsi qərara alınır. Bu qərar kənddə olan bütün aborigenləri hiddətə gətirdi. Qraf Filipp araukanlara izah etdi ki, keşikçiləri öldürənlər və atları oğurlayanlar axşama qədər gəlib hökumət adamlarına təslim olmasalar, çıxarılan hökm qüvvəyə minəcək.

Çıxılmaz vəziyyətdə qalan hindular yabalar və baltalarla silahlanıb kənddən çıxmağa cəhd göstərirlər. Lakin kənddəki konkistadorlar onların qarşısını kəsir. Hər iki qüvvə arasında qeyri-bərabər döyüş başlanır və uzun çəkməyən döyuşdə aborigenlərin hamısı qılıncdan keçirildi. Hətta döyüşün sonunda silahını yerə atıb təslim olmaq istəyənlərə

də aman verilmədi. İspanlardan cəmi iki nəfər yüngülcə yaralanır. Bu kənd başqa kəndlərdən çox aralıda yerləşdiyindən orada baş verən qırğın barəsində heç kimin xəbəri olmadı. Yalnız Osorno vulkanına çəkilən araukanlar bilirdilər ki, öldürülmüş ispan əsgərlərinə görə kənddə qalan hindular ağır ziyan çəkəcəklər. Lakin onlar ağıllarına belə gətirməzdilər ki, konkistadorlar kənddə qalan bütün aborigenləri qılıncdan keçirəcəklər. Vulkanın ətəyindəki hindular dağlarda və meşələrdə gizlənən öz həmyerlilərini axtarıb tapmaq üçün öz mövqelərini hava qaralan kimi tərk etdilər.

Ertəsi günü Odovaldo və Morelos qardaşları, cərimədə olan başqa konkistadorlar burada baş verən hadisəni komandanlığa izah etmək üçün Lyankiue gölünün şərq sahilində yerləşən qərargaha yollandılar. Kənddə cəmi 9 nəfər döyüşçü qaldı (2-si yaralı idi), onlar da ki, kəndə səpələnmiş hindu meyidlərini yaşayış məntəqəsindən kənara çıxarmaqla məşğul idilər.

Kapitan Alonso məsuliyyəti öz boynundan atmaq üçün qırğında iştirak edənləri birbaşa Anqud körfəzinə qraf Ferdinandın yanına göndərir.

İspan əsgərlərinin qətlini törətmiş hinduların qırğınında iştirak etmiş idalqolar nə müsbət tərəfdən qiymətləndirildilər, nə də ki, ittiham olundular. Morelos qardaşları qraf

Ferdinandın övladları olduqlarından özlərinə tam arxayın idilər. Lakin ekspedisiyanın rəisi çox yaxşı bilirdi ki, onlar burada nə qədər çox olsalar, bir o qədər də komandanlıq üçün arzuolunmaz hadisələr yaradacaqlar. İkinci dəfə idi ki, onlar hinduların kütləvi surətdə qırğınını təşkil edirdilər. Belə getsə, araukanlar tamamilə ispanlardan üz döndərəcəklər. Tezliklə, həmin konkistadorlar Araukaniyadan xaric edilməliydilər.

İş elə gətirir ki, onların bu ekspedisiyadan tərxis olunmağa böyük imkanı yaranır. "Eldorado" gəmisinin kapitanı Karl Kesada, Araukaniyada artıq döyüş əməliyyatlarının getmədiyini bəhanə gətirərək, heyətinin sağ qalmış üzvləri ilə birlikdə buranı tərk etməyi qərara alır. Əlbəttə, qraf Ferdinand boş-boşuna onu burada saxlamaq fikrində deyildi. Odur ki, o, Karl Kesadanı heyəti ilə birlikdə Araukaniyanı tərk etməyə icazə verir. Karlosgilə də həmin imkan verildi.

Birdən-birə Araukaniyanı 72 nəfər adam "Eldorado" gəmisində tərk etdi. Ekspedisiyanın heyətinin azalmasını konkistadorlar öz çiyinlərində hiss etdilər. Xüsusən də gecə vaxtı keşik çəkəndə bir nəfər ikisinin yerinə qulluq edirdi. Ova gedəndə düşərgədən uzaq məsafədə aralanmaq çox təhlükəli idi. Onlar gizlənən araukanların pusqusuna duşə bilərdilər.

Qraf Ferdinand əlavə qüvvə almaq üçün Perunun vitse-kralına məktub yazır. Araukaniyanın saxlanılması və inkişaf etdirilməsi üçün ən azı 50 nəfər adam lazım idi. Bu ölkədə başlanan iş başa çatdırılmalı idi. Mal-qara və bir neçə at gətirmək üçün qraf Ferdinand yazdığı məktubu kapitan Filipp Odovaldonun vasitəsi ilə "Vanquardia" gəmisində Kalyaoya göndərir.

Anqud körfəzi ispan gəmilərindən boşalandan sonra Araukaniyada 130 nəfərə yaxın konkistador qalmışdı. İspanların hərəkətlərini daim izləyən araukanlar, bütün qüvvələrini toplayıb, konkistadorlara qarşı sarsıdıcı zərbə endirməyi planlaşdırırdılar. Necə ki, ispanlar hindulara qarşı gözlənilməz hücum təşkil etmişdilər, indi isə araukanlar onlara qarşı belə bir planı həyata keçirməyə hazırlaşırdılar. Bunun üçün hinduların əlində 21 dənə at və otuza yaxın odlu silah vardı.

Döyuşən araukanlar kəndlərdə olan həmyerliləri ilə əlaqə yarada bilirlər. Konkistadorlar gücbəla ilə mülki əhalini əsarət altında saxlayırdılar. Buna baxmayaraq, onlar əmin idilər ki, araukanlar heç vaxt ispan hökmünə qarşı baş qaldırmaz. Çunki baş qaldıranlar hamı bir nəfərə kimi aman verilmədən qılıncdan keçiriləcəklər. Lakin mülki əhali qırılandan sonra ispanlar işçi qüvvəsindən məhrum olacaqdılar. Araukanlar istəsələr, ciddi nəzarət altında olmayan

kəndlərdən qaca bilərdilər. Hələlik onlar bu imkandan istifadə etmirdilər.

Oktyabr ayının ortasında "ölu" dərəsi ilə Anqud körfəzinin şimalında salınmış fortun arasında yerləşən dağların ən hündür zirvəsinin başında elə bir tonqal qalandı ki, onu demək olar, ölkənin hər bir yerindən görmək oldu. Gecənin ortasında yandırılan həmin tonqalın alışması keşikdə duran ispanların fikrindən yan keçmədi. Onlar çox yaxşı bilirdilər ki, dağ zirvəsinin başında yandırılan tonqal yerli hindular üçün hansısa bir işarə sayılırdı. İspanlar bu haqda komandanlığa xəbər verməyə macal tapmamış, əksəriyyət kəndlərdə ispanların yatdıqları evlər alışmağa başladı. Keşikçilər isə qaranlıq mühitdə aborigenlərin hücumlarına məruz qaldılar. Döyuşmək qabiliyyətinə malik olan araukanlar öz mövqelərini tərk edib, hindu kəndlərində mövqe tutan azsaylı ispan dəstələrinin üzərinə ildırım sürətli hücuma çəkdilər. İlk növbədə, ölkənin şimalında yerləşən hindu kəndi mühasirəyə alındı və vaxtı ilə mülki əhalinin kütləvi şəkildə qırğınını təşkil edən konkistadorların məhvi başlandı. Doqquz nəfər ispanın müdafiəsi çox çəkmədi və onlar hava işıqlaşana qədər vəhşicəsinə öldürüldü. Mobil hücuma keçən araukanlar özlərinin 40 nəfərlik dəstəsini 21 atın belində, Anqud körfəzinin şimal sahilinə fortun yandırılmasına və oradakı qüvvənin darmadağın edilməsi üçün həmin

istiqamətə yollandılar. Araukan döyüşçülərinin və mülki əhalinin gözlənilməz halda, lakin mütəşəkkil şəkildə hücumu konkistadorların sıralarında çaşqınlıq yaratdı. Buna baxmayaraq, onlar əksər hallarda əks-hücuma keçir, lakin aborigenlərin qurduqları pusquya duşərək tələfat verirdilər.

Qraf Ferdinandın qaldığı fortun və "qanlı vadi"də salınan istehkamın bir hissəsi hindular tərəfindən yandırıldı. "Ölu" dərəsindən ta şimala qədər bütün ərazi konkistadorlardan təmizləndi. "Qanlı vadi" konkistadorların əlində qalsa da onlar Anqud körfəzindən təcrid olunmuşdular. Lakin ispanlar bilmirdilər ki, bütün yollar hinduların nəzarəti altına keçib. Araukanlar çalışırdılar ki, bir günün ərzində hərbi üstünlüyu öz əllərinə alsınlar. Gün ərzində qırxa yaxın konkistador məhv edilmişdir. İtki demək olar ki, fortdakı qüvvədən başqa bütün bölgələrdə baş vermişdir. Belə bir məğlubiyyəti qraf Ferdinand və onun tabeliyində olan zabitlər ağıllarına belə gətirmirdilər. Qüvvələri cəmləşdirib hər şeyi təzədən başlamaq lazım idi. İlk növbədə "qanlı vadi" ilə əlaqə yaradılmalı idi. Qraf Ferdinand yaxşı bilirdi ki, döyüşçü araukanların sayı 150-dən 200 nəfərə kimidir. Belə bir qüvvə burada kök salmağa çalışan konkistadorlar üçün real təhlükə yarada bilməz. İlk növbədə nizam-intizamı, mütəşəkkilliyi və soyuqqanlığı itirmək lazım deyildi. Şok vəziyyətdə qalsalar, hindular qısa bir

müddət ərzində ispanlar üzərində böyük qələbə əldə edə bilərlər.

XX fəsil. And dağları aborigenlərə arxa durur

Ertəsi günü hücum edən araukanlar yaxınlıqdakı naməlum mövqelərində gizlənməyə başladılar. Qraf Ferdinand ixtiyarında olan süvari dəstəsini işə saldı. Həmin dəstə "qanlı vadi" ilə əlaqə yaratmaq üçün ağır bir yola düzəldilər. Yolun əksəriyyəti dağ keçidlərindən və sıx meşə cığırlarından ibarət olduğu üçün ispanlar ağır hərəkət edirdilər. Hindular çox yerlərdə pusqu qurmuşdular. Süvari dəstəsi yolda heç bir maneəyə rast gəlmədən silahdaşlarının qaldıqları istehkama daxil olan zaman, döyüşən araukanların əksəriyyəti, mülki əhalinin köməyi ilə azlıqda qalan konkistadorların müdafiə olunduqları forta hücuma keçdilər. Fortun cənub və şərq divarlarında yerləşdirilən toplardan istifadə etmək mümkün olmadı. Ona görə ki, araukanlar yalnız şimal divarı istiqamətində hücuma keçmişdilər. Bir gün əvvəl araukanlar şərq və cənub divarındakı bütün taxta tikililəri yandırmışdılar. İndi isə şimal divarındakı

tikililəri yandırmağa çalışırdılar. Çünki onlar ox məsafəsinə yaxınlaşaraq, elə oradan yanan oxlarını forta tərəf atırdılar. Düşmən ispanlarla açıq silahlı toqquşmadan boyun qaçırırdı. Elə ki, konkistadorlar öz mövqelərini atıb hücuma keçirdi, hindular dərhal döyüş meydanından uzaqlaşmağa başlayırdı.

Onların fikrini başa düşmək çətin deyildi: araukanlar öz canlı qüvvəsini qorumağa çalışırdılar. Lakin qraf Ferdinand da buradakı azsaylı qüvvəsi ilə (fortda 25 nəfər əsgər qalmışdı) tam hücuma keçə bilməzdi. Fortdan çox uzaqlaşmaq konkistadorlar üçün ağır fəlakətlə nəticələnə bilərdi. Onun fikrincə, araukanlar azsaylı ispan dəstəsini qarşıdakı meşədə qurduqları tələyə salmağa səy göstərəcək. Odur ki, dəstəni geri çəkməyə məcbur oldu. Lakin hindular öz manevrlərindən əl çəkmirdilər. Onlar yenə də forta yaxınlaşaraq ordakı tikililəri yandırmağa cəhd göstərirdilər. İspanlar əllərindən gələn bütün işləri görurdülər ki, fortun daxilində bir dənə də olsun tikili yanmasın. Araukanların bütün cəhdləri heç bir müsbət nəticə vermirdi.

"Qanlı vadi"yə özünü yetirən süvari dəstəsi kapitan Alonsonun başçılığı altında ölkənin şimalındakı kəndlərdə araukanların axtarışı ilə məşğul olmağa başladı. Konkistadorlar öz qəzəblərini gizlədə bilmirdilər. Kimliyindən asılı olmayaraq, onlar qarşılarına çıxacaq hər bir hindunu məhv

edib qisas almaq istəyirdilər. Lakin ispanlar yaşayış məntəqəsinə çatmamış əhali qaçıb gizlənməyə imkan tapırdı. Araukanlar heç nəyin bahasına, 50 nəfərlik süvari dəstəsi ilə toqquşmaq istəmirdilər. Bu dəstənin hansı gücə malik olduğunu düşmən çox yaxşı bilirdi. Süvarilərin axtarışı heç bir nəticə vermirdi. Onlar istehkamda qalan silahdaşlarının taleyinə biganə qalmaq istəmirdilər. Bir-iki günə süvarilər istehkama qayıtmalıydılar. Çunki "qanlı vadi"də cəmisi 15 nəfər əsgər qalmışdı.

Həqiqətən də hindular istehkam üzərinə hücuma keçdilər. Araukanlar sayca az olsalar da, özlərini çox sərbəst hiss edirdilər. Hinduların süvariləri vadiyə gələn bütün yolları nəzarət altında saxlayırdılar. Onlar hər bir döyuşçünün həyatını göz bəbəyi kimi qoruyurdular. Hər bir taktiki səhv araukanların ağır məğlubiyyəti ilə nəticələnə bilərdi. Onlar hərbi gəmilərin Anqud körfəzində olmamasından və konkistadorların heyətinin iki dəfə azalmasından səmərəli istifadə etmək istəyirdilər. Araukanlar ispanların bir neçə ayda yaratdıqları təsərrüfata böyük ziyan vurmaqla, onları aclıq qarşısında qoyurdular.

Qraf Ferdinand başa düşə bilmirdi ki, həm mənəvi, həm də fiziki cəhətdən məhv edilən araukanlar necə oldu ki, özlərində inam və iradə tapa bilib mütəşəkkil surətdə ispanların mövqelərinə hücum çəkdilər. Onların bu hərəkəti

ispanların hamısında təəccüb hissi doğurmuşdu. Lakin qraf Ferdinand çox yaxşı dərk edirdi ki, hindu kasikləri ixtiyarlarında olan döyüşçülər ilə heç vaxt Araukaniyada cəmləşən ispan əsgərlərini tam şəkildə məhv edə bilməz və tam müvəffəqiyyətə, qələbəyə nail ola bilməyəcəklər. Buna baxmayaraq araukanlar özlərinin aqressiv hərəkətləri və gözlənilməz hücumları ilə konkistadorların burada qurduqları yeni həyatına böyük zərbə endirirdilər. Onlar belə bir üsuldan istifadə etməklə işğalçıların tezliklə buradan getməsinə nail olmaq istəyirdilər.

Həlak olan silahdaşlarını "qanlı vadi"dəki qardaşlıq qəbristanlığında basdırandan sonra ispanlar Araukaniyadakı hindu kəndləri arasındakı hərəkətlərini məhdudlaşdıraraq, daha da ehtiyatla davranmağa başladılar. Çünki araukanlar əksər yollarda onlara qarşı pusqu qururdular. İspanların süvari dəstəsi iki hissəyə bölünməli idi ki, nə fort, nə də ki, istehkam hinduların hücumuna məruz qalmasın. Qraf Ferdinand gözləmə mövqeyini tutdu. Araukaniyadakı hərbi üstünlüyü saxlamaq üçün o, səbirsizliklə kapitan Filipp Odovaldonun yeni qüvvə ilə qayıdışını gözləyirdi. Araukanlar da həmin taktikaya üstünlük verdilər. Onlar son günlərdə əldə etdikləri müvəffəqiyyəti nəyin bahasına olursa-olsun, öz əllərində saxlamaq istəyirdilər. İspanlardan çox hinduların özləri bərk əzab-əziyyət çəkirdilər. Bütün

təsərrüfat işlərindən məhrum olan mülki əhali konkistadorların qəzəbindən yaxa qurtarmaq üçün döyüşən həmyerlilərinin yanında hündür dağların ətəyində gizlənmişdilər. Bu qədər adamı ərzaqla təmin etmək çox mürəkkəb iş sayılırdı. İş elə gətirmişdi ki, ispanlar ət əldə etmək üçün ova da çıxa bilmirdilər. Hər yerdə onları təhlükə gözləyirdi. Ova çıxmaqdan ötrü bütün süvari dəstəsi fəaliyyət göstərməyə məcbur olurdu.

Araukaniyaya əlavə qüvvə gəlməmiş aborigenlər çalışırdılar ki, hərtərəfli konkistadorları sıxışdırıb öz ölkələrindən çıxartsınlar. Yavaş-yavaş hindular öz istədiklərinə nail olurdular. Dörd sektordan ikisi işğalçılardan təmizlənmişdi. Qalan iki sektorda ispanlar passiv fəaliyyət göstərirdilər. Araukanlar yaxşı bilirdilər ki, ispanların sayı iki dəfə azalıb, burada qalanların əksəriyyəti isə təcrübəsiz və bacarıqsız əsgərlərdir. Bir neçə ay bundan əvvəl qəhrəmanlıqla, fədakarlıqla və ustalıqla döyüşən konkistadorların 90 faizi artıq Araukaniyanı tərk etmişdilər. Yeni gələnlər isə nə buradakı ərazi ilə, nə də ki, araukanların döyüş taktikası ilə tanış deyildilər. Həm də onlar ağıllarına belə gətirmirdilər ki, haçansa aborigenlər azadlıq mübarizəsinə qalxacaqlar. Bir neçə ay fəaliyyətsiz duran araukan döyüşçüləri sanki yerin altından çıxmışdılar. Qışın sərt soyuğuna tab gətirən

hindular özlərində qüvvə taparaq yenidən hərbi əməliyyatlara başlamışdılar.

Konkistadorların əksəriyyəti təcrübəsiz olsalar da, onların hamısı canla-başla, böyük bir həvəslə düşmənə qarşı döyüşmək istəyirdilər. Ancaq hindular pusqu döyüşlərinə və qaranlıq mühitdə qəfil hücumlara üstünlük verirdilər. Bu taktika Araukaniyanın bütün ərazisini beş barmağı kimi tanıyan aborigenlərə böyük müvəffəqiyyət qazandırırdı.

Yay fəsli gəlsə də, hələ də kapitan Filipp Perudan qayıtmamışdı. Bu hal Araukaniyadakı konkistadorları çıxılmaz vəziyyətdə qoymuşdur. Artıq ikinci həftə idi ki, onlar taxıl üzünə həsrət qalmışdılar. Saxladıqları mal-qara tam istifadə olunmuşdur, başqa ərzaq növü bir neçə gün idi ki, qurtarmışdı. Qraf Ferdinand bilmirdi hansı tədbirlərə əl atsın. Aclıq içində olan konkistadorlar zabitlərin nəzarəti altından çıxırdılar.

Birdən gözlənilmədən dekabrın 1-də "Vanquardia" Anqud körfəzində peyda oldu. Kapitan Filipp 80 nəfər qüvvə ilə özünü vaxtında çıxılmaz vəziyyətdə qalan silahdaşlarına yetirmişdi. Lakin gətirdikləri ərzaq ehtiyatı həddindən artıq az idi. Araukanların törətdiyi talanlar kapitan Filippi dəhşətə gətirmişdi. Buradakı vəziyyətin kəskin surətdə dəyişməsi ona qəribə görsənirdi.

Araukanlar törətdikləri cinayətə görə hökmən cəzalandırımalı idilər. Kapitan Filipp hindulara qarşı yürüşə başlanmasını təkid etdi. Kapitan Alonso 50 nəfərlik süvari dəstəsi ilə araukanları darmadağın etmək üçün şərq istiqamətində And dağlarının ətəyinə hərbi əməliyyata yollandı. Filippin fikrincə, yüzlərlə mülki əhalinin dağlarda gözə görünməz halda gizlənmələri qeyri-mümkün idi. Onların yerini təyin etmək süvari dəstəsi üçün çətinlik törətməyəcək. Mülki əhalinin yeri təyin edilsə, döyüşən hinduların da yaxınlıqda müəyyən edilməsi labüd idi. Çünki onlar öz həmyerlilərini qırğından qurtarmaq üçün hökmən əhalinin müdafiəsinə qalxacaqlar.

Süvari dəstəsi "qanlı vadi"ni tərk edən zaman qraf Ferdinand istehkamda qalan konkistadorları ərzaqla təmin etmək üçün, səkkiz arabanı 25 əsgərin müşaiyəti ilə fortdan yola salır. Vəziyyətin ölkədə nə qədər gərgin olduğunu dərk edən qraf elə başa düşür ki, həmin yol hindular tərəfindən çoxdan azad olunubdur. Çünki araukanlar əsas qüvvələrini süvari dəstəsinə qarşı yönəltməliydilər.

Lakin hər şey tərsinə baş verdi. Hinduların 60 nəfərlik dəstəsi yüksəkliyə qalxan bir yerdə konkistadorlara qarşı pusqu quraraq, onları ox, arkebuz və muşket atəşinə tuturlar. Aborigenlərin hərəkətlərindən təngə gələn ispanlar qəzəb içində bütün ehtiyatlarını itirərək, açıq şəkildə

hücuma keçirlər. Bu döyüşə hazırlaşan araukanlar rəqiblərinin bu cür kobud səhvə yol verəcəklərini gözləmirdilər. Uzun çəkməyən bu döyüşdə konkistadorlar darmadağın edilir və onlardan cəmi 6 nəfəri ağır məngənəni xatırladan, sıx mühasirəni yarmağa müvəffəq olurlar. Hindular əllərinə keçirdikləri bütün ərzaq ehtiyatını arabaların köməyi ilə Osorno vulkanı istiqamətində aparırlar. Həmin döyüşdə araukanlar 30 nəfərə yaxın döyüşçü itirdiklərindən düşmənlərinin meyidləri toxunulmaz halda döyüş meydanında qalır. Araukanların bu uğurlu hücumu ispanlara ikiqat zərbə vurur; 19 nəfər əsgər öldürülmüş, bütün ərzaq ehtiyatı isə arabalar qarşı qənimət kimi düşmənin əlinə keçir. Bununla da "qanlı vadi"dəki konkistadorlar aclığa məruz qalırlar.

XXI fəsil. Əlacsız qalan konkitadorlar Araukaniyadan getməli olurlar

Əməliyyata yollanan süvari dəstəsi bir həftədən sonra heç bir müsbət nəticə əldə etmədən kor-peşman halda "qanlı vadi"yə qayıdır. Orada konkistadorlar arasında

yavaş-yavaş nizam-intizam pozulmağa başlayırdı. Aclıq və fəaliyyətsizlik onların psixologiyasına mənfi təsir göstərir və gərginlikdən öz hərəkətlərinə nəzarət edə bilmirlər. "Qanlı vadi"nin mühafizəsində duran konkistadorların əksəriyyəti bu torpaqda heç bir perspektivin olmadığını görub Araukaniyadan getməyi tələb edirlər. Çünki araukanların partizan taktikası onların hamısını təngə gətirmişdi. Gündüzlər gizlənir, gecələr isə hücum edirdilər. Ova çıxmağa imkan vermirdilər, açıq döyüşdən ümumiyyətlə boyun qaçırırdılar. Belə bir şəraitdə konkistadorlar əmin idilər ki, heç vaxt buradakı aborigenləri tam məğlubiyyətə uğrada bilməyəcəklər. Bu üsul ilə isə araukanlar bir-bir konkistadorları məhv edəcəklər. Məhz buna görə də onlar komandanlıqdan tələb etməyə başladılar ki, burada başlanan mənasız müharibə dayandırılsın və hamı evlərinə buraxılsın. İş o yerə gəlib çatır ki, konkistadorlar hətta onlara verilən torpaq payından imtina edirlər. Onsuz da hindular burada məskunlaşan ispanlara rahat yaşamağa imkan verməyəcəklər. Bu amili komandanlıq da çox yaxşı başa düşürdü. Qraf Ferdinandın buraxdığı səhvlər bağışlanılmaz idi. O, ispan qılıncından yaxa qurtarmış araukanları lazımınca qiymətləndirə bilməmiş və Perudan bura yeni qüvvə gəlməmiş xeyli sayda konkistadorları ekspedisiyanın sıralarından tərxis etmişdir. Bundan əlavə qraf qış fəslindən

də səmərəli istifadə edə bilməmişdir. Dağlarda və meşələrdə gizlənən hindular daim tonqal qalayırdılar ki, qışın sərt soyuğuna tab gətirsinlər. Kiçik qruplu cəza dəstələri təşkil etməklə, onlar tonqalların vasitəsilə gedib hinduları tapa bilərdilər. Ən nəhayət isə qraf peşəkar döyüşçülərin təcrübəsiz döyüşçülər ilə əvəz olunmasına öz razılığını bildirmişdir.

Hindu kasikləri ispanların buraxdıqları səhvləri çoxdan nəzərə almışdı və işğalçıları öz ölkələrindən qovmaq üçün bütün imkanlarından istifadə etmişdilər. İndi isə konkistadorların sırasında baş verən sarsıntıdan və çaşqınlıqdan agah olaraq təbliğat mexanizmini işə saldılar. Kasiklər məsafəli rabitədən istifadə edərək ispanlara bildirdilər ki, "qanlı vadi" təcavüzkarlardan azad edilməsə, istehkamdakılar ciddi mühasirə halqası ilə əhatə olunacaq və qısa müddət ərzində həm aclıqdan, həm də hinduların hücumu nəticəsində məhv ediləcəklər. Bura yığışan əsgərlərin əksəriyyəti təcrübəsiz olsa da, onların qeyrətinə söz ola bilməzdi. Lakin fəaliyyətsizlikdən və düşmənlə üz-üzə gəlməməkdə onların daxili aləmində ruh duşgünlüyu əmələ gəlmişdir. Qraf Ferdinand bütün bu amilləri çox yaxşı anlayırdı. O, kasiklərə bildirdi ki, hindular qardaşlıq qəbristanlığında basdırılan döyüşçülərin məzarlarına toxunmasalar, ispanlar "qanlı vadi"ni tərk etməyə hazırdılar.

Müsbət cavab alandan sonra qraf Araukaniyaya gətirilən bütün qüvvələrini Anqud körfəzi sahilində yerləşən fortda cəmləşdirdi.

Hazırda konkistadorlar, vaxtı ilə polkovnik Alonsonun bu ölkədə yaratdığı dörd sektordan yalnız birinə nəzarət edirdilər, o da ki, qismən. Araukanların döyüşkən dəstələri fortun sərhədinədək gəlib, burada kəşfiyyat işləri ilə məşğul olurdular. İspanların gördükləri bütün işlər onların diqqət mərkəzində idi. Ərzaq ehtiyatının istifadə olunmasına qənaətlə yanaşan döyüşçülər fortun möhkəmlənməsi üçün heç bir tikinti işlərində işləmək istəmirdilər. Onların yalnız bir istəyi vardı, o da ki, Araukaniyanı tezliklə tərk etmək. Konkistadorların istək və tələblərinə birtəhər sinə gərən qraf Ferdinand da bir rəis kimi fortda boş-bekar oturmurdu. O, ölkənin içərilərinə iki dəstədən ibarət kəşfiyyatçılar göndərdi. Kəşfiyyatçılardan alınan məlumata görə silahlı araukanların sayı 300 nəfərdən çox idi. Bu rəqəm qraf üçün heç də real rəqəm kimi sayılmırdı. Çünki hamı bir nəfərə kimi bilirdi ki, araukanların tərkibində 150 nəfərə kimi döyüşçü var. Sonradan kəşfiyyatçılar təyin edirlər ki, Araukaniyadakı döyüşçülərin sırası Çiloe adasından gələn döyüşçülərin sayı ilə genişlənirdi. Bunun qarşısı alınmasa, araukanlar qısa bir müddət ərzində böyük bir qoşun toplamağa müəssər olacaqlar. Qraf Ferdinand Çiloe adasına

cəza dəstəsi çıxara bilərdi, lakin qorxurdu ki, oradakı ərazi ilə tanış olmayan dəstə böyük itki verə bilər. Əldə olunan müvəffəqiyyət isə ispanlar üçün heç bir müsbət nəticə verməyəcək. Çünki Çiloe adasının işğalını saxlamaq mümkün olmayacaq.

Bir gün komandanlığın göstərişinə əsasən, kapitan Alonso başçılıq eqdiyi süvari dəstəsi ilə Araukaniyanın içərilərinə reyd etdi. Süvari dəstəsi kəndlərdə məskən salmış əhaliyə divan tutmalı idi. Çünki komandanlıq istəmirdi ki, araukanlar yenidən həmin kəndlərdə məskunlaşsınlar. Uzaqdan süvarilərin gəlişini hiss edən əhali vaxt itirmədən öz yaşayış yerlərini tərk edib gizlin yerlərdə özlərinə müvəqqəti sığınacaq tapırdılar. Lakin buna baxmayaraq, süvarilər bəzi yerlərdə on-on beş nəfərdən ibarət mülki adamları tapmağa müəssər olurdular. Heç bir hinduya aman verilmirdi. Axtarışla məşğul olan ispanlar bir çox yerlərdə araukanların qurduqları pusqulara düşürdülər. Çox çəkməyən döyüşdən sonra aborigenlər döyüş yerindən qaçmağı üstün tuturdular.

Süvari dəstəsi Araukaniyanın içərilərinə reydə çıxan zaman, bir gün keçməmiş araukanlar körfəzdə lövbər salan "Vanquardia" gəmisinə hüçum edərək, karavellanı yandırmağa cəhd göstərdilər. Bu hücum gecə qaranlıqda baş verdiyindən, ispanlar təxmini olsa da, gəmiyə hücum edən

hinduların sayını təyin edə bilmədilər. Fortdakı konkistadorların bir hissəsi qayıqlarda köməyə gedəndən sonra araukanlar şimal tərəfdən forta gücum edirlər. Qraf Ferdinand hinduların mütəşəkkil surətdə hücumlarını heç cürə gözləmirdi. Buna baxmayaraq səhərə qədər aborigenlərin bütün hücumları dəf edildi. Lakin ispanlardan 12 nəfəri gözlənilməz hücumlar nəticəsində öldürülmüşdü. Araukanlar itkilər versələr də, yaxın ətrafda bir dənə də olsun düşmən cəsədi yox idi. Onlar silahdaşlarının meyidlərini özləri ilə aparmışdılar. Səhər tezdən ispanların cəza dəstələri yaxınlıqdakı meşənin ön hissəsini yoxlayanda düşmənin heç bir üzvü ilə üzləşmədilər. Sanki araukanlar bir neçə saat bundan əvvəl burada olmamışdılar. Hinduların gündüz vaxtı yoxa çıxmaları və açıq döyüşdən boyun qaçırmaları ispanları daha da qəzəbləndirirdi. Faktiki olaraq ispanlar döyüşlərdə həlak olmuş silahdaşlarının qisasını düşməndən ala bilmirdilər.

Araukanların, apardıqları mübarizədə yeni taktikaya əl atmaları qraf Ferdinandı bu məsələdə ciddi düşünməyə vadar etdi. Bu taktikaya son qoyulmasa, yaxın bir neçə ayda ispan ekspedisiyasından heç bir əsər-əlamət qalmayacaq. Bir çox döyüşlərdən uğurla çıxan, ağır yürüşlərdə düşməni mat qoyan qraf hazırda mənəvi cəhətdən sarsılmışdı və məğrur araukanların qarşısında aciz qalmışdı.

O, polkovnik Alonsonun bu ölkədə əldə etdiyi uğuru hər vəchlə saxlamalı, ya da ki, əsgərlərinin həyatını qorumaq üçün Araukaniyada başlayan müharibəni dayandırıb ancaq sahildəki fortda qalaraq qapalı həyat tərzi keçirməliydi. Bu da ki, araukanların fəaliyyətində geniş imkanların yaranması demək idi.

Onlar azadlıq mübarizəsində böyük sərbəstlik və geniş səlahiyyətlər əldə edirdilər. Ölkənin içərilərində təsərrüfat işləri ilə məşğul olacaq və istədikləri vaxt sahildə məskən salan ispanların üzərinə hücum etməklə yanaşı diversiyaya əl atacaqlar. Qraf Ferdinand artıq başa düşürdü ki, araukanlar bu müharibədə həddindən artıq böyük itkilər versələr də, onlar üzərindəki tam qələbəyə nail olunmayıb. Bunu dərk etmək çətin deyildi. İspanlar Araukaniyada böyük səhvlərə yol vermişdilər. Uğurla başlanan hərbi əməliyyat axıra qədər çatdırılmamışdı, mülki əhalinin hüsn-rəğbətini qazanmaq mümkün olmamışdı, daimi ərzaq almaq üçün yaxın bölgələrlə - əsasən, Valdiviya şəhəri ilə əlaqə yaradılmamış, mülki ispan müstəmləkəçilərini bu regiona cəlb etmək cəhdi baş tutmamış, tərxis olan peşəkar döyüşçülər qeyri-peşəkar döyüşçülər ilə əvəz edilmiş, ekspedisiya iştirakçıları arasında nizam-intizam pozulmuş və özbaşınalığa böyük yer verilmiş, araukanların ram edilməsi üçün əməli tədbirlər görülməmişdi. Qeyri-insani hərəkətlərlə, edamlar-

la, inkvizitorların işgəncələri ilə, adamların zorla xristianlaşdırılması prosesi mülki əhalini qəzəbləndirmiş və onlar konkistadorların nəzarəti altından çıxmağa məcbur olmuşdular. Həm sosial, həm iqqisadi, həm siyasi, həm də hərbi baxımdan buraxılan bu səhvlər ispanların əldə etdikləri uğurun tənəzzulə uğramasına aparıb çıxarırdı. Bunu düzəltmək hələlik qeyri-mümkün idi.

Qraf Ferdinand ixtiyarında olan döyüşçülərin həyatını xilas etmək üçün tezliklə buranı tərk etməli idi. O, bu qərarı haqqında ekspedisiya rəhbərini məlumatlandırmağa çalışsa da, polkovnik Alonsonun hansı şəhərdə olduğunu müəyyənləşdirə bilmədi. Məhz uzun götür-qoydan sonra qraf Ferdinand 1593-cü ilin martın 5-də piyada qüvvəsi ilə birlikdə "Vanquardia" gəmisində Araukaniyanı dəniz yolu ilə, kapitan Alonsonun başçılıq etdiyi süvari dəstəsi isə quru yol ilə tərk etdi. Onlar hamısı Konsepsion şəhərində görüşməliydilər. O biri qüvvədən fərqli olaraq, süvari dəstəsi ən azı on gün müddətinə dinc əhaliyə divan tutmalıydı. Lakin buna baxmayaraq araukanlar öz qələbələrini qeyd edə bilərdilər. Onlar öz inadkarlığı və yenilməzliyi ilə konkistadorların təzyiqinə tab gətirərək, azadlıqlarının və müstəqilliklərinin qorunub saxlanılmasına nail olmuşdular. Növbəti ispan ekspedisiyası Araukaniyada müvəffəqiyyətsizliklə üzləşərək, İspaniya kralının verdyi tapşırığı yerinə

yetirə bilməmiş və məğlub kimi qiyamçılar ölkəsinin sərhədlərindən kənara çıxmağa məcbur olmuşdular. Artıq yəqin bilinirdi ki, araukanların cəzalandırılaraq, ram edilməsi üçün uzun müddət bu ölkəyə cəza ekspedisiyası göndərilməyəcək.

Alonso Araukaniyadakı ekspedisiyanın məğlubiyyətlə üzləşməsindən xəbərsiz idi. O, əvvəlki kimi Karib dənizinin cənub sahillərində dəniz quldurları haqqında məlumatlar toplamaqla məşğul idi. Tale elə gətirdi ki, Alonso Portobelo limanına gəlib çıxır və orada Migelgil ilə rastlaşır. Köhnə silahdaşların görüşü mehribançılıq şəraitində keçir.

Araukaniyaya göndərilən qasid Portobeloya bəd xəbərlə gəlir. Ekspedisiyanın oradakı uğursuzluğu köhnə konkistadorların təəccübünə səbəb olur və hamı bir nəfərə kimi bu işdə qraf Ferdinandı taqsırlandırırlar. Qraf Ferdinandın Araukaniyada apardığı sərt siyasət nəticəsində, ispan əsgərinin qanı bahasına əldə edilən qələbə, məğlubiyyət ilə nəticələnmişdi. İspaniyaya qalib kimi yola düşməyə hazırlaşan polkovnik Alonso artıq məğlub qismində Mərkəzi Amerika sahillərində qalmağı məcbur olmuşdur. Necə olsa da, kral II Filipp özü ona xəbərdarlıq etmişdir ki, Araukaniya fəth edilməsə və orada yaşayan aborigenlər cəzalandırılmasalar, polkovnik Alonso İspaniyaya qayıtmaya bilər. Məğrur sərkərdə qəzəbli monarxın gözünə

dəyməməli idi. Hamıdan pis vəziyyətə məhz ekspedisiyanın rəisi düşmüşdür. O, Araukaniyanın fəth edilməsi və silahlı döyüşçülərin fiziki cəhətdən məhv edilməsi barəsində geniş məzmunlu məktub tərtib edərək, artıq Eskorial sarayına göndərmişdi. Söz yox ki, kral bu haqda məlumatlandırılmışdı. Əgər Araukaniyanın, İspaniyanın mülkləri siyahısından çıxması xəbəri krala çatdırılsa, onda qəzəbli monarx bu işdə qraf Ferdinand Morelosu günahlandıracaq. Çunki kralda olan məlumata əsasən, Araukaniyanı fəth edən Alonso, həmin ölkəni idarə etmək və orada ispan qayda-qanunlarının həyata keçrilməsi üçün bütün səlahiyyətləri qraf Ferdinanda vermişdi. Bu haqda kral notariusunun tərtib etdiyi müvafiq sənədlər Eskorial sarayına göndərilmişdi. Qrafın səriştəsizliyi və səhlənkarlığı ucbatından, böyük uğur qazanan ekspedisiya iştirakçıları qısa müddət ərzində qiyamçılar ölkəsi sayılan Araukaniyada böyük bir məğlubiyyətlə üzləşiblər. Polkovnik Alonso istəsə, Araukaniyanın fəth edilməsi üçün növbəti ekspedisiya təşkil edər, lakin o, yaxşı bilirdi ki, nə indi, nə də ki, sonrakı illərdə araukanları dizləri üstə çökdürmək mümkün olmayacaq. Onların hansı amal uğrunda mübarizə aparmaları, bu müharibədə iştirak edən hər bir insana bəlli idr. Alonso bu müharibədə bircə şeyi yaxşı dərk etdi; hər hansı bir ölkəni fəth etmək olar, hər hansı bir düşmən ordusunu məhv etmək olar, lakin hər

hansı bir xalqı dizləri üstə çökdürmək, heç bir sərkərdəyə və ya hakimə müəssər ola bilməz. Bütün araukanları qılıncdan keçirsələr, onda Araukaniya uzun müddətə ölü bir ölkəyə çevriləcək. Çunki heç bir mühacir və ya təsərrüfatçılar sərt iqlimi ilə tanınan bu ölkədə yaşamağa öz razılığını bildirməyəcək. Hamını münbit və bərəkətli torpaqlar maraqlandırırdı.

XXII fəsil. Araukan müharibəsinin qısaca tarixi

Bacarıqlı sərkərdə ekspedisiyaya başçılıq edəndə ispanlar, məğlubedilməz və yenilməz sayılan araukanlar üzərində bir neçə dəfə uğurlu əməliyyatlar keçirmiş və Araukaniyanın işğalını tam başa çatdırmaq üzrə idi. Lakin adi səhlənkarlıq uçbatından konkistadaorların əldə etdikləri qələbə puç olub yoxa çıxmışdır.

Coğrafiyaşünas Bartolomeu XVI əsrin ortasından başlayan araukan müharibəsinin son illərinin iştirakçısı olmuş və həmin müharibəni bir şahid kimi öz kitabında əks

etdirmək istəyirdi. Artıq, vaxtı ilə məşhur konkistador Diyeqo Almarqo tərəfindən başlanan amansız müharibə, araukanlara qarşı aparılan döyüş əməliyyatlarının bilavasitə iştirakçısı sayılan kapitan don Alonso de Ersilya-i-Sunyiqa tərəfindən **"Araukana"** poemasında (1569-1589) təsvir edilmişdir. İspan zabiti araukanları ruhun, şücaətin və gücün Axillası adlandırmışdı. Alim bilavasitə həmin poemanı böyük bir həvəslə oxuyub, hərarətlənmişdi.

Polkovnik Alonso nəinki həmin poemanı oxumuş, hətta əsərin müəllifi ilə də tanış olmuşdu. Araukan məsələsi katalon zadəganları arasında qaldırılan zaman və qoca səyyah Rodrigesin rəğbətlə Mərkəzi Çilidə yaşayan hinduların gücünü və yenilməzliyini nümayiş etdirməsi, hər hansı bir sərkərdə tərəfindən birmənalı qarşılanmamalıydı. Polkovnik Alonso araukanlar barəsində daha dürüst, daha ətraflı məlumat toplamaq üçün bir başa **"Araukana"** poeması müəllifinin evinə yollanmışdır. Don Alonso Ersilya-i-Sunyiqanın dedikləri Rodriges Kartahenanın dedikləri ilə identik formada eyni idi. Həmin söhbətlərdən məlum olmuşdu ki, Amerika qitəsinə ayaq basan ispan konkistadorları irili-xırdalı ölkələri işğal edən zaman, həmin qitədə yaşayan minlərlə hindu tayfaları arasında yalnız araukanlar tərəfindən ciddi müqavimətə rast gəlmişdilər. Araukanlar mübarizə vaxtı nəinki öz müstəqilliklərini, azadlıqlarını

qoruyub saxlaya bilmişdilər, hətta uğurlu hərbi əməliyyatlar keçirməklə ispan konkistadorlarını vurub öz ölkələrindən çıxarmışdılar.

Hələ ispanlar Amerika qitəsinə ayaq basmamış İnk imperiyasının məğlubedilməz ordusu Araukaniyanı işğal etmək üçün bir necə dəfə səy göstərmişdir, lakin yerli hindular tərəfindən kəskin müqavimətə rast gələrək, geri çəkilməyə məcbur olmuşlar. İnk imperiyasını işğal edən konkistadorlar araukanların inadkarılğı, döyüşkənliyi və yenilməzliyi haqqında qısaca olsa da məlumatlandırılmışdılar, lakin bütün bunlara baxmayaraq ispanlar Araukaniyanı işğal etməyi qərara aldılır. Araukanların ölkəsinə ilk ekspedisiyanı Diyeqo Almarqo (böyük) təşkil edir. Həmin dövr üçün onun ixtiyarında böyük bir qüvvə olur: 570 ispan və 15 min hindu. 1535-ci ilin iyulunda Almaqro Kusko şəhərini tərk edir və 1536-cı ilin mart ayında indiki Çilinin ərazisinə daxil olur. Dörd min metr yüksəklikdə yerləşən dağ aşırımlarından, şaxtalı havalar-dakı keçid, konkistador ekspedisiyalarının ən böyük "müvəffəqiyyətlərindən" biri sayılır. Lakin həmin "müvəffəqiyyət" ispanlar üçün, 11 min hindunun qarlı çovğunda həlak olmaları hesabına gəlmişdi. Yolda ekspedisiyanın bütün atları məhv olmuşdu.

Qət edilən çayların birinin sahilində, bir neçə yüz nəfərdən ibarət olan araukan döyüşçülərinin üzərinə hücum çəkir. Araukanlar bir neçə dəfə özlərindən çox olan qoşunun üzərinə hücuma keçmiş və düşmənə xeyli tələfat vermişdi. Amerika qitəsində, 45 il hakimlik edən konkistadorlar buna bənzər hadisə ilə rastlaşmamışdılar.

Həmin ölkədə qızıl olmadığından, yerli əhalinin mədəniyyət inkişafının Peruda yaşayan hindulardan aşağı olması, lakin döyüşkənliyinə və mərdliyinə görə heç bir hindu tayfasına oxşamaması, ispanları geri qayıtmağa məcbur etmişdi.

Lakin buna baxmayaraq, Fransisko Pisarronun əmri ilə Kuskodan, Pedro Valdiviya adlı bir zabit, "Çili ölkəsini işğal etmək üçün, cənub istiqamətinə yola düşür. Müharibəyə hərtərəfli hazırlaşan araukanlar sərhədə yaxın olan kəndlərdən mülki əhalini çıxardır, ərzaq ehtiyatını isə əlçatmaz yerlərdə gizlədirlər. Valdiviyanın dəstəsi, Belalkasardan nümunə götürərək, həmin yürüşə "toxunulmaz ehtiyat" sayılan çoxlu donuz götürürlər. Çilidə salınan ilkin "avropalı" şəhəri ekspedisiyanın rəisi İspaniyada anadan olduğu şəhərin adını qoyur - La-Serena. Rastlaşdığı ən böyük çaya öz adını verir Valdiviya. Çayın sahilində saldırdığı Santyaqo-del-Nuevo-Ekstremo şəhərini Çilinin paytaxtı elan edir. Araukanlar əvvəlki kimi Santyaqo

şəhərindən cənubda, Bio-Bio çayından aşağıda yaşayırdılar. Valdiviya çətinliklə də olsa, inadkar hinduların hücumlarını dəf edə bilir. Hərbi əməliyyatlar zamanı o, əsir alınmış hindu kasiklərini öldürməyərək, müvəqqəti olaraq girov kimi saxlamağı qərara alır.

Bir dəfə Valdiviya, işçi qüvvəsi əldə etməkdən ötrü cənuba yola düşür. O, inanırdı ki, Valdiviya çayında çoxlu qızıl var və qızılların çaydan çıxarılmasında bilavasitə hindu işçilərindən istifadə etmək istəyirdi. Lakin 1541-ci ilin sentyabrın 11-də sübh tezdən araukanlar kasik Miçimalonkonun başçılığı altında, gözlənilmədən Santya-qoya yaxınlaşırlar və tərəddüd etmədən böyük olmayan ispan qarnizonunun üzərinə hücum edirlər. İspanların təmamilə darmadağın edilməsinə az qalmış, Valdiviyanın sevgilisi İnyes Suares əmr edir ki, əsir alınmış hindu kasiklərinin hamısı bir nəfər kimi edam edilsinlər və onların başları qarnizon divarlarından aşağı, hücum edən araukanların ayaqları altına atılsın. İnyesin qanlı silahı öz bəhrəsini verdi: Bu işdə pis əlamətin olduğuna inanan, Amerika qitəsinin ən məğrur hindu tayfası geri çəkilməli olur, lakin onlar həmin döyüşdə ispanların xeyli canlı qüvvəsini məhv edirlər. Vəziyyətin belə gərgin xarakter aldığını görən Valdiviya özünün ən etibarlı köməkçisi olan

Monroyu altı əsgərlə birlikdə kömək almaq üçün Peruya göndərir. İki il keçir, lakin Perudan heç bir kömək gəlmir.

Maraqlı idi, Valdiviyanın ən etibarlı zabitinin yolda başına nə gəlmişdi? İş ondadır ki, Monroy Çilinin şimalına çatanda onların üzərinə yerli hindu tayfası hücuma edir. Döyüş vaxtı dörd ispan həlak olur, Monroy və onun bir silahdaşı düşmənə əsir düşür. Onlar işğalçı kimi edam edilməliydilər. Lakin Monroy yerli hindu kasikinin arvadının xoşuna gəldiyindən, qadın onun müdafiəsinə qalxaraq hər ikisini ölümün pəncəsindən qurtarır. Həmin kopiap hinduların başçısı əsirlərdən at çapmağı öyrənir. Belə bir məşqlərin birində əsirlər kasiki yaralayaraq özləri at belində şimal istiqamətində təhlükəli ərazini tərk edirlər.

Yolda heç bir hadisə baş vermədən onlar gedib Kuskoya çıxırlar. Perunun yeni hökmdarı Vaska de Kastro onları mehribancasına qarşılayır və kömək göstərilməsinə söz verir. İki ildən sonra Monroy 160 süvari ilə quru yolla, eyni vaxtda isə 200 əsgər iki karavellada Valparaisoya yollanır.

Beləliklə, Valdiviya yeni müstəmləkəni yaratmağa başladı. İlkin vaxtlar o, cənubda yaşayan araukanları narahat etmək fikrində deyildi.

Araukan müharibəsinin "əsl tarixi" 1549-cu ildə başlayır. Valdiviya həmin il Limadan yeni instruksiya ilə qayıdır. Əvvəlcə o, düşmən üzərində müəyyən müvəffəqiyyət-

lər əldə edir. İspanlar Bio-Bio çayını keçəndən sonra araukanlar onlara kəskin müqavimət göstərməyə başlayırlar. Andalyen düzənliyində dörd min araukan əsgəri kasik Ayyavilanın başçılığı altında konkistadorların üzərinə hücum edirlər. Lakin muşketlərin atəşi hinduların hücumunu dəf edir. Ayyavila həmin döyüşdə həlak olandan sonra araukanlar geri çəkilməyə məcbur olurlar.

İspanlar bir-birinin ardınca dayaq məntəqələrini yaradaraq, bununla da həmin ölkənin şimalında şəhər-qalaların zəncirvari təməlini qoydular. Beləliklə, araukanların hərəkətləri xeyli məhdudlaşdırılmış olurdu. Araukaniyanın düz mərkəzində isə Valdiviya, bir-birinin arasında səkkiz ispan mili məsafəsi olan üç əsas möhkəm məntəqələr yaradır - Arauko, Tukapel və Puren. Bununla da komandor Araukaniyanın içərilərində möhkəmləndi.

Araukanların yeni təyin edilmiş baş kasiki Linkoyan öz silahdaşlarına bildirir ki, müvəqqəti olaraq konkistadorlara qarşı müqaviməti dayandırmaq lazımdır. Lakin ispanlar əsir düşmüş yüzlərlə hindunun əllərini biləyindən kəsərək və burunlarını tənələrindən qopararaq, şikəst edilənləri öz kəndlərinə buraxırlar. Məhz bundan sonra araukanların səbr kasası dolur və onlar işğalçılardan qisas almaq üçün hərəkətə başlayırlar. Qasid əlində, ucu al qan ilə rənglənmiş oxu başı üzərində yuxarıda saxlayaraq, hinduların yaşadıq-

ları kəndləri hərlənir. Hər bir döyüşçü çətinlik çəkmədən həmin işarəni başa düşür. Bütün icmalarda olan araukanlar döyüşə hazırlaşırlar. Ümumi üsyan vaxtı Araukaniyanın əhalisi yarım milyona yaxın idi və maraqlı cəhət bundan ibarət idi ki, bu qədər əhalinin içərisində bir nəfər olsun satqın tapılmamışdır. Satqın olmaması ucbatından ispanlar ümumaraukan üsyanından xəbərsiz idilər. Linkoyanın yerinə araukanlar cəsarəti, məğrurluğu, müdrükliyi heç vaxt yaddan çıxmayacaq, ən məhşur hindu başçılarından biri sayılan Lautaronu seçdilər.

Lautaro qırmızı oxu ispanların üstünə atanda hələ cavan idi. Uşaq olan vaxtı, ispanlar zor gücünə onu Santyaqoya aparırlar. Bic və çevik hərəkətləri ilə həmyaşıdlarından xeyli dərəcədə fərqlənən Lautaro, şəxsən Valdiviyanın mehtəri olmuşdur. Santyaqoda o, tam şəkildə ispanların hərbi taktikasına yiyələnir. Bir neçə ildən sonra Lautaro paytaxtı tərk edərək Araukaniyaya qayıdır və orada ümumi üsyanın planını tərtib edir. İspanlar üzərində üstünlüyü ələ almaq üçün ilk növbədə o, araukan ərazisində hakimlik edən üç ispan qalasını darmadağın etməyi qərara alır. Məhz ondan sonra bütün ölkəni işğalçılardan təmizləməyə başlayırlar. 1553-cü ilin ortasında araukanlar Tukapel qalasına hücum edərək, həmin iqamətgahı yer üzündən silirlər.

Elə həmin vaxtı Valdiviya öz qoşununun bir hissəsi ilə Tukapelə gedirdi. Beləliklə, rəqib qoşunların hər iki komandanı, açıq döyüşdə üzbəüz görüşməli idilər. Lautaro əməliyyat planını çox mükəmməl hazırlamışdı. İlk növbədə Qomes de Almaqorunun qoşununu yayındırmaq üçün o, bir neçə dəstəni yanlış yol ilə qabağa göndərir. Bu vaxtı Qomes de Almaqro Pureni mühafizə edirdi. Yerdə qalan qoşunu Lautaro on iki dəstəyə bölür və onları dağların arasında yerləşdirir ki, süvari dəstələrin sərbəst hərəkətlərinə maneçilik törətsinlər.

Hərb tarixində Lautaro ispanlara qarşı ən gözəl hərbi taktikanı tətbiq edir. İspanlar araukanların böyük olmayan dəstəsini görən kimi cəld hücuma keçirlər. Bir neçə əsgər və at itirəndən sonra onlar nəhayət hinduların dəstəsini iki hissəyə bölməyə müvəffəq olurlar. Lakin elə həmin vaxtı konkistadorların qarşısında ikinci dəstə peyda olur. Hücum edənlər hinduların bu dəstəsini də parçalayandan sonra, üçüncü dəstə peyda olur. Beləliklə, döyüş zamanı araukanların bir-birinin ardınca on iki dəstəsi döyüş meydanına daxil olaraq ispanların özlərini mühasirəyə alırlar. Çox keçmədən konkistadorlar və onların tərəfində doyüşən min nəfər hindu araukanlar tərəfindən darmadağın edilirlər. Valdiviya həmin döyüşdə yaralı halda əsir alınaraq, hamının gözü qarşısında edam edilir.

Bir neçə gündən sonra Lautaro növbəti döyüşdə, Valdiviyanın köməyinə gələn Almaqronun qoşununun böyük bir hissəsini məhv edir, daha sonra isə böyüklüyünə görə Çilinin ikinci böyük şəhəri Konsepsionu xarabalığa çevirir.

Lautaronu məhv etmək üçün Valdiviyanın sələfi olan Fransisko de Villaqro ixtiyarındakı bütün əsgərləri bir yerə toplayaraq yürüşə başlayır. Lakin Marikenya yaxınlığındakı döyüşdə (Lautaro yenə də öz dəstəsini dağların arasında yerləşdirir) araukanlar tərəfindən darmadağın edilir. Beləliklə, Lautaro Çilinin bütün cənub hissəsini ispanlardan azad edir. Yalnız iki şəhərdən - La İmperial və Valdiviyadan - o, ispanları çıxarda bilmir. Müharibənin dörd illik müddətində Lautaro Santyaqodan başqa, indiki Çilinin araukanların məskunlaşdığı bütün ərazini konkistadorlardan təmizləməyə müvəffəq olur. O, Santyaqonu azad etməyə hazırlaşan vaxt, hinduların arasında ağır tif epidemiyası yayılır və qısa müddət ərzində araukan döyüşçülərinin beşdə-dörd hissəsini məhv edir. Bundan sonra ispanlar hinduların üzərinə gözlənilmədən şığıyaraq, düşmənə birbirinin ardınca sarsıdıcı zərbələr endirir. Reyd əməliyyatlarının birində konkistadorlar Lautaronun başçılıq etdiyi, lakin əldən düşmüş dəstə ilə üzləşirlər və hinduları mühasirəyə alaraq təslim olmalarını tələb edirlər. Araukanlar zəif olsalar da, mühasirəni yarmağa cəhd göstərirlər. Bir neçə

saat davam edən döyüş zamanı Lautaro başda olmaqla, ispanlar hinduların hamısını qılıncdan keçirirlər. Villaqro bir "qalib" kimi hindularda vahimə yaratmaq üçün Lautaronun kəsilmiş başını Santyaqoda nümayiş etdirir.

Lakin buna baxmayaraq araukanlar kapitulyasiya etmədilər. İyirmi il müddətinə araukanlar peşəkarcasına at belində çapmağı öyrənir və həmin müddət ərzində xeyli at yetişdirərək, özlərinin süvari dəstələrini təşkil etməyə müvəffəq olurlar. Bununla da onlar ispanların taktiki üstünlüyünə son qoyurlar.

Lautarodan sonra araukanların ümumi rəhbəri qocaman Kaupolikan elan edilir. O, yarışların birində bütün gücünü çiynində araukaniya ağacının dirəyini daşımaqla, döyüşçülərin hüsn-rəğbətini qazanmışdır. Onun dözümlü və möhkəm olması araukanları fərəhləndirmişdi. Ümumiyyətlə, Kaupolikan şəxsi igidliyi, şücaəti, cəsarəti, mərdliyi və qəhrəmənlığı ilə fərqlənirdi. İspanlara qarşı mübarizədə ona bütün Araukaniya kömək edirdi, hətta qadınlar və uşaqlar da. Qeyd etmək lazımdır ki, araukan müharibələrində onlarla qadın xüsusi fədakarlıqla döyüşmüş və öz qəhrəmanlıqları ilə silahdaşları arasında xeyli fərqlənmişdilər. Kaupolikanın həyat yoldaşından biri Fresiya öz igidliyi ilə hətta ispanların özlərini heyrətə gətirmişdi. Onun fəaliyyətini, Ersiliya-i-Sunyiqa özünün gözəl poeması olan **"Arauka-**

na”da əks elətdirmişdi. Həlledici döyüşdə Fresiya döyüşçülərin sıralarında lap önə çıxaraq öz körpə uşağını yuxarı qaldırıb, əzəmətlə qışqırır: “Mən istəmirəm, biz isəmirik qorxaq kişilərin oğullarının anası olaq. Döyüşün, döyüşün mapuçelər!”

İspanlar bütün əyalətlərdən, Çilidə yerləşdirilən ispan ordusunun komandanı Qusman Qarsia Urtado de Mendosanın köməyinə əsgərlər göndəririlər. Lakin buna baxmayaraq araukanlar təslim olmurdular. Yalnız düşmən düşərgəsində satqınlar tapılanda və ispanlar artilleriyadan istifadə edəndən sonra, konkistadorlar qələbə əldə etməyə müvəffəq oldular. İspan dəstəsinin rəisi Alonso de Reynoso “gözəl konkistadorlar ənənəsi” ilə, artıq qocalmış və əldən düşmüş hindu rəhbəri ilə haqq-hesab çürüdür. Reynosonun əmri ilə Kaupolikanı anadangəlmə soyundurub dirəyə bağlayırlar və lazım olan məsafədən ispan əsgərləri birbirinin ardınca hindu rəhbərinin üstünə, nizə ataraq onu öldürürlər. Lautaronun şərəfli və layiqli sələfi bu cür həlak olur. Hazırda Kaupolikan Çili xalqının qəhrəmanı sayılır.

Hətta onun ölümü, araukanların silahlarını yerə qoymağa sövq etmir. Konkistadorların cəza tədbirləri, məğrur hindu tayfasını daha da hiddətləndirir və onlar 1561-ci ildə bir daha ümumi üsyana qalxırlar. Araukanlar yeni baş rəhbər sayılan Kolokolanın başçılığı altında, polkovnik Alonsonun

ekspedisiyası Mərkəzi Çili sahillərinə gələnə qədər, bir neçə dəfə müvəffəqiyyətlər əldə edərək ispanlara qarşı mübarizə aparırlar.

Yarım əsirlik müqavimət zamanı hər iki tərəf canlı qüvvə sarıdan xeyli itkilər vermiş, lakin istədiklərinə tam şəkildə nail ola bilməmişdilər. Araukanlar Bio-Bio çayından bir qədər aşağıda öz mövqelərini qoruyub saxlamışdılar, ispanlar isə bir qədər yuxarıda Vilyarrika, La İmperial və Valdiviya şəhərlərində qalıb möhkəmlənmişdilər.

Araukan müharibəsinin əsl tarixi ilə polkovnik Alonso, coğrafiyaşünas Bartolomeu və mərhum qoca səyyah Rodriges tanış idilər. Mərhum Rodriges bilavasitə həmin müharibənin iştirakçısı olduğu üçün, həmin tarixi tam şəkildə mənimsəmişdi və bu haqda həm Alonso, həm də Bartolomeunu lazımi məlumatlarla təchiz etmişdi. Bartolomeu isə Araukan müharibəsini öz əsərində əks etdirmək üçün bir başa qanlı döyüşlərdə iştirak etməyə öz razılığını bildirmişdi. Nəinki ispan içtimaiyyəti, hətta bütün Avropa bütün araukanların necə döyüşkən və mübariz olmalarından hali olmalı idi. Artıq bu haqda don Alonso Ersiliya-i-Sunyiqa həmin müharibənin bəzi incəliklərini öz poemasında əks etdirərək, İspaniyada yaşayan millətlərə bir çox məlumatları verməyə cəhd etmişdi. Alonso Ersiliyadan fərqli olaraq, Bartolomeu bir alim kimi araukanların müharibə zamanı

dövri fəaliyyəti və orada hərbi əməliyyatlarda iştirak etmiş insanlar haqqında dürüst məlumatlar verməyə böyük səy göstərmişdi.

Polkovnik Alonso təcrübəli və bacarıqlı bir sərkərdə kimi Mərkəzi Çili sahillərində, yarım əsrə yaxın bir müddət ərzində gedən qanlı mübarizəyə gözucu baxmamış, bu məsələyə ehtiyatla yanaşmışdı. Mərhum Rodrigesdən araukanlar barəsində ilkin məlumatları eşidəndən sonra o, İspaniyanın bir çox bölgələrində həmin hindu tayfası haqqında sənədli materiallar toplamağa başlamışdı. İlk növbədə onu həmin müharibənin iştirakçıları olan, canlı şahidlər möhkəm maraqlandırırdı. Polkovnikin mərhum qardaşı kapitan Xuan başçılıq etdiyi ekspedisiya ilə Kataloniya sahillərini tərk edəndən sonra, Alonso həmin şahidlərin axtarışı ilə İspaniyanın cənub əyalətlərinə yollanmış və şəhərlərin birində **"Araukana"** poemasının müəllifi sayılan ispan zabiti don Alonso Ersiliya-i-Sunyiqa ilə tanış olaraq, məğrur hindu tayfası barəsində özü üçün lazımlı məlumatlar əldə etmişdir. Çiliyə yola düşməmişdən əvvəl Alonso bir sərkərdə kimi, ekspedisiyaya ciddi hazırlaşır. Peru vitse-kralının yanında olarkən, araukanların ciddi müqavimətinə son qoymaq üçün mükəmməl hərbi plan hazırlanır. Həmin əməliyyat barəsində yalnız ekspedisiya rəisi, onun müavini və Çilinin general-kapitanı Onyes de

Loyola bilməli, bu haqda heç kimə xəbər verməməli idi. İş ondadır ki, əvvəlki döyüşlərdə ispanlar hərbi əməliyyatlara başlayanda onların nə edəcəklərini araukanlar əvvəlcədən hali olurdular. Silahlı toqquşma baş verəndə isə əksər hallarda, hücuma birinci olaraq konkistadorlar yox, araukanlar keçirdilər. Bu dəfə polkovnik Alonso düşmənə gözlənilməz və sarsıdıcı zərbə endirməyi planlaşdırmışdı. Həmin zərbə nədən ibarət idi?

Araukaniyada müharibə başlanandan bəri bütün hərbi toqquşmalar Bio-Bio çayının yaxınlığında baş verirdi. Araukanlar da konkistadorlara qarşı ən güclü pusquları ölkənin məhz həmin yerlərində qurur və istədikləri nailiyyətləri əldə edə bilirdilər. Bu dəfəki hücum əməliyyatı Anqud körfəzinin şimal hissəsində başlamalı və And dağlarına kimi dayanmadan irəliləməli, oradan isə Bio-Bio çayına qədər yürüş etməli idi. Eyni vaxtda isə general-kapitan Onyes de Loyolanın qoşunu Bio-Bio çayını keçib, Alonsonun qüvvəsi ilə Osorno vulkanının ətəyində görüşməli idi.

Birinci mərhələdə kapitan Xuan Odovaldonun başçılıq etdiyi ekspedisiya Anqud körfəzinin şimal sahilinə çıxaraq, məğrur araukanlara arxadan zərbə endirir, lakin həmin vaxtı Loyola öz qoşunu ilə gözləmə mövqeyi tutmuşdu. Bu da ki, Xuan Odovaldonun ekspedisiyasının faciəli surətdə darmadağın edilməsi ilə nəticələnir. İkinci mərhələdə əsir alınmış

silahdaşlarını azad etməkdən otrü, Araukaniyanın içərilərinə ölkənin şimal sərhədlərindən kəşfiyyat dəstəsi daxil olur və kor-təbii halda, aborigenlərlə konkistdorlar arasında qanlı döyüşlər başlanır. Polkovnik Alonso ümumi razılığa əsasən, böyük bir dəstə ilə Anqud körfəzinin şimal sahilinə çıxarılmalı, general-kapitan Loyola isə mobil qüvvələr ilə ölkənin şimal sərhədlərini keçməli idi. Həmişəki kimi araukanlar əsas qüvvələrini ölkənin şimal hissəsində yerləşdirmişdilər. Məhz buna görə də Alonso öz ekspedisiyası ilə Araukaniyanın mərkəzini işğal etməyə müvəffəq olmuşdu. Plana əsasən Loyola da şimal sərhəddində yerləşən düşmən qüvvəsini məhv etməli və ölkənin içərilərində Alonsonun ekspedisiyası ilə birləşməli idi. Lakin şimaldakı ispan dəstələri hindular üzərində qələbə əldə edə bilməmişdi. Bununla da araukanlar öz qoşununun bir hissəsini cənuba göndərmiş. Araukaniyanın mərkəzini Alonsonun döyüşçülərindən təmizləmişdilər. Deməli, Araukaniyadakı məğlubiyyətə görə nəinki qraf Ferdinand, hətta general-kapitan Onyes de Loyola da təqsirli bilinməli idi. Çünki məhz o, araukanların böyük bir hissəsini məhv edə bilməmişdi.

Araukaniyadakı məğlubiyyət nəinki Çilinin general-kapitanını və Perunun vitse-kralını, hətta İspaniyanın kralını da hiddətə gətirmişdi. Həmin məğlubiyyətdə bütün müharibə iştirakçıları təqsirləndirilirdi. Hamı kral qarşısın-

da bəraət qazanmaq üçün birbirlərini ittiham etməyə başladılar. Perunun vitse-kralı, Çilinin general-kapitanı Onyes de Loyolanı və İspaniyadan gələn ekspedisiyanın rəisi polkovnik Alonso Odovaldonu, Çilinin general-kapitanı polkovnik Alonso, polkovnikin öz köməkçisi qraf Ferdinand Morelosu, qraf isə ekspedisiya iştirakçılarının mərd və qəhrəman döyüşçülərini məğlubiyyətin baş verməsində ittiham edirdilər. Kral II Filipp isə həmin məsələni araşdırmaq üçün Peruya xüsusi nümayəndəsini göndərmişdi. Kral nümayəndəsi əsl təqsirkarları araşdırıb üzə çıxarmalı idi.

XXIII fəsil. Polkovnik Alonsonun Araukaniyadakı sonuncu hərbi əməliyyatı

Migel və onun dostları İspaniyaya yola düşməzdən əvvəl boş vaxtlarını Portobelonun limanında keçirirdilər. Əsasən onları burada yaranmış müstəmləkə qanunları və həmyerlilərinin yeni həyat tərzinə necə öyrəşdikləri maraqlandırırdı. Şəhər limanının cənubundakı fort və bastionlar ondan xəbər verirdi ki, heç də buradakı yaşayış məskunla-

şan ispanlar üçün sakit keçmir. Əsas təhlükəni aborigenlər yox, İngiltərədən gəlmiş korsarlar yaradırdı. Demək olar ki, hər il başqa limanlarda olduğu kimi ingilis korsarlarının gəmiləri Portobelo sahillərində görünürdü. Xüsusən də Frensis Dreykin və Con Xoukinsin başkəsənləri buradakı mülki əhalidə vahimə yaradır və onların dinc həyat sürmələrinə maneəçilik törədirdilər. Avropanın döyüş teatrlarında hamıya meydan oxuyan ispan əsgəri, burada fəaliyyət göstərən dəniz quldurlarının qarşısında aciz qalmışdılar. Əlbəttə, bunun birçə səbəbi vardı: korsarlar necə ki, sahil zolağına gözlənilməz və gizlin halda sahilə yaxınlaşaraq öz quldur əməllərini həyata keçirirdilər, eləcə də gözlənilməz və gizlin halda da yoxa çıxırdılar.

Migel limanda olarkən tez-tez polkovnik Alonso ilə görüşür və onunla dəniz quldurları haqqında maraqlı və lazımlı söhbətlər aparırdı. Alonso hər gün öz komandasına bacarıqlı və təcrübəli matroslar və mərd əsgərlər qəbul edirdi. O, istəmirdi ki, dəniz quldurları ilə toqquşma baş verən zaman peşəkar komandası düşmən qarşısında aciz görünsün. Əlbəttə, Migel də gələcəkdə belə bir komandanın yaradılmasını planlaşdırırdı. Alonsodan fərqli olaraq o, öz komandasının yarı heyətini İspaniyada, qalan heyətini isə Qızıl Kastiliya sahillərində təşkil etmək istəyirdi. Komandanın özəyini isə cavan idalqonun yaxın dostları və

silahdaşları təşkil etməli idi. Kapitan Manuel Markos mülki gəminin rəisi olsa da, Migel onu öz köməkçisi təyin etməyi qərarlaşdırmışdı. Çunki o, dənizçilik işlərində kifayət qədər təcrübə toplamış və gəmi idarəçiliyində hər an Migel üçün yararlı kadr sayıla bilərdi.

Öz planlarını həyata keçirmək üçün o, tezliklə İspaniya sahillərinə yola düşməyi planlaşdırırdı. Mərhum babası Rodrigesin əldə etdiyi kapitala keyfiyyətli gəmi almalı və təcrübəli dənizçilərdən ibarət heyət təşkil etməli idi. Lakin nə Migel, nə də ki, onun dostları bilmirdilər ki, artıq Morelos ilə Odovaldo qardaşları İspaniyaya yola düşüblər. Onların isə vaxtından əvvəl Barselonada peyda olmaları Migelgil üçün yeni sürprizlərin hazırlanmasına gətirib çıxaracaq. Çünki Migel ilə onların arasındakı şəxsi ədavət hələ də davam etməkdə idi.

Araukaniyada gedən müharibədə qəhrəman kimi çıxan dostlar öz vətənlərində keçmiş silahdaşları tərəfindən hazırlanan xəyanətkarlıqla üzləşə bilərdilər. Çünki nə Morelos, nə də ki, Odovaldo qardaşları onlara qarşı edilən pisliklərі unutmur və həmişə də çalışaçaqlar ki, həmin pisliklərin əvəzini özlərinin potensial rəqiblərindən çıxsınlar. Baxmayaraq ki, Migel öz həyatını risqə qoyaraq, onları əsirlikdən azad edilmələri üçün böyük səy göstərmişdir. Lakin bu yaxşılıqlar rəqiblər tərəfindən azacıq da olsun nəzərə

alınmırdı. Öz vətəninə alnıaçıq və başıuca qayıdan Migel bilmirdi ki, doğma yurdunda onu hansı sürprizlər gözləyir. Halbuki o, uşaqlıqdan bilirdi ki, ispan xalqı vətənə qayıdan mərd və qəhrəman oğullarını necə tamtəraqla və şərəflə qarşılayır. İgidlərin adları həmişə şərəflə çəkilir və xatirələri ehtiramla yad edilirdi.

Migelin silahdaşları arasında böyük hüsn-rəğbət qazanması onun şəxsi rəqiblərinin paxıllığına səbəb olurdu. Onlar hər an cavan zadəganın şərəf və ləyaqətini alçaltmağa, onun şanlı adını ləkələməyə və həmyerliləri qarşısıda gözdən salmağa hazır idilər. Bir sözlə, Migel doğma vətənində böyük bir xəyanətkarlıqla üzləşə bilərdi.

Bacarıqlı sərkərdə üzərinə düşən missiyanın öhdəsindən müvəffəqiyyətlə gəlmişdir və kral tərəfindən verilən növbəti tapşırıqların icrasına başlamışdır. Eldorado ölkəsinin varlığı Alonsoda böyük şübhə doğurmuşdu və o, bu haqda İspaniya kralına lazımi məlumat göndərmişdi. Hazırda polkovnik korsarlara qarşı kəskin mübarizəyə başlamaq üçün yeni ekspedisiyanın yaradılması ilə məşğul idi.

Əvvəlki ekspedisiyanın sağ qalmış üzvləri Konsepsionda məskən salandan sonra, Alonso peşəkar döyüşçüləri özünün növbəti ekspedisiyasına dəvət etmək üçün həmin şəhərə qasid göndərdi. Bir çox idalqolar çox məmnuniyyətlə tanınmış sərkərdə ilə növbəti ekspedisiyada iştirak etməyə

öz razılıqlarını bildirdilər. Alonso belə bir dəvəti İspaniyaya yola düşməyə hazırlaşan Markosgilə də verdi. Xüsusən də o, Migelin həmin ekspedisiyada iştirak etməsini arzulayırdı. Lakin Migel babasının mülkini öz adına keçirmək üçün hökmən Barselonaya gedəcəyini və ondan sonra öz şəxsi gəmi komandasını yaratmaqdan ötrü İspaniyanın limalarına səyahət edəcəyini bildirdi. Alonso çox yaxşı bilirdi ki, Migel də fərdi üsulda dəniz quldurlarına qarşı mübarizə aparmaq üçün yaxın gələcəkdə Karib dənizində uzunmüddətli fəaliyyətə başlayacaq. Alonso əmin idi ki, Migel dəniz quldurlarına qarşı mübarizədə böyük uğur qazanacaq. Çünki cavan zadəgan ən ağır doyüşlərdə belə müvəffəqiyyət qazanmaq imkanına malik olurdu, sanki Allah-taala özü onu bütün qada-bəlalardan və ən əsası ölümdən qoruyurdu. Bir çoxlarına nisbətən Migel ən ağır döyüş əməliyyatlarında iştirak edərək, bir neçə dəfə ekstremal vəziyyətlərə düşmüşdür və bir dəfə də olsun yaralanmamış, hələ əlavə olaraq öz silahdaşlarını ölümün pəncəsindən xilas etmişdir.

Bütün ekspedisiya iştirakçıları arasında Migel qəhrəman bir igid kimi ad-san qazansa da o, həmin müharibədə iştirak etməsinə görə möhkəm peşimançılıq çəkirdi. Ona görə ki, bu müharibədə o, atasını, babasını, uşaqlıq dostu Sebastyanı və bir çox tanışlarını itirmişdi. Yerli hinduları qılıncdan

keçirdiyinə görə Migel müəyyən dərəcə vicdan əzabı çəkirdi. Artıq o, anlamışdı ki, İspaniya krallığının düşmənləri bu torpaqda anadan olub boya-başa çatan hindular deyil, İspaniyanın mənafeyinə toxunan, maddi maraqlarını qıran, ticarətinə ziyan vuran, vətəndaşlarına qarşı amansız vəhşiliklər törədən dəniz quldurlarıdır. Məhz belə bir cinayətkar ünsürlərə qarşı mübarizə aparmaqla o, özünün vətəndaşlıq borcunu yerinə yetirmiş olacaq. Dəniz quldurlarına qarşı mübarizəni başa çatdırandan sonra Migel dəniz səyahətləri ilə məşğul olacaq. İspaniyanın bayrağı altında kəşf ediləcək yeni torpaqlar həm coğrafiya, həm tarix elminə, həm də krallığına böyük xeyir gətirəcək.

Polkovnik Portobeloda olarkən korsarlara qarşı mübarizə aparmaq üçün demək olar ki, öz komandasını tam təşkil etmişdi. Tam fəaliyyətə başlamaqdan ötrü ona yalnız keyfiyyət baxımından çox möhkəm olan gəmi lazım idi. Artıq kapitan Filipp Odovaldo başçılıq etdiyi "Vanquardia" gəmisi ilə həmin əməliyyatda iştirak etmək üçün öz razılığını bildirmişdi, lakin onun gəmisi demək olar ki, tam yararsız idi. "Vanquardia" kimi köhnə bir gəmi ilə əməliyyata yollanmaq hər bir ispan dənizçisinin həyatı üçün böyük təhlükə yaradırdı. Lakin Alonso əvvəlcədən planlaşdırdığı kimi Karib dənizində fəaliyyətə başlamaq üçün iki gəmidən istifadə etməli olacaq. Deməli, "Vanquardia"

köməkçi bir gəmi kimi ekspedisiyanın tərkibində qalacaqdır. İkinci gəmi isə, bu birisindən xeyli fərqlənməli idi.

Alonso Portobeloda gəmi axtarışı ilə məşğul olanda birdən ona bildirdilər ki, Çilinin general-kapitanı Onyes de Loyola və kralın xüsusi nümayəndəsi polkovniki təcili surətdə Santyaqoya çağırırlar. Özü də ki, Alonso oraya, ixtiyarında olan bütün əsgərlərlə gəlməlidir. Nizam-intizama bir zabit kimi həmişə riayət edən polkovnik tərəddüd etmədən Qızıl Kastiliyanın Sakit okean sahilinə yollanır, oradan isə birbaşa Santyaqoya üz tutur.

Santyaqoda Alonsoya kral II Filippin Çilinin general-kapitanına ünvanladığı məktubu verirlər. Naməni oxuyandan sonra o, dəhşətə gəlmişdi. Araukaniyada gedən müharibənin nəticəsi kralı hiddətə gətirmiş və həmin müvəffəqiyyətsizlikdə İspaniyanın zəhimli monarxı birbaşa polkovnik Alonsonu ittiham edirdi. Kral qarşısında günahlarını yumaq üçün o, ixtiyarında olan bütün qüvvələri toplayıb Çilinin hakimi ilə birlikdə, Bio-Bio çayından bir qədər aşağıda olan araukanların strateji cəhətdən möhkəm və lazımlı sayılan mövqeləri ələ keçirməli və heç olmasa həmin mövqelərdə möhkəmlənməlidirlər. İş ondadır ki, son döyüş əməliyyatları zamanı konkistadorların darmadağın edilərək məhv olunmasına dair kral nümayəndəsi birtərəfli istintaq aparmış və həmin məğlubiyyətlərdə yalnız bacarıqlı

sərkərdəni ittiham etmişdi. Heç kimin qarşısında əskilməyi xoşlamayan, xüsusən də ona qarşı nahaq ittiham sürüləndə, Alonso özünü lazımi səviyyədə müdafiə etməyə can atır və öz oponentlərini dialoq vasitəsilə düzgün mövqedən çıxış etmədiklərini sübuta yetirirdi. O, çox yaxşı bilirdi ki, bu işdə Çilinin general-kapitanı xüsusi rol oynayaraq, döyüş zamanı baş verən uğursuzluqlarda özünün günahı olmadığını sübuta yetirməyə çalışmışdı. Həmin məsələ qaldırılan zaman Alonso hər ikisinə qətiyyətlə bildirmişdir ki, həmin məğlubiyyətlərdə heç bir günahının olmadığına baxmayaraq, o, can-başla kralın verdiyi tapşırığı yerinə yetirəcək. Bu fikirlə razılaşmayan kral nümayəndəsi polkovnikə dedi:

- Don Alonso, Araukaniyaya hücum iki istiqamətdə başlamışdı şimal və cənub-qərb. Bildiyiniz kimi don Onyes de Loyolanın başçılıq etdiyi qoşunlar Bio-Bio çayından aşağıda yerləşən düşmən mövqelərini ələ keçirmişdi və Araukaniyanın işğalını başa çatdırmaq üzrə idi. Yalnız sizin ekspedisiya cənubda ələ keçirilən mövqeləri düşmənə təhvil verdikdən sonra şimaldakı mövqelər bir-birinin ardınca itirildi. Mənə elə gəlir ki, artıq izahata ehtiyac yoxdur.

- Don Alonso, keçmişdə nə baş veribsə, mən hər şeyi yaddan çıxarmağa hazıram. - Onyes de Loyola rişxəndlə dilləndi. - İndi birgə əməliyyatlar barəsində düşünmək lazımdır.

Əlbəttə, polkovnik ona qarşı yürüdülən qərəzli fikirlərlə razılaşa bilməzdi. Çünki danışıqlardan aydın başa düşmək olurdu ki, həmsöhbətləri olmayan bir şeyləri onun boynuna yıxmaq istəyirlər. Alonso üzünü kral nümayəndəsinə tərəf tutaraq qürurla dedi:

- Gün kimi aydındır ki, Araukaniyada gedən müharibədə baş verən uğursuzluqlarda mənim heç bir taqsirim yoxdur. Bunu siz bilməsəniz də, general-kapitan Onyes de Loyola çox yaxşı bilir.

– Axı, siz əldə edilən qələbəni, cənubda fəaliyyət göstərən ekspedisiyanın uğursuzluğu nəticəsiində əldən verdiniz. - deyə kral nümayəndəsi hüzünlə dilləndi. - İndi həmin qələbini təzədən əldə etməliyik.

- Sizə bildirmək istəyirəm ki, cənubda fəaliyyət göstərən ekspedisiya lazımi qələbəni əldə etmişdi. - deyə Alonso qamətini şax tutaraq qətiyyətlə dilləndi. - Sadəcə olaraq bizə kömək gəlmədiyindən araukanlar bütün cəbhə boyu hücuma keçərək, öz torpaqlarını azad etməyə müvəffəq oldular. Birincisi, biz öhdəmizə düşən missiyanı yerinə yetirərək, Araukaniyanın mərkəzinə doğru irəlilədik. İkincisi, biz işğal edilmiş ərazidə dövlət inzibati orqanlarını yaratdıq. Üçüncüsü, qüdrətli kralımız olan əlahəzrət II Filippin növbəti tapşırıqlarını yerinə yetirmək üçün Araukaniyanın işğal edilən mövqelərimizi kapitan qraf

Ferdinand Morelosa təhvil verərək, Qəraib dənizi sahilinə yollandım. Dördüncüsü, general-kapitan Onyes de Loyolanın başçılıq etdiyi qüvvələr Bio-Bio çayını keçəndən sonra araukanların bütün dəstələrini darmadağın etməli və bizim qüvvələr Araukaniyada birləşməli idi. Təəssuflər olsun ki, general-kapitan həmin işin öhdəsindən gələ bilmədi.

- Cənab polkovnik, siz sözlərinizdə yanılırsınız. - Çilinin hakimi ayağa qalxaraq dərhal öz etirazını bildirdi. - Mənim ixtiyarımda kifəyət qədər qüvvə yox idi ki, arxanı boş boşuna qoyaraq Araukaniyanın mərkəzinə qədər irəliləyim. Hamı çox yaxşı bilir ki, araukanlar əsas qüvvələrini ölkənin şimalında yerləşdirmişdilər, 7-8 ay müddətinə isə onların qüvvəsi təxminən üç dəfə artmışdı. Belə bir təhlükəli sindrom ilə mən üzləşə bilməzdim. Onlar hər tərəfdən bizi mühasirəyə ala bilərdilər.

- Don Onyes, etiraf etməlisiniz ki, müəyyən səhvlərin ucbatından biz Araukaniyada tam qələbə əldə edə bilmədik. - deyə Alonso həmsöhbətinə iti bir nəzər salaraq aludəliklə dilləndi. - Araukaniyada döyüş əməliyyatları başlayan kimi siz dayanmadan ölkənin içərilərinə irəliləməliydiniz. Lakin siz azacıq bir yürüşdən sonra şimalda gözləmə mövqeyi tutdunuz. Sizin fəaliyyətsiz halda bir yerdə durmağınız, düşmənin qruplaşmasına imkan yaratdı və araukanlar 7-8 aydan sonra sizin tutduğunuz mövqelərə hücum etdilər.

Anqud körfəzi olmasa idi, mənim də ekspedisiyam mühasirəyə düşərdi. Hindular bizim zəif yerlərimizi müəyyənləşdirəndən sonra geniş miqyaslı hücuma keçdilər. Qraf Ferdinandın düzgün taktika seçə bilməməsi, əsgərlərimin məğlubiyyəti ilə nəticələndi.

- Cənab polkovnik, mən sizi bacarıqlı bir sərkərdə kimi tanıyırdım. - deyə Onyes hüznlə dilləndi. - Öz günahınızı mənim boynuma yıxmayın. Araukaniyanın hüdudlarını mən yox, birinci olaraq sizin başçılıq etdiyiniz ekspedisiya tərk etmişdi.

- Mənim ekspedisiyam lazımi qədər Araukaniyanı əldə saxlamışdır. - deyə Alonso öz hiddətini gizlədə bilmədi və kral nümayəndəsinə ötəri nəzər salaraq həmin tərzdə sözünə davam etdi. - Sadəcə olaraq, kömək gəlmədiyindən əsgərlər oranı tərk etmək məcburiyyətində olmuşdular. Şimalda yerləşən qüvvələrdən fərqli olaraq, mən öhdəmə düşən ərazini işğal edənə qədər yalnız hücum taktikasından istifadə etməmişəm. Mən həmin əraziləri işğal edəndən sonra bütün strateji mövqelərini və yaşayış obyektlərini qraf Ferdinanda təhvil vermişdim. O, isə əlavə qüvvə gəlməmişdən əvvəl, ilk növbədə peşəkar döyüşçülərin bir hissəsini ekspedisiyadan tərxis etmişdi. Müdafiə xətti hərtərəfli elə bil ki, süni şəkildə zəiflədilmişdi. Şimaldakı qüvvələrin fəaliyyətsizliyini və cənubdakı qüvvələrin

zəiflədiyini görən araukanlar, bütün cəbhə boyu hücuma keçirlər.

Kral nümayəndəsi hiddətə gəlmiş Alonsonu dinləyəndən sonra başa düşdü ki, bütün müvəffəqiyyətsizliklərdə birbaşa general-leytenant de Loyolanın və kapitan qraf Odovaldonun taqsırları var. Polkovnik Alonso həqiqətən də kral II Filippin verdiyi tapşırığın öhdəsindən artıqlaması ilə gəlmişdi. Lakin sonrakı proseslər göstərir ki, araukanlar ispanların buraxdığı səhvlərdən istifadə edərək, ildırım sürəti ilə hücuma keçir və itirilmiş mövqeləri geri qaytarmağa müvəffəq olublar.

Vəziyyəti belə görən kral nümayəndəsi, hələlik bu işdə heç kimi günahlandırmaq istəmirdi. O, hər bir idalqoya və zabitə şans verirdi ki, növbəti hərbi əməliyyat zamanı günahlarını öz qanları ilə yusunlar. Bəlkə, onlar döyüş meydanlarında göstərəcək şəxsi igidlik sayəsində kral qarşısında bəraət qazandılar. Uğurlu nəticələr əldə etmək üçün kral nümayəndəsi söz mübadiləsinə çıxan hər iki qrandı bir-biri ilə barışdırmalı, hərbi əməliyyatların müzakirəsinə keçməli və Perudan əlavə qüvvə almaq üçün Limaya yollanmalı idi. O, hər iki qrandın arasında dayanaraq ehtiramla dedi:

- Mənim sizin hər ikinizə böyük hörmətim var. Keçmişdə nə baş veribsə, çalışın yaddan çıxarın. Hazırda

kral sizdən yalnız qələbə gözləyir. İtirilmiş mövqelər geri qaytarılmalıdır.

- Tam arxayınlıqla deyə bilərəm ki, biz Araukaniyanın bütün ərazisini işğal edə bilməyəcəyik. - deyə Alonso burada baş verən bütün reallığı nəzərə alaraq aludəliklə dilləndi. - Orada yaşayan hindu tayfası, uşaqdan tutmuş qocaya kimi hamı müharibəyə qalxıbdır. Onlar vaxtı ilə alman tayfalarının Roma imperiyasının legionlarına qarşı göstərdikləri müqaviməti bizə qarşı tətbiq edirlər. Araukaniyadakı hərbi vəziyyət, heç də İspaniyada düşünülmüş kimi deyil. Düşmən həddindən artıq mübarizdir.

- Əlahəzrət II Filippin yanında olan hörmətinizi yenidən qaldırmaq üçün İspaniyaya yalnız qələbə ilə qayıtmalısınız. - deyə kral nümayəndəsi onların hər ikisinə iti nəzər salaraq ciddi halda dilləndi. - Əks təqdirdə, siz kralın qəzəbindən yaxa qurtara bilməyəcəksiniz. Bizim qüdrətli kralımızın xasiyyətinə hər ikiniz bələdsiniz.

Alonsodan fərqli olaraq, Çilinin hakimi bu xəbərdarlıqdan yerindəcə büdrədi və bir anlığa dili tutuldu. Sanki II Filipp qonşu otaqda dayanaraq zəhimli baxışları ilə onu süzürdü. Doğurdan da rəzil hökmdar sayılan II Filippin qəzəbindən yaxa qurtarmaq qeyri-mümkün iş sayılırdı. Lakin Alonso öz sərbəstliyini saxlaya bildi və heç bir şeyə əhəmiyyət vermədən həqiqəti söyləmək üçün ehtirasla dedi:

- Qüdrətli kralımız mənim sərkərdəlik bacarığıma şəxsən bələddir və o, yaxşı bilir ki, ağzımdan çıxan sözləri elə-belə havaya söyləmirəm. Düzdür, kral Çilidə fəaliyyət göstərən ekspedisiyalardan yalnız qələbə gözləyir. Biz həmin qələbəni Araukaniyanın müəyyən bir ərazisini işğal etməklə əldə edə bilərik. Bütün ölkəni işğal etmək mümkün olmayacaqdır. Bunun üçün Araukaniyada yaşayan uşaqdan tutmuş qocaya kimi hamı qılıncdan keçirilməlidir. Lakin bunu da etmək mümkün deyil. Ona görə ki, onlar yaşadıqları ərazinin coqrafi quruluşuna tam bələddir və bilavasitə And dağlarından qalxan kimi istifadə edirlər. Əhalinin isə Araukaniyanın keçilməz yerlərində təqibi çox güman ki, bizim məğlubiyyətimiz ilə nəticələnəcəkdir.

- Don Alonso, bəs çıxış yolunu nədə görürsünüz? - deyə kralın göndərdiyi nümayəndə xüsusilə maraqlandı.

- Döyüş əməliyyatlarında müvəffəqiyyətlər əldə etmək üçün biz hökmən, vaxtı ilə Pedro Valdiviyanın araukaniya müharibəsində düşmənə qarşı tətbiq etdiyi taktikadan istifadə etməliyik. - deyə Alonso dərindən nəfəsini alaraq tələsmədən dilləndi. - Çaşdırıcı manevrdən istifadə edərək əsas mobil qüvvələrlə şimal tərəfdən Araukaniyaya daxil olmalı və bir-birindən uzaq məsafədə yerləşməyən qala-istehkamlar tikdirməliyik. Yalnız həmin hərbi məntəqələrin vasitəsi ilə biz ölkənin şimal hissəsində kök salmalı və

yavaş-yavaş həmin üsul ilə cənuba doğru irəliləməliyik. Mən İspaniyanı tərk etməmişdən əvvəl orada bu müharibənin iştirakçısı və səlnaməçisi olan don Alonso Ersiliya-i-Sunyiqa ilə müəyyən məsləhətləşmələr aparmışam. O, araukanların tam məğlubiyyətinə inanmasa da, lakin belə bir taktikaya üstünlük verir.

Alonsonun izahatı kral nümayəndəsini qane etdiyindən o, təqdiredici tərzdə başını tərpədirdi. Çilinin hakimi isə bu izahata laqeydliklə yanaşaraq, polkovnikə tərəf belə nəzər salmaq istəmirdi. Daha doğrusu o, sərkərdəyə bəslədiyi kin-küdurəti açıqdan-açığa biruzə verirdi. Kral məmuru izahatdan tam məmnun olduğunu sifətindəki çizgilərlə ifadə edərək, bəzi nüansları aydınlaşdırmaqdan ötrü təmkinlə soruşdu:

- Don Alonso, çaşdırıcı manevr dedikdə siz nəyi nəzərdə tutursunuz? Mən nə isə bunu tam anlaya bilmədim.

- Yəni, mobil qüvvələr hücuma keçməmişdən əvvəl biz araukanların fikrini başqa bir istiqamətə yönəltməliyik. Araukanlar bizim ekspedisiyaların 1590 və 1591-ci illərdə Anqud körfəzi tərəfindən hücuma keçdiyini heç də unutmayıblar. Biz həmin taktikaya üstünlük verməliyik. Bu məsələyə tam aydıqlıq gətirmək üçün bildirməliyəm ki, şimalda döyüş əməliyyatlarına başlamazdan əvvəl Anqud körfəzinə iki gəmi göndərməliyik. Həmin gəminin

komandaları hissə-hissə sahilə çıxmalı və oradakı fortda mövqe tutmalıdırlar. Araukanlar bu dəfə də elə biləcəklər ki, körfəzin şimal sahilindən ölkənin içərilərinə yürüş hazırlanır və əsas qüvvələrini həmin ərazidə yerləşdirməyə məcbur olacaqlar. Hinduların başı Anqud körfəzi sahilinə qarışandan sonra biz şimal istiqamətində bütün cəbhə xətti boyu hücuma keçərik və istədiyimiz mövqeləri asanlıqla zəbt edərik. Bunun üçün heç olmasa 100 nəfərdən ibarət olan süvari dəstəsi, araukanların arxa cəbhəsində düşmənə sarsıdıcı zərbə endirməlidir.

- Uğurlu nəticə əldə etmək üçün düşmən üzərinə gözlənilmədən, ildırım sürətilə hücum edilməlidir? - deyə kral məmuru tələsik halda dilləndi.

- Əlbətdə! - deyə Alonso ehtirasla təsdiqlədi.

General-kapitan masanın arxasında dayanaraq Çilinin xəritəsini diqqətlə nəzərdən keçirdi. Oradakı yaşayış məntəqələrinin necə yerləşdiyinə baxa-baxa daxilində nə isə götür-qoy edirdi. Sanki o, öz beynində hansısa hücum planını cızırdı. Alonso izahatını başa çatdırandan sonra Onyes üzünü kral məmuruna tərəf tutaraq narazı halda:

- Siz burada, yalnız düşmənə qarşı gözlənilməz hücum əməliyyatı barəsində düşünürsünüz. Lakin bildirmək istəyirəm ki, Çilidə vəziyyət başqa cürdür. Araukanlar demək olar ki, bütün strateji yüksəkliklərə sahiblik edir,

Arauko, La-İmperial və Valdiviya şəhərlərini mühasirə altında saxlayır, Kosepsion və ona yaxın olan yaşayış məntəqələrinə nadir hallarda olsa da, hücumlar təşkil edirlər. İlk növbədə biz araukanları həmin mövqelərdən vurub çıxarmalıyıq.

- Don Onyes, mən Çiliyə ayaq basan kimi öz yaxın adamlarımdan buradakı hərbi durum haqqında bütün məlumatları toplamışam. - Alonso dilləndi. - Gəmilər Anqud körfəzinə daxil olandan sonra, araukanlar adı çəkilən məntəqələrdə, dəstələrin bir çoxunu ölkənin cənubuna aparmalı olacaqlar. Yəni, onların şimaldakı tutduqları mövqelər xeyli zəiflədiləcək. Biz də fürsətdən istifadə edərək, düşmənin oradakı dəstələrini gözlənilməz hücum nəticəsində darmadağın edəcəyik. Lakin indidən bildirmək istəyirəm ki, nəzərdə tutduğum plan həyata keçirilsə, yəni araukanlar, bizim üçün təhlükəli olan məntəqələrdən vurub çıxarılandan sonra, mən kralımızın növbəti əmrini yerinə yetirməkdən ötrü, Qızıl Kastiliya sahillərinə yollanacağam. Mənə elə gəlir ki, don Onyes de Loyola mənsiz də həmin məntəqəni əldə saxlaya biləcək və hətta Araukaniyanın mərkəzinə qədər ölkənin işğalını davam etdirəcək. Necə olsa da, onun ixtiyarında kifayət qədər döyüşçü qüvvəsi var ki, əlahəzrət II Filipp üçün lazım olan qələbəni əldə edə bilsin. Onsuz da son illər ərzində gedən qanlı döyüşlər

nəticəsində araukanlar xeyli canlı qüvvə itiriblər. Mən əminəm ki, biz İspaniya və kral II Filipp üçün lazım olan şad xəbəri Pireney yarmadasına aparıb çıxaracayıq.

- Don Alonso, tam arxayınlıqla sizə söz verirəm ki, Çilinin şimalında strateji mövqeləri don Onyes de Loyolaya təhvil verəndən sonra, siz növbəti tapşırığı yerinə yetirmək üçün Qızıl Kastiliyaya yollana bilərsiniz. Lakin hücum əməliyyatları tezliklə başlanmalıdır.

Həmin diskussiyadan sonra Alonso vaxtı ilə tabeliyində olan bütün döyüşçüləri Valdiviyaya toplamağa başladı. Çilinin şəhərlərində qalan əsgərlər çağırış xəbərini eşidən kimi böyük bir canfəşanlıqla Valdiviyaya axışırdılar.

XXIV fəsil. Araukaniaydakı qanlı döyüşlər səngisə də, müharibə hələ də başa çatmır

Polkovnik Alonsonun gəlişi ilə Valdiviyada konkistadorlar arasında böyük canlanma baş verdi. Əsasən köhnə döyüşçülər (birinci ekspedisiyanın iştirakçıları) sərkərdənin ətrafında sıx birləşir və cavan silahdaşlarına təsəlli

verirdilər. Elə üçüncü ekspedisiyanın avanqard dəstəsini məhz həmin döyüşçülər təşkil edirdi. Başqa şəhərlərə nisbətən, Santyaqoda məskunlaşmış, əli silah tuta bilən mühacirlər araukanlara qarşı aparılacaq döyüş əməliyyatlarında iştirak etməkdən boyun qaçırırdılar. Xüsusən də qraf Ferdinand sağ qalmış ekspedisiya iştirakçıları ilə Araukaniyanı tərk edəndən sonra ispanlar orada aparılan müharibənin perspektivsizliyini anlayaraq, könüllü dəstələrə yollanmırdılar. Çünki hamı çox yaxşı bilirdi ki, İspaniyanın cəza dəstələri Araukaniyada verilən canlı itkilər qədər, Missisipi və Missiuri çaylarının aşağı axınından tutmuş, ta ki, Odlu torpağa qədər olan nəhəng ərazidə, itki verməmişdilər. Oraya göndərilən ekspedisiyaların əksəriyyəti geriyə yalnız məğlub qismində qayıtmışdılar. Növbəti ekspedisiyanın da uğur qazanmasına hamı şübhə ilə yanaşırdı. Özü də araukanlar Bio-Bio çayının həm sağ, həm də sol sahilində geniş hücum əməliyyatlarına başlamışdılar. Xüsusən də hinduların dəstəsi ispan yaşayış məntəqələrinə yaxınlaşaraq oralarda diversiya aktlarını həyata keçirirdilər. Bir sözlə, araukanlar öz döyüşkənliyi və yenilməzliyi ilə ispanların arasında böyük simpatiya yaratmışdılar. Onların yenilməz iradəsi, mübarizə ideyası ölkələrinin müstəqilliyini qoruyub saxlamış və yadelli işğalçıların məhz həmin torpaqda faciəli məzar daşının bünövrəsini qoydular.

Yeni döyüş əməliyyatlarına hazırlaşan Alonso bir çox zabitlərdən yaxşı anlayırdı ki, araukanlara qarşı aparılan müharibə ispanlar tərəfindən uduzulacaq. Lakin buna baxmayaraq o, Bio-Bio çayından bir qədər cənubda yerləşən torpaqları işğal etməyi planlaşdırırdı. Bacarıqlı bir sərkərdə kimi çox yaxşı bilirdi ki, o, öz istədiyinə nail olsa belə, gələcəkdə araukanlar öz mübarizəsi ilə həmin torpaqlardan ispanları azad edəcəklər. Həmin müvəffəqiyyətsizlikdə isə, İspaniya kralı yalnız Çilinin hakimini günahlandıracaq.

Bəzi konkistadorlar Çilini tərk edib İspaniyaya yollandıqları halda, onların silahdaşları növbəti ölüm-dirim savaşına hazırlaşırdılır. Kapitan Filipp Odovaldonun başçılığı altında Anqud körfəzinin şimal sahilinə iki hərbi gəmi göndərildi. Çaşdırıcı manevri həqiqətə oxşatmaqdan ötrü dərhal sahilə 80 nəfərdən ibarət desant çıxarıldı və onlar sahildən vaxtı ilə yerləşmiş, araukanlar tərəfindən yandırılmış, fortun bərpasına başladılar. Düşmənin fikirlərini özlərinə cəlb etmək üçün sahildə görünən kiçik hindu dəstəsi intensiv surətdə gəmilərdəki toplardan atəşə tutulurdu. İspanların hücumlarını elə sahildəcə dəf etməyə hazırlaşan araukanlar, Anqud körfəzi sahilinin ətrafında kiçik dəstələrini yerləşdirməyə başladılar. Bunun üçün ölkənin şimalında ispanlara qarşı döyüşən hinduların demək olar ki,

yarısı dislokasiya yerlərini dəyişməli oldular. Çünki ölkənin şimalındakı ispan döyüşçüləri müdafiə olunmağa üstünlük verirdilər.

Buradakı vəziyyətin öz planı üzrə cərəyan etdiyini görən polkovnik Alonso Odovaldonun başçılıq etdiyi 120 nəfərlik süvari dəstəsini iki hissəyə bölərək, iki istiqamətdə araukanların üzərinə göndərdi. Özü isə 250 nəfərlik, sırf peşəkar döyüşçülərdən ibarət olan piyada dəstəsi ilə Valdiviyadan La-İmperial şəhərinə, oradan isə daha da cənuba yollandı. Araukanlar ispanların, böyük bir qüvvə ilə şimaldan hücumunu gözləməsələr də, lakin layiqincə tam müqavimət göstərməyə hazır idilər. Pusqu döyüşlərinə üstünlük verən hindular özlərinin böyük dəstələrinin mühasirəyə düşməsindən ehtiyat edərək, tez-tez kiçik dəstələrlə hücuma keçir və ispanların sərbəst hərəkətlərinə maneəçilik törədirdilər. Onlar əsasən ispanların süvari dəstəsinin diqqətini özlərinə cəlb etməyə səy göstərirdilər. Kapitan Alonso isə araukanları sürətli manevrdən məhrum etmək üçün, düşmənin süvari dəstəsini məhv etməyə çalışırdı. Hinduların süvariləri ispanlara böyük təhlükə yaradırdılar və çox zaman ərzaq daşıyan arabalara hücum edirdilər.

General-kapitan Onyes de Loyola 300 nəfər ispan və 600 nəfərlik hindu dəstəsi ilə (həmin hindular əsasən Perudan

gətirilmişdi) Vilyarrikadan Purenə, oradan isə Tukapelin xarabalıqlarına yollanır. Araukanların hamısı kiçikdən tutmuş böyüyə kimi hamı mübarizəyə qalxır və sərbəst hərəkət üçün yararlı olan məntəqələrdən ispanların üzərinə hücum edirlər.

Anqud körfəzinin şimal sahilinə çıxarılan ispan dəstəsinin fəaliyyətsizliyini görən hindular başa düşdülər ki, onlar düşmən tərəfindən aldadılıblar. Şimaldan cənuba doğru hərəkət edən ispan dəstələrinin hücumunu dayandırmaq üçün araukanlar Anqud körfəzi ətrafında yerləşən döyüşçülərin sayını iki dəfə azaldaraq, onları şimala doğru göndərirlər. Həm də bunun üçün əsas səbəb konkistadorların Bio-Bio çayından xeyli aralanmaları idi. Arxanı möhkəmlətmək üçün hökmən qala-iqamətgahlar salınmalıydı. Havalar soyuyana qədər ispanlar qərb və şərq tərəfdə bir-birindən 25 km. aralı iki qalanın tikintisinə başladılar. Qalaların tikilişi başa çatandan sonra növbəti il üçün hücum əməliyyatı davam etdirilməli idi. Onyes de Loyolanın fikrincə, o, bu işin öhdəsindən polkovnik Alonso olmadan belə, gələ bilərdi.

Bu il üçün döyüş əməliyyatlarını uğurlu keçirən Alonso Çilini tərk etməyi qərara alır. Əlbətdə, İspaniyadan gəlmiş kral məmuru bacarıqlı sərkərdənin buradakı fəaliyyətindən tam razı idi və onun nailiyyətləri barəsində II Filippə

xüsusən təqdimat yazdı. Polkovnik Alonsonun sonuncu döyüşlər zamanı göstərdiyi şəxsi igidliyi, qəhrəmanlığı, hərbi strategiyası və taktikası, sərkərdəlik bacarığı kral qarşısında ona bəraət qazandırdı və o, alınıaçıq öz vətəninə qayıda bilərdi. İndi Çilidəki bütün məsuliyyət Onyes de Loyolanın üzərinə düşürdü. Əgər, araukanlar itridikləri mövqeləri ispanlardan geri qaytara bilsələr, onda Çilinin hakimi İspaniyanın zəhimli monarxı qarşısında başı ilə cavab verməli olacaqdır. Çünki xüsusi təqdimatda göstərilir ki, növbəti il üçün general-kapitan Onyes de Loyola yeni torpaqları işğal etmək üçün yenidən hücum əməliyyatlarına başlayacaq. İtirilmiş torpaqları ilə razılaşmayan araukanlar isə demək olar ki, hər gün ispan mövqelərinə hücum edir və oralarda tikilən qalaların tikilməsinə mane olurdular. Lakin bütün bunlara baxmayaraq Alonso döyüşdə sağ qalmış ən bacarıqlı və təcrübəli döyüşçüləri götürüb yenidən Qızıl Kastiliyanın Portobelo limanına yollanır.

Portobeloda o, eşidir ki, ingilis korsarı Frensis Dreyk Qızıl Kastiliyanın limanlarına hücum etməyə hazırlaşır. Müqavimət göstərmək və əməli fəaliyyətə başlamaq üçün Alonso öz komandasının formalaşmasına başlayır. Frensis Dreykə və başqa dəniz quldurlarına qarşı mübarizə aparmaqdan ötrü Espanyola, Kuba və Yamayka adalarından Qızıl Kastiliya sahillərinə 30-a yaxın hərbi gəmi göndərilir.

Alonso bundan sonra, Karib dənizi sahillərindəki vəziyyətin nə qədər ağır olduğunu daha da anlayır. Portobeloda yaşayan mülki əhalinin nə qədər təhlükəli şəraitdə yaşadıqlarını başa düşmək çətin deyildi. Burada fəaliyyət göstərən korsarlar xeyli azğınlaşmış və özlərini bu sularda əsl ağa kimi aparırdılar. Guya ki, bu ərazilər ispanlara yox, onlara məxsusdur. Halbuki hələ 1494-cü ildə Roma papasının bullasına əsasən bu ərazilər, yuridik yol ilə İspaniya imperiyasının tabeliyinə keçmişdi.

Korsarların belə bir şəkildə azğınlaşdığını görən Alonso, ömrünün axırına kimi, son damla qanına qədər dəniz quldurlarına qarşı amansız mübarizə apracağını özünə söz verir. İspan mühacirləri bu qara kabusdan yaxa qurtarmalı idi.

Ümumiyyətlə, korsarların bu regionda dirçəlməsində kral II Filipp birbaşa məsuliyyət daşıyırdı. Avropanın bir necə ölkələri ilə ədavət aparan (xüsusən də protestant olkələrinə qarşı) İspaniyanın monarxı, eyni vaxtda, birdən-birə həmin dövlətlərlə düşmən olmuş, həmin ölkələrin ticarətini blokadaya almaq üçün, imperiyasının limanlarında bir çox gəmiləri ticarət malları ilə birlikdə müsadirə etmişdi. Protestant tacirləri üçün bir çox ticarət bazarlarının qapısı bağlanmış, gəmilərin komandaları isə fəaliyyətsiz qalmışdılır. Onlar başqa qazanc yeri əldə etmək üçün

Avropa qitəsini tərk etmiş və Yeni Dunya sahillərinə üz tutmuşdular.

II Filipp protestant ölkələri üçün əsl təhlükə ocağı sayılırdı. O, Amerika qitəsindən gətirilən qiymətli metalların sayəsinə muzdlu və könüllü əsgərləri maliyyələşdirərək, bir çox düşmənləri ilə müharibə aparırdı. Artıq hamıya gün kimi aydın idi ki, İspaniya monarxı okeanın o tayında yerləşən müstəmləkələrdə olan sərvətlərdən özünün siyasi ambisiyası üçün istifadə edərək, özunu Avropanın diktatoru kimi aparırdı. Protestant ölkələrinin monarxları bircə şeyi yaxşı dərk edirdilər: II Filippə qarşı layiqincə mübarizə aparmaq üçün və onun maliyyə bazasını zəiflətmək üçün, Yeni Dünya sahillərindən və başqa müstəmləkələrindən, qiymətli metallarla və bəzək əşyaları ilə yüklənmiş qalionlardan ibarət olan gəmi karvanlarına hücum edərək, tryumlardakı qənimətləri talan etmək lazım idi. Bunun üçün çoxsylı korsar gəmiləri ispan qalionlarının ovuna çıxaraq, İspaniyanın xəzinəsinə xeyli ziyan vurmağa başladılar. "Məğlubedilməz armada" La-Manş boğazında məğlub olandan sonra dəniz quldurları Yeni Dunya sahillərində daha da aktivləşərək, hətta ispan şəhərlərinə və limanlarına basqın edirdilər. İndi bütün bu bəlalardan yaxa qurtarmaq üçün ispan qalionlarının mühafizəsi xeyli gücləndirilmiş, dəniz quldurlarına qarşı mübarizə aparan gəmilərin sayı

İspaniyadan gətirilən gəmilərin sayəsində, demək olar ki, iki dəfə artırılmışdı. Lakin ispan gəmilərinə basqın edən piratların da sayı xeyli artmış və tərəflər arasında mübarizə total xarakter daşımağa başlamışdı. Okean keçidi zamanı Yeni Dünya sahillərinə köçən və sahil qırağında yaşayan mülki əhali, çox vaxt tərəflər arasındakı mübarizənin qurbanına çevirilirdilər.

Vaxtilə öz ordusunun sayəsində sərbəst halda yaşayan ispan xalqının nümayəndələri, artıq qul bazarında satılaraq, həmin xalqın mənəviyyatının, mənliyinin, qürurunun tapdalanmasına gətirib çıxarırdı. Taleləri sındırılmış, mənəviyyatları alçaldılmış, hüquqları tapdalanmış, fiziki sağlamlıqlarını itirmiş insanların sayəsinə ispan xalqı əsarət altına düşmüş xalqlar sırasına daxil oldu. Bütün bu bəlaların və cinayətlərin əsl səbəbkarları humanist prinsiplərindən, insanlıqdan, adi davranış qaydalarından və mədəniyyətdən uzaq olan korsarlar idi, belə adamların əksəriyyətinə isə Avropada sivil ölkələrdən birinin hakimiyyətində duran I Yelizaveta Tüdor dəstək verirdi. Yalnız belə bir üsul ilə İngiltərənin kraliçası İspaniyanın ticarətini qırır, iqtisadiyyatını zəiflədir, xəzinəsinin doldurulmasına imkan vermir və dəniz donanmasına xeyli ziyan vururdu. II Filippin Avropada apardığı düşünülməmiş siyasəti İspan imperiyasına və xalqına I Yelizaveta kimi təcrübəli, hiyləgər və

amansız düşmənlər qazandırmışdı. Düyündən çıxmaq üçün, dənizdəki hegemonluğu ələ almaq üçün vicdanlı, namuslu və qeyrətli idalqolar və qrandlar korsarlara qarşı mübarizəyə qalxmağa məcbur olurdular. Ürəkləri vətən həsrəti ilə doyünən polkovnik Alonso və Migel Kartahena fərdi üsulda komanda təşkil edəcək və cinayətkarları məhv etməkdən ötrü Amerika sahillərinə yollanacaqlar.

İzahlar

1. Ayyavila, kasik - 1549-cu ildən etibarən ispanlara qarşı geniş hərbi əməliyyatlara başlayan Ayyavila, Andalyen düzənliyində baş verən döyüşdə konkistadorları Pedro Valdiviya başda olmaqla, birdəfəlik məhv etmək istəmişdir, lakin həmin döyüşdə ispanlar tərəfindən öldürülmüşdü. Onun ölümündən sonra Valdiviya Bio-Bio çayından aşağıda Arauko, Puren və Tukapel adlı məntəqələr saldırır.

2. Qomes de Almaqro - Purenin komendantı olmuş ispan zabiti, Valdiviya edam ediləndən sonra çox keçməmiş döyüşlərin birində həlak olur.

3. Vaska de Kastro - XVI əsrin ortalarında Perunun vitse-kralı. Eldoradonun axtarışı ilə yanaşı, Çilidə fəaliyyət göstərmiş konkistadorlarına çox zamanlar öz köməkliyini göstərmişdir.

4. Kaupolikan, kasik - hazırda Çilidə ehtiramla yad edilən hindu rəhbəri. O, konkistadorlarla mübarizədə uşaqdan tutmuş qocaya kimi, bütün Araukaniyanı qaldırmış və ispanların xeyli canlı qüvvəsini döyüşlərdə məhv etmişdi. Kaupolikan əsir alınaraq, hamının gözü qarşısında edam olunmuşdu.

5. Kolokola, kasik - Kaupolikan edam ediləndən sonra o, arakuanların başında durur və 1561-ci ildə araukanların

hamısını üsyana qaldırır. O, ispanların cənuba doğru irəliləyişinin qarşısını hərtərəfli almağa qadir olur və süvari dəstələrin yaradılmasına böyük səy göstərir.

6. Kopiaplar - Çilinin şimalında yaşamış məğrur hindu tayfası. Araukanlar kimi onlar da ispan konkistadorlarına qarşı fədakarcasına mübarizə aparmışdılar.

7. Laytaro, kasik - öz qorxmazlığı və cəsarəti ilə bir çox sələflərindən fərqlənmiş və Çili xalqının sevimlisinə çevirilmişdir. İspan konkistadorlarına qarşı ən kəskin müqavimətə o, başlamaşdır, Tukapeli, Pureni və başqa yaxın məntəqələri yer üzündən silir, Konsepsionu xarabazalığa çevirir, P.Valdiviyanın özünü məhv edərək Çilinin bütün cənub hissəsini işğalçılardan azad etməyə müvəffəq olur. Döyüşlərin birində pusquya düşərək, bütün silahdaşları ilə birlikdə qəhrəmancasına həlak olur.

8. Legon - Roma imperiyasında 6 mindən 10 minə qədər olan qoşun hissəsi.

9. Linkoyan, kasik - başqa hindu rəhbərlərindən fərqli olaraq o, düşmənə qarşı qətiyyətli addımlar atmağa çəkinirmiş. Bundan istifadə edən ispanlar Araukniyadakı hərbi əməliyyatları genişləndirmiş, yüzlərlə araukanların məhvinə gətirib çıxarmışdır. Məhz ondan sonra Linkoyanı hakimiyyətdə Laytaro əvəz edir.

10. Onyes de Loyola - Çilinin general-kapitanı (XVI əsrin yarısında) olmuş, araukanlara qarşı uzunmüddətli mübarizə aparmışdı. 1598-ci ildə Karabala kəndi yaxınlığında araukanlar elə bir sürətli və gözlənilməz hücum edirlər ki, yalnız bir ispan əsgəri arkebuzdan atəş aca bilir. Bütün ispan dəstəsi başda de Loyola olmaqla, məhv edilir.

11. Qusman Qarsia Urtado de Mendosa - XVI əsrin 60-cı illərində Çilidə ispan qoşununun komandanı. Araukanları məğlub etməkdən ötrü qoşun toplamış və Kaupolikanın dəstələrini darmadağın etmişdi.

12. Miçimalonko, araukan kasiki - Pedro Valdiviya Santyaqonun əsasını qoyandan sonra, Miçimalonko bir neçə dəfə şəhəri darmadağın etməyə cəhd etmişdi. Valdiviya Perudan kömək alandan sonra məğrur kasiki açıq döyüşdə məğlub edə bilmişdi.

13. Diyeqo Monroy - P. Valdiviya apardığı müharibə zamanı araukanların ciddi müqavimətinə rast gəlir, əlavə qüvvə olmadan nəinki qələbə əldə edə biləcək, hətta düşmən tərəfindən darmadağın edilərdi. Onun köməkçisi Monroy ispan konkistadorlarını məğlubiyyətdən qurtarmaq üçün çətinliklə də olsa, Perudan əlavə qüvvə gətirir və bununla da müharibədə ispanların xeyrinə dönüş yaradır. Valdiviya axırıncı döyüş zamanı düşmən mühasirəsinə düşəndə, Monroy qəhrəmancasına həlak olur.

14. Plutarx (təx.b.e. 46-130) - Beotiyanın Xeroneya şəhərində yaşamış yunan yazıçısı. Müəllifin yaratdığı böyük əsərlərində bir çox tanınmış yunanın və romalının, kimliyinin, tam təsviri əks olunmuşdur.

15. İnyes Suares - P. Valdiviyanın sevgilisi, ispan cəza dəstələrinə bir neçə dəfə başçılıq etmişdi. Santyaqo mühasirəyə alınanda, şəhəri düşmənin məhvindən, yalnız o, şəxsi bacarığı sayəsində qurtarmışdı. Kasikləri döyüş gedə-gedə edam edilməsinə sərəncam vermişdi. Valdiviya öldürüləndən sonra İnyes Çilidən getməli olmuşdur.

16. Alonso Ersiliya-i-Sunyiqa - ispan ordusunun kapitanı, „Araukana" poemasının müəllifi. P. Valdiviyanın, F. de Villaqronun, Q. Q. Urtado de Mendosanın başçılığı altında Araukaniyada gedən müharibədə yerli hindulara qarşı döyüşmüş və həmin müharibəni bədii əsərdə sənədləşdirərək, araukanların necə yenilməz tayfa və məğlubedilməz döyüşçü olduğunu bütün İspaniyaya çatdırmışdı.

17. Alonso de Reynoso, kapitan - Kaupolikanın əsir alınmasıında şəxsən iştirak etmiş və onun edamına başçılıq etmişdi.

Mündəricat

I hissə: Konkistadorlar qələbə qazansalar da, Araukaniyanı əldə saxlaya bilmirlər

Ön söz…… 4-8
I fəsil. İspan ekspedisiyası Araukaniyada……. 10-35
II fəsil. Köməyə ehtiyacı olan konkistadorlar…….. 36-45
III fəsil. Konkistadorların sürətli hücumu…… 45-58
IV fəsil. Araukanlar döyüş meydanından uzaqlaşmağa çalışırlar……. 58-71
V fəsil. Süvari dəstəsi bu müharibədə həlledici rol oynaya bilər……... 71-86
VI fəsil. Asan olmayan keçid……... 86-94
VII fəsil. Araukanlar ciddi müqavimət göstərirlər... 95-104
VIII fəsil. „Qanlı vadi“…….. 105-111
IX fəsil. Yaralıların müayinəsi……... 112-121
X fəsil. „Qanlı vadi“də şiddətli döyüşlərin başlanması…….. 122-138
XI fəsil. Konkistadorların böyük qələbəsi…….. 138-149
XII fəsil. Verilən itkilərin ayırd edilməsi……... 150-157
XIII fəsil. Müharibədə uğur qazanmaq üçün sonuncu döyüşdə qələbə əldə etmək lazımdır……. 158-173
XIV fəsil. Koro mühasirəyə düşən konkistadorları təslim olmağa çağırır…….. 174-188

XV fəsil. Təbiətin qəzəbi……... 189-194
XVI fəsil. Yaralıların köməyinə yollanan konkistadorlar……. 195-203
XVII fəsil. Pretor Mark Krassın döyüş taktikası araukanlara qarşı tətbiq olunur…….. 204-216
XVIII fəsil. İspanlar nəzərdə tutulan taktikanı həyat keçirirlər……... 216-224

II hissə: Cəhənnəmi xatırladan ölkə

I fəsil. Qalib konkistadorlar……. 226-235
II fəsil. Müzakirələrin aparılması…… 235-244
III fəsil. İspanlar mövqelərini möhkəmlədirlər... 244-250
IV fəsil. İspan nümayəndələri danışıqlara gedirlər……. 250-262
V fəsil. Hər iki tərəfin inadkarlığı……... 262-280
VI fəsil. Danişiqlar uğursuzluqla başa çatır…… 281-299
VII fəsil. Aldanan konkistadorların hücuma məruz qalmaları……. 300-317
VIII fəsil. Kapitan Xuan Odovaldonun və başqalarının öldürülməsi……. 318-336
IX fəsil. Qəzəb içərisində olan konkistadorlar…337-349
öz silahdaşlarının qisasını alırlar……. 350-368
X fəsil. Qalib konkistadorlar düyünə düşürlər... 368-383
XI fəsil. Migel növbəti dəfə təzyiqlərə məruz

qalır……. 384-395
XII fəsil. Konkistadorları düşmən ərazisində taxıl əldə etməsi…….. 396-407
XIII fəsil. Araukaniyaya yeni qüvvənin gətirilməsi……. 408-425
XIV fəsil. Migelin növbəti dəfə ağır vəziyyətə düşməsi…… 425-441
XV fəsil. Konkistadorların növbəti uğuru və onların arasında baş verən iğtişaş……. 441-458
XVI fəsil. Migelin son qərarı XVII fəsil. Migel üçün cəhənnəmi xatırladan Araukaniya……... 458-468
XVIII fəsil. Alonsonun Araukaniyadan müvəqqəti uzaqlaşması……. 469-484
XIX fəsil. Araukanların dirçəlməsi və müvəffəqiyyətli hücumları……. 485-494
XX fəsil. And dağları aborigenlərə arxa durur….. 494-501
XXI fəsil. Əlazsız qalan konkistadorlar Araukaniyadan getməli olurlar……... 501-511
XXII fəsil. Araukan müharibəsinin qısaca tarixi… 511-527
XXIII fəsil. Polkovnik Alonsonun Araukaniyadakı sonuncu hərbi əməliyyatı……. 528-544
XXIV fəsil. Araukaniyadakı qanlı döyüşlər səngisə də, müharibə hələ də başa çatmır…… 544-553
İzahlar……... 554-557

Ramiz Dəniz

Cənnətə gedənlər cəhənnəmə düşürlər

Nəşriyyatın direktoru F. Q. Kərimov

Çapa imzalanmışdır: 23.10. 2014
Formatı: 60 x 84 1/16
Fiziki çap vərəqi: 35
Tiraj: 500

"Nasir" nəşriyyatı

Tel: (050) 314 09 37
(012) 431 11 00